

# Hüseyn İbrahimov

*Ceçilmiş əsərləri*

Az
İ17

Redaktoru: Fəttah Səməd oğlu

İ17 **İbrahimov H.** (seçilmiş əsərləri).
Kitab "Gənclik" nəşriyyatının qrifi ilə çap olunub.
B:, 1998 422 səh.

Hüseyn İbrahimovun adı ədəbi ictimaiyyətə yaxşı tanışdır. Yazıçının Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətləri dövlət başçımızın da diqqətindən yayınmamış və Respublika prezidentinin 1994-cü il 27 iyun tarixli fərmanıyla H. İbrahimov "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Bu yeni kitaba hörmətli yazıçımızın **"Əsrin onda biri"** adlı tarixi romanı və məişət mövzusunda yazdığı hekayələrinnin bir qismi toplanmışdır.

Kitab "Gilan" istehsalat-kommersiya birliyinin vəsaiti ilə nəşr olunmuşdur.

İ $\frac{4702060201}{M653(07)98}$

Az.

ISBN 5-8020-1390-7

©Hüseyn İbrahimov,1998

# Hüseyn İbrahimov

## Seçilmiş əsərləri

"Gənclik" nəşriyyatı
Bakı-1998

H. M. İBRAHİMOVUN " ŞÖHRƏT" ORDENİ İLƏ
TƏLTİF EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
**F Ə R M A N I**

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Hüseyn Məmmədəli oğlu İbrahimov "Şöhrət" ordeni ilə təltif edilsin.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
**HEYDƏR ƏLİYEV**
Bakı şəhəri 27 iyun 1994— cü il.

# Əsrin onda biri



*roman*



## *SARAY DƏBİRİNİN ÖN YAZISI*

*Şahların, padşahların sarayları başqa bir aləmdir. Gərək o saraylara düşəsən ki, görəsən orada nələr olur, nə sirlər gizlənir, hansı mö'cüzələr baş verir.*

*Saraylarda adamlar da müxtəlifdir. Müxtəlifdir xasiyyətlər də, əməllər də. Müxtəlifdir iştahlar da, əxlaqlar da. Bu saraylar görəsən nə vaxt, nədən ötrü peyda olublar əzəl-axır məkanımız Xak üzərində, onlara kim daşıyıb şəffaf-şəffaf Abı, ocaqlarında kim yandırıb qızmar-qızmar Atəşi, kim gətirib onların işıqlı-qaranlıqlı hücrələrinə həzin-gur Badı?.. Bu saraylarda adamlar öz mənliklərini, öz izzəti-nəfslərini itirdikləri kimi adlarını da itirirlər. Birinə hökmdar deyirlər, birinə vəzir; birinə mələkə deyirlər, birinə cariyə; birinə əş-şeyx ər-rəis deyirlər, birinə qazi; birinə münadi deyirlər, birinə nədim; birinə məşşatə deyirlər, birinə kəniz; birinə mühafiz deyirlər, birinə dərban; birinə qulam deyirlər, birinə pərdədar...*

*Məni isə hamı dəbir kimi tanıyır. Neçə illərdi əsl adımı bir dəfə çağıran, bir dəfə dilinə gətirən olmayıb. Az qalır adım öz yadımdan da çıxa, əslini axtarsanız çıxıb da!.. Belədi sarayların işləri, əməlləri əzəli gündən. Mənim işim isə bura düşən gündən hökmdar Nüsrətəddin ibn Şəmsəddinin — Cahan Pəhləvanın əmrlərini, hökmlərini, fərmanlarını tərtib edib yazmaqdır, cüng bağlamaqdır, şəcərə düzəltməkdir... Boş vaxtlarımda sarayda görüb şahidi olduğum hadisələri, orda-burda eşitdiyim xəbərləri, sənətinə həmişə pərəstiş etdiyim Əcəmi ibn Əbubəkrin ara-sıra nəql etdiklərini səliqəylə qələmə alıb bəyaz Səmərqənd kağızından düzəldiyim dəftərlərimə köçürməyə də vaxt tapmışam.*

*Beynimə qan, gözlərimə işıq, qollarıma güc, ürəyimə hərarət verənə həmişə sidq ilə biət etmişəm. Günəş hər dəfə Məşriqdən doğanda da, Məğribdə batanda da ağsaçlı mərhum anamın bir kəlamını təkrar edib demişəm: "Xudaya, büləndi və pəsti tuyi..."* 1

*Ey məndən sonra yer üzünə, bizim bu işıqlı dünyamıza gələcək həmvətənlim, səndən bir ricam var: mənim yazdıqlarımı da sən bir az saf-çürük eləyib, bir az da bəzək-düzək verib özündən sonra gələn nəvələrimizə, nəticələrimizə, kötücələrimizə... çatdır.*

1. Ey allah, göydə də, yerdə də sənsən. (fars.)

# YOLLAR, YOLLAR...

Pəncşənbə günü idi. Səhər yenicə açılırdı.

Tutqun üfüqün boz yanağına təzə-təzə narıncı xal düşür, qədim Həmədanın üzərinə sallanan qatı bulud karvanı şəhərin söykəndiyi Əlvənd dağlarına tərəf sürünür, sonra göy qübbəsinin ətəklərində çin-çin olub bir-birinin üstünə qalanırdı. Məğribin zülmət örpəyi çoxdan pardaxlanmışdı...

Bu vaxt saray e'lanlarını yayan atlı qulamların kobud əsəsləri küçələri ağzına aldı: "Həmədanlılar! Bilin və agah olun ki, mərhum atabəy-ə'zəmdən sonra taxta əyləşən həşəmətli hökmdarımız Cahan Pəhləvan..."

Bir az keçmədi ki, həmədanlılar axışıb böyükdən-kiçiyə kimi şəhərin küçələrinə töküldülər.

...Sarayın əsas darvazası açıldı. .Əyinlərində zireh geyim, başlarında məxfərin,[1] əllərində nizə gəzdirən gözətçi əsgərlər sarayın qala darvazasının sağ-sol cəhəngində quruyub qaldılar. Həyətdən xüsusi qoşun dəstəsinin döyüşçüləri qaça-qaça gəlib divarın dibində sıralandılar. Əyninə qızılla işlənən çuxa geyib başına vəzirlərə məxsus yaşıl mahud parçadan çalma qoyan Sə'dəddin Əsəd boz aygırın üstündə göründü. Hamı pıçıltını kəsib fərağat dayandı.

Elə bu vaxt günəşin ilkin şüaları Güleyn qalasının üstündən aşıb sarayın meydanına səpələndi. Bayraqdarlar elə bil buna bənd idilər. Əvvəlcə bir dəstə döyüşçü tuğları[2] gətirib darvaza ağzında başıaşağı endirdilər. Sonra Azərbaycanın qırmızı Təbriz ipəyindən hazırlanan qılınc nişanlı dövlət bayrağı çıxarıldı. Onun ardınca isə Qatifdən[3] alınmış ağ kürənin üstündə şahanə bir tərzdə əyləşən Cahan Pəhləvan göründü. Eldəgəzlər xanədanının ikinci hakimi başına qızıl sərkərdə tacı qoymuş, belinə daş-qaşlı kəmər bağlamışdı. Əynindəki nadir naxışlarla bəzənmiş geyimi, kəmərindən asılmış qızıl dəstəkli qılıncı təzə hökmdarı daha əzəmətli göstərirdi.

Birdən təbil və gərənay səsləri bir-birinə qarışdı. Sıralanan əsgərlərin qılıncları qınından çıxıb çiyinlərinə söykəndi. İxtiyar vəzir Sə'dəddin Əsəd atını irəli sürüb hökmdarın qənşərində dayandı. Sağ əlini döşünə qoyub başını azacıq sinəsinə endirdi. Təbillər və gərənaylar susdu.

1. Dəmir papaq.
2. At tükündən toxunan xüsusi bayraq.
3. Xüsusi cinsdən olan ərəb atı.

— Sabahınız xeyir, adil və mənsur...

Cahan Pəhləvan sağ əlini yuxarı qaldırdı. Bu o deməkdir ki, danışan deyiləm, sözünü tamamla. Vəzir axşam sarayda Şəmsəddin Eldəgəzdən sonra kimin varis olması məsələsi müzakirə olunanda dediyi sözlərdən bə'zilərini təkrar etməyə başladı:

— Bu gün sübh namazı vaxtı bütün məscidlərdə şə'ninizə xütbə oxunmuşdur. Və hər şey fərmanınızda necə sadiq edilibsə, onun müqabilində də icra olunmuşdur. Şəhərdə sakitlikdir, yollar təhlükəsizdir. Keçidlərdə xüsusi süvari dəstələr keşik çəkirlər. Arxanızca gələcək qoşuna yola düşməsi barədə dediyiniz vaxt əmr veriləcək. Başqa buyruqlarınız da öz iştirakımla yerbəyer icra olunacaqdır. Qafilə yola rəvan ola bilər. Allah-təala səfərinizi uğurlu etsin, adil və mənsur hökmdar!..

Cahan Pəhləvan fikirli idi. Sə'dəddin Əsədin uzun gedəcəyini kəsdirən hökmdar yenə sağ əlini yuxarı qaldırdı və kəskin bir hərəkətlə havanı yardı. Bu, o demək idi ki, bəsdir, kiri...

Vəzir dayandı, boz ayğırın yüyənini sola dartıb hökmdarın qənşərindən çəkildi. Cahan Pəhləvan ağ kürənin yüyənini buraxdı. Sahibinin geyiminə oxşar bər-bəzəkli tərliyin, qızıl qaşlı yəhərin, gümüş üzənginin altındakı kürən irəli atıldı. Sə'dəddin Əsəd atını ağ kürənin dalınca səyirtdi.

Qafilə hərəkətə gəldi.

Hökmdarın dilxorluğuna məliklərin, minbaşıların hərəsi bir mə'na verməyə başladı: "Yəqin atabəy-ə'zəmin qəfil ölümü Pəhləvana bərk yer eləyib...", "Yəqin gürcü çarı Georgi ilə necə yola gedəcəyi barədə götür-qoy edir... Demetre törəməsi bunun çaldığını oynamasa anasını ağlar qoyacaq", "Əlincə ətrafındakı kəndlərdə camaatın vergilərdən boyun qaçırmasını təzə hökmdar, deyəsən, həzm edə bilmir...", "Təbrizi ağsüngərilərin əlindən alıb Eldəgəzlər dövlətinə daxil etməyincə rahat olmayacaq..."

"Dünən əmir-hacib idi, bu gün hökmdar, görəsən, daha nəyi çatmır?..", "Bəlkə yavaş-yavaş itib gedən cavanlığına heyfsilənirdi? Axı şahlar, rəyasət sahibləri qocalıqdan qorxan kimi heç nədən qorxmurlar..."

Cahan Pəhləvanın isə bütün fikri-zikri Naxçıvanda idi. İstirahət etmək üçün ağ kürənin belindən düşüb bər-bəzəkli, rahat taxt-rəvana keçəndən sonra da düşünürdü: "Görəsən, atabəy-ə'zəmdən sonra şəhər əhlinin, saray ərkanının əhvali-ruhiyyəsi necədir?.. Görəsən, inad-

kar naxçıvanlılar mənim varisliyimə necə baxacaqlar?.. Payitəxti Naxçıvandan Həmədana köçürmək təklifim e'tiraza səbəb olmayacaq ki?.. O ki, qaldı Mö'minə xatun anaya sərdabə tikdirməyə..."

Bəlkə də axşam Sə'dəddin Əsəd "Adil və mənsur hökmdarımız Cahan Pəhləvan Eldəgəzə ərz edim ki, aldığımız mə'lumata əsasən Naxçıvan əhli Eldəgəzlər xanədanının ikinci hökmdarının yolunu səbirsizliklə gözləyir. Hamı intizar içərisindədir. Naxçıvan əhli onunla fəxr edir ki, Eldəgəzlər sülaləsi hakimiyyəti ilkin olaraq onların şəhərində ələ keçirib. Və bu hakimiyyəti atabəy-ə'zəmin vəfatından sonra onun ilkin varisi və bəni-Eldəgəzlərin ən nüfuzlu şəxsiyyəti öz əlinə alıbdır..." deməsəydi Cahan Pəhləvanın sərt sifəti bütün yol boyu açılan deyildi.

Birdən qarşıdan Fərivar bağları, Nəvvar çəmənliyi göründü, sonra Qasımabad düzənliyi qarşıda arranlıların halal süfrəsi kimi geniş açıldı. Onu yola salan vəzirə, yaxın məliklərə qayıtmalarını işarə elədi. Vəzir və məliklər də halallaşıb, sağollaşıb atlarını geriyə çapdılar.

Bu vaxt qafilə yol ayrıcına çatmışdı. Bu yolların biri Təbrizə, biri Urmiyaya, biri də Naxçıvana gedirdi. Uzaqda isə zirvəsi buludlara söykənən Savalan görünürdü. Hökmdar "Atabəy rəbatı"[1]nın salındığı meşəliyə, ova çıxdığı yaylalara baxanda gənclik günlərinin buralarda keçən ən xoş çağlarını yadına saldı. Ağ kürənin yüyənini çəkib dayandı, yəhərdən dikəlib yollara baxdı, əlini alnına qoyub arxaya göz gəzdirdi.

Qafilədən xeyli aralıda gələn qoşunun qaldırdığı toz lay-lay olub göyə dirənmişdi. Atabəylər xanədanının mühafizəsini çəkən xüsusi süvari hissələri, onlardan arxada ehtiyat dava ləvazimatı — ox, nizə, şeşpər, kaman, qılınc, dəmir kərpic yüklənmiş qatır və dəvələr, ərusək və mancəniq gətirən arabalar tənbəl-tənbəl irəliləyirdi.

Gün keçdi, həftə ötdü...

Qafilə Urmiya gölünün sahilinə çatdı. Hökmdar Naxçıvandan gəlib Təbrizə gedən yola diqqətlə baxdı, həm sevindi, həm də kədərləndi: "Eh, yollar, yollar!..."

Cahan Pəhləvan bu ara atasını xatırlamışdı. Axı bu həmin yollar idi ki, atası bir zaman onları qul kimi getmişdi, indi isə özü həmin yollara bir hökmdar kimi qayıdırdı. Belə vaxtlarda səfərə çıxanda atabəy-ə'zəmin haçansa ona danışdığı bir əhvalatı xatırladı...

İndi də xatırlardı:

...Yaşına görə çox cəld hərəkətlər edən çalsaqqal qulsatan dedi:

1. Yay istirahət yeri.

— Buyurun, cənab. Mən də qaydanı pozmayaraq qırxıncı qulu sizə müftə bağışlayıram. Amma bircə şey var ki, aldığınız otuz doqquz qulun hamısı bərkə-boşa düşmüş, hər cür əzab-əziyyətə öyrənmiş məxluqdu. Adam demirəm, çünki mal kimi işləkdilər, at kimi yüyrək... Amma bu qırxıncı hamısından cavandı, özü də xalis od parçasıdı. Dəyirmanın boğazına ölü salın, novdandan diri çıxsın...

Qulalan qulsatanın tə'riflədiyi oğlana diqqətlə baxdı. Onun qarşısında gödəkboy, sifətdən çirkin, iri burun, qalın dodaqları olan bir cavan dayanmışdı. Ancaq onun günəşdən qaralmış gümrah bədəni, yekə əlləri, ətli çiyinləri, enli sinəsi qulalanın nəzərindən qaçmadı. Oğlanın gözləri də çox diri idi, elə bil od tutub yanırdı. Baxışları da iti idi, qılınc kimi kəsirdi.

Qulalan niyəsə soruşdu:

— Hansı qəbilədənsən?

— Eldəgəzlərdən.

— Bu necə qəbilə adıdı?

— Ata-babadan peşəmiz bu yurdda, o yurdda, bu eldə, o eldə gəzməkdi ürbanlar[1] kimi...

— Bəs ismin nədi?

— Şəmsəddin...

...Havalar isti olduğu üçün karvan gündüz dincəlir, gecələr ay işığında yol gedirdi.

Neçə illərdi qul alveri ilə məşğul olan karvan sahibi, ucu-bucağı görünməyən qum səhrası ilə üfüqün birləşdiyi yerdə sübh şəfəqinin ilk işartısını görən kimi, əyləşdiyi arvanan ın üstündəki kəcavənin balaca pərdəsini qaldırdı, birinci dəvənin ovsarını çəkən cavan sarbana karvanı dayandırmağı əmr etdi:

— Ey şütürban,[2] karvanı dayandır!

(Cavan sarban karvan sahibinə düşmənçilik edən bir İran tacirilə adaş olduğu üçün onu adı ilə çağırmazdı).

Karvan dayandı. Narın, ayaq altından balıq kimi sivişib çıxan qumların yorub əldən saldığı dilsiz-ağızsız qullar yorğun ayaqlarını zorla sürüyüb bir yerə toplaşdılar, çiyin-çiyinə verib karvan sahibinin üzünə baxdılar. Bu nisgilli, nakam və müti baxışlarda insan ləyaqətinin qəsdinə duran müəmmalı əndişənin cizgilərin karvan sahibi çox görmüşdü. O, bu dəfə də bu baxışların fərqinə varmadan köməkçisinə

1. Köçəri ərəblər.
2. Dəvəçi.

ağızucu dedi:

— Onlara səhər yeməyi ver, amma suya qənaət elə... Deyəsən, hava bu gün daha isti keçəcək... Allahın qəzəbinə gəlməsək yaxşıdı, hər tərəf zəbanə çəkib sir-sifətimizə od-alov püskürür... Dəvələrə navala[1] vermək də yaddan çıxmasın!..

Köməkçi karvan sahibinin son sözlərinə əhəmiyyət vermədən dəvələri bir-bir hıxladı. Dəvələrin üstündəki yükləri qullardan bir-ikisinin köməyilə yerə endirdi və işarə elədi ki, qalan yükləri də boşaltsınlar, sonra yemək almaq üçün sıraya dayansınlar. Qullar tapşırığı icra edib, bir-birini itələyə-itələyə növbəyə düzüldülər.

— Adam kimi aparın özünüzü! Yoxsa sahibkar qəzəblənib hamınızı səhər yeməyindən məhrum edər. Bütün günü heç birinizə bir üskük su da verməz. — Köməkçi səsini alçaldıb əlavə etdi: — Tanımırsız bu qoca kaftarı?.. Əzazilin biridi... Bir də. sizdə adamlıq qalıb?.. Hardan da qalsın, ay zavallılar! Siz, yaxud çölün dilsiz-ağızsız heyvanı... İldə bir bazarda qoyun-keçi qiymətinə satılan, bir nadürüstün əlindən başqa nadürüstün əlinə keçən sürüdə adamlıq nə gəzir! — Köməkçi gah onların xeyrinə, gah bədinə donquldana-donquldana, özü dediyi kimi, "tula payını" bir-bir payladı. Biri əlində qalanda ucadan qışqırdı: — Almayan kimdi?.. Soruşuram: kim yemək almadı?.. — Heç kimdən səs çıxmadı. Əlacsız qalıb, gecədən azacıq sərinləyən, qumların üstünə sərələnib "tula payını" yeyən qulları saydı: — Bir, iki, üç... beş... on... otuz doqquz..."

Bir də saydı, sağdan sola, soldan sağa bir də hesabladı. Kimsə yox idi. Birdən yadına düşdü. Karvan sahibi soruşanda adını öyrəndiyi Şəmsəddin qulların içində görünmürdü. Tez kəcavəyə tərəf qaçdı:

— Ya sahibkar! — deyə tövşüyə-tövşüyə mə'lumat verdi: — Qullardan biri çatmır. Yəqin axşam yola düşəndə yatıb yuxuya qalıb... Karvan sahibi üz-gözünü turşudub qeyzlə dedi:

— Bəs sən axmaq harda idin?.. Naxırçının borcudu ki, malı səhər örüşə çıxaranda da saysın, axşam kövşəndən qayıdanda da. Səninsə gecələr...

Köməkçi karvan sahibinin deyəcəyi ədəbsiz söyüşü eşitməmək üçün tez qabağa düşüb izahat verdi:

— Ya sahibkar, yoxa çıxan qul, sizə müftə bağışlanandı. Eldəgəzlər tayfasından olan, qəhvə ağacına bənzəyən o heyvərə...

Karvan sahibi bir az sakitləşdi, sürünün axsağını itirən çoban ki-

1. Undan hazırlanan küt.

mi köks ötürdü.

— Cəhənnəmə ki! — dedi. — İt oğlu lap ayı balasına oxşayırdı. Savalan ayısına. Atalar deyib, ucuz ətin şorbası olmaz... Görünür, tacir Seyfəddin ibn Mənsurun özü də ondan bezmişdi, yoxsa onu mənə müftə bağışlamazdı... Karvan sahibi süfrəsini qatlayıb bükdü, əllərinin yağını çuxasının ətəyinə sildi, yanındakı kuzədən su süzüb içdi. — Hə, daha bəsdir, qaldır karvanı, hava hələ sərindi, gün günorta yerinə qalxana kimi yol getmək olar. Urmiyanı keçək, bir də dinclik verərik onlara. Yoxsa o uzundrazdan gözüm su içmir, həmişə dala qalır. Birdən istiyə düşüb ölər, mayam batar. Becit tərpən, cəld ol!.. Şəmsəddin idi, Fəxrəddin idi, nəydi, ona qadiri-mütəal[1] rəhmət eləsin. Düzdü, qula rəhmət düşmür, amma hər halda cavan idi, bəni-Adəm idi. Dörd ayaqlı ki deyildi... Gərək itməyəydi, onsuz da yolu yarı eləmişik, Həmədandan çıxandan dörd mənzil gəlmişik...

Karvan sahibi danışa-danışa arvananın üstündəki kəcavədə yerini rahatladı. Köməkçi daha heç nə soruşmadı. Bu, o demək idi ki, yola varid olmaq vaxtıdı.

Bir azdan sonra nərin boynundan asılmış kələng zəngi səsləndi. Karvan yenidən öz yoluna rəvan oldu. Qarşıda isə sonu görünməyən qum dəryası, bu dəryanın üstündən keçən dəvələrin ləpirləri, yalın insan ayağının izləri...

Yollar, yollar...

Ancaq qaş qaralana yaxın uzaq qumsallıqda kiçik bir kölgə göründü. Onların hamısını heyrət götürdü. Cavan sarban nərin ovsarını çəkdi. Karvan dayndı. Gələn Şəmsəddin idi. Qulsatanın sözü karvan sahibinin yadına düşdü: "Dəyirmanın boğazına ölü sal, novdandan diri çıxsın..."

Uzun yol gəlib yorğun düşən, gecələr narahat yatdığı üçün əsəbliyi bir az da artan karvan sahibi karvanı qumlu səhralardan keçirib, birbaşa hündür tağlı Suquləbr[2] bazarına sürdürdü. Köməkçi dəvələri hasar boyu cərgələnən xurma ağaclarının altında hıxladı. Karvan sahibi yükləri boşaltmağı köməkçisinə əmr etdi. Ağlı kəsəndən qul və mal alverilə məşğul olan karvan sahibi Naxçıvandan Bağdada heç vaxt yalnız "adam alıb satmaq" üçün ayaq basmamışdı. O, Naxçıvan sənətkarlarının hazırladıqları mallardan, Gəncənin, Təbrizin, Beyləqanın, Xorasanın, Şəkinin, Şamaxının natifindən, ipəyindən, xalçasından, yun

1. Allah.
2. Bağdadda qul bazarı.

parçasından geri qalmayan mallardan dəfələrlə dəvə yükləri tutmuş, uzun-uzun yollar keçib gələrək böyük mənfəət götürmüşdü. Naxçıvan ustalarının mahir əllərilə toxunan xalçalar, parçalar, qaytan mə'mulatları isə Bağdad bazarlarında özünə daha çox müştəri tapmışdı. Ancaq bu dəfə Suquləbrdəki ilk müştərisi məşhur vəzir Əbuhamid oldu. Vəzir karvan sahibinin gətirdiyi qulları özü bir-bir yoxladı, kimin əlindən nə gəldiyini, nəyə qabil olduğunu öyrəndi və pulunu sayıb hamısını götürdü, təkcə "qəhvə ağacına" oxşayan Şəmsəddindən başqa..

Karvan sahibi dedi:

— Möhtərəm Abuhamid, bu qulu Həmədanda mənə müftə bağışlayıblar, mən də onu sizə müftə verirəm. Götürün, peşiman olmazsınız. — Bir az fikrə gedib əlavə etdi: — Mən də əvvəlcə siz olan fikirdə idim, amma bu ki karvandan ayrı düşəndən sonra, qumlu səhralarda gecə üç mənzili tək-tənha qət edib özünü bizə çatdırdı, onun barəsində fikrimi tamam dəyişdim. Buradan qayıdanda Təbrizə səfərim olmasydı, onu heç sizə bağışlamazdım, özüm saxlardım... Gərəkli cavana oxşayır, qul olanda nə olar... İnsan südü əmib... bəni-Adəmdi...

— Cənab tacir, dil tökməyin, mənə iqtalarımı[1] becərən möhkəm əllər lazımdı, uşaq-muşaq nəyimə gərək? Səfərim var Təbrizə?.. Yaxşı yol. Bunu da ötür getsin dilənsin, yolçuluq eləsin...

"Dilənsin", "yolçuluq eləsin" sözləri cavan qulun qəlbinə dəydi, ürəyinə toxundu. Axı o vəba xəstəliyinə tutulan igid atasını, mehriban anasını vaxtsız itirəndən sonra min əzab-əziyyətə qatlaşıb bir parça çörək qazanmışdı. Ac, susuz, çılpaq qalan günləri də olmuşdu, yayda küçələrdə, qışda zirzəmilərdə yatan vaxtları da. Ancaq heç kimə əl açıb "kömək edin" deməmişdi. O, Əbuhamidə yaxınlaşdı, bic-bic baxıb, bic-bic də yalvardı:

— Cənab, allah eləməsin mən yolçuluq edəm! Lilləhil — Həmid[2], iki əlim,iki ayağım, iki gözüm... Məni də alın, səhərdən axşama qul kimi işlərəm sizə, — dedi- mən dilənə bilmərəm, heç kimə əl aça bilmərəm. — Qəhərləndi, ancaq özünü tez ələ aldı: — Qulluğunuzda duraram qul kimi... Başımı da istəsəniz əsirgəmərəm sizə... Mən öz əllərimlə qazandığımı yemək istəyirəm!

Əbuhamidin çiyinləri silkələndi, istehza ilə gülümsədi, gələ-götür oğlanın sözlərini təkrar etdi:

— Qul kimi, qul kimi... Bəs, qul deyilsən, nəsən? Yoxsa əmr, vəzir, xəlifə olmaq keçir könlündən, küçük?..

1. Torpaq sahəsi.
2. Allaha şükür.

Şəmsəddin vəzirin qarşısında dik dayanıb cavab gözlədi. Gözlədi ki, vəzir bircə kəlmə xoş söz desin.

Axı kasıbların, məzlumların taleyi həmişə bircə kəlmədən asılı olub, hakimlərin ya bəd, ya xoş niyyətlə dedikləri həmin bircə kəlmə yer üzünə artıq məxluq kimi gələnlərin yaşamaq, yaxud yaşatmaq məsələsini həll edib...

Vəzirin fikrə getdiyini görən karvan sahibi əyilib onun qulağına pıçıldadı:

— Cavandı, yazıqdı... Rəhmə gəlin!

Vəzir bu dəfə cavan qula birdə diqqətlə baxdı. Şəmsəddin onun baxışlarındakı rəhm cizgilərini görən kimi sındı, yumşaldı:

— La yəci'u minəl-məlihi illəl-məlih[1] — dedi.

Cavan qulun ağıllı sözləri bu dəfə vəzirin qəlbində azacıq da olsa rəhm qığılcımı közərtdi. Nəhayət, başını tərpədib razılıq verdi. Cavan qulun iri qara gözlərində ümid işığı yandı...

Günlər ötdü, həftələr dolandı, aylar illərə qovuşdu. Kələ-kötür oğlan böyüdü, kərləndi, mənzildən-mənzilə köçdü... Ancaq qul kimi yox, sahibkarın hörmətini, e'timadını qazanan bir adam kimi. İşgüzarlığına, qabiliyyətinə, cəldliyinə, ağlına, zəkasına, kamalına görə vəzirin sevimlisi oldu.

Bir gün Əbuhamidə qəsd etdilər. Şəmsəddin vəzirin mal-dövləti ilə birlikdə sultan Mahmudun ixtiyarına keçdi. Sarayda böyük hörmət qazanan Şəmsəddini sultan Mahmud dünyadan köçəndə oğlu ikinci Toğrula tapşırdı. Təzə sultanın uşaqları at minməyi, ox atmağı, qılınc vurmağı ondan öyrəndilər. Bir gün də gəldi ki, Toğrul bu dünyadan köçməli oldu. Onun yerinə keçən sultan Məs'ud isə Şəmsəddinə yeni bir qayğı göstərdi:

— Bilirsən nə var, dostum? — dedi — İllər yaman tez gəlib gedir. Fikir verirəm, görürəm ki, saraya, sultanlara xidmət etməkdən başqa səni ayrı qayğı düşündürmür. Amma sənə ev-eşik lazımdı. Nə vaxta qədər tək-tənha yaşayacaqsan? Gəl səni evləndirim... Mən istəyirəm ki, Toğrulun dul övrəti Mö'minə xatunu alasan. Mən bu ümiddəyəm ki, onun özü də buna e'tiraz eləməz... Dul olmasına baxma, ləyaqətli, qabil övrətdi.

...Şəmsəddin Arrana əmir tə'yin olundu.

Arranda dünyaya göz açan ilk övladlarını Nüsrətəddin çağırdılar.

1. Yaxşı adam yaxşı da iş görər. (Ərəb)

Ancaq nə ananın, nə də atanın ağlına belə gəlməzdi ki, bu gümrah və şıltaq oğlan uşağı gələcəkdə böyüyəndə atasından da çox-çox irəli gedəcək, sərtliyi və cəsarətilə hamıdan fərqlənəcək, Azərbaycanda Atabəylər dövlətinin məşhur hökmdarı Məhəmməd Cahan Pəhləvan kimi ad-san çıxaracaq...

Cahan Pəhləvan atasının bir vaxt söylədiyi bu xatirələri yenə yadına salmışdı, əslində, bunu onun yadına qarşıda uzanıb bir-birini kəsən yollar salmışdı — ibtidası, intəhası bəlli olmayan yollar...

## XUFDƏN SÖHBƏTİ

Naxçıvan şəhərinin rəisi içəri girəndə baş şeyx Hatib ibn Mübarək başdan-ayağa xalı döşənmiş otağın ortasında əyləşib, qarşısındakı rəhilin[1] üstünə qoyulan qalın kitabın növbəti vərəqini əlfəcinlə çevirdi, onu öpüb gözlərinin üstünə qoydu, sonra öz-özünə "Əşhədü ənna lailahə illəlah, əşədü ənna Mühəmmədən rəsul allah" deyib pıçıldadı. O, rəisə özünü elə göstərmək istədi ki, guya Qur'an oxuyur. Əslində isə rəhilin üstündəki "Vis və Ramin"[2] idi.

Rəis başını tərpədib salamlaşdı, baş şeyx mane olmasın deyə ehtiyatla keçib yuxarı başda, pəncərənin önünə qoyulan və üstünə kiçik güllü xalça salınan dibacədə[3] əyləşdi.

Baş şeyx də salavat çevirib, yerdən qalxdı və başqa dibacada rəislə üz-üzə oturdu:

— Demək biz belə anlayaq ki, sən biz deyəni eləmədin! — dedi və cübbəsinin[4] cibindən şəvə kimi qara saddanəsini[5] çıxarıb asta-asta çevirməyə başladı.

Rəis çox soyuqqanlı cavabverdi:

— İxtiyar sahibisiniz, necə anlayırsınız, eləcə də anlayın...

Hatib ibn Mübarək alındı, fikirləşdi: "Görəsən ilkin kimin yox ağlına gəlib ki, rəisliyi bu bivecə e'tibar edək?... Bu qəvvad ki balıq kimi soyuqqanlıdı, dostluğu ilə düşmənçiliyini ayırd etmək olmur. İlandı deyim, əqrəbdi deyim? Zəhəri bilmirsən dişinin altındadı, yoxsa quyruğunda... İstədiyi vaxt sancır, istəməsə heç yadına düşmür ki, zəhəri var..."

1. Kitab üçün altlıq
2. Fəxri Gürganinin əsəri
3. Kiçik divan
4. Yaşlı kişi geyimi.
5. Yüz dənəli təsbeh.

Baş şeyx: — Bərəkəllah! — deyib, nəhayət, dilləndi: — Bilirsən Qureyşi[1] aqilləri burada nə deyiblər? — Hatib ibn Mübarək sualına elə oradaca özü də cavab verdi: — Deyirlər: "Həl yurtəca matar bilə si-hab..."[2] Biz dedik havaya bulud gətirək, sonra da yağış yağsın... Sənsə nə buluda məhəl qoydun, nə də istədin ki, yağış yağsın... Sənə ilk gündən apaşkar bəyandı ki, mən oxunu atıb, kamanını gizlədən ovçulardan deyiləm. Hatibin oxu da, kamanı da, üstəlik, sadağı[3] da aşkardadır, göz qabağındadır. Daha özün bilirsən bundan sonra, qohum! — Səddanəsini sol ovcunun içərisinə yığdı.

— Nə yatdıq ki, nə də yuxu görək?... Həmədan gündə bir çapar göndərdi... Hər çapar da on-on sifariş, tapşırıq gətirdi... Pəhləvan da göz açmağa macal verdi ki?..

— Bəs sən nə fikirdəydin? — Hatib ibn Mübarək oturduğu dibaçədə yanını dəyişdi. — Gözləyirdin ki, Pəhləvan əlavə bir çapar da göndərsin? Sifariş eləsin ki, bizdən oralara gələn olmadı, buyur, sən özün sahib ol təxti-taca?..

Baş şeyx bu dəfə kinayə ilə gülümsədi, həmsöhbətinə açıq-aşkar rişxənd elədi.

Rəis başını qaldırıb diqqətlə ona baxdı. Göy gözlərində, dəyirmi və qarabuğdayı sifətində tez-tez min bir biclik peyda olan və bunu öz həmsöhbətindən məharətlə gizləməyi bacaran Hatib ibn Mübarəki elə bil birinci dəfəydi ki, görürdü.

Ev sahibi rəisin dinmədiyini görüb yenə oyalandı:

— Sən mənim buyurduqlarıma məhəl qoysaydın, Şərur məlikini öz tərəfinə çəksəydin, hər halda, öz nəfinə bir iş icra etmiş olardın... Bütün xanədana mə'lumdur və saray ərkanına agahdır ki, məlik Oğuzla Pəhləvanın hələ cavan vaxtlarından araları sərindi... Yaxud sən bir him-cim eləsəydin, mən Bağdada gedib əmirəlmö'minin əl-Müstədinin özü ilə danışardım, yolüstü hələ sultan Toğrulla da dilləşə bilərdim...

— Bunlardan heç nə hasil olmazdı. — Rəis, Hatib ibn Mübarəkin az qala ağzının üstündən vurdu. — Təzə hökmdarı xəlifənin özü də çox yaxşı tanıyır... Dabbaxda gönünə bələddi. Deyirlər atabəy-ə'zəmin[4] hələ üçü çıxmamış xilafət elçisinə deyib ki, xəlifəyə deyin dövlət işlərinə qarışmasın. Qoy gündə üç dəfə namazını qılsın, bir də-

1. Ərəb tayfası. Məhəmməd peyğəmbər bu tayfadandır.
2, Bulud olmasa yağış yağmaz. (Ərəb)
3. Ox qoyulan qab.
4. Şəmsəddin Eldəgəz.

fə də allaha şükür eləsin. Çünki Məhəmməd peyğəmbərin öz xəlifələrinə vəsiyyəti belədi. Xəlifə isə sələfin buyurduqlarını icra etməyə borcludur.

Baş şeyx səddanəsini ovcunun içərisində bir yerə yığandan sonra cibinə qoydu.

— Əvvəl, Pəhləvan dünən-bir, bu gün-iki, elə cür'əti, daha doğrusu, elə qələti edə bilməz. Saniyən, ərz edim bil ki, din dövlət işinə qarışmasa, dövlət qılıncının kəsəri olmaz. Ona görə ki, sonradan yaranan və dövlətin əlinə verilən bütün qılınclar İslamın qılıncının davamıdır. O ki, qaldı xəlifə əl-Müstədinə, allahın yer üzündə elçisidir, onun nəzarətçisi və vəkilidir.

— Bu sözləri çox eşitmişik.

— Sözümü kəsmə! — Baş şeyx səddanəsini yenə cübbəsinin cibindən çıxarıb hirslə çevirməyə başladı. — Şahların, padşahların allahdan, xılafətdən qorxusu olmasa qan su yerinə axar, bütün məmləkət dönüb olar eyş-işrət məclisi, föş[1] ayaq tutub yeriyər. O ki, qaldı Pəhləvanın düşündüklərinə... Səhvdir, tamamilə səhvdir!

— Xəlifənin özü Cahan Pəhləvandan ehtiyat etsə necə?..

Hatib İbn Mübarək birdən cavab verməyib fikrə getdi.

Sonra diqqətlə rəisə baxdı. Baş şeyxə də elə gəldi ki, çoxdan tanıdığı, qapısını öz evinin qapısı kimi istədiyi vaxt açıb-örtdüyü rəisi birinci dəfədi ki, görür. Neçə-neçə il bundan əvvəl Diyarbəkrdə tacir dostunun qızı Nəsrin xatuna "dalı ağır kişi" kimi təqdim etdiyi bu heyvərənin əvvəlcə ölü qoyun gözlərinə oxşayan gözlərinə baxdı, sonra onun ortası seyrək, ucları xeyli qalın qara bığına, azacıq sağa meyl edən iri burnuna nəzər yetirdi. Və ürəyində dönə-dönə heyfsiləndi ki, belə bir vücud bir qayda olaraq qatlamaburun uzunboğaz süvari çəkməsi geyir? Əynində də həmişə qızılı baftalı bəhli çuxası, sərmə boğazlı, ağ yaxalıqlı atlas köynəyi... Hələ üstəlik belinə də mavi mina və qiymətli daşlarla naxışlanan xəncər bağlayır? Bəh-bəh!..

Baş şeyxin içindən bir səs gəldi: "Sən o xəncərə dəyərsən? Bir dəfə kişilik edib onu qınından çıxaran vaxtın olub, ay həyvərə? Haram olsun sənə bu geyim-keçim də, canlara dəyən o cavanəzən Nəsrin xatun da!.."

— Xəlifə heç kimdən ehtiyat etmir, bircə başı üstdəki böyük allahdan başqa...

— Edir, inan ki, edir! — Rəis fikrini qəti bildirdi.

1. Fahişəlik.

— İnanmıram... Siyasətdi.

— Siyasətə qalsa heç kim Cahan Pəhləvana badalaq gələ bilməz.

— Niyə?

— Ona görə ki, Şəmsəddin Eldəgəz kimi siyasətcil bir kişinin belindən gəlib, Mö'münə xatun kimi çoxbilmiş, ağıllı bir övrətin döşlərindən süd əmib... onun igidliyi də, siyasətcilliyi də vergidi... Allah vergisi!..

— İnanmıram!

— İnan! Bütün məliklər atabəy-ə'zəm hələ ölüm yatağında olanda Cahan Pəhləvana əl çalırdılar.

— Şərur məliki Oğuz çoxdandır ki, onun qanına yerikləyir.

— Oğuz da olsa belə özünü yandırmaz.

— Xilafətə, xəlifəyə arxalansa necə? — Hatib ibn Mübarək yenə əvvəlki söhbətinə qayıtdı.

— Sən məni məcbur edirsən ki, xilafət barədə bir tutarlı söz deyəm, eləmi? — Rəis gözlərin qıyıb diqqətlə baş şeyxə baxdı. — Buyur, bu da mənim fikrim: bunların hamısına bais elə xilafətdi, təqsir elə xəlifənin özündədir!.. Sənin dediyin əmirəlmö'minin başı qarışıb eyş-işrətə, səhər namazını bir cariyəsinin sinəsindəə qılır, günorta namazını bir cariyəsinin göbəyində, xufdən namazını da...

Hatib ibn Mübarək rəisi uzun gedəcəyini görüb qabağını kəsmək istədi:

— Haşa səndən!

— Özünü niyə demirsən, ey qüdsi-barigah[1] — Bu dəfə rəisin səsində açıq-aşkar kinayə var idi. — İki günün biri Becanlı məhəlləsindəki mehrabda[2] nə edirsən? Başqa məhəllədə mehrab yoxdur, cənab əş-şeyx ər-rəis?[3]

Hatib ibn Mübarək hirslənib özündən çıxmaq istədi. İstədi deyə: "Ay arxası üzündən qırmızı, güdükçülərinə, qulaqçılarına, onların başçıları heyvərə Həsənə de, məni güdməkdənsə, Nəsrin xatunun oynaşlarını güdsünlər", ancaq deyə bilmədi, çünki bildirdi ki, şəhər rəisinin bir e'tibarsız damarı var və o damarına düşsə hulqumunu tamam yadından çıxaracaq, ağlına gələni, ağına-bozuna baxmadan, yumaq kimi çözələyib tökəcək eşiyə. Bu sözbaz, milçəyi qaldırıb altından fil çıxaran şəhərin camaatına, ələlxüsus, qeybət üçün zülü gedən övrətlərinə də rəisin ağzından qaçırdığı hədyan-hədyan sözlər lazımdı... Lazımdı

2. Bizim şeyx.

3̇. Məhəllədəki balaca məscid.

3. Baş şeyx.

ki, İran saqqızı kimi səhər-axşam çeynəsinlər...

Baş şeyx nə fikirləşdisə dinmədi, ayağa qalxdı, şəvə kimi qara səddanəsini cübbəsinin cibinə qoyub içəri otağa keçdi və əlində, üstünə mavi mina çəkilmiş balaca kuzə ilə qayıtdı. Kuzənin otağın baş tərəfindəki dəyirmi mizin üstünə qoydu, yenə həmin otağa qayıtdı. Bu dəfə üstünə ağ mina çəkilmiş iki balaca piyvlə gətirdi, hər ikisinə şərbət süzdü və rəisi indi yuxarı başa keçməyə də'vət etdi.

— Yaxın otur... gözünü elə döymə... Şərab deyil, nanə şərbətidi. Nahardan qabaq içmək faydalıdı. Adamı iştaha gətirir, — Hatib ibn Mübarək nanə və şərbət barədə əlavə izahat versə də, rəis onun bir sözünü özünə qaytarıb dedi:

— Sizin iştəhanız onsuz da yaxşıdır...

Baş şeyx dinmədi. Rəisin gözləri, dediyi ikibaşlı sözlərin ev sahibinə necə tə'sir etdiyini bilmək qəsdilə xeyli müddət onun sifətində qaldı. Sonra dibaçədən durub dəyirmi mizin yanındakı kətillərdən birində oturdu və oturan kimi də piyaləni götürüb şərbəti içdi.

— İkibaşlı danışma mənnən! — Hatib ibn Mübarək özü də kətilə əyləşəndən sonra rəisə irad tutdu. — Mən sənin üçün təlaş keçirirəm, yoxsa... Eldəgəzlər xanədanının mənə nə istisi, nə də soyuğu... Beş barmağın kimi bilirsən ki, mən arxamı hara səykəmişəm...

Rəis dərhal bildi ki, başını qaldırıb otağın tavanına baxan Hatib ibn Mübarək hara işarə edir... Söhbətinin yönünü dəyişmək istədi. Hatib ibn Mübarək isə bu arada kuzədən onun piyaləsinə şərbət süzdü.

— Zəhmət çəkməyin. — Rəis o tərəf-bu tərəfə boylandı. — Bəs hanı qızlar?..

— Dəryanır ibadətə gedib... məsciddədi. Elə özüm də hazırlaşırdım gedəm.

Hatib ibn Mübarək bununla da şəhər rəisinə anlatmaq istədi ki, nə yemək olacaq, nə də sənin xidmətində duran... Nanə şərbətindən bir-iki piyalə iç və izalə ol başımdan.

Rəis əl çəkmədi.

— Bəs cariyə qız? — deyə yenə soruşdu.

Nadürüstün qızı dəli keçi kimidi, bir yerdə qərar tutur ki... Gedib "Qızlar bulağına" paltar suya çəkməyə. Gəlib çıxmır ki, çıxmır. Bağladın qapıma, nə qova bilirəm nə də...

— Niyə, yaxşı canandı Zəhra! — Rəis onun sözünü kəsib göz vurdu. — Gözəl elə gərək ağbədən ola? Bu da qara gözəldi. Cibdə həmişə qara kişmiş gəzdirirlər...

— Başına dəysin onun gözəlliyi! — Hatib ibn Mübarək öz kənizinin qarasınca deyinib qarğış eləməyə də vaxt tapdı və birdən nə fikirləşdisə əvvəlinci söhbətinə qayıtdı: — Sənin danışığından biz belə qanaq ki, Pəhləvan sabah buyurur?..

— Bəli.

— Harda qarşılamaq niyyətindəsən?

— İki yerdə: Bir Arazı keçən yerdə, bir də şəhərə varid olan yerdə... Şahab meydanında.

— Mübarək olsun... — Baş şeyxin səsində bu dəfə əvvəlki kinayə yox idi. — Şəhər əhli bilir?

— Bilir... Qulamlara göstəriş verilib ki, bütün şəhər əhlini, bütün əsnaf[1] əhlini, bütün əhli-ürfanı[2] Şahab meydanına də'vət etsinlər... daha doğrusu, ora toplasınlar.

— Mədhiyyə deyənin var? — Bu dəfə də baş şeyxin səsində kinayə var idi.

— O, sonra, — rəis özünü dartdı. — İstəyirsən şair Kəmaləddinə hökm edim gecə bir şe'r yazıb sabah oradaca oxusun.

— Lazım bilmirəm...

— Yaxşı, lazım bilmirsən, lazım deyil... Hə bəs niyə soruşmursan ki, niyə gəlmişəm?

— Nə soruşacağam? — Hatib ibn Mübarək göy əmmaməsini çıxarıb ağ darayı əmmamə qoydu, cübbəsini soyunub əbasını geyinməyə başladı.

— Şair əş'arı[3] lazım olmasa da, şeyx xütbəsi[4] lazım olacaq. Sifariş göndərib şəhərin bütün şeyxlərini, metrablardakı bütün mollaları Came məsçidinə də'vət elə. Tapşır ki, gecə xüsusi xütbələr tərtib etsinlər. İçərisində Eldəgəz sülaləsinin ünvanına, onun adlı-sanlı şəxsiyyətlərinin şə'ninə yaxşı-yaxşı sözlər də olsun, tə'riflər də. Və sabah sübhdən bütün məscid və mehrabalarda fatehə səsləri ucalmamış, sultan Toğrulla yanaşı, Atabəylər xanədanının ikinci hakimi Cahan Pəhləvanın adına da xütbə oxusunlar.

— Bu ricadı, yoxsa hökm?

— Nə ricadı, nə də hökm, qüdsi-barigah! — Rəisin səsində yenə kinayə var idi bu dəfə. — Çaparların gətirdiyi fərmandı, saray fərmanı!.. Mən sadəcə olaraq onu icra edirəm... Cahan Pəhləvan öz qo-

1. Sənətkarlar.
2. Ziyalılar.
3. Şe'r.
4. Böyük şəxsiyyətlərin ünvanına oxunan xüsusi xeyr-dua.

şunu ilə dünən Təbrizin həndəvərindən keçib, sabah Naxçıvana varid olur.

Hatib ibn Mübarək kətildən durub dibacədə əyləşdi.

— Bəs mənim o birisi ricam?

— Hansı? Rəis təəccüblə xəbər aldı.

— Me'mar Məs'udun işi... Məs'ud ibn Əbutahirin. — Baş şeyx nədənsə çox ehtiyatla soruşdu. Rəisin dodaqlarından anlaşılmaz bir kinayənin izləri göründü. Və fikirləşdi: "Ay qoca Bağdad tülküsü, kimdən ki, bir xeyir gördün, onun dağarcığının mütləq ya çuvalın, ya da xaralın yanına sürükləyirsən. Məs'ud ibn Əbutahirin cavanca dul bacısını ənginin altına salandan sonra gör nə canıyananlıq edirsən?.. Başını soxmusan kola, deyirsən bəs..."

— Baş tutan iş deyil. — Rəis fikrini qəti bildirdi.

— Niyə?.. elə elə ki, baş tutsun... Bizə yaxın adamdı... Nə desək yeganə cavabı "baş üstə"dir.

— Çaparların gətirdiyi tapşırığa görə mən Əcəmiyə hökm etmişəm ki, heç yerə getməsin, şəhərdən də kənara çıxmasın. Çünki Cahan Pəhləvan Mə'münə xatuna tikiləcək sərdabəni ona həvalə etmək niyyətindədir.

— Pəhləvanı niyyətindən döndərə bilməzsən?

— Bacarmaram. — Rəis kətildən qalxdı.

— Onda çalış Mərvdən Məhəmməd Atsız oğlunu[1] də'vət etsin. Axı həmin atsız oğluna bir vaxtı Sultan Səncər[2] kimi mö'təbər bir şəxsin məzarı üstündə sərdabə tikmək e'tibar edilib...

— Çalışa bilmərəm... Təlaşım yersiz olar.

— Niyə?

— Cahan Pəhləvan istşyir ki, Arrana heç bir əcnəbi usta də'vət olunmasın. Öz millətinin sənətkarları olsun.

— Pəhləvan hansı millətə mənsubdur ki?

Rəis tutuldu, bilmədi nə cavab versin, ancaq baş şeyxin qabağında çınmaq da istəmədi.

— İstəyir ki, me'mar naxçıvanlı olsun... Daha doğrusu, şair kimi, alim kimi "Naxçıvani" olsun.

— Şəhər əhli bu fikirlə razılaşar?

— Arxasında beş minlik süvaridən ibarət xas alaylar dayanan bir hökmdara kim cür'ət edib deyə bilər ki, gözün üstə qaşın var?..

— Beş min!? — Baş şeyx təəccüb etdi.

1. Məшhур туркмəн ме'мары.
2. Məшhур сəлчуг султаны.

— Bəli, beş min!

— İş təkcə qoşunla bitmir... Mənim qandığıma görə hakim olan gərək həm dərrakəli ola, həm igid, həm də...

Rəis söhbətə yekun vurmaq məqsədilə Hatib ibn Mübarəkin son sözünü deməyə macal vermədi:

— Özünüz min dəfə minbərdən demisiz ki, insaf dinin yarısıdır... Gəl indi insafla götür-qoy edək, cənab əş-şeyx ər-rəis. Məyər siz deyilənlərin hamısı Cahan Pəhləvanda yoxdu?..

Rəis Hatib ibn Mübarəkin süzdüyü şərbəti içmədi, öz piyaləsini götürüb onun piyaləsinin yanına qoydu və necə gəlmişdisə, eləcə də çıxıb getdi.

Hatib ibn Mübarək onun arxasınca xeyli baxandan sonra öz-özünə dedi:

— Mən düz qanmışam... Bilmək olmur bu qəvvadın[1] zəhəri ilan kimi dişinin altındadı, yaxud əqrəb kimi quyruğunda...

## BU XATİRƏ ƏCƏMİ DİLİNDƏNDİR

Gecə pis yatmışdım. Son vaxtlar belə hallarım tez-tez olurdu. Bəlkə də buna görəydi ki, tək-tənha ömür sürürdüm. Anam sağlığında dönə-dönə eşitdirsə də, evlənmək istəmirdim. Bir də fikirləşirdim ki, adamlar bə'zən özünə peşəseçən günü daim subay qalacaqlarını da qət edirlər. Bu gün burada, sabah orda işləyənə hansı qız ərə gəlib övrət olar? Mənim peşəm də belə idi. İlk məhəbbətim üzüdönük çıxandan sonra isə adamlardan uzaq gəzməyə, qadın xeylağından birdəfəlik kənar qaçmağa çalışırdım. İki-üç il olardı ki, rəhmətlik atam Əbubəkr kişi kimi duluzçuluğu atıb bənnalığa başlamışdım. Amma qarşıma məqsəd qoymuşdum ki, axıra kimi bənna olub qalmayam. Axı oğullar atalardan, atalar babalardan irəli getməsələr, millət tərəqqi etməz... İnsan övladı da qəribə məxluqdur. Hərəsi bir şeyin vurğunudu əzəli gündən. Biri gülün, giri çiçəyin, giri də ömür-gün sirdaşı bir göyərçin, bir mələyin... Mən də ağlım kəsəndən kərpicə, daşa vuruldum, meylimi onlara saldım. Axı daş bizim ulu babalırımızın, nənələrimizin ilk evi, ilk silahı olub. Adəm Həvvaya rast gələndə, yəqinimdir ki, dünyanın ilk kişisi kimi gəlin otağını daşdan hörüb, palçıqdan çatıb. Arvad qeydinə qalanda, övlad qayğısı çəkəndə əlinə daş alıb ov dalınca gedib. Sonra daşdan dəstər, yemək qab-qacağı düzəldib, ocaq çatmaq üçün çaxmaq itiləyib. Bəlkə elə bu işıqlı aləmin ilk övrəti Həvva üçün ilk bəzək

1. Oğraş.

şeylərini də daşdan yonub bizim min-min yaşlı, min-min dərdli-sərli babamız Adəm... Deməkk, bəşər övladının ürəyində ilk məhəbbət elə torpağa, daşa oyanıb. Daş olmasaydı biz ulu-ulu əcdadımızdan da, qədim-qədim sələflərimizdən də xəbər tuta bilməzdik, onların əməlindən agah ola bilməzdik. Daşdan tikdikləri kar qalalara, kor bürclərə baxıb onların ürəyindən keçənlərdən xəbər tuturuq, yaxşıları yamanlardan, mərdləri namərdlərdən, igidləri qorxaqlardan ayırd edirik həmişə. Axı xeyirxahlar daşdan, palçıqdan öz bildikləri kimi, namərdlər də öz istədikləri kimi istifadə ediblər. Bə'ziləri gözoxşayan saraylar, qəsrlər tikiblər, bə'ziləri qan çanağı, ölüm teşti olan zindanlar, həbsxanalar... Lal daşlar bə'zən insan övladına bərli-bəzəkli gəlin otağı olub, bə'zən də qaranlıq sərdabə... Belədi yaşı bəlli olmayan bu qoca dünyanın gərdişi ilk yaranışdan, ilk binadan. Nə eybi, qoy ədiblər gördüklərini, şahidi olduqlarını, sevdiklərini, nifrət etdiklərini əş'ara çevirib nəzmə çəksinlər, alimlər təbiətin gizli-gizli sirrlərini öyrənsinlər, mənsə ürəyimdən keçənləri daş kitabələrə köçürtdüm, dilsiz daşlara həkk etdim — bir çoxuna imarətlər inşa etdim, qəbrlər üzərində kiçik sərdabələr tikdim, axırda isə şəhərimizin ən mö'təbər şəxsi, böyük şeyx Yusifə öz borcumu ödədim...

...Elalnının arxasında Günəş şəfəq atan kimi durub geyindim, həyətə endim. Səhərə yaxın azacıq yağış çiləmişdi. Havada mülayim bir sərinlik var idi. Darvazadan çıxdım, dar küçə ilə üzüyuxarı qalxıb, Pir Osman meydanına gəldim. Saraydan əlavə məscid-minarələrini, qala divarlarının üzərində də ipək bayraqlar dalğalanırdı. Amma dəmirçixanalarda, misgər, nalbənd, xarrat dükanlarından çəkic-zindan səsləri gəlmirdi, dulus e'malatxanalarının bacalarından tüstü çıxmırdı, küçələrdə halva, saqqız, göyərti satanların cır səsləri qulaqlara dolub beyinlərə işləmirdi... Şəhərin üzərinə çökmüş sükutu az sonra məscidlərin minarələrinə qalxıb camaatı səhər namazına də'vət edən müəzzinlərin "Allahu əkbər" sədaları pozmağa başladı... Məscidlərdə isə öz işlərində idi mollalar. Onlar əş-şeyx ər-rəis Hatib ibn Mübarəkin tapşırığına əməl edərək Eldəgəzlər sülaləsinin ayrı-ayrı şəxslərinin ünvanlarına tə'riflər deyir, nimdaş xirqə geymiş, əli kəşküllü, təbərzinli dərvişlər küçələrdə qəsidələr söyləyir, təsbehli, göy qurşaqlı seyidlər atabəy-ə'zəmdən sonra taxta əyləşən Cahan Pəhləvanı bir hökmdar kimi, bir sərkərdə kimi, bir insan kimi tə'rifləyib göyə qaldırırdılar...

Nə edəsən? Rəiyyətin bocu sinə döyməkdi, hakimin şə'ninədeyilən xoş sözlərə əl çalmaqdı!..

Camaat dinməsə də, e'tiraz etməsə də, onların çoxuna agah idi ki, namaz qılanda atası Şəmsəddin Eldəgəzin döyüş bayrağını canamaz əvəzinə, Atavbəylər xanədanının gümüşü sikkəsini möhür əvəzinə işlədən Cahan Pəhləvan Naxçıvana havayı gəlmir, gəlir ki, yeni hökmranlığına bərqərar etsin, Georgi onun təkliflərini qəbul etməsə beş minlik qoşununu Gürcüstan üzərinə yeritsin. Saray ərkanından danışanlar olub ki, bundan əvvəlki gürcü çarının gözəl Bərdəni dağıtması, qədim Gəncənin beş yüz minlik əhalisinə divan tutub, qiymətli darvaza qapılarını çıxarması, onları bir qənimət kimi kelat monastırına aparması hələ əmir-hacib olanda belə Cahan Pəhləvana bərk yer eləyib... "Mən bu hayıfı Georgidən almasam, atabəy-ə'zəmin haqqı-sayı məni tutsun..." Bir də Cahan Pəhləvan özü ilə gətirdiyi qoşunu bu vilayətdə artırmaq niyyətində idi. Çünki qoşun e'tibarsızlıq edəndə gərək sərvaxt olasan, qəfil hücumları dəf etmək üçün kifayət qədər qoşunun, silahın ola. Bu sözlə də sarayın ikinci sahibinin idi...

Atlı qulamların küçələribaşına götürən səs-küyü ötən günləri mənim yadıma saldı.

...Hicrətin 580— ci iliydi. Atabəy Şəmsəddin Eldəgəz gürcü çarı Demetrenin qoşununu Ani düzlərində darmadağın edib pərən-pərən salmışdı. Çar canını qurtarmaq üçün qaçıb Kaxetiya meşələrində gizlənmişdi. Qasidlər xəbər gətirmişdilər ki, Eldəgəzlər xanədanının ilk hakimi qoşununa dincəlmək üçün bir həftə istirahət verib, özü isə dövlət işləri ilə məşğuldur... Qasidlər saraya onu da çatdırmışdılar ki, bir həftədən sonra hökmdarı qalib bir sərkərdə kimi qarşılamaq gərəkdi. Payitəxtdə qızğın hazırlıq işləri gedirdi: küçələr bəzənir, binaların üstünə bayraqlar vurulur, hədiyyələr hazırlanırdı...

...Beləcə bir payız səhəri idi. Tezdən durub e'malatxanaya gəldim. Uşaqlıq dostum, iş yoldaşım Cəmil eşikdə qab-qacağı sahmana sala-sala yenə zümzümə edirdi. Məni görcək səsini kəsdi, salamlaşdıq. İçəri keçdim. Əlimdəki balaca səndəl ağacını divardakı kiçik rəfə qoydum. (Bu səndəl ağacını mənə anam bağışlamışdı, nənəmin yadigarı idi. Öləndə vəsiyyət etmişdi ki, mən onu həmişə yanımda gəzdirim. Onda şər qüvvələr məndən uzaq olar. Anam and vermişdi ki, nənəmin vəsiyyətinə əməl edim, mən də əməl edirdim. Səndəl ağacı həmişə yanımda olurdu: bekar vaxtı əlimdə, iş vaxtı belimdə-qurşağımda.) Soyunub iş paltarımı təzəcə geyinmişdim ki, bayırda at kişnərtisi, sonra zınqırov səsləri eşidildi. Balaca pəncərədən boylandım. Həyətdə ağ atlar qoşulmuş bir kəcavə dayandı. Gələnləri ilk dəfə qarşılayan Cəmil

oldu. O, cəld qaçıb atların yüyənindən tutdu. Mən gələnlərin kimliyini bilmək üçün qulaq kəsildim. Cəmil kəcavədən enən qızlara dedi: "Xanımlar xoş gəlib, səfa gətiriblər ". Geyimindən kənizə oxşayan bir qız əlindən yapışıb düşməsinə kömək etdiyi bərli-bəzəkli xanımı nişan verdi: "Xanım budu, oğlan. Mən cariyəyəm..., adım da Zəhradı". Cəmil bic-bic qımışdı:"Mənim üçün bütün gözəllər xanımdı" dedi. Bərli-bəzəkli xanım cariyədən aralanıb irəli çıxdı və maraqla xəbər aldı: "Sən kimsən, oğlan?" Cəmil qəhqəhə çəkib güldü, hisdən qaralmış sifətində ağ dişlərindən süzülən qəribə bir parıltı alışıb söndü: "Adamam". Cariyə qız söhbətə qarışdı: "Adam olmağına adamsan, amma xanım bilmək istəyir ki, burada işin, sənətin nədi?" Cəmil özünü düzəldib belə cavab verdi: "Mənə Cəmil ibn Səlman deyərlər. Ustadım Əcəminin atası, bu yerlərin ən mahir bənnası rəhmətlik Əbubəkr dayı məni də özünə doğma oğul bilərdi. Buna görə də öz ustadıma canlabaşla qulluq edirəm..."

Bərli-bəzəkli xanım ucadan güldü: "Oğlan, deyəsən dildən çox pərgarsan?" Cəmil gülə-gülə dedi: "Hə, bu barədə allahımdan razıyam, xanım. Dildən yaman qoçaq yaradıb məni". Cariyə qız araya girdi: "Yaxşı, yaxşı az çərənçilik elə, bizi ustanın yanına apar!.." Cəmil əlini sağ gözünün üstünə qoydu və başını sinəsinə endirdi: "Baş üstə" deyib işlədiyim otağı göstərdi və yenə dili dinc durmadı: "Ayıb olmasın, bilmək olar mənim ustamı görmək istəyən xanım kimdi?" Cariyə qız dedi: "Əş-şeyx ər-rəisin qızıdı". Cəmil xəbər aldı: "Yəni baş şeyxin?!" Cariyə qız ucadan dedi: "Bəli... Dəryanur xanımdı". Cəmil öz-özünə danışdı: "Dəryanur?! Deyirəm axı, aləm nurə qərq oldu bir anda..."

Cəmil düz deyirdi, əş-şeyx ər-rəisin qızı üzünü Təbriz ipəyindən hazırlanan tulbənd niqabın altında gizlətsə də, onun mütənasib əndamı bərli-bəzəkli geyiminin içərisində çox gözəl görünürdü. Cəmil bir də baş endirdi, qızları içəri də'vət etdi. Məni xəbərdar etməyi də yadından çıxartmadı: "Ey dust, çi vəqti xabidənəst, afəti miayəd![1]"

Əş-şeyx ər-rəisin qızı Təbrizin ən gözəl xatay atlasından tikilmiş paltarlarının ətəklərini yığışdırıbastanadan içəri adladı.

Mən bir ay olardı ki, beş-altı qarış boyda xüsusi güldan hazırlamışdım. Onu kürədə bişirib üstünə ağ rəngli mina çəkmişdim. Otağın ortasında bərq vuran güldan, onun üzərindəki naxışlar, müxtəlif bərbəzək Dəryanuru birdən elə aludə etdi ki, mənimlə salamlaşmağı da unutdu. Yaxına gəlib baş endirdim və təmkinlə dedim: "Möhtərəm

1. Ey dost, ayıl gör necə gözəl gəlir! (Fars.)

şeyxin gözəl qızı Dəryanur xanıma ehtiram və salamlar olsun". Dəryanur diksindi, cəld mənə tərəf döndü, diqqətlə üzümə baxdı. Niqabın altından alışıb yanan iri, qara gözlərini üzümə zillədi: "Əcəmi, Əcəmi ki, deyirlər... ustad, ustad ki, deyirlər, sənsən?" Dedim: "bəli, mənəm... Sabahınınz xeyir, xanım... Xoş gəlibsiniz..." Dəryanuru elə bil huş aparmışdı... Cariyə qızın dirsəyi çox ehmalca onun böyrünə toxundu: "Usta sizə salam verdi, xoş gəldin elədi". Dəryanurun dili topuq vurdu: "Hə... nə dedin? Bağışlayın... Çox razıyam, sağ olun!" — Tez əlini atıb niqabı yuxarı qaldırmaq istədi və birdən hər şeyi başa düşdüyü üçün fikrindən daşındı: "Bilirsən, — dedi — Hə, hə, onu demək istəyirəm ki, şeyx... atam bir az nasazdı... Mən gəldim... biz gəldik görək sifarişimiz hazırdı?.. Axı, şeyx onu bu günlərdə döyüşdən qalib çıxıb şəhərimizə qayıdan atabəy-ə'zəmə, hökmdar Şəmsəddin Eldəgəzə hədiyyə aparacaq." Dəryanurun tumbul əlləri güldanın üzərində gəzdi. Ürəyim elə bil qopub ayaqlarımın altına düşdü. Mənə elə gəldi ki, o yaraşıqlı əllərilə sinəmi oxşayır. Özüm də: "Bəli, xatun! Sizin atanızın sifarişi yerinə yetirilmişdir". — Güldanı göstərdim, onun başına hərləndim. — "Mən gecəmi gündüzə qatıb az vaxt içərisində onu minalarla bəzəmişəm, ona bacardığım naxışları vurmuşam. İstəmişəm ki, ə'la Kəşan xalçaları, gözəl Təbriz xalıları, zərif Herat cecimləri ilə bəzənən Şəmsəddin Eldəgəz sarayında sizin kimi gözəlin atasının hədiyyəsi ə'yanların, naiblərin gətirdiyi yüzlərlə hədiyyələr içərisində seçilsin. Buyurun, yaxından baxın". Dəryanur: "Şeyx babamın... hə, hə, atamın..." — deyə kəsik-kəsik danışdı və güldanın başına dolandı. O, oyuncaqlara baxan bir uşaq hərisliyilə hədiyyənin hər tərəfinə tamaşa etdi. Onun ağ barmaqları güldanın zərif nəbati naxışları üzərində gəzdikcə mən də təsvir etdiyim güllər, quşlar barədə mə'lumat verirdim, işlətdiyim rənglərdən, vurduğum naxışlardan danışırdım. Onun səsini, gülüşünü eşitmək qəidilə hərdənbir incə zarafatı da unutmurdum: "Bu qərənfildi, bu da nərgiz... Mə'sum qızlar kimi boynu bükük qərənfil... dağların qarından özünə don tikən nərgiz..." Dəryanur söhbəti dəyişmək istədi... "Əllərin qızıldı, oğlan. Hədiyyən nadir tapılan hind güldanlarına bənzəyir... Birdən inciyərsən, bənzəmir, onlardan da gözəldir... Mən belə güldanları Təbrizdə görmüşəm..."

Elə bu vaxt Cəmil qapıda göründü, şəhadət barmağı ilə işarə edib cariyə qızı bayıra çağırdı. Zəhra əvvəlcə çiyinlərini çəkdi. Ancaq şeyxin qızının dönüb baxması ilə onun otağı tərk etməsi bir oldu. İçəridə ikimiz qaldıq. Dəryanur yenidən uşaq marağı ilə güldanın başına hər-

ləndi. Nədənsə nitqim qurumuşdu, ona nə deyəcəyimi kəsdirə bilmirdim. Birdən gözlənilməz bir hadisə baş verdi: Yüzd-Kürd[1] tərəfdən tozanaq qopdu, külək açıq pəncərədən içəri dolub şeyx qızının niqabını arxaya atdı. Qız nə qədər çalışdısa da kürəyinə yapışan niqabı sahmana salıb üzünə qaytara bilmədi. Mənə elə gəldi ki, otaqda ay doğdu, ətraf nura qərq oldu, güldanın əlvanlığı da itib getdi. Dəryanurun duru sifəti, al yanaqları, sol yanağındakı xalı, incə dodaqları məni bihuş etdi, ixtiyarımı əlimdən aldı. Ürəyimdən bir səs qopdu: "Xaliqinə əhsən!.." Axı mən iki il olardı ki, belə bir fürsətin həsrətində idim. Harada bağdadlı əş-şeyx ər-rəisin qızından söhbət düşürdüsə, ürəyim yerindən oynayırdı. Bircə dəfə "Qızlar bulağı"nda üzünü ötəri gördüyüm, amma adını bilmədiyim bu gözəlin həsrəti məni rahat buraxmırdı. Şəhərimizdə qəfil peyda olan, hələ heç kimin gözünə əməlli-başlı görünməyən bu ürkək ceyran bu gün haradan gəlib mənim "ovlağıma" çıxmışdı? Yoxsa bu müəmmalı sirr idi, yaxud gözlənilməz mö'cüzə?.. Hər halda bəxtim gətirmişdi... Özüm də hiss etmədən başımı sinəmə endirdim, sağ əlimi sol döşümün üstünə qoydum. Dəryanur məni qarşısında səcdə edən görür kimi niqabını üzünə endirdi: "Sən nə etmək fikrindəsən?" Dilim topuq vurdu: "Heç nə... mən... gözəllik aşiqi olduğum üçün sizə səcdə etmək istədim". Dəryanur maraqlandı: "Nə üçün? Niyə?" Mən izahat verdim: "Ona görə ki... ona görə ki, sizin kimi gözəl yetirən bu torpağa gündə on dəfə səcdə etsən yenə azdı, sizə süd verib ərsəyə çatdıran ananın başına gündə yüz dəfə dolansan yenə bəs eləməz!.." Dəryanur soyuqqanlı bir tərzdə soruşdu: "Elə bu?" Mən bir az da cuşa gəlib dedim: "Niqabda şəms hüsnünü bizdən gizləyən afət istəsə meşələr ney, dəryalar mey olsun, olar! Sizə ad qoyana da alqış! Özü də on kərə əhsən, yüz dəfə mərhaba!.. Gözəl ad tapıblar: Dəryanur! Mən ananızın yerinə olsaydım sizə Dəryanur yox, lap Cahannur adı qoyardım..." Dəryanur dedi: "Cahannur kiçik bacımın adıdı". Mən bu sözə o qədər əhəmiyyət vermədim, öz sözümü dedim: "Atabəy-ə'zəmin oğlu Cahan Pəhləvan gücü ilə cahanı fəth etdiyi kimi, əş-şeyx ər-rəisin qızı da öz gözəlliyi ilə, işıqlı gül-camalı ilə bütün cahanı valeh etməyə qadirdir..."

Baş şeyxin qızı da bacısı barədə dediyini unudub soruşdu: "Adımı hardan öyrənibsən?" Güldüm: "İndicə cariyəniz həyətdə deyəndə eşitdim." Dəryanur da güldü: "Belə deyin!" Mən yenə dilimi işə saldım: "Bir də ki, Günəşin, Ayın adını korlar da bilir, karlar da , xatun". Dəryanur müti bir vəziyyət aldı: "Mənə xatun demə, xatunlar saray-

1. Naxçıvanın ətrafında qədim qala. (VII əsr)

lardaolurlar". Dedim: "Sizin onlardan nəyiniz əskikdi?.. Mənə qalsa bizim şəhərimizdə bircə xatun var, o da əş-şeyx ər-rəisin qızıdı." Dəryanur nazlandı: "Çox ağ olmadı ki?" Tez düzəliş verdim onun danışığına: "Xeyir! Hələ səsiniz, ud çalıb oxumağınız!" Dəryanurun sifəti təzədən ciddiləşdi: "Bəs bunlar sənə haradan agahdı?" — "Xatun şeyx babasının güllü-çiçəkli, fəvvarəli hovuzunun ətrafında əyləşib gözəl səsini cariyənin çaldığı udun naləsinə qatıb Məhsəti xanımın rübailərini, mənim şair dostum gəncəli İlyasın qəzəllərini oxuyanda divarın gündoğara baxan tərəfindəki narbənd ağacının altında dayanan yazıq bir ustanın sinəsinə dağlar çəkdiyi barədə heç nə fikirləşmir?.. Qırqovul qırqovuldu, o da sərv ağacını çox sevdiyi üçün öləndə onun yanına uçar və orada ömrünü başa vurar. O ki, qaldı günaha... allah-təala pis niyyətləri bəndəsinin ayağına günah yazır". — Niyəsə özümdən asılı olmayaraq filosofluq etməyə həvəsim gəldi: "Allah Günəşi yaradıb ki, bəndələri onun hərarəti ilə isinsinlər, allah Ayı yaradıb ki, zülmət gecələrdə adamlar onun ziyasını tutub getsinlər, yolu azmasınlar. Allah Beyləqan narını, Səlmas almasını yaradıb ki, kimsəsizlər ac qalmasın. Allah mənim kimiləri də xəlq edib ki, gözəllərin cəfasını çəksin, onların eşqinə Fərhad kimi dağlar çapsın..." Dəryanur maraqla soruşdu: "Yoxsa... yoxsa mənə eşq e'lan edirsən, oğlan?" Bu sözlər haradan ağlıma gəldi, heç özüm də bilmədim: "Günəş hərarətsiz, səma buludsuz, dağ dumansız, gül şəbnəmsiz olmadığı kimi insan da eşqsiz, məhəbbətsiz..." Kaş cariyə qız otağa qayıtmayaydı! Dəryanur mənim sözlərimdən ağıllı-başlı məst olub getmişdi. Deyəsən, evlərində atasından həmişə Qur'anın surə və ayələrini eşidən bir qızın belə sözlərə qulaq asması lap ürəyindən idi! Cariyə qız həm mənim danışığımı yarımçıq qoydu, həm də onu şirin xəyallardan ayırdı: "Xanım, yubanırıq... gün əyilib, şər qarışır. Şeyx babanızın həb qəbul etməsi vaxtına az qalır!" Dəryanur tez sərəncam verdi: "De, hədiyyəni kəcavəyə qoysunlar". İrəli çıxdım: "Əziyyət çəkməyin... hədiyyə sabah sübhün carçısı quşlar oxumağa başlayanda sizdə olar..." Dəryanur təəccüblə soruşdu: "Sabah niyə?!" Dedim: "İndi ona əlavə bir naxış da lazımdı..." Dərindən köks ötürdü: "Havayı əziyyət çəkmə, onsuz da..." Dəryanurun bu müəmmalı sözləri, nəsə deməyə cür'ətinin çatmaması ürəyimi sındırdı. Necə yə'ni "havayı əziyyət çəkmə..." Bu nə deməkdir? Bu nə xəbərdarlıqdı? Bu hansı bədbəxtliyin başlanğıcıdı?.. Ürəyindən keçənləri sifətinin dərhal dəyişilən cizgilərindən oxudum: "O nə sözdü, xatun?" — dedim. Dəryanur tutuldu, handan-hana əlavə etdi: "Heç...

elə belə... Sağlıqla qal..."

Başım sinəmə doğru əyildi, dodaqlarımdan ikicə söz qopdu: "Allah amanında!.."

Əş-şeyx ər-rəisin qızı başını qaldırıb diqqətlə üzümə baxdı, sinə dolusu ah çəkdi. Cəld bayıra çıxdı və cariyə qızın köməyilə kəcavəyə qalxdı. Atlar yerindən tərpəndi. Cəmil kəcavənin arxasınca çox baxdığımı görüb yanıma gəldi, bic-bic qımışıb, yenə zarafatından qalmadı: " Bəli... şəhərimizdə şə'm oduna yanan pərvanələrin biri də artdı". Sonra mənə göz vurub pəstdən, özü də şirin bir ləhcə ilə oxudu: "Aya baxdım, ay bəyaz. Qıza baxdım, qız bəyaz... Yazı yazan, insaf et, bu gözəli mənə yaz..."

...Başımın üstündən bir dəstə sərçə uçub getdi. Səs-küyləri şirin xəyallarımı alt-üst elədi. Xasiyyətim idi, belə yuxusuz, əzgin vaxtlarımda çay kənarına getməyə adət etmişdim. Xasiyyətimə xilaf olmayaraq şəhərin quzeyindəki dikdirə qalxdım, nəzərlərim Arazın bulanıq sularına zilləndi. Bir neçə gün bundan əvvəl dupduru olan suları payız yağışları boz rəngə boyamışdı. Qəribədir, uşaq yaşlarımdan bulanıq sulara çox baxa bilmirəm, dərhal qəmlənirəm. Bu dəfə də belə oldu, kədərləndim, fikrə getdim: "Gör bu qədim çayın sahillərində kimlər səmkən salıb, kimlər ömür-gün sürüb... Buralara kimlər gəlib, kimlər gdib?.. Sular axdıqca bir nəsil digər nəsli yola salıb, bir nəsil digər nəsli əvəz edib bu çayın sahillərində... Heç adları da, izləri də qalmayıb bu sahillərdə, itib-batıblar bu sahillərdəki qumların üstünə qoyulan ayaq izləri kimi... Eh, Araz, Araz! Sənin nə vecinə, öz işindəsən, elə axırsan, axırsan... Gah lillənirsən, gah durulursan... Sonra yenə axırsan, axırsan... Amma insan belə deyil, bir dəfə gəlir, bir dəfə də gedir... Ömrümüz yaman gödəkdi, arzularımızın çoxunu özümüzlə aparırıq... Hara aparırıq? Mə'lum deyil... İstifadə olunmayan qılınc kimi divardan asılı qalır istəklərimizin, arzularımızın çoxu..."

Çiynimə bir əl toxundu, geri döndüm... Cəmil idi. Amma indicə xatırladığım zarafatcıl cavan Cəmil deyildi. Bu Cəmilin də saçlarına yavaş-yavaş dən düşürdü mənim kimi. Yaşı artırdı, zarafatı, deyib-gülməyi azalırdı mənim kimi...

— Yenə nə fikirləşirsən? — Soruşdu Cəmil.

— Dünyanın qəribə-qəribə işlərini.

— Təzə bir şey tapdın barı?

— Yox.

— Onda gedək Şahab meydanına.

— Niyə?

— Eşitmirsən qulamların haray-həşirini!..

— Hə, eşitdim... Bura bax, heç fikir vermməmişəm.

— Cahan Pəhləvan bir azdån sonra şəhərimizə varid olur... Bütün camaat təzə hökmdarın pişvazına çıxıb.

— Tamam unutmuşdum, ay Cəmil. — dedim. — Yaxşı ki, gəlib çıxdın... Gedək.

## ŞAHAB MEYDANINDA

Bütün şəhər əhli Şahab meydanına cəm olmuşdu. Adam əlindən küçələrdən keçmək mümkün deyildi. Burada varlı da var idi, yoxsul da; qoca da var idi, cavan da; uşaq da var idi, anasının qucağında mışıl-mışıl yatan körpə də... Bütün şəhər əhli, bütün əsnaf əhli, bütün əhli-ürfan burada idi.

Hərənin də ağzından bir avaz gəlirdi, üstəlik, ağız deyəni də qulaq eşitmirdi...

Saray mühafizləri adamları qayda-qanunu gözləməyə, hökmdar, onu müşayət edən saray ərkanı keçəcək yolun kənarlarından aralı dayanmağa məcbur edirdilər.

Heyvərə Həsənin xəbərçiləri, güdükçüləri, qulaqçıları isə addabudda adamların içərisinə soxulmuşdular ki, xanədan əleyhinə, hökmdarın, şəhər rəisinin bədinə deyilən sözləri eşitsinlər, üstünə beşonunu da əlavə edib lazımi yerinə çatdırsınlar, özlərini gözə soxsunlar və saraydan, əlavə bir "tula payı"da alsınlar...

Belədi dünyanın gərdişi: yaman yaxşını güdür, çirkin göyçəyə ağız büzür, borc qazancı üstələyir, qorxaq igidə tə'nə edir... Görünür, xəbərçi, güdükçü, qulaqçı olmadan nə iş aşar, nə də gərdişi-dövran olar...

Əcəmi ilə Cəmil meydanın yuxarı tərəfində təzəcə tikilən, sahibinə hörmət əlaməti olaraq "Atababa" türbəsi adlandırılan böyük Şeyx Yusifin məqbərəsi yanındakı tənha çinarın altında dayanıb fikrə getmişdilər. Çinardan bir neçə addımlıqda isə suyunun şəffaflığına, tamına görə camaat tərəfindən "Şahab" adlandırılan bulaq axırdı. Əcəminin nəzərləri gah çinarın gümüşü rəngə çalan yarpaqlarına, gah da nimdaş qiyafəli, solğun sifətli kasıb-kusuba, payızın sazağından qorunmaq üçün böyüklərin yanına, qoltuğunun altına qısılıb daldalanan ayaqyalın, başıaçıq uşaqların üzünə dikilib qalırdı. Səs-küyün içərisində bulağın həzin-həzin zümzüməsi onun qulaqlarına çatırdı. Axı Əcəmi

üçün bulaq zümzüməsi, çay şırıltısı ən gözəl mahnıdan da gözəl idi... Səhərdən axşama bu zümzüməyə, bu şırıltıya qulaq assaydı, yoruldum deməzdi...

Cəmil isə camaatdan çox, dostu Əcəminin mahir əllərindən çıxan əsrarəngiz türbəyə baxır, ürəyində ona dönə-dönə minnətdarlıq edir, gözlərinə işıq, qollarına güc, qüvvət arzulayırdı. Şeyx Yusifin türbəsini tikdikləri günlər, bir yerdə işlədikləri çağlar yadına düşürdü...

Birdən körpə gülüşü eşidildi və gülüş get-gedə artıb çoxaldı, meydandakı bütün səs-küyü üstələdi.

Əcəmi yan-yörəsinə boylandı, heç nə görmədi, birdən arxaya çevrildi. Hər şey aydın oldu: boylu-buxunlu, gözəl-göyçək bir gəlin ondan bir az aralıda dayanmışdı, iri, qara gözlərini uzaqlara dikib durmuşdu. Elə bil bu aləmdən tamam təcrid olunmuşdu... Qucağındakı totuq uşaq isə heç nəyin fərqinə varmadan qığıldanır, əl-qol atır, hərdənbir də şəvə kimi qara gözlərini çinarın xışıldayan gümüşü yarpaqlarına dikib gülür, sonra həvəsə gələrək uğunub gedirdi...

Əcəmi əlindəki səndəl ağacını qurşağına taxıb əvvəlcə uşağa baxdı, sonra nəzərləri gəlinin duru sifətində cəm oldu. Bu, Cəmilin nəzərindən yayınmadı.

— Niyə elə baxırsan? Yoxsa tanıyırsan?

— Xeyr.

— Gəlin mənə tanış gəlir, amma araşdıra bilmirəm...

Cəmil bir an fikrə getdi.

— Eh, nə ola həmişə eləcə körpə olub qalasan!.. Bir də nə vecinə, üçdə alacağın yox, beşdə verəcəyi. Mənim də elə gözəl bir anam olsaydı, ömrüm boyu gülərdim, bir dəfə də ağlamazdım. — Əcəminin qoluna toxundu. — Niyə dinmirsən?

— Mane olma!

— Nəyə?

— Qoy doyunca baxım.

— Kimə? Uşağa... ya anasına?

— Hər ikisinə. — Əcəmi sözünü bir də təkrar etdi: — Hər ikisinə!.. Bilirsən uşaq qığıltısını, uşaq gülüşünü necə xoşlayıram!.. Özü də lap cavanlıqdan! Körpənin dodağında təbəssüm, gülüş görəndə mənim üçün aləm nura boyanır, dünya mənim üçün cənnətə dönür. İnan ki, bütün dərd-sərimi unuduram Cəmil! Nigarançılığım da, narahatçılığım da yadımdan çıxır. Bu anda ürəyimdən qəribə bir hiss keçir: "Görəsən ana bilir ki, bu saat yer üzündə ondan xoşbəxt, ondan bəxtəvər

bir məxluq yoxdur?.. Axı onun ciyər parası şəndi, şaddı". — Əcəmi üzünü göyə tutub dua elədi: — Ey bizi yaradan, sən körpələrin üzündən təbəssümü, gülüşü heç vaxt əskik eləmə!..

Əcəmi həmişə səliqəli geyinərdi. Gödək çuxa tikdirər, ətəklərinə gözəl naxışlı köbə işlədərdi. Ağ parçadan əmmamə qoyardı. Saqqalını çox uzatmazdı. Sifəti həmişə qayğılı görünərdi, ilk görüşdən ağıl və zəka sahibi olduğu gzünü dərhal büruzə verərdi. Əsəbi deyildi, təmkinli və səbirli idi. Həmsöhbətini axıra kimi dinlərdi, ağlına batan söz deyilməsəydi, dözməzdi, dərhal cavb verib nəyin düz, nəyin əyri olduğunu söyləyərdi...

Əcəmi bu gün Cəmilin gözünə elə bil daha ağıllı, daha da səliqəli göründü — gödək saqqalı hələ cavanlıq təravətini hifz edib saxlayan duru sifətinə bir az da yaraşıq vermişdi, iri gözləri par-par yanırdı. Əcəmi onun üçün birdən neçə il əvvəlki cavan dulusçuya çevrildi, Dəryanuru ilk dəfə görəndə az qala gözünü itirən oğlana döndü...

— İnciməzsən ki, bir söz deyəm?

— Xeyr.

— Axı özümüz hiss etmədən yaşımızın üstünə yaş gəlir...

— Açıq danışsana.

— Açığı budur ki, dediklərinə inanmıram.

— Niyə?!

— Körpə gülüşünü xoşlayan kişi tək-tənha yaşamaz!

Əcəmi dinmədi, əli ilə gödək saqqalına tumar çəkdi.

— Yenə yaralı yerimə toxundun?

— Neçə dəfə demişəm, yenə deyirəm: kəs, at o yaranı! Ha çox yer üzündə Dəryanurlar... Amma mən inanıram ki, bir gün bu inadkarlığın üçün özün özünü danlayacaqsan, peşiman olacaqsan, necə də olursan...

— Nə bildin? — Əcəmi səndəl ağacını qurşağından çəkib bir ucu ilə gödək saqqalını qaşıdı.

— Görmədim körpənin anasına necə marağınan baxırdın?..

— Ürəyinə ayrı şey gəlməsin. — Əcəmi gülümsədi. — İstəyirdim gəlinin gül camalı hafizəmə həkk olunub qalsın.

— Niyə?

— Özüm də bilmirəm! — Çiyinlərini çəkdi.

— Gördün!.. Mən deyəndi, vallah! — Cəmil ucadan güldü.

Birdən elə bil meydanın üzərindən güclü bir haray dalğası ötüd keçdi. Adamlar bir-birini basaraq irəli soxulmağa, qabağa getməyə

başladılar. Bir-birinin dalınca təbtllər döyüldü, tez-tez car çəkildi. Haray-həşir də birdən xırp kəsildi. Elə bu vaxt Eldəgəzlər xanədanının ikınci hakimi Cahan Pəhləvanın mindiyi ağ kürən şəhərin dəmir darvazasında göründü, yoxuşdan qalxıb dikdirə çıxdı... Azərbaycan atabəylərinin ünvanına, atabəy-ə'zəmin ilkinin şə'ninə mədhiyyə deyənlər bu dəfə daha ucadan qışqırmağa başladılar...

Cahan Pəhləvan Şahab meydanına bir hökmdar kimi qədəm basdı, əlini yuxarı qaldırıb şəhər əhlini salamladı, sonra meydanın xüsusi bölməsində dayanan saray ərkanına, ədiblərə, sənətkarlara, varlılara razılıq etdi.

Hökmdarın sifəti çox sərt idi. Gündüzlər gah taxti-rəvanda, gah da ağ kürənin belində yol gələn Cahan Pəhləvan çox yorğun görünürdü. Onu şəhər valisi və xüsusi atlılar müşayiət edirdilər. Onlar hava işıqlanmamış atlanıb yola düşmüşdülər və hökmdarı Ziyaülmülk cisrini[1] daş qapıları önündə qarşılamışdılar və indi də onunla birlikdə şəhərə daxil olurdular.

Elə bu vaxt körpənin gülüş səsi kəsildi. Kənarda adamların içərisindən ortayaşlı bir qadın Əcəmigilə tərəf boylanaraq körpəni qucağına alan cavan gəlinə xəbərdarlıq etdi:

— Ay qız, Şəhdigül, bu yana adlayıb gəlsənə! Becid ol, bu xarabadan izal olaq... Axı yol gedəcəyik... Görmürsən gün əyilib?..

— Ha budu, gəldi... Bir səbrin olsun! — Gəlin adamların axınına qoşulub gözdən itdi.

Əcəmi bu sözləri səs-küyün içində elə bil göydə alıb qəlbinə həkk elədi: "Şəhdigül?.. Şəhdi... gül..." Dəryanura dediyi sözlər yadına düşdü: "Sizə ad qoyana alqış! On kərə əhsən, yüz dəfə mərhaba!", "Gözəl ad tapıblar: Şəhdigül!.. gülün şəhdi..."

— Bu təşrifdən ağlın nə kəsir?

Gözlənilməz sualı Cəmil verdi. Gözlərilə hələ də körpənin anasını axtaran Əcəmi birdən cavab vermədi. Ürəyində harasa yol gedəcək gəlinə "allah amanında" deyə-deyə dostunun qolundan tutub adamların seyrək olan yerinə çəkdi. Elə bu vaxt şəhər rəisi atını ehtiyatla sürüb Cahan Pəhləvanın ağ kürəni ilə qoşalaşdırdı və yəhərdən azacıq qalxıb onun qulağına nəsə pıçıldadı.

Hökmdar qılçalarını ağ kürənin böyürlərinə döyəclədi, uzaq yol gəlməsinə baxmayaraq at özünü yığışdırıb irəli atıldı və Atabəylər meydanına gedən yolun kənarında kəsilib bir-birinin yanına düzülən çoxlu qurbanlıq qoyunun qanına boyanan yerdən sıçrayıb irəli şütüdü.

1. Araz üzərində körpü. *(XI əsr).*

Hökmdarı müşayiət edənlərin atlarının nallarından qopan toz-torpaq qatı çən kimi adamların üstünü aldı. Meydandakı səs-küy də, uğultu da azaldı... Elə bil qurbağa gölünə daş atdılar...

— Ağlım nə kəsəcək, — Əcəmi yenə çiyinlərini çəkdi — Rəhmətlik anam deyərdi: "Xəbər gətirdilər ki, əzrayıl uşaq paylayır." Ata-analar dedilər: bizimkinə dəyməsin, onunkunu istəmirik..."

— Haqlısan, qardaş!

— Rəhmətlik anam onu da deyərdi ki, şahların ayağı dəyən yerdə yeddi il ot bitməz. — Əcəmi bir an fikrə gedib əlavə etdi: — Yenə günahsız qanlar axmasa yaxşıdı... Yenə qapılar bağlanmasa yaxşıdı, yenə kəndlər yandırılmasa yaxşıdı... Yenə bu əllərimizlə tikib-qurduqlarımız sökülüb-dağılmasa, viran qalmasa yaxşıdı!

...Qafilə artıq Şahab meydanından uzaqlaşmışdı, adamlar da dağılışıb getmişdilər. Əcəmilə Cəmil bir müddət dinib-danışmadılar. Sakit-sakit addımlayıb Şahab bulağının başında ayaq saxladılar.

— Əyilib doyunca bir içəkmi, cavanlıqda olduğu kimi? — Cəmil dostunun kədərlənəcəyindən və evə pərt dönəcəyindən ehtiyat etdi.

Əcəmi eləbil birdən həvəsə gəldi, əlindəki səndəl ağacını Cəmilə uzatdı:

— Cavanlıqda olduğu kimi niyə? Məyər qocalmışıq? — Ayağındakı gödəkboğaz məsti çıxarıb yerə tulladı, bulağın gözünə əyildi, doyunca içdi. — Buyur, növbə sənindi..

Səndəl ağacını sahibinə qaytaran Cəmil də bu qayda ilə bulaqdan su içdi, üstəlik, bir-iki ovuc da üzünə vurdu. Sonra Atababa türbəsinin yanından sola buruldular və kürdlər[1] məhəlləsinə döndülər.

Cəmil nə fikirləşdisə:

— Gedək bizə. — dedi.

— Niyə? — Əcəmi soruşdu.

— Zəhra qovurmalı, ələyəzli yarma çəkməsi bişirib.

Əcəmi başını qaldırıb dostuna baxdı, Cəmil qımışdı. Bu o demək idi ki, yenə onun boə damarından tuta bilib.

Əcəmi heç nə deməyib tabe oldu.

## DÜŞƏNBƏ GÜNÜ

Cahan Pəhləvan anası Mö'minə xatunun xüsusi kərpicdən hörülmüş hasarın içərisindəki məzarını ziyarət etdikdən sonra saraya təşrif gətirdi və yuyunub dincəldi. İlk sərəncamı bu oldu ki, Naxçıvan əhli

1. Naxçıvanda indi Qurdlar məhəlləsi kimi tanınır.

gərək atabəy-ə'zəmə təzədən üç gün matəm saxlasın. O, bunu bir hökmdar kimi deyil, bir oğul kimi özünə borc bilir. Və şəhər rəisindən, saray ərkanından hökmüdar kimi deyil, bir Eldəgəz övladı kimi, dünənki hakimin vəliəhdi kimi rica edir ki, bunu şəhər əhlinə başa salmaq, onlara izah etmək üçün lazimi adamlara tapşırıq versin. Qoy şəhər camaatından bilməyənlər də bilsinlər və agah olsunlar ki, Şəmsəddin Eldəgəz qəflətən vəfat edəndə onun böyük oğlu Reydə olub, dövlətin mühüm tapşırığını yerinə yetirməyi yarımçıq qoyub Naxçıvana qayıda bilməyib.

Edəgəzlər xanədanının ikinci hakiminin ricası da hökm kimi yerinə yetirildi...

Şəhər əhalisi axşam agah edildiyi üçün sübh tezdən sarayın, məscidlərin üzərində qara bayraqlar göründü, dəmirçixanaların körükləri yandırılmadı, çəkic — zindandan səsləri eşidilmədi, zərgar, bəzzaz, xarrat dükanlarında, xırdavat köşklərində qapıların qıfılları açılmadı, xalçaçılar, boyaqçılar, dabbaxlar, qəssablar üç gün evlərində oturub əllərini ağdan qaraya vurmadılar...

Səhər də, günorta da, axşam da şəhərdəki məscidlərin minarələrindən müəzzinlərin əzan səslərini minacat sədaları əvəz etdi. Naxçıvan əhli Azərbaycan Atabəylər dövlətinin ilk hökmdarına ikinci hakimin istəyinə görə ikinci yas tutdu, ikinci matəm saxladı.

Cahan Pəhləvan bir neçə gün bə'zi dövlət işləri barədə verilən mə'lumatları dinlədi, beytülmalın[1] vəziyyətilə maraqlandı... Bə'zi kəndlərdə baş verən özbaşınalıqlar barədə təkliflər hazırlamaq üçün tapşırıq verəndən sonra düşənbə günü şəhər valisi ilə birlikdə üstü açıq xüsusi gəcavədə paytaxtı gəzməyə çıxdı. Dəbirə də tapşırıldı ki, onları müşayiət etsin və hökmdar nəyi işarə etsə onu da dəftərə yazsın, saf-çürük eləyəndən sonra bu gün-sabah Həmədandan təşrif gətirəcək vəzir Sə'dəddin Əsədən çatdırsın.

Hökmdar əvvəlcə şəhristana, sonra rəbatlara. Şəhristandakı imarətlər, onların yaraşıqlı eyvanları, iki-üç mərtəbəli köşklər, kərpicdən tikilən dükanlar hökmdarın xoşuna gəldi, atabəy-ə'zəmin qayğısı ilə abadlaşan, yaşıllığa qərq olan küçələrdən, döngələrdən razı qaldı. hər məhəllədə çağlayan bulaqlar, yolların kənarlarındakı səliqəli arxlardan axan sular onun ovqatını təzələdi... Şəhrin kənarında kasıb-kusubun, əlsiz-ayaqsızların yaşadaqları yastı-yapalaq evləri, uçub-tökülən möhrə daxmaları görəndə isə əhval-ruhiyyəsi isə xeyli dəyişildi. Əvvəlcə atabəy-ə'zəmə qədər "Naxçıvan şahlığı"na başçılıq edənlərin qarasınca deyindi, axırıncı səlcuq əmiri

[1] Xəzinə.

Yıxarmışı əməlli-başlı yamanladı...

Cahan Pəhləvan dediklərini, iradlarını diqqətlə dinləyən rəisi də çox ciddi məzəmmət etdi. Başını qaldırıb ara-bir də dəbirə baxdı, dəbir də öz növbəsində işini bilib öz qeydiyyatını apardı...

Hökmdarın məqsədi Eldəgəzlər dövlətinin paytaxtını daha yaxından görüb tanımaq, onun abadlaşdırılması barə də saray ərkanı ilə, əhli-ürfanla götür-qoy etmək idi. Saraya qayıdanda onun yolu gözəl tikintisilə, üzünə vurulan naxışları ilə göz oxşayan bir darvazanın önündən düşdü.

— Bu kimin həyətidir? — Cahan Pəhləvan maraqlandı.

— Əbubəkrin. Dədə-babadan bənnadılar...

Dəbir söhbətə qarışdı:

— Bənna yox, me'mardılar.

— Həmin nəsildən qalan çoxdu? — Hökmdar bu dəfə dəbirdən soruşdu.

Mərhum atabəy-ə'zəmin xoşladığı hədiyyəni hazırlayan ustanın atası çoxdan rəhmətə gedib. İndi qalan bircə oğludu. — Əcəmi. Özü də həddindən artıq ağıllı şəxsdi. Fələyin gərdişindən, dünyanın işlərindən çox yaxşı baş çıxaran bir zatdı. Zənnimcə, hökmdar onu tanımalıdı... Mötərəm Şeyx Yusifin türbəsini tikən elə odur.

— Ona görə deyiblər də, xatun qız xalasına, qoç igid dayısına oxşar. Elə deyil? — Bu dəfə nədənsə rəisə baxdı.

— Bu bir az da irəli gedib... qabağa qaçıb. Uşaqlıqdan gözəl bənna olub. İndi kamil me'mardı. Təkcə me'mar deyil, dünyəvi elmlərin, demək olar ki, hamısından xəbərdardı. Amma... bir eybi var. — Bu sözləri də dəbir dedi.

— Nədir eybi, dəbir?

— İnadkardır.

— Naxçıvanlıların çoxu inadkar olur... Ərkək üçün inadkarlıq yaxşı sifətdir. Bunu gərək rəis bizdən də yaxşı bilə... Yəqinimdir ki, bu nəslin əsli elə "Naxçivani"dir?

Rəisin bir neçə gün bundan əvvəl baş şeyxə dediyi sözlər yadına düşdü. Ancaq onda özü dediklərinə indi cavab tapa bilmədi.

— Bu da mənim eybimdir, hökmdar... Onu öyrənməmişəm... Deyə bilmərəm. — Rəisin səsindəki qəbahət özünü biruzə verdi.

— Pis, çox pis! — Cahan Pəhləvan işarə elədi ki, gəcavəni dayandırsınlar.

Atların yüyəni çəkildi. Arxadan gələn mühafizlər sıçrayıb atlar-

dan düşdülər.

— Biz sənətkarların, o cümlədən, ən yaxşı bənnaların belə qayğısını çəkməliyik... Onların başqa-başqa yerlərə, lap elə Herat, Bağdad, İsfahan şəhərlərinə gedib orada iş tapmalarına dözə bilmərik! Onların ayağını həmin şəhərlərdən kəsmək gərəkdir!

Rəis dinmədi. Dəbir dedi: — Onları bir parça çörək dərdidi, oğul-uşaq qayğısıdı didərgin edib çöllərə salan, hökmdar.

Dəbirin sözləri saray sahibinin bu dəfə də deyəsən xoşuna gəlmədi.

— Çörək qazanmağı bacaran kişi harda istəsə qazanar. Onlara anlatmaq gərəkdi ki, Eldəgəzlər xanədanına arxa çevirən kəsin süfrəsi çörək görməz! Özü də nəsilbənəsil!..

Bu dəfə nə rəis dindi, nə də dəbir bir söz dedi.

Bu vaxt onlar şəhərin cənubundakı dikdirin üstündə dayanmışdılar. Cahan Pəhləvan yavaş-yavaş dikdirin lap kənarına gəldi, diqqətlə irəli baxdı...

Bu dəm hökmdar nə fikirləşdi, özü bildi. Amma dəbirin yadına atabəy-ə'zəmin iki il əvvəl həmin bu yerdə ikinci oğlu Qızıl Arslana dediyi sözlər yadına düşdü: "Arazın sahilindən uzanıb gedən bu torpaqlar Eldəgəzlər dövlətinin qılınc nişanlı qırmızı bayrağı altında olmalıdır. Sən də, böyük qardaşın da yadınızda saxlayın ki, bu yerləri parçalamaq yox, bir-birinə ilhaq etmək gərəkdi. Tarix bu vəzifəni mənim nəslimə həvalə edib. İlk Azrbaycan dövlətini biz Eldəgəzlər yaradıb bərqərar etməliyik!.."

Cahan Pəhləvan elə bil atasının bu sözlərini bir and kimi ürəyində təkrar edəndən sonra dedi:

— Naxçıvan sənətkarları həm bacarığına, həm də sayına görə Bağdadı da ötüb keçməlidir...

Rəis saray sahibinin səsindəki ötkəmlikdən ehtiyat etdiyi üçün başını aşağı dikdi:

— Düz buyurursunuz.

— Mən bu həyətə də baxmaq istəyirəm.

Rəis bu dəfə təccübünü gizlədə bilmədi:

— Siz... hökmdar... rəiyyətin həyətinə baxmaq istəyirsiniz?

— Bəli... başa düşmürəm, mənim mənim bu niyyətimə niyə təccüb edirsən?.. Yoxsa rəiyyətin həyətinə baxmağı qəbahət bilir rəis?..

Dəbir irəli yeriyib darvazanın çaxçaxını döyəclədi. İçəridən səs gəldi.

— Kimsən?.. Buyur... Qapı açıqdı...

Cahan Pəhləvan darvazadan içəri adladı. Onun dalınca rəis, sonra da dəbir həyətə girdi.

Əcəmi tut ağacının altındakı kötüyün üstündə oturub şəbəkə düzəldirdi. O, gözləmədiyi bu qeyri-adi gəlişdən az qala özünü itirdi, əlindəki balaca bıçaq yerə düşdü, birdən cəld ayağa durdu, irəli gəlib qonaqpərvərlik göstərdi:

— Gözlərimə... inana bilmirəm, hökmdar! Bu, həqiqətən sizsiniz?.. — Bəli, mənəm, Əbubəkr oğlu. — Cahan Pəhləvan həyətdəki daşdan yonulan balaca at, qoç fiqurlarına, müxtəlif şəbəkələrə baxa-baxa əlavə etdi: — Mən bu darvazanı görəndə yan keçə bilmədim... Səliqə-sahman, gözəl naxışlar məni yolumdan elədi... Atabəy-ə'zəm tez-tez deyərdi: hər bir hökmdarın əsas və ümdə borclarından biri də elmi, mədəniyyəti himayə etməkdir, onların qayğısını çəkməkdir, alimi, ədibi dəyərləndirməkdir, onlara həyan olmaqdır... Bunlarsız həqiqi tərəqqi müşküldür, imkan xaricindədir... O ki, qaldı Əbubəkr oğluna... Səni mən cavanlaqdan tanıyıram... Hələ, səhv etmirəmsə, səni bir dəfə mərhum atabəy-ə'zəmin yanında da görmüşəm.

Əcəmi sol əlini sinəsinə qoyub razılıq etdi və birdən yadına düşdü ki, xoş gəldin eləmək lazımdı:

— Əfv edərsiniz, hökmdar... Bağışlayın... Siz mənim bu fəqir hücrəmə xoş gəlibsiniz...

— Həqir demə! — Cahan Pəhləvan buna irad tutdu. — Hücrəniz balaca da olsa onda qəsr əlaməti var... Amma mənə deyiblər ki, sən tək-tənha yaşayırsan, düzdür?

Əcəmi dinmədi. Cahan Pəhləvan əvvəlcə rəisə, sonra dəbirə baxdı. Rəis nə cavb verəcəyini bilmədi. Dəbir hökmdarın sualını cavbsız qoya bilmədi və onu da bildirdi ki, Əcəmi bu barədə bir kəlmə də kəsən deyil.

— Siz buyurandı, hökmdar.

— Niyə?

— Bu uzun əhvalatdı...

— Cahan Pəhləvan dəbirin cavabından, daha doğrusu, eyhamından nə başa düşdüsə cavab almaq üçün israr etmədi.

Bu söhbətin davam etdirilməsinə Əcəminin özü də, bir növ, imkan vermədi:

— Hökmdar razılıq versin, gələnlərin qulluğunda durum. — Dəbirə baxdı. Dəbir isə dostunun arzusunu yerinə yetirməyə hazır oldu-

ğunu dərhal biruzə verdi.

— Yox, Əbubəkr oğlu. — Cahan Pələvanın şəhərə varid olan gündən birinci dəfəydi ki, üzündə ötəri təbəssüm göründü. — Qonaq olası halımız yoxdu. — Rəisə tərəf döndü. — Şənbə gününə tə'yin olunan məsləhətləşmə məclisinə Əbubəkr oğlunu da də'vət elə... Və qayıdan kimi bu barədə lazımi tapşırıq da ver.

— Baş üstə. — Rəis az qala farağat dayandı.

Əcəmi elə bir birdən ayıldı:

— Hökmdar bir şeyi də, ricam budu, mənə əfv etsin... Atabəy-ə'zəmin qəfil vəfatı bizim cavan dövlətimiz üçün çox böyük, ağır itki oldu. Onun möhtəşəm adı, böyük xidmətləri bizim dilimizdən uzun illər düşməyəcək. Biz onunla da təskinlik tapırıq ki, atabəy-ə'zəmin taxt-tacı sahibsiz qalmadı. Onun yerini ləyaqətli bir varisi tutdu. Mən sizə böyük ürək ağrısı ilə başsağlığı verirəm... Və mərhum atanıza yüz-yüz, min-min rəhmət oxuyuram...

Hökmdar da, rəis də, dəbir də salavat çevirdilər, dua elədilər, rəhmət oxudular...

— Çox razıyam, Əbubəkr oğlu...

Cahan Pəhləvan darvazadan həyətə necə girmişdisə, eləcə də çıxdı. Əcəmi onları yolun qurtaracağına kimi müşayiət etdi... Dəbir həm sevindi, həm də qəmləndi. Sevinirdi ki, Əcəmi sənəti hökmdarı onun ayağına gətirmişdi, qəmləndi ki, bu gəlişin arxasında bəd bir niyyət də gizlənə bilər...

...Əcəmi onlardan ayrılandan sonra darvazanı kilidləyib bazara endi. İlk rastına çıxan isə cavn bir oğlan oldu. O, dulusçuluq mə'mulatı satırdı:

— Ey cavan, bunları haradan gətirib satırsan?

— Şabrandan.

— Şabrandan?

— Bəli, dayı. Şabrandan... İndi Şabranda kuzə, çıraq, qab-qacaq ustaları çoxdu. Özü də hamısı mahir ustalardı. Usta olma, olursan gərək həqiqi usta olasan. Böyük Nizami demişkən, bacarıqsız usta olunca, papaqçı olmaq əfzəldi.

Əcəmi bir an fikrə getdi. "Böyük Nizami... Gör xalq sənətkarlara necə yüksək qiymət verir... Bu sadə şəhərli balasının dediyi sözə bax: "Böyük..."

— Yə'ni belə mahir sənətkar var Şabranda? — Soruşdu yenə Əcəmi.

— Niyə yoxdu ki, dayı!.. İnanmırsız, bizim şəhərə gəlin... Dərbənd yaxınlığındakı şəhərimiz. Həm şəhərimizi görərsiz, həm də ustalarımızı tanıyarsız. Şəhərləri hər yerdə ustaları ilə tanıyırlar. Hindistanda da, Çində də ustalarımızın hazırladıqlarını çox böyük həvəslə alırlar. Bizim şəhərimiz nəfis kuzəsi ilə, gözəl qab-qacağı ilə tanınır. Sizin şəhəriniz isə ustad Əcəminin tikdiyi Şeyx Yusif türbəsilə...

Cavan, şad-xürrəm oğlanın danışığı Əcəminin xoşuna gəldi, onun öz şəhərinin ustalarını ürəkdən tə'rifləməsi isə Əcəmiyə xüsusi ləzzət verdi. İstədi özünü tanış verə, ancaq fikrindən daşındı. Cavan oğlana ürəyində razılıq etdi: "Bərəkallah zatına, eloğlu!.."

## BAŞ ŞƏHƏR

Cahan Pəhləvan Eldəgəzlər xanədanına tabe olan bütün şəhrlərdən ən çox Naxçıvanı xoşlayırdı. Doğrudur, onun üçün Təbriz də doğma idi, Gəncə də, Beyləqan da əziz idi, Həmədan da, Ərdəbil də gözəl idi, Şabran da... ancaq Naxçıvana xüsusi diqqət yetirirdi.

Böyüyəndən sonra onu da bilmişdi ik, bu yerlər çox-çox qədimdən insan məskəni olub. Bə'zi din xadimlərinin fikrincə Nuh peyğəmbər bir vaxtı buranı özünə dayanacaq edib, hələ deyirlər ki, buralara Zərdüştün ayağı dəyib, Dədə Qorqudun buralarda ayaq izləri qalır... onu da öyrənmişdi ki, Naxçıvanı Sasani hökmdarı Xosrov Ənuşirəvan bina edib, şah Bəhram Gur abadlaşdırıb, Turan hakimi Əfrasiyab isə onu şəhərlər cərgəsinə qoşub. Bundan sonra Naxçıvan "Beşinci iqlim şəhəri" kimi tanınıb, yunanlar ona Naksuana, ərəblər Nəxcəvan deyiblər. Bəhram Sasani isə bu yerləri "Şikargah"[1] adlandırıb.

Bunu görən Alan və Hun köçəri dəstələri də dəfələrlə Naxçıvana soxulmuş, sürüləri, naxırları, ilxıları ələ keçirmiş, adamlarını soyubtalamışlar.

Ədiblər, alimlər ona danışmışdılar ki, Naxçıvan üzərində yüz illər boyu gah romalılar, gah iranlılar, gah sacilər, gah salarilər qoşun yeritmişlər və onu dönə-dönə talayıb viran qoymuşlar...

Hökmdara atası atabəy-ə'zəm hələ sağlığında demişdi ki, bu yerlərin sakinləri çox başıbəlalı məxluq olmuşlar. Şah Şapur, xəlifə Osman, sərkərdə Ömər, vali Xişəm onlara dəfələrlə divan tutmuşlar; ən qədim karvan yollarını əllərinə keçirmişlər, qabil sənətkarların hazırladıqları göz oxşayan xalı-xalçaları, gözəl parçaları, zərif naxışlı zinət

1. Bə'zi mülahizələrə görə ov edilən yerlərə "Naxçıvan" deyərmişlər.

əşyaları, zəhmətkeş əkinçilərin bəcərdikləri pambığı, buğdanı karvan-karvan dəvələrlə, qatar-qatar qatırlarla öz vilayətlərinə daşımışlar; səlcuq sultanları kasıb-kusubu, əlil-zəlili hədələyərək, bənnalara, dulusçulara, toxuculara, bəzzazlara, həkkaklara, zərgərlərə, dəmirçilərə, dabbaqlara barmaq silkələyərək onlardan gör neçə-neçə vergilər almışlar: xərac, cizyə, tofir, nozulə, mal üs-silah, şərab-bəha, şir-bəha, nə'l-bəha...

Hökmdar atası Şəmsəddin Eldəgəzdən onu da eşitmişdi ki, Naxçıvanda ta qədimdən zərbxanalar olub. Burada neçə-neçə hökmdarın adına sikkələr kəsilib: Xosrov, Hörmüzd, Bəhram, Ərdəşir, Yezdəkürd...

Əlbəttə, bütün bunları Cahan Pəhləvana demişdilər, kitablarda oxumuşdular, ancaq hökmdarın öz gözlərilə gördükləri, şahidi olduqları hafizəsində elə həkk olunmuşdu ki, onları bir an belə xatirindən çıxara bilmirdi. O, belə qərara gəlmişdi ki, bu yerlərin ulu sahibləri elə naxçıvanlıların özləridi. Bu yerlərin ən qabil hakimi isə onun mərhum atası olub. Əsasını onun atası qoyan, təşəkkül tapıb bərqərar olan ilk Azərbaycan dövləti bu dağınıq əraziləri öz əlində möhkəm saxlaya bilibdi. İndi isə tale bu dövlətin gələcəyini ona həvalə edibdi. Atabəy Şəmsəddin qəflətən vəfat edəndə öz oğulları yanında olmasa da, vəsiyyət edib ki, varisi böyük oğlu Nüsrətəddindir. Bu yurd ona ata-baba amanatı, bu dövlət də ona ata-baba amanatı...

Hal-hazırda isə Azərbaycan Atabəylər dövlətinin hakimi odur. Cahan Pəhləvan, bir az da dəqiq deyilsə: Əbu Cəfər Nüsrətəddin Atabəy Məhəmməd Cahan Pəhləvan ibn Şəmsəddin Eldəgəz.

Bəlkə də buna görəydi ki, Cahan Pəhləvan Naxçıvana gələndən təxminən bir həftə sonra saray xəlvətiyyəsinə mənsub olanları yanına də'vət etdi.

...Hökmdar salona daxil olan kimi hamı ayağa qalxdı. İkiqat əyilən də, kiçilib qısılan da oldu. Təkcə Əcəmi iki gün əvvəl həyətində olduğu kimi başını sinəsinə endirməklə hökmdarı salamladı və öz yerində əyləşən kimi də əlindəki kağıza etdiyi qeydləri diqqətlə nəzərdən keçirməyə başladı. Axı hökmdar ola bilsin ki, ilkin onun fikrini öyrənməyə maraq göstərə bilərdi.

Hatib ibn Mübarək isə otağın Ədilağa gölünə tərəf baxan pəncərəsinin qabağındakı alçaq dibaçənin üstünə salınan balaca Herat xalçasının ortasında ayaqlarını qırt yatan toyuq kimi teyləsanısının[1] altına

1. Din xadimlərinin üst paltarı.

çəkib oturmuşdu. Əlindəki qara səddanəni tənbəl-tənbəl çevirirdi. Elə bil dünyanın bütün dərd-sərinin haqq-hesabını çəkirdi...

Əlbəttə, onun özünü hökmdarın yanında tox aparmasının səbəbi hamıya aydın idi. Baş şeyx arxasını, bir neçə gün əvvəl şəhər rəisinə eyhamla dediyi kimi, gözə görünməyən, əlçatmaz, ünyetməz bir ulu qüvvəyə dayanmışdı. O, neçə il olardı ki, xaliqi-ləmyəzəlin[1] gölgəsi altında heç kimdən çəkinmədən, ehtiyat etmədən belə arxayıncasına ömür sürürdü...

Cahan Pəhləvan yerini rahatlayan kimi adəti üzrə sağ tərəfdə əyləşən rəisə baxdı. Sarayın yeni sahibinin adəti idi: kişi qisminə sağ çiyni üstdən, qadın qisminə sol çiyni üstdən baxardı. Buna görə də rəsmi mərasimlərdə hökmdarın sol tərəfində baş ülya-mələkə — Rey hakiminin qızı İnanc xatunun əyləşməsinə razılıq verərdi. Qəribə idi ki, sağa baxanda hökmdarın sifəti qəzəbli, sola baxanda mülayim görünərdi...

Şəhərin rəisi tökmdarın ürəyindən keçənləri onun baxışından oxudu, təzəcə əyləşməsinə, hələ yerini rahatlamasına baxmayaraq, məclisi arəstə görüb ayağa durdu.

— Hökmdar, arzu etdiyiniz şəxslərin hamısı hüzuruna təşrif gətiriblər... O cümlədən, hörmətli Hatib ibn Mübarək cənabları da, Əbubəkr oğlu da... — dedi və əyləşdi.

Cahan Pəhləvan heç nə demədi, nədənsə rəisin danışığının fərqinə varmadı. İkinci dəfə dönüb sağ çiyni üstündən ona baxdı. Rəis yenidən ayağa durmaq istəyəndə ona əyləşməsini işarə elədi. Rəis baş şeyxə baxıb oturdu.

— Mənim Naxçıvana, bu qədim, ulu məkanə məhəbbətimdən, bu yerlərin sakinlərinə hörmətimdən xəbərsiz deyilsiniz... Mərhum atabəy-ə'zəmdən sonra qoşun çəkib bura təşrif gətirməkdə isə məramım var. Özü də məramım bir deyil, bir neçədir... Bu gündən, sizinlə məsləhətləşib, həmin işlərin icrasına başlamaq niyyətindəyəm... O da mənə yəqindir ki, mənim fərmanımı... — hökmdar dayandı, səsinin ahəngini dəyişib, əlavə etdi: — daha dürüstü, tapşırığımı sizə çatdırıblar... Vaxtı bilə-bilə uzatdım ki, yaxşı-yaxşı fikirləşəsiniz, ağıllı, dərrakəli danışasız. Sonra da əməlli-başlı ölçüb-biçək, son, qəti qərarə gələk, niyyətimiz bəyan olsun hamıya...

Hökmdarın "ağıllı, dərrakəli danışasız" sözləri məclisə bir süstlük gətirdi. Hamının ürəyindən bir fikir keçdi: "Görəsən, atabəyə hansı

1. Əbədi yaradan.

ağıllı, dərrakəli danışıq gərəkdi?", "Bəlkə mən dediyim onun xoşuna gəlmədi", "Bəlkə mən yaxşı bildiyimi o pis anladı", "Bəlkə mən ağıllı sandığımı o səfeh qəbul etdi", "Hökmdarlara e'tibar yozdu. Onların ürəyindən keçəni çox vaxt heç rəbbül-aləmeyn[1] özü də bilmir..."

Əcəmi də çənəsinin altındakı balaca səndəl ağacına söykəyib özü bildiyi kimi fikirləşirdi: "Ay sarayın təzə hakimi, deyəsən, adamları hələ tanımırsan, bunların çoxunda sən dediyin ağıl, dərrakə yoxdu... Allah-təala xeyirxahlıq üçün bunlara az qabiliyyət verib. Bunların çoxunun əlindən bədxahlıqdan başqa heç nə gəlmir... Bunların eybini saraylar ört-basdır eləyib... Çoxu hazırdı ki, bu saat Səhl Sumbat[2] xəyanəti eləsin... Təki, bir azcada olsa, qazancı olsun, özünü gözə soxsun, rütbəsi artsın. Bunların içərisində eləsi də var ki, desən ev yıx, yıxsın, bir mərdi güdəza ver, versin, bir mə'sum gəlinin namusuna toxun, toxunsun, bir igidin kürəyini nişan al, alsın, bir düz danışanın dilini kəs, kəssin, bir ananı oğulsuz qoy, qoysun!.. Fir'on kimi namərd, Zöhhak kimi qaniçən olur sarayların bə'zi adamları. Bunların çoxu "qıl verəndi", xəlbirçinin qıl verəni...

Özlərində bir qabiliyyət yoxdu. Saraydan bu gün çıxarıb at bayıra bə'zilərini, sabah paxırları açılsın... Sən də beləlırindən ağıl umursan, dərrakə gözləyirsən. Bunların çoxu ancaq tə'zim eləməyi, rəyasət sahiblərinə boyun əyməyi, quyruq bulamağı bacarırlar. Gördün, heç kimdən səs çıxmır?.. Axı öz dərrakələrinə yaxşı bələddirlər..."

Rəis dayana bilmədi.

— Hökmdar həzrətlərinə ehtiram hamımız üçün çox şərəfdi, amma gərək çox da susmayaq...

Cahan Pəhləvan əyləşənlərin susmasını birinci, özünə ehtiram əlaməti kimi, ikincisi, hökmdar qarşısında ilkin danışmağa cür'ət etməmək kimi, üçüncüsü də, özünün bir hökmdar təki əzəmətli və həşəmətli olması kimi qiymətləndirirdi. Buna görə də güzəştə gedib səsinin ahəngini dəyişdi, sifətindəki kədər qarışıq sərtliyi azaltmağa cəhd göstərdi:

— Mən qədim Naxçıvanı daha müstəhkəm, daha abad görmək istəyirəm. — dedi. — Buyurun danışın, arzunuzu, ürəyinizdən keçənləri deyin... mənim "ağıllı", "dərrakəli" ifadəm sizi ürkütməsin. Ən ağıllılarını seçəcəyik. Gərək fikir çox ola ki, onları saf-çürük edib içərisindən ağıllılarını seçəsən... Sizə xatırladım ki, Azərbaycan Atabəylər dövlətinin ərazisi indi də böyükdür — İran xəlicindən[3] Qafqaz dağlarına qədər uzanır

1. Allah.
2. Babəkə xəyanət edib onu ələ verən erməni.
3. Körfəz.

bu torpaqlar... Bu ərazi gələcəkdə daha da böyüyəcək, — əllərini yanlara gərərək havada böyük bir sahə çəkdi, — Əmirlərimizin, məliklərimizin sayı da artacaqdır. Amma Naxçıvanın xüsusi yeri Atabəylər dövlətinin tərkibində həmişə hifz olunub qorunacaqdır. Naxçıvan həmişə bizim baş şəhərimiz olaraq qalacaqdır — Cahan Pəhləvan məqsədinin birini eyhamla da olsa bildirməyi qə etdi. — Baş şəhər ona görə deyirəm ki, bəlkə xanədanın payitəxtini Həmədana köçürdük...

Cahan Pəhləvan bilə-bilə öz danışığına bir az ara verdi. Oturanlar arasında pıçhapıç başlandı. Şərur məliki Oğuz ayağa qalxanda pıçıltılar kəsildi.

— Payitəxtin Naxçıvandan köçürülməsini necə başa düşək?.. Və məhz Həmədana niyə? — Məlikin səsində həm e'tiraz, həm də tələb var idi.

— Atabəy-ə'zəmin vəsiyyətidi, həm də mərhum hökmdarın məzarı Həmədandadır... Onu da yadınıza salım ki, dünya fatehi İsgəndər padşah yay istirahətini həmişə qədim Əkbatanda[1] keçirərmiş. Məncə, niyyət aydındır! — Cahan Pəhləvan son sözlərini çox sərt dedi.

Şərur məliki əyləşdi.

— Hə... şəhərimizin ən gözəl yerində, daha dürüstü, ən uca guşəsində Atabəylər meydanı da yaratmaq məsləhətdir. Bu meydan bir külliyyə şəklində olmalıdır... İndi buyurun, deyin görək bu külliyyə necə olsa yaxşıdı?

Hamı bir-birinə baxdı, gizli-gizli pıçıldaşan da oldu. Ancaq heç kimdən yenə səs çıxmadı. Bu sükut Cahan Pəhləvanın xoşuna gəlmədi, onun sifətindəki mülayimlik yenə sərtliklə əvəz olundu.

Rəis işi belə görüb ayağa qalxdı:

— Hökmdar, istərdim ki, ərz etdiyiniz həmin Atabəylər meydanındakı külliyyənin ilk möhtəşəm binası dövlətxana binası olsun... Üstəlik bu bina...

Baş şeyx şəvə kimi qara səddanəsini cəld ovcuna yığıb cibinə qoydu və rəisin sözünü yarımçıq kəsdi:

— Mən hörmətli rəisin fikrinə heç vəchlə şərik ola bilmərəm. mənim qandığıma görə...

— Nə səbəbə, möhtərəm şeyx? — Cahan Pəhləvan da onun sözünü kəsib, təəccüblə xəbər aldı və çənəsini ovcunun içərisinə qoyub baş şeyxə sərt-sərt baxdı.

"Danışdı bivec oğlu, bivec! Bilmək olmur zəhəri ilan kimi dişinin altındadı, yoxsa əqrəb kimi quyruğunda"... Hatib ibn Mübarək içərisində rə-

1. Həmədanın köhnə adı.

isi yamanlıya-yamanlıya qəddini düzəldib dedi:

— Bu saat öz e'tirazımın səbəbini əsaslandıraram... Onda hökmdar həzrətləri görər ki, rəis haqlıdır, ya mən? Bilirsiniz ki, mən Şərqin, yə'ni Asiyanın bir çox şəhərlərinə səfərlər etmişəm. Götürək bu tərəfdən Şirazı, o tərəfdən Bağdadı... Sonra Qahirəni, Məkkəni, Qüdsü və başqa-başqa müsəlman şəhərlərini. Bunların hamısında siz dediyiniz külliyyətləri ilk binası allahın evi olub, indi də odur. Bu binalar ibarət olsunlar məscidlərdən. Bu, həmişə belə olub, indi də belə olmalıdı. Əvvəlan, Qur'ani-şərifdə deyilir, saniyən, mənim qandığım budur ki, şah — allahın yerdəki kölgəsidi. Biriminci allahın evi, ikiminci şahın evi... Gəlin unutmayaq ki, rəbbül-aləmeyn təkdi, o heç kiminlə heç nəyə şərik ola bilməz. Bu həmişə belə olub, indi də belə olmalıdı. Qeyri belə ola bilməz... Onda külliyyənin külü göyə sovrular. O ki, qaldı məscidə... Şeyx "külü göyə sovrular" ifadəsinin sərt olduğunu dərhal götür-qoy edib fikrini yumşaltmağa cəhd etdi: — Əvvəllər atanız, mərhum atabəy-ə'zəm, indi də özünüz kimi həşəmətli şəxsiyyətlərin hökmdar olduqları ölkənin payitəxtində xanədana layiq mərkəzi məscid olmalıdı. Doğrudur ki, şəhərimizdə məscidlərin sayı çoxdu, ama di gəl ki, Came məscidinin inşası atabəy-ə'zəmin vəfatından sonra yarımçıq qalıb... Halbuki məscid payitəxtimizin ən gözəl, ən hündür binası olmalıdır. Özü də mənim qandığım budur ki, çox əzəmətli, çox möhtəşəm olmalıdır. Lap elə "Məscid-ül-həram"[1] kimi, Qübbət əs-səhra[2] kimi... Allahın adına layiq. Bunun özü, sizə xeyirduadı, hökmdar! Mərhum atanıza, atabəy-ə'zəmə bir rəhmətdi, hakimiyyətinizə bir olan allahın yeni köməyidir, dayağıdır. Ya allah!..

Hatib ibn Mübarək öz fikrini tamamlayan kimi teyləsanısının cibindən səddanəsini təzədən çıxartdı və öz aləminə çəkilib yenə "dünyanın gəlir-çıxarını hesablamağa başladı..."

Salonda bir sakitlik yarandı. Cahan Pəhləvan bir an fikrə getdi, sonra başını qaldırıb əyləşənləri bir-bir nəzərdən keçirdi. Əyləşənlər zənn etdilər ki, nə rəisin təklifi, nə də baş şeyxin arzusu hökmdarı o qədər də razı salmadı. Çünki həm rəisin təklifindən, həm də baş şeyxin arzusundan şəxsi rahatlığa meyl duyulurdu və yaltaqlığa oxşar bir sonluqla tamamlanırdı. Bir də hökmdara külliyyə barədə ümumi bir fikir lazım idi ki, əyləşib gəlirinə-çıxarına baxsın, beytülmalı əməllibaşlı nəzərdən keçirsin... Və sonra "atabəy-ə'zəmin paytəxti üçün xe-

1. Məkkədə tikilən ən böyük məscid (VII əsr).
2. Qüdsdə tikilən ən böyük məscid (VII əsr).
3. Carçı.

yirli bir iş görmək" xatirinə xüsusi fərman yazdırsın, sonra münadiləri[3] şəhərlərin küçələrinə töküb camaata bəyan elətdirsin...

Cahan Pəhləvan outranları bir-bir nəzərdən keçirdi. Heç kimin gözləri onun gözlərinə sataşmadı. Elə bil hamısına əmr edilmişdi ki, başınızı sinənizə endirin.

Təkcə Əcəmi öz qeyd kağızından ayrılıb hökmdara baxırdı, qəsdi onun suallarına cavab verməyə müntəzir olduğunu bildirmək idi.

Cahan Pəhləvan özü də, deyəsən, bu ara Əbubəkr oğluna qulaq asmağa ehtiyac duydu:

— Bəlkə əbubəkr oğlu söz demək, fikir söyləmək niyyətindədir? — Nəhayət, dilləndi hökmdar. Elə bil hamı buna bənd imiş... Sinələrə enən başlar qorxa-qorxa yuxarı qalxdı, əyilmiş qamətlər yavş-yavaş düzəldi.

Əcəmi ayağa qalxdı, qeydləri olan vərəqi dördqat büküb cibinə qoydu, səndəl ağacını bir əlindən o biri əlinə keçirə-keçirə qayğılı gözlərilə pəncərədən uzaqlara baxdı, nədənsə çiyin-çiyinə verən dağları nəzərdən keçirdi... Buna, bir növ, adətkarda olmuşdu. Fikrini bir yerə cəm etmək istəyəndə, ağıllı bir söz demək niyyətində olanda beləcə edərdi.

— Məni belə bir mühüm məclisə də'vət etdiyiniz üçün əvvəldən Sizə öz minnətdarlığımı bildirirəm, hökmdar. — dedi. — Belə xeyirxah, savab iş üçün, mənə inandığınız üçün Sizə razılıq edirəm.

Buyur, Əbubəkr oğlu, buyur. — Cahan Pəhləvana Əcəminin sözləri, deyəsən, xoş gəlmişdi. Hökmdar yerini rahatladı, geri çəkilib kürəyini taxtın yumşaq dayanacağına söykədi.

— Hökmdar, — Əcəmi Cahan Pəhləvanın başı üstə vurulmuş qılınca baxa-baxa dedi: — başınızın üstündəki o sədəf dəstəkli qılınc Azərbaycan Atabəylər dövlətinin rəmzidir. Mən belə başa düşürəm ki, bu qılınc onu nümayiş etdirir ki, Naxçıvan, Gəncə, Həmədan, Şabran, Bərdə üzərinə kim qılınc çəksə, bu qılıncla məhv olacaq... Məhv olmamaq üçün isə hər bir ölkəyə ən əvvəl elm lazımdı. Tarixdə təkcə gücünə, qılıncına arxayın olanlar sonra peşmançılıq çəkiblər. Buna görə də hökmdar ilk növbədə millətinin təhsili və tə'limi barədə fikirləşməlidi. Allah-təala da öz bəndələrini yaradanda onların başını bədənlərindən yuxarıda xəlq edibdir.

Baş şeyx "allah-təala" sözünü eşidən kimi qəddini düzəltdi, ilk dəfə görür kimi Əcəmini başdan-ayağa süzdü. Ancaq heç nə demədi,

1. Carçı.

yay kimi necə açılmışdısa, eləcə də qıvrılıb əvvəlki görkəminə düşdü.

Əcəmi davam etdi:

— Heç bir millət, onun övladları təhsilsiz, tə'limsiz, elmsiz uzağa gedə bilməz. Hər bir ölkə, böyük də olsa, kiçik də olsa, əvvəlcə alimləri ilə, ədibləri ilə məşhurlaşar, mə'lum olub tanınar...

— Əvvəlan, hökmdarı ilə... — Əyləşənlərdən kimsə söz atdı. Əcəmi yan-yörəsinə baxsa da, söz deyənin kim olduğunu bilmədi. Çünki Cahan Pəhləvan əlinin kəskin hərəkətilə hamıya qulaq asmağı işarə etdi. Ancaq özü siyasət işlədib Əcəminin danışığına qüvvət verdi:

— Bir də sənətkarı ilə, daha dürüstü, me'marı ilə...

Əcəmi hökmdarın eyhamını başa düşdüyü üçün bir an fikrə getdi və söz atana cavab vermək üçün əvvəlki söhbətinin üstünə qayıtdı:

— Hər ölkənin bir hökmdarı olur... Söhbət o şəxslərdən gedir ki, onlar nə qədər çox olsalar, ölkəyə, saraya xeyirləri də bir o qədər çox dəyər... Bütün saray ərkanına, bura toplaşan ə'yanlara da agah olsun ki, alimi olmayan bir ölkənin padşahının da dili gödək olar başqa ölkələr içərisində, qeyri millətlər yanında. Buna görə də biz Atabəylər meydanında ilk bina mədrəsəni nəzərdə tutmalıyıq. Elə bir mədrəsə ki, orada dünyəvi elmlər — hüquq, nücum, təbabət tədris olunsun... Dövlətxana isə Eldəgəzlər xanədanına layiq görünməlidir...

Əcəmi danışanda qulaqlarına qəfil səslər də gəlirdi, bu səslər "Atabəy rəbatı" tikilən zaman əldən düşüb, ürəyi üzülən və bir daha öz evinə, ailəsinə qayıtmayan yüzlərlə həmyerlilərinin fəryadı idi...

Ancaq Əcəmi danışırdı, axı hökmdar hüzurunda idi...

— Möhtərəm əş-şeyx ər-rəis cənablarının təlaşı da yerindədi. Biz Came məscidini tikib başa çatdırmalıyıq, amma... onu təkcə dua eləmək üçün nəzərdə tutmamalıyıq. Bu bina elə bina olmalıdır ki, gələcəkdə nəvələrimiz, nəticələrimiz ona baxıb desinlər: bax, bu həqiqi tikilidi, bu ulu binadı... Came məscidi nə qədər böyük olsa bir o qədər əlverişli olar. Sabah gərək olanda oradörd-beş min adam yığıla bilsin. Lazım gəlsə vəzir, rəis hökmdarın fərmanını oraya sığışa bilən bütün şəhər əhlinə çatdıra bilsin. — Əcəmi bir an fikrə gedib sözünə davam etdi: — Külliyyə daxil olmasa da, şəhər üçün ən vacib tikililərdən biri də qeysəriyyədir.[1] Biz şəhərimizdə Təbrizdəkindən də, Ərdəbildəkindən də yaxşı bir qeysəriyyənin inşası barədə əməlli-başlı fikirləşməliyik. Əgər fikrim hökmdara xoş gəlsə və belə bir qeysəriyyə tikməli olsaq, onu elə tikək ki, onun tamaşasına gəlsinlər. Bu qeysəriy-

1. Örtülü bazar.

yə bizim sənətkarların ustalığı barədə xoş söz-söhbəti bir az da uzaqlara yaysın...

Əcəmi dayandı, Cahan Pəhləvan əvvəlki sözünü təkrar etdi:

— Buyur, Əbubəkr oğlu, buyur.

Elə bil Əcəmiyə me'marlıq, vəhyi gəldi birdən. Xəyalı qanadlanıb şəhərin üstündən uçdu. Arazın sahilinə səpələnən palçıq evlərin cansıxıcı görkəmi onu darıxdırdı. Ata-baba yurdunu daha abad, daha gözəl görmək istədi. "Bura Şərqin hansı şəhərindən əskikdi, buranın sakinləri hansı şəhərin sakinlərindən bacarıqsızdı, iste'dadsızdı? Niyə bu şəhəri hər yerdə tə'rif eləməsinlər, niyə onu görməyə tələsməsinlər?.. Karvan yolları üzərində yerləşən bu qədim insan məskəni niyə başqa şəhərlərə nümunə olmasın?.. Mənim doğma şəhərimə "Naxçıvani-müqəddəs", "Naxçıvani-müəlla" deməsinlər!.."

Əcəmi fürsətdən istifadə edib ürəyindən keçənləri dilinə gətirdi:

— Buna görə də şəhərimizin ümumi görkəmi barədə də fikirləşmək gərəkdi. Naxçıvanda sakinlərin həyət-bacası, ev-eşiyi ürək açan deyil. Əlbəttə, bunları birdən, bir-iki ilin içərisində düzəltmək imkan xaricindədi. Ancaq bu gün imkan xaricində olan arzuşəkilli hər şeyi insan əli ilə, insan zəkası ilə. insan gücü ilə sabah imkan daxilində olan şəklə salmaq mümkündür. Mən bir me'mar kimi şəhərimizi necə görmək istərdim?..

— Necə görmək istərdin? — Hökmdar maraqlandı.

— Görmək istərdim ki, bütün yaşayış binaları bişmiş kərpicdən tikilsin, palçıq əvəzinə əhəng, gəc işlədilsin. Binaların yaxşı həyətləri olsun, yerdən aynabəndlərə tənəklər, sarmaşıqlar uzansın, balaxanaların pəncərələri Ədilağa gölünə, Elalnı dağına baxsın. Özü də belə binalar təkcə şəhəristanda, qala divarlarının içərisində yox, rəbatlarda da olsun... Şəhərin qəbiristanlığı da abad gərək. Bir əcnəbi qəbiristanlığa baxanda fikirləşməlidir ki, bunların axirət evi belə olanda, gör sağlıqlarında necə firavan yaşayıblar.

— Peyğəmbər buyrub ki, qəbr itməlidir. — Baş şeyx e'tiraz etdi.

— Peyğəmbər tənbəl ümmətinə bəraət qazandırmaq üçün əlacsız qalıb deyib o sözü. — Bunu da Əcəmi deyib əvvəlki sözünə qayıtdı: — Həyətlərdə hovuzlar, yeraltı çeşmələr, novdanlar düzəlsin. Yayın qızmar günlərində mənim həmyerlilərim də sərin sudan, söyüd kölgəsindən məhrum olmasınlar...

Kimsə yenə söz atdı:

— Halva-halva deməklə ağız şirin olmaz...

— Düzdü, gərək halvanı bişirəsən ki, yeyəndə də ağız şirin ola. — Əcəmi dərhal cavab qaytardı. — Bunların hamısı asılıdı xanədandan, hökmdar həzrətlərindən. Fərman veriləndən sonra kimin hünəridi ki, ona əməl etməyə, onu yerinə yetirməyə?.. Mən öz tərəfimdən bəyan edirəm: Əbubəkr oğlu Əcəmi Atabəylər xanədanının payitəxti, yaxud indi siz buyuran kimi, baş şəhəri Naxçıvanın abadlığı və təzədən qurulması üçün gecəsini-gündüzə qatmağa hazırdır.

Əcəmi sözünü tamam eləyib əyləşdi. Salonda bir an sakitlik oldu. Hamı həsəd apardı ki, Əbubəkr oğlu sözün axırında usta tərpənib Cahan Pəhləvanın boş damarından tuta bildi. Hamıya elə oradaca aydın oldu ki, onun dedikləri sarayın növbəti fərmanının əsas məzmununu təşkil edəcəkdir...

Hatib ibn Mübarək də gzünü saxlaya bilmədi. Nəyisə ürəyində tutub Əcəmiyə badalaq atmaq üçün çox uzaqdan başladı və eyhamla dedi:

— Əbubəkr oğlu bir cəhəti unutmamalıdı ki, Şərq aləmi bütövlükdə, o cümlədən, me'marlığın tərəqqisində də xilafətə və islamiyyətə borcludu... Çünki Şərqin ən adlı-sanlı me'marları məscidlərin tikintisində tanınıb, məşhur olublar... Allah evlərinin tikilməsi bir tərəfdən onların məs'uliyyətini artırıb, digər tərəfdən də onlara kömək edib. Həm də təzə-təzə fikirlərə, tapıntılara sövq edib onları. Qureyşi aqilləri deyiblər: "Qaddir fil əməl tunci minəzzələl".[1]

Baş şeyxin bu dəfəki söhbətində bir həqiqətolduğunu məmnuniyyətlə qəbul edən Əcəmi fürsəti fövtə verməyib dedi:

— Mən bu ümüddəyəm ki, hökmdar həzrətlərinin yeni fərmanı da şəhərimizin me'marlarının, ustalarının məs'uliyyətini artıracaq, həm də bizi təzə-təzə fikirlərə, tapıntılara sövq edəcək. Biz də işimizi səhv etmədən, səliqəli görərik...

Hatib ibn Mübarək də hökmdarın boş damarını tutmağa çalışdı:

— Şahlar fərman verəndə təkcə allahla məsləhətləşirlər... Onda hökm də, fərman da rəvan olur...

Daha heç kim danışmadı.

Cahan Pəhləvan fikrindən ayrılıb sükutu pozdu:

— Atabəylər meydanındakı külliyyədə ilk bina məscid olmalıdı... Came məscidi!..

Hökmdarın səsində bir ötkəmlik var idi. Əslində bu ötkəmlik deyildi, hökm idi, fərman idi. Lakin bu ötkəmlikdən, hökm-fərmandan da bir siyasət iyi gəlirdi. Bunu Əcəmi də başa düşürdü. Hələ atabəy-ə'-

1. İşini ehtiyatlı gör ki, səhv etməyəsən (Ərəb).

zəmin sağlığında bir məclisdə Cahan Pəhləvanın dediyini xatırladı: "Atam həmişə deyərdi ki, din də, e'tiqad da siyasətə tabe edilməlidir, ona xidmət göstərməlidir. Belə olmasa dövləti idarə etmək müşkül olar. Biz islam dinindən bir addım da olsa uzaqlaşa bilmərik. Belə hərəkət etsəm, rəiyyət bizi başa düşməz. Biz islama bir dirsək göstərsək, camaat bizə on dirsək göstərər..."

Cahan Pələvanın "ilk bina məscid olmalıdı" sözləri baş şeyxin bədəninə yağ kimi yayıldı.

— Yəqinimdir ki, hökmdar cənablarının qayğısı sayəsində Eldəgəzlər xanədanının ilk payitətxi Naxçıvan yaxın illərdə "müqəddəs", " müəla" olmasa da, dünyavi bir şəhər olacaq...

Rəisin ikibaşlı sözəri Cahan Pəhləvana xoş gəlməsə də, son fikrini bildirdi:

— Baş şəhərdə olmalıdı: qırx məscid və mehrab. Hər məhəllə üçün biri... Öyrənin, neçəsi çatmırsa , tikməliyik.

Kimsə yerindən mə'lumat verdi:

— Hazırda otuzu var.

— Onunu da tikməliyik. — Hökmdar dilləndi: — Yeddi karvansara, qırx...

Oturanlar bir-birinin üzünə baxdılar. Elə bil hamının ürəyində bir sual baş qaldırdı: " Görəsən, Cahan Pələvan bu rəqəmləri hansı haqhesaba görə deyir?.."

Üzünü rəisə tərəf tutub əlavə etdi:

— Müdafiə tikililəri barədə təkliflər hazırlayın, onlara ayrıca baxıb götür-qoy edəcəyik, Naxçıvan həm də qala şəhəri olmalıdır. — Bir an fikrə gedib əlavə yenə etdi: — Hamı gedə bilər... Qalsın rəis, Əbubəkr oğlu, bir də dəbir...

Salon boşaldı.

Cahan Pəhləvan taxtdan durub pəncərənin qabağına gəldi. Sonra nə fikirləşdisə yerinə qayıtdı.

— Biz atəbəy-ə'zəmin bir arzusunu da icra etməliyik. — dedi. — Bu da Mö'minə xatun ananın qəbri üstündə tikiləcək abidədir... Bu işi atabəy-ə'zəm özü görmək istəyirdi, amma fələk aman vermədi. Özünün də belə bir istəyi var idi ki, bu abidəni Əbubəkr oğlu tiksin... O, bu qənaətə böyük Şeyx Yusifin sərdabəsinə baxandan sonra gəlmişdi... Mənə demişdi ki, mərhum anan Möminəxatunun türbəsi imam Dəvazdəhin Yezddə tikilən məqbərəsindən gərək gözəl ola, Reydə, Vəramində, Səvədə tikilən sərdabələrdən gərək həşamətli ola. — Ca-

han Pəhləvanın qayğılı nəzərləri əvvəlcə rəisin, sonra Əcəminin sifətində tikilib qaldı. Sözlərinə cavb almadığı üçün daha ötkəm səslə əlavə etdi: — Mən isə əlavə edib deyirəm ki, sərdabədən çox qəsrə oxşaya gərək, lap Bağdaddakı qəsr-Əminə!.. Mən hələ cavan vaxtı Bağdada gedəndə bu qəsrə dönə-dönə baxmışam. Həmin sərdabə-qəsrin müzayiqələrinə tamaşa etməkdən doymaq olmur. Sərdabə-qəsr zərinəyə bürünmüş gəlinə bənzəyir. Bax, mən Möminə xatun ana üçün belə bir abidənin, daha dürüstü, sərdabə-qəsrin tikilməsini arzu edirəm... Həm gözəl ana olsun, həm əzəmətli. Elə əzəmətli ki, bir günlük məsafədən görünsün!..

Araya sükut çökdü. Bir azdan sonra nə fikirləşdisə, səsinə bir mülayimlik verib elə bil öz-özünə danışmağa başladı:

— Deyirlər ki, dünyada üç böyük filosof olub: biri yunandı, ikisi müsəlman. Yunan Ərəstudu, müsəlmanın biri Fəryabidi, biri də Hüseyn Əbuəli ibn Sina... Mənim istəyim budur ki, bizdən sonra gələn nəsillər desinlər: dünyada həm də üç böyük me'mar olub: biri filankəsdi, biri filankəs, biri də Əcəmi. İkisinin haralı olması mənim üçün o qədər də əfzəl deyil, amma birinin naxçıvanlı olması mənim üçün çox vacibdi... Yə'ni "Əcəmi Naxçıvani"...

Hökmdar diqqətlə Əcəmiyə baxdı, başı ilə işarə elədi ki, fikrini bildir, cavabı yubatma.

Elə Əcəminin özü də hökmdarın son sözündən sonra bu qənaətə gəlmişdi:

— Mən istərdim ki, — Əcəmi əlindəki səndəl ağacı ilə yanağını qaşıyıb dedi: — hökmdar cənabları mənə möhlət versinlər... Axı siz mənim boynuma elə bir vəzifə qoyursuz, mənə elə bir iş həvalə edirsiz ki, buna az qala bir insan ömrü gərəkdi... Mən istərəm ki, hər şey ağılla, təmkinlə ölçüb-biçəm, götür-qoy edəm, sonra fikrimi bildirmək üçün hökmdarın hüzuruna də'vət olunam. Ricam budur...

Cahan Pəhləvan söbəti uzatmadı:

— Yaxşı, hər şeyi təmkinlə ölç biç!

— Baş üstə.

— Mürəxxəssən.

...Əcəmi evə yol boyu təxmini olaraq Cahan Pəhləvanın şəhərdə aparılacaq tikililər barədə işlətdiyi siyasətin mə'nasını öz-özlüyündə götür-qoy edib doğru nəticə çıxarmağa başlayırdı.

Saray fərmanında isə bu rəqəmlərin miqdarı çox aydın bir şəkildə Qu'ranın bə'zi ayə və surələrinə əsaslanaraq şəhər əhlinə geniş

şərh olunurdu...

Mö'minə xatun abidəsinin inşasını birbaşa Əcəmiyə həvalə edilmişdi...

## SÖZ SÖZÜ GƏTİRƏR...

Əcəmi evə çox yorğun gəlmişdi. Müəzzinlər şəhər camaatını məscidlərə günorta namazına də'vət edəndə o da evə qayıtmışdı.

Bir az keçməmiş dəbir darvazanı açıb həətə girdi. Salamlaşdılar. Ev sahibi yanındakı qamış kətili dəbirə tərəf itələdi, o da əyləşdi.

Əcəmi dəbiri hələ Şəmsəddin Eldəgəz ölümündən bir neçə ay əvvəl Xorasandan saraya gətirdiyi vaxtdan tanıyıb xoşlamışdı. Əvvəlcə tanış olmuşdular, sonra bu tanışlıq dostluğa çevrilmişdi. Əcəmi ona "mirzə", dəbir də ona "qardaş" deyə müraciət edirdilər.

— Yorulmadın bu daşlarla əlləşməkdən?.. Bilmirəm bu daşlarda nə görmüsən? Özü də lap guşənişin olub getmisən.— deyə dəbir ona qayğı göstərməyə cəhd etdi.

— Mənim nəzərimdə mərmər, daş, kərpic dəyərindədi... Daş isə ölkənin yaraşığıdı, mirzə. Daş varsa yurd abaddı, kənd, şəhər abaddı. Özün çox yaxşı bilirsən ki, daş olmasaydı intibah dövrü çoxdan unudulub getmişdi. Dünya mədəniyyətinin ulu babaları hetlər tarixi səhnəsindən bir millət kimi silinib getsələrdə, onları bu günə kimi yaşadan daşlardı. Hər şey solur, amma daş solmur. Qədim Qobustana, Ordubadın Gəmiqayasına baxanda, onların üstündəki yazılara, şəkillərə nəzər yetirəndə biz də ulu babalarımızı yada salırıq. Sərkədələr, igidlər, daşa dönüb, ehramlara çevrilib əsrlərdən əsrlərə adlayırlar, zamanlardan zamanlara köçürlər, elə bil təzədən cana gəlib gözümüzün qabağında ucalırlar. Yaranışın ən ufacıq heyvanları — ceyran, cüyür, əlik, ən nazlı quşları — kəklik, turac bir təhlükə hiss edən kimi daşa pənah gətirirlər. Daş güclüdür, uludur. Amma insan ondan da güclüdür... Fərhad daşa qalib gəldi, Şirin eşqinə azman qayaları çapıb sübuta yetirdi ki, həqiqi məhəbbətin, təmiz eşqin qarşısında daş da gücsüzdür, qaya da acizdir. — Əcəmi əqiq daşından yonduğu balaca yaraşıqlı bir at fiqurunu dəbirə uzatdı. Oyma, qabartma üsuli ilə ona yüyən, quşqun, tapqır, üzəngi işləmişdi. Yəhəri dərhal tərklikdən seçilirdi. Elə bil zərgər işiydi...

Alıb heyran-heyran baxdı dəbir:

— Xüsusi həvəslə yonmusan!

— İgidlik rəmzidi at... Bir də qonşu uşağa söz vermişəm, xoşuna gələ gərək...

At həqqında ulu babaların dedikləri yadına düşdü dəbirin:

— Açıq-açıq meydana bənzər sənin alıncığın...

Gözləyirdi ki, indicə Əcəmi maraq göstərib soruşacaq: "Mirzə, bu əş'ar kimidi?" Soruşmadı, şe'rin ardını dedi:

— İki şəbçırağa bənzər sənin gözcüyəzin...

Dəbir davam etdi:

— İki qoşa qardaşa bənzər sənin qulancığın...

Əcəmi cavab verdi:

— Əri muradına yetirər sənin arxacığın...

Şe'rin sonunu dedi dəbir:

— At deməzəm sana, qardaş derəm, qardaşımdan yey!

Cavab aldı:

— Başıma gəldi, yoldaş derəm, yoldaşımdan yey!

Bir-birlərinə baxdılar, şe'r söyləməkləri hər ikisinin xoşuna gəlmişdi. Aralığa ani bir sükut çökdü. Əcəmi:

— Qorqud babaya yüz rəhmət. — dedi və "atı" dəbirdən alıb yerinə qoydu.

— Mən heç bilməzdim ki, sən daş haqqında bu qədər söz deyə bilərsən. — Dəbir onun çiyninə vurub güldü. — Adətən sənət adamları güldən, çiçəkdən belə ürəklə danışırlar...

— Sən dediyin şairlərdir.

— Elə sən də şairsən, qardaş! Buna indi daha çox inandım.

— Əfsus ki, yox. Mən özümə görə bənnayam, saraya görə me'mar.

— Saraya görə niyə? Sən sözün əsl mə'nasında me'marsan.

— Əfsus ki, biz daşı daşın, kərpici kərpicin üstünə qoyub evlər tikirik, imarətlər inşa edirik, abidələr ucaldırıq, özümüz isə günü-gündən sökülüb tökülürük. — Əcəmi söhbətin yönünü dəyişmək istədi. — Çünki ömür sarayımızdan hər gün bir kərpic düşür...

— Bu gün niyəsə gözümə bikef dəyirsən, qardaş?

Əcəmi isə işində idi, deyəsən, ürəyini boşaltmaq istəyirdi:

— Fərz edək ki, hər birimizin ömrü bir abidədir, ötən günlər isə əzilib ovxarlanmış kərpiclər. Bu qoca dünyanın əzəli gündən qanunu belədi... Zəhməti yaradana min alqış! Zəhmət olmasaydı bəşər övladı bu torpaq üstündə bir gün də ayaq tutub duruş gətirə bilməzdi, mirzə!

Bu dəfə onun sözünə qüvvət verdi dəbir:

— Zəhmət əmin-amanlıq olanda çiçək açır...

— Əlbəttə, zəhmət xeyirxahlığa güvənməlidi. — Əcəmi də onun dediklərini təsdiq etdi: — Amma nə edək ki, həmişə belə olmur... Qurululari, tikililəri şahlar, hökmdarlar bə'zən vurub uçururlar, dağıdırlar, viran qoyurlar... Od vurub yandırırlar. Lə'nətə gəlsin dava-dalaş da, onlara hərislik göstərən şahlar da! Silah gərək ağıllıların, zəkalıların əlində ola. Bir vaxt gələcək ki, dəlisov hökmdarları, ağılsız qoşun başçılarını, qana həris sərkərdələri lə'nətlə yad edəcəklər. Bizim bu gözəl məkanımız yer üzünə əmin-amanlıq lazımdı, qan-qada yox!

— Axı indi silah iş görür. Ağıl, zəka yox. İndi elə bir zəmanədi ki, ən hörmətli adamlar qoşun başçılarıdı, sərkərdələrdi.. Şan-şöhrət hərisliyi, var-dövlət tamahkarlığı kor edib şahları, hökmdarları.

Əcəmi nəsə fikirləşib onu sakitləşdirmək istədi:

— Analar şah doğmurlar, mirzə. — dedi. — Zülmkarları həyat yetişdirir, həyat yaradır. Həyatla da çiling-ağac oynamaq olmaz. O, zarafatı sevmir. Onun sevinci də çoz olur, kədəri də. Dünya həm quzu kimi mülayimdi, həm də canavar kimi yırtıcı. — Əcəmi bu dəfə uzaqlara baxıb dərin fikrə getdi.

— Deyəsən, yenə bədbinləşdik axı, qardaş? — Əcəmiyə təskinlik vermək istədi dəbir: Yer üzünə bir nəsil gələcək... Bilmirəm yüz ildən, bəlkə də min ildən sonra... Onda tarixi şahlarla, hökmdarlarla deyil, sənət adamları ilə yaxşıya-yamana ayıracaqlar. İntibaha da, durğunluğa da onların işi, əməli ilə qiymət verəcəklər... Deyəcəklər Nizami dövrü... Əcəmi zəmanəsi...

Əcəmi bilirdi ki, dəbirin onunla belə söhbətlər etməyə xüsusi həvəsi var. Buna baxmayaraq söhbəti dəyişdi:

— Filosofluq elədik, bəsdi... — Xəyallarından uzaqlaşdı. — Yeməyə sənə nə hazırlayım?

— Yeyib gəlmişəm, heç nəyə meylim yoxdur. — Dəbir razılıq etdi.

— Yaxşı kəkliotu çayı dəmləyə bilərəm. Xanəgah kəndindən göndəriblər... Əlincənin ətrafındakı dağların döşündən yığılıb. Heç bilirsən həmin dağların gül-çiçəyinin necə gözəl ətri olur... Kəklikotunun bir ətri, çobanyastığının bir ətri, yarpızın bir ətri, qantəpərin bir ətri...

— Bilirəm, qardaş. — Dəbir gülümsədi. — Mənə də xalam hər il Savalanın ətəklərindən yığıb göndərir...

Hər ikisi susdu. Əcəmi durub içəri keçdi, əlində qara çaydan və

iki kiçik piyalə qayıtdı. Çay süzüb birini dəbirə verdi, birini də öz qabağına qoydu. Piyaləni götürüb burnuna yaxınlaşdırdı, bir neçə dəfə dərindən iylədi dəbir...

— Bilirsən nədən ötrü gəlmişəm?.. Hökmdarın təklifinə cavabın nədi?

— Hələlik bir qərara gələ bilmirəm.

— Sən bilirsən ki, Cəmil məndən də çox narahatdı?

— Bilirəm.

— Bir şeyi unutma ki, şahlar rica etmirlər, hökm edirlər, fərman verirlər... Hökmdarın fərmanı ata-babadan bəllidir ki, dürüst də olsa, səhv də olsa yerinə yetirilməlidir. Eldəgəzlər sülaləsinin isə ərkəyi də, dişisi də süründürməçiliyi xoşlamır...

Əcəmi bir müddət dinmədi. Dəbir bundan istifadə edib ürəyini boşaltdı:

— Sən işə başla, özün də fikirləşmə ki, hökmdarın anası üçün sərdabə tikirsən. Sən fikirləş ki, bir sənət əsəri yaradırsan... Qoy yaxşı bir yadigar qalsın dünyada səndən. Axı biz gəlib gedirik, dünya qalır. — Əcəmi dinmirdi, dostunun sözlərinə diqqətlə qulaq asırdı. Dəbir isə elə bil bu vəziyyətdən daha da həvəsə gəlirdi. — Mən gecələr Aya baxmağı xoşlaram. Baxanda da öz-özümə fikirləşərəm: "Ay neçə-neçə yüz illərdi, min illərdi doğur da, batır da, batır da, doğur da... Onun gözəl camalına bir vaxtı babamın babası baxıb, sonra babam baxıb, sonra atam baxıb, indi də mən baxıram... Aya bizdən sonra gələnlər də baxacaqlar neçə-neçə yüz illər, min illər.. Bilirsən niyə? Ona görə ki, işıqlıdı, nurludu, pakdı, aydındı, təmizdi... İnsanın əməli də işıqlı, nurlu olanda niyyəti təmiz, pak olanda sənət də işıqlı olur, ölməz olur, əbədi olur... Bilirsən bu sözləri kim deyib?

— Yox, bilmirəm.

— Sən demisən... Böyük şeyxə, Yusif ibn Küseyr sərdabə tikəndə. Sənətkar sancı çəkən qadına bənzər. Yükünü yerə qoyandan sonra azad nəfəs alar, özünü xoşbəxt bilər. İndi öz sözünü özünə qaytarıram. Əlini-qolunu çırmalayıb işə başla. Ürəyimə damıb ki, sənin əlindən bu dəfə gözəl bir sənət əsəri çıxaçaq... Ürəyimə o da damıb ki, tikəcəyin abidə əzəmətli olduğu qədər də gözəl, gözoxşayan, qəlbləri riqqətə gətirən olacaq. Sən də onu xeyirxah bir ananın məzarı üstə ucaldırsan. O, ana qədər əzəmətli, qadın kimi təravətli olsun gərək! O ki qaldı Cahan Pəhləvana... Bilirsən ki, dediyindən dönən deyil. Sən onun anasına layiqli bir abidə ucaltmasan, yaxandan əl çəkən deyil.

— Bilirəm, mirzə... Amma yenə də götür-qoy edirəm. — Əcəmi ani fikrə getdi, sonra əlavə edib dedi: — Bilirsən ki, me'marlıq həndəsəsiz, riyaziyyatsız keçinə bilməz. Me'mar gərək riyazi risalələri çox kamil bilə. Rəsmxətti də ondan kamil... Bunları niyə deyirəm, məqsədim var. Mənim fikrimcə, me'mar da alimdi. O, özündən sonra bir məktəb qoyub getməlidi. Elə bir məktəb ki, elə bir sənət ocağı ki, onsuz da danışsın, onsuz da, yol göstərsin... Bu ocaq da isinənlər, bu məktəbəbdə kamilləşib yetişənlər özlərini çox arxayıncasına, çox qürurla, Cahan Pəhləvan deyən kimi, "naxçıvani" adlandırsınlar. Onları gələcəkdə Marağada, Səlmasda, Təbrizdə... lap elə bağdadda əsl sənətkarlar kimi tanısınlar. Qoy naxçıvanlı sənətkarların şan-şöhrəti bütün Şərqə, Bütün Asiyaya yayılsın. Şüərə dili ilə desək, me'mara da gərək nəzirə yazanlar olsun... Mən gələcəkdən gələn bu səsləri indidən eşidirəm, mirzə!

— Mən belə yəqin etmişəm ki, dostum, qardaşım Əbubəkr oğlu Əcəmi elə özü dediyi böyük sənətkardı. Onun özü də tikdiyi abidələr kimi getdikcə, zaman keçdikcə daha çox parlayacaq, sehirlənəcək, məşriqdə də, məğrib də də məşhurlaşacaq...

— Sənin dediyin alimlərdi, şairlərdi, mirzə...

— Yox! Bir əş'ar bu gün yazılıbsa, cırıb atsalar sabah işıq üzü görməz. yaxud xəttat itirə bilər, yandıra bilər... Sənə elə gəlir ki, Məs'ud ibn Namdardan, Qətran Təbrizidən əvvəl şair olmayıb... Yəqinimdir ki, olub, amma əş'arları gəlib bizə çatmayıb... Üləmanın kəşfini, tapıntısını, aşkarladığını dəyişə bilərlər. Amma qəsr, abidə, sərdabə dağ kimidi. Əlbəttə, mən əsl sənət əsərləri olan qəsrləri, abidələri, sərdabələri nəzərdə tuturam, əzəmətlə dayanır torpağın üstündə, nə uçur, nə dağılır, nə də məhv olur. Bu şərtlə ki, onlara şahlar, padşahlar qəsd etməsinlər... Bir də belə tikililərin sahibi bütün millətdi, bütün el-obadı. Heç bir namuslu, qeyrətli ərkək istəməz ki, şəhərləri bəzəyən belə nadir incilərə bir xələl gəlsin, bir xəta toxunsun.

Dəbirin sözləri, deyəsən, Əcəminin ağlına batırdı. Xasiyyətinə xilaf olmayaraq qurşağına taxdığı səndəl ağacını çıxarıb bir əlindən digər əlinə ötürə-ötürə ona diqqətlə qulaq asırdı. Dəbir cuşa gəlib onun sənətini tə'rif edəndə, sənətkarların ünvanına xoş sözlər deyəndə Əcəminin dodaqlarında xəfif bir təbəssüm göründü... Bu da dəbirin ürəyincə idi: qoy bilsin ki, xorasanlı balası da bir şey bilir; sarayda xidmət etsəm də, ürəyim saraydan kənardadı, öz əllərinə güvənənlərə, öz halal çörəyini yeyənlərə hüsn-rəğbətim sonsuzdu həmişə...

Buna baxmayaraq dəbir dediyi sözlərin tə'sirini bilmək üçün Əcəmini başdan-ayağa diqqətlə süzdü.

Əcəmi isə fikrə getmişdi, birdən dedi:

— Hökmdar arvadına, hökmdar anasına elə bir əzəmətli bir abidənin inşa olunması şəhər əhlinin ürəyincə olmayacaq. Şəmsəddin Eldəgəzin məzarı üstündə tikilsəydi belə bir sərdabə, yenə dərd yarı idi, bağışlamaq olardı... Ona görə ki, təzə bir xanədanın əsasını qoyub. Fikirləşmək olardı ki, saray da onun müqabilində atabəy-ə'zəmə yaxşılıq edir. Gördüyü işlərə görə, Azərbaycan Atabəylər dövlətinin hüdudlarını genişləndirdiyinə görə qədr-qiyməti özünz qaytarılır. — Mən istərdim, ki, əzəmətli bir sərdabəni əvvəl-əvvəl Kəniseyi- Babəkdə[1] tikim. Babəkin qəbrinin üstündə... Yaxud Bərumənd xatunun qəbri üstündə...[2]

Əcəmiyə çox diqqətlə qulaq asırdı dəbir, ancaq söhbət bura çatanda özünü saxlaya bilməyib e'tirazını bildirdi:

— Bu, mümkün deyil... Sən mümkün olan işdən yapış, qardaş... Xilafətin hələ qılıncının dalı da kəsir, qabağı da...

— Bu gün mümkün olmasa, sabah mümkün olacaq... Bizdən sonra gələn nəsillər bizim səhvimizi islah edəcəklər... Mütləq islah edəcəklər! Sən buna inan, mirzə!..

Bu vaxt Cəmil qapını açıb içəri girdi. Salamlaşdılar. Söhbətin ciddi olduğunu görüb heç nə demədi, yanını "daş qoçun" üstünə qoyub əyləşdi. Əcəmi ona da kəklikotu çayı süzdü.

— Hər nəslin boynuna tarix bir vəzifə qoyur... Gələcək nəslin vəzifəsini gələcək özü müəyyən edəcək.... Mənim hazırkı istəyim, arzum odur ki, dostum, daha doğrusu dostumuz, qardaşımız, — dəbir Cəmilə baxıb söhbətini davam etdirdi: — Mö'minə xatun ananın sərdabəsini gərək elə tiksin ki, adamlar baxanda şad-xürrəm olsunlar, dünyanın heç vecliyini, onun fani olmasını yadlarına da salmasınlar. Ağıllarına belə gətirməsinlər ki, bu qəbirdi, dünyadan köçən bir məxluq burada əbədi uyur, Həmişəlik yatır... Yoxsa ölüm vahiməsi, axirət qorxusu ona baxanları, ona tamaşa edənləri rchdan salar, onları acizləşdirər... Ömürünü sənətə həsr edənlərin ilkin bocu öz əməllərilə adamları bu dünyada yaşamağa, qurub yaratmağa həvəsləndirməkdir, alışdırmaqdır. Bəlkə mən haqlı deyiləm, qardaş?

Əcəmi dəbirin dediklərini başı ilə təsdiq etdi:

— Haqlısan, mirzə... Yüz dəfə, min dəfə haqlısan... Amma hamı-

1. Babək e'dam olunan yer.
2. Babəkin anası.

mızın axır evi qəbirdi. Saraylar da, qəsrlər də, imarətlər də, hətta daxmalar da ancnq bu dünyada mövcuddu... İnsan torpaqdan yaranıb, torpağa da getməlidir.

Cəmil özünü saxlaya bilməyib söhbətə müdaxilə etdi:

— Məsləhət görülübsə, lazım bilinibsə, boyun qaçırma, hökmdar fərmanıdı... Unutma ki, hökmdarlar nər kimi kinli-kidurətli olurlar...

— Bir də bu işi yubatmaq olmaz... — dəbir əlavə etdi.

Əcəmi əvvəlcə Cəmili, sonra da dəbiri diqqətlə süzdü.

— Bilmirəm nə üçün belə təlaş keçirirsiniz?..

Dəbir Cəmilə baxdı, işarə etdi ki, sən agah elə dostumuzu.

— Bilirsən niyə təlaş keçiririk?.. Eşitmişik ki, Məs'ud ibn Əbutahirin ürəyindən keçir ki, Cahan Pəhləvan bu işi ona həvalə eləsin... Məqsədi də budur ki, xanədana elə bir xidmət göstərsin ki, hökmdar onu iqtidar eləsin. Özü də bu işi əş-şeyx ər-rəisin əlilə görmək niyyətindədir. Əş-şeyx ər-rəis araya girsə, bunun axırı bizim xeyrimizə qurtarmaz. Məs'ud ibn Əbutahir dindardır, sənin kimi asi deyil. Az qalır "salam" əvəzinə "xəlifə" "allah" yerinə "xilafət" deyə. Bəni-Eldəgəzləri də ki, tanıyırsan, din xadimlərinə böyük ehtiram göstərirlər... Sən bunları nəzərə almalısan, Əcəmi...

Əcəmi Cəmildən birinci dəfəydi ki, belə ciddi sözlər eşidirdi...

— Mən sizi başa düşə bilmirəm. — Əcəmi çiyinlərini çəkdi. — Mən kiməm ki, nəyəm ki, mənim də düşmənim olsun?

— Bu dünyada düşməni olmayan yoxdu... Diləncinin də düşməni var... camadarın da... Eyni peşə sahibləri isə bir-birini sidq-ürəklə istəməzlər. Üzdə bir-birinə mehriban olsalar da, ürəklərinin bir gözündə mütləq kin-kidurət gəzdirərlər. Hamını özünlə bir ölçmə, qardaş. Sənin kimisini, üzünə demirəm, allah-təala yüz ildə bir dəfə yaradır ki, and yeri olsun, misal ünvanı olsun, nümunə çəkilsin. Cəmilin sözünü qəribçiliyə salma. Düz deyir, hələ öz düşmənləri bir yana, — dəbir Cəmilin sözlərin təkrar etdi: — hökmdarlar nər kimi kinli-kidurətli olurlar... Cəmil yerində dedi bu sözləri...

— Qoy olsunlar, hakimiyyət daimi deyil... Səlcuqun süqutu Eldəgəzlərin parlaması ilə nəticələndi. Bir gün də başqa sülalənin parlaması, şan-şöhrətə çatması üçün Eldəgəzlər sülaləsi süqut etməlidi. — Əcəmi əvvəlki söhbətinə qayıtdı: — Bir məmləkəti həmişə , ömrlük bir sülalə ilə idarə edə bilməz. Hər bir xanədanın bir gün parladığı ikmi, bir gün də uçub dağılması mütləqdir, labüddür... O ki, qaldı sənətkarlara, mirzə, unutma ki, sənətkarları da hər hakim istəməz... Belə

hakimlər onda bir olur...

— Millət ki, istər. Beləlеrinin söz-söhbəti nəsildən-nəsilə keçər, eldən-elə yayılar, bir ərmağan kimi, bir vəsiyyət kimi... Olarlar and yeri. — Əvvəlki sözünü təkrar etdi dəbir: — Bax, budur, ən böyük səadət, budur böyüklük, budur ululuq! Biz də istəyirik ik, qardaşımız bu ululuğun binasını elə sağlığında qoysun. — Bu dəfə Cəmilə mə'nalı-mə'nalı baxdı. Elə bil deyirdi ki, indi sən mənim sözümə qüvvət ver...

— Qoyacaq, mən ustadıma bələdəm! — Cəmil də dəbiri başa düşüb fikrini ötkəm-ötkəm bildirdi. — Biz də ona baxıb şadlanacayıq, şad-xürrəm olacayıq...

— Həmişə şad-xürrəm yaşayanlar bir insan kimi naqis olurlar, Cəmil. Ay Aydı, onun da on beş günü işıq olur, on beş günü qaranlıq... Bunu qayğısız yaşayanlar, yağ içində böyrək kimi ömür sürən nadanlar bilməzlər...

Əcəmi yenə onları əsas məqsədlərindən uzaqlaşdırmaq istədi:

— Gəl bu söhbətlərə ara verək, qardaş... Sən nə deyirsən, Cəmil?

Cəmil çiyinlərini çəksə də, sözünü də dedi:

— Əlbəttə, dünyanın qayğıları, sarayın dərd-səri bizə qalıb? — dəbirə göz vurdu. — Öz dər-sərimizi çəksək bəsimizdi.

Bəli, bəli, — dəbir Cəmilin eyhamını başa düşdü. — Mən bu fikirdəyəm ki, bizim qardaşımıza tək-tənhalıq daha əl vermir. Gör iş o yerə çatıb ki, məsələ hökmdarın da marağına səbəb oldu.

— Eşitmişəm...

— Demək, birlikdə sözləşibsiz... sonra ayrı-ayrı gəlibsiz ki, mən başa düşməyim məramınızı? — Əcəmi səndəl ağacı ilə Cəmili hədələdi...

Aralığa sükut çökdü. Bir müddət heç biri danışmadı. Ancaq Əcəmi yəqin etmişdi ki, dostları onu gözləyirlər.

— Bir də axı kişi niyə subay olur? — Cəmil səbr etmədi.

— Hə, sözündə həqiqət var. — Əcəmi onun dediklərini təsdiq etdi: — Müdrik bir qoca deyib ki, ən böyük dərdlərdən biri də tənhalıqdı... Amma mən bu dərdi çəkməyə öyrənmişəm... Daha doğrusu, adət etmişəm. Bir də gecdir... Artıq saçlarıma dən düşür.

— Ürək cavan olsun! — Cəmil yenə özünü saxlaya bilmədi.

— Gec deyil, inan mənə! Həyat eşqi olandan sonra nə yaş yada düşür, nə də saçlardakı dən gözə dəyir. — Dəbir yadına düşən bir hadisəni tez götür-qoy edib dedi: — Mənim yadımdadı, babam doxsan

yaşında Ərdəbildən xanım-xatın bir övrəti siğə eləyib gətirdi. Onun ehtiramını elə saxlayırdı, onun qayğısına elə qalırdı ki, deyərdin bəs otuz-otuz beş yaşındadır. Mən hələ o vaxt qət elədim ki, babamda həyat eşqi güclüdü... Babamın bir sözü indi də yadımdadır. O deyərdi: "İnsanı bu fani dünyaya bağlayan yalnız həyat eşqidi. O olmasa insan özünü tanıyan günü intihar edər..." Onu da deyim ki, babam həmin övrətlə düz bircə il yaşayıb rəhmətə getdi.

— Allah rəhmət eləsin.

— Qəbri nurla dolsun.

— Məhəbbət zoru sevmir... Məhəbbət, eşq qala deyil, qoşun çəkib alasan. Ac çörək üçün, torpaq su üçün necə darıxırsa ürək də ürək üçün gərək elə darıxa...

— Haqlısan, tamamilə haqlısan. — dedi dəbir. — Amma rica edirəm ki, əş-şeyx ər-rəisin qızından sonra neçə illərdi qapıldığın abidliyə, tərki-dünyalığa meyl göstərmək niyyətinə son qoyasan. Həyat eşqi, həyat nə'şəsi hamıya lazımdır.

Əcəmi dəbirin səsindəki qətiyyəti hiss etdiyi üçün həm narazı, həm də razı vəziyyətdə baxıb dedi:

— Deyəsən, birləşib hücuma keçirsiz?..

— Sən bilirsən ki, dünyada hələ heç kim üç şeyin sirrindən xəbər tuta bilməyib?

— Nədi o üç şey? — Əcəmi güldü.

— Ölüm, səma... bir də məhəbbət...

— Belə de!.. Demək istəyirsiz ki, mən də təzədən eşq, məhəbbət dəlisi olum, hə? Ürək darvaza deyil ki, hər buyuran gəlib keçə...

Cəmil işi belə görüb bir başa əsas məsələyə keçdi:

— Qonşuluğumuzda gözəl bir gəlin var, gəl alım onu sənin üçün. O günü Şahab meydanında körpəsinə maraq göstərən gəlinə oxşayır... Gözəl-göyçək... ağıllı, ifallı...

— O da ötəri bir maraq idi... Baxdım, xoşuma gəldi, vəssalam!.. — Əcəmi güldü və birdən şairlik etdi: — Bir quş idi, budağa qonmuş idi... Uçdu getdi, vəssalam!

— Körpəyə maraq göstərirdin, ya gəlinə?

— Cəmil də sayıqlayır... — Əcəmi üzünü dəbirə tutdu: — Amma yaman gözəl gəlin idi!..

— Hökmdarı qarşılamağa çıxanların içindəydi!.. Özü də şəhərli deyildi...

— Guya şəhərli olsa nə olacaqdı! — Əcəmi yenə güldü. — Gör-

mədin qucağında körpəsi vardı...

— Körpə başqasının da ola bilər...

— Axır sözün, qardaş?

— Evləndiririk, vəssalam! — Çox qətiyyətlə dedi Cəmil.

Əcəmi onları sakitləşdirmək istədi:

— İcazə verin bir də fikirləşim.

Cəmillə dəbir bir-birinin üzünə baxıb razılaşdılar.

— İstərdim sənə bir söz deyəm, qardaş... Nəzərə al ki, Cahan Pəhləvan Naxçıvanda çox qalmayacaq, bu yaxınlarda Həmədana qayıdacaq... Sən şəhər rəisilə işləməli olacaqsan... O da ki sənin bədxahlarından biridi. Əş-şeyx ər-rəisin sözünü qoyub heç vaxt sənin nəfinə danışmaz.

— Düzü.., mirzə haqlıdı, Əcəmi, — Cəmil də təsdiq etdi...

...Əcəmi onları darvazadan ötürüb qayıtdı, otağa keçdi, pəncərənin artırmasında əyləşib dərin fikrə getdi. Qayğılı gözlərini Araza qədər uzanan düzənliyə, oradan da pillə-pillə dağlara dirənən təpələrə dikdi. Bir az sonra boz-boz buludlar bir-birinin üstünə qalandı. Göy qübbəsi elə bil bir az da aşağı endi.

Birdən leysan başladı. Yağışın səs-küyü, göyün gurultusu, bir-birinə dəyib şaqqıldayan buludların səsi, tutqun səmada qıvrılıb açılan şimşəklərin çaxması Əcəminin əhvalında heç bir dəyişiklik əmələ gətirmədi. O, səndəl ağacının uclarını ovuclarının içərisinə alaraq çənəsini onun ortasına söykədi və gah düzlərə, gah dağlara, gah da səmaya, bir-birinin ətəyindən sallanıb az qala torpağa dəyən buludlara tamaşa etdi...

Təbiətin növbəti şıltaqlığı uzun çəkmədi. Birdən elə bil mö'cüzə baş verdi: yağış xırp kəsdi, buludlar dağıldı, şimşəklər yoxa çəkildi. Elə bil kimsə bütün səs-küyü nəhəng bir xaralın içərisinə doldurub dağların arxasına tulladı. Göy üzünə mavi, lacivərd bir örtük çəkdilər...

Elə bu vaxt haradansa həmişə eşitdiyi udun hüzn dolu səsi yenə onun qulaqlarına gəldi. Udun səsi gah enir, gah qalxırdı. Bu səs ona elə bil nakam bir məhəbbətin qəmli hekayətini danışırdı. Udu vaxtı ilə Əcəmigilin qonşusu olan tanışlarından biri çalırdı: kor Əhsən.

...Udun pərdələrində mahir bir ustanın barmaqları gəzirdi. Bu barmaqlardan həzin-həzin səslər süzülüb axırdı. Elə bil göz yaşı kimi duru olan bir bulağın suyuydu bu həzin səslər, elə bil şirin bir ana laylasıydı bu həzin səslər, elə bil qənirsiz bir körpənin gülüşüydü bu həzin səslər... Eyni zamanda, bir gəlin qəhqəhəsi, bir çay coşğunluğu, bir

igid nə'rəsi var idi bu həzin səslərdə... Kor Əhsən muğam çalırdı, qədim bir muğam...

Havanın birdən tutulub, birdən də açılması, udun naləsi Əcəminin fikrini yenə ötən günlərə qaytardı. Neçə-necə illər gəlib ötsə də, hər şey olduğu kimi gəlib onun gözləri önündən keçdi, Elə bil əhvalat dünən-srağagün baş vermişdi.

Yaxşı deyiblər: xatirə heç vaxt qocalmır, həmişə təzə-tər qalır...

## BU XATİRƏ DƏ ƏCƏMİ DİLİNDƏNDİR

Darvazanın çaxçaxını üç dəfə döydüm, əhəmiyyət verən olmadı. Bu həyətdə də ud çalırdılar... Bir də döydüm. Udun səsi birdən kəsildi. Qapının arxasında ayaq səsləri eşidildi. "Kimdir?" Sualı verən zəhra idi, cingiltili səsindən tanıdım. "Mənəm... Özgə adam deyil... qapını aç Zəhra". Cariyə qız adını eşidən kimi qapının cəftəsini yuxarı qaldırdı. Qapı açılan kimi özümü içəri saldım. Zəhra qəsdimi bilib məni arxayın etdi: "Şeyx evdə yoxdu..." Xəbər xoşuma gəldi: "Bu ki oldu nurələnnur..." Başa salmaq üçün dedim: "Bir gün sənə "nurələnnur" barədə danışaram..." Zəhra zarafata keçdi: "Kişisiz evlərə gəlməyi haçandan öyrənmisiz, usta?" Söz məni tutdu: "Mən səni kişi qeyrətli qız bilib gəlmişəm... Şeyx evdə olmasa, qız ki, evdədi... Sözüm var... Sözüm var deyəndəki..."

Bu anlarda elə bil tamam başqa bir aləmə düşmüşdüm. Hökmdar üçün hazırladığım hədiyyəni gətirəndə darvazada əş-şeyx ər-rəislə qarşılaşdığıma görə onun həyətini görməmişdim. Hatib ibn Mübarəkin verdiyi haqqı könülsüz alıb kor-peşman geri qayıtmışdım... Zəhmət haqqımı bir həftə cibimdə gəzdirəndən sonra bir bəhanə tapıb yenidən bu həyətin darvazası qabağında peyda olmuşdum... Bu dəfə heç bir təklif gözləmədən astanadan adlayıb içəri girmişdim. Əş-şeyx ər-rəisin nə gözəl həyəti var idi! Burada gül-gülü çağırırdı, bülbül bülbülü... həyətə elə bil üstünə buta, zanbaq, nilufər, qərənfil işlənmiş xalı salınmışdı. Üzüm tənəkləri talvarın üstünə sərilib həyəti çətir kimi tutmuşdu. Talvarlardan sallanan qəfəslərdəki bülbüllərin, kəkliklərin, qumruların səsləri bir-birinə qarışmışdı , həyətin ortasındakı böyük tut ağacının altında səliqəli bir bənnanın işi olan fəvvarəli hovuzdakı ayna kimi duru suda balaca balıqlar üzürdü. Bir ucu tut ağacına, başqa ucu cavan söyüdə bağlanmış kəndirdən asılan yelləncəkdə Dəryanur rahat-rahat uzanıb mürgü vururdu. O, məni hovuzun başında görən ki-

mi: "Zəhra, Zəhra!"— deyərək özünü yığışdırmaq istədi. Cariyyə qız cəld onun yanına qaçdı, kömək edib onu yelləncəkdən düşürdü. Başım hərləndi, həyətdəki güllər də, çiçəklər də elə bil əriyib bir anın içərisində əriyib yox oldu, quşlar səsini kəsdi, fəvvarələrin suyu qurudu... İndi mən yaşıl Təbriz ipəyindən tikilən dar donun içərisində ancaq Dəryanuru gördüm. Gur qara saçları topuğunu döyən bir qənirsiz gözəlin sifəti də, iri qara gözləri də elə bil od tutub yanırdı.

Dəryanur cariyyə qızın əlindən qurtulub pillələri tez-tez yuxarı qalxdı, özünü pəncərələri gündoğana baxan otağına saldı. Pilləkənləri qalxanda mənə elə gəldi ki, böyük bir balığı kimsə dəryadan çıxarıb quruya atıb, balıq da özünü ora-bura vurub su axtarır, çay, dəniz gəzir. "Balıq" yoxa çıxıb qapı örtülən kimi həyətin işığı da azaldı...

Zəhra mənə baxıb bic-bic qımışdı, üstəlik göz də vurdu. Səndəl ağacı əlimdən yerə düşdü, əyilib götürdüm... Zəhra zarafatla soruşdu: "Hə, kefiniz necədi, usta?" Dilim topuq vurdu: "Nə dedin?" Zəhra güldü: "Eşitmədiniz?" Dedim "Yox". Cariyyə qız əyilib qulağıma pıçıldadı: "Deyirəm kefiniz necədi, usta?" Suala sualla cavb verdim: "Kefim?" Zəhra səsini uzatdı: "Hə.." Dedim: " Yaxşı deyil". Zəhra qoluma toxundu: "Gəlin, əyləşin... Yaxşı kətildi, qamışdan toxunub, çox rahatdı... Gördüz... indicə su sonası da gələr..." Xəbər aldım: "Kimdi elə su sonası?" Zəhra göz qaşını süzdürdü: "Əş-şeyx ər-rəisin qızı... Hatib ibn Mübarəkin ceyran balası!.."

Yadımda deyil hansısa şe'rdən bir beyt dedim. Sonra dönüb cariyyə qıza baxdım, o, çiyinlərini çəkdi. Soruşdum: " Bilirsən şair nə deyib?" Zəhra yenə çiginlərini çəkdi: "Yox, bilmirəm". İzahat verdim: "Şair deyib ki, qüdrətinə alqış, ey yaradan! Gör sən necə qadirsən ki, bir damladan belə bir gözəl xəlq eləmisən, belə ilahi vüçud yaratmısan!.." Zəhra sözümü kəsdi: "Gəldi gözəl vücud!.."

Dəryanur pillələri yavaş-yavaşə endi. O, indi ayrı paltarda idi. Yasəmən rəngində Xorasan şalından oyma geymişdi, nazik belinə yaşıl məxmərdən tikilmiş kəmər bağlayıb, üzünə niqab salmışdı. Axırıncı pillədən düşən kimi soruşdu: "Bilmək olar, usta cariyyə qıza qoşulub nəyə gülür?" Sözü azdırdım. "Bu gün ən gözəl gündü". Dəryanur maraqlandı: "Niyə?" Haradansa ağlıma gəldi: "Gecəynən gündüz tən yarı olur..." Dəryanur güldü: "Hardan bilirsiz?" Dedim: "Münəccimlər belə müəyyən ediblər". "Amma onun bu həyətə dəxli-zadı yoxdu". Bu sözləri deyən Zəhra idi. Bu dəfə mən maraqlandım : "Niyə?" Zəhra bic-bic göz vurub dedi: "Çünki bu həyətin öz ayı var, kecələr onun işı-

ğı bu həyəti nura qərq edir"... Özümü saxlaya bilmədim: "Mərhəba, Mərhəba!.."

Dəryanur söhbətin səmtini dəyişmək istədi: "Ustanın gəlməkdə məramı nədi?" Bir az duruxandan sonra dedim: "Mən evdə xeyli fikirləşəndən sonra belə qənaətə gəlmişəm ki, hökmdar Atabəy Şəmsəddin Eldəgəz üçün hazırladığım hədiyyəyə görə atanız... Hatib ibn Mübarək cənabları mənə zəhmət haqqını çox veribdir... Gətirmişəm onun yarısını geri qaytaram..." Dəryanur güldü: "Elə buna görə usta təşrif gətirib?.. O artığı şagirdinizə verə bilməzdiniz, gətirsin?" Dedim: "Niyə verə bilməzdim, əlbəttə, verə bilərdim... Diribaş oğlandı mənim şagirdim Cəmil". Bu dəfə sözlərimi Zəhra təsdiq etdi: "Bilirik..." dedim: "Amma özüm istədim ki..." Sözümün ardını demədim. Dəryanur nə başa düşdüsə Zəhraya dedi: "Yeri şərbət gətir... Meyvə də, Şirniyyat da..."

Cariyyə qız əlilə sağ gözünü qapayıb, o birisilə göz vurdu, qaça-qaça pillələri qalxıb otağa keçdi. Dəryanurla üz-üzə dayandım: "Xatun, mənim indi nə gecəm var, nə gündüzüm..." Dinmədi. İstədim əlimi atıb onun niqabını qaldıram, ay üzünə doyunca tamaşa edəm. Mane oldu, niqabı özü geri atıb iri gözlərini mənə zillədi. Heyran-heyran baxıb nə edəcəyimi bilmədim, əllərimi ona tərəf uzatdım. Bir an keçməmiş onun yaraşıqlı əllərini ovuclarım içərisində gördüm. Özümü saxlaya bilməyib onları dodaqlarıma sıxdım. Dəryanur geri çəkildi: "Lazım deyil!" Dedim: "Lazımdı.."Demədim nə gecəm, var nə gündüzüm?.." Baş şeyxin qızı dedi: "Bundan sonra olar". Başa düşmədim Dəryanuru. Soruşdum: "Necə yə'ni bundan sonra?.." Sözümü azdırdı: "Özünüz demədiniz ki, bu gün... gecə ilə gündüz yarı olur?.."

Hovuzun kənarından fırlanıb tut ağacının altına keçdik. Əlimi atıb budaqlardan birini aşağı əydim, iki dənə tut dərdim, birini Dəryanura verdim, birini də ağzıma atdım: "Tut mənim ən çox sevdiyim meyvədi... Gördüm... nəfsimi öldürmək üçün gərək heç olmasa birini dərib yeyəm." Dəryanur yenə ikibaşlı danışdı: "Kişilərin nəfsi güclü olur!.." E'tiraz etdim: "Yox xatun... Mən nəfsi bütöv kişilərdənəm... Hər meyvə üçün sinov gedən deyiləm. Xoşuma gələn meyvənisə yeməmiş rahat ola bilmərəm..." Dəryanur özünü bilməməzliyə vurdu: "Onda alın... Mən öz payımı sizə bağışlayıram." Aldım: "bu daha şirindi..." Dəryanur güldü: "Niyə" Dedim: "Çünki şeyx qızının öz şirinliyi ona qarışdı..."

Səndəl ağacını qurşağıma keçirdim, cibimdən qələm, kağız çıxardım. "Gəl əyləş, rəsmini çəkim." E'tiraz etdi: "Yox, yox... şəriət bu-

na yol vermir... Şeyx... hə, hə atam deyir ki, insan surətini kağıza köçürmək Qur'anı başqa dilə çevirmək kimi günahi-ə'zimdir. Allah-təala bunu yasaq edib. Mənə başqa rəsm çəkin..." Soruşdum: "Məsələn nə?" Fikirləşib dedi: "Məsələn, əbhər[1], vərdi[2], zanbaq... Məsələn, quş... göyərçin, qumru... lap elə ceyran..." Dedim: "Nə çəksəm sənə oxşayacaq." Soruşdu: "Niyə?" Cavab gözlənilməz oldu: "Ona görə ki, ürəyimdə təkcə sənsən, gözlərimdə təkcə sənin surətindi... çəkimmi?.." Əvvəlki kimi dedi: "Yox, yox!.." Qələmi də, kağızı da qaytarıb cibimə qoydum, səndəl ağacını qurşağımdan çıxarıb ucu ilə yanağımı qaşıdım: "Ürəyinizcə deyilsə, israr etmirəm... Mən istərəm ki, hər şey Dəryanurun öz ürəyincə olsun... Onun ürəyincə olmayan hər bir istək, arzu mənim də ürəyimdə özünə yer tapa bilməz..."

Dəryanur başını aşağı dikdi, sonra boynunu sol çiyninin üstünə əyib mayıl-mayıl mənə baxdı. İrəli yeridim, istədim onu qucaqlayıb bağrıma basam. Dəryanur aşağı əyildi, qolumun altından keçib tut ağacının arxasında gizləndi və soruşdu: "Şeyx bizi belə görsə ona nə deyərsiz?" Güldüm: "Deyərəm ki... deyərəm ki, mən sizin qızınıza vurulmuşam... Onun dərdindən olmuşam Məcnun... Əlim işdən soyuyub..." Şeyxin qızı dedi: "sevənlərin əli işdən soyumamalıdı, usta! Sevənlərdə Fərhad dəyanəti olmalıdı. Onlar gecələri gündüzə qatıb şirin yolunda dağ çapmalıdırlar..." Sözlər ürəyimə yatdı: "Deyirlər iki gözəllik bir yerdə olmaz. Amma bu səhv imiş. Əş-şeyx ər-rəisin qızı gözəl olduğu qədər də ağıllıymış!.. Getməyəcəyəm, qoy atanız gəlib məni burada görsün." Dəryanur başını sol çiyninə əyib dedi: "Birdən xəbər alsa ki, ey cavan, burda nə işiniz?.. Onda nə deyərsiniz? Yəqin ki, heç bir söz tapa bilməz usta." Dedim: "Taparam.. hələ üstəlik deyərəm ki... deyərəm ki, elçiliyə gəlmişəm, qızın Dəryanurdan ötrü..."

Zəhra əlində gümüş sini səkidə göründü, ona gizli işarə elədim ki, gətirmə, özün də gəlmə... Başını aşağı dikib fikirli-fikirli niqabının uclarını eşən Dəryanur bunu görsə də üstünü vurmadı. Zəhra tabe olub geri qayıtdı. Dəryanur ah çəkdi, əllərilə qulaqlarını qapadı: " Axı bu mümkün olan iş deyil..." Mən təccüblə soruşdum: "Niyə?!" Şeyxin qızı üzünü yana çevirib elə bil başqasına dedi: "Birini bilirsiniz, birini yox..."

Marağım artdı:

— "Başa düşmədim!"

Dəryanurun sinəsindən bu dəfə daha dərin "ah" çıxdı: "Uzun sö-

1. Nərgiz çiçəyi.
2. Qızılgül.

bətdi... nağıl kimi çox uzun..."

— Təccüblə xəbər aldım:

— "Nə?" Dəryanur bir az fikrə gedəndən sonra mənə yaxın gəlib əlimdən tutdu: — "Heç... Bilirsiniz nə var?.. Şeyx burada deyil, bu gün sübh çağı Təbrizə getdi. İki həftə burada olmaycaq... Axşam ay doğanda gələrsiniz... Mən özümü sizə tanış verərəm... Snrasına baxarıq. Razısız?.. İndi dərzi gələcək, təzə çələbiyyə tikdirirəm, sizinən görüşəndə geyəcəyəm. Zəhranı göndərəcəyəm məscidə, xatir axşamıdı, qalsın orda, dua eləsin özünə, mənə... Ay doğanda həyətdə təkcə mən olacağam. darvazanı Ay doğan kimi açıq qoyacağam..."

Dəryanurun bu sözlərindən nə qədər sevindimsə, əş-şeyx ər-rəisin qızının "özümü sizə tanış verəcəyəm" sözündən bir o qədər narahat oldum, nigarançılıq keçirdim... Elə bil Dəryanur bunu başa düşdü, o biri əlini də mənə uzatdı. Onun ipək kimi yumşaq əllərini iki ovcum içərisinə aldım, istədim dodaqlarıma yaxınlaşdıram, başımı qaldıranda əş-şeyx ər-rəisin qızının pərişan olduğunu görüb fikrimdən çəkindim. Dəryanurun sifətinə müəmmalı bir kölgə enmişdi, həmişə çıraq kimi yana iri gözlərinə mə'sum bir pərdə çəkilmişdi. Dəryanur əllərini ovuclarımın içindən çəkdi, geri dönüb pillələri qalxdı.

Daha heç nə soruşmadım, darvazanın balaca qapısını açıb çıxdım. Ancaq mənə agah idi ki, Dəryanur özünü saxlaya bilməyəcək, otağa girən kimi göz yaşları tökəcək, yanaqlarını xeyli vaxt ovucları içərisində gizlədib ağlayacaq...

...Onun dediyi vaxt gəldim. Darvaza həqiqətən açıq idi. Amma Dəryanur dediyi yerdə deyildi. Pillələri sakit-sakit çıxıb eyvanı bir çətir kimi tutan tənəyin altında dayandım. Nəfəsimi dərdim. Ömrümdə ilk dəfəydi ki, gecə vaxtı başqasının həyətinə ayaq basırdım.

İlk addım həmişə çətin olur, ilk addımda həmişə qorxu, həyəcan var, həm də, cür'ət, igidlik, arzuya çatmaq məramı... Keçilən yolu keçməyə nə var ki!

Tənəyin arasından on dörd gecəlik Ay işığı eyvana səpildi. Yuxarı baxdım. Səma aydın idi. Ay bütün nurlu sifətilə özünü buludların arasından yerdəki aşiqlərinə göstərirdi. Onun süd kimi şəfəqləri eyvanın küncünə də süzülürdü. Dəryanur açıq çəhrayı Təbriz ipəyindən tikilən çələbiyyəsində[1] küncə qoyulan təxti-xabın[2] üstündə uzanmışdı. Yaraşıqlı sifəti, balıncın üzərinə tökülən şəvə saçları ona nağıllarda təsvir olunan mələklərə məxsus ilahi bir görkəm vermişdi...

1. Qadın üçün gecə köynəyi.
2. Yatmaq üçün çarpayı.

Pəncələrim üstə yaxın gəldim, qamışdan toxunan kətilə əyləşdim, Dəryanura baxdım... Nitqim qurudu, nə çağıra bildim oyansın, nə toxuna bildim diksinsin. Bir də ürəyimdən gəlmədi ki, ulu təbiətin bu gözəl növrağını pozum, ona kiçik də olsa bir xələl gətirəm...

Kətili bir az yaxına sürüdüm, dinməz-söyləməz maddım-maddım baxdım. Ürəyimdən qəribə bir hiss keçdi: " Ey ulu qüdrət! Amandı, Aya hökm elə dayansın, buludun arxasına girməsin... İşığını bu balaca eyvana daha çox göndərsin... mən baxmaq istəyirəm təbiətin bu mö'cüzəsinə, dönə-dönə tamaşa etmək istəyirəm..."

Yox, ilahi öz ilahiliyini, qüdrət və ululuğunu göstərmədi. Ay buludda gizlənib öz şüalarını eyvanın küncündən çəkdi. İstədim ayağa durub Ayın şüalarını dəstələyib ovuclarıma yığam, çəkilib getməyə qoymayam. Bacarmadım, qüdrətim çatmadı. Nağıl bitdi, mö'cüzə də qeyb oldu... Elə bu vaxt Dəryanur çarpayıda böyrü üstə döndü, nəsə pıçıldadı. Cəld irəli çıxıb yavaşca dedim: "Mənəm, Dəryanur... Gəlmişəm..." Dəryanur gözlərini açdı: "Oy qorxdum!.." Kətili çarpayıya yaxın çəkdim, diz çökdüm: "Qorxma, Dəryanur, mənəm..." Birdən gözləmədiyim halda məni qucaqladı. Qollarımız bir-birimizin boynuna dolandı, dodaqlarımız bir-birinə yapışdı...

Bir az sonra eyvanda yanaşı oturmuşduq. Ay göy qübbəsindən xeyli aralanıb məğribə enmişdi. Özü də kiçilmişdi, nuru azalmışdı. Deyərdin boz-qara buludlar bu saat onu bürələyib üfüqün dalına atacaqlar... Dəryanur ah çəkdi: " Ay batdı, Əcəmi..." Dedim: "Nur lazımdı..." Dəryanur eyhamımı başa düşdü: "Sənin dəryanın nuru da gündən-günə azalır... Bir azdan sonra onun üzünə də bax elə boz, qara buludlar örtəcək..." Əlimi çiyninə qoydum: "Elə danışma, Nur... Sən elə danışanda mənə elə gəldi ki, bulaqlar qurudu, çaylar dayandı, güllər soldu, bülbüllər susdu... Mən sənə yaman öyrənmişəm, Nur... Sənsiz gündə min dəfə gedib-gələn nəfəsimdə bir nalə olar. Gündə dünyaya min dəfə baxan gözlərim də sənsiz heç nəyi görməz... Sənin kimi bir gözəlin əli ilə Sululəbr bazarında qul kimi satılmağa aparılsam da boyun qaçırmaram..." Dəryanurun könlünü almaq istədim və zarafata keçib dedim: "Amma bir şərtlə..." Dedi:" Nə şərtdi o?" Dedim: "Həmin bazarda məni qul kimi gərək özün alasan... Həmişə qulluğunda durmaq üçün... Mən indi bilirəm ki, sevgi, məhəbbət nə olan işdi bu dünyada, birinə vurulmaq nədi, birini sevmək nədi bu aləmdə. Sən nə gözəl imişsən , həyat! Var ol məhəbbət!" Dəryanur birdən dedi: "Bəlkə dedim ki, sevmirəm səni..." İnanmadım: "Bu ona bənzəyir ki, yağışa

deyəsən yağma, günəşə deyəsən doğma! Mümkün deyil! Və mənə deyəsən sevmə... bu heç mümkün deyil!.." Dedi: "Mümkündü..." Dedim: "Necə mümkündü?.. Gözümə bu gün bir təhər dəyirsən?" Dedi: "Nə təhər?" Dedim: "Necə deyim, qəmgin, fikirli... bir az da..." Dedi: "Bir az da müəmmalı, anlaşılmaz... başadüşülməz..." Dedim: " yenə nəsə qaldı". Dedi: "Bir az da utanmaz... bihəya" Ayağa durdum: "Sən nə danışırsan?.."

Dəryanuru qəhər boğdu, əli ilə göz yaşlarını sildi, özünə bir az toxtaqlıq verib dedi: "Görmürsən... dəyişilmişəm... Əvvəlki deyiləm?.. Niyə dinmirsən?" Sualına cavab vermədin, özüm sual verdim: "Niyə qəmlisən Nur?" Bir müddət üzümə baxdı: "Birini bilirsən, birini yox..." Dedim: "De, ikisini də bilim..."

Əş şeyx ər-rəisin qızı əvvəlki deyildi, həqiqətən xeyli dəyişilmişdi... Bu gün onun təxti-xabdakı yatışı, mənimlə birdən-birə yaxınlıq etməsi də bundan xəbər verirdi. Bəs nə olmuşdu? Bu dəyişikliyə səbəb nə idi?.. Bəlkə mən də iradəsitz cavanlardan olaydım, nəfsim güc gələydi, özümü ələ almağa iradəm çatmayaydı... Yaxşı ki, hər şey yaxşı qurtardı. Ürəyimdə bir neçə dəfə öz-özümə sual verdim: "Görəsən Dəryanur birdən-birə niyə məni özünə yaxın qoydu?" Amma cavab tapa bilmədim. Ürəyimdən keçən sualı bilə-bilə qəsdən dilimə gətirmədim. "Qoy nə varsa özü açıb desin. Bilirəm ki, qadınlar sirri uzun zaman özlərində saxlaya bilməzlər. Zəif məxluqdu qadınlanr, bədəncə də zəif olurlar, iradəcə də... Tez inanırlar, tez küsürlər, tez də barışırlar. Bu, onların həm yaxşı cəhətidi, həm də pis. Bu xasiyyət onlara gah xeyir verir, gah da ziyan gətirir..." Fikirləşdiklərim düz çıxdı. Dəryanur dedi: "Şeyx təzə eşqə düşüb..." Soruşdum: "Nə eşq, Dəryanur?! Yoxsa atan evlənmək istəyir?.." Dəryanur ayrı cavb verdi: "Bizim möhtərəm şeyx, adamları tez-tez xəbərdar edib deyər: Qur'anda yazılıb ki, zalım olmaq günahdı..." Sözünə qüvvət verdim: "Günah yox, cinayətdi!" Dediklərimi elə bil təsdiq etdi: "Daha bilmir ki, zalimlardan biri də özüdü!.." Təccübləndim: "Bu nə sözdü, dəli olmusan?.. Adam atası barədə elə danışmaz. Ələxüsus qızlar". Dəryanur ağladı: "Eh, Əcəmi, birini bilirsən, birini bilmirsən". Ürəyim sıxıldı: " Ağlama Nur... Mən sənin göz yaşlarını görəndə sarsılıram... Açıq danış görüm nə olub?" Dəryanur göz yaşını silə-silə dedi: "Bizim sevincimiz də, kədərimiz də göz yaşlarımızdı. Ürəyimzdən qalxıb didələrimizə toplaşır, oradan da kipriklərimizə, yanaqlarımıza axır... Yastığımızı, yorğanımızı isladır... Allah təalaya inayət qılıb heç birimizi axıra kimi xoş-

bəxt etmir, öz əlsiz-ayaqsız kəsiklərinə ilk qisməti ahu-zardı, dərd-sərdi..." Bu dəfə hönkürdü. Dedim:"Bir toxta, bir danış görüm axı..." Sözümü kəsdi: "Danışa bilmirəm... Bilmirəm deyəndə ki... Axı səni necə başa salım, axı necə danışım?.. Bilirsən şeyx... şeyx mənim atam deyil!.." Özümü itrdim: "Sən nə danışırsan?!." Dedi: "Biz iki bacıydıq. Atam kasıb bir kişiydi. Anamız tez ölmüşdü. Atam kiçik bacım Cahannurla məni Təbrizdən götürüb Xorasana gəldi. Bir koma tapıb yaşamağa başladıq. Hatib ibn Mübarək də bizə qonşu idi... Atamı mücövür götürdü. Bir azdan sonra atam sətəlcəmdən öldü. Qaldıq kimsəsiz. Bir gün şeyx bizi yanına çağırdı. Cahannura dedi: "Hazırlaş, səni özümlə aparacağam Təbrizə. Bir dostum var, ona xidmət edərsən. Tapşıracağam səndən muğayat olsun. Dəryanuru isə özüm saxlayacağam, qızım kimi. Yekə qızsız, sizə demək olar... Mən evlənməmişəm və evlənən də deyiləm. Mənə xidmət edən gərəkdi. Mən bu fikirdəyəm ki, Dəryanur mənə yaxşı xidmət edər." Biz ağladıq. Cahannur dedi: "Yalvarıram, məni bacımdan ayırma." Mən də istəyirdim ki, ağzımı açam, şeyx hirslənib özündən çıxdı: "Yaxşı, onda verərəm ikinizi də qul kimi satarlar bazarda. Atanızın mənə xeyli borcu var... Vəssalam!.." Dəryanur dayandı. "Bəs sonra?" Sualıma cavb belə oldu: "Sonra şeyx, bacımı apardı Təbrizə, məni də gətirdi bura. Beləliklə, neçə illərdi ki, bir-birimizdən xəbərsizik... Ölüsün-qaldısın bilmirəm. İndi də məni Bağdada aparmaq istəyir." Soruşdum: "Nədən ötrü?" Dəryanurun cavbı qısa oldu: "Allah bilər..." Soruşdum: "Sən də getmək istəyirsən?" Cavab əvəzinə sual verdi Dəryanur: "Dalımca gələcəksən?" Dedim "Yox!" Mə'yus oldu: "Niyə?" Bir xeyli fikirləşəndən sonra cavab verdim: "Əvvəlki Dəryanur olsaydın gələrdim... Amma sənin dalınca gəlmərəm..." dedi: "Niyə" Cavabım bütöv olmadı: "Ona görə ki..." Soruşdu: "Niyə dayandın?" Tərəddüd etdim, qəlbinə dəymək istəmədim. İsrar etdi: "Danış, Əcəmi... Sözlü adama oxşayırsan." Fikrim açıq dedim: "Mənim də iki-üç ay olar ki, ürəyimə danmışdı... Səndən belə bəd xəbəri gözləyirdim... Onu da yəqin etmişdim ki, sən xeyli dəyişmisən!" Dəryanur əl çəkmədi: "Nədən yəqin etmişdin?" İzah elədim fikrimi: "Baxışlarından, davranışından..." Dəryanur fikrə getdi, mənə məlul-məlul baxdı: "Mən səni ləyaqətli bir cavan kimi həmişə yad edəcəyəm, Əcəmi..." Dəryanur eyvanın məhəccərinə söykəndi, mahnıdan daha çox ağıya bənzər bir səslə dedi: "Bu fani dünya kuzəyə bənzər, suyu gah şirindi, gah da zəhər..."

Daha dayana bilmədim, pillələri də enmədim, səndəl ağacını qur-

şağıma taxıb eyvanın məhəccəri üstündən həyətə düşdüm və sübhün alatoranında qeyb oldum...

Yol gələ-gələ fikirləşdim: "İnsafı itirmək olmaz. Dəryanur təbiətin yaz fəsli kimi, bahar səması kimi gözəl idi. Guruldadı, səs-küy saldı. Sonra da yaz fəsli bitdi, yay keçdi, hərarət azaldı, payız gəldi, təmiz bir eşqin sədaları da xırp kəsildi... Axı qadın da elə səma kimidi, gah gülür, gah ağlayır. Haray o gündən ki, ürəyinə kin-küdurət dola. Onda üzünü görmə bu yarımışların, bu yarımamışların!.." Evə qayıtdım. Darvazanı açıb həyətə girəndə yağış başladı, sonra külək əsdi. Həyətdəki bütün ağacları silkələdi, yarpaqlarını yollub yerə tökdü...

## QƏBULLAR

### BİRİNCİ QƏBUL

Şəhər rəisi Eldəgəzlər dövlətinin ikinci hökmdarı şərəfinə böyük bir ziyafət düzəltmişdi. Cahan Pələvan cənublulara məxsus qanıqaynar naxçıvanlılardan arxayın olandan, atabəy-ə'zəm üçün e'lan etdiyi matəm günləri başa çatandan və Həmədandan Naxçıvana qədər uzanan yolların yorğunluğu yavaş-yavaş canından çıxandan sonra bu fikrə gəlmişdi. Bir də rəyasəti ələ keçirəndən, cavan bir dövlətin bütün qayğılarını, məmləkətin dərd-sərini çəkməyi boynuna götürəndən, iki ay içərisində iki əziz adamına — Anası Mö'minə xatuna və atası Atabəy Şəmsəddinə saxladığı matəm günlərində ürəyinə dolan kədəri özündən uzaqlaşdırmpq üçün ova çıxmağa, dağ havası almağa, əylənməyə, kef etməyə nəsə bir ehtiyac duyurdu...

Bu, adi adamın ehtiyacı deyildi, hökmdar ehtiyacı idi, saray sahibinin ehtiyacı idi. Rəyasət sahiblərinin isə əzli gündən sevgisi də böyük olur, nifrəti də, qayğısı da böyük olur, ehtigacı da...

Cahan Pəhləvan Naxçıvanda olacağı vaxtda öz istirahətli günlərinə rəisin ziyafətindən başlamışdı.

Salona bütün saray ərkanı də'vət olunmuşdu. Mərhum atabəy-ə'zəmə yaxın olan bə'zi məliklər də, ədiblər də, alimlər də yaddan çıxarılmamışdı.

Məclis uzun çəkmədi, hökmdarın hələlik yaslı olması, atabəy-ə'zəmi hələ qırxının çıxmaması nəzərə alınaraq məclisə nə xanəndə çağırılmışdı, nə də həqqasələr də'vət olunmuşdu. Buna görə də tə'riflərə, mədhiyyələrə geniş yer verilmişdi. Hərənin də ağzından bir avaz

gəlirdi. Rəis deyirdi: "Eldəgəzlər xanədanının yeni hökmdarı Cahan Pəhləvan bütün əmirlərin günəşidir. Onun qılıncı qarşısında polad da ipəkdən yumşaqdı. Heç bir qəza bunun qılıncından boyun qaçıra bilməz..."

Tacir deyirdi: "Yenə dövlət və xoşbəxtlik karvanı bizə yön gətirdi, əzab və ağrı yerinə bizə şadlıq və sağlamlıq bəxş etdi..."

Ədib deyirdi: "Sən istədiyin qədər ney və rud ilə, arzu etdiyin qədər cəlal və kamranlıqla yaşa, ey bizim həşəmətli hökmdar..."

Şair isə hökmdardan əvvəl yaşamış bir şahın şə'ninə deyilən əş'ara öz əlavələrini də edib, onu Cahan Pəhləvanın ünvanına yamayırdı: "Ay üzlü saqilərdən günəş tək badələr al, Zöhrə üzlü mütrüblə sühə kimi oyaq qal"...

Cahan Pəhləvan gizli-gizli arabir Şərur məlikinə göz qoyurdu. Məlik Oğuz ağzına su alıb bir kənarda əyləşmişdi, nə yeyib-içir, nə bir kəlmə kəsirdi. Saray sahibi fikirləşirdi: "Deyəsən, bizimki tutmayacaq, Salur törəməsi... Ürəyimə damıb ki, sənə bel bağlamaq olmaz..."

Elə bu vaxt küncdə özünü dartıb şəstlə əyləşən və tez-tez tavana baxan ortaboylu, bədəncə arıq bir adam ayağa qalxdı. Onun dazlaşmış başı, alnındakı çin-çin qırışlar saray sahibinin xoşuna gəlmədi, buna baxmayaraq, onu yerində oturtmaq istəyən rəisə işarə elədi ki, qoy danışsın. Bu, şair Kəmaləddin Naxçıvani idi. Şair əyləşdiyi kürsüdən uzaqlaşıb ördək yerişilə otağın ortasına gəldi, uzun boğazını irəli uzadıb dedi:

— Gərək Suheyl ulduzu kimi şö'lə saçasan ki, başqa ulduzlar da ətrafında fırlana... Gərək dağ kimi qəlbi olasan ki, təpələr də sənə sığına... Gərək dəryalar kimi geniş, dərin olasan ki, nəhrlər də baş götürüb sən səmtə axa... Siz suheylsiz, siz dağsız, siz dəryasız, bizim həşəmətli hökmdarımız. Mən sizə böyük bir mədhiyyə yazacağam. İndi isə həmin mədhiyyənin bir beytini burda deyirəm: "Qoy daima var olsun bu möhtəşəm xanədan, Yüksəlsin ərşi-fələyə bizim şahi-cahan..."

Şair keçib yerində əyləşəndə rəis fikirləşdi: "Bu köpək oğlu adam kimi danışırmış ki!.. Az qala ürək-göbəyimi yemişdim!.."

Cahan Pəhləvan isə məclisin əvvəlindən dinib-danışmadı, qulaq asdı. Ancaq şəhər rəisi məclisin başa çatdığını hökmdara istirahət verməyin lazım olduğunu bildirmək istəyəndə hökmdar sağ əlini yuxarı qaldırdı. Bu, o demək idi ki, dayan, kiri.

— Bəlkə, şəhərimizin baş me'marı Əcəmi Əbubəkr oğlunun da

sözü var. — Sualı verən Cahan Pəhləvan idi.

Salonda pıçhapıç başladı. Çünki hökmdar Əcəminin sarayda yeni rütbəsini e'lan etmişdi. Bu qəfil e'lanı eşidəndə şəhər rəisi qulaqlarına inanmadı... Axı ikicə gün bundan əvvəl hökmdara eşitdirmişdi ki, me'mar Məs'ud ibn Əbutahiri şəhərin baş me'marı tə'yin etmək niyyətindədi. Ancaq gec imiş. Əş-şeyx ər-rəis, özü demişkən, gönü vermişdi suya.

Əcəmi fikirləşdi: "Siyasətdə, deyəsən, atandan heç də geri qalan deyilsən, ay Atabəy..." və ayağa qalxıb, əlini sinəsinə qoyub azacıq baş endirdi.

— İndicə bəyan etdiyiniz böyük e'timada... böyük e'tibara görə məni Eldəgəzlər xanədanına... özünüzə ömrlük borclu saldınız, hökmdar... Mən bu yadda qalan gününüzdə sizə nə arzulaya bilərəm? — danışığına bir an ara verib əlavə etdi: — saray ərkanı bilir ki, mən bənnayam...

— Sən me'marsan, Əbubəkr oğlu!

— Qoyun siz deyən olsun hökmdar. — Əcəmi yenə ehtiramla baş endirdi: — Mənim gözlərim əzəli gündən, ağlım kəsəndən hər yeri abad görməyə alışıb. İstərəm Eldəgəzlər xanədanına baxan bütün kəndlər, şəhərlər abad olsun... Nə bir ev dağılsın, nə bir koma uçurulsun, nə də bir malikanə yandırılsın. — Əlindəki səndəl ağacını qurşağına taxıb əllərini sinəsində çarpazladı: — Əkinlərimizi düşmən qoşunlarının atları ayaqlamasın, bağ-bağçamızın meyvələrini yağılar dərməsin. Azərbaycan atabəyləri yurduna əli silahlı əcnəbilər pis niyyətlə ayaq basmasınlar. Siə də atabəy-ə'zəmi böyük işini, xeyirxah əməllərini sağ-salamat davam etdirəsiz, padşahı olduğunuz dövlətin nüfuzunu daha da artırasız, bayrağını daha da uca tutasız!..

Cahan Pəhləvan fikirləşdi ki, onun üçün bundan gözəl, bundan ağıllı xeyir-dua ola bilməz...

## İKİNCİ QƏBUL

Cahan Pəhləvanın həddi-bulağa çatan gündən qadın barəsində fikirləri çox dumanlı idi: Bə'zi kişilər fərsizlik üzündən qul olsalar da, övrətlər ana bətnindən qul doğulurlar... Onlar qul kimi böyüyür, qul kimi də ərsəyə çatırlar. Bazardan alınan hər şey sənin malın, əmlakın olduğu kimi, ərsəyə çatan bir qızı da, istər ata evindən alıb özünçün

övrət elə, istər qul bazarından alıb hərəmlərinin içərisinə ötür, fərqi yoxdu, o da quldu. Daha doğrusu sənə məxsusdu, bazardan alınan əşya kimi, əmlak kimi. Bircə fərqi var ki, canlıdı, istədiyin vaxt sənə həyan olur, səni əyləndirir. Çünki sənə məxsusdu, sən onun sahibisən... Sahibisən, demək onunla istədiyin kimi rəftar da edə bilərsən. Çünki külli-ixtiyarsan... Sevə də bilərsən, nifrət də edə bilərsən. Bu gün əzizləyib özünüə dildar saya da bilərsən, sabah yağı hesab edib ölümünə fərman da verə bilərsən. Allah-təala övrəti özü beləcə qarğıyıb, cənnəti Adəmə tapşıran gündən onun taleyini alnına beləcə yazıb..."

Vəzir Sə'dəddin Əsədin bir dəfə cür'ət edib onun bu fikirlərinin əleyhinə dediyi bir-iki kəlməsinin əvəzində hökmdar onu düz bir ay adam yerinə qoymadı.. nə məclislərə də'vət olundu, nə də ziyafətlərdə süfrələrə düzülən ləziz ne'mətlərdən daddı. Hətta vəzir istəmişdi ki, bir gün içəri girib hökmdara ağzından çıxanı desin və oradan nizəli mühafizlərin qabağına düşüb birbaş e'dam olunacağı yerə getsin, nətimə[1] desin: get, cəllada de ki, gəlsin... Amma xeyli götür-qoydan sonra sözlər boğazında tıxanıb qalmışdı.

...Darül'eyş bu payız xüsusi zövqlə bəzədilmişdi. Böyük otaq atabəy-ə'zəmin vəfatından sonra ağardılmış, divarları arı pətəyinə oxşar cizgilərlə, naxışlarla qızıl, gümüş suyuna tutulmuşdu. Pəncərələr firuzəyi rəngə boyanmışdı, dəstəkləri gümüş halqalardan düzəldilmişdi. Pəncərəarası divarlara nəfəs toxunmuş, üstündə müxtəlif heyvan rəsmləri işlənmiş ipək xalçalar vurulmuşdu. Yuxarı başda misli-bərabəri olmayan gözəl Təbriz xalçası divar boyu aşağı sallanmışdı. Xalçanın üstündə mahir bir qadın əli qəribə bir mənzərə işləmişdi: qızmış bir pələng məs'um bir ceyranı gül-çiçəklərin içərisində yerə sərib sol pəncəsini onun sinəsi üstünə qoymuşdu. Qəribə burası idi ki, pələngin sifətində Cahan Pəhləvana nəysə bir oxşarlın var idi. Elə hökmdara da ilk baxışdan xoş gələn bu oldu...

Pəncərələrdən təzə açıq mavi Şəki ipəyindən çin-çin pərdələr asılmışdı. Salonun sağ-sol divarları boyu üstünə müxtəlif rəngli Türküstan qanovuzundan tikilən örtüklər salınan kürsülər, kürsülərin arasına isə əlvan gülləri olan şəffaf minalı dibçəklər qoyulmuşdu. Aşağı başda çalğıçılar üçün xüsusi dibaçə qoymaq da yaddan çıxmamışdı.

Tavanın ortasından asılın gözəl Ordubad avizəsinin şamdanlarında hərəsi bir rəngdə olan yeddi Naxçıvan şamı yandırılmışdı. Bu, o demək idi ki, hökmdar bu axşam yeddi "səyyarəyə" tamaşa edəcək, hökmdarı bu axşam yeddi gözəl əyləndirəcək... Özü də ən seçmələri:

1. E'dam kötüyünün yanında oturan xidmətçi.

hərəsi bir işvə-nazlı, hərəsi bir avazlı, hərəsi bir ürəkli, hərəsi bir diləkli, hərəsi bir sözlü, hərəsi bir qaş-gözlü. Buyursun təzə hökmdar seçsin, ürəyinə hansı yatsa, hansı batsa... Bu mülahizələr hərəmxana işlərinə baxan pişxidmət Xacə Xəlilin kəşfi idi. Onun bir kəşfi də bu idi ki, "hökmdar hər fəslin birinci həftəsində özünə məxsus belə bir qaydada istirahətlə məşğul olmalıdı ki, qarşıdakı üç ay üçün qüvvə toplaya bilsin, rəiyyətə başçılıq edə bilsin. Yağılara barmaq silkələyə bilsin, saraya bəd nəzərlə baxanlara divan tuta bilsin... Həftə içərisində o, yerdəki mələklərdən yeddisilə əylənməlidir ki, onun əməllərini göydə qeydə alan yeddi mələk də razı qalsın, bəd əməlləri onun ayağına yazıb allah-təalaya çatdırmasınlar..."

Hökmdar hər şeyi diqqətlə nəzərdən keçirdi və hər şey də xoşuna gəldi, ürəyinə yatdı. Döşəməyə rəqqasələrin rahat rəqs etməsi üçün təzə, nəfis toxunmuş kilimlər döşənmişdi. Otağın qapılarına bir neçə rənglə boyanmış nazik qamışlardan toxunan pərdə asılmışdı. Baş tərəfdəki, Təbriz xalçasının qabağında isə Cahan Pəhləvan üçün yanları fil sümüyü ilə haşiyələnmiş qızıl payəli hərim kürsü, onun qabağında eyni ustanın hazırladığı masa dururdu. Masanın üstünü payızda çətin tapılan müxtəlif meyvələr, ləvin-ləvin fındıq, qoz, badam, fısdıq içləri, səbzə, kişmiş və qırmızı minalı ibriqlərdəki tərxun, nanə şərbətləri bəzəmişdi.

Cahan Pəhləvanın sərt sifətində ötəri bir təbəssüm gəzdi. Xəlil bunu saray sahibi ayağını astanadan içəri qoyan kimi hiss edib rahat olmuşudu. Bu, o demək idi ki, hökmdar bu də'vətdən, təzə səliqə-səhmandan razıdı. Xəlil cəld qızıl payəli hərim kürsünü çəkib ə'lahəzrətanın əyləşməsinə kömək etdi. Cahan Pəhləvan oturan kimi tez büllur ibriqdən qızıl piyalələrin birinə nəbiz[1] süzdü, hökmdar bir-iki qurtum içdi, badam içindən götürüb ağzına atdı. İkinci qədəhə şərab süzmək barədə bir kəlmə söz demədiyini görən Xəlilin işnırığı içində qaldı, ibriqi qaytarıb yerinə qoydu.

— Matahını göstər görək, İsfahan lotusu... Neçə vaxtı qulağımı dəng eləyibsən...

Xəlil saray sahibinin sifətindəki ötəri təbəssümü görüb seyrək dişlərin ağartdı, qadın səsinə oxşar səslə:

— Baş üstə, ə'lahəzrəta! — deyib çıxdı. Onun çıxması ilə xüsusi geyimləri olan çalğıçıların içəri girməsi və baş endirib yerlərini tutması bir oldu. Həzin musiqinin ilk sədaları otaqda nə vardısa hamısını elə bil ehtizaza gətirdi.

1. Xurma şərabı

Bəlağətli səsi olan cavan müğənninin oxuduğu mahnı, həzin-həzin axan bulaq suyu kimi get-gedə çoxaldı, çağlayıb daşdı: “”Hicran qəlbi sovuşanlar bəxtiyardır. Vüsal çağı yovuşanlar bəxtiyardır. Diri-diri soyulsa da yar yolunda öz yarına qovuşanlar bəxtiyardır...[1]

Cavan müğənninin oxuması hökmdarın xoşuna gəlsə də, əlini qaldırıb onu dayandırdı, hiss etdi ki, “hicrandan”, “vüsaldan” söhbət açan, “yar yolunda diri-diri soyulanların” müsibətini sadalayan cavan müğənni atabəy-ə’zəmin qırxından sonra təzə-təzə durulan nəş’əsinə soğan doğraya bilər, əhvali-ruhiyyəsini korlaya bilər.

— Mən rəqsə baymaq istəyirəm...

— Baş üstə, ə’lahəzrəta! — Xəlil baş endirib çıxdı, çıxanda işarə eləyib cavan müğənnini də özü ilə apardı. Otağa açılan ikinci qapıdan rəqqasə qızlar bir anın içərisində durna kimi qatarlanıb süzə-süzə bir-bir çıxdılar. Kilimlərin üsütü ilə narın-narın süzən gözəllərin gəlişi, bər-bəzəyi, paltarlarının üsütünə səpilən Rey ətri otağın havasını dəyişdi.

Xəlil yenə oğrun-oğrun hökmdara baxdı, sifətindəki təbəssümün sevinclə əvəz olunduğunu, xoş əhvali-ruhiyyəsini görüb ürəkləndi, pəncələri üstə özünə Cahan Pəhləvanın sol tərəfində yer elədi. Hökmdar qızıl qədəhdəki son qurtumu içdi. Pişxidmət fövri olaraq qədəhi doldurdu. Cahan Pəhləvan başını qaldırıb onun üzünə baxdı, razı halda başını tərpətdi. Xəlil daha da ürəkləndi, qarnı maneçilik etdiyi üçün azacıq aşağı əyilib təzə rəqqasə cariyyələrini sarayın yeni sahibinə təqdim etməyə başladı:

— Bu gördüyünüz birinci və əndamlı gözəl bəzzaz[2] qızıdı. Mərəndlidi. Bəşuşdu[3], qaranquş qanadına bənzər kirpikləri var. Əli də, ürəyi də açıqdı...

Cahan Pəhləvan sol əlini yuxarı qaldırdı. Bu, o demək idi ki, kifayətdi, adla o birisinə.

— O mavi rəngli geyimi olan cariyyə vəzzan[4] qızıdı.:. Qazançı kəndindəndi. Qəmzəkardı, işvəkardı. Belə məxluqu xaliq həmişə xəlq eləmir... Belə məlaiknümuru[5] inanmıram bir də doğan ana tapılar... Bu mənim qəti fikrimdir... Sinəsinə isə söz ola bilməz, elə bil bir cüt Beyləqan narını oğurlayıb orada gizlədib...

Cahan Pəhləvan qədəhi qaldırıb yarısına kimi içdi, ağzına yenə

1. Ş’er Qətran Təbrizinindir
2. Arşınmalı satan
3. Gülər üzlü
4. Qapançı
5. Mələk simalı

bir-iki səbzə atdı. Büllur qabdan alma götürüb o tərəf-bu tərəfinə baxdı, ani fikrə getdi... Bağdadda cavan vaxtı ona bağışlanan Rum gözəli Bəhriyyə yadına düşdü...

Xəlil isə öz işində idi, fürsəti fövtə vermək istəmirdi:

— O üçüncü cariyyə Şərur məlikinin hədiyyəsidi... Nəccar qızıdı. Əsfər[1] rəngli ipəyi xoşlayır... ləbşəkər kafurvəş[2] qızlardan biridi... Söz-söhbətindən doymaq olmur. Bədihəguluğluğu[3] da var. — Lap arvad kimi and içdi. — Yalan deyirəmsə, öləndə Məkkeyi-mükərrəməyə həsrət qalım...

Cahan Pəhləvan fikrə getdi: "Oğuz Şəruri yoxsa siyasətə əl atıb?.. Ağzına su alıb susması hara, mənə hədiyyə göndərməsi hara? Özü də qızıl yox, daş-qaş yox... cariyyə?.."

— Məlik Oğuz bunu çoxdan göndərib?..

— Xeyr, ə'lahəzrəta... İki həftə olar...

Cahan Pəhləvan dinmədi, sol əlini yuxarı qaldırdı. Çalğıçılar nə başa düşdülərsə, rəqsi birdən dayandırdılar. Xəlilin qəti işarəsilə dərhal səhvlərini düzəltdilər. Bir az keçəndən sonra təkcə təbilin sədası eşidildi. Son günlərdə xüsusi tə'lim keçən qızlar üst paltarlarını bir-bir soyunub qanovuz örtüklü kürsülərin üstünə qoydular, təkcə zümrüd məmədanlarına, üçbucaq örtüklərinə və topuqlarındakı xal-xallara dəymədilər. Bütün bacarıqlarını toplayıb bədənlərini ayrı-ayrı əzalarını oynamağa başladılar: biri çiyinlərini silkələdi, biri məmələrini titrətdi, biri ombalarını atıb-tutdu, biri yambızını burcutdu...

Xəlil öndə dayanan qızı göstərib dedi:

— Bu nərmə-nazik ceyranı Ordubad tərəflərindən qovub saraya gətiriblər. Dəllak[4] qızıdı. Deyirlər: Şərq gözəllərinin çoxu Bağdaddadı. Mən də buna inanmışdım. Amma son günlərdə belə bir əqidəyə gəlmişəm ki, Ordubad qızlarından, bu şəhərin gözəllərindən heç yerdə olmaz... Xudavəndi-aləm elə bil ilk qələmi özü bu ordubadlı gözələ çəkib. — Xəlil barmağını irəli uzatdı: — Bir baxın, hökmdar... Görün necə dupduru gözləri var! Elə bil Zəmzəm[5] suyudu... Kəhhalə[6] əli dəyməsə də, gözlərinə elə bil qeybdən sürmə çəkiblər...

Hökmdar dinmirdi, xumarlana-xumarlana gah çalğıçılara, gah da rəqqasələrə baxırdı, xəyalı ötən günlərə, gənclik illərinə uçur, bircə

1. Sarı
2. Ağappaq
3. Bədahətən şe'r deyən
4. Kisə çəkən
5. Dini əfsanəyə görə cənnətdə müqəddəs bulaq
6. Gözə sürmə çəkən qız

anda da geri qayıdırdı. Qəsdi isə sadə idi: Xəlilin deyəcəyi yeni sözləri eşitmək, həzz almaq...

— Bu müənbər[1] gözəlin çiyinlərinə, kürəyinə, arxasına söz ola bilməz... Kəffaş[2] qızıdı. Dümbül kəndindəndi. Anası elə bil onu hökmdar üçün doğub, bəsləyib... Beləlləri mum kimi olurlar... İstədiyin şəklə sala bilirsən...

Cahan Pəhləvan da özünü pişxidmətə oxşadaraq onun sözlərilə xəbər aldı:

— Bəs zibasənəm?[3]

— Təkcə zibasənəm deyil, həm də zövqəfzadı[4]... Qəffal[5] qızıdı. Xorasandandı, həmyerlimdi... Öpülməli yanaqları var, buxağından, boynundan xoş vərl iyi əskik olmur. Dodaqları temr[6] kimi şirindir. Siz onun bir qövsi qaşlarına, cəyran gözlərinə, təzə tər sinəsinə tamaşa edin. Yanağına elə bil anadan gəlmə İsfahan qımızı sürtüblər. Beləlrini allah-təala yüz ildən bir xəlq edir... Yaraşıqlı köbəyi dələmədir ki, durub... Əbülfəzil allah haqqı , üstündə xufdən namazı qılmaq olar... Özü də canamazsız, möhürsüz...

Cahan PəhləvanınnəzərləriXəlilin xeyli tə'rif etdiyi qızın əvvəlcə gözlərində, sonra isə yaraşıqlı köbəyində ilişib qaldı... Nə fikirləşdisə əlindəki qədəhi yerə qoyub xəyala getdi. Həmədan sarayında zəhər içib özünü öldürən "Bağdad gözəli" Mədinəni xatırladı... Və nədənsə köks ötürdü... Demə, hökmdarların da köks ötürən vaxtları olurmuş!.. — Bəs bu kimdi? — Cahan Pəhləvan qəmli görünən, könülsüz rəqs edən qızı göstərib nədənsə hirslə soruşdu:

— Əllaf[7] qızıdı. Əlincə ətrafındakı kəndlərin hansındansa gətiriblər.

Cahan Pəhləvan payəli kürsüdən durdu.

— Niyə mükəddərdi?[8]

— Saraya bir həftə olar ki, gətiriblər... Haralı olduğunu bilmirəm. Amma deyirlər ki, atası vergi verməyib, darğalar onun əvəzində qızını sürüyüb kənddən çıxarıblar... Dünən axşam qaçmaq istəyirmiş, dərban[9] tutub geri qaytarıb... Ceyran kimi ürkəkdi... Bir gözlərinə baxın... Elə bil Əlincik ceyranın gözləridir... (Xəlil onu da bilirdi ki, Cahan

1 Xoş iyli
2. Çəkməçi
3. Göyçək dilbər.
4. Kef verən.
5. Qıfil qayıran.
6. Dəymiş xurma.
7. Ot satan .
. Kədərli.
9. Saray darvazasının qapıçısı.

Pəhləvan cavan vaxtından ceyran gözlərinin vurğunudur) Məmədanı da, xalxalı da ilk dəfədir görür... Zornan geyindirmişəm... Qəribə də adı var: Cahannur...

Sarayın yeni sahibi elə bil pişxidmətin bir-birinə oxşar tərəflərindən, yeknəsəq mədhiyyələrindən darıxdı və işarə etdi ki, çalğıçılar da, rəqassələr də rədd olub gedə bilərlər...

Xəlilin ovqatı pozulsa da, əmri yerinə yetirdi. Əllafın qızı qapıdan çıxmaq istəyəndə Cahan Pəhləvan əlini atıb onun qolundan tutdu. Cahannur əvvəlcə dinmədi, sonra birdən kənara sıçradı və ara vermədən üyüdüb tökdü:

— Rəiyyətin namusunu qorumaq padşahın borcudur. — dedi. — Mənim qardaşım kəndimizin qızlarının, gəlinlərinin namusunu qoruduğuna görə qaçaq olub dağa-daşa düşüb... Mən Əli Şimşəyin bacısıyam. Buraxın məni, buraxın! — Cahannur geydiyi paltarın sinəsini cırdı, üstündəki bər-bəzəyi, başındakı səkineyi çalmanı çıxarıb yerə tulladı. Xəlil onun qolundan tutub bayıra atmaq istəyəndə, Cahan Pəhləvan əlini qaldırıb işarə etdi ki, ona toxunmasınlar. Saray sahibi bu anda tez götür-qoy edib fikirləşdi: "Elə igidin bacısını saraya gətirmək namərdlikdir. Rəiyyət deyər ki, özünə gücləri çatmadı, bacısına əl atdılar. Bunu haradan qansın bizim qanmaz rəis!. Dəyyus, qəvvad bilmir ki, qardaşın hayıfını bacıdan almazlar..."

— Sakit ol, qızım.

— Necə qızım?!

— Əli Şimşək kimi bir igidin bacısına qızım demək mənim üçün xoşdur. — Hökmdar siyasət işlədib ürəyindən keçənləri dilinə gətirdi.

— Bağışlayın... padşah...

Cahannur özünü saxlaya bilməyib hgnkür-hönkür ağladı...

Cahan Pəhləvan keçib əyləşdi, fikrə getdi... Vaxtilə anası Mö'minə xatunun danışdığı bir əhvalat yadına düşdü: "Bərk xəstələnmişdim. Təbiblər nə qədər çalışsalar da istiliyim yenmirdi. Necə gün idi ki, bədənim od tutub yanırdı. Bir gün təbibi-xünkar[1] dedi ki, Mö'minə xatun anaya ceyran südü lazımdır. Atabəy-ə'zəm neçə dəfə ova adamlar göndərdi, əliboş qayıtdılar... Bir gün öz otağımda tək yatmışdım, atabəy-ə'zəm də şəhərdə yox idi. Demetri ilə Ani düzlərində vuruşurdu... Bir də gördüm qapı açıldı, içəri cavan, şüvərək bir oğlan girdi. Boynunda da diri bir ceyran, çiynində də xurcun. Dedim bə yuxu görürəm. Oğlan bunu duyan kimi dedi: " Qorxmayın, Mö'minə xatun ana, mən eşitdim ki, təbiblər sizə ceyran südünü dərman buyurublar. Hökmda-

1. Sarayın baş həkimi.

rın adamları neçə dəfə Əlincəyə gəlib əliboş qayıdıblar... Sizi hamı bir xeyirxah ana kimi tanıyır... Tə'rifiniz mahal-mahal yayılıb... dedim necə olur-olsun gərək Mö'minə xatun anaya təzəcə doğan ceyran tutub aparam. — Bunu deyib ceyranı çiynindən yerə qoydu, xurcunu açıb balasını da çıxartdı, anasının yanına ötürüb dedi: — Yaxşı cinsdi, südü boldu, sizə də bəs edər, balasına da..." Soruşdum: "Bəs sən kimsən, oğlan?" Dedi: "Bunun heç bir əhəmiyyəti yoxdu..." Dedim: "Yenə olsun?" Dedi: "Bir çoban oğluyam". Dedim: " Bəs səni saraya kim buraxıb, bura necə gələ bilmisən?" Dedi: "Divar aşmaq, çay keçmək, yoxuş qalxmaq, eniş enmək mənim üçün su içmək kim asan işdi... Yastığın yüngül olsun, Mö'minə xatun ana..." Gördüm getmək istəyir oğlan. Dedim: "Al, sənin qayğın gərək lazımınca qiymətləndirilə". Ona bir neçə qızıl vermək istədim... Dedi: "Atam Eldar Bəhmən bizi elə öyrətməyib... Biz etdiyimiz yaxşılıq üçün əvəz almırıq". Əvvəlki sözünü bir də təkrar etdi: "Yastığın güngül olsun. Mö'minə xatun ana" Oğlan xurcunu atıb bir göz qırpımında qeyb oldu. Mən tez kənizi çağırdım, hirsləndim: "Yad adamı gecə vaxtı mənim otağıma niyə buraxmısan?.." qız ayaq üstə dayana bilmirdi, uçunub gedirdi, dili söz tutmurdu. Handan — hana dedi: "Mən qorxurdum xatun... Özümdə deyildim..." Soruşdum: "Niyə qorxurdun?" Dedi: "Heç bilirsiniz o oğlan kim idi?" Dedim: "Kim idi?" Dedi: "Çoban Bəhmənin oğlu Əli Şimşək..."

Cahannur ağlayıb ürəyini boşaldandan sonra kiridi, özündən düzəltdiyi yalanın nə ilə qurtaracağını gözlədi. Cahan Pəhləvan bunu görcək az qala üzrxahlıq istədi:

— Yəqin səni tanımayıblar, — dönüb əyri-əyri Xəlilə baxdı. — Yoxsa bura gətirməzdilər. — Əmr etdi: — Şəhər rəisinə de ki, Cahannur qızı haradan, necə gətiriblərsə, oraya da eləcə aparıb valideynlərinə təhvil versinlər...

— Baş üstə... göz üstə.

— Mən buna inanmıram, padşah. — Cahannur pişxidməti göstərdi, — məni indi azad edin, qoyun elə bax indicə çıxıb gedim...

— Bu gecə vaxtı sən hara çıxıb gedə bilərsən?

Cahannur əllərilə yanaqlarına axan göz yaşını sildi və ikinci bir yalan uydurdu:

— Qohumumuz var. — dedi. — Evləri də Şahab meydanına yaxındı... Adına da Əbubəkr oğlu Əcəmi deyirlər...

— Necə?! Əcəmi qohumundu?

— Bəli padşah... anamın doğmaca dayısı oğludu...
— Belə de! O bilir ki, səni bura gətiriblər?
— Xeyr... Heç qardaşım da bilmir.
— Bəs niyə?
— Bu dağılmışda namusumu qoruya biləcəyimə ümüdüm yox idi, ona görə də vergini verə bilməyən bir kəndlinin qızı olduğunu dedim. Kimliyimi gizli saxladım. İstəmirdim ki, nə Əlini, nə də Əcəmini namussuz qızın qardaşı kimi, qohumu kimi tanısınlar. Atam çoban Bəhmən deyərdi: "Dünyada qızıldan da, daş-qaşdan da qiymətli olan bir şey var: onun biri kişi qeyrətidi, biri də qadın namusu..."
Cahan Pələvan fikirləşdi: "Sən mənə böyük bir dərs verdin, ey kəndli qızı!.. Biz necə olursa-olsun, xəlifəyə qız hədiyyələri göndərməkdən imtina etməliyik..."
— Get, qızım! — Pişxidmətə sərəncam verdi: — Cahannur qızı me'mar Əcəmigilə ötür. Əbubəkr oğlugilə.
— Lazım deyil, özüm gedərəm... Elə tapşırsın, dərban darvazanı açsın...
— Axı gecədi.
— Mənə gecə gündüz birdir...
Xəlil yerindəcə quruyub qalmışdı, nitqi də kəsilmişdi. Heç nə deyə bilmədi, ancaq başını sinəsinə əyib tə'zim etdi.
Cahan Pəhləvan keçib yenə kürsüyə əyləşdi, fikrə getdi...
Dəbir bir-iki ağız öskürüb içəri keçdi. Hökmdar gözlərini açanda onu hüzurunda görüb soruşdu:
— Nə var, dəbir?
— Gürcü çarı Georginin elçisi təşrif gətirib.
— Mən bunu gözləyirdim, dəbir...

## ÜÇÜNCÜ QƏBUL

Cahan Pəhləvan gürcü çarı Georginin elçisini zöhr namazından sonra pişgahda qəbul etdi. Qəbula elə həmin gün Həmədandan Naxçıvana gələn Sə'dəddin Əsəd də də'vət olunmuşdu. Dəbir küncə qoyulmuş dəyirmi mizin arxasında əyləşib leylək qələmi də əlində hazır saxlamışdı ki, hökmdar ona işarə edəndə söhbətini rəsmi sənəd kimi ağ Səmərqənd kağızına qeyd etsin və şəcərədə saxlanmaq üçün sarayın arxivinə versin.
Belə bir qayda hələ Şəmsəddin Eldəgəzin sağlığında müəyyən

edilmişdi və indi də mövcud idi. Mütərcim çağırılmamışdı, çünki dəbir gürcü dilinin də mükəmməl bilirdi. Buna görə də də ona ikinci bir qulluq da tapşırılmışdı. Tapşırılmışdı ki, elçinin dediklərini hökmdara dərhal tərcümə etsin və söhbət qurtarana kimi vəzifəsini dəqiq, səliqəli yerinə yetirsin.

...Elçi ucaboy, enlikürək, ortayaşlı bir adam idi. Onu da özündən həmişə razı və bu təkəbbürünü dərhal büruzə verən gürcülərdən hesab etmək olardı. Üz-gözündən ağıllı, təmkinli görünsə də, xəbis və hiyləgər adama oxşayırdı. Bunları Cahan Pəhləvan ona əyləşməyə yer təklif edəndə bir anın içərisində özü üçün kəsdirmişdi və öz mülahizələrinin doğruluğuna qətiyyətlə inanmışdı...

Pişgahda yaranan ani sükutu ümumi qaydaya görə hökmdar pozdu:

— Biz gürcü çarının elçisinə qulaq asmağa hazırıq...

Elçi Cahan Pəhləvanın sifətindəki sərtliyi də, səsindəki ötkəmliyi də dərhal hiss etdi və buna baxmayaraq, kürsüdə yerini bir az da rahatlayıb dedi:

— Bizim böyük hökmdarımız Georgi cənabları məni vəkil etmiş ki, Eldəgəzlər xanədanının təxt-tacına sahib olmağınız münasibətilə sizi onun adından təbrik edim...

Cahan Pəhləvanın sifətində dərhal bir kinayə peyda oldu və elçini axıra kimi dinləməyə hövsələsi çatmadı:

— Bu Georgi nə vaxtdan "böyük Georgi" olub? — Cahan Pəhləvan əvvəlcə Sə'dəddin Əsədə baxdı, vəzir çiyinlərini çəkəndən sonra elçiyə dedi: — Əvvəlan, mən təxt-taca sahib olmamışam, — nədənsə bu dəfə dəbirə baxdı. — Varislik borcumu yerinə yetirmişəm, daha dürüst desək, hörmətli elçi də, onun çarı da bilməlidirlər ki, mən sadəcə olaraq atabəy-ə'zəmin, yə'ni Azərbaycan Atabəylər dövlətinin ilk hökmdarı Şəmsəddin Eldəgəzin vəsiyyətinə əməl etmişəm. Və mənə bu dövlətin əyalətlərindən birində sizi qəbul etmək nəsib olub.

Elçinin sifətində saxta bir təbəssüm göründü:

— Fərqi nədir... Qoy siz deyən olsun...

— İkincisi, cənab Georgi öz elçisini Həmədana göndərib məni orada da təbrik edə bilərdi...

— Bizim böyük hökmdarımız Georgi cənablarına heç kim məsləhət vermir... özü necə bilir, elə də hərəkət edir...

— Yəqin, Georgi cənabları o ümiddəymiş ki, naxçıvanlılar bəlkə atabəy-ə'zəmin vəfatından sonra Eldəgəzlər sülaləsinə daha e'tibar et-

məyəcəklər, eləmi?

— Bizim böyük hökmdarımız Georgi cənabları bu barədə mənə heç nə deməmişdir.

— Görünür, siz qonşularınızı hələ yaxşı tanımırsınız... Naxçıvanlılar e'tibarlı məxluqdur. Onlarda yaxşı ilə yamanı, mərd ilə namərdi, dost ilə düşməni dərhal müəyyən etmək üçün xüsusi qabiliyyət, mən deyərdim ki, xüsusi iste'dad var... Cənab elçi sözünün ardını buyura bilər.

Elçi söhbətin əvvəlinə qayıtdı:

— Bizim böyük hökmdarımız Georgi cənabları Sizə həm də can sağlığı arzulayır...

Cahan Pəhləvan ürəyində yavş-yavaş baş qaldıran kin-küdurəti zorla boğmağa çalışdı, nədənsə sol çiyni üstündən çevrilib bir an vəzirə sərt-sərt baxdı və özünü sakit göstərməyə çalışaraq razılıq etdi:

— Çar Georgiyə çatdıra bilərsiniz ki, mən Cahan Pəhləvan onun bu təbrikini və xoş arzusunu yüksək qiymətləndirirəm. — Saray sahibi bu dəfə "Cahan Pəhləvan" sözlərini xüsusi vurğu ilə dedi və bir an fikrə gedəndən sonra soruşdu: — Mənim üçün maraqlaıdır ki, görüm çar Georgi sizi təkcə məni təbrik üçün göndərib, yaxud başqa məramı da var?

— Hər halda, başqa məramı olmamış deyil. — Vəzir, Cahan Pəhləvanın sözünə qüvvət verdi. — Düz deyirəmmi, cənab elçi?

Elçi əvvəlcə hökmdara, sonra vəzirə baxdı və əlini qoltuq cibinə salıb oradan səliqəli bükülmüş risaləni[1] çıxardı, əvvəlcə dəbirə vermək istədi və tez də nə fikirləşdisə Sə'dəddin Əsədə təqdim etdi. Cahan Pəhləvan işarə etdi ki, ver dəbir açıb oxusun...

Məktubda Georgi öz sələfi ilə Cahan Pəhləvanın sələfi arasında olan narazılıqları sadalayır, Ani, Dvin düzlərində çar Demetrinin apardığı vuruşları yada salır. Gəncəni necə dağıtdıqlarını, Naxçıvana necə qoşun yeritdiklərini, bu yerilərin sakinlərini necə əsir alıb apardıqlarını xatırladı və axırda əsas mətləbə keçərək Gəncə və Beyləqandan son illərdə yığılıb qalan xəracı n ödənilməsini tələb edirdi...

Cahan Pəhləvanın sadalanan məsələlərdən çox risalədən gələn hədə-qorxu düşündürürdü, topa saqqalını sol ovcu içərisinə alıb fikrə getdi:

— Mən bu göndərişə görə sizi zindana saldıraram. — dedi Cahan Pəhləvan. — Və həm də cəzalandıraram... bəxtiniz orda kəsib ki,

1.Məktub.

elçisiniz... Ərəblər deyirlər: "Ər-rasul mubəlliğun ğayrı məlum"[1]. Buna görə də elçilərin dili uzun olur, çox uzun olur...

— Eldəgəzli hökmdarın dediklərini mən elə beləcə çatdıraram bizim böyük hökmdarımız Georgi cənablarına.

— Elə beləcə də çatdırın! — Cahan Pəhləvan az qala hökm verdi: — Bacarırsız hələ onun xələfinə də deyin... lap ölüsünə!

Vəzir başını qaldırıb Cahan Pəhləvana ani, ancaq mə'nalı bir nəzərlə baxdı:

— Hökmdar...

Saray sahibi nə fikirləşdisə də dəbirə üz tutub dedi:

— Son sözlərimi tərcümə etmə...

Elçi kinayə ilə gülümsədi və ara-sıra dən düşən şəvə saçlarına tumar çəkib təmiz Azərbaycan dilində dedi:

— Əlbəttə, mütərcimə havayı əziyyət vermək kimə gərəkdi?..

Pişgahdakılar bir-birinə baxdılar. Cahan Pəhləvan fikirləşdi: "Demək, mən yanılmamışam... Georginin elçisi də özü kimi xəbis və hiyləgərmiş..."

— Elçinin bizim dili bilməsi xoşuma gəldi... Onda çarınıza çatdırın ki, mən nə burilərin atabəyi Cəmaləddin Məhəmmədəm, nə artuqilərin atabəyi Nurəddin Məhəmmədəm, nə də xarəzm şahların atabəyi Qütbəddin Məhəmmədəm... Mən Atabəy Nüsrətəddin Məhəmmədəm... Eldəgəzlər dövlətinin hakimi Cahan Pəhləvanam...

Yoxsa siz böyük Azərbaycan dövləti yaratmaq niyyətindəsiz? — elçi gülümsədi.

Cahan Pəhləvan onun sifətindəki kinayəni də görüb hiss elədi, səsindəki istehzanı da başa düşdü.

— Siz deyən dövləti biz artıq yaratmışıq. Bu dövlətin torpaqları Qafqaz dağlarından başlayıb İran xəlicinə qədər uzanır. — Hökmdar iti nəzərlərini bir an elçinin sifətinə tuşladı.

— Siz nə bilirsiz ki, Eldəgəzlər sülaləsi sasanilərdən də çox beş-altı əsr yaşamayacaq... Sasani törəmələri Ərəbistanı, Misiri, Suriyanı, nə bilim, Fələstini, İberiyanın zəbt edib öz torpaqlarına qata bilərlər, bizsə Arranı genişləndirə bilmərik, qədim əmirliklərimizi özümüzə ilhaq edə bilmərik?..

— Mənim ilhaqdan zəhləm gedir. — Elçi yenə kinayə ilə gülümsədi. — O kəlməni eşidəndə, bağışlayın, qatır yadıma düşür...

Cahan Pəhləvan alındı. Vəzir yenə qarışmalı oldu:

1.Elçiyə zaval yoxdur.

— Bizim bablarımız qanlarını içməyə gələn yağılara əvvəlcə şərbət təklif ediblər, sonra əllərinə ox-kaman, qılınc-qalxan götürüblər... Bu da kişiliyin, mərdliyin bir nümunəsidir.

Cahan Pəhləvan vəzirin sözünə qüvvət verdi:

— Mənim başqa qonşu dövlətlərlə heç bir dava-dalaşım yoxdur. Bizim üstümüzə qalxan qaldıran, qılınc çəkən, nizə tuşlayan olmasa onları şərbətlə qarşılayacağıq... Biz heç kimin üstünə qoşun yeritmək niyyətində deyilik. O ki, qaldı bizim xərac verməyimizə... onu da verməyəcəyik!.. Hələ üstəlik, bir vaxtı çıxarıb apardığınız Gəncənin darvaza qapılarını da geri qaytarmalı olacaqsınız!

Elçi isə öz sözünün üstündə möhkəm dayanmışdı:

— Sizin dövlət atabəy Şəmsəddin Eldəgəzin məğlubiyyətindən sonra belə bir xərac verməyi öhdəsinə götürmüş və bunu rəsmi sənədlə təsdiqləmişdir...

— Atabəy Şəmsəddin Eldəgəz Ani düzlərindəki son vuruşda çar Demetreni darmadağın edəndən sonra və sizin çarınız qaçıb abxaz meşələrində gizlənəndən sonra bütün rəsmi sənədlər öz dəyərini itirmişdir.

— Mən bunları da böyük hökmdarımız Georgi cənablarına çatdıraram...

— Çatdırın, mütləq çatdırın!.. Onu da çatdırın ki, biz cavan Azərbaycan dövlətini köksümüzlə qoruyub hər cür fənalıqdan və bəladan hifz edəcəyik, onun bayrağını daim uca tutacayıq!.. Xəbərdarlıq edirəm: əgər çar Georgi bu bəd niyyətlərindən əl çəkməsə Gürcüstan üzərinə qoşun yeridəcəyəm. Özü də kifayət qədər... Mənim son cavabım belədir! Bu dediklərimi yola düşəndə gətirdiyiniz risaləyə cavab olaraq sizə rəsmi təqdim edəcəklər. — Cahan Pəhləvan əvvəlcə Sə'dəddin Əsədə, sonra dəbirə baxdı. Vəzir cəld ayağa qalxıb tə'zim etdi, — Siz buyuran kimi olacaq, hökmdar.

— Elçi mürəxxəs ola bilər.

— Hökmdar icazə versə, bir məsələni də qeyri-rəsmi olaraq ona çatdırardım... Əlbəttə, qeyri-rəsmi də olsa, bizim böyük hökmdarımız Georginin adından. — Elçi ayağını sürüdü.

— Nədir o məsələ?

— Bilməmiş deyilsiniz ki, mərhum çar Demetre Dvin ətrafında mərhum atanız atabəy Şəmsəddinlə vuruşanda ona xəyanət ediblər... Pisi də budur ki, bu xəyanət bizim tərəfimizdən edilib, yə'ni özümüz xəyanət etmişik özümüzə...

— Çox yaxşı...

— Bizim babalar deyiblər: dünyada ən alçaq iş xəyanətdir. Və onu da deyiblər ki, dünyada ən ağır cəza xainə verilməlidir. Amma xain cəzasız qalıb. Və qaçıb atabəy Şəmsəddinin tərəfinə... Pisi də budur ki, mərhum atanız ona havadarlıq edib...

— Yəqin ki, elçi Lipariti nəzərdə tutur... Orbeli övladını?

— Bəli.

— Lıparti xain olmayıb, öz arzusu ilə keçib bizim tərəfə.

— Bəs xainlər necə olurlar?

— İki cür... Biri öz istəyiynən, biri də məcburi.

— Siz deyən olsun. — Elçi razılaşdı. — Bizim böyük çarımız Georgi cənabları tələb edir ki, siz Liparitinin oğlu Elikumu bizə qaytarasınız. Xristianların qanununa görə o ən ağır cəza almalıdır.

— Elikum daha isəvi deyil. — Bunu Sə'dəddin Əsəd dedi.

— Necə yə'ni xristian deyil... Yoxsa o məl'un...

— Bəli, Elikum öz xoşu ilə xütanə olunub. .

Elçi Cahan Pəhləvanın sözlərini, deyəsən, başa düşmədi. Vəzir izahat verməli oldu:

— Elikum müsəlmançılığı qəbul edib...

— Həm də saraya ən yaxın adamdı... Giz bu fədakarlığına görə onu Culfaya məlik tə'yin etmişik. — Bunları da hökmdar dedi.

İşi belə görən elçi bu barədəki söhbəti qurtarmaq istədi:

— Hökmdar rüsxət versə, mən yoluma rəvan olaram.

— Sizi bizim mühafizlər Çuxur-sə'də kimi yola salacaqlar.

Elçi e'tiraz etmədi, ayağa qalxıb tə'zim etdi və otaqdan çıxdı. Hökmdarın işarəsilə dəbir də onunla getdi.

Saray sahibinin son sözləri hamıdan çox dəbirin ürəyincə olmuşdu, çünki hökmdar bir neçə vaxt bundan əvvəl onun şərəfinə düzəldilən məclisdə Əcəminin ürəyindən keçənləri özü də bilmədən təkrar etmişdi...

Otaqda bir an sakitlik oldu. Sükutu bu dəfə vəzir pozdu:

— Məktuba cavabı siz deyən kimi tərtib etsək, çox sərt olmazmı, hökmdar?..

— Siyasət sərtliyə və gücə söykənəndə kəsərli olur. Hökmdarın gərək dörd böyrəyi ola, dörd də...

Sə'dəddin Əsəd söhbəti dəyişdi və qayğıkeşliklə dedi:

— Hər şeyə əsəbiləşmə... Sən Azərbaycan Atabəylər dövlətinə lazımsan...

Hökmdarın dinmədiyini görəe vəzir otaqdan çıxdı.

Elçini yola salandan sonra Cahan Pəhləvan taxta söykərib xeyli fikrə getdi. Hələ atabəy-ə'zəmin sağlığından dəfələrlə baş sındırıb götür-qoy etdiyi bir sual yenə onun beyninə yol tapdı: "Görəsən gürcülər — əvvəllər Demetre, indi də Georgi bu Azərbaycandan nə istəyir?.. Arranlıların onlara nə yamnlığı keçib ki, nahaq qan tökmək, qarət etmək istəyən atlanıb Gəncəyə basqın edirlər?.. Dvini, Anini dağıdırlar?.."

Hökmdar bu müəmmalı sualları öz-özünə verib cavab almasa da, heç vaxt yadından çıxara bilməyəcəyi bir hadisə — vəzirin "Sən Azərbaycan atabəylər dövlətinə lazımsan" sözləri yenidən onun xəyalında canlandı:

...Gürcü çarının qoşunları atabəy-ə'zəmin Arranda olmasından istifadə edərək yenə qəfildən Azərbaycanın ucqar şəhəri Dvinə basqın etmişdilər. Dağıtmaq .istədiklərini dağıtmış, yandırmaq istədiklərinin külünü göyə sovurmuşdular... Amma dvinlilərin ciddi müqavimətı, sərt igidliyi qarşısında axıra kimi tab gətirə bilməyib geri dönməli olmuşdular. Bu dəfəki müqavimətdən qeyzə gələn başkəsənlər yollarda istədiklərini edir, keçdikləri kəndlərin dinc əhalisinə divan tuturdular... Onlar ələ keçirdikləri qənimətlə kifayətlənməyərək ən rəzil işlərdən də çəkinmirdilər...

Bu vaxt atabəy-ə'zəmin tapşırığına görə Diyarbəkrdə qalib hakimin qoşununa məşq keçən əmir-hacib Cahan Pəhləvana xəbər çatdırıldı ki, gürcü qoşununun böyüklərindən biri arranlı övrətlərdən bir neçəsini atının döşünə salıb harasa aparır. Və onu da xəbər verdilər ki, qoşun böyüyünün çox iyrənc niyyəti vardır. Gizli xəbər gətirən çapar onu da bildirdi ki, arranlı övrətlər iki gündür ki, karvan yolunun üstündəki bir kəndin kilsəsindədirlər...

Cahan Pəhləvan təğyir-libas olub iki gün atının belindən düşmədi. Kilsənin yerini öyrənib gecədən xeyli keçmiş gözətçini tapdı.

"Mən Dvindən əsir gətirilən arranlı övrətləri azad etməyə gəlmişəm. — dedi. — Bu işi ya qılıncımla, ya da qızılımla görməliyəm... De, hansına razısan?" Qılıncın tiyəsini düz hülqumu üstündə görən gözətçi əvvəlcə nə edəcəyini kəsdirə bilmədi, sonra dili topuq vura-vura dedi: — "Qızıl olan yerdə qılınc nə karədir?.." — "Onda de görüm əsir övrətlər neçə nəfərdir?" — "Yeddi... hamısı da ay sifətli, ulduz kimi parlaq... Bir sözlə, yeddi səyyarə..." — "Söhbəti qısa elə!.."

Cahan Pəhləvan ona bir kisə qızıl uzatdı. Gözətçi əvvəlcə almaq

istəmədi, sonra nə fikirləşdisə, əlləri əsə-əsə kisəni alıb xeyli baxdı: "And iç ki, sonra geri almayacaqsan". Cahan Pəhləvan qılıncına and içib soruşdu: "Daha nəyə and içim?.. Qur'ana, incilə?.." — "İgid qılıncına ki, and içdin, bəsdir... Amma..." — "Nə amma?!" — "Gecikmisən, igid" — "Niyə?!" — "Yeddi səyyarə bu gün səhərə yaxın söndü..." — "Sən nə danışırsa? Necə yə'ni söndü?.." — "Özləri rica etdilər..." — "Nəyi?.." — "Sönməyi..." Cahan Pəhləvan gözətçinin sinəsindən tutb divara söykədi. Elə bu vaxt onu kəsif şərab iyi vurdu, güzəştə getməli oldu. Əlləri boşaldı: "Düzünü de, əbləh!.. Mənim əllərimi nahaq qana batırma." — "Onda qulaq as, igid... Sonra gec olar. Görürsən, hava da işıqlanır. Gürcü qoşununun böyüyü anasının əmcəyini kəsər, uf da deməz... Axşam öz başkəsənləri ilə belə qərarə gəldilər ki, səhər arranlı övrətləri lüt soyundursunlar... lap anadangəlmə.... Və atların döşünə salıb kəndlərdən keçirsinlər... Bunu qoşun böyüyünün yanınca gəzdirdiyi mə'şuqəsi bilən kimi e'tiraz edib dedi: "Siz dəli olmusuz, nədi?.. Belə qisas almaq hardan ağlınıza gəlib... Sabah da onlar bizi əsir götürəndə beləcə rəftar edərlər... Heç bunu fikirləşmirsiniz?.." "Müsəlmanlarda qadın xeylağına çılpaq baxmaq yasaqdı..." "Mən yəqin etdim ki, qoşun böyüyünü, başkəsənlərini bu bədnam niyyətlərindən döndərmək olmaycaq... Əlacım kəsildi, gəlib pəncərədən bu xəbəri pıçıltı ilə arranlı övrətlərə çatdırdım. Bir müddət heç birindən səs çıxmadı. Sonra biri dedi: "Biz arranlı övrətləri bərk ayaqda özümüzü ər kimi aparmalıyıq..." Sonra nə götür-qoy etdilərsə, birdən pəncərədən mənə bir düyünçə uzatdılar. Açıb gördüm ki, iki üzükdü, bir də sırğa. Dedim: "Bunu mənə niyə verirsiz?" Dedilər: "Bizə özün boyda kəndirdən, sicimdən tap gətir... amma möhkəm olsun..." Məqsədlərini başa düşdüm. Əvvəlcə ürəyim gəlmədi. Sonra fikirləşdim ki, zənən xeylağının biabırçılıqla yaşamağındansa ölməsi məsləhətdir... Arzularını yerinə yetirdim... Onlar üzüqoylu bir-birinin ayağı altında yatıb özlərini asdılar. Heç "uf" da demədilər..." "Yeddi səyyarə" beləcə bir-bir sönüb getdi... Arxayın ola bilərsən... Verdiyin bu qızılla onları necə lazımdırsa, eləcə dəfn etdirəcəyəm..."

Elə bu vaxt ay buludun altından çıxdı, hər yer nura qərq oldu. Onun şüası içərini də işıqlandırdı. Cahan Pəhləvan pəncərədən içəri boylananda kilsənin döşəməsindəki meyitləri gördü... Onlar üs-üstə qalanmışdı, biri də yuxarıdan asılı qalmışdı... Sarsıldı, öz-öüzünə nəsə pıçıldadı, sonra alnını ovcunun içərisinə alıb divara söykəndi. Gözətçi dedi: "Cəzam nədir, verə bilərsən. Bu mən, bu da sən... İncilə, tövrə-

tə and olsun ki, dediklərim həqiqətdir. Amma yubanma, ay doğdu... çıx get... Mən səni tanıdım... Xilat hakimi Şah-ərməngildə görmüşəm səni... Mən Xilatda yaşayan lazlardanam... — Yenə əvvəlki sözünü təkrar etdi: — Yubanma, çıx get... Sən Arrana lazımsan..."

## HÖKMDARIN QƏZƏBNAK VAXTI

Qonşuluq barədə bədxahlığın, bədgümanlığın əsasını hələ neçə-neçə il əvvəl gürcü çarı dördüncü Baqrat qoymuşdu. O, heç bir əsası olmadan Arrana düşmən nəzərilə baxmışdı. Öz sələfinə xilaf olmayan dördüncü David isə Azərbaycan üzərinə qoşun yeritmiş, nahaq qanlar tökmüş, iki qədim qonşuları bir-birinin üstünə qılınc qaldırmağa məcbur etmişdi. David Gəncəni tutmuş, yerli əhalidən çoxlu əsir alıb aparmışdı.

Onun ölümündən sonra taxt-taca sahib olan birinci Demetre qəfləti basqın edərək gəncəlilərin üstünə yenidən qılınc qaldırmış, onları talan etmiş, geri dönəndə isə çoxlu qənimət aparmışdı. Əsir götürdüyü on min gəncəlinin çoxunu qılıncdan keçirmişdi...

Bütün bunları yaxşı bilən Şəmsəddin Eldəgəz özünü həmişə ayıq və sərvaxt saxlamağa çalışırdı. Yeni dövlətin paytaxtını gah Naxçıvandan Həmədəna, gah Həmədandan Naxçıvana köçürsə də, qonşusuna bel bağlaya bilmirdi. Çünki gürcü çarlığında hakim dəyişilsə də, siyasət dəyişilmirdi — yağı gözləri, düşmən nəzərləri yenə də Gəncəyə, Naxçıvana, Bərdəyə... tərəf baxırdı. Bu təhlükəni bilən Şəmsəddin Eldəgəz hakimiyyəti qəbul edəndən bir neçə il sonra səlcuq hökmdarları ilə ittifaq bağlayıb gürcü çarının üzərinə qoşun yeritdi və onu məğlubiyyətə uğratdı. Lakin bu məğlubiyyət uzun sürmədi. Nizami milli qoşuna, yaxşı hərbi hazırlığa, əsaslı cəbbəxanaya malik olan gürcü çarı ikiillik fasilədən bacarıqla istifadə edərək daha böyük hərbi qüvvə ilə Azərbaycana soxuldu və Gəncəni yenidən istila etdi. Onun qoşunları Naxçıvanı da, Beyləqanı da aldılar, yerli əhaliyə olmazın əzab-işgəncə verəndən sonra, külli miqdarda xərac alıb geri qayıtdılar və hər il xərac alacaqlarını dövlət sənədilə rəsmiləşdirdilər. Lakin Şəmsəddin Eldəgəz məğlubiyyətdən mə'yus olmadı — qoşununu türklərdən əlavə, Naxçıvanın seçmə oğulları hesabına artırmağa başladı, hərbi hazırlığa şəxsən başçılıq etdi, yerli əhalidən alınan vergilərin sayını artırdı, qoşunun hissələrinə ən çox e'tibar edib inandığı məliklərdən başçılar

tə'yin etdi, sipəhsalarlığı[1] da öz öhdəsinə götürdü. Bir gün də gəldi ki, Gürcüstan üzərinə yeni yürüşə başladı...

Gürcü çarlarının bu düşmənçiliyi atasının yerinə hakim keçən Cahan Pəhləvanın xatirindən çıxmırdı. İkinci Georginin öz elçisini məhz Naxçıvana göndərməsi isə hökmdarın ovqatını yamanca təlx etmişdi. Sifəti bir az da sərtləşmişdi. İri gözləri xeyli kiçilmiş, çuxura düşmüş, yanaqlarındakı qırışlar artıb çoxalmışdı. Topa saqqalının cod tüklərinə daraq dəymədiyi üçün bir-birinə qarışıb çənəsinin altında qəribə bir görkəm almışdı. Gecələr narahat yatdığı, nəyinsə nigarançılığını çəkdiyi mütənasib sifətindəki anlaşılmaz əndişənin müəmmalı cizgilərində özünü dərhal büruzə verirdi... Boy-buxunda, sir-sifətində atasına bənzəməyən pərbudaqlı, pəhləvan siqlətli olan Cahan Pəhləvan son günlərdə elə bil balağalaşmış və arıqlamışdı... Geyimində də əvvəlki səliqə-sahman gözə dəymirdi.

Son üç gündə isə işi-peşəsi saatlarla taxtın kənarına söykənmək, tacını başından götürüb dizləri üstünə qoymaq, sonra durub pişgahda o tərəf-bu tərəfə var-gəl etmək, pəncərə qabağında dayanıb uzaqlarda görünən Ağrı dağına baxmaq idi.

Dərgah da isə adamlar bir-birinə dəymişdi: hamıya agah idi ki, hökmdar özünün növbəti qəzəbnak günlərini keçirir...

Bir fəlakət üz verməsə yaxşıdı... Otaqlardan tez-tez dualar eşidilirdi: "İlahi, bəladan hifz elə bizi!", "Sübhanallah, rəhmin gəlsin bizə!", "Xudaya xudavənda, sən bizi əlil və zəlil eləmə!", "Ya rəbbi-aləmeyi, sənə amin, yüz kərə, min kərə amin", "Ey peyğəmbər salavatullah, müqəddəs dininə, kamil kəlamlarına baş verək, təki nəzərlərini bizdən əsirgəmə!", "Ya minəl-əta, bizə də bir əmin-amanlıq əta elə!.."

Belə vaxtlarda saray ərkanından və xidmətçilərdən heç kim pişgahın qapısını açmağa, hökmdarın yanına girməyə cür'ət etməzdi. Nədənsə təkcə Xəlil müxtəlif vasitələrə əl atar, dəridən çıxıb bəhanələr axtarar, ə'lahəzrətanın dərdlərin dağıtmaq, ürəyinə dolan kin-küdurəti azaltmaq üçün kəlmə kəsməyə nail olardı.

Pişxidmət Xəlil "yaxşı gündü" deyə xəmis[2] günü cür'ətə gəldi, qapını açıb şəstlə pişgaha girdi, yaxına gəlib baş endirdi, tə'zim etdi, "əyyamüküm səidə"[3] deyib, hökmdarın hüzuruna səhər salamı yetirdi, ona xoş əhvali-ruhiyyə dilədi, gündüzlər yaxşı iştaha, axşamlar könül açan istirahət, gecələr rahat yuxu arzuladı...

1. Qoşun başçısı
2. Cümə axşamı.
3. Gününüz xeyirli olsun (ərəb dil.).

Cahan Pəhləvan başını qaldırıb diqqətlə ona baxdı, ancaq ona heç nə demədi. Xəlil "ölmək ölməkdi, xırıldamaq nə deməkdi" deyə üyüdüb tökməyə başladı:

— Ey ə'lahəzrəata, bü səbükbarlıq[1] sizə yaraşmır — dedi. — Neçə gündü dərgah əhli sızlıyıb ağlayır, qəm-kədər içərisindədi. Sizin əhvali-ruhiyyənizin yerində olmaması hamının yeyib-içdiyini zəqquma döndərib... Nə gecəmiz var, nə gündüzümüz... Günəş bizim üçün doğmur, Ay bizim üçün işıq saçmır, çaylar bizim üçün axmır, güllər bizim üçün açmır, quşlar gizim üçün oxumur bu son günlərdə... Ey fazillərin pənahı, fəqirlərin himayəçisi, zəmanənin yeganəsi, millətin qayğıkeşi, acların doyuzdurucusu, bizə rəhminiz gəlsin... Fərman, hökm, əmr sizdən, icra bizdən... Qabağınızda ölməyə, ayaqlarınıza düşməyə, başınıza dolanmağa hazırıq gecəli-gündüzlü... Fərman imzalayın, icra edək, hökm verin yerinə yetirək, əmr edin qulluğunuz da duraq...

Cahan Pəhləvan əli ilə pişxidmətə rədd olub getmək işarəsi verdi:

— Mən ə'lahəzrəta qəzəbnak çağlarında tənha qoyub heç yerə gedə bilmərəm... Qədəmlərim sınar, varlığım yoxluğa çevrilər. Bir olan qadir allah bilir ki, alimənsəbim hər bir hökmünə can-başla bey'ət etmək onun müti qulu olan mənim üüçn böyük şərəfdir. Bihəmdulla, adillik də sizdədi, bazilik.

— Rədd olub get, İsfahan lotusu!.. — Bu dəfə dili ilə dedi hökmdar.

Ancaq Xəlil qırsaqqız olub saray sahibinin yaxasından asıldı.

— Bəlkə nədimə deyəm hazırlıq görə, ova çıxasınız, qəlbiniz açıla...

Hökmdar başını silkələdi.

— Bəlkə, könlünüz əş'ar eşitmək istəyir. İcazə verin Məhəmməd ibn Tahiri çağırım. Çapar göndərim lap Müciriddin Beyləqani gəlsin... şə'ninizə qoşduğu qəsidəsini öz dilindən eşidin... Bunları istəmirsizsə, qəvval[2] cariyyəni gətirim eşqdən, məhəbbətdən söz açsın...

Hökmdar elə bil təngə gəldi:

— Ay İsfahan lotusu, sənin çənəni məyər dəmirçi döyüb?.. Niyə çərənləyib qurtarmırsan?.. İstəyin odur ki, Əli Şimşəyin bacısı kimi birini yenə...

— Ə'lahəzrəta, onun adını çəkməyin... Ona görə mənim boynum da vurulsa qanım saraya halaldı. — Xəlilin dizləri əsdi.

— Nə dedin?!

— O həyasız bizi aldadıb, aradan çıxıb... Əli Şimşəyin heç yeri-

1. Tərki dünyalıq.
2. Şe'r söyləyən

li-dibli bacısı olmayıb... Əli Şimşəkgil üç qardaşdılar. Vəssalam!

— Bəs Əcəmi?

— O da yalan imiş, ə'lahəzrəta! Ancaq Əcəmi həqiqətən Əli Şimşəkgilə simsardı... Amma kim kimin nəyidi, bunu dürüst bilmirəm.

— Deməк belə! — Cahan Pəhləvan taxtdan durub otaqda var-gəl etdi: — Heç bilirsən buna görə sən hansı cəzaya layiqsən?

— Zindana atılmağa, hökmdar. — Xəlil əlini sinəsinə qoyub tə'zim etdi.

— Azdı!

— Dili kəsilməyə, ə'lahəzrəta. — Pişxidmət ikiqat əyildi.

— Azdı!

— Asılmağa! — diz çökdü.

— Azdı... dedim azdı!

— Adillik də sizdədi, bazilik də, əşrəfi-ə'la. — Xəlil hökmdarın ayaqlarını qucaqladı...

— Yaxşı... onda vəzirə de ki, bütün qoşun başçılarını pəncşənbə günü xufdən namazından sonra yanıma də'vət etsin.

Xəlil gözləmədiyi cavabdan diksinən kimi oldu, cəld ayağa qalxsa da, dizləri sözünə baxmadı...

## DƏRBAN VƏ MÜHAFİZ

### (Yaz söhbəti)

— Ə, nətərsən, ə?

— Necə olacağam? Demək olar ki, pisdən pis.

— Ə, niyə, İman?

— Belə də gün-dirilik olar, Duman? Batıb getdik ha!

— Yenə nə olub, ə?

— Nə olacaq, qaradan da betər rəng? Nə ev-eşik üzü görürük, nə arvad-uşaq... Səfərdə olan bəzirganları keçmişik. — Gödəkboy dərban oyalandı, burunun çəkib sinəsini qaşıdı.

— Ə, yoxsa kənddən sarı darıxırsan?

— Darıxırsan da sözdü? Rəsmən burnumun ucu göynəyir.

— Ə, elə demə, İman, sən mənim canım! Ürəyim sızıldadı. Dərdimi təzələmə. Sən elə niskilli danışanda mənim də yadıma kənd düşür. Səhər-axşam bu saray divarlarının dibindəyəm, sağa-sola, qabağa-dala gedib-gəlməkdən lap bəzikmişəm. Dönüb olmuşam kəcavə ptı. —

Mühafiz gözlərini bir nöqtəyə dikib, siçanquyruq bığlarını eşli: — Ola rahat bir hücrə, xalçalan, kilimdən salınmış bir yer... Qolunun altında qotazlı mütəkkə... Qabağında da açalar təmiz qələmkar dəstərxan, üstündə də ləziz-ləziz yeməklər. Ortaya da qoyalar bir kuzə yaxşı şərab... Hökmdar içənin özündən... Və sənnən də əyləşə üz-üzə bir afət...

— Hacı, salaməleyküm... Qatıq töküldü...

— Ə, sən zarafat elə, İman! — Mühafız də şirin-şirin xəyallardan ayrıldı, yenə giley-güzara başladı: — Ə, yoxsa bu da bir kişilikdi? Yenə sən divarın içəri səmtindəsən. Amma mən saraydan çıxan, saraya gələn ərkan adamlarının qabağında o qədər quruyub durmuşam ki, lap dönüb olmuşam del sapı. Bir zənən xeylağı dönüb gözünün ucuynan da mənə baxmır. "Yamana, ay yamana, Oxu qoduq kamana. Eşşəklər arpa yeyir, At həsrətdi samana..."

— Hövsələmizə soğan doğrama görək, sən allah! Görmürsən yaz gəlib? — Dərban yenə sinəsini qaşıdı.

— Ə, İman, kasıba nə yaz, nə yay?..

— Elə demə, Duman. Kasıbın yazda dərd-səri azalır. Daha fikir eləmir ki, arvad-uşaq ac qalar. Niyə də ac qalsın? Səhər çıx kövşənə, nə qədər istəsən yığıb gətir pencər-püncəri. Qazayağı, şomu, xatınbarmağı, cincilim... Qaynat, tök uşağın qabağına...

— Ə, elə demə, İman, bəni-adam çörəksiz dolana bilməz...

Bir müddət heç biri dinmədi. Dərban sarayın əsas darvazasının içəri üzündəki balaca köşkün taxçasına qoyduğu bağlamanı gətirib açdı.

— Demək olar ki, haqlısan, Duman. Çörəksiz kişinin başı qonşu yanında həmişə aşağı olar. Çörəksizlik kişinin arvad-uşaq yanında da xəcil edər... Yaxın gəl, adama bir tikə çörək yeyək. — Bir neçə sac lavaşı və bir dəstə göy soğan çıxartdı, dəstarxanın bir ucundakı düyünü açıb soğanın üstünə duz da səpdi.

Mühafiz dedi:

— Ə, İman, yaz gələndə adamın könlünə bilirsən nə düşür? — Özü də cavab verdi: — Bulağın gözündən dərilən qaragöz yarpız, Arazın qırağından, qamışlığın içindən bir-bir yığılan mərəçöyüd. Təzəcə mayalanıb quyruq kimi tir-tir əsən qoyun pendiri, özü də qara qoyunun südündən. Bir də çil-çil toyuğun yumurtası! Bəh, bəh!..

Dərban onun sözünü kəsdi:

— Duman, nağdını qoyub nisyənin dalınca qaçma. — Əbasının

cibindən tütün kisəsini çıxarıb demisini doldurdu, sonra çaxmaq daşının üstünə qov qoydu, ancaq nə fikirləşdisə yandırmadı.

Mühafizəsini divara söykədi, başından məxfərini götürüb kbşkün balaca pəncərəsinin yanına vurulmuş çubuq mıxdan asdı, əlilə sıçanquyruq bığlarını eşdi, daz başındakı bir qom tükə tumar çəkib boynunun ardına aşırdı. Sonra soğan dürmələyib iştahla yeməyə başladı:

— Ə, İman, deyirəm yaxşı ki, sən varsan, yoxsa Kəniseyi Babək haqqı ləp ürəyim partlayırdı. Yenə axşamlar hərdənbir hənirtinin eşidib yalqızlığımı unudurdum.

— Elə demə Duman. Elə mən də sən gündəyəm. Demək olar ki, iti yalağın yanına bağlayan kimi məni də gör neçə ildi bağlayıblar bu darvazanın astanasına. Oturmaqdan yançaqlarım döyənək olub. Bəni-Eldəgəzləri, onların xəlvətiyyəsinə mənsub olanları görən kimi durub-oturmaqdan qılçalarımın da suyu çəkilib. Gələnə baş əy, gedənə baş əy... Darvazanı aç, darvazanı ört. Lap zəndeyi-zəhləm gedib. Cariyyə qaçır — cavab ver. Hələ bəxtim orda kəsdi ki, o həyasız Cahannur sarydan pişxidmət Xəlillə çıxıb, yoxsa indi haradaydım, özüm də bilmirəm...

Mühafiz əli ilə gözlərinin yaşını sildi:

— Ə, bu soğan da lap zəqqum kimidi ki!..

Dərban mühafizin sözünə əhəmiyyət vermədi:

— Görürsən saray nə yatıb? — Keçə papağını başından götürüb dizinə keçirdi, bir barmağının dırnağı ilə əmgəyini qaşıdı.

— Ə, kim də yatsa, — mühafiz soğanı dürməyin arasından çıxarıb kənara atdı, — heyvərə Həsən yatan deyil. Güdükçüləriynən, xəbərçiləriynən, qulaqçılarıynan indi rəbat itləri kimi ora-buranı sümsünür. Axı adam satmaq üçün, onu-bunu güdaza vermək üçün, dəyyus rəsmən yerikləyir. — Mühafiz bir an fikrə getdi. — Dədəmin zurnaboğaz bir dayısı vardı. Adına uzundraz Nəcəf deyirdilər. Uzundraz Nəcəfin də ciyəri yanmış bir övrəti vrdı. Adına gəzəyən Narış deyərdilər... heç bilirsən dədəmin daycanısı nə eləyirdi? Elə ki, başladı yerikləməyə, düşərdi kəndi qapı-qapı gəzərdi. Hansı həyətə girdi, deyərdi: "Aaz ey, ciyəri yanmış, bucağınızdan bir pay gətir, qoy uşaq sənə oxşasın". Hərə də əlindən qopanı verərdi. Biri deyərdi: "Narış, qoy mənə oxşasın", o biri deyərdi: "Narış, qoy mənə bənzəsin". Qarnı cırılmış Narış da qapıları beləcə gəzə-gəzə düz on üç qız doğdu, hamısı da uzundraz Nəcəfə oxşadı. Birini də alan olmadı. İndi də heyvərə Həsən. — Mühafiz lavaşından yaxşı bir dürmək də tutdu. — Hə, belə-

belə işlər, İman!.. Ə, bir də bilirsən kim oyaq olar?

— Kim?! — Dərbin demisini yandırıb bir neçə qullab vurdu.

— Şəhər rəisinin qısır arvadı Nəsrin xatun. — Mühafiz bic-bic göz vurub güldü.

— Qoy görək, sən allah! — Dərban bu dəfə demisinin tüstüsünü daha dərindən sümürüb sinəsinə çəkdi.

— Ə, düz sözümdü! — İnan mənə, sən mənim canım! Dəyyusun qızı kişi görəndə, bax, o şam kimi əriyib gedir. — Mühafız balaca taxçadakı şamı göstərdi. — Xoşuna gələni az qalır Batabat baldırğanı kimi soyub lüt qoya. Deyirlər onu da deyib ki, mənə kişi gərəkdi... İstər şah olsun, istər gəda. Bu şərtlə ki, qüvvətli qolları olsun, isti sinəsi olsun, hərarətli dodaqları olsu, orama-burama uzanan narahat əlləri olsun... Elə kişi var başımı verərəm, elə kişi var başını vuraram. Uf da deməræm əfəl kişilər üçün... İnanmırsan? Ə, beləcə deyib, Kəniseyi-Babək haqqı!

— Bu çox ağ oldu...

— Ə, mən gördüklərimi, eşitdiklərimi danışıram sənə, İman... Bu dəyyus qaraulbaşının özü... hir neçə dəfə məni çağırıb qaravulxanada öz yerinə qoyub. Mən də demişəm bə mənə e'tibar edif... Sonra öyrənəm ki, sən də yatandan sonra özünü verir Nəsrin xatunun yanına, soxulur təxti-xabına...

— Nə deyim, ay Duman...

— Mən inanıram. Ə, sarban dəvənin ovsarını əlindən buraxmayan kimi dəyyusun qızı da əlinə düşən kişini buraxmır... Deyirlər: deyib ki, mənim bu kişilərnən davam qiyamətəcəndi. Necə ki, nəfəsim gedib-gəlir, gərək diz çökdürəm onları qarşımda bir-bir! Hələ onu da deyirlər ki, bir vaxtı Əcəmiyə vurulubmuş... Azca qalırmış kişini yoldan çıxarsın, amma Əbubəkr oğlu usta çıxıb, ətək ələ verməyib.

— Anqırsın tayını tapsın! — Dərban deyindi. — Əbubəkr oğlu ifallı, abırlı, adamdı, elə bihəyalara üz verməz. Elə də xam-xam danışırsan ki, guya bu sırtıq saray xanımlarını tanımırsan!..

— Ə, elə tanıdığım üçün danışıram da!.. Görmürsən Şərur məliki Oğuz da son vaxtlar rəisgilə ayaq açıb... İki günün biri qonaq gəlir, onları qonaq aparır... Deyəsən, dəyyusun qızı məlikin də saqqızını oğurlayıb...

— Elə ki, danışırsan gərək onu atalar itlərə ki! — Dərban əsəbiləşdi: — Bilirsən, bir əmirin övrəti başlayır əyri yola getməyə, özü də Nəsrin xatun kimi qısırmış... Yeyib-içib harınlayıbmış... Bunu bilən

əmir hökm verir ki, bütün zinətlərini üstündən çıxardın-qızıl küşvərəsin də, sinəbəndin də, bazubəndin də, zümrüd xalxalların da... Xatay-dan, atlasdan, irəkdən, qanovuzdan tikdirib geydiyi bütün paltarlarını soyundurun, qızıl darağını, güzgüsünü, hərəmisini, araxçınını əlindən alın, hənasını, irasığını, qımızını zibilliyə tullayın... Bircə dəst köhnə qaravaş paltarı geyindirib aparın qul bazarına, özü də kim istəsə müftəcə verin götürüb aparsın. Və deyin ki, niyə müftə veririk... Bir gün də sənin Nəsrin xatanunu beləcə edərlər, Duman.

— Ə, elə demə, İman. Sən mənim canım! Heyfdi!.. Bir dəfə yasəmən rəngli Təbriz ipəyindən tikilən çələbiyyəsində görmüşəm o afəti... Hörüklərinə vurduğu qaliyə[1] də par-par yanırdı. Ağzım bir həftə açıla qalıb. Ə, inan, həqiqi sözümdü. Gecələr burada gəzişəndə gördüm darvaza harda qalıb, mən gedib haralara çıxmışam... — Mühafiz siçanquyruq bığlarını eşdi: — Bu gün-sabah havalar qızacaq, iydələr də çiçəkləyəcək... Gəl onda bu cariyyələrin, lap elə rəisin qısır xanımı Nəsrin xatunun qabağında dur görüm, necə durursan!..

— Duman, iydə dedin, kəndimiz gəldi durdu gözümün qabağında. Bizim yerlərin yazı, baharı həqiqətən gözəl olur... Bir azdan gül gülü, bülbül bülbülü çağıracaq. — Dərban yenə bir-iki qullab vurdu. — Körpə quzular, çəpişlər çəmənlikdə hoppanacaqlar, ora-bura dırmaşacaqlar... Çobanlar tütəklərini dilləndirib gözəl-gözəl havalar çalacaqlar, xanım-xatın gəlinlər ağlı-qaralı qoyunları sağıb südünü badya-badya alaçıqlara daşıyacaqlar... Gözəl-gözəl qız uşaqları ətək-ətək quzuqulağı, yemlik, çaşır yığıb gətirəcəklər. — Demisinin söndüyünü görüb, külünü boşaltdı, cibinə qoydu. — Bəh,bəh! Hardasan, qadasın aldığım ulu dağlar, axarlı-baxarlı dərələr, başına dolandığım coşğun çaylar, durna bulaqlar? Demək olar ki, düşdü yadıma hamısı, ay Duman!

Mühafizin ağzı açıla qalmışdı, tikəsini də udmamışdı, yarımçıq dürməyini də, divara söykədiyi nizəsi kimi, ovcunda bərk-bərk tutub fərağat dayanmışdı:

— Ə, danış, İman, sən mənim canım!.. Heç bilməzdim ki, sən belə yaxşı-yaxşı danışarsan!..

Dərban söhbəti dəyişdi:

— Ozanlar demişkən, elə birdən cuşa gəldim. Di yaxşı... ye görək. — Süfrənin qulağından tutub mühafizə tərəf çəkdi. Bir müddət heç biri danışmadı. Birdən bayırdan nə isə bir səs gəldi.

Mühafiz təzəcə su süzdüyü camı yerə qoyub özünü cəld bayıra atdı və tez də qayıtdı:

1. Müşk və ənbərdən hazırlanan bəzək yağı.

— Çor dəymiş südümü qaçırdı, dedim bə qaravulbaşıdı. Yoxsa gözünü yumub ağzını açacaqdı: "Zındıqoğlu, hara getmişdin? Zındıqoğlu, niyə qayda-qanunu pozursan?.."

Dərban soruşdu:

— Neçə dəfə istəmişəm xəbər alam, yadımdan çıxıb.. Qaravulbaşı sənə niyə Zındıqoğlu deyir?

— Nə bilim! — Mühafız çiyinlərini çəkdi. — Deyirlər guya babamın babası xürrəmilərə yaxın olub...

— Daha sözüm yoxdu. — Dərban sözü dəyişdi. — Bəs eşikdən gələn səs nə idi?

— İt idi... rəbatlardakı yiyəsiz itlərdən.

Hər ikisinin üzündə təbəssüm göründü.

— İtnən dilənçi əlindən tərpənmək olur ki?

— Ə, İman, it dedik, itim yadıma düşdü. Bizim alabaşı deyirəm, sənin canın üçün həyətdən çölə buraxsaydın, yəqin ki, qurd basardı... Özü də çox vəfalı heyvandı... Mən qaçardım, o qovardı, o qaçardı, mən qovardım... Qışda həyətimizə yağan qarı ikimiz ayaqlayıb bərkidərdik. — Mühafiz köks ötürüb dərindən ah çəkdi: — Hə, belə-belə işlər!..

Dərban qarnını tutub güldü:

— Oyunun olsun, ay Duman! — Nədənsə onun daz başına, çənəsi aşağı sallanan siçanquyruq bığlarına, vaxtından tez qırışıb mütənasibliyini itirən sifətinə dönə-dönə baxdı. Mühafiz də nə fikirləşdisə məxfərini götürüb başına qoydu.

Dərban söhbəti dəyişdi:

— Duman, xəbərdən xəbərin var?.. Deyirlər Əbubəkr oğlu atabəy Məhəmmədlə şərt kəsmək istəyib...

— Ə, yox, eşitməmişəm. — Mühafiz gözlərini bərəltdi.

— Deyib ki, atabəy Məhəmmədə deyəcəyəm: Georginin üstünə qoşun yeritsin, Mö'minə xatun ananın qəbri üstündə türbə tikən deyiləm.

— Ə, sən də inanırsan, İman? Padşahınan da şərt bağlamaq olar? Tikməz, o da cəzalandırar, sadırar zindana!..

— Sadıra bilməz. İndi atabəy Məhəmmədin ona işi düşüb, Əcəminin ki, ona işi düşməyib. — Dərban yekə-yekə əlavə etdi: — Alimdi, şairdi, me'mardı, istəsə şahı hər cür igidliyə təhrik edə bilər.

— Ə, nə deyim?

— Xəbərdən xəbərin var ki, Əli Şimşək yenə dinc oturmur?

— Nə eləyib ki?

— Rəisin adamlarına divan tutub. Deyib ki, Xanəgahın da, ona qonşu kəndlərin də camaatı vergi-zad verməyəcək. Gedin, başınız bədəninizə ağırlıq eləməsin, yoxsa qulağınızı kəsib qoyarıq ovcunuza...

— Ə, Əli Şimşək də başını qoyub ətəyinə...

Söhbətə ara verdilər. Dərban yenə burnunu çəkib sinəsiniqaşıdı:

— Onu da eşitmisən ki, mələkə Zahidə xatun Təbrizə varid olub?.. Bu gün-sabah gəlir bura. Özü də ərindən icazə almadan kəcavəsini birbaşa, heç yerdə dayanmadan sürdürür Naxçıvana... Deyirlər bu da atabəy Məhəmmədin xoşuna gəlməyib. Amma Zahidəni belə-belə günahlarından həmişə keçir. Demək olar ki, bu dəfə də keçib. Çaparlar göndərib ki, Culfaynan Mərənd arasında xatunu qarşılasınlar. Deyirlər ki, guya mələkə balaca xatunu da gətirir. Atabəy Məhəmmədi məcbur eləyəcək ki, qızı Cəlaliyyəni Naxçıvana iqtidar tə'yin eləsin.

— Vəssalam! — Mühafiz əlini dizinə çırpdı: — Ə, İman, deyərlər: iş ki, düşdü arvada, ölən günü sal yada... Nəfslərində ki, kişilərinkindən qat-qat artıq. Görmədin bunların yanları dəlinmiş nənələri Həvva nəfsinin ucbatından yazıq Adəmin başına nə oyunlar açdı? Kişini yoldan çıxarıb gül kimi cənnətdən qovdurmadı?.. Hə, belə-belə işlər!

— Hə də, ərkəklərindən bay olmuşuq, qalmışdı dişiləri! — Dərban da mühafizin sözünə qüvvət verdi. — Deyirlər mələkə gələndən sonra Mö'minə xatun ananın qəbrinin yanlarında him açılacaq, atabəy Məhəmməd həmin himə şəhərin baş zərgərlərinin çəkdiyi çoxlu qızıl sikkə atacaq, sonra da tikiliş başlanacaq. Çox böyük bir sərdabə tikiləcək, Şeyx Yusifin sərdabəsi onun yanında heç bir şey. Qoz yanında fındıq...

— Ə, İman, varlığa nə darlıq. Padşahımızın var-dövləti ayaq tutub yeriyir. Deyirlər, sanamaq da olmur müşkül iş... Bizim kimi soğan-çörək yemir, barmağının kirini sormur ki? — Mühafiə yana-yana deyindi, sol əlinin barmaqlarını bir-bir büküb əlavə etdi: — İlxı-ilxı at-qatır... naxır-naxır öküz inək, buğa-düyə, dana-buzov... sürü-sürü öyəc-qoç, qoyun keçi, quzu-çəpiş... xalisələrin[1] də, iqtaların da, necə deyərlər, bir ucu Məğribdə, bir ucu Məşriqdə. Elə buna görə gürcü padşahının elçisinə deyib ki, hünərini görüm sizin Georginin, Naxçıvan tərəfə dönüb gözünün ucuynan baxsın. İlxılarımdan beş min kölən at ayıraram, üstünə də beş min tərlan kimi oğlu mindirərəm, özüm də ağ kürənin belinə qalxıb düşərəm qabağa, onda kişidi gəlsin mənimlə döş-döşə. Onun yanından ikinci bir Georgi çıxarmasam, nə atabəy Şəmsəddinin belindən gəlmişəm, nə də Mö'minə xatunun südünü əm-

1. Geniş torpaq sahələri.

mişəm!

— Amma mən onu bilirəm ki, quyu qalır, su axır...

Bu dəfə köşkdə sükut uzun sürdü. Mühafiz pəncərədən bayıra boylandı:

— Ə, İman, gör nə gözəl ay doğub, hər yer süd kimi ağappaqdı.

Dərban onun sözünü təsdiq etdi:

— Demək olar ki, bu gün ayın hilal çağıdı...

Mühafizə köks ötürdü və birdən yanıqlı bir səslə bayatı çəkdi:

Mən aşiq, sirdaşım var,
Torpağım var, daşım var.
Arazın sularında
Mənim də göz yaşım var...

Kimsə mühafizi səslədi.

— Duman, deyəsən bu qaravulbaşıdı...

— Ə, düz deyirsən, İman. Gəldi yenə dəyyus oğlu, dəyyus! — Mühafiz bir göz qırpımında özünü eşiyə atdı.

Dərban süfrəni büküb təam duası oxudu...

Uzaqlarda, dağların arxasında göy guruldadı. Arazın o tayında şimşək çaxdı. Bir azdan yaz yağışı başladı...

## KUZƏÇİ, DƏMİRÇİ, ZƏRGƏR

Əcəmi sübh tezdən durmuşdu. Həyətdə bir az qurdalandı... Ancaq heç nəyə əl vurmağa həvəsi yox idi, yeməyə də onun kimi. Buna baxmayaraq müxtəlif söyüd, iydə şivlərindən müxtəlif rənglər vurub toxuduğu səvərələrdən bir balacasını götürüb həyətə çıxdı. Elə bu vaxt kor Əhsənin udunun həzin sədaları səhərin mehinə qarışıb onun həyətinə doldu, qulaqlarına axdı. Kor Əhsən yenə muğam çalırdı, qədim bir muğam...

Əcəmi gedə bilmədi, ağacın altındakı kötüyün üstündə əyləşib axıra kimi qulaq kəsildi. Muğam qurtarıb, ud susandan sonra səvərəni sol qoluna keçirdi, darvazanı kilidlədi və yola düzəlib bazara getdi.

Bazarda yenə qələbəlik idi. Adamların arasından keçib tanış bir kəndlidən təzə pendir, şor-kərə, per-pencər aldı. Qayıdanbaş yolunu "Qızlar bulağının " üstündən saldı. Ona elə gəlirdi ki, bulaqda heç kim olmaz, o da yaxşıca yuyunar, yaz gecəsinin kəsalətini bədənindən tezcə qovub çıxarar...

Ancaq yoxuşu aşağı enəndə qulaqlarına gülüş səsi gəldi. Elə bil qayada kəkliklər qaqıldayırdı. Dayanıb qulaq asdı. Kişi xeylağı olmayanda qızların bir-birinə qoşulub sərbəst zarafat etmələri, ürəkdən gülmələri cavan yaşlarından Əcəminin xoşuna gəlirdi...

Bulağın üstündəki dikdirdə böyük sal daşlardan birinə söykənib əvvəlcə, göy qurşağına baxdı, sonra ətrafa xeyli qulaq asdı. Atasının dostu qoca kuzəçinin bir dəfə dediyi sözlər qulaqlarında səsləndi: "Bizi bu fani dünyaya bağlayan iki şeydi, qardaşoğlu: biri torpağın əziz ne'mətlərindən dadmaq həvəsidi, biri də məhəbbətdi..."

Qayanın döşünə sığınan ceyran sürüsü təhlükə duyub özünü yığışdıran kimi, qızlardan da kimsə Əcəmini gördüyü üçün xəbərdarlıq etdi. Gülüş səsi xırp kəsildi, bə'zisi güyümü çiyninə qaldırdı, bə'zisi bardağı, cürdəyi əlinə götürdü, durna kimi qatarlanıb ensiz yola düzüldülər, gəlib Əcəminin yanından keçib getdilər. Salam verəni də oldu, utanıb başını aşağı salanı da. Ancaq başına yanları yaşıl haşiyəli ağ kələğayı örtən bir qız ayağını sürüdü.

— Sabahın xeyir, usta. — dedi və onun qənşərində dayandı: — Bəlkə suya meylin var? — Əlindəki balaca bardağı ona tərəf uzatdı...

Qabaqdakı qızlar da ayaq saxladılar, dönüb arxaya baxan da, çiyni üstən qanrılan da oldu.

— Sənin kimi gözəl qızın təklif etdiyi suyu heç içməmək olar? — Əcəmi səndəl ağacını qurşağına taxıb, bardağı qızdan aldı, qızın yanağına qədər qaldırdığı kələğayının üstündən yanan qara gözlərinə baxa-baxa başına çəkdi, bir neçə qurtum içəndən sonra sahibinə qaytardı: — Çox sağ ol... Ulu yaradan səni xoşbəxt eləsin!

— Sən də sağ ol, usta. — Qız bardağı sinəsinə sıxdı. — Amma izin versən , ha budu, bir ricam var, onu deyərəm.

— Buyur. — Əcəmi diqqətlə qıza baxa-baxa qaldı.

— Mö'minə xatun ananın qəbrini yaxşı götür. Ha budu, Şeyx Yusifin qəbrini necə düzəltmisən, onunkunu da eləcə düzəlt... Mö'minə xatun ana yaxşı övrət idi. Mənə böyük yaxşılığı keçib. Yalvardım-yaxardım məni o dağılmış Bağdada göndərilən qızların içərisindən, ha budu, özü alıb da, buraxdı da... Yoxsa indi başıma nə müsibətlər gəlmişdi! — Qız qəhərlənib köks ötürdü.

Əcəmi ha çalışdısa fikrini bir yerə toplaya bilmədi. Qabaqdakı qızlardan kimsə əl elədi. Qız bunu görüb Əcəmidən uzaqlaşdı və gedə-gedə:

— Əlin-qolun var olsun, usta! — dedi. — Əməlin də bu bardaq-

dakı su kimi saf, təmiz. Bu da bizim sənə, ha budu, xeyir-duamız bu sübh çağı.

— Sağ olun, qızlar, çox sağ olun!

Əcəmi xeyli müddət qızın arxasınca baxdı, birdən Dəryanuru xatırladı, çünki indicə ona su verən qızın özünün də suyu Dəryanura oxşayırdı... Özünü ələ alıb bu dəfə yaxasını şirin-şirin xatirələrin ağuşinə atmadı və beyninə dolan qarmaqarışıq fikirləri özündən uzaqlaşdırmağa çalışdı. Və birdən hər şey onun üçün aydın oldu: su verən qız Şahab meydanında Cahan Pəhləvanı qarşılayan şəhər əhlinin içərisində gördüyü Şəhdigül idi...

İstədi çağıra, danışdıra, ancaq qızlar uzaqlaşıb gözdən itmişdilər. Fikirləşdi: "Eybi yoxdur, ərənlər üçəcən deyiblər..."

Əcəmi bulağın gözünə endi. Sal daşlardan elə bil inci süzülüb tbkülürdü. Bir müddət dayanıb baxdı... Fikirləşdi: "Həqiqi aşiqlərin də eşqi, məhəbbəti bu damğılara bənzəyir: saf, şəffaf, təmiz..." Sonra səvərəni daşın üstünə qoyub göz yaşı kimi suyu ovuclarına doldurdu, üzgözünü, açıq sinəsini yudu, sonra Atabəylər meydanına gedən yoxuşla dikdirə qalxdı, yolunu Mö'minə xatunun qəbri yanından saldı. Qəbrin mərmər sanduqəsinə qızıla tutulmuş qara zərxara salınmışdı...

Bura çatanda ayaq saxlayıb qəbrin qoca xuddamına[1] salam verdi, kefini soruşdu. Sonra gözləri qəbrə zilləndi, xeyli fikrə getdi...

Şəhəristanın məğrib qapısına çatanda sağa buruldu, sonra cənubdan rəbata keçdi, burada yan-yana düzülən karvansaraların qabağından adlayıb balaca dulus dükanına girdi. Ağ əbrişim saqqallı qoca kuzəçi öz işində idi. Artıq, damarları çıxmış əllərilə dulus çarxını tənbəl-tənbəl fırladır, palçığı mum kimi istədiyi şəklə salırdı. Bu cahandidə qocanı Əcəmi yaxşı tanıyırdı, atası Əbubəkrlə uzun illər dostluq etmişdi.

Sabahın xeyir...

Qoca fırlatdığı çarxı saxladı, başını yuxarı qaldırıb diqqətlə baxdı və gələni birdən tanıdı.

— Bıy, qardaşoğlu, sənsən?.. Saqqalın ağarsın, az qaldım tanımayam. — Kuzəçi sağ əlinə söykənib güclə çarxın arxasından durdu, belini düzəldib kənardakı kötüyün üstündə oturdu, qənşərindəki üstünə ağ qoç dərisi salınmış kötüyü də Əcəmiyə göstərdi, əyləşməsinə işarə etdi. — Sənin də sabahın xeyir olsun, ay Əcəmi. Həmişə sən gələsən, çoxdandı səni görmürəm, ürəyim istəyirdi. — Köhnə əbasının cibindən balacp kisə çıxartdı, düyününü açıb bir çimdik burunotu götürdü, burnuna çəkdi, iki-üç ağız asqırdı, sonra əlavə edib dedi: — O gün

1. Gözətçi.

Cəmil gəlmişdi... səndən ona da giley-güzar elədim ki,bəs mənim bu qardaşoğlum görükübelәmir... O da ki, sənin tərəfini heç kimə verməz. Dedi ki, başı bir az qarışıqdı, bu gün-sabah görükər. Sonra da şəhəristanda dəbiri görüb soruşdum. O da dedi ki, Əbubəkr oğlunun başı qarışıqdı...

Əcəmi dinmədi, kötüyün üstündə də oturmadı, qocanın yerinə keçdi, çarxı işə salıb onun yarımçıq işini davam etdirməyə başladı. Kuzəçi razı olmadı:

— Əşşi, bu olmadı ki! Əl- ayağını niyə palçığa bulayırsan? — Qıymasa da, Əcəminin işləməsindən xoşu gəldi. Çarxın üstündə hərlənən palçıq tez-tez folrmasını dəyişir, şəkildən-şəklə düşürdü... Bir az sonra gözəl, səliqəli bir kuzə alındı. Əcəmi cibindən nəysə çıxarıb onun üstünə müxtəlif xətlər çəkdi, naxışlar cızdı. Sonra Dərgah kişiyə baxıb gülümsədi:

— Yox, qardaşoğlun hələ yadırğamayıb, Dərgah kişi! Nə vaxt istəsən, gəlib şagirdin ola bilərəm.

Kuzəsi də xəfif-xəfif güldü:

— Qoy görək sən allah — dedi. — Lətifəsi bizdən uzaq olsun, deyir, bir dilənçi bir qapıdan çörək istədi, içəridən səs gəldi ki, ev yiyəsi evdə yoxdu. Dilənçi dedi: "Mənə çörək lazımdı, ev yiyəsi yox..." Mənə sənin sağlığın lazımdı, ay Əcəmi!.. Adın-sanın lazımdı, ay qardaşoğlu! Dur, dur su töküm əllərini yu.

Əcəmi tabe oldu. Sonra keçib qocanın göstərdiyi kötüyün üstündə oturdu, gətirdiyi səvərəni də götürüb yan tərəfdə bir-birinin üsütünə qalanan kuzə dəstinin üstünə qoydu.

— Heç sən də görükmürsən, ay Dərgah kişi. — Əcəmi də onu çox səmimi məzəmmət etdi: — Demirsən gedim görüm mənim dostum Əbubəkr kişinin oğlu necə yaşayır, işi-gücü nə haldadı?

— Allah Əbubəkr kişiyə qəni-qəni rəhmət eləsin! — Qoca yenə burunotu çəkdi, ancaq bu dəfə asqırmadı. — Halalxor kişi idi! Eh, neçə illər bir yerdə işlədik, bir-birimizdən bir tük qədər də incikliyimiə olmadı. — Başını xeyli bulayıb təəssüfləndi. — Sənin rəhmətlik atan kimi kişiləri allah təala çox xəsisliklə xəlq edib yer üzünə göndərir. — Kuzəçi bu dəfə yana-yana deyindi: — O ki, qaldı mənim görünməyimə, ay qardaşoğlu, daha qocalmışam... Bir dəfə eşikdə palçıq ayaqlayırdım. Gördüm ki, bir cavan mənə baxıb gülür. Dedim, oğul, niyə çox yaşamaq istəmirsən? Dedi, niyə yaşamaq istəmirəm, qoca? Dedim, bəs onda qocaya niyə gülürsən? Axı sən də qocalacaqsan. Oğlan pərt

oldu, yaxına gəldi, məni qucaqlayıb öpdü. Dedi, bağışla, baba. Dedim, öz təqsirini başa düşdüyün üçün sən ləyaqətli cavansan... Bağışladım... O ki, qaldı babana, işdən ayrılsa, yaşaya bilməz... Qardaşoğlu, bu çarxın başında bir gün əyləşməsəm, elə bilirəm ki, itiyim itib. Mənim də xamırım torpağnan, palçıqnan yoğrulub... Lətifəsi bizdən kənar olsun, deyir, bir quzu anasından soruşdu: mənə bir fənd öyrət ki, sürüdən dala qalıb canavara rast gəlsəm, canımı onun əlindən qurtara bilim. Qoyun balasına dedi: ən böyük fənd odur ki, örüşə çıxanda sürüdən dala qalma, qışlaqda olanda pəyədən bayıra çıxma. Onda nə canavara rast gələrsən, nə də canını qurtarmaq üçün sənə fənd gərək olar. İndi də mən, ay qardaşoğlu, heç yerə çıxmıram. Bir daxmadı, bir də buradı gedib-gzldiyim yer. Qulun qulağında heydəri, boynunda kündə, ayağında zəncir olmasa onun harası quldu? Sənin kimi, mənim kimi adamdı, vəssalam! Dərvişin yamaqlı xirqəsi, köhnə kəşkülü, nimdaş təbərzini olmasa onun harası dərvişdi?.. Mənim də bu qara, palıdı rəngli çölməklərim, səniclərim, bəqqələrim, sənəklərim, bardaqlarım, guvəclərim, kuzələrim, ləhlərim, süzəklərim, badyalarım, bu zərif, minalı piyalələrim olmasa haram oldu kuzəçi... Mən bunlarsız heç nəyəm. — Dərgah kişi yerdəki, rəflərdəki qabları göstərdi. — Şeyx Nizami deyir: "Nə xəzinə yığanam, nə də tirmə geyənəm. Öz halal zəhmətimin çörəyini yeyənəm." Hə, indi de görüm, sənin işləri necədi? Söhbət gəzir ki, bu gün-sabah başlayırsan mərhum Şəmsəddin atabəyin mərhum övrətinə sərdabə tikməyə. Səhihdi bu xəbər?

— Hələ qəti qərara gəlməmişəm...

— Niyə ki? — Kuzəçi təəccüblə soruşdu: — Axı, Cəmil dedi ki, hazırlıq görürsən?

— Cahan Pəhləvan elə sərdabə istəyir ki, buna çətin ki, bir insan ömrü bəs edə, Dərgah kişi! — Əcəmi hökmdara dediklərini təkrar etdi:

— Qardaşoğlu, sən kamil, müqtədir sənətkarsan, iste'dadına qayim ol, əllərinə, gözlərinə güvən. Mən, mərhum Şeyx Yusifin sərdabəsini tikəndə sənə inamışam, özü də ürəkdən, sidq ilə inanmışam. Oğullar atalarından gərək irəli gedələr. Sənin rəhmətlik atan ən mahir bənna, ən kamil dulusçu idi. Amma sən ondan irəli çıxmalısan. İrəli çıxmısan da. Buna görə də iste'dadına qayim olduğun kimi, ehtiyatı da heç vaxt əlindən vermə, ayıq-sayıq ol, sərvaxt yaşa. Lətifəsi bizdən uzaq olsun, deyir, üləmalardan birinə dedilər: "Saraydakı divanələri say", dedi: "Mənim o qədər vaxtım hardadı". Dedilər: "Yaxşı, onda

ağıllıları say", dedi "Baş üstə, bir-iki. Vəssalam..."

— Səni həmişə iş üstündə görüm. Dərgah kişi, — Əcəmi oturduğu yerdən qalxdı, səvərəni kuzə dəstinin üstündən götürdü və birdən nə fikirləşdisə əlavə edib dedi: — Mənim Şahtaxtında[1] qoca bir bibim var. Dünən mənə sovqat göndərib. Birdən ürəyim istədi səni. Fikirləşdim ki, gedim həm salam verim, həm kefin xəbər alım. — Səvərəni bazardan aldığı ayın-oyunla bir yerdə təzədən qaytarıb kuzə dəstinin üstünə qoydu. — Həm də mərhum dostunun bacısı gətirən sovqatdan ona da pay aparım...

— Dedin sovqatı kim göndərib? — Kuzəçi yenə burunotu çəkdi, bu dəfə elə bərkdən asqırdı ki, kisəsi əlindən düşdü, əyilib götürdü7

— Dostun Əbubəkr kişinin kiçik bacısı.

Qoca yenə rəhmət oxudu:

— Allah Əbubəkr kişiyə qəni-qəni rəhmət eləsin. Halalxor kişi idi. Əbubəkr kimi kişiləri allah təala çox xəsisliklə xəlq eləyib yer üzünə göndərir. O ki, qaldı bibinə, xatırlaya bilmirəm, allah qocalığın üzünü qara eləsin!..

Əcəmi qımışdı, qoca kuzəçini aldatmağa ürəyi gəlmədi, istədi düzünü deyə, ancaq demədi, bilirdi ki, qoca inadkardı, heç vəchlə səvərəni qəbul eləməz... Axı Əcəminin heç yerli-dibli bibisi olmuşdu ki, qalaydı kiçiyi-böyüyü...

— Salamat qal, Dərgah kişi... Xudahafiz.

Kuzəçi ona razılıq etmək əvəzinə əvvəlki söhbətinə qayıtdı:

— Atabəy Şəmsəddin oğlundan rica elə ki, sərdabə üçün göy, füruzəyi kaşını Təbrizdən gətirtdirsin... Şirəli kərpic hazırlamağı ordubadlı Kərbəlayı Sədrəddin uşağına tapşırsın. Bu mahalda onların bişirdiyi şirəli kərpici heç kim bişirə bilməz. Əlləri yüngül, ayaqları uğurlu nəsildi. Deyərlər: köksüz ağac, əsilsiz nəsil olmadığı kimi, bünövrəsiz də bina olmaz. — Kuzəçi dua elədi: — Tikəcəyin sərdabənin də özülü möhkəm olsun. Hə, bir də onu deyəcəkdim. Bənnabaşı da, ürəyincə olsa, Lal İbrahimi götür. Sadiq adamdı, kamil ustadı. İşini bilən adamdı... Bir də bilirsən sənə nə demək istəyirəm!.. Özünü həm əş-şeyx ər-rəisdən, həm şəhər rəisindən, həm də bənna Məs'ud Əbutahir oğlundan qoru. Hər üçü namərd adamdı. Bu dünyanı viran qoysa, namərdlər qoyacaq. O ki, qaldı Əbutahir nəslinə, onlar Əbubəkrlilərinən uzun illərdi ki, ədavət aparırlar, fürsət düşən kimi ayaqlarının altını qazırlar. Lətifəsi bizdən uzaq olsun, deyir: pişiyə dedilər al bu on-

1. Əlincə qalasına "Şahtaxtı" da deyirmişlər.

luq qızılı, bu xəbəri çatdır itə. Pişik dedi əl muzdunu yaxşı verirsiniz, amma xəbər göndərdiyinizə e'tibar eləmirəm... Məs'ud Əbutahir oğlu həm qızılı alandı, həm də xəbəri çatdırandı. O ki, qaldı şəhər rəisinə, zatıqırıq adamdı. Bu dünyanı airan qoysa zatıqırıqlar qoyacaq. Atabəy Şəmsəddin onu tanıya bilmədi, amma mən bu ümiddəyəm ki, oğlu onu tanıyacaq. Biləcək ki, hansı quşun yumurtasıdı, hansı dinin, məzhəbin yiyəsidi... Allaha şükür, bu işləri özün məndən yaxşı bilirsən. Daha nə deyim! Onu deyə bilərəm ki, işin avand olsun, başqalarına da xeyrin dəysin. Əbusəid Əbülxeyrin gözəl bir kəlamı var, deyir:

Külüng olma-zərbələrin daşı dələ,
Rəndə kimi möhtac qalma hər bir ələ.
Bu həyatda sən mişara bənzə ancaq,
Özün də ye, özgəni də saxla hələ...

Kuzəçi ilə me'mar ayaq üstə, dükanın astanasında ani fikrə gedib baxışdılar. Əcəmi səndəl ağacını əlinə alıb dükandan çıxdı. Qoca öz-özünə dedi: “Ey xaliq, xalqın belə oğullarını hər cür bəladan, hər cür fənalıqdan sən hifz elə!..”

...Əcəmi bir yerdə qərar tuta bilmirdi, fikirli idi, həm də özünü yorğun hiss edirdi. Ancaq səvərəni ayın-oyunla birlikdə “bibisinin” sovqat payı kimi qoca kuzəçiyə bağışlayandan sonra elə bil yüngülləşdi. Yolu sola burulub rəbata keçmək istəyirdi ki, arxadan qoşun başçısının səsinə oxşar qalın bir səs onu dönüb geri baxmağa məcbur etdi:

— Əcəmi, düz niyə keçirsən?

Onu çağıran dəmirçi Nurməhəmməd idi. Tunc kimi boğunuq qırmızı rəngi, uca boyu, enli kürəyi, qartal baxışı, yekə əlləri, xüsusi qəddi-qaməti olan bu dəmirçini şəhərdə hamı Məcusi[1] deyə çağırırdı. Nurməhəmmədin özünün də bundan xoşu gəlirdi. Çünki bilirdi ki, bu sözdə zərdüştçiliyə bir işarə var idi... Yaşadığı və işlədiyi rəbatda dediyinin üstündə duran iki kişi olsaydı, onun birincisi Məcusi idi. Namaz qılmazdı, oruc tutmazdı, məscidə getməzdi, amma məhərrəmlikdə xəncər çəkib başını elə dərin yarardı, özünü öz qanına elə qəltan edərdi ki, huşunu itirib ayaq üstə dura bilməzdi, onu cecimin arasına qoyub daxmasına gətirərdilər. Yarasının üstünə qoyduqları yanmış parça külünü, yaxud at təsini bir neçə dəfə təzələyəndən sonra qanı zorla kəsə bilərdilər. Elə il olardı ki, arvad-uşağı onu ölmüş bilib xısınxısın ağlardılar, ancaq axşama yaxın özünə gələrdi, durub iki-üç kir-

1. Oda sitayiş edənlər.

vənkə ətin bozbaşını yeyər, üstündən bir badya qatıq içib yatardı. Səhərisi yenə Məcusi öz işində idi, çəkici zindana enərdi, qalxardı...

Əcəmi cavan yaşlarından Nurməhəmmədi beləcə tanıyırdı. Hətta bir dəfə qəribə bir əhvalat olmuşdu ki, Əcəmi dəmirçini görən də həmişə həmin əhvalat yadına düşərdi.

...Nurməhəmməd özündən çox dedi, özünü çox tə'riflədi. Belə çıxdı ki, heç nədən çəkinmir, qorxmur. Nurməhəmməd ayrılandan sonra Cəmil dedi: "Ə, bu bizi lap xam yerinə qoyub, gəlin bunu yoxlayaq." Əcəmi, Cəmil, bir də zərgər Mustafa sözü bir yerə qoydular ki, şənbə günü axşam gedib şahlıq bağının yanındakı qəbiristanlıqda yeyib-içsinlər və ora Nurməhəmmədi də də'vət etsinlər. Belə də etdilər...

Ay işığında Əcəmi, zərgər Mustafa və Nurməhəmməd bir qəbirin üstündə süfrə açdılar və Dərgah kişinin Əcəmiyə hədiyyə kimi bağışladığı üstü mavi minalı kuzədən şərab süzüb içdilər. Şərab qurtarndan sonra zərgər Mustafa bir az kənarda qazılan, ancaq daşa çıxıb cənazə basdırılmayan qəbri göstərib dedi:

"Nurməhəmməd, dur ordan ikinci kuzəni gətir, gələndə ora qoymuşam ki, isinməsin..." Nurməhəmməd durub üsütü örtülməyən qəbrə tərəf getdi. Qəbrin başına çatanda başdan ayağa parçaya bürünmüş Cəmil (Onu əvvəldən, Nurməhəmməddən gizli orada oturtmuşlar) dik ayağa qalxdı və Nurməhəmmədin sinəsindən yapışıb çığırdı: "Rəbbin kim?" Nurməhəmməd öüzünü itirmədi. Və "Rəbbim şərab, köpəkoğlu!.." deyib "xortlayanın"sinəsindən qəbrə itələdi və özünü onun üstünə atdı... Hər şey mə'lum olandan sonra uzun müüdət bu əhvalatdan deyib-danışdılar, güldülər. Və Nurməhəmməd özünü öyəndə heç biri səsini də çıxarmırdı...

Əcəmi dəmirçiyə beləcə bələd idi, özü də ona həmişə öz adı ilə müraciət edərdi:

— Bağışla, bir az fikirli idim, görmədim. Yoxsa Əcəmi ola, Nurməhəmmədi görə, özü də yan keçə, buna kim inanar? — Əcəmi dəmirçini mehribanlıqla qucaqladı, sonra onunla birlikdə dükana girdi. İçəri ayaq basan kimi səndəl ağacını qurşağına taxdı, əl atıb körüyü basmağa başladı...

— Əşşi, bir dayan görək! Yoxam sənin bu xasiyyətinə! Gələn kimi ya körük basırsan, ya da çəkic vurursan. Mənim də başımı elə qatırsan ki, söz-söhbətim yadımdan çıxır. — Məcusi onun qolundan tutub kənara çəkdi, zindanın üstünə köhnə bir xalça parçası sərdi.

— Yanın bir bura qoy görüm. — Məcusi dəmir-dümürün üsütnə

qoyduğu dəri ködəkçəsini götürüb yalın alt köynəyinin üstündən geydi, tüklü sinəsini qaşıdı, əllərini aylarala daraq görməyən qarmaqarışıq saçlarına çəkdi — Dedim əyləş!

Əcəmi keçib oturdu.

— Bu da zindan... aha, oturdum.

— Deyir "Avesta"da yazıblar: "Qoy bu dünya həmişə aram, abad və şad olsun". Qızıl kimi bu kəlamları yazanda biz bəndeyi Adəmi fikirləşiblər. Amma mən son vaxtlar narahatam, çünki Pəhləvan əmr edib ki, bütün işlərimi dayandırıb qılınc çəkim. Görürsən nə qədər qılınc çəkmişəm. — Məcusi dəst-dəst qılıncları göstərdi. — Hamısı da xalis Cam[1] poladından... Sən bilməmiş olmazsan, bu qılıncları çəkdirməkdə Pəhləvanın məramı nə ola bilər?

— Nə deyim, ay Nurməhəmməd... Sarayın sirrini bir hökmdar bilər, bir də ... — Əcəmi göyə baxdı.

— Mən ora inanmıram. — Məcusi göyə işarə elədi. — Bilirəm ki, sənin də mənim e'tiqadımdan xoşum gəlir. Deyir "Avesta"da yazıblar: "Dûzlüklə pəhrizkarlıq birləşəndə əsil insanlıq cilvələnər. Gəlin hamımız üz tutub bu səmtə gedək. Ey insanlar, çalışın bu dünya düzlüklə abad olsun." Bunu alimlər, sənətkarlar oradakılara başa salmalıdırlar. — Məcusi baş barmağını çiyninin üstündən bir neçə dəfə arxaya tuşlayıb Atabəylər meydanına işarə elədi.

— Haqlısan, Nurməhəmməd! O ki, qaldı qılınca, o da gərəkdi, o da lazımdı. Dövlətin qoşunu da olmalıdı, qurxanası[2] da, əsləhəsi[3] də olmalıdı, ləşkərgahı[4] da olmalıdı. Dünya qarmaqarışıq, gərək həmişə sərvaxt olasan. Amma ağıllı, siyasətcil hökmdar o şəxsdir ki, həm özü qan tökmür, həm də başqasını qan tökməyə qoymur.

— Heyif ki, sən deyən hökmdarlar azdı bu dünyada... Baxaq görək Pəhləvan necə idarə edəcək, əvvəlcə dövləti, sonra da rəiyyəti. Axı deyirlər, Georginin elçisinə deyib ki, sizin üstünüzə bizim qılınc qaldırmaq niyyətimiz yoxdur. Sən də eşitmisən bunu? — Məcusi qayğılı gözlərini qıyıb diqqətlə Əcəmiyə baxdı.

Əcəmi elə bil birinci dəfəydi ki, çoxdan tanıdığı bu davakar dəmirçinin ürəyinin dərin bir yerində əmin-amanlığa olan meyli indicə kəşf etmişdi. Qılınc düzəldəndə elə bil özünə həmfikir, həmməslək tapmışdı.

— Eşitmişəm.

1. Xorasan.
2. Silah anbarı.
3. Silah.
4. Qoşun saxlanan yer.

— Bu qılıncları muzdla çəkirəm, — dedi Məcusi, — sabah sifariş göndərilsin ki, qılıncları pozub bel düzəltsin dəmirçi, düzəltməsəm kişi deyiləm!.. Mənnən köpəkoğlusu yoxdu! Məramım aydın oldu?

— Tamamilə. — Əcəmi əli ilə onun çiyninə vurub güldü.

Məcusi elə bil özündə bir arxayınçılıq hiss etdi.

— Onda yolundan qalma. Salamlaşdıq, xohallaşdıq, haləhvallaşdıq, bəsimizdi. Elə arzulayırdım, səni görüb bunları deyəm... Eşitmişəm ki, sənin də oralara yolun düşəcək... — Bu dəfə Atabəylər meydanına işarə elədi: — İmkan olsa Pəhləvanı əmin-amanlığa çağırın... Hərdənbir də bu günkü kimi yad elə bizim tərəfləri, rəbat adamlarını.

— Baş üstə. Səni həmişə beləcə görüm, Nurməhəmməd! — Əcəmi zindana, körüyə işarə edib dükandan çıxdı.

Gün-günorta yerinə qalxıb Şərurə tərəf əyilirdi. Əcəmi rəbatdan şəhristana adlayanda səndəl ağacını qurşağından çıxardı, qaşlarının üstünə qaldırıb məğrib tərəfə baxdı. Bu dəfə də nəzərləri Ağrı dağının üstündə ərşi-fələyin bir parçasına dikilib qaldı. Bura açıq füruzəyi rəngdə idi. Bir-birindən azacıq aralı görünən iki bulud parçası isə necə də ağ idi, necə də bəyaz idi! Əcəmi Ağrının bu həndəvərinin heç vaxt belə laciverd, belə işıqlı görməmişdi... Xeyli durub baxdı. Birdən bulud parçaları bir-birinə qovuşdu, elə bil füruzəyi rəngli səmanın üstünə əlavə bir işıq seli də axıb töküldü...

Köhnə tanışları — kuzəçi ilə, dəmirçi ilə bu günkü görüşü, onların səmimi söhbətləri ürəyində hisslər oyatdı. Tanışlardan biri ilə də görüşmək həvəsi oyandı qəlbində. Addımlarını yeyinlədib dikdirə qalxdı, buradan baxanda bütün tikililər onun ayağının altında qalırdı. Doğma şəhəri bir süfrə kimi onun qarşısınla açılırdı...

Əcəmi şəhristana xeyli göz gəzdirdi. Kərpicdən tikilən qırmızı kirəmidli evlər, onların üzüm tənəklərinə bürünən eyvanları xoşuna gəldi. Şirəli kərpiclə bəzənən ikimərtəbəli bir imarətə, onun uca divarlarına xeyli tamaşa etdi. Bu bina şəhərin adlı-sanlı tacirlərindən birinin malikənəsi idi. Onu Əbubəkr kişi bina etmişdi. Əcəmi bu bina tikiləndə atasının ən yaxın köməkçisi olmuşdu...

Sonra bir-birinə söykənən karvansaraları, dükanları, köşkləri nəzərdən keçirdi. Yaxın dostlarından biri olan zərgər Mustafanın köşkünün qapısını açıq görəndə xeyli sevindi.

Dikdirdən aşağı endi, məşriq darvazasından içəri girdi. Bu darvazanın yanında bir neçə zərgər köşkü yan-yan düzülmüşdü. Hamı başı aşağı dikilib işə qarışdığı üçün heç kimə salam verib məşğuliyyətin-

dən ayırmadı. Başdakı köşkün astanasında ayaq saxladı. İçəri kölgə düşdüyüny görən zərgər Mustafa başını qaldırıb baxdı və onu görən kimi də ayağa durub içəri də'vət etdi. Salamlaşdılar, hal-əhval tutub əyləşdilər. Zərgər yenə tünd mavi rəngli Gəncə mahudundan büzməli arxalıq geymişdi, başında da qaragül dərisindən əmiri papağı var idi. Zərgərin səliqə-sahmanı əzəldən Əcəminin xoşuna gələrdi... Başqalarından fərqli olaraq zərgər Mustafa əlini yan tərəfə uzadıb balaca bir kuzə çıxardı, iki şirli piyaləyə şərab süzdü, sonra balaca süfrəni ortalığa qoydu. Süfrədə lavaş, pendir, kükü, bayram kökəsi var idi.

— Lap vaxtında gəlibsən, ay Əcəmi.

— Meylim yoxdu, Mustafa!

— Di onda bayram kökəsindən ye. Bizim uşaqların anası az qurtarana kimi bayram kökəsi yapar. Novruz bayramını da bəhanə edər ki, tut çıxana kimi gərək eveşikdən bayram kökəsi qurtarmaya. Bu da sənin xoşuna gələn əhmər[1] şərab... Dünən bir dostum gətirib. Səndən başqa heç kimə qıymaram ki, bir piyalə içə. Çünki deyərlər, zər qədrini zərgər bilər. Bu dünyada hər canlının öz ne'məti, öz ruzisi var, amma elə ne'mətlər də var ki, onu gərək yaxşılara bəxşiş edəsən, yamanlara yox, ariflərə bəxşiş edəsən, nadanlara yox!.. Əbəs yerə deməyiblər: "Qızılı sərrafdan sor, cövhəri quyuçudan". Bir təminə bax, sən allah! Hələ iyini dəmirəm.— Zərgər Mustafa piyaləni əvvəlcə öz burnuna yaxınlaşdırıb iylədi, bir-iki ağız öskürəndən sonra Əcəmiyə tərəf uzadıb əlavə etdi:— Belə şəraba həm də deyərlər: laləfan[2], ləl'gün[3]... Əcəmi güldü:

— Bu dillə sən, — dedi, — misi asanlıqla qızıla çevirə bilərsən.

— Səhərdən axşamacan qızılnan oynayan bir adamın qızıl kimi də söz-söhbəti olmalıdı. — Zərgər də xısın-xısın güldü.

— Deyərlər qızıl görəndə qeysər[4] də yolundan çıxır... o ki qala mənə. Rəis, məlik, tacir övrətlərinə sırğa çəkməkdən, gərdənbənd, sinəbənd, bazubənd düzəltməkdən, daraq qabı, Qur'an qabı, möhür qabı, sürmədan, nə bilim, daha nə qabı... qayırmaqdan tamam yorulub əldən düşmüşəm. Hələ qıça-qola taxılan xalxalı demirəm, küşvərəni demirəm... Bir həftə olar ki, sənin üçün işləyirəm.

Və bunu özümə böyük fəxr hesab edirəm. Nəyə görə? Ona görə ki, Şeyx Yusif türbəsini tikəndən sonra mən özümü yox, səni şəhərin

1. Qırmızı.
2. Lalə kimi.
3. Lə'l kimi.
4. Padşah.

baş zərgəri hesab eləyirəm. Ona görə ki, sənin vurduğun o naxışlar həqiqətən zərgər işidi, özü də həqiqi zərgər işi!

— Çox da tə'rif eləmə, ay Mustafa!

— Qızıla gümüş deyənlər nadanlardı, Əcəmi... mənim haqq sözümdü. Sağlıq olsun, yeni türbə sənin bu qızıl əllərindən daha kamil çıxacaq. Hə, heç soruşmadın axı, niyə sənin üçün işləyirəm?

Əcəmi təəccüblə soruşdu.

— Bilmirəm. Axı mənim üçün niyə? Bilirsən ki, mən ömrüm boyu qızıla nifrət eləmişəm.

Zərgər rişxəndlə əllərini oynatdı:

— Mən belədə, qızıl üçün ölürəm. — Bir müddət öskürdü.

— Neçə illərdi başqalarını bəzəyirəm, özüm isə, gördüyün kimi, içəridən çürüyüb tökülürəm... Bu zəhrimar sarı şeytanın tozu sinəmi eləyib pardax-pardax... Səhərə kimi öskürmək qoymur yatam.

— Zərgər nəfəsini dərib yana-yana əlavə etdi:— Gərək əvvəldən, lap Adəmlə Həvvanın zamanından belə bir qayda qoyaydılar ki, qızıl olsun yalnız zənən xeylağının bəzək-düzəyi, vəssalam! Bəlkə elə buna görə deyiblər: "Qızıl arvadındı, qılınc ərin..." Hə, sözünü qızılla kəsim, deyəsən, sözümü unutdum. Məni axşamlar gəlib aparırlar sikkəxanaya. Orada xüsusi sikkələr kəsirəm... Üz tərəfinə "Naxç" yazıram, arxasına isə "M.X." Guya sən bilmirsən bu sikkələr nədən ötrüdü? — Zərgər yanındakı balaca şirli küpəni götürüb başıaşağı əydi, oradan beş-on hazır qızıl sikkəni ovcuna boşaltdı, birini Əcəmiyə verdi. Əcəmi xeyli baxandan sonra ona qaytardı:

— Mən... mən sarayın sahibinə hələ son sözümü deməmişəm...

— Axır başı deyəcəksən. Saray hökmüdü... Mən isə bu əqidəyəm ki, bu sikkələri saray sahibi anasının hicləgahı[1] üzərində tikiləcək sərdabənin himinə basdıracaq. Dəbir dedi ki, bu üzdəki yazı payitəxtimizin adıdı, bu üzdəki yazı isə Mö'minə xatun anaya işarədi. Sərraf sikkələrdən birini əlində xeyli müddət oynatdı: — Görürsən xalis Anadolu qızılıdı, özü də hər biri səlcuqi sikkxi boyda. Beytülmalçıynan dəbir gətirib təhvil veriblər. Mən də imza atıb qəbul eləmişəm. Dəbir onu da dedi ki, saray sahibi niyyət edib: himə min ədəd sikkə atsın ki, sərdabə də yer üzündə ən azı min il tab gətirib bərqərar olsun... Deyərlər, zər ilə olan zor ilə olmaz...

Əcəmi fikirləşdi: "Min il! Yaxşı niyyətdir, amma bu niyyətin arxasında sərdabəni tikəcək me'mara ciddi xəbərdarlıq da var."

...Əcəmi bugünkü gəzintisindən çox razı idi. Əvvəliklərdən fərqli

1. Məzar.

olaraq köhnə tanışlarının söz-söhbəti onun ürəyini sevinclə doldurmuşdu. Bugünkü gəzintidən sonra bir də inandı ki, onun təzə işi ilə, əməli ilə təkcə ə'yani-əşrəf, əhli-ürfan deyil, əhli-əsnaf da maraqlanır...

Əcəmi üçün isə bu gün bunların hamısından əfzəl "Qızlar bulağı"nın başında hələ yaxından tanımadığı cavan bir gözəlin - Şəhdügülün ona sübh tezdən su təklif etməsi, xeyir-dua verməsiydi...

## ME'MAR VƏ MƏLƏKƏ

Mələkə Zahidə xatun sarayda hökmdara məxsus yaşayış otaqlarında yerləşmişdi. Bu otaqlarda vaxtı ilə Atabəy-ə'zəmlə Mö'münə xatun yaşamışdı, bu otaqlarda onların uşaqları — Nüsrətəddin, Müzəffərəddin ayaq tutub yerimişdilər, böyüyüb boya-buxuna dolmuş, ərsəyə gəlmişdilər.

Cahan Pəhləvan Naxçıvana varid olan gün əvəlcə həmin otaqlarda yaşamaqdan imtina etmək istəmişdi, ancaq sonra nə fikirləşmişdisə razılıq vermişdi. Razılıq vermişdi deyəndə ki, birdən ürəyindən keçmişdi: otaqları boş saxlamağın düşər-düşməzi olar. Qoy başqasının nəfəsi isidincə, neçə ki, Naxçıvandayam, öz nəfəsim, övladlarımın nəfəsi isitsin atam-anam ömür sürən otaqları. Qoy bu otaqlarda hər axşam qəndillərdə şamlar yansın, gülüş səsləri eşidilsin. Beş günlük dünyadı, axıra kimi qara geyinib yas saxlamaq olmaz ki!..

Otaqlar hökmdara, onun ailəsinə məxsus qaydada bəzədilib düzəldilmişdi. Özü də səliqə-səhmana elə diqqət yetirilmiş, elə fikir verilmişdi ki, Zahidə xatun da, qız Cəlaliyyə də xidmətçilərə razıdıq verməyə məcbur olmuş, hətta onlara xırda-xuruş hədiyyələr də vermişdilər.

...Axşam idi. Gündüz yağan bahar leysanı Naxçıvanın havasını büllur kimi saflaşdırmışdı. Baharın ortalarına xas olan sərinliki pəncərələrə vurulan zərbaft pərdələrin arasından içəri axaraq otlaqlarda ürəyə yatan bir abı-hava yaratmışdı. Divarlardakı ləmələrə düzülən müxtəlif güldanlardan qalxan Seyidabad güllərin ətri adamını bihuş edirdi... Cahan Pəhləvan pir cüvarından hələ qayıtmamışdı. Hökmdar üçüncü gün idi ki, Naxçıvandan məşriq tərəfdəki geniş düzənliyin ən əlverişli yerində şərti olaraq düzəldilmiş xüsusi cədəlgahda[1] qoşunun döyüş məşqini keçirir, əsgərlərin hazırlığını yoxlayırdı. Qoşun başçıları, məliklər razılıq alıb evlərinə qayıtsalar da, Cahan Pəhləvan müqəddəs Əshabkəhf[2] pirindən azacıq aşağıdakı təpənin üstündə qurulan qızıl günbəzli ipək çadırında gecələyirdi.

1. Döyüş meydanı.

2. "Mağara sahibləri". Naxçıvanın şərqindədir

Hökmdarın xasiyyətinə, onun sərtliyinə yaxından bələd olan inanılmış mühafizlər shərə kimi çimir eləmədən atabəy-ə'zəmin ilk varisinin keşiyini çəkirdilər. Bunu bilən mələkə ilə balaca xatun da öz otaqlarında rahat, qayğısız yaşayır, axşamlar deyib-gülür, gecələr də yumşaq təxti-xablarda şirin yuxuya gedirdilər. Zahidə xatun bu gün bərk məşğul idi. bəzək otağında əyləşərək son günlərdə onun görüşünə gələn rəis, məlik, tacir arvadlarının gətirdikləri hədiyyələrə baxır, saf-çürük edirdi...

Zahidə xatun əl saxlayıb içəri otaqda qızıl payəli dibaçədən nazlana-nazlana mürgüləyən qızına çağırdı:

— Cəlaliyyə!

Balaca xatun diksindi:

— Nə deyirsən, ana?

— Bir bura gəl.

Cəlaliyyə dibaçənin üstündən qalxdı, sol əlinin dalını ağzının üstünə qoyub əsnədi, mələkənin oturduğu otağa keçdi.

Zahidə xatun başını qaldırıb qızına baxdı. Hökmdarın bütün varlığında- bədənində, ürəyində həyat eşqi qaynayıb coşan arvadı birdən həm sevindi, həm də kədərləndi. Sevindi ki, özündən sonra bu torpaq üstündə belə gözəl-göyçək, boylu-buxunlu, qəşəng əndamlı, ağ üzlü, qaqa gözlü bir əvəz qoyub gedəcək; kədərləndi ki, heyf, özü yaşa dolur. Axı ona artıq agah idi ki, Cəlaliyyə hökmdarın sonbeşiyidi...

— Bax gör bunlardan hansı xoşuna gəlir, seç-götür. — Zahidə xatun qızıl bəzəkləri, daş-qaşları göstərdi. — Bu dəsti rəisin övarəti Nəsrin xatun gətirib... Bu dəsti tacirbaşı... adı yadımdan çıxdı, o xatun gətirib... — Üstü qiyymətli daş-qaşla işlənmiş qızıl küşvşrəni bir ovucdan o biri ovcuna keçirdi. — Şərur məliki mərhum babanın, indi isə atanın məlikləri içərisində ən varlısıdı, Düzdü, bir az kobuddu, yonulmamış kişidi, amma var-dövləti çoxdu... var-dövlət də ki, kişinin bütün eyiblərinin üstünü örtür. — Mələkə öz-özünə danışa-danışa küşvərəni bir də nəzərdən keçirdi. — Di al qoy öz mücrünə.

Cəlaliyyə çiyinlərini çəkib çox laqeydliklə dedi:

— Nəyimə lazımdı?..

— Qız, necə nəyimə lazımdı? — Zahidə xatun yana-yana qızını yamsılayıb deyindi: — Deyəsən, sən bani-Eldəgəzlərin heç bir dişisinə bənzəmirsən. Analığın türk qızı Kütaibə qızıl üçün ölür, o biri analığın Rey hakiminin qızı, o bihəya İnanc zülü gedir daş-qaş üçün, var-dövlət üçün, sənsə başlamısan nəyimə lazımdı? Bilmirəm kimə oxşadın!

Cəlaliyyə ucadan güldü:

— Kimə oxşayacağam, əmicanıma, Arslan əmimin xatununa... Sən ki, bilirsən o da qızılxor deyil...

Onun ərinin adı qızıldı... Qızıl Arslan!.. Daha nəyinə gərəkdi qızıl! — Zahidə xatunun səsində bir kinayə var idi. Buna görə də Cəlaliyyə qabağa gedib anasının sözlərini gözlənilməyən bir cavab verdi:

— Mən də çalışıram ki, əmim kimi bir kişinin, qəddi-qamətli, ağıllı-zəkalı bir igidin övrəti olum. Onda mənə də qızıl gərək olmaz.

— Ana diqqətlə qızına baxdı. Cəlaliyyə az qala gündən-günə boy atıb yaşa dolurdu, gözəlləşirdi. Elə bil allah təala öz əllərilə onun bədənini ağ mərmərdən yonmuşdu, süd gölündə çimizdirib minalamışdı, saçlarına şəvə, qaşlarına vəsmə, gözlərinə sürmə çəkmişdi; yanaqlarına lalə, dodaqlarına nar yarpağı rəngi vurmuşdu...

— Bərəkallah! — Zahidə xatun bəlkə də buna görə qızını qarsalamadı, ağır söz deməyib güzəştə getdi. Bəs əminin başqa xasiyyətlərini niyə demirsən?

— Nədi başqa xasiyyəti mənim əmimin?.. De da!

— Meyxordu... həm də... yaman dilli-dilavər olmusan bura gələndən! — Zahidə xatun bu dəfə qızına barmağını silkələdi.

— Naxçıvan xoşuma gəlir...

Elə bu vaxt kəniz içəri girdi:

— Mələkə xatun, dediyiniz usta gəlib.

Zahidə xatun kənizə işarə etdi ki, dayanıb gözləsin. Sonra otağına keçdi, geyinib düzəndi, bər-bəzəyini təzələdi, üst-başını ətirləyib qayıtdı:

— Deynən buyursun.

— Tək buyursun, ya dəbirinən?

— Tək...

Kəniz çıxdı, bir az sonra Əcəmi içəri girdi, əvvəlcə baş endirib, Mələkə ilə salamlaşdı, sonra balaca xatunun kefini xəbər aldı. Mələkənin işarəsilə keçib qızıl payəli kürsünün yanında dayandı. Zahidə xatun bunu görcək özü də keçib əyləşdi və bundan sonra Əcəmi səndəl ağacını qurşağına taxıb öz yerini tutdu və ağ Səmərqənd kağızına bükülmüş balaca bağlamanı dizlərinin üstünə qoyub fikirləşdi: "Hökmdar övrəti olmağa layiqdir. Həm sifəti gözəldi, həm də əndamı yaraşıqlıdı... Gözləri qaynardı, hərəkətləri şuxdu, duruşu da ürəyə yatımlıdı..."

Nəzərlərini Zahidə xatundan ayırıb soruşdu:

— Zənnimcə, mələkə gərək ki, əvvəlinci kərədir Naxçıvana təş-

rif gətirir?

Bəli. — Mələkənin əvəzinə qızı cavab verdi.

— Cəlaliyyə!.. Ustad Əcəmi məndən xəbər alır...

— Bağışla, ana. — Cəlaliyyə tez səhvini başa düşdü və pərt olub qızardı. Zahidə xatun qızının dediyi "bəli" kəlməsini təkrar etdi. Əcəmi balaca xatuna baxıb gülümsədi və ayağa qalxıb, yenidən əlini sinəsinə qoyub azacıq baş endirdi.

— Hökmdarın sevimli mələkəsi öz əziz qızı balaca xatunla bizim şəhərimizə xoş gəlib, səfa gətirib. Mələkə inana bilər ki, özü gəlməsə də, onun barəsində xoş sədalar, daha düzünü desəm, əsil-nəcabəti, gözəlliyi, xeyirxahlığı, yüksək ağıl sahibi olması barədə xəbərlər çoxdan gəlib Naxçıvan əhlinə çatıb...

Cəlaliyyə anasına baxıb qımışdı, iri ala gözləri oynadı. Elə bil deyirdi: "Aha, mən dinmirəm, özün danış, razılıq elə..."

Zahidə xatun tə'riflərdən qızardı, al yanaqları bir az da pörtüb gözəlləşdi. İri, ala gözlərində elə bil mö'cüzəli bir şəfəq alışıb şö'ləndi...

Əcəmi isə öz tə'rifindən razı idi. Axı bilirdi ki, bütün qadınlar belədi: tə'rif üçün, mədhiyyə üçün zülü gedirlər. Hakim də olsa, qəlbini ələ almağı bacarsalar, boş damarından tuta bilsələr, daşı ətəyindən töküb hər hansı bir günahı bağışlar, ölüm cəzasını belə ləğv edər. Bəli, sərtlik, ötkəmlik ilk yaranışdan kişiyə pay düşübsə, incəlik, zəriflik də qadına qismət olub... taleyin qismətindən isə heç kimin imtina etməyə haqqı yoxdur. Haqqı yoxdur deyəndə ki, gücü çatmaz, qüvvəsi bəs etməz buna bəni-Adəmin. Kim nə deyir qoy desin ...

Zahidə xatun da qonağa borclu qalmaq istəmədi:

— Sizin bu tə'riflərinizi hökmdara hörmət kimi tə'bir edirəm. — dedi və söhbəti dəyişdi: — Ustad me'mar əvvəlcə desin görək yaşayışı necədir?

— Pis deyil. Yüzlər kimi, minlər kimi ömür sürürəm bəsimdi. Qayğı və diqqəti üçün təşəkkür edirəm mələkə Zahidə xatuna... Sizi narahat etməkdə məramım isə çox sadədi. Həm Sizi görməyi özümə borc bildim... Həm də balaca xatuna özüm hazırladığım balaca bir hədiyyəni gətirdim. Eşitmişəm ki, balaca xatun kitab aşiqidi. — Əcəmi dizinin üstünə qoyduğu balaca bağlamanı açdı, oradan bir kitabı götürüb Cəlaliyyəyə verdi. Cəlaliyyənin gözləri işıqlandı.

— Sağ olun, ustad! — Cəlaliyyə razılıq etdi. — Müəllimim Əbubəkr Dost deyir ki, "Əl kitəb ne'mələnis fi sə'atil vəhdə"[1]

Mərhəba! — Əcəmi də balaca xatuna razılıq etdi.

1. Tək olduqda ən yaxşı yoldaş kitabdır. *(Ərəb)*

Zahidə xatun maraq göstərib kitabı qızından aldı və xeyli baxandan sonra dedi:

— Əziyyət çəkmisiniz, ustad!

— Xoşdu mənim üçün ki, kitab balaca xatunun da, mələkənin də xoşuna gəldi.

Cəlaliyyə kitabı anasından alıb sinəsinə sıxdı. Kitab Məhsəti xanımın "Rübailəri" idi. Əcəmi onun cildini qoz ağacından hazırlamışdı. Üstünə də fil sümüyündən incə naxışlar işləmişdi. Cildin kənarındakı şəbəkələrin içərisində miniatür gül və quş rəsmləri çəkilmişdi. Onun vərəqlərinin kənarları müxtəlif rənglərlə, müxtəlif naxışlarlahaşiyələnmiş, hər vərəqin ortasında saxlanan ağ yerə isə bir xəttat məharətilə şairənin gözəl rübailərindən biri yazılmışdı.

Cəlaliyyə növbəti səhifələrindən birini açanda nəzərləri vərəqin baş tərəfindəki iki quş rəsminə dikilib qaldı. Ortadakı rübaini oxudu: "Hicrində gündüzüm gecə oldu, yar. Zamanın əlindən könlüm qan ağlar. Göndər xəyalını bizə bu gecə, Görsün necə üzür məni intizar..." Quşlar gül-çiçəyin içərisində görünən bir budağa qonub üz-üzə dayanmışdılar. Bədənləri bülbülə, başları az qala qız və oğlana bənzəyən bu quşlar dimdik-dimdiyə durub elə bil bir-birlərinə nəsə pıçıldayırdılar. Cəlaliyyə ikinci vərəqdəki rübaini oxudu: "Yaşıl otlar üstə cilvələnir gül, Bülbül şurə gəlib açır şirin dil..." Kitaba aludə olan Cəlaliyyə onu yenidən sinəsinə sıxıb öz otağına keçdi.

Əcəmi dedi:

— Mələkəyə minnətdaram ki, mənim ricamı qəbul edib və mənə onun hüzuruna gəlməyə razılıq verib. Bir balaca nigarançılığım olmasaydı bəlkə də sizə əziyyət verən deyildim...

— Ustad me'mar mənimlə açıq danışa bilər... Və əmin ola bilər ki, qiyabi də olsa, mənim onun həm sənətinə, həm də özünə böyük hörmətim var... İstərəm deyəsiniz, mənim yanıma gəlməkdə məramınız nədir?

— Kişiləri bəd niyyətindən, hətta mən deyərdim, əyri yolundan yalnız sevdikləri, könül verdikləri qadınlar döşdərə bilərlər. — Əcəmi azacıq dayandı, sonra Zahidə xatuna diqqətlə baxıb təmkinlə əlavə etdi. — Mən bütün əqidəmlə inanmışam ki, Arran gözəlləri həm ağıllı, həm də tədbirli olurlar...

Zahidə xatuna aydın oldu ki, Əcəmi niyəsə fikrini birdən-birə açıq demək istəmir. Buna görə də dedi:

— Ustad Əcəmi məramını açıq deyə bilər.

— Məramım budu ki, mələkə hökmdara elə tə'sir etsin ki, dava-dalaş olmasın... Yanğınlar baş verməsin, dağıntı olmasın. Onsuz da qonşularımız fürsət düşən kimi kəndlərimizə, şəhərlərimizə basqınlar edirlər... Adamlarımızı soyub-talayırlar, əllərinə keçəni qənimət kimi sil-süpür eləyib öz yurdlarına aparırlar...

— Qonşu e'tibarsız olanda gərək yarağını özündən uzaqda saxlamayasan. Bu, hökmdarın sözləridi. — Zahidə xatun ani fikrə getdi.

— Nizaminin gözəl bir kəlamı var. Elə bir kəlamı ki,beynimə həkk olub, ürəyimə işləyib, qanıma keçib... Nədənsə heç vaxt unuda bilmirəm o kəlamı. Şair yazıb ki, ey insan oğlu, qur, yarat. Qurub yaratmasan bil ki, elə sağlığında ölüsən, heç kimə gərək deyilsən və heç kim səni yadına salıb xatırlamayacaq. Bəli, insan bu dünyaya yıxıb-dağıtmaq, vurub-uçurmaq üçün gəlmir, qurub-yaratmaq üçün gəlir.

Zahidə xatun me'marın eyhamını başa düşsə də, onu xəbərdar etməyi üstün tutdu:

— Hökmdar öz məramından hələm-hələm imtina edən ərlərdən deyil... Bunu ustad bilməlidir.

— Bilirəm, amma ürəyimə damıb ki, Zahidə xatun nə vaxt istəsə Cahan Pəhləvanı daha mərhəmətli olmağa vadar edə bilər... Biz — Naxçıvanın əhli-ürfanı Zahidə xatunu belə tanıyırıq, həmişə də belə tanımaq istəyirik!

Ortalığa sükut çökdü.

— Mənim sarayı... hökmdarın sirrini faş eləməyə haqqım yoxdu. Amma istəyirəm... istəyirəm ki, ustad Əcəmini bir məsələdən agah edəm. Əlbəttə, aramızda qalmaq şərtilə... hökmdar Təbrizə, Fələkəddinin üstünə qoşun yeritmək niyyətindədir... Deyir Təbrizi Əhmədili törəməsinin əlindən alıb Eldəgəzlər xanədanına ilhaq etmək lazımdır...

— Niyyət yaxşıdı, amma yenə qan töküləcək...

— Ustad Əcəmi bilməlidir ki, elə məsələlər var ki, onlardan ötrü qan tökməsən məqsəd hasil olmaz... Hökmdar deyir ki, bu sadə dava — dalaş deyil, bu, qəzavatdı.[1] — Zahidə xatun da durdu.

Söhbət bura çatanda Əcəmi dinmədi, gördü ki, mələkə hökmdar ərinin dediklərinin fərqinə varmadan tutuquşu kimi təkrar edir... Bunu balaca xatun da büruzə verdi:

— Gördünüz, mənim anam nələri bilir? — Cəlaliyyə zarafata salıb güldü.

Əcəmi balaca xatuna baxıb gülümsədi və söhbəti qurtarmaq istədi:

— Mənim üçün xoşdur ki, Eldəgəzlər xanədanının taxt-tacını ba-

1. Müqəddəs müharibə.

laca xatun kimi bir inci də bəzəyir...

Əcəmi gedəndən sonra ana-bala xeyli bir-birlərinə baxsalar da, kəlmə kəsmədilər, ancaq Cəlaliyyə birdən anasını bərk-bərk qucaqlayıb üzündən-gözündən öpməyə başladı.

Hökmdar qızının bu axşam sevincinə səbəb kasıb bir me'marın ona bağışladığı kiçik hədiyyə idi...

## DÜŞÜNCƏLƏR, DÜŞÜNCƏLƏR...

"Ey insan, sən kimsən?.. Ən ali və ulu məxluq... Yer üzündəki bütün canlıların ən kamili, ən güclüsü... Ağlın kəsən gündən üstündə gəzdiyin bu torpağın yetirdiyi ən əziz və ləziz ne'mətləri sən yeyirsən, ən axar-baxarlı yerləri sən gəzib dolaşırsan, sevən də, sevilən də sənsən... Və bir gün gəlir ki, bunların hamısını itirirsən. Necə vermişdilərsə, eləcə də alırlar... Ali və ululuğun da itir, kamilliyin də əlindən gedir, gücün də tükənir... Yemirsən, gəzib dolanmırsan, sevib-sevilmirsən... Nəfəsin ağzından çıxan kimi səndən diksinirlər, kənara qaçırlar. Bir anın içində hamı üçün özgələşirsən, yadlaşırsan... Dünən mayıl-mayıl baxılan üzünə daha heç kim baxmaq istəmir, dünən məhəbbətlə öpülən dodaqlarına, qucaqlanan bədəninə heç kimin toxunmağa micası gəlmir... Ey insan, sən kimsən?.. Əvvəli də torpaq, sonu da torpaq... İbtidası da heç nə, intəhası da heç nə... Bəlkə də buna görə marağalı qoca dərviş tez-tez deyərdi: "Ma hiç, cahan hiç..."[1] Bax burada, bu naxışlı-zərli sərdabə hər şeydən xəbərsiz yatıb uyuyan möhtərəm Şeyx Yusif də bu insanlardan biriydi... Amma vaxt var idi ki, onu görəndə hamı baş əyirdi, o içəri girəndə hamı ayağına dururdu, o gəlib keçəndə hamı kənara çəkilib yol verirdi... O, harada, nə vaxt danışsaydı, hamı nəfəsini içəri çəkib qulaq kəsilirdi. O, gülsəydi hamı gülməlm, ağlasaydı hamı ağlamalıydı... Hə, belədir dünyanın işləri, cənab Şeyx Yusif!.. Rahat yat, bu dünyanın səninlə, sənin də onunla baha heç bir işi yoxdu... İkiniz də hesabı çürütmüsüz... Əbədiyyət evin nurla dolsun!.."

Əcəmi fikirləşirdi. Son vaxtlar narahat günlər keçirən, Cahan Pəhləvanla söhbətdən sonra bir yerdə qərar tuta bilməyən, gah şəhristanda, gah rəbatlarla görüşən Əcəmi bu gün də sübh tezdən durub Şahab meydanına gəlmişdi. Şəhər əhli Cahan Pəhləvanı bir hökmdar kimi qarşılayandan sonra onun buralara yolu düşməmişdi... Əvvələr hərdənbir özü yaratdığına — camaatın "Atababa" adlandırdığı sərdabəyə

1. Biz də heçik, dünya da heç. *(Fars.)*

baxmağa gəlirdi, çünki onu öz övladı kimi görməyə bir ehtiyac duyardı... Hələ üstəlik, mçəriyə girib Şeyx Yusifə ziyarətnamə oxuyardı, sonra bayıra çıxıb yenə heyran-heyran sərdabəyə baxardı, vurduğu naxışların ürəyinə yatımlığından xoşu gələrdi, kitabələrdə gözünə dəyən qüsurları isə hiss edən kimi narahat olardı, fikrə gedərdi, "Öz təqsirini özünə heç vaxt bağışlama..." Əcəminin ağlı kəsəndən, əli iş tutandan əqidəsi beləydi... Elə ki, Elalnının arxasından Günəş doğdu və özünün zərrin şüaları ilə sərdabənin hüsnünü cilaladı, kitabələrini al-əlvan boyalarla zinətləndiridi, onda Əcəmi gzündə bir yüngüllük hiss edərdi, öz əməlindən razı qalardı... Və arxayın-arxayın Şahab meydanını, suyunu ən çox xoşladığı Şahab bulağını tərk edib gedərdi...

Elə bu gün də sübh tezdən gəlmişdi. Yenə Şahab meydanı üçün qəribsəmişdi, sərdabə üçün darıxmışdı... Özü də bu dəfə ilin cansıxıcı fəslində — payızda gəlmişdi. Buradakı tənha çinar ağacının yarpaqları saralanda bulağın başından ağ-bilək qız-gəlinlərin ayağı azalanda...

Əcəmi əvvəlcə bulağın yanında dayanıb onun sakit zümzüməsini dinlədi, şəffaf suyuna baxıb girdə saqqalını tumarladı. İstədi qollarını çırmayıb yuyuna, bura gələndə yuyunduğu yadına düşdü, fikrindən vaz keçdi. Adlayıb yan-yörəsinə sarı yarpaqlar döşənən tənha çinar ağacının yanında dayandı. Çinara baxanda atası Əbubəkri, yuxu kimi yadına gələn pərli-budaqlı bir kişi olan babasını xatırladı... "Həmişə səni beləcə əzəmətli görək... Köklü-budaqlı olasan, üstündən səmum küləkləri əsməsin..."

Əcəmiyə elə gəldi ki, ağacın budaqları azacıq tərpənərək onun salamını aldılar, dediyi xoş sözlər üçün razılıq etdilər. Bu, həmin çinar ağacıydı ki, onun altında Cəmillə yanaşı durub, bir hökmdar kimi Naxçıvana varid olan Cahan Pəhləvanı qarşılamışdı.

Bu həmin çinar ağacıydı ki, Şeyx Yusifə türbə tikəndə ömrünün beş ilini onun yanında keçirmişdi, kölgəsində süfrə açıb çörək yemişdi. Bu həmin çinar ağacıydı ki, onunla tez-tez ünsiyyətdə olmuşdu, elə bil onun şuxluğunu, dözümlüyünü türbəyə köçürmüşdü... Sonra keçib ağacın altıedakı sal daşın üstündə oturdu. Yarpaqlar budaqlardan bir-bir qopur, balaca quşlar kimi havada fırlana-fırlana yerə qonurdular. Bir neçəsi də Əcəminin çiyninə düşdü. Bir-ikisini götürüb baxdı, burnuna tutdu, heç bir iy gəlmədi. Yarpaqdan birini barmaqları ilə əzişdirib yenə burnuna yaxınlaşdırdı, qəribə bir iy axıb sinəsinə doldu. Belə vaxtlarda uşaqlığı — analı-atalı çağları yadına düşərdi... İndi də düşdü...

...Birdən uşaq səsi gəldi. Başını qaldırıb yana baxanda Şahab bulağından su aparmağa gələn gəlini gördü. Ana körpəsini yun yaylıqla dalına çalmışdı. Bir əlində balaca səhəng, biir əlində kuzə tutmuşdu. Əyilib kuzəni doldurdu. Səhəngi doldurmaq istəyəndə ayağı sürüşdü, az qaldı yıxılsın... Əcəminin elə bil ürəyi düşdü. Yaxşı ki, səsi qırılıb boğazında qaldı. Oturduğu daşın üstündən qəfil qalxan Əcəmitə təzədən əyləşdi... Uşaq diksindi, başını anasının kürəyindən qaldırıb ağladı. Ana çiyinlərini silkələyən kimi uşaq kiridi və başını təzədən anasının kürəyinə söykədi. Gəlin səhəngi də, kuzəni də götürüb getdi... Əcəminin yadına vaxtı ilə burada ilk dəfə gördüyü Şəhdigül düşdü, onun qucağındakı körpə düşdü... Fikirləşdi: "Qəribədir, bura gələndə çox vaxt körpəli ana görürəm... Görəsən niyə? Ona görə ki, sənin nəzərində insanların ən gözəli, ən pakı, ən qüdrətlisi körpəli anadır. Ana — yaradandır, körpə — yaranandır." Qəribədir, bu səs haradan gəlirdi, yan-yörədə heç kim olmasa da, Əcəmi bu səsləri eşidirdi. Bəlkə çinar ağacıydı danışan... Bəlkə Şeyx Yusifin ruhu idi, buralarda gəzirdi, sonra səsə çevrilib onun qulaqlarına axırdı... Hər halda, səs eşidilirdi... Və kimsə deyirdi: "İndicə özün demədin ki, insan ən ali və ulu məxluqdur... canlıların ən kamili, ən güclüsü odur... Bir bax, bulaqdan indicə su doldurub gedən gəlinə — anaya... Gördün, hələ gedir, indicə döngəni dönüb gözdən itəcək... Qeyb olmasına baxma, o da alidir, o da uludur. Ən böyük yaradan da elə onun özüdür. Alimdir o ana, şairdir o gəlin, üstəlik, ən böyük me'mardır o pəri... Dalına çaldığı körpəsi də yazdığı əsəridir, şe'ridir, tikdiyi qəsrdir, abidəsidir... Me'marlar bir abidəni, bir qəsri, bir sarayı neçə-neçə ilə tikirlər. O isə doqquz aya... Me'marlar abidə tikəndə min-min kərpici bir-birinə calayırlar, o isə bətnində iki yüz qırx sümüyü... Me'marlar bu kərpicləri sirişümlə[1] suvarıb bərkidirlər, o isə üç yüz altmış əzələ ilə... Me'marlar abidələri müxtəlif rənglərlə bəzəyirlər, o isə öz qanı ilə... Me'marların yaratdıqları abidələr laldır, kardır, kordur, onun yaratdığı danışır da, eşidir də, görür də... Üstəlik, iy də bilir, dad da bilir, gülməyi də bağarır, ağlamağı da... İndi buyur özün de, kimdir böyük me'mar? Sən Əbubəkr oğlu, yaxud dalında körpə, bir əlində kuzə, birində səhəng aparan o ana?.."

...Bir oğlan arxasınca bir təkəni çəkə-çəkə onun yanından keçdi. Təkə dartınıb xəzəldən yemək istədi, oğlan imkan vermədi. Təkə hirslənib ona bir-iki kəllə atdı. Oğlan güldü, təkə ağzını yerdəki yar-

1. Yumurtanın ağından hazırlanan xüsusi yapışqan.

paqlara toxunduran kimi başının yuxarı qaldırdı, oğlandan qabağa keçib dartındı... Xəzəl xoşuna gəlməmişdi... Amma oğlan Əcəminin xoşuna gəlmişdi. elə bil sir-sifətinə təbəssüm çiləmişdilər. Əcəmi dedi:

— Bu təkəmin qəndi var, çox kəsəkli kəndi var. Hər qapıda oynasa, bir nəlbəki qəndi var.

Oğlan Əcəminin dediklərinə biganə qalmadı, cavabında dedi:

— Təkəmin xanlığı var, yaxşı sultanlığı var. Nər kişilər yanında beş tümən donluğu var.

Əcəmi güldü:

— Ay maşallah! Birini də desənə.

Oğlan da onun sözünü yerə salmadı:

— Təkəmi yaradan allah, tükünü daradan allah. Kim təkəmə pay versə, saxla bəladan, allah!

Əcəmi əlini salıb cibindən pul çıxartdı, oğlan tərəfə uzadıb dedi:

— Al... bir xələt alıb təkənin boynuna bağla.

— Yox, baba... lazım deyil... Mən elə... belə dedim.

— Almasan inciyərəm.

Oğlan nə fikirləşdisə pulu aldı, o tərəf-bu tərəfinə baxıb ovcunu yumdu. Əcəmi soruşdu:

— Bəsləmədi, hə?

— Bəli.

— Qovurmalıqdı?

— Bəli.

— Yağlı olsun... Can yağı özün bassın...

— Cümə günü kəsəcəyik... işgənəyə qonaq ola bilərsən, baba!

— Sağ ol, bala...

Oğlan təkəni itələyə-itələyə apardı.

Əcəmi onun arxasınca baxdı. "Böyük var-dövlətdi davar...

İnsan üçün çörəkdən sonra ən gözəl ne'mətdi... Yaradana alqış!.."

Oğlan bir az gedəndən sonra təkənin saqqalından yapışıb dayandı:

— Mən səni tanıdım, baba... Biz Cəmil dayıgillə qonşuyuq... Sən onlara gələndə görmüşəm... Sən, bax, bunu tikən ustasan. — Oğlan Şeyx Yusifin türbəsinə göstərdi. — Dədəm deyir ki, usta Əcəmi hələ bundan yekəsini tikəcək...

— Dədən düz deyir.

Oğlan elə bil arxayın olub getdi.

...İki qız çiyinlərində güyüm zarafatlaşa-zarafatlaşa, deyə-gülə Şahab bulağına gəldilər.

Güyümü dolub-daşan qız bulaqdan rəfiqəsinə su çilədi... İslanmaqdan qorxan qız bir az kənara qaçanda, onların bütün hərəkətinə göz qoyan Əcəmini gördü, görək kimi də göz-qaş edib rəfiqəsini ayıq saldı... Onlar güyümləri doldurandan sonra çiyinlərinə qaldırıb bulaqdan uzaqlaşdılar... Ürkək ceyrana oxşayan rəfiqələr Əcəminin xoşuna gəldi. Zarafatları da ürəyinə yatdı, şirin-şirin gülüşləri də. Ovqatı tamam təzələndi. "Sənin danışığından belə çıxır ki, indicə burdan gedən qızlar da bir gün me'mar olacaqlar... Körpələri də onların yaradacaqları abidələr. Əlbəttə, ana olmalarına az qalıb... Görmədin necə deyibgülürdülər, zarafatlaşırdılar. Dünya indi onların gözündə bir gülüstandı, aləm də bir mö'cüzə... Bəlkə birdən alan olmadı onları, onda necə? Olar... Yer üzünə heç kim tək gəlmir... Gördün, ulu babamız Adəm tək gəlmişdi, beş gün tənha yaşaya bilmədi. Ulu nənəmiz Həvva tezcə yanını kəsdirdi və onu başa saldı ki, yer üzünə hamı cüt gəlir... Mən də gəlmişəm səninlə isinib cüt olaq... Bu torpaq sütündə hər bir canlı öz tayını mütləq tapmalıdır..."

Çinarın yuxarı budağına bir neçə qarğa qondu. Qonan kimi də biri qarıldadı:

— Qarrr-qarrr...

"Zəhrimar qarrr! Zəhləm getmiş..., bir yaraşığın yoxdur, yoxdur, heç olmasa xoş bir səsin olaydı..." Qalxıb yerdən götürdüyüdaşı çinarın budaqları arasına atdı. Qarğalar uçub getdilər. Nədənsə Hatib ibn Mübarək yadıma düşdü. Onun dəyirmi qara sifəti gəlib durdu gözləri önündə, kor-kobud səsi qulağında cingildədi. Yenə əyləşdi. Bu dəfəf qulağına zınqırov səsi gəldi. Diqqətlə baxdı. Bir az uzaqdan qala divarlarının yanından bir dəvə keçirdi. Dəvənin ovsarını qoluna keçirən qocanın qabağınca iki oğlan uşağı atılıb-düşə ona nəsə deyirdilər, hərdənbir də qolundan tutub aşağı sallanırdılar.

Axırda onu razı saldılar. Qoca ovsarı oğlanlardan birinə verdi, sonra çırtmaq çala-çala oynamağa başladı. Əcəmi onu tanıdı. Cəmilgilin qonşusu idi. Arıx naqəsi[1] ilə ona-buna yük daşıyıb özünü, qarısını dalandırardı. Başdan bir az boş idi. Hərdənbir özü çırtmıq çalıb oynardı, məbəllənin dəcəl uşaqlarını əyləndirərdi. Yadına atasının dostu qoca kuzəçi Dərgah kişinin söhbətlərindən biri düşdü: "Bir gün allah xəlq edib yer üzünə buraxdığı canlılardan bir neçəsini yanına çağırıb deyir ki, indi sizin ömrünüzün müddətini müəyyən etməliyəm... Çünki bu dünyada məndən başqa heç kim əbədi ola bilməz. İndi deyin gö-

1. Dişi dəvə.- .

rüm hərənizə neçə il ömür verim?" İnsan deyir: "Məsləhət özünüzündür". Allahın büzuruna gələn eşşək də, it də, meymun da insanın dediklərini təsdiq edirlər. Allah deyir: "Ey insan, sənə qırx il, bunların da hər birinə otuz il ömür tə'yin edirəm". Birinci, eşşək narazılığını bildirir: "Məni ömrüm boyu eşşək kimi işlədəcəklər. Buna görə on il bəsimdir". Bunu görən it də e'tiraz edib deyir: "Mən də ömrüm boyu hürəcəyəm, elə mənə də on il bəs edər". Meymun da onlara qoşulub rica edir ki, elə məni də on il ələ salıboynatsalar bəsimdi. Allah hirslənib deyir: "Onda hərənizin ömründən iyirmi il kəsib verirəm insana. Qoy yüz il yaşasın... Buna görədir ki, insan öz ömrünü-yə'ni qırx ili adam kimi yaşayır, sonra eşşəyin ömründən kəsilib ona verilən birinci iyirmi ili eşşək kimi işləyibarvad-uşaq böyüdür, sonra itin ömründən ona verilən iyirmi ili də arvad-uşağın üstünə hürür, axırıncı iyirmi ildə isə onu meymun kimi ələ salıb oynadırlar..." "Misal çəkmək Dərgah kişinin köhnə peşəsidir... Sən o doydaq qocadan dpnış... Axı onu da bir vaxtı bir ana öz bətnində yaradıb, sonra böyüdüb" "Düzdür, amma nəs yaradıb, qəlp böyüdüb... Yaratma, yaradırsansa bütöv yarat, kamil yarat..." "Yaxşı... onda de görək sübh çağı bura niyə gəlmisən?.. Gəlməkdə məramın nədi?" "Gəlmişəm dünənimə bir salam verəm, onunla sabahım barədə məsləhətləşəm" "Ə'la niyyətdir. Kim dünəninə məhəl qoymasa, sabahı uğurlu olmaz... Bir me'mar kimi bu sərdabə dünənindir sənin"."Dünənin pislərini dünəndə qoyub getməliyik, dünənin yaxşılarını özümüzlə sabaha aparmalıyıq". "Sənin dünənin də yaxşıdır, Əcəmi. Ancaq Mö'minə xatunun abidəsi Şeyx Yusifin məqdərəsindən həm böyük olmalıdır, həm də əzəmətli. Məqbərə-dünənindi, abidə-sabahın". "Necə başa düşək?.. Yə'ni başlayım işə?" "Mütləq... Günü günə satmaq olmaz... Sonra gec olar... Sonra gec olar..."

Birdən elə bil axırıncı sözdəri kimsə uca səslə qışqırdı, bu səslər get-gedə haraya çevrilib Şahab meydanının hər tərəfinə yayıldı: "Sonra gec olar!.."

Yox, səs nə sərdabədən gəlirdi, nə bdə Şeyx Yusifin ruhunun səsiydi. Səs Əcəminin öz səsiydi, içərisindən axıb qulaqlarına dolurdu, sonra sual-cavaba dönürdü...

...Şahab meydanı da bir anlığa onun nəzərində dönüb oldu Ataöəylər meydanı. Şeyx Yusifin türbəsi də başqalaşdı. Əcəmi ayaq saxlayıb uzaqdan ona baxanda türbə enləndi, ucaldı, naxışları əlvanlaşdı və nəhayət, başqalaşdı, böyüyüb-böyüyüb əzəmətli bir abidəyə çevrildi... Və bir də gözünü açıb gördü ki, həqiqətən Atabəylər meydanındadır...

gələ-gələ də sifətinə təbəssüm səpilən uşağın son sözləri təkrar-təkrar qulaqlarında səslənirdi: "Bundan yekəsini tikəcək... Bundan yekəsini tikəcək..."

Ayaq saxlayıb yan-yörəyə baxdı. "İşin irəli olsun, ustad". Bu səs də dostu Cəmilin səsiydi... Əcəminin dodaqlarında təbəssüm göründü... Cəmil düz on il bundan əvvəl də, ilin beləcə bir çağında Şahab çeydanında, Şeyx Yusifin sənduqəsi yanında onu salamlayandan sonra həmin sözləri demişdi: "İşin irəli olsun, ustad..."

Həmin günün səhərisi Şahab meydanında onun tikəcəyi ilk məqbərənin — Yusif ibn Küseyir türbəsinin özülü qoyulmuşdu...

Əcəmi bir az da yaxına gəldi, əvvəlcə başını qaldırıb göyə baxdı. buludlar xeyli seyrəkləşmiqdi... Məşriqdə Günəş işartısı görünürdü. Sənduqənin baş tərəfində dayanıb pıçıldadı:

— Sənin də sabahın xeyir, Mö'münə xatun...

***

"— Bura haradır?" "Dünyanın bir parçası... Amma nə kənddir, nə şəhər, nə küçəsi var, nə də meydanı. Nə imarətlər tikilib burda, nə də onların eyvanları, balaxanları, küləfirəngiləri... Burada hamının mənzili eyni mərtəbədədir, özü də nə aşağıda, nə də yuxarıda... Buranın nə bağ-bağatı var, nə də çay-bulağı. Axı burada heç kimə nə su, nə od, nə də hava lazımdı. Təkcə torpaqdan başqa... Burada torpaq həm evdir, həm yatacaqdır, həm də geyimdir. Buranın havası hamı üçün eynidir — soyuqdur. Buna baxmayaraq hamı ağ geyimdədir. Biri başına tac, biri başına keçə papaq qoymur, biri əyninə zər-ziba, biri bez geymir. Axı burada nə külək əsir, nə gün yandırır, nə də şaxta kəsir... Hamı bir əmri, bir hökmü icra edir — yat, durma!" "Buranın sakinləri kimlərdir?"

"Dünyanın başqa-başqa yerlərindən köçüb gələnlər... Burada şah da var, vəzir də; vəkil də var, sipəhsalar da; hacib də var, alim də, ədib də... Amma nə zalım var, nə zülm, nə hakim var, nə məhkum var, nə əzən var, nə əzilən, nə aldadan var, nə aldanan. Burada nəzarətə də, güdükçüyə də, qulaqçıya da, xəbərçiyə də ehtiyac yoxdur. Burada nə alqı var, nə də satqı, nə hədiyyə-var, nə rüşvət. Nə "mənimki", nə "səninki", nə "bizimki", nə "sizinki"... Heç kim heç kimi satmır, aldatmır, qəsdinə durmur. Rəqabət yox, paxıllıq yox, baiskarlıq yox... Asmaq yox, kəsmək yox... Buna görə tam sakitlikdir, tam əmin-

amanlıqdır burada... Burada aşiq-mə'şuq də, mələkə-mə'şuq də yoxdur. Məşşatəyə də, kəhhaləyə də, daş-qaşa da ehtiyac yoxdur. Heç kim bəzənib-düzənmir, heç kim sevib-sevilmir... Axı hamı laldır, kardır, kordur... Heç kim başqasının qız-gəlininə sataşmır, namusuna əl uzatmır... Burada gözəl-çirkin, ağ-qara, yaxşı-yaman, arif-nadan, mərd-namərd, igid-qorxaq söhbətləri də eşidilmir. Hamının gökəmi dəeynidir, rəngi də... Hamının da bir adı var". "Buradan o yana yol yoxdur?" "Yoxdur! Yazda ətrafı yaşıl, yayda boz, payızda qızılı, qışda ağ olan bütün yollar çatanda qurtarır. Hamının səcdəsinə durduğu peyğəmbərlər də, ulu xaqanlar da, dizi bükülməyən sərkərdələr də, müdrik alimlər də, söz sərrafı ədiblər də buradan o yana gedə bilmirlər. Axı bütün yolların intəhası burada başa çatır. Bura axirət dünyasına gedən yolun qurtaracağıdır. Bura gələn çox, geridönən yox..."

Əcəmi əvvəlcə Atabəylər meydanını, sonra Şahab meydanını gəzəgəzə axırda gəlib şəhər qəbiristanlığına çıxmışdı. Əcəmi peşəsinə görə qəbiristanlığı tez-tez xatırladı. Bəlkə də buna görəydi ki, anasına türbə tikmişdi, Şeyx Yusifə məqbərə inşa etmişdi, şəhərin bir sıra tanınmış adamları rəhmətə gedəndə onların sənduqələrini necə düzəltmək barədə dost-tanışlarına məsləhətlər vermişdi. Bir də qəribə burasıydı ki, qəbiristanlıq onun yadına Yəzd-Kürd tərəfindən külək əsəndə və göy üzü bədirlənmiş Ay işığına boyananda düşərdi. Axı külək buradakı ağır sükutu qovub aparırdı. Ay da zülməti əridib yox edirdi...

Amma bu gün hava mülayim idi. Azacıq yağış çiləmişdi. Günəş günorta yerindən məğribə təzəcə əyilmişdi. Əcəmi darvazaya ayağını qoymamış içərisindən bir səs axıb qulaqlarına dolmuşdu: "Bura haradır?" Və ayaq saxlayıb içərisindən eşidilən sual dolu səsə cavablar axtarıb tapmışdı: "Dünyanın bir parçası..." .

Özü ilə mükaliməsi bitəndən sonra əlindəki səndəl ağacı ilə yanağını qaşıya-qaşıya qəbirlərin arasından keçib məşriq tərəfdəki balaca türbəyə yaxınlaşdı. Buoada anası Badisəba uyuyurdu. Türbəni özü tikmişdi. Nədənsə ülya-mələkə Mö'minə xatunla buradakı söhbətləri yadına düşdü. Ona verdiyi cavabı da xatırladı: "Anamın ruhu başımın üstünü çətir kimi tutduğu halda mən nədən xoflanmalıyam, ülya-mələkə?.." Elə bu söbəti xatırlayan kimi özü də bilmədən ruu çəkib buraya gətirən ürəyindən razı qaldı. Mərhuməyə dönə-dönə rəhmət oxudu. Başdaşının üstünə qoyduğu balaca boz çaylaq daşını götürdü və başdaşını bir neçə dəfş döydü. Bu, o demək idi ki, mənəm, Əcəmiyəm... yenə görüşünə gəlmişəm, ana... hər dəfə səni yad eləmək, sə-

nə rəhmət oxumaq üçün gəlirdim. Bu dəfə gəlmışəm xeyir-dua verəsən mənə. bilirəm deyəcəksən ki, xeyir-duanı dirilərdən alarlar, ölülər xeyir-dua vermilər. İndicə özün fikirləşmirdin ki, burada hamı laldı, kardır, kordur?.. "Bilirəm, ölülər xeyir-dua vermirlər... Bu sözləri inan ki, sən deyəndən sonra mən təkrar edirəm. Ürəyim demir bu sözləri... Bilirsən niyə?.. Bilmirsənsə, qoy deyim... Bura hər dəfə gələndə, başdaşını döyməyimə, sənə rəhmət oxumağıma baxma, mənim üçün sşn həmişə dirisən, ölməmisən, sadəcə olaraq torpağın üstündən altına köçmüsən... Mən səni burada uyuyanların heç birinə bənəşdə bilmərəm. Bunların heç biri də mənim üçün sən ola bilməz... Axı mənim damarlarımda axan qan sənindir. Gözümə işığı, ürəyimə hərarəti, qollarıma gücü sən vermisən. İndi o işığa, o hərarətə, o gücə daha çox ehtiyacım var, ana... Xeyir-duanı alan kimi gedirəm işə başlayam: Həm hökmdar hökmünü icra edəm, həm də ana tapşırığını yerinə yetirəm. Bir neçə vaxt bundan əvvəl səni yuxuda görəndə dediklərin yadımdan heç çıxmır. Onda sən dedin: "Sən elə hesab elə ki, təkcə şahın anasına yox, bütün analara abidə ucaldırsan..." "Ver xeyir-duamı, ana!.."

Keçib anasının türbəsinin aşağısındakı sal daşın üstündə oturdu və başını sinəsinə endirib başdaşına baxdı, baxdı. Ona elə gəlirdi ki, indicə başdaşı yoxa çıxacaq, onun yerində ağ saçlı anasının nurani sifəti peyda olacaq, sonra da, gülə-gülə oğluna xeyir-dua verəcək... Gözlədi, gözlədi, nə başdaşı yoxa çıxdı, nə anasının nurani sifəti peyda oldu...

Amma birdən uzaqdan müxtəlif səslər eşitdi. səslər bir-birinə qarışa-qarışa yaxınlaşdı və qəbiristanlıqda sükutu pozdu. Əcəmiyə elə gəldi ki, təkcə anası Badisəba yox, əbədiyyət evinə köçən bütün analar birləşib ona xeyir-dua verirlər: "İşin avand olsun oğul!.."

Əlindəki səndəl ağacını qurşağına keçirib anasının türbəsindən uzaqlaşdı.

## KARVAN YOLA ÇIXIR

Axşam idi, qaranlıq bir axşam. Şəhər elə bil indiyə kimi belə bir qaranlığa bürünməmişdi, onun üzərinə belə bir qatı zülmət pərdəsi çəkilməmişdi...

Göz-gözü görmürdü. Elə bil kim isə göyə süpürgə çəkib ulduzları təmizləmişdi.

Ulduzlar şəhzadəsi Ay isə naməhrəmdən utanan ifallı gəlin kimi

harasa ilim-ilim itmişdi.

Əcəmi üçncü gün idi ki, evdən bayıra çıxmırdı, çox vaxt pəncərənin artırmasında əyləşib uzaqdakı dağlara, düzənliklərə tamaşa edir, Arazın sularına baxıb xəyala gedirdi. gündüzlər beynində qarmaqarışıq dolaşan fikirlər axşam dağılıb yoxa çıxırdı.

Birdən Əcəminin yadına hansı aliminsə sözləri düşdü: “Naxçıvan beş iqlimli məkandı...” Gözlərini qara saca oxşayan göy qübbəsindən ayırdı, ətrafa boylansa da, heç nəyi ayırd edə bilmədi. Səndəl ağacının uclarını ovuclarına aldı, çənəsinə qoyub fikrə gerdi. Elə bu vaxt qulaqlarına ud səsi gəldi... Əcəmi udun simlərindən qopub gah bəmə enən, gah zilə qalxan səsləri dinləndikcə ona elə gəlirdi ki, haradasa nakam bir gözəl dizlərini qucaqlayıb ağlayır, bir ana ayaqyalın, başı açcıq oğlunun cənazəsinin arxasınca addımlayıp haray çəkir, zalım ovçu ürkək bir ceyranı qove-qova gətirib sıldırım qayanın döşünə qısnayır, yaralı bir igid köhlən atın yalına yataraq dördnala harasa çapır...

Çalan kor Əhsən idi... Yenə muğam çalırdı, qədim bio muğam. Udun səsi durna qatarının səsi kimi get-gedə uzaqlaşdı, sonra eşidilməz oldu. Onun yerini İsaq-Musaq quşunun yeknəsək səsi əvəz etdi: “Tap...dın?..Tapma...dın, tap...dın, tapma...dın?..”

Anasını xatırladı yenə. Qəribədir, özü də baş aça bilmirdi ki, niyə o məhz Badisəba arvadı ya belə qaranlıq, ya da aylı gecədə xatırlayır həmişə?.. Görünür, buda bir sirrdi, bu da bir hissdi...

Eh, dünyanın mö’cüzələri ha çox, insanın sirr xəzinəsi olan ürəyinimn, beyninin hələ açılmamış, kəşf olunmamış əndişələrinin də ki, sanı-hesabı tükənməz!..

Əcəmi bu barədə baş sındırmadı. Axı onun bütün fıkri-zikri son günlər yalnız hökmdarın tapşırığını necə yerinə yetirəcəyi ilə məşğul idi: “Mö’minə xatun ananın məzarı üstsndə tikiləcək sərdabə qəsr-ə’mindən gərək heç də əskik olmasın. Və hətta ondan həşəmətli olsun, möhtəşəm olsun...”

Əcəmi içəri keçdi, taxçaya qoyduğu kiçik şamı yandırdı, otaq işıqlandı. Mizin üstündəki böyük şamı da şamın alovuna alışdırdı. Otaqda hər şey aydın göründü. Dəyirmi mizin üstündəki ağ Səmərqənd kağızları da, lələk-qələm də necə vardısa eləcə intizar çəkirdilər...

Əcəmi ürəyindən keçənləri kağızlar köçürməmişdi. Saatlarla onlara baxsa da, lələk-qələmi saçlarına sancıb fikrş getsə də, hələ bir qərara gələ bilməmişdi.

Qələmi də, kağızları da yana itələdi,durub rəfdəki kitabladan bi-

rini götürdü. Bu "Gözəllik və səadət"[1] idi. Sağa-sola vərəqlədi. Oxumağa hövsələsi çatmadı, qalxıb kitabı yerinə qoydu. Bu dəfə Əbül-Vəfanın kitabını götürüb, baxıb yerinə qoydu. Gözünə Fazil Şirvaninin ulduzlar barədəki cədvəlləri dəydi, gətirb mizin üstündə açdı, yenə baxdı, baxdı...

Cədvəlləri yığışdırdı, şamları keçirdi, soyunub yatağına girdi. Gözlərini bərk-bərk yumub yuxuya getmək istədi. Nə qədər çalışdısa çimir eləyə bilmədi.

Eşikdən İsaq-Musaq quşunu yeknəsaq səsi genə gəldi: "Tap...dın, tapma...dın?.."

Yorğanı hirslə üstündən atdı, qalxıb yerində oturdu və kiminləsə danışır kimi ucuadan dedi:

— Tapmadım!.. Əl çəkəcəksən, ya yox?.. Dedim ki, tapmadım! Taparam, amma niyəsə tapmaq istəmirəm!..

Əcəminin yadına anasının toxuduğu xalçalar düşdü, bir vaxtı atasına İran tacirinin bağışladığı arı ailəsinin pətəkləri gəlib gözləri önündə dayandı, qələmi əlinə alıb kağız üzərindəş müxtəlif xətlər cızdı, naxışlar işlədi, onları qayğı ilə doğrayıb bir-birinə caladı, sonra ayırdı, kəsib tökdü, təzəsini kəsdi, təzəsini düzəltdi... Deyəsən, heç biri ağlına batmadı. O nəyisə axtarırdı, tapa bilmirdi. Amma bilirdi ki, tapacaq, mütləq tapacaq. Nə fikirləşdisə cızdığı bütün xətləri də, işlədiyi naxışları da, kəsdiyi kağızları da cırıb tulladı... Əsəbiləşib əvvəlki sözünü dedi:

— Tapa bilmirəm... Tapmaq istəmirəm!

Elə bu vaxt ona elə gəldi ki, pəncərə işıqlandı, tağın biri açıldı və oradan nurani bir qadın peyda oldu, Əcəmi diqqətlə baxdı və onu tanıdı: Mö'minə xatun idi...

"Niyə tapmaq istəmirsən, Əbubəkr oğlu?.. Görürəm çox narahatsan. Həm də xeyli nigaransan... Səbəbkarı da mənəm. Bunun üçün bağışla məni... Axı mən anayam. Tərəddüd eləmə, Əbubəkr oğlu, get mənim oğluma — sizin hökmdarınıza de ki, tikirəm, qoy Mö'minə xatun ananın qəbir otağı olsun, əbədiyyət otağı olsun... Niyə dinmirsən, niyə elə baxırsan? Bilirəm ki, ürəyi yumşaqsan, mərdsən, cəsarətlisən. Səni mən cavan vaxtından beləcə tanımışam. Yəqin yadında ola... Bir dəfə sevimli məşşatəmin[2] dəfnində iştirak etmək üçün şəhər qəbiristanlığına gəlmişdim. Gördüm ki, cavn bir oğlan qəbrin üstündə kiçik,

1. Ə.Bəhmənyarın əsəri.

1. Sarayda mələkəni bəzəndirən qadın.

amma gözəl, səliqəli bir sərdabə tikir. O heç kimə baxmadan başı aşağı daş yonurdu. Yorğun idi, yuxusuz idi. Heç kimnən kəlmə kəsmək istəmirdi. Yaxına gəlib soruşdum: "Ey cavan, niyə heç kimlə danışmaq, kəlmə kəsmək istəmirsən?" Dedin: "Danışmaq üçün, kəlmə kəsmək üçün ürəkdə qəm olmaya, xatun." Dedim: "Sənə nə qəm?" Dedin: "Ana ölümündən də böyük qəm olar?.." Dedim: "Bağışla, oğlum, bilmədim ki, rəhmətə gedən anandı". Dedin: "Allah bağışlasın... " Dedim: "Danışırlar ki, sən ən çox gecələr qəbiristanlığa gəlirsən. Bəs xoflanmırsan qəbirlərin arasında tək-tənha?" Dedin: "Tək-tənha niyə oluram, xatun? Anımın ruhu həmişə mənimlə olur. Onun müqəddəs ruhu bir çətir kimi başımın üstünü tutur, bir divar kimi keşiyimi çəkir, məni hər bir bəladan hifz edib qoruyur..." "Mən səni o vaxtdan beləcə tanıdım, Əbubəkr oğlu. İndi eşit məni. Mən ölüyəm, sən diri... Gir bu işin altına. Çətin işin sonra fərəhi də çox olur, sevinci də! İnsan gərək bacardığından da çox iş görə. Bu, onun başqalarının nəzərində ucaldır. Sən başla işə, şin uğurlu olacaq, Əbubəkr oğlu. Əsəbiləşmə, bu gün o kağızlar üzərində çəkəcəyin xətlər, naxışlar sabh sənin bu balaca otağından bayıra çıxacaq, sonra kərpiclərə, kaşılara çevriləcək, kitabələrə dönəcək... Sənin doğma şəhərini bəzəyən gözəl bir tikiliyə dönəcək... Səini doğma şəhərini gəzəl bir tikiliyə çevriləcək, elə bir tikiliyə ki, hamı onun tamaşına duracaq... İnan mənə, Əbubəkr oğlu. Bunu mən deyirəm, bunu bir ana deyir... Sən məni yaşat, mən də səni yaşadım. Gələcək nəsillər üçün!.. Sənə xeyir-dua verirəm. Ölülərin xeyir-duası bə'zən dirilzrin xeyir-duasından əfsər olur..."

Əcəmi elə bil bu sözlərdən məst olmuşdu: yarıoyaq idi, yarıyuxulu... İstədi nəsə deyə, bacarmadı, cəld yerindən qalxdı.

Pəncərənin iki tağı da bağlı idi... Anasının bir sözü yadına düşdü: "Anaların ruhu gecələr də yer üzünə gəzib dolaşır... Belə olmasa dünya öz məhvərindən qopub ayrılar... Torpaq bəhər verməz, ocaqlar od alıb yanmaz, bulaqların suyu quruyar, nəfəs almağa hava çatmaz... Bunların hamısını yer üzünə anaların ruhları gətirib paylayırlar... Paylayırlar ki, övladları çörəksiz, həm də odsuz, susuz, havasız qalmasın... Onları pisi yaxşıdan, mərdi namərddən seçməyə də anaların ruhu öyrədir... Öyrətməsələr, naqislər, ləyaqətsizlər, baiskarlar köbələk kimi artıb çoxalarlar..."

Əcəmi təzədən geyindi, səndəl ağacını rəfdən götürüb bayıra çıxdı. Elalnı tərəfdə, qara buludların ətəyində işıq qulağı göründü. Deyəsən, ara-sıra ulduz da gözə dəyirdi. Bu, ümid işığı idi.

Əcəminin çiyinlərinə çökən ağırlıq elə bil azaldı, qollarını yanlara açıb dərindən nəfəs aldı.

Mö'minə xatunun qeybdən eşidilən "hamı onun tamaşasına duracaq" sözləri İsaq — Musaq quşunun "tap...dın, tap... madın"ı kimi təkrar-təkrar qulaqlarında səsləndi. Əcəminin xəyalı bu dəfə keçmişə yox, gələcəyə uçdu, neçə-neçə on illərin, yüz illərin üstündən adladı. Gözlərini yumub həmin gələcəyi görmək istədi. Gördü ki, onun doğma şəhəri öz ggörkəmini tamam dəyişib: nə şəhristan var, nə rəbahlar, nə də şəhərin zalımlara-məzlumlara, varlılara-kasıblara ayıran hündür hasarlar, qala divarları... Şəhərin ahad küçələri, geniş xiyabanları, uca-uca imarətləri hamıya məxsusdur. Pəncərələri Elanlı dağına, Ağrı dağına açılan imarətlərdə Dərgah kişi də yaşayır, Məcusi də, zərgər Mustafa da, dostu Cəmil də... Və şəhərin ortasında bəzəkli gəlinə oxşayan bir abidə ucalır. Adamlar dəstə-dəstə gəlib ona baxırlar, hərənin də dürül-dürlü tə'rifləri... Tə'rif deyən təkcə onun həmşəhərliləri deyil, bütün arranlılardı, bütün əcnəbilərdi: "Mərhaba", "Mər... Hə... baaa...!"

İsaq-Musaq quşunun səsi yenə gəldi: "Tap...dım, tapma... dın!.."

Əcəmi otağa qayıtdı, mizin başında əyləşdi, ağ Səmərqənd kağızlarını təzədən qarşısına çəkdi, lələk-qələm onların üzərində bu dəfə sür'ətlə aşağı-yuxarı, sağa-sola işləməyz başladı.

Hər tərəfi bürüyən qatı zülmət pərdəsi pardaqlanıb sökülənə kimi, ulduzlar təzədən göy qübbəsinə səpələnənə kimi, ulduzlar şahzadəsi Ay gül camalını milyon-milyon aşiqinə təzədən göstərənə kimi lələk-qələm işlədi, işlədi...

Bir azdan zınqırov səsləri eşidildi, deyəsən, sarvan gecədən şəhərdə dincələn dəvələri sübh tezdən karvan yoluna çıxarırdı.

## AXŞAM ƏZANINDAN SONRA

Şəhər rəisinin ovqatı son vaxtlar çox təlx idi, qaşqabağı açılmırdı. Züriyyətsizlik, vəsi dərdi yaşa dolduqca onsuz da gödək olan boyunu bir az da aşağı basırdı.

Cahan Pəhləvanın şəhərə varid olan gündən göstərdiyi laqeydlik onun günün göy əsgiyə döndərmişdi. İki gündən-bir etdiyi töhmətlərin, dediyi acı sözlərin isə sayı-hesabı yox idi: "Sən mərhum atabəyə'zəmin e'timadını doğrultmursan", "Şəhərdə özbaşınalıqdır, əxiliyə arxa çevirənlər peyda olub... Əseaf əhli vergi verməkdən öoyun qaçı-

rır", "Bədəvilər, rahzənlər[1] oğurluq edirlər, şəhərdən çıxan karvanlara həmlə çəkib soyurlar", "Başın isə görmək, şəhəri, ona tabe olan kəndliləri idarə etmək əvəzinə həmbəzmlərə[2] qarışıb, mey və zənən düşgünü olub qalmısan... övrətin isə..."

Şəhər rəisi bura çatanda hökmdarın dediklərini "qeyrətinə sığışdıra bilməyib" edilən töhmətləri lə, deyilən acı sözləri də unutmağa çalışardı. Belə vaxtlarda isə onun dadına ancaq şərab çatardı...

— Nəsrin!

— Bəli.

— Gəl, piyaləni doldur.

— Baş üstə

— Başın Seyidabad gülləri üstə.

Nəsrin xatun bəzək otağından çıxdı, nazlana-nazlana gəlib ərinin yanında dayandı. Əyilib mizin üstündəki balaca gümüş gülabzəni götürdü, qızıl piyaləyə şərab süzdü.

Rəis başını qaldırıb əlvan Təbriz xatayından xalat geyən, qara gur saçlarını, boyun-boğazını ətra tutan arvadını altdan-yuxarı çox diqqətlə süzdü.

— Niyə elə baxırsan? — Nəsrin xatun əzilib-büzüldü.

— Xoşuma gəlirsən... Gətir yanağından öpüm.

— Belim ağrıyır. — Nəsrin xatun sol əlinin dalını onun ağzının üstünə qoydu. — Əyilə bilmirəm...

Nəsrin xatun yalan danışırdı. Yalan danışırdı deyəndə ki, öz qadın nəfsinə, kişiyə olan iştahasına anasının südü kimi bələd idi. Həm də onun üçün heç bir fərqi yox idid, şah dodağı, yaxud geda, sipəsalar dodağı, yaxud mühafiz. Təki dodaq olsun, hərarətli, çılğın, onun sönüb gedən hisslərini dirildən, cana gətirən kişi dodağı...

Axı dodağı kişi dodağı deyəndə ölüb-dirilirdi, bütün bədəni od tutub yanırdı, az qala o dünyalıq olub gedirdi. Bir də ona görə yalan danışırdı ki, son illərdə bir-birini aldatmaq onlar üçün bir növ adət halını almışdı, mərəzə çevrilmişdi. Rəis öz işində idi, xatun da öz işin də...

Yanaqdan öpüş istəyən ev sahibi fərqinə varmadan sahibənin əlini öpə-öpə oradaca mürgüləyib yuxuya getdi. Nəsrin xatun ürəyində ərinin qarasınca deyindi: "Boyuna xam iplik tutum... Kişiyə bax, ağzına bir piyalə şərab dəyən kimi yeddiillik yuxuya gedir. Evini karvana yükləyib aparsınlar, övrətini evindən oğrasınlar — xəbəri olmaz... Bu baş-qulağınan da iki günün biri başıma vurur ki, züriyyətsizik..." Kə-

1. Yolkəsənlər.
2. Kef yoldaşı.

nizə çağırdı, işarə edib ərinin elə həmin otaqdakı dibaçədə yerini rahatladı, süfrəni yığışdırtdı və yenə öz otağına keçib bədənnüma güzgünün qabağında əyləşdi, zümzümə edə-edə bəzək-düzəyini əyər-əskiyini tamamlamağa başladı. Üzünə Nişapur kirşanı çəkdi, yanaqlarına İsfahan qımızı sürtdü. Bir azdan sonra zümzüməsi otağa doldu, arada mahnıya da çevrildi: "Əzizinəm,yar dərdi, Mən gül əkdim yar dərdim. Ürəyimə toxunma, Bil, onun da var dərdi..."

...Qapı açıldı, içəriyə öskürə-öskürə üç kişi daxil oldu. Gələnlərin biri Hatib ibn Mübarək, biri me'mar Məs'ud ibn Əbutahir və biri də saray şairi Kamələddin Naxçıvani idi.

Onları şəhər rəisinin özü qarşıladı. Mizin başındakı dibaçədə xeyli mürgüləməsinə, ayılandan sonra əməlli-başlı yuyundurulub, çimizdirilməsinə baxmayaraq rəisin qaş-qabağından zəhər tökülürdü. Axşam əzanından sonra baş şeyxin yanına iki nəfəri salıb gəlməsi onun ürəyincə olmasa da, heç nə deyə bilmədi.

Axı "Gydə bir olan allahın, yerdə isə xilafətin vəkili və nümayəndəsi" şəhrdə istədiyi adamın qapısını istədiyi vaxt açıb içəriyə varid ola bilərdi, istədiyi adama istədiyi sualı vaerə bilərdi, istədiyi adamdan istədiyi cavbı tələb edə bilərdi. Bu ixtiyarı allah-taala özü əta etmişdi, bu haqqı ona allahın müqəddəs kəlamları olan Qur'an bağışlamışdı.

Nəsrin xatun bəzənib-düzənəndən sonra mələkənin növbəti görüşünə getmişdi...

Gələnlər rəislə salamlaşdılar, baş şeyx təklif gözləmədən keçib başda əyləşdi, me'marla şair isə təklif olunan kürsülərdə öz yerlərini tutdular.

— Demək biz belə qanaq ki, hökmdar bizim ricamızı nəzərə almaq fikrində deyil? — Baş şeyx rəisə bir necə vaxt bundan əvvəl dediyi sözləri bir də təkrar etdi. — Qüreyşi aqilləri deyiblər: "La tərkəb farasə ğayrikə!"[1]

Rəis başı dumanlı olsa da, daşın hara və niyə atıldığını dərhal başa düşdü.

— Kimə-kimə, amma sizə... belə narahatçılıq yaraşmır, cənab əş-şeyx ər-rəis!

— Niyə yaraşmır? — Baş şeyx əlində çevirdiyi səddadənin şəvə kimi qara dənələrini ovcunun içərisinə yığıb əsəbi-əsəbi silkələdi. — Allah-təalanın bu Nəxçəvan şəhərində məndən başqa da vəkili var? —

1 Özgə atına minən tez düşər (*Ərəb.*)

Cavab almadığı üçün bir də sual elədi: — Soruşuram: var, ya yox?. Əlbəttə, yoxdur. — Me'mar Məs'ud ibn Əbutahir qabağa düşüb baş şeyxin sualına əvvəl cavab verdi.

Kəmaləddin Naxçıvani də yarıciddi, yarızarafatla öz fikrini bildirdi:

— Möhtərəm əş-şeyx ər-rəis cənabları vəkil deyil, allah-təalanın yer üzündə mövcud olan yeganə xəlifəsi əmirəlmö'minin ən nüfuzlu, ən mö'təbər nümayəndəsidir.

Rəis əvvəlcə me'mara, sonra şairə sərt bir nəzər yetirdi və kinayə ilə gülümsəyib xəbər aldı:

— Onda belə çıxır ki, vəkillərdən də biri cənab me'mar Məs'ud ibn Əbutahirdir, digəri də şair Kəmaləddin Naxçıvani, eləmi? — Rəis sualına cavb almağını gözləməyib hirslə əlavə etdi: — Əvvəlan, mən sizi evimə də'vət etməmişəm, ikincisi də sizə danışmağa, fikir yürütməyə icazə verməmişəm, üçüncüsü, də siz rəisin hüzurundasız, özü də evimdəsiz!.. Deyin görüm gəlməkdə fikriniz, məqsədiniz nədir?

— Onları mən gətirmişəm, cənab rəis. — Bu sözləri baş şeyx çox rəsmi bir az da kinayə ilə dedi, sonra səddanəsinin dənələrini çox arxayın-arxayın qoşalayıb əlindən-əlinə ötürdü. Bu o demək idi ki, vacib iş üçün gəlmişəm, özü də bilə-bilə tək gəlməmişəm. Və mənimlə gələn kim olur-olsun, sən rəisin borcudur ki, ona ehtiram göstərəsən, hörmət qoyasan. Yoxsa unutmusan ki, nəzərimi üstündən çəksəydim həolə atabəy-ə'zəmin dövründə şələni vermişdilər qoltuğuna. O ki, qala sarayın ikinci sahibinə, nə vaxt göz eləsəm, harayın Bağdada çatmamış tükünü didər... Ağır otur, batman gəl...

— Sən bilirsən ki, Cahan sərdabənin tikilməsi barədə xüsusi fərman hazırlaşır?

— Bilirəm.

Rəisin cavabı baş şeyxin xoşuna gəlmədi, çünki onun səsində də deyəsən, əsəbilik var idi.

— Düzünü de, bizim ricamızı ona çatdırmısan, ya yox?

— Demişəm. Deyir Əbubəkr oğlu tikəcək sərdabəni... Deyir guya bu, atabəy-ə'zəmin də arzusu imiş... Bir də deyir ki, anamı, Möminə xatunu yuxuda görmüşəm, o da deyib ki, qəbrim üstə sovməəni tapşır Əbubəkr oğlu tiksin, Şeyx Yusifin sovməəsini tikən kimi...

— Dirilərin ricasını saya salan yoxdur, mərhumların yuxuda etdikləri xahişləri də ödənilir. Bir işə bax, ha! — Məs'ud ibn Əbutahir oyalandı və baş şeyxi bir az da qızışdırmaq istədi.

— Cahan sovməə tikdirmir...

— Elə iş oradadır ki, sovməə tikdirmir. — Rəis baş şeyxin yarımçıq qalan fikrini tamamladı.

Baş şeyx nə fikirləşdisə sözünü yarımçıq kəsdi. Səddanənin ovcuna yığdı və sonra ləbaddəsinin cibinə qoydu, qəribə bir nəzərlə rəisə baxdı. Elə bil bu baxışla demək istədi ki, sənin nədən xəbərin var ki, bundan da xəbərin ola.

— Demədin ki, Məs'ud ibn Əbutahir də me'mardı?

Rəis elə bil baş şeyjin çürükçülük etməsindən darıxdı.

— Dedim... Deyir ki, Əbubəkr oğlu istəsə usta Məs'udu özünə müavin götürə bilər.

Məs'ud ibn Əbutahir bu sözləri eşidən kim öz-özünə donquldandı:

— Mən şeyx övladı ola-ola bir dulusçunun oğluna müavin işləyim? — Sonra rəisə müraciətlə soruşdu: — Saray sahibi bildi ki, mən sərdabəyə çəkilən xərcin altıda birinə də razıyam?

— Onu da dedim, bildi...: Dedi ki, ucuz ətin şorbası olmaz. — Baş şeyxin əvvəlki söhbətinə qayıtdı: — Dedi ki, mən adicə sovməə tikmirəm... məqbərə tikdirirəm... hələ bəlkə qəsr tikdirdi... Əbubəkr oğlu isə işə, muzd barədə hökmdara heç nə deməyib. Bu da onun xoşuna gəlib. Vəzir Sə'dəddin Əsədə tapşırıb ki, ümumi qaydanı pozsun və fərmanda tikili üçün çəkilən xərcin beşdə biri qədər yox, dörddə biri qədər muzd ayrılmasını göstərsin. Bundan əlavə, eşitdirib ki, tikilinin özülünə bir kisə qızıl tökəcəyəm... Özü də xalis səlcuq qızılı... Hələ söz arası eşitdirdi ki, sərdabə yaxşı çıxsa, Əbubəkr oğluna bir nalbənd, bir çörəkçi dükanının gəlirini vəqf kəsəcək. Hələ bəlkə ayrıca Əcəmi zəviyyəsi də yaratdı...

Otağa sükut çökdü, heç kim danışmadı. Baş şeyx səddanəsini ləbbadəsinin qoltuq cibindən çıxarıb təzədən çevirməyə başladı. Kəmaləddin Naxçıvani isə baş şeyxə, Məs'ud ibn Əbutahirə od qoymaq istədi:

— Heyf... heyf!..

Baş şeyx şairin heyfsilənməsindəki eyhamı başa düşmədi:

— Bəs demədin ki, Əbubəkr oğlu məscidin, qəzavatxananın qənşərindən keçəndə az qalır yanını qaşısın... Necə rəva görürsən ki, beləbir bənna sənin ananın məzarı üstündə sərdabə tiksi? Mərhum atabəy-əzəmin ağıllı, sevimli övrətinin müqəddəs ruhunu narahat etsin, gecələr əcinnələr məzara doluşub nalayiq hərəkətlər törətsinlər? Yox, deyəsən, mən özüççm hökmdarın yanına getməli olacağam.

— Hökmdar bu gönlərdə Həmədana qayıdır və buna görə də heç

kimi qəbul etmir. — Rəis bu dəfə sakit və bir az da təssüflə fikrini baş şeyxə çatdırdı.

Elə oradaca da fikirləşdi: "Görəsən bu qoca islamçı, bənna oğlundan nəistəyir?. Onun ilk məhəbbətini daşa çırpdı, Dəryanuru əlindən aldı. Özündən də əl çəkmək istəmir. Əcəmi adı eşidəndə varından-yoxundan olur. Elə bil dəliyə qırmızəı göstərirlər. Mən heç bilməzdim ki, dindarların kin-küdurəti də islama e'tiqadları kimi qatı olurmuş..."

Son sözləri müraciətdən çox sarayın ünvanına giley-güzara çevrildiyindən rəis cavb vermədi.

— Hökmdar ki, öz zənənini özündən yuxarı başa, rəiyyət gərək özü gedib öz qəbrini qaza. Deyirlər kişinin nəyi övrətin əlində olur-olsun, eyb etməz, gərək bir atı, bir saqqalı, bir də sözü özüçnün ola...

Kəmaləddin Naxçıvanini o tərəf-bu tərəfinə baxdı, alnının qırışlarını sıxlaşdırdı, əlini gicgahına tökülən seyrək tüklərinə çəkib dedi:

— Hökmdar Əlincə ov da olanda, Pir Cuvarındakı cədəlgahda qoşunun tə'liminə baxmağa gedəndə Əcəmini mələkənin yanından çıxan görüblər...

Rəis dərhal onun ağzının üstündən vurdu:

— Siz naxçıvanlılar elə sözbaz olursunuz... O ki, qala hələ şüərasına! Nə istəyirsən, nə qər istəyirsən quraşdırsınlar sənin üçün saxta sözləri. Gündə onun, yüzünü. Bəh-bəh, danışdı da! Buna heç kim inanmaz!

Baş şeyx isə fikrini qəti bildirdi:

— Heç kim də inanmasa, hökmdar inanar. Allahın elçimsi olan mən, — sinəsinə döydü, — dəfələrlə belə qənaətə gəlmişəm ki, şahlar, padşahlar bütün ömürləri boyu şübhə içində yaşayıblar, onların ölüçmlərini də son məqamda baltalayan elə şübhə olub. Onlar şübhə ilə qidalanıblar, şübhə ilə nəfəs alıblar. Onların əməlləri də şübhə ilə yoğrulub, şübhə ilə naxışlanıb...

— Hökmdar öz övrətlərinə inanır... Başınız bədəninizə ağırlıq etməsin. — Rəis qəti xəbərdarlıq etdi.

Kəmaləddin Naxçıvani ürəyində baş şeyxə rişxənd etsə də, "Köpəyin duası müstəcəb olsaydı, göydən yağış əvəzinə sümük yağardı" kəlamını xatırlasa da, əl-qolunu ölçərək bədahətən şe'r qoşub onu mədh etməyi də lazım bildi: "Günəş kimi nur saçır bizim qüdsi-barigah. Onu daim hifz elə, aqil və bazil apllah!..

## ƏSRİN ONDA BİRİ

Cahan Pələvan alnını sol ovcunun içinə qoyub fikrə getmişdi. Bu, hökmdar üçün bir adət halına keçmişdi. O, belə dərin fikrə gedəndə nə barədəsə sərt bir tədbir görəcəyini, yaxud fərman verəcəyini kəsdirirdi.

Qulam içəri girdi və adəti üzrə dinmədi, qəbul otağının aşağıscında dayanıb hökmdarın dərin düşüncələrdən nə vaxt ayrılacağını gözlədi. Elə bu vaxt dəvə karvanının son zınqırov səsləri eşdidildi. Görünür, tacirlər Naxçıvan duzundan kifayt qədər yük götürmüş dəvələrini yenə şəhərin içərisinə sürüb Culfa yoluna çıxarırdılar. Cahan Pəhləvan bu səsi eşidən kimi alnını ovcunun içərisindən götürdü. Bundan istifadə edən qulam tez baş endirdi və:

— Hökmdar...

Onun sözü tıxanıb boğazında qaldı. Cahan Pəhləvan adəti üzrə sağ əlini yuxarı qaldırdı və sərt bir hərəkətlə ona susmasını işarə etdi. Qulamın elə oradaca yadına düşdü ki, sarayın təzə sahibində karvan zınqırovlarının səsini eşitməyə xüsusi bir maraq vardı. Ancaq bu qara, kor-kobud ərəb bir neçə dəfə baş sındırıb xeyli götür-qoy etmişdisə də bunun sirrini araşdıra bilməmişdi. Hətta dünyagörmüş qocalardan adda-budda eşitdiyi sözləri də yadına salmışdı: "Padşah var ki, atını dədəsindən çox istəyir...", "Padşah var ki, səhərlər xoruz döyüşünə baxmamış nahar eləməz..", "Padşah filankəs nahavrını həmişə ova apardığı tulasıynan bir yerdə yeyərmiş..." Padşah filankəs çiynində qızılquş görməyincə bir yerə ayaq basmazmış...", "Padşah filankəs fərmanlarına bir qayda olaraq qəfəsdə saxladığı bülbüllərin səsini eşidəndən sonra imza edib möhür basarmış...", "Padşah..."

Qulam atından, tulasından, qızılquşundan, xoruzundan, bülbüllərindən ayrı düşmüş padşahlar barədə eşitdiklərini götür-qoy etdiyi vaxt Cahan Pəhləvan bütün qayğı və fikirlərindən əl çəkib zınqırov səslərinə qulaq kəsilmişdi. O elə bil gözəl bir mahnı dinləyirdi, çünki hökmdarın qəzəbli sifətində müəmmalı bir sevincin sönük cizgiləri özünü biruzə verirdi...

"Bu hökmdarlar da qəribə məxluqdurlar, vallah! Ə, dəvə özü nədi ki, onun zınqırovunun səsi də nə ola! Zın...qznq...zınq..."

Karvan uzaqlaşdı, zınqırov səsləri də itib-batdı. Cahan Pəhləvan başını yavaş-yavaş qaldıran kimi qulam bayaqdan bəri tıvxanıb boğazında qalan sözünü tamamladı:

— Hökmdar, me'mar Əbubəkr oğlu gəlib.

— Əvvəla vəzarətxanədan Sə'dəddin cənablarına de bura buyursun. O buyurandan sonra Şbubşkr oğlunu yanıma gətirərsən.

Hökmdarın alnı yenə sol ovcunun içərisinə endi. Qulam baş endirib otağını tərk etdi. Onun çıxması ilə Sə'dəddin Əsədin otağa girməsi bir oldu. O, adəti üzrə hökmdarı salamladı, onun sağ təarəfindəki sədr kürsüsndə əyləşdi və heç bir sual vermədi. Çünki hələ vəzir tezdən bilirdi ki, Cahan Pəhləvan me'mar Əbubəkr oğlunu yanına də'vət edibdir.

Qapı açıldı, qulam Əcəmini içəri buraxıb qapıları yenidən örtdü. Əcəmi sol əlini sinəsinə qoyub hökmdarı salamlayandan sonra keçib göstəridən yendə əyləşdi, nədənsə kuzəzçi Dərgah kişinin bir dəfə dediyi siözlər yadına düşdü: "Hökmdar yanına getməyin, düşəri də olar, düşməzi də... Hökmdar dediyin dəyənək kimi bir şeydi, qardaşoğlu:.. Dəyənəyin də ki, iki ucu olur... Birindən xeyir görərsən, birindən ziyan çəkərsən..."

Cahan Pəhləvan aram-aram danışmağa, özü də nədənsə filosofluq etməyə başladı:

— Biz millətimizin müqtədir, qabil adamlarını daim hifz edib qorumalıyıq. Ona görə qorumalıyıq ki, alimsiz, ədibsiz, me'marsız, xanəndəsiz millət olmaz. Hətta kənkansız da, bənnasız da, daşyonansız da keçinmək müşküldü. Amma bir məsələ var ki, hansı sənətin, peşənin ardınca getməsindən asılı olmayaraq sənətkar qabil olmalıdır... Və özünün əsil qədr-qiymətinə layiq görülməlidir. Gəncəli şair Nizami çox doğru deyib ki, insan papaqçı da olsa gərək kamil papaqçı ola. Mən Əbubəkr oğlunu da Nizami kimi qabil bir sənətkar hesab edirəm. Və əminəm ki, gəncəli şairin şe'r aləmində olan böyük gələcəyi kimi, naxçıvanlı me'marın da me'marlıqda

böyük gələcəyi olacaq. — Cahan Pəhləvan danışığına ara verdi, özünü Əcəmiyə daha yaxın göstərmək üçün səsinin ahənginidəyişdi: — Hələ mərhum atabəy-ə'zəm üçün hazırladığın hədiyyənin üstündəki nəbati naxışları görəndə mən bu qənaətə gəlmişdim. O vaxtdan məndə belə bir inamyaranıb ki, ustad Əcəmi həmin hədiyyənin sabah iki dəfə, birisi gün beş dəfə böyüyünü yarada bilər. Və lazım gəlsə bir-iki ildən sonra on dəfə, bir neçə ildən sonra yüz min dəfə böyüyünü...

Sə'dəddin Əsəd hökmdarın öz niyyətini çox ustalıqla, həm də eyhamla bildirməsini o saat başa düşdü və Əcəmini ayıq salmaq üçün

bir-iki öskürdü.

— İnsan olmağın birinci əlaməti elə öz həmcinslərinə xidmət etməkdir. Yenilməzlərin, qorxmazların e'timadını doğruldanlar ölməzdirlər. Bələləri sənə e'timad göstərəndə, adını hörmətlə çəkəndə adamın ürəyi, bax, o Elalnı dağı boyda olur! — Əcəmi pəncərədən baxıb uzaqlarda, aydın səmanın altında, tutqun çəhrayı rəngə çalan dağı göstərdi. Hökmdarın da, vəzirin də nəzərləri şərqə, gündoğar tərəfə dikildi.

— Sənətkar üçün dağ azdı, ona daha yüksək zirvə gərəkdi. — Sə'dəddin Əsəd söhbətə qoşuldu.

— Əlbəttə, böyük hökmdar da, möhtərəm vəzir də haqlıdırlar. — Əcəmi saray sahibinin qabağından qaçmaq istəmədi: — Amma mən Elalnının adını əbəs yerə çəkmədim. Mən bu dağa baxanda yadıma müdrük Qorqud dədə düşüşr. Mənə elə gəlir ki, ürəyə oxşayan bu dağı elə bil kimsə onun sinəsindən çıxarıb və başı üstə bu doğma yurdun bir parçasına salıb. Elə bil kimsə deyib ki, ey Qorqud dədə yurdunun igidləri, heç nədən qorxmayın, böyük bir insanın, ulu bir məxluqun ürəyi həmişə sizin yanınızdadır...

Cahan Pəhləvan me'marın şairanə, ancaq müəmmalı sözlərinə diqqətlə qulaq assa da, soruşdu:

— Sən inanırsan ki, yer üzündə Qorqud dədə adlı müdrik qoca yaşayıb?

— İnanıram. Müdrik adamlar qondarma ola bilməzlər. Mənə elə gəlir ki, Qorqud dədənin ruhu da daim bu yerlərdə dolaşır... Ləyaqətli adamları heç vəchlə məcbur etmək olmaz ki, yaxşını "pis" kimi, pisi "yaxşı" kimi qələmə versinlər... İnsan oğlu öz əməlinin övladıdır. Sözün doğrusunu de, atını min çap... sənə zaval yoxdur. Ata-babaların bizə vəsiyyəti belədi, hökmdar.

— Deyəsən, Əbubəkr oğlu bu gün filosofluq etmək niyyətindədi? — Sə'dəddin Əsəd söz atıb gülümsədi.

— Qoy danışsın... Bu yerlərin sadə adamlarından da müdrik sözlər eşitmək mənə xoş gəlir.

Əcəmi Cahan Pəhləvanın dediklərindən razı qalsa da, vəzirin sözlərini də cavabsız qoymadı.

— Əgər vəzir cənabları həqiqətdən danışanda onu filosofluq adlandırırsa, qoy o deyən olsun. Amma məni mistədiyim odur ki,qoy ayılsın qəflət yuusundan insan, çünki o hər şeyə qadirdir, bütün varlıqlardan ucadır. Çünki həm güclüdür, həm də qabil, həm zəkalıdır,

həm də qüdrətlidir. Ona rəva görmək lazım deyil ki, ağlına xəyanət edib yalanlara inansın, müti olub naqislərə boyun əysin.

— Belə çıxır ki, Əbubəkr oğlu insanlar arasında heç bir fərq görmür? — Cahan Pəhləvan me'marın qəribə mühakimələrinə maraq göstərdi və vəzirə baxıb gülümsədi.

— İnsanlar arasındakı düzlüyü və əyriliyi, aqilliyi və nadanlığı biz özümüz yaradırıq, əfsanələrə inansaq, biz hamımız bir babanın — Adəmin, bir nənənin — Həvvanın törəmələriyik... Buna görə də təbiətin nəyi varsa onu övladları arasında bərabər bölünməlidir... Xeyirxah, aqil atalar öz var-dövlətlərini övladları arasında tən bölüblər. Özləri də bölməyə vaxt tapmasalar, dünyadan köçəndə belə vəsiyyət ediblər: "Nəyim varsa düz bölün, dədə malı kimi!.." Dostum Nizaminin də beləbir kəlamı var: "Öylə bir ixtiyar olsaydı məndə, qoymazdım bəndəyə möhtac bir bəndə..."

Sə'dəddin Əsəd bu an imkan tapıb Əcəmiyə başı ilə işarə elədi ki, daha danışma, hökmdarın yanında diligödəklər, başını tez-tez sinəsinə endirənlər, yalana da, doğruya da "bəli, bəli" deyənlər udublar həmişə...

Cahan Pəhləvan taxtında yanını dəyişdi. Sol əlilə gödək saqqalını sığalladı və heç nə demədən susdu. Və birdən əlini əlinə vurdu. Qulam bir göz qırpımında qapının ağzında hazır oldu.

— Denən yemək otağında yaxşı bir süfrə açsınlar... Mən bu gün ushad Əcəmiylə birlikdə nahar edəcəyəm!

Qulam heç nə demədən baş endirib getdi. Nahar edənlərin sırasında adı çəkilməyən vəzir:

— Mən... mürəxxəs ola bilərəmmi, hökmdar? — deyib ayağa qalxdı.

— Əyləş... Fərman hazırla... Dövlət adından. — Cahan Pəhləvan fərmanın qısa məzmununu dedi: — Mö'minə xatun ananın sərdabəsinin, daha dürüst desək, qəsr-abidənin tikilişinə başlansın. Bu tikiliş üçün beytülmaldan lazımi qədər vəsait ayrılsın... Ümumi qaydadan kənar, müstəsna olmaq şərti ilə, onu tikənlərə çəkilən xərcin beşdə bir qədər yox, dörddə biri qədər... zəhmət haqqı ödənilsin. Məqbərənin özülünün qoyulması gələn həftənin pəncşənbə günü icra edilsin. Və sərdabə... — Əcəmiyə tərəf döndü: — Neçə il bəsdi tikinti üçün?

— Bəs hökmdar sənədlərlə, sərdabənin layihəsilə tanış olmaq niyyətində deyil?

— Mən Əbubəkr oğluna inanıram. — Cahan Pəhləvan vəzirə

baxdı, Sə`dəddin Əsəd hakimin dediklərini başı ilə təsdiqlədi.Hökmdar sualını yenə təkrar etdi: — Neçə il bəsdi?

— Ən azı... on beş il.

— Ən çoxu on il.

— Azdır, hökmdar.

— Çoxdur me'mar!.. On il... Əsrin onda biri...

Əcəmi saray sahibinin qırımını görüb nə söz qaytardı, nə də şərtini dilinə gətirə bildi.

Əcəmi hökmdarla bir yerdə nahar edib saraydan çıxanda hava aydın idi.Səndəl ağacını qurşağından çıxarıb barmaqları arasında oynadırdı...

Belə havada Əcəmi həmişə şad-xürrəm görünərdi. Ancaq bu dəfə fikirli idi. Nahar vaxtı saray sahibinin ona verdiyi xəbərləri götür-qoy edirdi: "Əbubəkr oğluna bir xəbər verə bilərəm. Gürcü çarı Georgi mənə namə göndərib... Xəracdan imtina edir və bizimlə həmişə əmin-amanlıqda yaşayacağına söz verir. Amma inanmıram".

"— Hökmdar... gəlin bu dəfə də sınaqdan keçirin. Axı gürcülərlə tarix boyu möhkəm dostluğumuz olub, hələ Cavanşirin vaxtından... Ağvan hökmdarı gürcü knyazı Atrnersexlə yaxın dost olub, bir-birinə çətin ayaqda kömək əli uzadıblar... Bu biri qonşularımızın sərkərdəsi Baqratuni də onun kimi".

"— Bəs sonralar Cavanşir kim bir sərkərdəyə sui-qəsdi kim təşkil etdi? Babək kimi cəsur bir sərkərdəni kim ələ verdi?.. Sidqim siyrilib bu qonşulardan, inanmıram onların səmimiyyətinə. İndi də Əbubəkr oğluna başqa bir xəbər verim."

"— Nə xəbər, hökmdar?"

"— Qızıl Arslandan məktub almışam... Çapar göndərmişdi... Atabəy-ə'zəmin vəfatından sonra Təbriz hakimi Fələkəddin Əhməd özünü yaxşı aparmır... Öz başınalıq edir. Əbubəkr oğlu bilməmiş deyil ki, xilafətin iradəsilə Təbriz uzun illərdi ki, Əhmədili nəslinin əlində bir oyuncağa çevrilib. Atabəy-ə'zəmə əcəl aman vermədi ki, Təbrizi Eldəgəzlər xanədanına birləşdirsin... Açıq qalan bu məsələni, üləmalar demişkən, həll etmək mənim boynuma düşür... Bağdadın tez-tez mənə fəxri əba göndərməsinə, gündə bir xeyir-dua verməsinə baxma, mən Təbrizi Əhmədili nəslinin əlində qoyan deyiləm."

"— Siz haqlısınız, hökmdar... Qətran Təbrizi hələ zəlzələdən sonra vairan olan bu şəhər barədə yazmışdı ki, dünyada Təbrizdən gözəl şəhər yoxdur."

1. Kəndliyə rişxəndlə müraciət forması.

"— Təbriz nə qədər gözəldirsə, camaatı da bir o qədər cəsurdur, igiddir. Buranın adamlarından mənim cavn çağlarımdan xoşum gəlir. Təbrizli az danışar, çox işlər. Pünhan saxlamalı mətləbləri heç vaxt faş etməz, çətinliyə müqavimət göstərməyi bacarır təbrizli. İnsafdı belə bir şəhər ömürlük satqın bir nəslin əlində qalsın?.."

"— Deməк, hökmdarın fikri qətidir?"

"— Bəli, qətidir... Bir neçə vaxtdan sonrav qoşunumu Marağadan keçirib Təbrizi mühasirə edəcəyəm. Marağanın qazısı Sədrəddin Marağaini yaxşı tanıyıram, öddəyin biridi. Atlılarımın Culfa yolunda qaldırdığı tozu görən kimi şəhərin darvazalarını üzümüzə açacaq...Təbrizi isə çalışacağam ki, davasız-dalaşsız, qan tökmədən mənə təslim etsinlər. Əyər Fələkəddin Əhməd təklifimi qəbul etməsə ... qılınca əl atmalı olacağam. Çünki bu dava müqəddəs davadır, qəzavatdır... Təbriz bizim olmalıdır!.. Yoxsa Azərbaycan bir gözlü qalıb eyibli olar... Arranın üç incisi var, bunun biri Təbrizdir, biri Naxçıvandır, biri də Gəncədir..."

Əcəmi bir an ayaq saxladı, başını qaldırıb səmaya baxdı. Göy üzü yenə təmiz idi. Fikirləşdi: "Dava-dalaşdan elə danışır ki, elə bil Fələkəddin Əhmədlə çilingağac oynamağa gedir... Mələkə düz deyirmiş ki, Cahan Pələvan məramından hələm-hələm dönən ərlərdən deyil..."

Bir tərəfdə Elalnı dağı, bir tərəfdə ağrı dağı ucalırdı. Ürəyindən qəribə bir hiss keçdi. Bu hiss nədənsən xeyir-duaya çevrilib ürəyində əks-səda verdi. "Ey ulu tanrı, bəşər övladı, insan oğlu çətinliyə düşən kimi nədənsə səni xatırlayır, sənə bel bağlayır, sənə arxalanır... Qoluma qüvvət, ürəyimə qan, gözlərimə işıq ver. Mən də üçüncü dağı yaradım. Elalnıdan; Ağrıdan sonrakı dağı..."

"— Abidə şəhərimizdə ən uca tikili olacaq. Daş kürsülük üzərində yerləşəcək, kitabələri nəxs xətlərlə işlənəcək..."

"— Mən əbubəkr oğluna inanıram..."

"— Abidə çatma günbəzlə örtüləcək, günbəz konus şəklində olacaq, içərisi də mehrab şəklində..."

"— Mən Əbubəkr oğluna inanıram..."

"— Nəzərdə tutmuşuq ki, ayrı-ayrı naxışlarla işlənən kitabələrdən tam bir qurşaq düzəldək. Abidənin pəncərələri qızılı sağanaqlı qoz ağacından hazırlanan şəbəkələrlə bəzənsin... O ki, qaldı bir me'mar kimi mənim şərtimə..."

"— Mən Əbubəkr oğluna inanıram. Və istərəm ki, o da saraya inansın..."

Əcəmi Cahan Pəhləvanla olan söhbəti adda-budda xatırlayandan sonra yenə ürəyindən axıb qulağına axan səsləri dinlədi: "Gərək mənim də abidəm yurdumuzun ulu abidələrinə oxşasın. Elalnı abidəsinə, Ağrı abidəsinə, ey ulu tanrı! Bu, həm də möhür olsun Naxçıvan torpağı üçün. Bu möhür təsdiqləsin ki, Naxçıvan ta qədimlərdən bizim ata-baba yurdumuzdur. Amma bu, səninlə bəhsə girmək deyi, ha! Qoy tikəcəyim abidə əzəmətli Elalnıdan əxz etsin, möhkəmliyi ağrıdan götürsün. Siqləti ona qarşımda açılan bu geniş, bu bərəkətli torpağımız bağışlasın. Qoy günəş səhərlər Elalnının arxasından tülu edəndə, axşam Ağrının arxasına çəkiləndə onun şəfəqləri mənim yaradacağım abidənin üzünü də, məndən sonra yer üzünə gələcək nəvələrimizin, nəticələrimizin, kötükcələrimizin, yaradıcılarımızın, nəticələrimzin maraqla baxacaqları abidənin yanağını da qızartsın, onu qızılı-gümüşü rəngə boyasın.

Əcəmi göylərdən əbəs yerə xeyir-dua istəmirdi. Ona agah idi ki, Hökmdarlar, şahlar adamı asan iş dalınca göndərməzlər. O da agah idi ki, Mö'minə xatun abidəsini tikmək adi iş deyildi,elə əslində adını çəkdiyi ulu tanrı ilə bəhsə girmək idi...

## ANALAR KÖVRƏK OLURLAR

— Olar?

— Buyurun, buyurun... həmişə siz gələsiz. Mənim bacımın əhvalı necədir? — Əcəmi əl verib Cəmillə görüşə-görüşə zəhra ilə salamlaşdı, onun kefini xəbər aldı, hal-əhval tutub qızları soruşdu.

_Dostum Cəliləddin necədi?

— Yaxşıdı, əmisi. — Zəhra cavab verdi.

— Cəliləddin yaxşı baladı, qoçaq oğlandı oğlun, Cəmil. Xoşuma gəlir. Ona gərək yaxşı bir hədiyyə bağışlayam, məndən yadigar saxlasın...

Zəhra bu dəfə kövrək-kövrək dedi:

— Əmisinin sağlığı ən böyük hədiyyədir Cəlaləddin üçün.

Əcəmi giley-güzara keçdi:

— Mən heç güman etməzdim ki, dostumun yadından belə tez çıxa bilərəm... Novruz bayramından sonra biz bir-birimizi görmürük, arayıb-axtarmırıq.

— Haqlısan, Əcəmi. — Cəmil təslim oldu. — Bilirsən ki, qış bu il uzun sürdü. Çörəyimiz və'də başına çatmadı, özümü ora-bura vur-

malı oldum...

Söbət ehtiyacdan düşən kimi Əcəmi kiridi. Gətirdiyi sovqatı yer-yurd eləyən Zəra ərinə tərs-tərs baxdı. Cəmil sözünün ardını demədi. Bunu hiss edən Əcəmi çox ehtiyatla soruşdu:

— Yenə mənim bacım nə əziyyət çəkib?

Cəmil səhvini düzəltməyə çalışdı:

— Bilir ki, sən qoyun qatığını çox istəyirsən. Çox gətirməyib, bircə sərincdi. Bir az da sac lavaşdı... Bilir ki, sən təzə buğdanın lavaşını da xoşlayırsan. Nübardı...

— Deyirəm axı, otaq doldu ətirnən, mənim bacımın əllərinin ətri də üstəlik.

Əcəminin nəzərləri birdən ona maddım-maddım baxan Zəhranın sifətində ilişib qaldı...

— Zəhra da məni neçə dəfə danlayıb ki, Əcuəmi qardaşımızı soruşub-eləmirik. — Cəmil əvvəlki söhbətinə qayıtdı. — Düzünü axtarsan, elə özüm səni istəmirdim narahat edəm. Bilirdim ki, başın qarışıqdı. Elə-belə gizli-gizli orda-burda gedən söbətlərə qulaq asırdım... Məsciddə, karvansarada, kömrükçüxanada, nə bilim, zərgər dükanında, kuzəçi yanında deyilənləri götür-qoy edirdim. Bu günlərdə Came məscidinin qənşərində dəbir Asiman Mirzəyə rast gəldim. O mənə hər şeyi ətraflı danışdı...

Cəmil danışanda Əcəminin xəyalı keçmişə uçmuşdu. Onu buna Zəhra məcbur etmişdi. Dəryanurla görüşdüyü günlərdə, şıltaq, zarafatcıl, deyib-gülən bir cariyyə kimi tanıdığı Zəhra indi yaşa dolmuş, ana olandan sonra xeyli oturuşmuş, sifətinə anlaşılmaz bir mə'sumluq pərdəsi çəkilmiş, gözlərinə hansı bir nigarançılığınsa qayğısı kölgə salmışdı. Ancaq o bu görkəmində bir az gözəl, bir az da cazibədar görünürdü. Anası Badisəbanın bir sözü yadına düşdü Əcəminin: "Qız xeylağı ki, ana oldu, onun sifətinə də başqa bir gözəllik qonur..."

...Cariyyə qız Dəryanurdan sonra baş şeyxin evində qalmaq istəməmişdi, Ev sahibi də hirslənərək onu qarlı- çovğunlu bir qış gecəsində evindən qovmuşdu... Şaxta qılınc kimi kəsən həmin gecə Zəhra nədənsə Cəmilə pənah gətirmişdi. Gomayıllı məhləsinə gedib onun qapısını döymüşdü. Külək qarı sovura-sovura bir yalquzaq kimi küçələri dolaşan həmin gecə Cəmil Zəhraya sidq ürəklə qayğı göstərmiş, sübhə yaxın isə əhd-peyman bağlamışdılar...

Səhərisi məhəllədəki mehrabda mollaya kəbin siğəsi oxutdurandan sonra Cəmil bu kasıb komanın kişisi, Zəhra isə övrəti olmuşdu...

— Asiman Mirzənin danışığından sonra tamam arxayın oldum.

— Cəmil söhbətinə ara verdi, Əcəminin fikrini dağınıq görüb bir müddət dinmədi, ancaq Zəhra Əcəminin ürəyindən keçənləri onun ilk baxışından oxumuşdu. O bilirdi ki, Əcəmi onu hər dəfə görəndə Dəryanuru xatırlayır, uğursuz ilk məhəbbəti üçün içəridən yanıb-yaxılır, havayı ötüb keçən gəncliyinə heyfsilənir...

— Mirzə yenə nə basıb-bağladı?..

Öz aləmində olan Əcəmi sualına cavab almasa da, tə`kid etmədi. Zəhra sağ əlinin şəhadət barmağını dodaqlarına yaxınlaşdırıb cəmilə gizli işarə elədi ki, üstünü vurub bərkinə getmə. Bir az keçsin hər şeyi özü açıb deyəcək. Zəhra düz tapmışdı. Əcəmi əvvəlcə sağ əlinin barmaqları ilə enli qara qaşlarını bir müddət yanlara sığalladı, sonra əlindəki səndəl ağacının ucu ilə gödək qara saqqalını tumarladı.

— Hə, belə-belə işlər. — dedi və birdən elə bil başqa bir aləmdən öz dünyasına qayıtdı: — Anamın qəbrini ziyarət etməyə getmişdim... Axı mən həmişə boynuma çətin bir iş götürəndə ana xeyir-duasına ehtiyac hiss edirəm... Və həmişə də qəbristanlığa gedirəm... Əlayaq çəkiləndən sonra anamın qəbrinin aşağısında böyük bir daş var, onun üstündə otururam... Ürəyimdən keçənləri danışıram, o da mənə xeyir-dua verir... Deyərlər: tale səni dünyanın harasına atsa da, gərək öz beşiyini unutmayasan...

Əcəmi bir dəfə səndəl ağacının ucu ilə alnını sakit-sakit qaşımağa başladı. Zəhra Cəmilə baxdı, elə bil demək istədi ki, neçə ildir dostluq etməyinə baxma, mən Əcəmini səndən az tanımıram. Axı kişiləri, onların ürəyindən keçənləri oxumaq üçün qadın gözlərində başqa bir həssaslıq var...

— Bəlkə... bir də mənimlə gedək? — dedi Cəmil.

— Yox. — Əcəmi e`tiraz etdi. — Xeyir-duanı bir dəfə istəyərlər...

Mən istədim, o da verdi... Səninlə isə... bundan sonra bir yerdə olacağıq... Özü də bilirsən neçə il?... On il, düz on il. Əsrin onda biri... Bu müddəti Cahan Pəhləvan özü tə`yin edib. Zəhranın sifətində ötəri bir təbəssüm göründü. Bunu Əcəmi də gördü, Cəmil də.

Zəhra dinməsə də, ürəyində həm xeyirxah baiskara — Mö`minə xatun anaya, həm də ev sahibinin atasına — Əbubəkr kişiyə dönə-dönə rəhmət oxudu. Axı Cəmil daha iş dalınca düşməyəcək, bir parça çörək üçün bu gün bir kəndə, sabah başqa kəndə, bu gün bir şəhərə, sabah başqa şəhərə ayaq döyməyəcəkdi...

— Bəlkə... çıxıb həyətdə söhbət edəsiz, mən ev-eşiyi bir yığışdıram.

— Zəhra təvəqqə etdi. Onun bu təvəqqəsində bir bacı qayğısı vardı. Bu, Əcəminin xoşuna gəlsə də, öz ev-eşiyində onsuz da xeyli əziyyət çəkən anaya qıymadı.

— Yox, yox, əziyyət çəkmə! — Əcəmi Zəhranın təklifinə qəti e`tiraz etdi.

— Nə əziyyət! Mənim üçün xoşdur, həm də borcumdu... Bacı qardaşa bəs nə vaxt lazımdır? — Zəhra da sözünün üstündə durdu.

"Bacı" kəlməsini eşidən kimi Əcəminin qaşları düyünləndi, fikrə getdi. Qulaqlarında anası Badisəbanın ölüm ayağında dediyi sözlər təkrar olundu: "Səni tək qoyub gedirəm, oğul... Analar əbədiyyət evinə köçəndə bu dünyada qalan övladlarından nigaran olurlar... Bircə bacın olsaydı, qəbirdə rahat yatardım... Bilərdim ki, tək deyilsən... Muğayat olanın var, qeydinə qalanın var, bişirib-düşürənin var... Amma nə eləyim, görünür allah-təala belə məsləhət bilib. Çalış heç olmasa məndən sonra tək-tənha yaşama... Tənhalıq böyük dərddi, oğul..."

— Novruz bayramından qabaq gələndə yığışdırmısan, bəsdi da! — Əcəmi xəyaldan ayrıldı.

— Ay qardaş, o, üç ay bundan qabaq idi. — Zəhra təəssüfləndi və birdən nə fikirləşdisə ərklə əlavə edib dedi: — Bax, deyirəm: bu, ev-eşiyini axırıncı dəfə yığışdırmağımdı!

Cəmillə Əcəmi bir-birinə baxıb gülümsədilər.

Cəmilin xoşuna gələn bu idi ki, Zəhranın məzəmmətini, deyəsən, ev sahibi bu dəfə çox mülayimcə qəbul edirdi...

Həyətə çıxdılar. Hovuz su ilə dolu olsa da, kərdilər çoxdandı ki, suvarılmamışdı.

— Deyəsən, başın daşa-kərpicə o qədər qarışıb ki, gülləri unutmusan? — Cəmil tut ağacına söykənən beli götürdü, hovuzun gilifinə tıxanan kötüyü çəkib çıxartdı, su balaca arxla axıb birinci kərdinin içərisinə doldu.

— Mən gülləri heç vaxt unuda bilmərəm, Cəmil... Güldü, gülüşdü, səsdi, musiqidi, bunlar təbiətin ən böyük mö`cüzələridi. Deyərlər hürdüyünə görə iti qurddan ayırıb hörmətə mindiriblər. Səsinin gözəlliyinə görə gül razı olub ki, bülbül onun başına dolansın... sən kərdiləri suvar, mən də bu yarımçıq işimi qurtarım... Qonşunun uşağına, Rəşidə söz vermişəm. Ona at düzəldirəm... Özü də daşdan. — Əcəmi bir az aralandı və ağacın altında əyləşib balaca daş parçasını tişə ilə

yonmağa başladı.

Cəmil suyu ikinci kərdiyə ötürdü, çənəsini belin sapına söykədi, burula-burula axan suya tamaşa etməyə başladı. Cəmilin də dünyada ən çox xoşuna gələn şey su səsiydi... Onun da yadına ev sahibinin anası düşmüşdü. Görünür, bu da səbəbsiz deyildi. Bu balaca, ancaq səliqəli həyətdə hər şey Badisəbadan danışırdı, otaqda olan hər şeydə Badisəbanın nəfəsi duyulurdu. Divara vurulan əlvan naxışlı xalçanın ilmələrində isə elə bil Badisəbanın qayğılı gözlərinin işıqları ilişib qalmışdı...

Suya baxa-baxa xəyala getdi.

...Badisəba dulus e`malatxanasına girəndə Cəmilin başı öz işinə qarışmışdı. O, palçığı əlində müxtəlif şəkillərə sala-sala yoğurur, gomayıllı cavanların toylarda tez-tez oxuduqları qədim bir mahnının havasını öz-özünə zümzümə edirdi. Mahnının sözlərini adda-budda bildiyindən çox yerdə özündən toxuyur, hətta yerli-yersiz Zəhranın adını da mahnıda vəsf olunan kəkliyin adı ilə əvəz edirdi: "Zəhra harda? Qayada. Ay Ərzüman, Ərzüman..."

Badisəba qapının çərçivəsinə söykənib oğlunun yaxın köməkçisi və səliqəli şagirdinə xeyli qulaq kəsildi, onun sadə peşəsinə ürəkdən bağlılığından fərəhləndi, xoşu gəldi.

— Sabahın xeyir, oğul...

Cəmilin bütün fikri-zikri ilk baxışdan könlünə yatan cariyə qızın — Zəhranın yanında olduğundan Badisəbanın sözlərini eşitmədi. Badisəba bir az da irəli gəlib sualını təkrar etdi.

Cəmil əlini işdən çəkdi, ustanın anasını başı üstə dayanan görən kimi cəld ayağa qalxdı, tə`zim edib ədəblə dedi:

— Xoş gəlmisən, Badisəba ana, sabahın xeyir olsun.

Badisəba dinmədi. Cəmil cəld küncdəki narbənd kötüyünü götürüb e`malatxananın pəncərəsi qarşısına qoydu, palaz parasını üstünə saldı:

— Əyləş, Badisəba ana...

Badisəba keçib oturdu və nəfəsini dərəndən, e`malatxananın içərisini diqqətlə nəzərdən keçirəndən sonra bir az ərklə, bir az da nigarançılıqla xəbər aldı:

— Sən bilirsən ki, dostun bu gecə evə gəlməyib?

Cəmil guya diksindi və birdən bic-bic qımışdı.

Badisəba başını qaldıran kimi Cəmilin sifəti ciddi bir görkəm aldı.

— Badisəba anaya deməyib hara gedəcək?
— Xeyr, deməyib... Mən də bərk narahat olmuşam...
— Usta ki uşaq deyil...
Badisəba onun sözünü kəsdi:
— Mənim üçün uşaqdı... Ana həmişə anadı, oğul. Övladı lap saqqalı
kişi olsa da, onun üçün uşaqdı. — Badisəba yavaş-yavaş başını yırğaladı, yanaqlarına tökülən ağ saçlarını yanlara sığallayıb kəlağayısının altında gizlətdi.
— Deyəsən, Badisəba ana doğrudan da narahat olub axı?
Allah təala heç kimi dilə-dişə salmasın... Uşağımı dilə-dişə salıblar... Bir neçə gündü bütün şəhər əhli şeyx Hatibin padşaha bağışladığı hədiyyədən danışır. Hamıya da aşkardı ki, hədiyyəni sənin ustan düzəldib, onun əməlidi... Qorxuram bu xəbər onun bədxahlarının sayını çoxalda.
Cəmil özünü saxlaya bilmədi:
— Nənəm deyər "Ay mənnən olandan sonra, barmağım ulduzların gözünə". Bir halda ki, hədiyyə padşahın xoşuna gəlib, başqaları ha atılıb-düşsünlər, bədxahlıq özlərinə qalacaq! İnan bu gomayıllı balasına, Badisəba ana!..
Badisəba suala sualla cavab verdi, özü də ötkəm səslə:
— Bədxah padşahın özü olsa, necə?
Cəmil onu başa düşmədi, dostunun anasını bu dəfə təəccüblə başdan-ayağa bir də süzdü: "Bu nə danışır?.. O gözəllikdə hədiyyə alan atabəy Şəmsəddin niyə ustadan bədgüman olsun?... Deyəsən nənəm bunu da düz deyir ki, adam qocalanda ağlı yerindən xamxəyala düşüb?..."
— Nə dediniz, Badisəba ana?
— Deyirəm bədxah padşahın özü olsa necə? Eldəgöz Şəmsəddin... Padhaşların gözü əzəldən rəiyyətin yaxşı işini götürməz.
— Orası elədi...
Badisəba bu dəfə gözlərini qıyıb xəbər aldı:
— Bilirsən rəis kor Əhsənə niyə qəsd edib?
— Yox... bilmirəm.
— Rəisin çox ədəbsiz bir əməlini görüb... Bağışla ha, sən də mənim bir oğlum... Dili dinc durmayıb, gedib nökərlərdən birinə deyib, o da birinə... Axırda gedib rəisin ən yaxın adamlarından birinin qulağına çatıb... Şeytan da ölməyib ki... Həmişə bizim aramızdadı, kölgə-

miz kimi bizimlə qarabaqara gəzir... Rəisin yaxın adamı da bir gün qoyub rəisin ovcuna... Rəis də hayıf almaq istəyib. Guya şəhərdə şuluqluq salır deyə başından necə vurubsa gözlərinə qara su yenib. Sonra da deyib: "Allahdı, padşahdı, bunların pis işi aşkar olmamalıdı, onu heç kim görməməlidi, görsə də özünü vurmalıdı görməzliyə. Binəva Əhsən də həmin gündən qapanıb komasına. Səhər çalır, axşam çalır. Camaat əl tutmasa acından ölər... Hə, oğul, böyüklərin əməlindən fələyin özü də baş çıxara bilmir. Dünyanın işləri olub nağıl!..

Badisəba bu dəfə gözlərini yumub başını xeyli silkələdi. Cəmilə elə gəldi ki, onun fikri yayındı və oğlunun gecə harada olduğunu unutdu. Bir azdan sonra ayağa durdu. Badisəba hazır kuzələrdən birini götürüb xeyli baxdı və yenə dərindən ah çəkib qapıya tərəf addımladı.

— Gedirsən, Badisəba ana?

— Hə... arxayın oldum... Sağ ol, oğul, məni nigarançılıqdan qurtardın, amma dostun gələndə de ki, bir evə dəysin.

— Mən ki onun harada olduğunu...

Badisəba onun sözünü kəsib barmağını silkələdi:

— Bilirsən, əlbəttə, bilirsən. Mən deyəndə ki, Əcəmi gecə evə gəlməyib, sən heç narahat olmadın. Bəs necə dostsan onda? Ona görə narahat olmadın ki, bilirsən harada olub gecə... Mən Əcəminin anasıyam ha, gomayıllı balası!..

Badisəba e`malatxanadan çıxdı, Sarbanlar meydanına sarı getdi, sonra sola burulub gözdən itdi. "Əcəmi kimi oğulları elə belə analar doğa bilərlər".

O, ustadı barədə fikirlərini götür-qoy edib qurtarmamışdı ki, Əcəmi gəldi. Şagird ustasına baxıb həmişəki kimi yenə bic-bic qımışdı. Əcəminin sifətində xoş bir təbəssüm görünsə də, yuxusuz və dalğın gözlərindəki yorğunluq dərhal özünü büruzə verirdi.

— Sabahın xeyir, Cəmil.

Camil köks ötürdü:

— Sənin də xoş keçən gecədən sonrakı ilk sabahın xeyir olsun, usta... Zəhranı da gördün?

— Xeyr, bu dəfə gözə görünmədi... Zəhra ağıllı qızdı, Cəmil... Dost, heç bilirsən həyat nə gözəl şeymiş!..

— Baxır kimə... hələ ki, mən həyatın gözəl olduğunu görməmişəm, usta...

Əcəmi şagirdlə söz güləşdirmək istəmədi:

— Görərsən, vaxt çatar, görərsən! İndi isə iş başına!

— Usta, əvvəlcə... bir evə dəyin, sonra...

— Nə olub ki?

— Narahat olma... heç nə olmayıb... Badisəba ana gəlmişdi... Arvadı da narahat etmisən, usta!.. Badisəba ana təkdi dünyada... Adının yanında "xatun" sözü olmasa da, yüz xatuna, min xatuna dəyən anadı sənin anan, usta!..

...Elə bu vaxt Zəhra qapıda göründü.

— Hə, indi buyura bilərsiz.

Cəmilin çənəsini söykədiyi bel əlindən çıxıb gərdəninin içərisinə düşdü və o, dərhal xəyaldan ayıldı...

Əcəmi də yonduğu az əqiq daşını tut ağacının haçasına qoyub əllərinin tozunu təmizlədi.

— Nə yaman fikrə getmişdin? — Soruşda Cəmildən.

Cəmilin cavabı çox qısa oldu:

— Heç... elə-belə...

Hər ikisi otağa keçdi. Zəhra səliqəli bir süfrə açmışdı...

## OVDA

Cahan Pəhləvan bu dəfə ova az damla çıxmışdı. Məqsədi son vaxtlarda hiss etdiyi baş ağrılarını yüngülləşdirmək, dağ havası ilə nəfəs almaq, sarayın dedi-qodularından uzaqlaşmaq, Həmədandan gələn bəd xəbərləri bir günlüyə də olsa unutmaq idi.

Sə'dəddin Əsəd hökmdarın niyyətindən xəbər tutan kimi ona Əlincə tərəflərə getməyi məsləhət bilmişdi. Bu yerlərin təmiz havasından, sərin bulaqlarından, müxtəlif rəngə çalan dağlarından bildiklərini, eşikdiklərini təkrar-təkrar nəql edəndən sonra "Əlincə qələsinə bir də baxarsız, bəlkə sizin razılığınızla gələcəkdə beytülmalı oradan köçürməli olduq" demişdi. Cahan Pəhləvan da vəzirlə razılaşmış, sübh tezdən, hələ günəş öz camalını Elalnı dağının arxasından göstərməmiş özü vəzirin boz ayğırına minib qalan atlara da gündoğara tərəf sürməyi əmr etmişdi. Və tapşırmışdı ki, nə tula lazımdı, nə də qızılquş. Bu o demək idi ki, onların ovda boynuna düşən vəzifələrini ya nədim[1] icra edəcək, ya Xəlil, ya da onların özləri ilə götürdükləri iki nəfər cavan mühafiz. Sə`dəddin Əsəd hökmdarın belə bir hey`ətdə ova çıxmasını eşidəndə narahat olmuşdu. "Mən bu gün ova hökmdar kimi yox, ovçu kimi, Şəmsəddin kişinin oğlu Nüsrətəddin kimi gedirəm..." sözlərini eşidəndən sonra vəzir saray sahibinə heç bir e`tiraz etmədən evi-

1 Һөкмдары овда мүшајиәт едән сарај хидмәтчиси.

nə qayıtmışdı. ...Açıq havada, yayın ortaları olmasına baxmayaraq, yaşıllığını hələ hifz edib saxlamış otların üzərində əlvan bir xalça açılmışdı. Xalçanın üstünə döşəkçələr, balaca mütəkkələr düzülmüşdü. Yaxında çatılan mamırlı daş ocağa quru kötüklər qalanmışdı. Dəbir əti doğrayır, Xəlil şişlərə düzür, mühafizlər ocağa qulluq edir, Nədim şişləri əlində tutub odun sönməsini gözləyirdi.

— Bir az becid ol, nədim... Kötüklər yandı, indicə közə düşəcək. — Dəbir dilləndi.

— Düşən kimi, döşəyəcəyəm. — Nədim cavab verdi. — Qoy bir az da sönsün, yoxsa yandırarıq... Bilin ki, bu quzu Səlmas alması ilə bəslənən quzulardandı, gərək his tamam çəkilə, yoxsa hökmdarı inandıra bilmərik ki, quzu doğrudan almaynan bəslənib. Saray sahibinin iştəhasına sən ki hamıdan çox bələdsən. Özün də bilirsən ki, onu aldatmaq olmaz, o hər şeyi ağzına vuran kimi təmini bilir. — Nədim Xəlilə göz vurub bic-bic güldü və ehtiyatı əldən verməyərək yaşıl dikdirə qalxıb oradan uzaqları — pəhləvanlar kimi çiyin-çiyinə verib nizamla dayanan dağları, topa-topa ağ buludlara bürünən açıq səmanı seyr edən Cavan Pəhləvana baxdı.

— Adə, az qaldın yandırasan ki, kababı! — Xəlil cəld əlini atıb şişləri ocağın üstündən götürdü, yerə salınmış xalçaya tərəf qaçdı.

— Ə`lahəzrəta, kabab hazırdı, soyuyar, təmini itirər! — Süfrəni açıb əlindəki şişləri ağ lavaşın içərisinə sivirdi. Sonra qaçıb yaxındakı bulaqdan şərab dolu ibriqi gətirdi, üstünə şəffaf mina çəkilmiş saxsı badələri süfrənin üstünə düzdü. — Bəh, bəh, nə hökmdar xörəyidi! Nə hökmdar şərabıdı!.. Səlmas alması ilə bəslənən quzu kababı, rəzzadi üzümündən hazırlanan şərab... Heyf ki, şərabı paylayan bir nazlı-qəmzəli...

— Dilini dinc qoy.

Bir diz böyrünə vuranda Xəlil cəld yana çevrildi, başının üstündə hökmdarı görəndə kidi, buranın saraydakı darül`eyş yox, Əlincə düzənliyinin bir çəmənliyi olduğunu xatırladı, vəziyyətdən tez çıxıb dilini işə saldı:

— Ə`lahəzrəta, necə demişdinizsə süfrəni eləcə sadə açmışıq... Ovçu süfrəsi kimi, kəndlivarı. — Xəlil səsini xüsusi bir ahəngə salaraq ucadan əlavə etdi: — Alimənsəbin hər bir hökmünə can-başla əməl etmək onun müti qulu olan bizim üçün həmişə şərəfdir. Bihəmdullah, adillik də sizdədir, bazillik də!..

Hökmdar onun mədhiyyəsinə əhəmiyyət vermədən soruşdu:

— Bəs onda bu badələr nəyə gərəkdi? — Süfrəyə düzülən badələri bir-bir götürüb uzağa, otların arasındakı daşlara tərəf tulladı. Badələr çilik-çilik olub ətrafa dağıldı. Nədim də, mühafizlər də diksinən kimi oldular. Çörəyə əl uzatmamış ortaya pərtliyin düşəcəyindən, hökmdarın əsəbiləşəcəyindən ehtiyat etdilər. Xəlil tez yerindən sıçrayıb yaxındakı qab-qacaq yığılan xurcunlara sarı qaçdı və əlində bir neçə saxsı badə geri qayıtdı:

— Ə`lahəzrətə, siz allahın bəndəsi Xəlili o qədər də ehtiyatsız bilməyin... Mən həm şirli badə gətirmişəm, həm də saxsı... Axı rəvadırmı ki, aləm-pənah belə bir badəni...

— Bəri ver! — Cahan Pəhləvan saxsı badənin birini ondan alıb içərisinə şərab süzdü. — Bu başqa məsələ! Götürün içək! — İşarə edib kənarda farağat dayanan mühafizələri də yanına də`vət etdi. Mühafizlər bu gözlənilməz də`vətdən az qala özlərini itirdilər, əvvəlcə bir-birinə, sonra Dəbirə, Nədimə baxdılar. Dəbir işarə elədi ki, əmrə tabe olun və əyilib qulaqlarına pıçıldadı ki, özünüzü ədəb-ərkanlı aparın.

Xəlil yenə diliuzunluq etdi:

— Eldəgəzlər xanədanının şərəfinə!..

— Ə, İsfahan lotusu, səhər saraydan çıxanda demədim ki, bu gün ova hökmdar kimi yox, Şəmsəddin kişinin oğlu Nüsrətəddin kimi gedirəm? — Cahan Pəhləvan yekə əli ilə onun başına bir qapaz saldı.

Gülüşdülər... Və tez də özlərini ələ alıb kiridilər.

— Dəbir bu gün danışmır? — Cahan Pəhləvanın səsində irad var idi...

Dəbir saray sahibinin eyhamını tez başa düşdü, özünü şən göstərməyə çalışaraq dedi:

— Möhtərəm və həşəmətli Şəmsəddin oğlu Nüsrətəddin... mən istərdim ki, bu ilk badələri sizin süfrənizin şərəfinə qaldıraq, qoy süfrəniz bizim bu Əlincə çölləri kimi ürəkaçan, bu yerlərin havası kimi təmiz olsun. Süfrənizin başında da, sarayda da, cədəlgahda da, üstəlik, hərbigahda da həmişə yanınızda övladlarınızı, dostlarınızı görəsiniz.

— Bax, bu ayrı məsələ! Sağ ol, Dəbir! İçdik...

Hökmdarın buyuruğuna görə sonrakı sağlıqları da Dəbir dedi:

...Cahan Pəhləvan süfrəni yığ-yığış eləməyi Xəlilə tapşırandan sonra boz ayğıra tərəf getdi. Elə bu vaxt Əlincənin dikdirində bir ceyran görünüb qeyb oldu. Nədim çığırdı:

— Ceyran!..

Cahan Pəhləvan bir göz qırpımında boy ayğırın belinə qalxdı və

Əlincənin arxasındakı qayalıqlara tərəf çapdı. Axı saraydan çıxanda Zahidə xatuna demişdi ki, Cəlaliyyə üçün özü mütləq ceyran vurub gətirəcəkdi. Hələ sübh tezdən Əlincə düzlərinə qədər uzanan yollardan keçərkən, dərələrə enərkən, gədiklərdən aşarkən övladlığı dovşanları, kəklikləri, turacları hesaba almayan Cahan Pəhləvan kamanla bircə ox götürüb dağlara tərəf dırmanan ceyranların dalınca düşdü. Bir azdan ceyranlardan biri sürüdən ayrılıb qarşıdakı gədiyə dırmandı və yox oldu.

Süvari isə əl çəkmədi... Dırmanıb enmək, enib dırmanmaq çox uzandı...

Boz ayğır da elə bil bu gün belində "adi ovçu" gəzdirdiyini hiss edir kimi yorulmaq bilmir, getdikcə qızışırdı. Sıldırım qayaların arasındakı dar keçidə çatanda qarşıdan at kişnərtisi eşidildi. Cahan Pəhləvan atın yüyənini çəkdi, boz ayğır əvvəlcə dartındı, sonra tabe olub dayandı. qənşərində qızılı köhlənin üstündə bədəncə o qədər də gümrah olmayan iti baxışlı, sarışın bənizli bir süvarini görəndə nədənsə kefi pozuldu. Elə bil oxlov udub atın üstündə çox şax dayanan süvari qabağa düşüb dedi:

— Sən bizim bu dağlara xoş gəlmisən hökmdar!..

Cahan Pəhləvan razılıq etmək əvəzinə, bir azsərt və bir az da ötkəm səslə soruşdu:

— Sən kimsən?

— Mənim babalarım bu Əlincə düzlərində həmişə ilxı otarıblar, bu dağlarda naxır, qoyun-quzu bəsləyiblər.

— Yaxşı, bunu bildik... Bəs haradan bilirsən ki, mən hökmdaram. — Cahan Pəhləvan atın yüyənini özünə tərəf sıxdı, boz ayğır şahə qalxdı.

— Hökmdarını tanımaq, ona itaət etmək rəiyyətin borcudur. — Süvari də atını şahə qaldırdı.

— Rəiyyət axı qılınca qurşanmaz!

— Ehtiyat igidin yaraşığıdır.

— Bəs onda qalxanın hanı?

— Hökmdar, mən yaxşı bilirəm ki, qılınc nədən ötrüdür, qalxan nədən ötrü. Mənə hansı gərəkdir, onu da gözəl bilirəm. Kimə qılınc, kimə qalxan gərəkdir, ondan da başım çıxır... Bil, agah ol, mənim qalxana heç vaxt ehtiyacım olmayıb... Atam deyərdi ki, qılınc əsil kişi əlində olanda qalxana ehtiyac qalmır. Cahan Pəhləvan onun səsindəki kinayəni, sifətindəki gizli rişxəndi dərhal başa düşdü, atın yüyənini yenə arxaya dartdı. Boz ayğır yenə şahə qalxdı. Süvarinin atı da hökmdar

atının hərəkətlərini elə bil təkrar etdi, üstəlik, onun atının kişnərtisi sərt qayalara dəyib əks-səda verdi, əvvəlcə cingildədi, sonra bir uğultuya çevrilib tədriclə əriyib batdı. Bu, Cahan Pəhləvanın xoşuna gəlmədi. Niyə də gələydi, tanımadığı, ağlına gətirmədiyi bir kəndli qəfildən qabağını kəsib ona meydan. oxuyurdu...

— Hökmdarın qabağını kəsməkdə məramın nədir?

— Təzə hökmdarla tanış olmaq istəyirəm... ona bir-iki kəlmə kişi sözü demək üçün! — Süvarinin "kişi sözü" atının kişnərtisindən də güclü əks-səda verdi. Cahan Pəhləvana elə gəldi ki, bu iki kəlməni bütün qayalar, dərələr təkrar etdi. Elə bu anda ova tək çıxmağı ona rəva görməyən vəzirə ürəyində haqq qazandırdı.

— Bəs onda niyə dayanmısan, uluc oğlu.[1] — Cahan Pəhləvan birdən hirslənib əlini qılıncına atmaq istədi, gördü, yoxdur, birdən çiynindən asdığı sadaqdan oxu götürüb kamanın çilləsinə qoyması və atması bir oldu. Süvari də həmin anda qızılı köhlənin yalına sindi. Ox onun başı üstündən keçib qayanın sərt daşına dəydi, parça-parça olub yerə töküldü.

— Hökmdar, hələ ki ox atmağa ehtiyac yoxdur. Bir də ədəbli danış... Kişi kimi!..

Cahan Pəhləvan süvarinin yekəxana danışığına və laqeydliyinə daha dözə bilmədi, özündən çıxıb bağırdı:

— Onda niyə dayanmısan, görmürsən əliyalınam!..

— Səni hamı ehtiyatlı...

— Uzun danışma! — Cahan Pəhləvan süvarinin sözünü yarımçıq kəsdi.

— Yaxın gəl, görürəm, belində qılıncın var...

— Yox, hökmdar. — Süvari kinayəli-kinayəli güldü. — Məni o qədər də namərd bilmə... Mən silahsız kişinin üstünə əl qaldıran namərdlərdən deyiləm. Hələ qənşərinə çıxdığım hökmdar ola! Mən adi quldura rast gələndə belə, silahı olmasa ona silah verdirirəm, yaxud özüm verib sonra vuruşuram. Yoxsa nakişilik, namərdlik eləsəm başıma bu dağlarda heç kim cəm olmaz... Biz bu dağlarda hələ ki, beş-on nəfərik. Amma biz çox olmalıyıq... Bu dağlarda başıma çoxlu igid toplayıb kasıb-kusubun haqqını müdafiə edəcəyəm, namusunu qoruyacağam!..

— Kimdən qorumaqdı niyyətin?

— Biz daha dözə bilmirik ki, kəndinin bir parça çörəyini əlindən alsınlar, vergi əvəzinə onların qızlarını zorla çəkib aparsınlar... Düz-

1 Кәндлијә ришхәндлә мүрачиәт формасы.

dür, səni bu yerlərdə, xilafətdə cahanın pəhləvanı kimi tanıyırlar. Amma mən adicə bir kəndli balasıyam, çoban oğluyam... Gələcəkdə onunla öyünərəm ki, qəbrimin üstünə gələnlər deyələr: burada yatan Cahan Pəhləvanla döş-döşə gələn çoban Eldar Bəhmənin oğlu Əlidi...

— Hansı Əli? — Cahan Pəhləvan boz ayğırın yüyənini boşaltdı, yəhərin üstündən qabağa əyilib keçidin o biri başında dayanan süvariyə bir də diqqətlə baxdı. Elə bu dəmdə onun xəstə Mö`minə xatun anaya təzəcə doğan ceyran tutub gətirməsi yenə də yadına düşdü.

— Bəli, hökmdar həzrətləri! Mən həmin Əli Şimşəyəm... Daha səbir kasamız daşıb, tükənib. Dağlara çəkilməkdən, bu dağlara sığınmaqdan, əlimizə qılınc götürməkdən başqa çarəsiz qalmayıb... Görürsən, hökmdar. Əlincə qalasını? Bil və agah ol ki, biz "Əlincə", "alınca", "ölüncə" sözlərini bir-birindən ayırmırıq. Əgər bizim üstümüzə qoşun çəkib Əlincəyə gələn olsa, onlar Əlincəni alınca, biz də vuruşacağıq ölüncə!.. Bu dar keçiddə hökmdar qənşərinə çıxmaqda bir ricam var: qız-gəlinin xəlifəyə hədiyyə göndərilməsini dayandırın. Cahan Pəhləvan boz ayğırın üstündə bir an fikrə getdi və ucadan dedi:

— Bilsəydim xanəgahlı qızların sənin kimi igid qardaşları var, mən onların xəlifəyə göndərilməsini rəva bilməzdim... Əmr edərəm geri qaytararlar...

— Gecdir, hökmdar!... Əgər sağ qalsaydı o qızlar, biz özümüz bu qılıncla onları qətlə yetirərdik, amma onlar özləri özlərini cəzalandırıblar. Mərənd bağlarında onlara dinclik verəndə gecə hamısı özünü asıb... Bir gün gələr, görüşərik...

Əli Şimşək bir göz qırpımında yox oldu. Cahan Pəhləvan fikirləşdi: "Mərhəba sənə, ey xalqım. Tə`rif edəndə də, lə`nət deyəndə də nə qədər ağıllı olursan. Ad qoyanda da, ayama deyəndə də bu sərrast deyimləri haradan tapırsan?.. Bu kəndli oğlu həqiqətən elə bil şimşəkdi — bir anlığa çaxdı da, söndü də..."

Cahan Pəhləvan Mərənddə qızların özlərini meyvə ağaclarından asmaları barədəki söhbəti ötən il Reydə eşitdiyini təfərrüatı ilə yadına salmağa çalışdı, çünki o vaxt bu xəbərə o qədər də əhəmiyyət verməmişdi... Niyə də verəydi, axı qul, kəniz aparan karvanlarda belə hallar həmişə adi iş hesab olunurdu...

Cahan pəhləvan bir müddət boz ayğırın üstündə quruyub qaldı, atı əvvəlcə irəli sürdü, sonra yüyəni dartıb geri döndərdi. Hələ də ayırd edə bilmirdi ki, bu dar keçiddə görüb eşitdikləri həqiqət idi, yoxsa yuxu...

Bir də axı, qəfil süvarinin dediyi üç kəlmə söz onun qulaqlarını deşib beyninə işləmişdi: "Əlincə, alınca, ölüncə..."

Cahan Pəhləvan əvvəlki yerinə qayıdanda gördüklərinə inanmadı: nədim kötüyün üstündə başı sarıqlı oturmuşdu, sol əli də qanlı əsgiynən sarınmışdı. Yerə uzanıb balaca xalçanı üstünə çəkən Xəlil, siçan deşikdən baxan kimi, oradan oğrun-oğrun baxırdı. Dəbir mühafizlərlə bərabər öldürülmüş pələngin dərisini soyurdu.Cahan Pəhləvan hələ onlara çatmamış nədim ayağa qalxdı, səndərləyə-səndərləyə gedib onun atının yüyənini tutdu, Xəlil də sürüşüb xalçanın altından çıxdı, qaçıb boz ayğırın üzəngisini aşağı dartdı. Dəbir də, mühafizlər də işdən, ayrıldılar. Heç kimin dili söz tutmadı, təkcə Xəlil "ə`lahəz..." deyib susdu. Dəbir baş verən hadisəni qısaca olaraq nəql etdi...

...Cahan Pəhləvan atını dördnala çapıb ceyranı qovandan bir az sonra yaxındakı böyük sal daşın dalından cavan bir pələng çıxıb onlara hücum etdi. İlk süpürlədiyi nədim oldu. Qalanları nə edəcəklərini kəsdirincə qarşıdakı təpənin arxasından qızılı kürən minmiş bir süvari göründü. Əvvəlcə uzaqdan atdığı ox nədimi süpürləyən pələngin bir gözünə sancıldı. Süvari yəhərdən yerə sıçrayıb qılıncını çəkdi, arxaya qanrılan pələngin ağzını, üz-gözünü şil-küt elədi, yerə sərilən pələngin boynunu dizinin altına aldı, barmaqlarını burnuna keçirdi, belindən xəncəri çəkib başını kəsdi. Bütün bunlar bir an içərisində baş verdi. Hadisə yerində olanlar özlərini düzəldənə kimi süvari yenidən qızılı kürənin üstündü göründü. "Hökmdarınıza deyin ki, sizi burada tək-tənha qoyub atını ceyran dalınca qovmasın. Əlincə ətrafında indi pələng, aslan çox olur... "Sonra bir göz qırpımında atını çapıb təpənin dalında itdi...

Xəlilin də, nədimin də, mühafizlərin də heyrətdən ağızları açıq qalmışdı...

Ancaq qəfil süvarini hökmdar da tanımışdı, dəbir də...

***

Yaxından eşidilən bir mahnı Cahan Pəhləvanı xəyaldan ayırdı. Səs yaşıl bir təpənin arxasından gəlirdi. Kimsə cingiltili bir səslə oxuyurdu: "Ay at, sənin yalmanına yataram..." Onlar dar cığırla təpənin arxasına keçən bir ilxıya rast gəldilər. Hökmdar əl eləyib oğlanı yanına çağırdı, ilxının kimin olması ilə maraqlandı.

— Elin, obanın, ay baba. — İlxıcı zümzüməsini kəsdi.

— Onları niyə bir yerə toplamısız?

— Bu gün bir yerə toplamışıq, sabah lazım olsa evlərə paylayacağıq. Hərəsinin üstündə də bir igid oturacaq.

— İgid axı, ata əliboş minməz?..

— Əliboş niyə, ay baba? — İlxıçı ağ qoyun dərisindən tikilən tüklü papağını qaşları üstünə endirdi, əlindəki çomağını kürəyinə söykəyib enli sənəsini irəli verdi.

— Yoxsa qoşun düzəltmisiz? — Bunu Nədim dedi.

— Lazım gəlsə düzəldərik... Qoşun düzəltmək nə çətin işdi ki, — İlxıçı bu dəfə çox sərt cavab verdi, dəyənəyi kürəyindən çəkib yerə dayadı və çənəsini də əlinin üstünə qoydu. İri gözləri ov üstünə şığımağa hazırlaşan qartal gözləri kimi alışıb yandı.

Cahan Pəhləvan pərtliyini unudub güldü.

— Xoşuma gəldin, diribaş oğlansan!.. Yaxşı, tutaq ki, birdən qoşun düzəltdiniz, bəs onda qoşunun böyüyü, sərkərdəniz kim olacaq?

— Ulu dağlar, azman qayalar! — İlxıçı başını çiyni üstündən arxaya çevirib əli ilə dağları, qayaları göstərdi.

— Öz içərinizdə kişi yoxdu ki, dağa, qayaya bel bağlayırsız?

— Niyə yoxdu, var!

— Kimdi?

— Əli Şimşək!

Cahan Pəhləvan alındı, bir az bundan əvvəl dar keçiddə onun dediyi sözləri xatırladı.

— Çoban Eldar Bəhmənin oğlu nə vaxtdan sərkərdə olub?

— Çoban Eldar Bəhmən çoban olsa da, kişi olub, özü də namərd yox, mərd kişi!

— At qabağına düşüb getmək meylin var yoxsa? — Xəlil söz atdı.

— Hər at döşünə düşən igidi ölmüş bilməyin! — İlxıçının bu dəfəki cavabı da sərt oldu. — Bizim nəsil isə düşmənlə həmişə üz-üzə gəlib, döş-döşə dayanıb, kürəyini yox, sinəsini qabağa verib... Bir də ki, indi gərək heç kimə bel bağlamayasan, zəmanə xarabdı...

Cahan Pəhləvan dönüb Nədimə baxdı və nə fikirləşdisə əmr etdi:

— Əl-qolunu bağlayın!.. Deyəsən, dili çox uzundu...

Nədim də, mühafizlər də tez atdan yerə sıçrayıb ilxıçıya hücum etdilər, xeyli əlbəyaxa olandan sonra güc-bəla ilə onu yerə yıxıb əllərini dalında bir-birinə çatdılar. İlxıçı ayağa qalxdı və çox soyuqqanlılıqla:

— Bu ki kişilik olmadı!.. Kişi təkbətək vuruşar...

— Açın qollarını. — Cahan Pəhləvan gülüb başını yırğaladı.

İlxıçının qollarını açan kimi Xəlilə hücum edib bir göz qırpımında onu yenə vurdu, sonra mühafizləri növbə ilə dizinin altına aldı...

Cahan Pəhləvan bu dəfə qəhqəhə çəkib güldü.

Nədim hökmdarın qənşərinə yeriyib ona nəsə pıçıldadı:

— Əli Şimşəyi şəxsən tanıyırsan? — Hökmdar ilxıçıya tərəf döndü.

— Onu kim tanımır ki?

— Bəlkə qohumundu?

— Bəli.

— Nəyindi?

— Qardaşım.

— Qardaşın?! Lap doğmaca?

— Bəli, lap doğmaca.

— Neçə qardaşı var Əli Şimşəyin?

— Ha çox! Sayı-hesabı yox... Ətraf kəndlərdəki igidlərin hamısı onu

özünə qardaş bilir.

— Bəs doğma qardaşı neçədi?

— İki.

— Sən böyüksən?

— Xeyr.

— Onda sən kiçiksən?

— Xeyr.

— Bəs bu necə ola bilər?

— Bunu bilməyə nə var? — İlxıçı ucadan güldü. — Ekizik.

Cahan Pəhləvan boz ayğırın yüyənini dartdı, at şahə qalxıb geri çəkildi. Hökmdarın nədənsə birdən xoşuna gəldi ilxıçı. Ürəyindən keçdi ki, belə oğlanlar qoşunda əsgər, sarayda mühafiz ola bilərlər.

Birdən amiranə səslə dedi:

— Xoşuma gəldin... qoçaq oğlansan! Gəlsənə səni saraya aparaq, hökmdardan rica edək orada sənə qulluq versin.

— Özünü bilən də saraya yaxın duşər?.. Kişi niyə dörd divar arasında oturur? Mən bu ulu dağlardan, yaşıl dərələrdən, günəşli çöllərdən bir gün də ayrı yaşaya bilmərəm!

— Yaxşı, bəs qardaşın indi harda olar?

— Hansı?

— Əli Şimşək.

— Dağlarda. — İlxıçı gündoğar tərəfə baxdı. — O qəlbi dağlar-

da, pəhləvanlar kimi çiyin-çiyinə verən dağlarda...

— Hə, başa düşdüm. — Cahan Pəhləvan yarıciddi, yarızarafatla ilxıçıya razılıq etdi: — Bəlkə birdən dağlarda yaxası ələ keçdi?

— İgidlərə, el-oba qeyrəti çəkənlərə ölüm yoxdur, ay baba!.. Onlar öləndən sonra da yaşayırlar. — İlxıçı əlini ürəyinin üstünə qoydu.

— Bax, burada, adamların ürəyində. Adları həmişə yamanlığa yox, yaxşılığa çəkilir.

— Hə, bunu da başa düşdüm. — Hökmdar əvvəlki sözünü təkrar baxdı.

— Sənə çox şükür! — İlxıçı göyə yox, Şərura tərəf enən günəşə baxdı.

Cahan Pəhləvan daha heç nə demədi.

Yola düzəldilər. Təpəni təzəcə burulub arxasına keçmişdilər ki, ilxıçının zil səsi yenə qayalara dəyib əks-səda verdi. O bu dəfə daha ürəkdən oxuyurdu: "Ay at, sənin yalmanına yataram..."

Cahan Pəhləvan boz ayğırın üstündə fikrə getmişdi, xəyal onu çəkib neçə-neçə illərin arxasına aparmışdı.

...Belə bir vaxtda atası Şəmsəddin Eldəgəzlə ovdan qayıdırdı. Atabəy-ə`zəmin kefi kök idi. Demetreni məğlub edəndən sonra hökmdar birinci dəfəydi ki, ova çıxmışdı. Ovdan qayıdanda yolunu Xanəgah kəndindən salmışdı. Məqsədi bu idi ki, bu yerlərdə qəddarə[1] çəkməkdə ad-san çıxarmış dəmirçini Naxçıvana də`vət etsin. Dəmirçini hökmdarın hüzuruna gətirdilər. Cavan dəmirçiylə atabəy-ə`zəm arasında sual-cavab başlandı:

— Ya atabəy, bilin və agah o lun ki, mən sizin fərmanınıza əməl edə bilmərəm. Mən bu yerlərə öyrənmişəm...

— Mən səni zindana saldıraram.

— Bilirəm... hökm sahibisiniz.

— Şəhərə gəlib qəddarə çəkməlisən, vəssalam!

— Yox, gələ bilmərəm...

Cavan dəmirçi sözünün üstündə bərk dayansa da, başını çiyinləri üstündə saxlaya bilmədi...

Bu əhvalat baş verən zaman cavan dəmirçinin qətlə yetirildiyi yerə boylu-buxunlu bir kəndli övrəti gəldi. İşdən agah olan kimi nə ağladı, nə də sızladı. Əyilib dəmirçinin qana bulanmış başını yerdən götürdü, qanlı dodaqlarından öpdü, aparıb cəzanənin sinəsi üstünə qoy-

1. Hər iki tərəfi kəsən iti qılınc.

du.

— Bu övrət xeylağı kimdir?

— Dəmirçinin anasıdır, hökmdar.

Atabəy-ə`zəm sarsıldı, handan-hana soruşdu:

— Niyə ağlamırsan, arvad?

— Niyə də ağlayım?.. Onu ki gədə-güdə öldürməyib... Gör oğlum kiminlə sinə-sinəyə dayanıb! Padşahla... Kimin qabağından qaçmayıb? Padşahın!.. Kimə öz kişiliyini göstərib? Padşaha... Belə oğlun anası ağlasa el-oba onu qınayar. Hər ananın hünəri deyil belə oğul doğa!.. Hər atanın hünəri deyil belə oğul əkə!.. Mən ağlasam, onun öz qəbri də, atasının qəbri də od tutub yanar...

...Birdən boz ayğırın kişnərtisi çöllərə yayıldı. Nədimin mindiyi at da boz ayğıra qoşuldu.

Cahan Pəhləvan diksinib xəyaldan ayrıldı. Atın yüyənini başaldıb, dabanlarını qarnına sıxdı. At götürüldü. Bir müddətdən sonra yüyəni təzədən dartdı. Bu vaxt yaşıl xalı döşənmiş kimi görünən təpənin döşündən keçirdilər. Yenə xəyalı keçmişə uçdu... Özü ovdan qayıdırdı. Vəliəhd olan vaxtı idi. Başında da cavan, dəliqanlı süvarilər. Bax, beləcə bir təpənin döşünə çatanda qarşıdan bir neçə atlı çıxdı. Bu atlıların qabağındakı sarı kürənin üstündə cavan bir süvari əyləşmişdi. Geyimi sadə idi, başqalarından fərqlənmirdi.Yad atlıları görən kimi Cahan Pəhləvanın adamları cəld qılınclarını qınından çıxarıb sarı kürənin üstə əyləşənin arxasını kəsdilər. Bu, süvarinin vəliəhd olmasına işarə idi. Ehtiram əlaməti olaraq gələnlərin içərisindən qoca bir kişi də nə dedisə hamı atından endi. Təkcə bir nəfərdən başqa. Bu, çoban Eldar Bəhmən idi.

Vəliəhd soruşdu:

— İstəyiniz nədir?

— Bir olan allahın mərhəməti və inayəti sayəsində bu yerlərdə ömür sürən bizlər gecə-gündüz Eldəgəzlər xanədanına dua edirik, atabəylərə uzun ömür arzulayırıq. Onların ölülərinə rəhmət, dirilərinə sağlıq diləməkdi peşəmiz...

— Qoca, uzatma mətləbi!

— Bizi allah-təala dərd çəkmək üçün, qəm yemək üçün xəlq edib. Nə yurdumuz var, nə yuvamız, bu gün burdayıq, sabah orda, bu gün arandayıq, sabah dağda... nə başa taxmağa darağımız var, nə taxıl biçməyə orağımız...

— Qoca, dedim uzatma mətləbi!

— Atanıza deyin bu il vergiləri azaltsın: ya da bağışlasın. Mümkünatımız yoxdu, il quraqlıq keçib...

— Onu hökmdar özü bilər. Rədd olun, yolu kəsməyin!

— Yolkəsən sizsiniz! — Bunu Eldar Bəhmən dedi. — Adınızı bizə qoymayın, ədəbsiz!.. Heç olmasa adam kimi danış baban yerində olan bir qocaynan. İndi isə siz rədd olub gedin bizim yerlərdən. Atanıza da deyin ki, xanəgahlılar bu il Eldəgəzlərə nə bir dən verəcəklər, nə də bir çəpiş...

Həm Əli Şimşəklə, həm onun iki qardaşından biri olan ilxıçı ilə söhbətindən, keçmişdən yada düşən xatirələrdən sonra Cahan Pəhləvan fikirləşdi: "Bu yerlərin ərkəklərinin hər birində həqiqətən Əlincə əzəməti var!.. Görəsən, atabəy-ə`zəm buna niyə əhəmiyyət verməyib?.."

Boz ayğırın kişnərtisi yenə çöllərə yayıldı...

Elə bu vaxt Əli Şimşəyin bir az bundan əvvəl dediyi sözləri yenə xatırladı saray sahibi: "Əlincə, alınca, ölüncə.."

## BALACA XATUN

Cahan Pəhləvan ovda yorulduğu üçün istirahət otağına çəkilib yuxuya getmişdi. Hələ ortada Əli Şimşəyi yuxuda da görmüşdü. Görmüşdü ki, bu dəfə çoban Eldar Bəhmənin oğlu ilə düzəngahlıqda üz-üzə gəlib bir-birinin üstünə qılınc qaldırmışlar... Vuruş qızışanda Əli Şimşəyin qılıncından yerə şimşəklər tökülür...

Cahan Pəhləvan yuxulu-yuxulu nəsə danışdı və öz səsinə oyanıb böyrünü dəyişəndən sonra təzədən yuxuya getdi.

Kənizlər, qaravaşlar isə öz işində idilər. Bir neçəsi şam yeməyi hazırlayır, bir neçəsi də hökmdar ayılanda onu çimizdirmək, bədənini ovmaq üçün hazırlıq görürdü...

Elə bu vaxt Zahidə xatun qızı ilə gəzməkdən qayıdırdı. Təxti-rəvan darvazaya çatan kimi dərban qapıları taybatay açdı, qulamlar balaca pilləkəni onların ayaqları altına uzatdılar. Kənizlər kömək edib mələkə ilə balaca xatunu təxti-rəvandan düşürüb xüsusi otaqlarına aparanda bir-birinə oxşayan ağ atlardan biri qadaq qıçlarını yerə döyərək ucadan kişnədi...

Cavan yaşlarından at kişnərtisindən xüsusi həzz alan Cahan Pəhləvan səsi yuxuda da olsa elə bil göydə aldı, tez gözlərini açdı, əbcuns[1] ağacından hazırlanan xüsusi təxtixabdan qalxıb pəncərədən eşiyə boylandı. Ba-

1. Möhkəm Hind ağacı.

yırda təxti-rəvanı, ondan enib mərmər pillələri yavaş-yavaş qalxan arvadını və qızını görən kimi rahatlandı, qayıdıb oturdu, zər naxışlı, qızıl saplardan qotazları olan məxmər üzlü mütəkkəni dirsəyinin altına çəkdi.

Qızına nə isə deyən Zahidə xatun gülə-ülə içəri girdi və paltarını dəyişmək üçün öz otağına keçdi. Cəlaliyyə əlindəki gül dəstəsini atasına göstərə-göstərə dedi:

— Mənim atabəy babamın axşamı xeyir olsun... Və qiymət verib desin görüm yığdığım güllər xoşuna gəlir?

Sualına cavab almayan balaca xatun əlinrdəki gül dəstəsini gümüş güldana qoydu. Sonra atasına yaxın gəldi, kürsünün qabağında diz çöküb onun dizlərini qucaqladı və güllər barədə başladığı söhbətə əlavə edib dedi:

— Gülləri Ədilağa düzündən yığmışam. Dəbir dedi ki, Naxçıvanın gülləri Seyidabad[1] güllərindən əskik olmur. Hələ onu da dedi ki, Ədilağa düzənliyində bitən güllərin ətri daha ürəyə yatımlıdır... rəngləri də çox əlvandı, həm də gec solurlar...

Cahan Pəhləvan əyilib qızının saçından öpdü. Cəlaliyyə dikəlib atasının belini qucaqladı. Saray sahibi qızının bu mehribanlığından xeyli xoşhal oldu və ürəyindən keçənləri dilinə gətirdi:

— Mənim gözəl mehrimin özü elə bir gül dəstəsidi. Ədilağa düzünün gülləri onun nəyinə gərəkdi? — Cahan Pəhləvan qızının başını yuxarı qaldırıb bu dəfə onun alnından öpdü.

Ata tə`rifindən, üstəlik, hökmdar mədhindən fərəhlənən Cəlaliyyə cəld ayağa qalxdı, güldana qoyduğu güllərə işarə edib şirin bir ləhcə ilə dedi: "Yaşıl otlar üstə cilvələnir gül. Bülbül şurə gəlib açır şirin dil. Onlar hər ikisi heyran olmuşlar: Gül gödək ömrünə, təkliyə bülbül..."

Cahan Pəhləvanın yorğun sifətində təbəssüm göründü, gündən-günə boy verib boylanan qızına əl çaldı. Cəlaliyyə bu dəfə kürsünün arxasına keçib atasının boynunu qucaqladı, hökmdar soruşdu:

— Şe`r kimindi, qızım?

— Böyük xanımın, atabəy baba.

— Böyük xanım kimdi?

— Məhsəti.

— Adını deməyib, böyük xanım niyə deyirsən?

— Məhsəti elə böyük xanımı deməkdi... Yoxsa mənim atabəy babam indiyə kimi bunu bilmir? — Cəlaliyyə əyilib əvvəlcə Cahan Pəhləvanın sağ, sonra da sol yanağından öpdü. — Atabəy babam heç ma-

1. Arranda öz ətirli gülləri ilə məşhur olan kənd.

raqlanır ki, mən bu şe`rləri haradan bilirəm. — Cəlaliyyə qaçıb öz otağından "Rübailər"i gətirdi. — Bunu mənə ustad Əcəmi bağışlayıb... Gör nə gözəldir, atabəy baba!..

Cahan Pəhləvan balaca xatunun əlindəki kitabı alıb diqqətlə baxdı, sonra ehtiyatla vərəqlədi. Hər vərəq ona müxtəlif naxışlarla bəzənmiş kiçik bir xalça kimi göründü. Kitabı örtüb dizinin üstünə qoydu, turunc formalı cildinə xeyli baxdı. Fikrindən keçdi: "Əlinin qabiliyyətinə söz ola bilməz Əbubəkr oğlunun!.. İnanıram ki, bu əllər Mö`minə xatun ananın sərdabəsini də gözəl tikəcək..."

— Ustad Əcəminin hədiyyəsi həqiqətn mənim gözəl qızıma layiqdir...

— Müəllimim Əbubəkr Dosta da göstərdim, o da bəyəndi.

— Mənim gözəl qızım bilir ki, Məhsəti xanımın həm də gözəl səsi var?

— Bah, mən də bunu bilmirəm. — Cəlaliyyə təəssüflə dilləndi.

— Özü də səsində bir muyə[1] var... Şairənin çaldığı uddan da həmişə bir muyə yağır.

— Atabəy babam bunları hardan bilir?

— Hökmdarlar hər şeyi bilməlidirlər...

Cəlaliyyə bu dəfə atasının yanaqlarını öpüşlərə qərq elədi...

— Mələkə!.. Bizim qızımız axırda deyəsən, şairə olacaq, — Cahan Pəhləvanın səsi bu dəfə otaqlara yayıldı.

Zahidə xatun öz otağından çıxa-çıxa, özü də ötkəm səslə qət'i e`tirazını bildirib:

— Xeyr. — cedi. — Bizim qızımız şairə yox, vali olacaq!..

— Mən?.. Vali?! — Cəlaliyyə əvvəlcə anasına, sonra atasına baxdı və birdən qəhqəhə çəkib güldü.

...Cahan Pəhləvana arvadlarının hərəsi bir qaydada müraciət edərdi. Rey hakiminin qızı İnanc xatun "Hökmdar", türk qızı Kütəybə xatun "Atabəy" deyərdi. Təkcə Zahidə xatun ərini öz adıynan, özü də tam yox, bir ad sadələşdirilmiş qaydada "Cahan" çağırardı. bu da saray sahibinin xoşuna gələrdi: əvvəlan, ərlə arvad arasındakı rəsmiyyət aradan qalxırdı və aralarında fərq olmasına baxmayaraq, özünü mələkə ilə yaş-daş sayırdı...

— Bəli, atabəy baban səni vali edəcək! Lazım gəlsə lap hökmdar!.. Sənin bərdəli Nüşabədən nəyin əskikdi? Zahidə xatun səsinə bir amirlik verib əvvəlcə qızına, sonra ərinə nüfuzedici bir nəzər yetirdi.

1. Müğam naləsi.

— Mən səni özümə qız yox, oğul doğmuşam...

Cəlaliyyə anasının qırımını görüb heç nə demədi, məstlərini yavaş-yavaş sürüyüb öz otağına keçdi. Cahan Pəhləvan mütəkkəni yana itələyib dizinə söykəndi, alnını sol ovcunun içərisinə alıb fikrə getdi. Birdə otağı hönkürtü səsi doldurdu. Ağlayan Zahidə xatun idi. Cəlaliyyə səs eşidən kimi cəld otağından geri qayıtdı. Atası işarə elədi ki, mane olma, qoy ağlayıb sakitləşsin; axırda özü ovunacaq. Cəlaliyyə yenidən öz otağına döndü. Elə belə də oldu, mələkənin enib-qalxan çiyinləri yavaş-yavaş aşağı düşdü, çarpazlayıb gətilin oturacağına söykədiyi biləklərini bir-birindən araladı və başını yuxarı qaldırıb sakitləşdi.

— Yüngülləşdin?

Mələkə başının işarəsi ilə "Hə" dedi.

— Təbibi xünkarımız bir dəfə deyib ki, zənən xeylağı üçün ən yaxşı həb onun öz göz yaşıdı...

Zahidə xatun heç nə demədi, ərinə əyri-əyri b axıb öz otağına keçdi, üst-başını düzəltdi, üz-gözünü, sir-sifətini silib qaydaya saldı və yenidən ərinin yanına qayıtdı.

— Hə, — deyib dərindən nəfəs aldı, — Cahan, indi keçən əsas məsələyə.

— Hansı əsas məsələyə?

— Nə vaxt yola düşürsən?

— Hara?

— Təbrizə...

— Hələ bir az çəkər... Yerli əhalidən qoşuna əlavə cavanlar səfərbər etmişəm. Qoşun başçıları onlara Pir Cuvarında məşq keçirlər... O vaxt ki, gördüm döyüşə girə bilərlər... onda yürüş edəcəyəm.

— Yc a düşənə kimi Cəlaliyyənin məsələsini həll etmək fikrin yoxdu?

— Hansı məsələsini?

— İqtidar olmasını. Cəlaliyyə naxçıvanın hakimi olmalıdı... Biz ki izdivaca girəndə sən özün buna söz vermisən... Və demisən ki, mənim təkcə oğlum yox, qızımı da...

Mələkənin vüqarı qadınlığı qarşısında axıra kimi tab gətirmədi, qəhərləndi və sözünü tamamlaya bilmədi. Cahan Pəhləvanın cavan arvadına yazığı gəldi, onun ürəyinin dərinliyində kök salan nigarançılığı dağıtmaq istədi:

— Zahidə, — Cahan bu dəfə ona adıynan müraciət etdi, — özün

bilirsən ki, mənim üçün övlad övladdı... Mən Cəlaliyyəni oğlanlarımdan ayırmıram... Amma hələ tezdi.

— Tez niyə olur? — Zahidə xatun e'tiraz etdi. — Ata-babalarımız deyiblər: "Ağıl yaşda deyil, başdadı". Və yüz dəfə, min dəfə sınaqdan keçiriblər bunu. — Mələkə bir az fikrə gedib əlavə etdi: — Babam deyərdi ki, bir gün Samani padşahı Nuhibn Mənsur xəstələnir. dünya görmüş neçə-neçə iztiyar təbib bir yerə yığılır, heç biri padşahın dərdinə çarə edə bilmir. Axırda əlacları kəsilir, qonşuluqda yaşayan cavan bir təbibə deyirlər ki, gəl sən də bax. Gəlib baxır, fövrən də deyir ki, xəstənin xəstəliyi nədi. Və başlayır müalicəyə. Bir neçə gündən sonra Nuh ibn Mənsur sağalıb qalxır ayağa. Mə'lum olur ki, bu təbibin hələ on səkkiz yaşı tamam deyil... Bilirsən kim imiş həmən təbib?

— Bilirəm.

— Hardan bilirsən?

— Bunu mənə bir dəfə də danışmısan.

— Onda de, kim imiş? — Mələkə güldü və sualını bir də təkrar etdi.

— Hüseyn Əbuəli... Yə'ni ibn Sina. — Cahan Pəhləvan da deyəsən ötəri zarafat elədi və birdən ciddiləşib dedi: — Amma, Zahidə, deyəsən sən məni başa düşmədin. Mən "hələ tezdir" deyəndə Cəlaliyyənin gəncliyini yox, özümün cavan hökmdar olmağımı nəzərdə tuturdum. Daha dürüstü, ehtiyat edirəm. Xilafət bunu düzgün başa düşməz... Soltan Arslan şaha əl çalanlar bundan mənim əleyhimə dərhal istifadə edə bilərlər. Azərbaycan üzərinə qoşun yeridə bilərlər. Sən ki, bilirsən, xilafət atabəy-ə'zəmdən həmişə bədgüman idi... Mələkə isə təslim olmaq istəmirdi:

— Xəlifə Cəfər ibn Mənsuri Marağa şəhərini öz qızına, Xəlifə Harun ər Rəşid də Varsan şəhərini öz qızına bağışlaya bilərdilər, amma sən Naxçıvanı öz qızına bağışlaya bilməzsən?

— Özün dedin ki, onlar xəlifə qızları idi...

— Nə olsun?.. Cəlaliyyə də Cahan Pəhləvanın qızıdır... Atabəy ə'zəm kimi mö'təbər bir hökmdarın nəvəsidir! — Zahidə xatun sözünün üstündə möhkəm dayandı.

— Mənim mələkəm bilməlidir ki, — Cahan Pəhləvan güzəştə getdi: — Naxçıvan nə Marağadır, nə də Varsan... Naxçıvan çığamış[1] şəhərdir.

Bizim atabəylər dövlətinə tabe olan şəhərlər içərisində onun xü-

1. Əзəмəтли, гала ди[illegible]ары ичəрисиндə.

susi mövqeyi var... Onu gündə birinin adına yazmaq olmaz... Bütün bunlara baxmayaraq mən çalışaram ki, məsələni bizim əziz qızımızın xeyrinə həll edim...

— Bəs nə vaxt? — Zahidə xatun bu dəfə çox ərköyün-ərköyün xəbər aldı.

— Məqam çatanda. — Cahan Pəhləvan mələkəni inandırmağa çalışdı: — Mən hələlik xilafətlə çiling-ağac oynaya bilmərəm, Zahidə. Taxta təzə oturmuşam, özü də qəyyumun çiynimin üstünü kəsdirib. O ki, qaldı Arslan şaha, bir ananın döşündən süd əmsək də, ögey qardaşıq... Mö'minə xatın ana da sağ deyil ki, bərk ayaqda ilkini sakitləşdirsin. Macal ver fürsət əldə edim, hər şey olacaq.

Sən istəyən kimi olacaq. — Cahan Pəhləvanın sərt sifətində yenə ötəyi bir təbəssüm göründü. Ərinin belə təbəssümü mələkənin əzəldən xoşuna gələrdi. Bu dəfə də ürəyinə yatdı, hirsi soyudu və başqa bir məsələyə maraq göstərdi:

— Bəs rəis barədə tədbir görməmiş yola düşəcəksən?

— Hələlik, hə.

— Sən bilirsən ki, o bel bağlamalı adam deyil?

— Bilirəm.

— Bəs nəyi gözləyirsən?

— Sənin sualların bir-biri ilə əlaqədardır. Rəisin xilafətdə arxası möhkəmdir. Onu atabəy-ə'zəmin razılığı ilə sultan özü rəis tə'yin edib. Həm də xəlifə onu şəxsən tanıyır və ona rəğbət bəsləyir. Hər halda, mən bunu da nəzərə almalıyam. Və mən bir hökmdar kimi heç kimdən asılı olmayanadək, başa düşürsən, heç kimdən asılı olmayanadək... Çox ehtiyatla, çox səbrlə hərəkət etməliyəm.

Zahidə xatun ərinin eyhamından nə isə başa düşdüyü üçün daha diliuzunluq etmədi.

— İndi də mələkəm məni bir məsələdən agah eləsin... Neçə vaxtı soruşmaq istəyirəm, amma xatirimdən çıxır. İnanc xatun mən Həmədanda olmayaq aylarda özünü necə aparıbdı?

Zahidə xatun başını sol çiyni üstünə əyib, diqqətlə ərinə baxdı:

— Kişi günüsü barədə övrətinə belə sual verməz... Axı mənim dediklərimə inanmaya da bilərsən.

— İnanaram... Sən mənim sualıma cavab ver.

Zahidə xatun ərinin səsindəki sərtliyi dərhal hiss etdi və bircə kəlmə söz dedi:

— Pis!

— Niyə?
— Nə bilim.
— Yoxsa yenə inad yeridir.
— Nə vaxt yeritməyib ki?
— Yaxşı!.. Qarğa yumurtasından heç vaxt bülbül çıxmaz...
— Onda niyə bir əncam çəkmirsən? — Zahidə xatun fürsəti fövtə vermədi.
— Xəlifə nəvəsidi... Siyasət lazımdı...
— Buna nə siyasət?
— Siyasət hər yerdə, hər şeydə gərəkdir... Rəyasət sahibləri üçün isə siyasət bir qiblənümadır.[1]

Zahidə xatun daha söz tapmadı deməyə. Söz tapmadı deyəndə ki, ərinin yenə özünü saray sahibi kimi aparması ürəyinə yatmadı. Buna görə də başqa söhbətə keçdi:

— Sərdabənin özülünün qoyulması mərasimini nə vaxt keçirmək niyyətindəsən?
— Gələn həftənin şənbə günü.
— Bizi nə vaxt yola salacaqsan?
— Mənimlə gedəcəksən... Sizi Urmiyadan yola salacağam Həmədana. Özüm qoşunla dönəcəyəm Təbrizə.
— Allah-təala sənə yar olsun, Cahan! — Zahidə xatun birdən dua elədi, nəzərlərini ərinin sifətinə dikib nəsə demək istədi, ancaq deyə bilmədi, başını aşağı saldı, çənəsini sol çiyninə söykəyib qucaqladı.
— Ana, — dedi, — sən narahat olma və bir az səbr elə, mənim atamın adı Eldəgəzlər xanədanının ən müqtədir, ən ağıllı hökmdarı kimi tarixə düşəcək...

Kənizlər içəri girib hökmdar üçün hamamın hazır olduğunu bildirməsəydilər ərlə arvadın söhbəti bəlkə də uzun çəkəcəkdi...

## MƏLİK OĞUZ

Sə'dəddin Əsəd pişgaha gələndə Cahan Pəhləvan tacını təzəcə başına qoyub taxta əyləşmişdi. Vəzirin salamına cavab verməmiş soruşdu:

— Bu gün həftənin hansı günüdü?
— Yekşəmbədəki, hökmdar. — Sə'dəddin Əsəd dərhal başa düşdü ki, saray sahibi nə isə mühüm bir əmr,ya fərman vermək niyyətindədir.

1. Kompas.

— Ağır gündür. — Gahan Pəhləvan özü taxtından ağır-ağır durdu, pişgahın məşriqə baxan pəncərəsini önünə gəldi, oradan xeyli müddət Elalnı dağına baxdı, sonra yenə ağır-ağır qayıdıb taxtında öz yerini tutdu və topa aqqalını sol ovcunun içərisinə alıb fikrə getdi. Hələ də ayaq üstə durub gözləyən Sə'dəddin Əsəd daha dayana bilmədi, keçib sədr kürsülərindən birində əyləşdi və ehtiyatla hökidar deyəni təkrar etdi:

— Bəli... ağır gündür. — Və dərhal da əlavə edib dedi: — Niyə soruşursuz, hökmdar?

— Elə-belə... Oğuz Salur... — Saray sahibi səsinə xüsusi bir ahəng verəndən sonra fikrini tamamladı: — Şərur məliki Oğuz Şərur buyurub?

— Bəli, gəlib. — Sə'dəddin Əsəd hökmdarın niyyətini indi başa düşdü.

— Gəlib yox... gətiriblər. — Cahan Pəhləvan vəzirin danışığına irad tutub düzəliş verdi.

— Siz buyurandı...

— Müqavimət göstərməyib?

— İmkan tapmayıb. — Sə'dəddin Əsəd danışığına bir də irad tutulub düzəliş veriləcəyindən ehtiyatlanıb əlavə etdi: — Mühafizlərə demişdim ki, səssiz-səmirsiz gətirsinlər... Yə'ni oğurlayıb gətirsinlər...

— Niyə?

— Mənə səhih mə'lumat çatmışdı ki, məlik hökmdarın çağırışına bu dəfə də əməl etmək niyyətində deyilmiş... Çox tərs tayfadır bu salurlar.

— Tərs olsa da, başa düşmür ki, şərur elə qədim Salur tayfasının adıdır?... Bəlkə elə buna görə özünü çox tox aparır, torpaq paylayır, yeni iqtidarlar tə'yin edir, özünə gündə bir ləqəb götürür? Dövlət adından hökmlər verir... Hələ hərəmxana da açmaq istəyir...

Sə'dəddin Əsəd nə cavab verəcəyini birdən kəsdirə bilmədi, ona görə də çox uzaqdan başladı:

— Deyirlər İsgəndər Makedoniyalı qoşunu ilə Naxçıvana çatmamış əsgərlərinə əmr edir ki, Arpaçayın sahilində çadırlar qurub dincəlsinlər. Başlayırlar çadırları qurmağa. Bu vaxt yaxından nurani bir qoca keçirmiş. Böyük fateh qocanı əyləndirib soruşur: "Ey pir, bura haradır? "Qoca deyir: "Şərur". Məğribi göstərib xəbər alır, "Bəs o dağın adı nədir?" Qoca deyir: "Ağrı". Yuxarıya işarə edib deyir: "Bəs o yamyaşıl görünən qəlbi yaylanın adı nədir?" Qoca cavab verir: "Əyricə".

İsgəndər bir fikrə gedəndən sonra qoşun başçılarına deyir: "Bir yerin ki, şəri də, ağrısı da, əyrisi də öz içində ola, orda əylənmək məsləhət deyil". Və əmr edir ki, yola rəvan olsunlar. Bəli, qurulan çadırları sökürlər və yollarına davam edirlər. Buna görə də şərurlularla həmişə ehtiyatlı danışmaq, ehtiyatlı davranmaq gərəkdir, hökmdar.

— Öyrənməmisən sarayın təşkil etdiyi yığıncağa, məliklərin apardığım məşvərətə niyə gəlməyib?

— Başı belə-belə işlərə qarışıbmış. — Sə'dəddin Əsəd əlində tutduğu bir qarış uzunluğunda olan qamışın içərisindəki risaləni çıxarıb hökmdara uzatdı. — Ziyaülmülk cisrini adlayıb Arazı keçmək istəyən bir çaparın qoltuq cibindən tapılıb. Süvari məlik Oğuzun çaparıymış... Sultan Arslan ibn Toğrulun yanına gedirmiş... Bunu mənə Heyvərə Həsənin adamlarından deyəndə əvvəlcə inanmadım. Gərək bağışlayasınız ki, sizə deməmiş özüm tədbir gördüm. Və çaparın apardığı naməni ələ keçirəndən sonra hər şey aydın oldu.

— Risalədə nə yazıb ki?

— Hədyan-hədyan sözlər... Eldəgəzlər sülaləsinin ünvanına böhtanlar... Mö'minə xatun ananın müqəddəs ruhuna şər-şamata...

Cahan Pəhləvan nədənsə risaləni vəzirə qaytarıb oxumasını əmr etmədi.

Kürəyini taxtın oturacağına sıxıb sol qoluna dirsəkləndi. Xəyalı bir anda neçə-neçə illəri adlayıb geri qayıtdı.

...Ani düzündə qızğın döyüş gedirdi. Atabəy Şəmsəddin Eldəgəhzin süvariləri gürcü çarı Georginin qoşununu pərən-pərən salmışdılar. Atabəy-ə'zəm onunla Oğuz Salura tapşırıq verdi ki, inad göstərib təslim olanların həyatını isə hifz etsinlər Cahan Pəhləvan hələ o vaxt hiss etmişdi ki, Şərur məliki inad göstərənlərdən çox təslim olanlara qılınc qaldırır... O, buna e'tiraz edəndə Oğuz Salur: "Sən mənim işimə qarışma!" deyib, atını geriyə çapmışdı. Cahan Pəhləvan bu barədə atabəy-ə'zəmə deyəndə, o da məlikin sözlərini təkrar edib demişdi: "Sən mənim işimə qarışma... Hökmdar da, sipəhsalar da hələ mənəm!.. Məlik Oğuz tayfalarının ən qoçaq, ən e'tibarlı nəslindəndir..." Cahan Pəhləvan narazılıq edərək atabəy-ə'zəmə deyəndə ki, "Oğuz Salur nəsrani[1] qızının döşlərindən süd əmib..."

Atabəy-ə'zəmin qaşları çatılmış, bir an fikrə gedəndən sonra demişdi: "Sən öz işində ol". — "Xilafətə bərk yaranır, naxəçıvanda hakim olmaq niyyətindədir". Sən elə işlərə qarışma..."

Cahan Pəhləvanın xəyalı geri qayıtdı.

1. Xristian.

— Mən indi məlikə divan tutum, vəzir də tamaşasına dursun. Baxıb görək bahadır tayfanın bahadır törəməsi özünü necə aparır. Cahan Pəhləvan əlini əlinə vurub kimisə çağırmaq istəyirdi ki, vəzir sədr kürsüsündən qalxıb yanına gəldi.

— Mən bu fikirdəyəm ki, hökmdar məliki ciddi məzəmmət edər və o da öz səhvini başa düşər... Hökmdara bunu da çatdırmağı özümə borc bilirəm ki, Əbubəkr oğlu da bir az bundan əvvəl yanıma təvəqqəyə gəlmişdi ki, hökmdara deyin bir qələtdi eləyib məlik Oğuz. İgidliyin, xidmətlərin nəzərə alıb onu əhf etsin. Deyəsən məliyin özü də...

Cahan Pəhləvan əsəbiləşdi:

— Hər təvəqqəni mənə çatdırıb əhvalımı pozmağı özünüzə rəva bilməyin, vəzir. O ki, qaldı Əbubəkr oğluna, bir də yanınıza gələndə onu başa salın ki, mən ona sərdabə tikməyi hökm etmişəm. Bənnadı, me'mardı, bilmirəm nədi, gedib öz işini görsün, dövlət, divanxana işlərinə qarışmasın... Ona bunları bilmərrə başa salın!

Sə'dəddin Əsəd hökmdarın qırımını görüb ürəyində öz-özünü məzəmmət etdi.

Elə bu vaxt hökmdar divar pərdəsinə bərkidilmiş poncaqlı ipi aşağı çəkdi, dəhlizdə qumrov səslənrdi. Həbəş qulam içəri girdi. Sə'dəddin Əsəd aşağı başa qoyulan kətili məlikə göstərdi. Oğuz Salur da göstərilən yerdə oturdu. Saray sahibi yavaş-yavaş başını qaldırıb qənşərində əyləşən məlikin əvvəlcə burnu qatlanmış süvari çəkmələrinə, qara mahuddan səliqə ilə tikilmiş çuxasının qıvraq ətəklərinə, belinə bağladığı ağ mina dəstəkli xəncərinə, sinəsinin sağ-sol döşündəki vəznələrinə və nəhayət onun məkrli sifətinə tamaşa etdi. Boz qaragüldən tikdirib enli qara qaşları üstünə endirdiyi papağına çox uyğun gələr çal bığına, girdə saqqalına xeyli baxdı, baxdı. Və birdən kinayə ilə xəbər aldı:

— Səni yolda incitməyiblər ki, Oğuz Şəruri?

Oğuz Salur cavab əvəzinə eyni kinayə ilə dedi:

— Sizdən bundan artıq nə gözləmək olar ki?

— Elə bu?.. Qarnının başqa dərdi var, onu de...

Məlik nə qədər çalışdısa hirsini boğa bilmədi.

— Məni özündən əskik kişi bilmə...

Cahan Pəhləvan taxtında xeyli qurcalandı.

— Bizim adamlar sənin çaparını Ziyaülmülk cisrindən Arazı keçərkən tutublar, xəbərin var? — Cahan Pəhləvan bu dəfə malikin düz gözlərinin içinə baxdı. Oğuz Salur onun nəzərindən yayınmağa çalış-

sa da,özünü sındırmadı.

— Var.

— Sultan Arslan ibn Toğrula risalə yazmaqda məramın nə olub? — Saray sahibi Sə'dəddin Əsmədin gətirdiyi risaləni Şərur məlikinə göstərdi.

— Sultanı ayıq salmaq istəmişəm... başqa məramım olmayıb. — Oğuz Salur üzünü yana çevirdi, hökmdarın kin-küdurət yağan gözlərinə daha axıra kimi baxa bilmədi.

— Sultan ki yatmayıb! Arslan ibn Toğrul həmişə ayıqdı... Və sənin xəbərdarlığına ehtiyac yoxdur — Cahan Pəhləvan bir an fikirləşəndən sonra risaləni Sə'dəddin Əsədə qaytarıb dedi:

— Vəzir, al... oxumaq istədiyin yeri indi oxu.

Sə'dəddin Əsəd qurcalana-qurcalana oxudu:

— "Sabah-birisi gün sənin sultanlığını da tamam danar bu Eldəgəz nəsli. Və beləliklə də Arranda səlcuq xanədanı birdəfəlik süqut edər, sülalənizin də kökü birdəfəlik kəsilib gedər. Sonrakı nəsillər səni səlcuqilərin ən fərsiz, ən öddək varisi kimi tanıyarlar. Əvvəllər atabəy Şəmsəddin atanı ələ saldı, indi də oğlu səni ələ salır, adına xütbə oxutdurmaqla, sikkə kəsdirməklə tovlayıb bütün ixtiyaratı öz əlinə alıb. Hər yerdə — Həmədanda da, Bərdədə də, Naxçıvanda da, Gəncədə də Cahan Pəhləvanı hökmdar kimi tanıyırlar. Qoşun onun əlində, beytulmal onun əlində. Bir sözlə, ixtiyarı-küllü odur. Daha sənin haran oldu sultan, ay Arslan ibn Toğrul?.."

— Bəsdir. — Cahan Pəhləvan işarə edib vəçziri dayandırdı, məlikdən soruşdu: — Bu sözlər sənin öz sözlərindir?

— Mən həmişə öz sözümü demişəm... Başqalarının sözünə ehtiyacım olmayıb!..

Cahan Pəhləvan poncaqlı ipi yenə aşağı çəkdi, dəhlizdə yenə qumrov səsləndi. Yenə həbəş Qulam içəri girdi.

— Cəlladı çağır.

— Hökmdar, bəlkə... — Vəzir Sə'dəddin Əsəd nəsə demək istədi.

— Dayan! — Cahan Pəhləvan ötkəm səslə həbəş Qulama xəbərdarlıq etdi, o da ayaq saxladı. — Yaxşı, qoy vəzir istəyən olsun... İki fərraş... bir də mənim bərbərim gəlsin.

Oğuz Salur şaşırmış halda dönüb vəzifə baxdı. Sə'dəddin Əsəd saray sahibinin nə etmək istədiyini birdən kəsdirə bilmədi. Buna görə də Məlik Oğuzla heç bir him-cim etmədi. Oğuz Salur birdən ayılan ki-

mi oldu, əlini xəncərin qəbzəsinə atdı. Cahan Pəhləvan bir göz qırpımında taxtın sağ yanına dayadığı qılıncını götürüb ayağa qalxdı.

— Məlik!.. — Xəbərdarlıq edən Sə'dəddin Əsəd idi. Və Oğuz Salurun qəndərinə yeridi.

— Başını bədəninin üstündə saxlamaq istəyirsənsə, xəncəri qınına qoy! — Cahan Pəhləvanın sərt səsi otağı cingildətdi. Oğuz Salur onun qəzəb yağan sifətinə, alışıb yanan gözlərinə, sinəsi önündə par-par parıldayan qılıncının tiyəsinə baxıb geri çəkildi və birdən gözlənilmədən əlindəki xəncəri qınına qoymaq əvəzinə taxta sarı tulladı. Cahan Pəhləvan cəld yana çəkildi, xəncər divara vurulan böyük xalıya sancıldı.

Sə'dəddin Əsəd qəzəblə qışqırdı:

— Sən nə edirsən, məlik Oğuz!.. Dəli olmusan?

Cahan Pəhləvan taxta əyləşdi. Elə bu vaxt iki fərraş qapıda hazır oldu. Hökmdar nə işarə etdisə onlar özlərini Oğuz Salurun üstünə atıb böyük çətinliklə qollarını burdular və güclə arxasında saxladılar. Bərbər elə bil bunu gözləyirdi. İrəli çıxıb farağat dayandı.Oğuz Salur nə baş verəcəyini dərhal anladığı üçün səsinin ahəngini dəyişib yarısərt, yarımülayimliklə dedi:

— Adam kişi olar, Şəmsəddin oğlu! Kişi kişinin heysiyyətinə, qeyrətinə toxunmaz... Əmr elə boynumu vursunlar, amma bığıma, saqqalıma toxunma!

— Sənin nə başın mənə gərəkdi, nə də bığın, saqqalın. Dilin xoşuma gəlmir, Oğuz Şəruri... Uzundu, özü də yaman uzundu!..

— Aləmi-pənah, bəlkə...

— "Bəlkə"siz, vəzir! Daha heç bir "bəlkə-məlkə" yoxdur. — Hökmdar gödəkboy bərbərə tərəf döndü. — Məni başa düşdün, bərbər?

— Bəli, qibleyi-aləm.

Oğuz Salur nəsə deməmk istədi, ancaq sözləri boğazında qaynayıb boğunuq bir səsə çevrildi.

— Aparın! — Cahan Pəhləvan bu dəfə taxtın sol yanındakı dəyirmi mizin üstündən balaca gümüş sinini götürüb fərraşlardan geri qalan

bərbərin ayaqları altına tulladı. — Bunu da başa düşdün?

— Bəli, qibleyi-aləm. — Bərbər əvvəlki sözünü təkrar etdi və yanlarını basa-basa otaqdan çıxdı.

Sə'dəddin Əsədin elə bil tutulan nitqi birdən açıldı:

— Siz... siz nə etdiniz, hökmdar...

— Gücə, cəbrə arxalanmayan siyasət siyasət deyil, vəzir!... Siyasət başının üstündə daim qılınc tutmalı, sinəsində daim qalxan gəzdirməlidir. Siyasət həm kəsməyi bacarmalıdır, həm də yamamağı, özünü qoruyub hifz etməyi... mən atabəy-ə'zəmi əvəz edən çağımdan Atabəylər dövləti üçün vuruşmağa özümə söz verib an içmişəm. Bu yolda heç nəyimə, hətta canıma da müzayiqə etməyəcəyəm... Sonrası nə olacaq bilmirəm, amma onu bilirəm ki, bizim nəsil bu yerlərdə, ata-babalarımızın ömür sürdükləri bu yurdda yeni bir dövlətin əsasını qoyub. Bu yeni dövlət Arrandı, daha dürüst, Azərbaycandı. — Bir dəfə dediyi sözləri yenə təkrar etdi: — başı Qafqaz dağlarından başlanıb ayağı İran xəlicinə dirənəcək Azərbaycan... Biz onu nəyin bahasına olursa-olsun hifz edib qorumalıyıq, saxlamalıyıq, dirçəltməliyik... Adını da, dilini də!.. — Cahan Pəhləvan nitqini qurtaran kimi qılıqcını götürüb pişgahdan çıxdı.

Sə'dəddin Əsəd yana-yana əyalandı.

— Get-gedə yaman amansız olursan, Şəmsəddin oğlu!..

## HÖKMDAR HÖKMÜ

Cahan Pəhləvan şəhərin rəisi ilə uzun-uzadı söhbətinə yekun vurub dedi:

— Hər halda, mən deyənləri xatirində saxlamağa dərrakən çatar... Əyər hafizənə e'tibarın yoxsa mən Naxçıvanı tərk edəndən sonra dediklərimi bu da təkrar-təkrar sənin yadına salar, — çiyni üstündən dönüb dəbirə baxdı və dediklərini yazmağa onu hazır görüb sözünə davam etdi: — Bu başdan deyim ki, Naxçıvanı hələlik tərk etmək fikrində deyildim, amma vəziyyət elə bir məqama gəlib çatıb ki, mən qoşunun az hissəsini burada qoyub, çoxuynan Həmədana hərəkət etməliyəm. Oradan da Təbrizə... Doğrudur, mən Həmədanı hələ ki, rəsmən Eldəgəzlər dövlətinin payitəxti e'lan etməmişəm, amma vəziyyətdən asılı olaraq gah ordan, gah burdan hakimliyimi icra etmək niyyətindəyəm... Bütün bunlara baxmayaraq, Naxçıvan Eldəgəzlər xanədanının baş şəhəri olaraq qalır. Buna görə baş şəhərin rəisi də öz vəzifəsini vaxtında icra etməli, sərvaxt olmalıdır. — Bir an fikrə getdi, topa saqqalına bir neçə dəfə təh verəndən sonra dəbirə baxıb dedi: — Yaz... Əvvəlinci tapşırığım, daha doğrusu, hökmüm: Xanədana baxan kəndlərin hamısından toplanası taxıl axırıncı batmanına kimi yığılmalıdır. Ke-

çən illərin borcunu da hər bir kəndli ödəməlidir. Bilirsən ki, taxılın onda biri dövlətə çatır, amma ötən il heç onbeşdə biri də ambarlara gəlməyib. Gələn il quraqlıq gözlənilir. Qış sərt keçməyib... dağlarda qar yoxdur... çaylarda su azdır... Onu da kənd əhlinə başa salmaq gərəkdir ki, taxıl vergisinə heç vaxt güzəşt olmayıb, olmayacaq. Və bu barədə atabəy-ə'zəm hələ sağlığında xüsusi fərman sadir etmiişdir və mən o fərmanı heç vaxt ləğv etmək niyyətində deyiləm. Çünki çörək ölüm-dirim məsələsidir...

Dövləti, ölkəni çörəksizlik nüfuzdan salar, kişini çörəksizlik cayiz edər. həm də ac qılınca çapar deyiblər ha!.. — Cahan Pəhləvanın eyhamını deyəsən rəis başa düşdü. başını mə'nalı-mənalı silkələyib dəbirə baxdı.

— İkincisi... şəhərin abadlığına, təmizliyinə daim diqqət yetir.

— Bu dəfə hökmdar həqiqətən əmr etdi və şəhər hakiminə barmaq silkələdi: — Sənin heç vaxt unutmağa, yaddan çıxarmağa haqqın yoxdur ki, bu şəhərdən hakimlik elib və bu.şəhərdə rəhmətə gedib... Səhv etmirəmsə, bir vaxt bu yerlərə "Naxçıvan şahlığı" deyiblər, düzdür? — Yenə dəbirə baxdı.

— Düzdür, hökmdar. — dedi dəbir. — Dülafilərin vaxtında həqiqətən şahlıq olub bu yerlər.

Cahan Pəhləvan bu sözləri razılıqla qarşıladı.

— Eldəgəzlərin vaxtında isə daha şahanə olmalıdır... Gərək ki, bu da düz ola? — Bu dəfə rəisə baxdı. Bayaqdan hökmdarı diqqətlə dinləyib sözlərini yalnız başı ilə təsdiq edən rəis dil açıb:

— Siz buyurandı, — dedi, hökmdar həzrətləri.

Cahan Pəhləvan taxtdan dikəldi, başını yuxarı qaldırıb pişgahın tavanını xeyli nəzərdən keçirdi. Aydın idi ki, fikrini bir yerə cəmləyir və verəcəyi növbəti tapşırığı saf-çürük edir.

— Üçüncü tapşırığım... Mənə xeyli şikayət gəlib ki, şəhərdə kəhrizlər bir-bir batıb qeyb olur... Su heç vaxt qeyb olmaz, bu gün bir yerdən batırsa, sabah başqa yerdən qaynayıb çıxmalıdı... Şəhərin ki, kifayət qədər suyu olmadı, daha ora niyə şəhər desinlər? Təkcə şəhristana yox, rəbatlara da şəhərin lap ucqar məhəllələrinə və su verilməlidir... Özü də ilin bütün fəsillərində. Kəhrizlərin hamısı bərpa olunmalıdır. Muzdunu isə ayrıca fərman verəcəm, beytülmaldan ödəyəsiz. Aydındı? — Sual şəhərin rəisinə verilirdi.— bəli, aydındır. — Onun da cavabı çox qısa oldu.

— İkinizə də mə'lumdur ki, Əxilik Azərbaycan atabəylər dövlə-

tinin nöqteyi-nəzəridir, mərzum atabəy-ə'zəmin amalıdır, məqsədidir. — Əvvəlcə dəbirə, sonra ismə rəisə baxdı. — Azərbaycan atabəylər dövlətinin hesabına başını çiyni üstündə saxlayanın ixtiyarı yoxdur ki, bu məsləkə xor baxa, onu gözümçıxdıya sala... Mən də əxiyəm, sən də əxisən, — rəisə işarə etdi, — o da əxidir. — Dəbiri göstərdi.

— Belə olduğu halda kimin haqqı var ki, əxiliyə arxa çevirsin. Bunu əvvəllər sənə irad tutmuşam, indisə bir hökmdar kimi sən rəisə əmr edirəm: əxiliyə kim arxa çevirərsə... yaxub isbat olunarsa ki, əxiliyin düşməni kimdir, o, vaxtında və ən ağır cəzaya məhkum olmalıdır. Təbəə itaətdən çıxanda gərək cəbrə əl atasan... Niyə elə baxırsan? — Rəisdən soruşdu və dərhal özü də cavab verdi: — Naxçıvanlıların sakit, səbrli olmaları səni aldatmasın, onların səbr kasası daşanda üzlərini görmə... çox amansız olurlar... Və heç nəyi güzəştə getmirlər. Bir növ, köhlən ata bənzəyirlər; mənzilə çatdıqca qızışırlar... Bu da hər kişinin işi deyil, nər kişinin işidir... İzahata ehtiyac var?

— Xeyr. — Şəhər rəisinin bu dəfəki cavabı da çox qısa oldu.

Cahan Pəhləvan ani fikrə cetdi, sonra üzünü dəbirə tutub dedi:

— Sonra fikrindən çıxar... Bu məsələ barədə dediklərimi bir fərman

şəklinə sal, vəzir Sə'dəddin Əsəd sabah Gəncədən qayıtmalıdı, ona göstər, sonra xanədana tabe olan bütün şəhərlərin rəislərinə, əmirlərinə göndərin... Biz əxiliyi Azərbaycanda, bütün Arranda hifz edib qorumalıyıq!

— Baş üstə, hökmdar.

Cahan Pəhləvan yenə fikrə getdi, sonra alnını ovuşdurub söhbətinin ardını dedi:

— Mən şəhərdən çıxandan sonra əyləşib əməlli-başlı götür-qoy edin... Bu günlərdə ovdan qayıdanda, dəbir də təsdiq edər, cavan bir çobanla söz-söhbət mənə çox şey deyib. (Nədənsə Əli Şimşəklə söhbətini gizlətdi.) Deyib ki, bizim çox igid oğullarımız var. Gərək biz igidlərin qədrini bilək... Deyəsən hər qayanın dibində bir Babək böyüyür, amma bizim xəbərimiz yoxdur. — Cahan Pəhləvan əvvəlki sözünü təkrar etdi: — Bir də əməlli-başlı götür-qoy edin, necə edəsiniz ki, Əli Şimşəyi yola gətirəsiz. Bəlkə yanına sözü ötkəm bir adam göndərəsiniz... Həm də nə yolla istəyirsiniz başa salsın ki, padşah padşahdı, rəiyyət rəiyyətdi. Mənim qaçaq-quçaqla çiling-ağac oynamağa vaxtım yoxdur. Elə olmasın ki, üstünə qoşundan əsləhəli əsgərlər göndərim. — Hökmdar bu dəfə ara-vermədən başqa bir məsələyə keçdi və

səsinin ahəngini dəyişərək bir az mülayimcəsinə dedi: — Hər şeyin uğurlu çıxması, uvand olması bünövrədən asılıdır. Bünövrə ki, möhkəm qoyuldu, arxayın olmaq olar ki, bu iş baş tutacaq, əməlli-başlı icra olunacaq... Biz Mö'minə xatun ananın sərdabəsinin təməlini qoyduq... Bayaqdan əmr edirdim, indisə rica edirəm. Elə elə ki, iş bir gün də dayanmasın. Bilirəm ki, Naxçıvanın qışı sərt keçir, həmin aylarda işləmək olmaz. Heç buna Əbubəkr oğlunun özü də razılıq verməz. Dünən sizinlə birlikdə baxanda yəqin etmişəm ki, zərgər işi görməyə girişib. Mən bu əqidədəyəm ki, onun əlindən bu dəfə daha çox səliqəli bir iş çıxacaq. Bəlkə mən səhv edirəm? — Yenə əvvəlcə rəisə, sonra dəbirə baxdı. Rəis dinmədi. Dəbir hökmdarın dediklərini dərhal təsdiq etdi:

— Qətiyyən yox! Hökmdar, siz yüz kərə, min kərə haqlısınız. Əlacsız qalan rəis də bircə kəlmə "əlbəttə" deyib susdu.

— Şəxsən sənə tapşırıram, az vaxt içərisində Naxçıvanın seçmə, dəliqanlı, igid cavanlarından yaxşı bir xas süvari dəstəsi təşkil edərsən... lazım olacaq.

— Baş üstə.

— Şəxsən sənə yenə tapşırıram. — Cahan Pəhləvan şəhadət barmağını düz rəisin göhünün içinə tuşladı. — Sərdabə tikilib qurtarana kimi Əbubəkr oğlunun başından bir tük əskik olsa... başınla cavabdehsən...

Dəbir fikirləşdi: "Sərdabə tikilib qurtarana kimi" niyə? Belə çıxır ki, Əcəmi saraya lazım olana qədər qiymətlidir?..

Elə bil hökmdar da onun fikrindən keçənləri bilib sözünə davam etdi:

— Ona görə "sərdabə qurtarana kimi" deyirəm ki, biləsən-bu dəfə rəisin düz gözlərinin içinə baxdı. — Əbubəkr oğlu sərdabənin tikilişinə başladığı gündən saray xidmətçisidir, dövlətin tapşırığını yerinə yetirir...

Son sözlərini çox ötkəm desə də, Cahan Pəhləvanın "Sərdabə tikilib qurtarana kimi" ifadəsi dəbirin ürəyinə şübhə saldı.

Cahan Pəhləvan nə fikirləşdisə birdən söhbətinin yönünü dəyişdi:

— Mən qoşunu Həmədan ətrafında yerləşdirmək niyyətindəyəm. İstəyirəm orada da bir müddət tə'lim keçəm, sonra Təbrizə yürüş edəm.

Cahan Pəhləvan rəisin fikrini öz yürüşündən yayındırmaq niyyə-

tində idi. Bir həftə əvvəl Sə'dəddin Əsəd dəbirə demişdi ki, hökmdar qoşunu Marağadan keçirib birbaşa Təbrizə daxil olmaq fikrində deyil. Qoşuna Urmiya gölünün quzeyində Azərşəhr ətrafında dinclik verəcək. Böyük oğlu Abubəkr Həmədandan gələcək. Onun gətirdiyi qoşunla birləşib Təbrizi götürəcək... Əgər vəziyyət tələb edərsə qarşadı Qızıl Arslana əmr edəcəkdir ki, o da öz qoşununu arxadan Fələkəddin Əhmədin üstünə yeritsin...

— Hə... Mənim dedimlərim dövlət tapşırığıdır, padşah vəsiyyəti deyil...

Rəis əl-ayağa düşdü:

— Allah eləməsin, hökmdar! Bu nə bədgümanlıqdır?..

Cahan Pəhləvan bir müddət dinmədi, nəzərlərini yenə pişgahın tavanına zilləyib fikrə getdi, sonra nədənsə ah çəkdi. Onlar hökmdarın ah çəkməsini birinci dəfəydi ki, görürdülər. Cahan Pəhləvvan əlavə nəsə demək istədi, ancaq fikrindən daşınıb dinmədi, əli ilə işarə etdi ki, mürəxxəs ola bilərsiz...

***

Səhərisi Günəş hələ Elalnı dağının arxasından boylanmamış, gözəl camalını sayı-hesabı bilinməyən aşiqlərinə göstərməmiş, bağdada duz aparmaq üçün Duzdağdan enən karvandakı dəvələrin ovsarını sahibləri dartıb günbatana kimi gözləməoi oldular. Onlar Araza tərəf böyük bir qoşunla hərəkət edən Cahan Pəhləvanın süvarilərinə yol verirdilər...

Cahan Pəhləvanın ardı-arası kəsilməyən qoşunu yollarda toz qaldıra-qaldıra Culfaya, oradan da Təbrizə gedirdi.

Qoşunun önündə yenə də ağ kürənin bərli-bəzəkli yəhərində dava libası geymiş hökmdar özü əyləşmişdi.

## DƏRBAN VƏ MÜHAFİZ

### (yay söhbəti)

— Ə, nətərsən, ə?

— Necə olacağam? Demək olar ki, pisdən də pis!

Gödəyboy dərban əvvəlcə burnunu çəkdi, sonra sinəsini qaşıdı. — Bu il lap cızdağım çıxır, quruyub qarağac qabığına dönmüşəm. Az

qalır qohum-əqrəba da tanımasın məni.

— Ə, demə, demə!— Mühafiz astanadan içəri adladı, əlindəki nizəni divara söykədi, başından məqfərini götürüb divardakı balaca taxçaya qoydu. Daz başındakı bir qoi tükə tumar çəkib siçanquyruq sarı bığını eşdi. — Olmaz Naxçıvanın yayından!

— Bu il havalar yaman isti keçəcək...

— Ə, keçəcək nədir, keçir də!

— Deyir bir alim deyib ki, Naxçıvan ğeşinlimli məkandı... Yəqin yayın bu istilərini nəzərdə tutub həmin sözləri deyəndə. Demək olar ki, kişi özü də çox doğru müəyyən edib. — Dərban əbasının cibindən tütün kisəsini çıxarıb demisini doldurdu, qovla alışdırıb tüstüsünü sinəsinə sümürdü. — Az qalır yer-yurd od tutub yana...

— Kəndimizdən gələn var idi. — Mühafiz asta-asta dedi: — Dünən qeysəriyyədə rastlaşdıq. Bir az ayın-oyun gətirmişdi satmağa... Yazıq kişi az qalırdı qan ağlasın. Deyir od-alov kənddə bütün əkin-ükünü yandırıb-yaxıb. Deyir arpa da, buğda da vaxtından əvvəl vağamlayıb sütül-sütül tökülüb torpağa. Dəmyə yerlərdəki əkindən əsər-ələmət qalmayıb... Ot-mot da tamam-kamal quruyub. Günü qara kəndli nə eləsin?.. Özü nə yesin, mal-davarına nə yedindirsin... əyalına, uşağına nə versin?

— Mühafiz yana-yana deyindi: — Hələ üstəlik, deyir Şəmsəddin oğlu Həmədana yola düşəndə rəisin üstünə barmağını silkələyib ki, bu il taxıl vergisini tamam-kamal yığıb ambarlara doldurmasan özündən küs. İkinci kərə Həmədandan Naxçıvana qayıdanda dərinə saman təpəcəyəm. — Mühafiz cibindən yekə güllü bir parça qırığı çıxarıb tərini sildi, sonra daz başındakı bir qom tükə tumar çəkdi.

— Başqa kəndləri demirəm, amma onu bilirəm ki, Əli Şimşəyin qorxusundan rəis Əlincə ətrafındakı kəndlərin camaatına yaxın düşə bilməz. Dağalar qorxularından həmin kəndlərin yan-yöbrəsindən keçə bilmirlər. — Dərban həmsöhbətinə ürək-dirək vermək istədi, onu fikirli görüb əlavə etdi: — burada deyiblər də qışda yorğansız, yayda ayransız kəndli. — Özü də bilmədən mühafizin yaralı yerinə toxundu.

— Ə, İman, ayran dedin, kəndimiz yadıma düşdü... İndi ola burada qara qoyunun südünnən çalınan qatıq, bir səhəng də Dağdağanlı bulağın buz kimi suyundan.

— Qızlar bulağı"nın suyundan olsa olmaz? — Dərban mühafizin sözlərinə düzəliş verdi. Mühafiz tez razılaşdı:

— Ə, niyə olmur, ə, olar! Elə-belə, sözgəlişi dedim... Ə, bilirsən

Dağdağanlı bulaq niyə birdən yadıma düşdü? Zərişlə Dağdağanlı bulağın başında bir-birimizə könül verməmişik... Unuda bilmirəm oranı.

— Mühafiz köks ötürdü. — Söhbətim harda qaldı;.. Hə, ovduqda... Deyirəm qatığı çalasan, suyu da tökəsən üstünə. Eləyəsən bir badya ovduq. içərisinə də doğrayasan quru təndir lavaşını, çırtasan üstünə təzəcə dərilmiş şüyüdü, keşnişi, bir az da qatasan sarımsaq... Bəhbəh! Sonra biləyini çırmayıb alasan əlinə taxta qaşığı, düşəsən bu ovduğun üstünə, iç ki, içəsən, iç ki içəsən! Dönüb olasan nağara kimi. Görüm onda bu isti sənə nə eləyir?

— Mühafiz nədənsə qəhərləndi, sözlərinə ara verdi. Dərbanın ürəyi yumşaldı, bardaqdan mis cama su süzüb ona uzatdı. Mühafiz camı alıb bir-iki qurtum içdi, qalanını döşəməyə səpdi.

— Yəqin isinib, hə? — Dərban peşman-peşman soruşdu.

Mühafiz dərbanın sualını cavabsız qoyub sözünü dedi:

— Bir dəfə rəhmətlik anam nehrə çalxalayırdı. — dərban da rəhmət oxudu, mühafiz də onu cavabsız qoymadı və sözünə davam etdi: — O qədər ayran içdim ki, ayaq üstə dayana bilmədim. Nə eləyim, xasiyyətimdi, qatıq, süd, ayran görən kimi deyirəm bir çəllək ola, dolduram ağzınacan, soyunub girəm içinə, həm çiməm, həm də içəm...

Dərban ucadan güldü:

— Oyunun olsun, Duman!

Eşikdən səs gəldi, mühafiz məqfərini başına qoydu, nizəsini götürüb cəld bayıra çıxdı və dərhal da geri qayıtdı.

— Kimdi? — Dərman demisinin külünü boşaldıb əbasının cibinə qoydu. Keçə papağını başından götürüb dihinə keçirdi, bir barmağının dırnağı ilə əmgəyini qaşıdı.

— Kim olacaq, çor dəymiş rəbat iti... Dedim bu qaraulbaşıdı.

— Duman, indi burda qaraulbaşı nə gəzir? Demək olar ki, zərə öz kefində-damağındadı... Ara xətvət, tülkü bəy... Saray sahibi yola düşən kimi elə bil qurbağa gölünə daş atıblar. Görmürsən gediş-gəliş nə azalıb... — Dərban gileylənib öz-özünə xeyli deyindi.

— Ə, İman, deyərlər tövlənin də bəzəyi at-eşşəkdi. — Mühafiz siçanquyruq sarı bığını tumarladı, sonra kürəyinin açıq qapının çərçivəsinə sürtdü, xeyli sağa-sola əyilib qalxdı, qırıq-qırıq dedi:

— Deyir, rəisin başı yenə yaman qarışıb eyş-işrətə... İşi-peşəsi gündüz şərab içməkdi, gecələr də cariyə oynatmaq... Bir də yaxşı eləyir, qoy oynatsın, kişiyə elə bu dünyada o qalacaq!

— Düman, elə ki, görürəm elə saraya can-başla qulluq edənlərin

içərisində bircə nəfər varsa o da Əbubəkr oğludu. Görürsən nə iş başlayıb? — Dərban otağın balaca pəncərəsindən boylanıb baxdı. — Sərdabə az qala iki adam boyu qalxıb... Deyir bir az da qalxandan sonra başlayacaq üzlük vurmağa. Dəbir dünən yaman tə'rifləyirdi. Deyir vallah bir üzlüklər hazırlayıb ki, iki göz istəyir naxışlarına, bəzəyinə tamaşa eləsin!..

Mühafiz də irəli çıxıb dərbanın çiyni üstündən eşiyə boylandı.

— Ə, İman, kişi sənətkardı da!.. Əbubəkr oğlunun qabiliyyəti allah vergisidi, Kəniseyi-Babək haqqı!... Adamda gərək insaf ola, zərgər işi görür. Özü də deyəsən sərdabəni çox yekə götürüblər. İnan ki, lap Elalnı boyda olacaq! — Mühafiz dediyinə özü də qüvvət verdi: — Qoy götürsünlər, qoy olsun. Bu şəhərə də adı dilə-dişə düşən bir tikili gərəkdi, ya yox! — Bu dəfə siçanquyruq bığlarının ucunu eşdi.

— Duman, axı hamı sən düşünən kimi düşünmür! — Dərban heyfsiləndi.

— Deyir rəis kömək eləmək əvəzinə Əbubəkr oğlunun işinə pəl vurur, bədəninə gedir. Çalışır ki, onu saray sahibinin gözündən salsın, nüfuzuna xələl gətirsin, adına şər-şamata düzəltsin.

— Bu ki dəyyusluqdu! Niyə belə edir dəyyus oğlu?

— Elə mən də onu deyirəm də! — Dərban oyalandı. — Cahan Pəhləvan kişilik edib səni davaya aparmadı, dedi ki, qal burda, divanxana işlərini icra elə. Sən də əvəzində başlamısan eyş-işrətlə məşğul olmağa. Axı insaf da yaxşı şeydi... Oğullar dava meydanında qan axıtsın, baş qoysun, sən də burada kef edəsən, içib keflənəsən. bu da kişilikdi?.. Bir də Nəsrin xatunun ərindən bundan artıq nə gözləmək olar?..

Nəsrin xatunun adını eşidən kimi mühafizin elə bil gözləri işıqlandı, oturduğu götüyün üstündən qalxıb belini düzəltdi, yumruqlarını kürəyinə sarı aparıb quluncunu qırdı.

— Ə, İman, imanın olsun! Onun adını çəkmə, sinəm göynədi! O günü yenə görmüşəm. bir də görəm ağzım dolub milçəynən, sən demə huş məni aparıb, ağzım açıq qalıb...

— Qoy görək, sən allah! — Dərban yenə ucadan güldü. — Oyunun olsun, ay Duman!

— Dəyyusun qızı isti olduğu üçün ağ Təbriz ipəyindən uzun bürdə[1] geymişdi. Bilinirdi ki, altda heç nəyi yoxdu. Vallah sinəsi, çiyinləri, yan-yörəsi elə titrəyirdi, elə əsirdi, deyirdin bə bürdənin içərisinə dələmə doldurublar, quyruq doldurublar. Deyirdin elə gedib qabağında diz çöküm yalvarım ki, al canımı, vur boynumu, tök qanımı. Qoy

1. Yst geyimi.

aləm bilsin ki, sənin əlinlə qətlə yetirilən o xoşbəxt bəni-Adəm mənəm!..

— Duman, deməк olar ki, sən əməlli-başlı Məcnun olub getmisən!

— Dərban diqqətlə mühafizə baxdı, — bura bax, zarafat edirsən, ya doğru sözündü?

— Nə bilim. — Mühafiz bir an həmsöhbətinə maddım-maddım baxdı və dedi: — Heç özüm də bilmirəm...

Aralığa sükut çökdü. Dərban mühafizin əhvalında dəyişiklik hiss etdi, ona elə gəldi ki, gecə-gündüz əlində nizə gəzdirən bu ürəyiaçıq saray xidmətçisinə nəsə bir xata toxunacaq...

— Gördün, həyasız Xəlilin başına nə oyun gətirdi? — Dərban xəbərdarlıq edə-edə bardağı götürüb bayıra çıxdı. Mühafiz təzədən götüyün üstündə oturdu, kürəyini divara söykəyib fikrə getdi...

...Gecədən xeyli keçmişdi. Elalnının üstünə sallanan səmanın dərinliyində ara-sıra görünən ulduzlardan başqa işıq saçan heç nə gözə dəymirdi. Sarayın darvaza qapısının üstündə fənərlərin piyləri də əriyib qurtarmışdı.

Gecələr Naxçıvanın əsas küçələri məş'əllərlə, fənərlərlə işıqlandırılırdı. Atabəylər meydanın qabağından uzanan küçəni kəsən iplərin üstünə isə şüşələri müxtəlif rəngli çoxlu kiçik fənərlər asılırdı.

Yəzd-kürd tərəfdən zəif sazaq əsirdi. Otaqlardan səs-küy eşidilirdi. Özü də müxtəlif sədalı səslər. Biri fəryad idi, biri sevinc, biri kaman səsi kimi qəmli idi, biri bülbül səsi kimi şaqraq...

Cariyə mənzilləri darısqal idi, balaca idi. Ancaq eyş-işrət üçün, əylənmək üçün, kef çəkib şənlənmək üçün hər şey var idi. Cariyələr üzərində müxtəlif daş-qaşlardan, qızıl cıqqalar işlənmiş ipəkdən, atlasdan paltar geyinirdilər. Tellərinə qızıl telbasanlar taxır, saçlarına gümüş gövbasanlar sancır, topuqlarından üstü bəzəkli xalxallar asırdılar. Bu, hərəmxana işlərinə baxan pişxidmətin, məşşatənin qoyduqları qayda-qanun idi. Bu qaydanı isə pozmağa heç kimin haqqı çatmırdı.

Bu balaca darısqal otaqlarda qara hörüklü, xoş təbəssümlü, sədəf dişli, qırmızı yanaqlı, ağ buxaqlı qızlar gecələr göz yaşı axıdır, gündüzlər də ah-vay edirdilər. Çox vaxt da ipək vəç qumaş geyib, qiymətli daş-qaşlardan düzəldilən bəzəklərini taxıb, boyunlarından Süleymani asıb, güzgü qabağında əyləşərək saatlarla özləri özlərinin gül camalına tamaşa edir, boy-buxununu ölçüb-biçir və birdən də hönkür-hönkür ağlayırdılar. Deyinməyə də, giley-güzar etməyə də ixtiyarları yox

idi bu biçarələrin. Birinin dilindən pis, ədəbsiz söz çıxan kimi rəisin ovcuna qoyulurdu. Elə bil bu balaca otaqların hər birinin ayrıca qulağı var idi. Özü də iki yox, dörd yox, altı... Yeganə əyləncələri ud, cəng çalmaq idi qızların, mahnı oxumaq, nağıl danışmaq idi, ədəb-ərkandan kənar lətifələr söyləmək idi...

...Gecənin bir vaxtı Xəlil yuxudan ayrıldı... Əynində ağ paltar dəhlizdə gəzinməyə başladı. Axı o buna adət etmişdi. Gecələr tez-tez kəniz, cariyə otaqlarına boylanardı, qapı açandan sonra sarayda qalan qızların üstündən gecə-gündüz nəzərlərini çəkmirdi. O, vəzzan qızı qalan otağın qapısında dayandı. Pərdəni qaldırıb içəri baxdı. Qız çarpayının üstündə dizlərini qucaqlayıb ağlayırdı. rəis onun mənliyini bir həftə olardı ki, tapdalayıb ayağı altına salmışdı. O özünü öldürmək istəsə də bacarmamışdı. Çıxıb qaçmaq istəmişdi: hara qaça bilərdi. Qurğuşun kimi ağır, qatran kimi qara gecələrdə kimsəsiz bir qız uşağı hara gedə bilərdi, kimə pənah apara bilərdi?.. Xəlil pərt oldu, nədənsə qıza yazığı gəldi. Qapıdan uzaqlaşdı. başı aşağı dəhlizdə var-gəl etdi. Ancaq dayana bilmədi. Otaqlardan birinin pərdələri tamam örtülmüşdü, əyilib açar yerindən baxdı. Şam işığında içəridə baş verənləri seçə bildi. Bu dəfə rəis özü qaydanı pozmuşdu. Otaqda bir özü idi, bir də Şərur məlikinin göndərdiyi nəccar qızı...

Xəlil bu əyləncəni əvvəldən axıra kimi açar yerindən müşayiət etdi, hər şeyi də gördü. Açar yerindən dünya onun gözlərindən xeyli kiçildi, rəissə tamam alçaldı. Az qala qapını çəkib həncamədindən çıxarmaq, şit hərəkətlər edən rəisin üzünə tüpürmək istədi. Ancaq bacarmadı. Bacarmadı deyəndə ki, qorxdu, necə deyərlər, lap südü qaçdı. Və rəisin xofu birdən onu elə basdı ki, balacalaşıb lap cırtdan boyda oldu. Kürəyini divara söykəyib xeyli tərpənmədi. Sonra pəncələri üstə ehtiyatla qapıdan uzaqlaşdı. İndi o, heç nə görmürdü. Dünya onun üçün zülmətə dönmüşdü. Əllərini divarlara sürtə-sürtə öz mənzilinə qayıtdı, soyunmadan xalçanın üstünə üzüquylu uzanıb hönkür-hönkür ağladı...

Birdən dəhlizdən səs gəldi, cür'ət edib otağından çıxmadı, qapını yavaşca aralayıb baxdı. Rəis idi. Nəccar qızının otağından çıxıb dəhlizlə oğrun-oğrun gedirdi. Xəlilin ürəyindən axıb gələn səslər dilində pıçıltıya çevrildi: "Özününkünün ipini yığa bilmir, törətdiyi əməllərə bax... Dənaətkar[1] köpək oğlu?.."

Yata bilmədi. Qalxıb şamı yandırdı, mizin üstünə qoydu. Dibaçyə uzanıb gözlərini şama dikdi, şam əridikcə, ürəyinin yağı da əridi...

1. Alçaq, rəzil.

Gecə yarısı yuxuya getdi və tez də gördüyü yuxunun dəhşətindən sərsəm kimi ayıldı. Yuxuda görmüşdü ki, rəis olub canavar, nəccar qızı da ceyran. Canavar ceyranı yerə yıxıb parçalayır. Onun qanı axıb yaşıl çəməni qırmızı rəngə boyayır. qan get-gedə çoxalır, sonra alova dönür. Alov sürünə-sürünə Xəlilə tərəf gəlir, onun əl-ayağını, sifətini qarsıb yandırır...

Xəlil yorğanı üstündən götürdü, bərk tərləmişdi, bədəni od tutub yanırdı, yandıqca da buğlanırdı. Bayıra çıxdı. Zülmət gecə idi, Naxçıvana xas olan zülmət gecə. Göydə bir ulduz da görünmürdü. Xəlil fikirləşdi: "Nə yaman qaranlıqdı bu gecə... Lap mənim bəxtimə, taleyimə bənzəyir. Sizi icad edənə lə'nət, min lə'nət həm işə gündüz olsaydı· nə olardı?.. Dağılardı ərşi-fələk, yoxsa yerlə-yeksan olardı kürreyi-ərz?.."

Birdən nə fikirləşdisə içəri qayıtdı, otağındakı balaca kuzədən piyaləyə şərbət süzdü, içərisinə də nəsə atdı. Sonra becit addımlarla dəhlizdən keçib indicə rəis çıxan otağın qapısında dayandı. Bir an fikrə getdi...

...Səhər heç kim bilmədi ki, həmin gecə Xəlil rəisin arvadı Nəsrin xatunun saxta öpüşlərinə, ağappaq sinəsinə aldanaraq cariyə qıza zəhər verib onu qətlə yetirmişdi...

Nəsrin xatun şəhərdə ən gözəl övrətlərdən biri idi. Ətli dodaqları öpüş üçün yaranmışdı elə bil. Bu əndamlı gəlin üçün allahtaala hansı qələm lazımdısa onu da çəkmişdi, özü də səxavətlə... Nəsrin xatun xəyala dalmağı da, xoşuna gələn kişilərlə ürəyində əylənməyi də çox sevərdi... Rəisin arvadı gecə olan kimi gözlərini yumub öz aləminə qapılardı. Bə'zən gecələr yatağına girəndə dili də dinc durmazdı, öz-özünə yavaş-yavaş pıçıldadı: "Buramı qucaqla... buramı dişlə,.. buramı öp..." Bütün bunlara baxmayaraq nəsrin xatun başqalarını odsuz-alovsuz yandırdığı halda, nəfsi iti kişilərin sinəsinə dağ çəkdiyi halda, öz kişisinin gözündən düşürdü. Düzdür, rəis bunu üzə vurmasa da, diyarbəkirli tacirin qızına yalandan mehribanlıq göstərsə də, Nəsrin xatun ərindən bir kişi kimi əlini çoxdan üzmüşdü...

Elə rəisin özü də ondan əlini üzmüşdü. Hələ bir dəfə başı üstündə olanda şair Kəmaləddin Naxçıvaniyə demişdi: "Nə qədər əziz və ləziz xörək olsa da, çox yeyəndə adamda ikrah hissi yaranır, bezirsən, iyrənirsən..."Buna baxmayaraq rəis nəccar qızı ilə əylənən gecə Nəsrin xatun da çox narahat idi. Bir müddət yatağında xumarlandı, sonra durub yerə salınmış Herat xalçasının üstünə uzandı, dirsəkləndiyi yas-

dığı kişiyə bənzədib gah üstünə sərildi, gah da sinəsi üstə qaldırdı. Ancaq yastıq elə yastıq idi — cansız, nəfəssiz... halbuki rəisin arvadı neçə vaxt idi ki, sinəsi üstə isti bir nəfəsin həsrətilə yanıb yaxılırdı...

İçərisindən kəsilə-kəsilə qalan Nəsrin xatunun yenə gümanı qaravulbaşına qaldı. Pəncərəni pçıb həyətdə gəzinən qaravulbaşını yanına çağırdı.

Ucaboy, enlikürək bir kişi olan qaravulbaşı içəri girən kimi Nəsir xatun ötkəm səslə dedi:

— Keç, soyun!

— Xatun, bəs deyil?.. Axı sahibkar bilsə...

— Bilməz. Başı bərk qarışıqdı. Pəhləvan gedəndən sonra yaman əl-qol açıb sənin rəisin... Bir də bu zülmət gecədə səni kim görür ki, desin. Becid ol!

— Birdən... birdən özüm dedim. Dedim ki, cənab rəis...

Nəsrin xatun qəhqəhə çəkib güldü. Otaqdakı çılçıraqların büllur dənələri hərəkətə gəlib silkələndi. Qaravulbaşı diyarbəkirli tacir qızının belə gülüşünü eşitməmişdi...

— Sənə kim inanacaq ay axmaq! Rəis bir söz deyən kimi dilini soxursan güngörməzinə. Amma mənim bir sözüm burda iki deyil. Hökmdar fərmanından da, rəis hökmündən də kəsərlidi Nəsrin xatunun dedikləri! Bilirsən niyə? — Sualına özü də cavab verdi: — Çünki isti dodaqlarım var, al yanaqlarım var, mərmər sinəm var... Qoy görüm daha nəyim var? Hə, hə, çox şirin dilim var özü də baldan şirin. Elə dil ki, ilanı yuvasından çıxarar, ən qorxmaz igidi atdan endirər. Qabağımda diz çökdürər... Mənə Diyarbəkir gözəli Nəsrin deyərlər! Bildin, ay axmaq! Soyun gəl! Becid ol! Bu gecə mənim gecəmdi... Görəcəksən bu gecədən necə hayıf çıxır tacir qızı...

Qaravulbaşının elə bil ayaqlarını yerə mıxlamışdılar, ancaq Nəsrin xatunun sözlərindən yavaş-yavaş sıvılıb gedirdi, gözləri ət görmüş pişik kimi haləsindən çıxırdı. qarabuğdayı sifətində qorxu ilə ehtiras-qarışıq hisslərin cizgiləri özünü yavaş-yavaş büruzə verirdi.

Onun bu halı Nəsrin xatunun xoşuna gəlirdi həmişə. Birdən acıqlanıb:

— Yaxşı! Yaxın gəl. — dedi. — Gözünü niyə döyürsən, ay qanmaz. Yoxsa pirinə şıllaq atırsan? — Nəsrin xatun onun sinəsindən yapışıb içəri ötürdü, qapını arxadan kilidləyib onun ağışına atıldı...

Qaravulbaşı da qolunu Nəsrin xatunun belinə sarıyıb onu qucağına çəkdi...

...Dərban içəri qayıdanda mühafiz xəyaldan ayıldı, şair Kəmaləddin Naxçıvaninin ağzı yırtıqlıq edib bir dəfə ona danışdığı gecə əhvalatları da bir anın içərisində qeyd olub getdi...

Dərban bardaqdan mis cama su süzüb mühafizə uzatdı:

— Xəbərdən xəbərin var?

— Ə, nə xəbər?

— Şərur məliki zindanda özünü asıb. Özü də elə dili kəsilən günün axşamı.

— Bu heç yaxşı iş olmadı! — Mühafiz çox laqeydliklə dilləndi.

— Hə, belə-belə işlər!..

— Al iç. Sərindi, buz kimi... Birdəfəlik də yadında saxla ki, "Qızlar bulağı"nın suyu Dağdağanlı bulağın suyundan əskik deyil. Bu bulağın suyunu atabəy-ə'zəm də xoşlayırmış. İndi də sarayın ikinci sahibi...

— Ə, İman, niyə bilmirsən ki, ha, hər kəs öz ata-baba yurdunu cənnət bilər? Mənə də elə gəlir ki, hətta cənnətdəki Zəmzəm bulağının özü də bizim Dağdağanlının yanında heç nədi.

— Duman, mən təslim. — Dərban güzəştə getdi.

— Ə, İman, təslim dedin, hökmdar yadıma düşdü. Səhərdən o qədər lağlağılıq elədim ki, əsas mətləbi unutdum... Özü də guya gəlmişəm ki, sənə şad xəbər verəm. Marağa qazısı Cahan Pəhləvanın adını eşidən kimi, şəhərin darvazasını açıb ki, buyur keç, mən təslim. Fələkəddinin dərsini vermək isə sənin öhdənə. — Mühafizin sifətində işıq göründü, siçanquyruq bığlarının ucunu eşdi. — Sə'dəddin Maraği ağıllı tərpənib, qıymayıb ki, havayı qan tökülsün... Bir də Cahan Pəhləvanın zərb-dəstinə bələddi axı!..

Dərban dinmədi, sonra bardaqdan mis cama su süzüb bir-iki qurtum içdi, köşkün astanasına keçdi, qalanını ovcuna töküb üzünə çırpdı.

— Duman, amma inanmıram ki, Fələkəddin Marağanın qazısı kimi ağıllı tərpənə! — Dərban bardağı yerə qoyub yaş əllərini açıq sinəsinə çəkdi. — Bilirsən ki, mən o yolları yaxşı tanıyıram... hesablamışam. Sabaha-birisi günə Cahan Pəhləvanın qoşunu Hələ-həlbət Təbrizə varid olacaq...

## YURDUN QƏDİM MƏKANLARINDAN BİRİ

Cahan Pəhləvan Təbrizə girmədi, hava isti olduğu üçün bütün gecəni yol gələn qoşuna sübh tezdən əmr verib Ruindəj qalasının ətra-

fındakı düzənlikdə əyləndirdi.

Az vaxt ərzində çadırlar quruldu, atlar yançıdar olundu, başlarına torba keçirib örüşə buraxıldı. Ocaqlar qurulub qazanlar asıldı. Qoşuna səhər yeməyi üçün dinclik verildi.

Cahan Pəhləvan qızıl qübbəli, güləbətin qotazlı qırmızı rəngli çadırına çəkilib bir müddət istirahət etdi. Gün günorta yerinə qalxanda Sə'dəddin Əsədi və oğlu Əbubəkri çadırına çağırdı. Məqsədi əvvəlcə ən yaxın adamları ilə məşvərət etmək idi.

Vəzir soruşdu:

— Hökmdar, qoşunu əyləndirməkdə məramınız nədir?

— Qan tökmək istəmirəm. — Cahan Pəhləvanın cavabı çox qısa və ötkəm oldu. Sə'dəddin Əsədin yaşına görə çox diri görünən gözləri hökmdarın sifətində ilişib qaldı, ağıllı baxışları ürəyindən keçənləri dərhal büruzə verdi.

— Xeyirxah niyyətdi! — Vəzir gülümsədi. — Amma... qansız müharibə necə ola bilər?

— Deyirsən yə'ni olmaz?

— Olar, — Vəzir bu dəfə hökmdarın eyhamını dərhal başa düşdü, — amma bunu gərək düşmən tərəf də arzu edə axı...

— Vəzir, bilirsən nə var?.. Fələkəddin Əhmədin ağlını və ağzını bir də sınamaq istəyirəm... Bəlkə qonşusundan nümunə götürmək istədi?..

— Hamıdan Marağa qazısının səxavətini ummaq?.. — Sə'dəddin Əsəd çiyinlərini çəkdi. — Bir də...

— Deyəsən nəyisə bilib deməyə tərəddüd edirsən...

— Necə deyim... Heç özüm də bilmirəm... Belə məqamda bəd xəbər...

— Nə bəd xəbər?! — Əbubəkr də maraqlandı.

— Ən yaxın bir dostumun gətirdiyi mə'lumata görə Dağdadda söz-söhbət gəzir ki, əleyhinizə qəsd hazırlanır. — Vəzir ürəyindəkiləri dedi:

— Mərhum atabəy-ə'zəmdən həmişə bədgüman olan xəlifə əmirəlmö'min bu işi öz vəziri Əunəddin ibn Xübayraya həvalə edib... Xübayra da ki, allahı belə yolundan çıxara bilər...

— Mən də inanmıram ki, mənim soltan əmim belə bir rəzalətə qol qoya!

— Söhbətlərə sakitcə qulaq asan və çadırda uzun sürən sükutdan elə bir darıxan Əbubəkr başını bulayıb qəti e'tiraz etdi və əlini qılın-

cının qızıl dəstəyinə atdı: — Onda mən özüm onun... Cahan Pəhləvan sağ əlini yuxarı qaldırdı. Əbubəkr atasının qırımını görüb sözünü yarımçıq kəsdi. Bu, o demək idi ki, cavanlıq eləmə, onun belə bir məramı olsa cəzasını özüm verərəm. məni ki, bütün qohum-əqrabalı yaxşı tanıyırsız...

Ürəyindən bu sözlər keçsə də, oğlunun qartal baxışına, şux qamətinə, səliqəli döyüşçü geyiminə baxıb daxilən xeyli fərəhləndi. Axı belə vaxtlarda igid nə qədər çox arxalı olsa bir o qədər yaxşıdı...

— Vəzir!..

— Bəli, hökmdar.

— Bu mə'lumatı eşitmisən, eşitməmiş ol!

Sə'dəddin Əsəd ani fikrə getdi və birdən hökmdarın eyhamını başa düşdüyü üçün:

— Baş üstə, hökmdar. — dedi.

— Və həmin mə'lumatı bizə demisən, — özünü və oğlunu göstərdi. — deməmiş ol!

— O da baş üstə.

— Bu mə'lumatı qoşun başçılarından, əsgərlərdən bircə nəfər bilən olsa Soltan Məs'udun vəziri əl-Xəzinin başına gələni sənin başına gətirərəm! — Çadırın dirəyindən asılan qızıl dəstəkli qılıncına baxdı. — Təbrizi bu gün bir yox, iki qoşun mühasirəyə alıb... Və bu iki qoşunun da iki sərkərdəsi var... Gərək olsa Ruindəji mən özüm fəth edərəm, vəliəhd Əbubəkr saqqızı xilafət tərəfindən oğurlanan məl'unların dərsini necə lazımdı, elə də verər. Hələ mənim əmrimi gözləyən Qızıl Arslanı demirəm. Azərbaycan Atabəylərinin bayrağını biz hələ çox ucaya qaldırmalıyıq... Çox-çox ucaya! — Hökmdar söhbətin uzanmasına imkan verməmək üçün elə həmin anda da əlavə edib dedi: — Biz Fələkəddin Əhvədin yanına elçi göndərməliyik və ona təklif etməliyik ki, Təbrizi bizə təslim etsin... Və onu da ona çatdırmalıyıq ki, biz şəhəri zəbt etmək, əhalini qırmaq, qarət etmək istəmirik. Belə bir niyyətimiz də yoxdur. Biz istəyirik ki, Təbriz Azərbaycan Atabəylər dövlətinin tərkibinə daxil olsun. Biz buna nail olandan sonra qoşunu geri çəkəcəyik, Ruindəjin mühasirəsini ləğv edəcəyik və hətta Arslan Əbanın oğlunun özünü yenə şəhərin hakimi saxlayacağıq... Əlbəttə, bizim təklifimizi qəbul etsə... Ağlını başına yığsa. — Cahan Pəhləvan danışa-danışa Dəməşq poladından tökülmüş dəstəyi ağ minalı qəddarə qılıncını çadırın dirəyindən götürdü, Əbubəkr belinə bağlamaqda ona kömək etmək istəyəndə. — Əl vurma, — dedi, — özüm! — Qılıncı çox

səliqə ilə belinə bağladı, sonra vəzirə sərəncam verdi:

— Əyləş, dediklərimi yaz, kimi göndərsək namə də aparmalıdı, dilcavabı olmasın, rəsmi olsun. Biz Əhmədili törəməsi ilə çilingağac oynamağa gəlməmişik. — Bu dəfə də Əbubəkrə tərəf döndü: — Çıx əmr elə, qoşun bir yerə cəm olsun.

— Baş üstə! — Əbubəkr cəld çadırdan çıxdı.

— Vəzirin mənim tədbirimə e'tirazı yoxdur ki?

— Xeyr. Mən hökmdarın xeyirxah niyyətini başa düşürəm və bəyənirəm... Göndərək elçini, amma ehtiyatı da əldən verməyək.

— Mütləq!

Cahan Pəhləvan vəziri içəridə qoyub çadırından çıxdı. Qoşun balaca təpənin üstündə qurulan hökmdar çadırının qabağındakı düzənlikdə səf-səf düzülüb əmrə müntəzəm dayanmışdı. Hamının sir-sifəti sərt və əsəbi idi. Qoşun başçıları da, əsgərlər də müharibənin nə olduğunu gözəl bilirdilər... Bu qitaldan[1] sonra dostun dostunu itirəcəyini, çox evlərin qapısının bağlı qalacağını, körpələrin yetim böyüyəcəyini, gəlinlərin ərsiz ömür sürəcəyini çoxu ürəyində götür-qoy edir, bə'zisi hökmdara haqq qazandırır, bə'zisi də onu lə'nətləyirdi. Ancaq heç kim ürəyindən keçənləri büruzə verə bilmirdi...

— Biz Təbriz hakimi Fələkəddin Əhmədin yanına elçi göndərməliyik. — Cahan Pəhləvanın ötkəm səsinə hamı qulaq kəsildi, çünki onun səsində bu gün qəribə bir cazibədarlıq var idi. Bu səs saraydakı hökmdar səsinə bənzəmirdi. Bu səs Təbriz düzənliyində dayanan qoşunu çətin döyüşlərə aparacaq müqtədir bir sərkərdənin səsi idi: — Bu tapşırığı könüllü icra etmək istəyən varsa irəli çıxsın! — Cahan Pəhləvan sağa, sola baxdı. Şüvərək bədənli, enli kürəkli cavan bir əsgər dərhal qoşunun içərisindən irəli çıxdı, gəlib hökmdarın qənşərində dayandı, cərgələrdən irəli çıxan bir neçə əsgər isə ondan geri qaldıqlarını görüb daha qabağa gəlmədilər. Cavan əsgər artıq sağ dizini yerə qoyub qılıncının ucunu torpağa söykəmişdi...

— Mən sizin əmri icra etməyə hazıram, hökmdar... Təbrizin bu müqəddəs torpağına and içirəm ki, — qılıncının ucunu dizinin önündə torpağa sancdı, — bu torpaqda başımı belə versəm, uf demərəm... İzn verin, hökmdar! İzn verin!...

Cahan Pəhləvan işarə etdi, əsgər ayağa durdu. Hökmdar məxfərinin altında onun pörtmüş sifətinə, ətli çiyinlərinə baxdı. Bu əsgərin sifəti ona tanış gəldi. Ancaq indi bu barədə fikirləşməyə vaxt yox idi. Elə bu anda Sə'dəddin Əsəd çadırdan çıxıb onlara yaxınlaşdı və ağ Sə-

1.Qanlı vuruş.

mərqənd kağızından olan müshəfi[1] Cahan Pəhləvana uzadıb dedi:

— Hazırdır, hökmdar.

Cahan Pəhləvan müshəfi vəzirdən alıb cavan əsgərə verdi. O da cəld geriyə dönüb qaça-qaça atına tərəf getdi. Yəhərə qalxmaqla Ruindəjə çapması bir an çəkdi...

Bütün qoşun əhli başını sol çiyninə tərəf çavirib cavan süvarinin arxasınca baxdı.

Cahan Pəhləvanın da, vəzirin də, Əbubəkrin də nəzərləri Ruindəjə tərəf çevrildi. Qalanın üstündə görünən fərraşlar yox oldular. Bir-iki nəfər gözətçi qaldı.

— Gördülər. — Əbubəkr xəbərdarlıq etdi.

— Qoy görsünlər. — Cahan Pəhləvan dərindən nəfəs aldı.

— Darvazanı açdılar. — Bunu da Sə'dəddin Əsəd dedi.

Cavan əsgər darvazanın açıldığını görcək atını dördnala çapıb içəri adladı. O, gözdən itən kimi darvaza bağlandı və qalanın üstündə gəzinən gözətçilərin də bir neçə nəfəri yox oldu.

Cahan Pəhləvan yerində qərar tuta bilməyib təpənin dikdirinə qalxdı, ətrafa göz gəzdirdi. Fikrə getdi: "Ay Əhmədli törəməsi, gəl sən mən deyənə qulaq as, qoy bu Təbriz düzənliyi nahaq qana boyanmasın..."

Elə bu vaxt onun başının üstündən bir neçə qarğa uçub keçdi, onların zəhlətökən səsi hökmdarın qulaqlarına dolub beyninə işlədi. Nədənsə ürəyi bulandı, mə'dəsində bir ağrı hiss etdi... Dönüb vəzirlə Əbubəkrə baxdı. Onlar bir tərəfə çəkilib məşvərət edirdilər...

"Ay namərd, sən gəl mən deyənə qulaq as... Mən də oğul itirmək istəmirəm... Mən heç kimi itirmək istəmirəm... "Bayaqkı fikir Cahan Pəhləvanın ürəyinin dərinliyindən axıb yenidən beyninə işlədi...

Meydangərd[2] qoşun qəfil qasırğaya düçar olan dəniz kimi təlatümə gəldi. Əsgərlər arasında səs-küy qalxdı:

— Asilər!

— Nakişilər!

— Xainlər!..

Hamı Ruindəjə tərəf baxdı. Qalanın darvazası açılmışdı. Bayıra buraxılan at yavaş-yavaş onlara tərəf gəlirdi. Yəhərdə qanına qəltan olan və iplə yəhərə sarılan əsgər oturdulmuşdu. Onun bədəni başsız idi...

Əbubəkr bir göz qırpımında kəhərin belinə sıçradı, bşsız atlının

1. Lülə halında bükülmüş kağız.
2. Vuruşa hazır dayanan.

qarşısına çıxdı. Vəliəhd qətlə yetirilmiş əsgəri yaxından görən kimi əvvəlcə əlləri ilə gözlərini qapadı, sonra atından endi, onun atının yüyənini yalından qaldırdı, çəkə-çəkə gətirib atasının qənşərində saxladı.

Əbubəkr başını sinəsinə endirmişdi... Hamının üstünə elə bil su səpdilər.

Cahan Pəhləvan da, Sə'dəddin Əsəddə üzlərini yana çevirdilər.

Cavan əsgərin kəsilmiş başı qucağına qoyulmuşdu. Ən dəhşətlisi də o idi ki, əsgər oğlan deyildi, qız idi. Qana bulanan şəvə kimi saçları məxfərinin altından çıxıb yəhərin üstünə sərilmişdi. Kilidlənmiş dodaqları arasında isə dördqat bükülmüş qan ləkəli məktub var idi. Əbubəkr məktubu götürüb atasına verdi. Hökmdar də Sə'dəddin Əsədə uzatdı. Vəzir sakitcə oxudu. Məktubda istehza ilə bircə cümlə yazılmışdı, özü də cavan əsgərin öz qanı ilə: "Yə'ni qoşununda bir nəfər başı papaqlı yox idi..."

Cahan Pəhləvan irəli çıxdı, yəhərin üstündə gözləri açıq qalan başa diqqətlə baxdı, bir də baxdı... Birdən özündən asılı olmayaraq "Tanıdım, tanıdım... Odur, özüdür!" dedi. Ancaq səsi qırılıb boğazında qaldığı üçün özündən başqa heç kim eşitmədi. Bəli, hökmdar igid əsgəri tanımışdı. Başını Təbriz torpağında qurban verən döyüşçünü tanımışdı: O, bir vaxt Naxçıvanda, sarayda rəqs edən yeddi nəfər qızın biriydi. Özünü Əli Şimşəyin bacısı kimi, Əcmənin qohumu kimi qələ verən Cahannur idi, onun saraydan azad etdiyi Cahannur...

Cahan Pəhləvan haradan biləydi ki, oğlan adıyla Pir Cüvarında onun qoşununa daxil olan və özünü düşmən sarayında çox mərd və yenilməz aparan cavan əsgərin boynunu vurdurandan sonra Fələkəddin Əhməd onun kim olduğunu bilmişdi, həm də sarsılmışdı və qeyzindən belə bir oyun düzəltmişdi...

... Cahan Pəhləvanın göstərişi ilə Cahannurun başını da, bədənini də atdan endirdilər. Bir neçə döyüşçünün nizələrini uzununa, qılınclarını eninə düzüb "tabut" düzəltdilər. Cənazəni "tabuta" uzatdılar, üstünə qara əba çəkdilər, sonra çiyinlərinə qaldırıb hökmdarın çadırı qurulan təpənin döşünə gətidilər və orada dəfn etdilər. Cahan Pəhləvan heç kimin ağlına gəlməyən bir hərəkət də etdi: Qəbrə yaxınlaşdı, qılıncını qınından çıxarıb qəbrin aşağısından torpağa söykədi, başını azacıq sinəsinə endirib bir müddət hərəkətsiz dayandı. Hətta öz-özünə danışdı da: "Bağışla, qızım, sən məni aldatdığın üçün günahını qanınla yudun... Bəs mənim təqsirimi kim bağışlayacaq?.. Səhvimi kim əfv

edəcək?.. Sağlıq olsun, ömür vəfa etsə, Mö'minə xatun ananın sərdabəsi tikilib başa çatandan sonra Əbubəkr oğlunu bura göndərəcəyəm... Sənin qəbrinin üstündə sərdabə tikmək üçün. Qoy bu da məndən igid qızlarımıza bir xatirə olsun..."

Ürəyindən bunlar keçə-keçə özünü məzəmmət də etdi ki, qasid əsgərin ayağını üzəngiyə qoyanda, yəhə qalxanda ləng hərəkətlərini görüb nəsə hiss etdiyi halda niyə təfərrüatına varmayıb?.. Hökmdar-sərkərdənin hərəkəti, igidliklə ölən əsgər qızın xatirəsinə böyük ehtiramı bütün döyüşçüləri ayıltdı. Bir anın içərisində qınından çıxan saysız-hesabsız qılıncın tiyələrində bərq vuran günəş şüaları Təbriz düzənliyində bir-birini eninə-uzununa kəsib doğradı.

Neçə-neçə igid diz çöküb Təbriz uğrunda başlanacaq vuruşun ilk qurbanına ehtiram göstərdi, öz əsgəri borcunu ödədi...

Elə bu vaxt qalanın sağ və sol cinahlarında qalxanlı, nizəli, qılınclı süvari dəstələri göründü. Hər şey aydın oldu: qabaqdan qaçmayan Fələkəddin Əhməd qoşununu arxadakı ehtiyat qapılardan çıxararaq düşməni ilə üz-üzə dayanmağa gəlirdi...

Cahan Pəhləvanı diqqətlə baxdı və dərhal da tapdı: sarı ayğırın üstündə qalanın əsas darvazasından çıxıb sağ və sol cinahlardan gələn qoşunun önünə düşən Təbriz hakiminin özü idi...

Fürsəti əldən vermək olmazdı. Mərdliklə qabağa çıxan düşmənə mərdliklə də cavab verməli idi.

Cahan Pəhləvan cəld vəliəhdə tərəf döndü:

— Sən ehtiyatda dayanan qoşunun üstündə ol. Əhmədili törəməsinin qabağına özüm çıxacağam... Cəld tərpən.

— Ata...

Cahan Pəhləvan oğlunun sözünü yarımçıq kəsdi.

— Əmrimə tabe ol, vəliəhd! İcra elə!.. İndi müzakirəyə ehtiyac yoxdur. Mən deməmişəm döyüşə girmə.

— Baş üstə, hökmdar. — Vəliəhdin cavabı da bu dəfə rəsmi oldu.

Cahan Pəhləvan ağ kürəninin belinə qalxdı. Hökmdar-sərkərdəni belə görən qoşun da bir göz qırpımında atlandı.

Təbillər vuruldu, gərənaylar səsləndi...

— Təbriz bizim olmalıdı!..

Qoşun hökmdarın səsinə səs verdi:

— Bizim olmalıdı!..

— Fələkəddinə ölüm!

— Ölüüümmm!..

— Hücum!!!

Məxfərilərin günlüyü gözlərin üstünə endi, qayışları çənələrin altına keçirildi, qalxanlar sinələrə, qılınclar çiyinlərə söykəndi, nizələr qabağa tuşlandı.

Süvari dəstələr irəli cumdular...

Bir-birinin qanına susayan adamlar üz-üzə gəldilər, sinə-sinəyə söykəndilər. Müxtəlif səslər, söyüş və hədə harayları bir-birinə qarışdı:

— Tu... tuun!

— Vu... ruun!

— Kə... siin!

— Bi... çiin!

— Doğ... raayın!

— Qoy... maayın!

Təbriz çöllərinin sakitliyi bir anın içərisində pozuldu. At kişnərtisi, qılınc-qalxan səsləri bir-birinə qarışdı... haray çəkən, ün təpən igidlər qılınclarını sağa-sola işlədə-işlədə düşmən süvarilərini pencər kimi biçib-kəsir, özlərinə yol açа-açа irəli hərəkət edirlər. Bir-birinə aman verməyənləri isə biçib-doğrayırdılar.

Nizələr sinələrə saplanırdı, qarınlara soxulurdu, qılınclar başlara, çiyinlərə endirilirdi, boyunlara işləyirdi... Qanına qəltan olan igidlər isə başını, sinəsini, qarnını, ombasını tuta-tuta atların yəhərlərindən aşıb torpağı qucaqlayır, qan qusa-qusa, səndirləyə-səndirləyə bir neçə addım atıb yerə sərilirdilər... Təbriz düzənliyi qana boyanırdı...

Vuruş sakitləşmir, getdikcə qızışırdı. Gözü qızan əsgərlər isə heç nəyin fərqinə varmadan bir-birini amansızcasına biçib tökürdülər. Sıralar get-gedə seyrəlirdi, sahibsiz qalan atlar isə kişnəyə-kişnəyə özünü ora-bura vurur, irəliyə-geriyə qaça-qaça insan cəsədlərini ayaqlayır, sonra baş götürüb kənarlara dağılırdılar. Bə'ziləri yəhərdə ölən sahiblərinin cənazələrini də özləri ilə çəkib uzaqlara aparırdılar. Sağlar azalır, ölənlər, yaralananlar çoxalırdı...

Cahan Pəhləvan təpənin üstündə, çadırın sağ tərəfində dayanaraq vuruşun gedişini izləyirdi... Seyrəkləşən yerlərə əlavə atlı dəstələri göndərirdi...

Əhmədili tərəfdarları Eldəgəz tərəfdarlarını sıxışdırırdılar...

Əbubəkr atını Cahan Pəhləvanın dayandığı dikdirə çapdı, bir göz qırpımında yerə sıçradı.

— Hökmdar, izn ver mənim süvarilərim də hücuma keçsin.

— Həl bir az səbr et, vəliəhd!

— Səbr etməyə daha qərarım qalmayıb, ata!

Cahan Pəhləvan başını qaldırıb oğlunun qəzəb yağan sifətində cəmləşdirdi. Vəliəhdin baxışlarından hökmdar ataya böyük məhəbbət oxunurdu. Cahan Pəhləvan elə bil ən çox sevdiyi övladını, özünün oğul varisini itirə biləcəyindən qorxurdu...

— Sən özünü əminin yanına yetir. Ona əvvəlcədən çapar göndərib xəbərdarlıq etmişəm. Pusqudadır, de ki, məqamdı...

Cahan Pəhləvan danışa-danışa gözlərini döyüş səhnəsindən ayırıb Ruindəjin üstündən uzaqlara zillədi. Uzaqda qatı toz layları bülənd olub göyə dirənirdi.

— Getməyinə hacət qalmadı... Əmindi!.. Təbrizi arxadan mühasirəyə alır...

— Düzdür, ata! Düşmən qoşununun arxa hissələri seyrəkləşir... Qalanın içərisinə çəkilirlər... Fələkəddin deyəsən bunu gözləmirmiş...

Cahan Pəhləvan diqqətlə baxdı, uzaq da olsa dördnala çapıb Fələkəddin Əhmədin yanına qalxan süvarini görə bildi: o, atından enmədən nəsə dedi və geri döndü. Bir az keçməmiş Fələkəddin Əhməd özü də atını qalaya tərəf sürdü və darvazadan adlayıb yox oldu.

Qızıl Arslan Təbrizi mühasirəyə almışdı...

Ruindəjin arxa qapılarını Əbubəkrin süvariləri kəsdilər.

Cahan Pəhləvanı atın belində vuruşan görən düşmən əsgərləri silahları yerə töküb təslim oldular. Yurdun qədim məkanlarından biri olan Təbriz Azərbaycan Atabəylər dövlətinin tərkibinə daxil edildi...

Cahan Pəhləvan böyük igidlik və mərdlik göstərən qardaşı Qızıl Arslanı Təbrizə hakim tə'yin etdi. Bağdada qaçmaq istəyən Fələkəddin Əhmədi tutub gətirdilər...

Cahan Pəhləvan Həmədana qayıdan kimi Təbrizin Azərbaycan Atabəylər dövlətinin tərkibinə daxil edilməsi münasibətilə Eldəgəzlər xanədanının bütün şəhərlərində el şənlikləri keçirmək barədə məliklərə, əmirlərə, rəislərə xüsusi xəbərnamələr göndərdi. Və xəbərnamələrdə el şənlikləri bitən gündən bir həftə sonra Ruindəjin alınması uğrunda gedən döyüşlərdə həlak olanların xatirəsini yad etmək üçün bir günlük hüzr saxlamağı əmr etdi və məliklərə, əmirlərə, rəislərə onu da xəbər verdi ki, bəd əməllərinə görə Fələkəddin Əhmədin gözlərinə mil çəkdirib zindana saldırmışdır. Bunun üçün isə bütün günah və təqsir Əhmədili törəməsinin özündə olmuşdur. Çünki Eldəgəz ərkəkləri onların təkliflərini qəbul edən düşmənlərinin üstünə heç vaxt qı-

lınc qaldırmırlar...

Xəbərnamə aparan çaparlar atlanıb Gəncəyə, Bərdəyə, Ərdəbilə, Bərzəndə. Beyləqana, Mazandarana, Şəkiyə, İsfahana, Mərəndə, Urmiyaya, Mosula, Səlmasa, Reyə, Səraba, Xuzistana yola düşdülər. Təkcə Naxçıvana çapar göndərilmədi. Sə'dəddin Əsəd bunun səbəbini soruşduqda hökmdar dedi: "Bəlkə Gəncəyə səfərimdən sonra özüm ora qayıtdım... Əbubəkr.oğlunu görmək, onun işindən, əməlindən xəbər tutmaq istəyirəm... Bir də Georgiyə bel bağlaya bilmərəm..."

Dəbir Bağdaddan Həmədana qayıdan günün axşamı təğyirlibas olmamış onu hökmdarın hüzuruna də'vət etdilər.

— Dəbir, indi növbə sənindir, danış.

Dəbir eşidib-bildiklərini, öyrənib-dürüstləşdirdiklərini yerbəyer hökmdara nəql etməyə başladı.

— Mərhum atabəy-ə'zəmin siyasətindən narazı olan, onun ağıl və zəkasına, qabiliyyət və müqtədirliyinə həsəd aparan İraq əmirləri dövlət xəzinəsini, təxt-tacın əmlakını nəzarət altına almağınızdan, bütün qoşunu özünüzə tabe etməyinizdən, ələlxüsus naxçıvanlıların sizi böyük təmtəraqla qarşıladıqlarından, sizə hədsiz sədaqət göstərdiklərindən xəbər tutan kimi özlərini salırlar xəlifənin yanına. Xəlifə əl-Müstədi də xəlvətiyyəsinə daxil olanları həmən-həmən sarayına də'vət edir və ilk sualı da belə olur: "... Eldəgəzlər xanədanı otuz doqquz il bərqərar oldu, bəs eləmədi?.. Mənim sələflərim mərhum xəlifə əl-Müqafi, mərhum xəlifə əl-Müstədid, elə beş il də mən özüm atabəy Şəmsəddinin nazı ilə oynadıq, kifayət deyil?.. Eldəgəzlərin hakimiyyəti süqut etməlidi, vəssalam! Biz atasından siyasətcil və fəndgir olan Nüsrətəddin Əbucəfər Məhəmməd Cahan Pəhləvan ibn Şəmsəddin Eldəgəzin hakimiyyəti öz əlinə almasına razı ola bilmərik... Atabəy Şəmsəddinin təxtində Bağdad əmirliklərinin məsləhət bildikləri adam əyləşməlidir. Onun tacını da başında həmin adam gəzdirməlidir. Bir gün vaxt verirəm, fikirləşin, sabah günorta namazı bitən kimi yenidən yanıma yığışın... İndilikdə mürəxxəssiz..." Amma xəlifə əl-Müstədi səhərisi xəlvətiyyəsinə daxil olan əmirləri qəbul etməkdən boyun qaçırdı...

Bunun da səbəbi o oldu ki, vəzir əl-Xübayra izn alıb tezdən xəlifənin yanıfna qayıdır, düşünüb götür-qoy etdiklərini danışır, danışdıqları da xəlifənin ağlına batır. O da hökm edir ki, vəzir dediklərini onun şəxsi məktubu kimi tərtib etsin və xüsusi mühafizlər götürüb gecəynən də sultan Arslan şahın yanına yola düşsün. Elə bil vəzir də bunu

gözləyirmiş... Sultan Arslan ibn Toğrul... bəli, hökmdar, ibn Toğrul xəbər tutan kimi xəlifə əl-Müstədinin vəziri Xübayranı böyük hörmət və ehtiramla öz imarətinə də'vət edər. Vəzir xəlifənin şəxsi salamını ögey qardaşınıza yetirəndən sonra onun şəxsi məktubunu da sultana təqdim edir. Bu da məktubun surətidir. Görün sultana nə yazırlar: "Sizin mərhum atanız ikinci Toğrul ən ləyaqətli, ən mö'təbər sultanlardan biri idi. Xilafətdə Siz Arslan şah ibn Toğrulu da beləcə tanıyırlar. Amma sizin atabəy Şəmsəddinin ölümündən sonra dövlət işlərinə biganəliyiniz və laqeydliyiniz bizi çox narahat edir. İşlər belə getsə inanın ki, siz Arranda son səlcuq sultanı olacaqsınız və sizin sultanlıq tarixinizə də atabəy Şəmsəddinin ili tama olmamış fatə veriləcəkdir... Bunları nəzərə alaraq sizə təklif edirik, əgər siz Arslan şah idn Toğrul həqiqətən bir sultan kimi hərəkət edib Azərbaycanı Eldəgəz sülaləsinin əlindən alıb azad etsəniz və bu dövlətin təxti-tacını inandığınız yaxın adamlarınızdan birinə tapşırsanız, siz təzədən Həmədana qayıda bilərsiniz... Buna xilafət zəmanət verir, İraq əmirləri zəmanət verirlər. Bundan sonra da xilafət məscidlərinin minbərlərindən xütbə oxunanda sizin şərikiniz olmaz.

Xətiblər xütbələri yalnız aə yalnız sizin adınza oxuyarlar. Ağıllı və qüdrətli sultanı hər cür rəqib və yağıların kölgəsi izləməz, onun başının üstündə əflak daim təmiz və aydın olar..."

Xəlifənin vəziri xeyli dil tökdü, Eldəgəz Atabəy Şəmsəddin övladlarının şəxsində səlcuqilərin qənimlərinin yer üzünə gəldikləri barədə sultana xəbərdarlıq etdi və hətta Mö'minə xatun ananın dul qalandan sonra əsil-nəcabəti bəlli olmayan bir köçəri oğlana (əslində, vəzir "qul" demişdi) ərə getməsini məsləhət bilən mərhum sultan Məs'ud barədə bədgüman olduğunu da Arslan şahdan gizlətmədi. Və beləliklə də ögey qardaşınızın saqqızını oğurladılar... Arslan şah isə vaxtında edilən xəbərdarlıq və verilən xeyirxah məsləhət üçün xilafətin və İraq əmirlərinin elçisinə öz təşəkkürünü bildirdi və onu necə böyük hörmət və ehtiramla da yola saldı...

Cahan Pəhləvan sağ əlini yuxarı qaldırıb dəbiri dayandırdı. Və heç bir sual vermədən bura qədər nəql etdiklərini çox diqqətlə və maraqla dinlədiyin başını mə'nalı-mə'nalı silkələməklə təsdiq etdi, sonra oturduğu qızıl payəli kürsüdən durdu. Dəbir də cəld ayağa qalxdı, ancaq hökmdar yenə bir söz demədən işarə elədi ki, əyləşsin.

Əyləşdi.

Hökmdar pişgahdan pərdəli qapı açılan otağa keçdi, orada bir

müddət öskürdü və yenə öz yerinə qayıtdı. Qayıdan kimi də işarə elədi ki, söhbətini davam etdirsin.

— İki gündən sonra ögey qardaşınız öz qoşununu əmirlərin köməyilə qəfil-qəfil üstünüzə yeridir. Amma Mö'minə xatun ananın təmiz südü, müqəddəs ruhu burada köməyinizə çatır. Öz süd qardaşına xəyanət etməyə təşrik olunan və belə bir əyri yola düşən sultana Zəncəna çatanda qəfildən bəla göndərilir. Arslan ibn Toğrul elə dərdə mübtəla olur ki, deyir bəs ömrü başa çatır. Və əmir edir ki, həm qoşun geri qayıtsın, həm də onun özünü tə'cili olaraq Həmədana çatdırsınlar.

Cahan Pəhləvan burada özünü saxlaya bilməyib deyir:

— O ki indiyə qədər heç vaxt səhhətindən heç vaxt şikayət etməyib.

Dəbir cavab verib dedi ki, hətta təbibi-xünkarı da sultanın dərdindən baş açа bilməyib. Və bir az dayanıb gözlədi ki, bəlkə hökmdar əlavə sual vermək niyyətindədir. O vaxt gördü, xeyr, Cahan Pəhləvan onun nəql etdiklərinə daha çox maraq göstərir, söhbətinə davam etdi:

— Sultan hökmü yerinə yetirilir. Qoşunun yürüşü dayandırılır. Arslan şah get-gedə sağalır və yenə dinc dura bilmir. Həmədana qayıdan kimi evlənmək eşqinə düşür. Şəhərin rəisi Ərəb şahın qızı ilə izdivaca girir. Deyilənlər səhv olsa, ögey qardaşınızın bu izdivacı sabah rəsmən icra ediləcəkdir...

Söhbət bura çatanda Cahan Pəhləvan sağ əlini yenə yuxarı qaldırdı. Bu o demək idi ki, bəsdir, kifayətdir... Dəbir tabe oldu. Hökmdar yavaş-yavaş dən düşən girdə saqqalını sol ovcunun içərisinə aldı, dirsəyini qızıl payəli kürsünün söykənəcəyinə qoyub xeyli müddət fikrə getdi. Dəbir gördü ki, saray sahibi özündə deyil, xəyal onu deyəsən bu dəfə çox-çox uzaqlara çəkib aparıb. Bəlkə də bu saat Mö'minə xatun ana ilə danışıb dərdləşir. İlki barədə bildiklərini ona nəql edir, onu inandırmağa çalışır ki, oğlun Arslan naxələf çıxıb, namərd olub. Analıq haqqı-sayını yerə vurmaq, südünü ləkələmək istəyir. Qardaş qatili olmaq niyyətindədir... Birdən haradansa təblikus[1] səsləndi. Cahan Pəhləvan xəyaldan ayrıldı, dikəlib kürsüdə şax oturdu, sonra kürəyini söykənəcəyə söykəyib yerini rahatlayıb və sakit-sakit dedi: "Həyatda elə sirrlər var ki, onu yalnız iki adam bilməlidir. Ələlxüsus sarayda, dövlətxanada... Heç kimə, yeri gələndə lap qardaşa da, oğula da e'tibar edilməyən bu dağılmışlarda da gərək sirrini bir nəfərdən başqa ikincisinə bildirməyəsən...

1. Karvan yola düşəndə çalınan təbil.

Dəbir, öyrənib gətirdiyin bu xəbərləri bilirsən, bilməmiş ol!" Dəbir ani fikrə getdi və birdən hökmdarın eyhamını başa düşdüyü üçün dedi: "Baş üstə, hökmdar!" Hökmdarsa dedi: "Və bildiklərinin hamısını mənə danışmısan, danışmamış ol!" Dəbir cavab verdi: "O da baş üstə!" Cahan Pəhləvan xəbərdarlıq etdi: "Mən səni gecə saraya də'vət etmişəm, sən də gəmisən, gəlməmiş ol!" Dəbir razılaşdı: "Əlbəttə, əlbəttə..."

Bir az yumşalan kimi oldu hökmdar: "Mürəxxəssən onda..." Dəbir qapının astanasına çathaçatda hökmdar əl çalıb onu dayandırdı və dedi: "Sənin bu xidmətin məqam çatanda özünün lazımi qiymətini alacaq..." Dəbir heç nə demədi, gülümsəməklə öz razılığını bildirib otaqdan çıxdı.

... Səhərisi Cahan Pəhləvan sultan Arslan şahın görüşünə getdi, onu növbəti izdivacı münasibətilə dönə-dönə təbrik etdi və özünü elə apardı ki, guya son hadisələrdən tamamilə xəbərsizdir...

Sultan Arslan şah isə onu Fələkəddin Əhməd üzərində çaldığı qələbə münasibətilə təbrik edib bağrına basandan sonra əlavə edib dedi:

— Mö'minə xatun anamızın məzarı üstündə elə əzəmətli bir sərdabənin tikintisinə başladığın üçün və bu işi müqtədir me'mar Əcəmi Naxçıvaniyə həvalə etdiyin üçün sağ ol!

Bu sözləri deyəndən sonra Arslan şah qəhərlənib üzünü yana çevirdi və gözlərinin yaşını sildi.

Ancaq Cahan Pəhləvan onun səmimiyyətinə inanmadı...

... Bir müddətdən sonra sultan Arslan şah qəfildən xəstələndi və dünyadan köçdü...

Ancaq İraq əmirlərinin dediyi düzgün çıxmadı: Arslan şahın yerinə onun yeddi yaşlı oğlu, baba Toğrulun adaşı nəvə Toğrul sultan e'lan olundu. Cahan Pəhləvanın əmrinə görə onun şə'ninə məscidlərdə xütbələr oxundu, hətta "körpə sultan"ın adına sikkələr də kəsildi...

Zaman sirr saxlamaqda çox namərddi, bivecdi. O, bir sirri də axıra kimi hifz etməyi bacarmadı... Cahan Pəhləvanın ölümündən çox-çox sonralar e'dama məhkum olunmuş birisi dedi ki, mərhum hökmdarın tapşırığına görə şərbətə zəhər qatıb və hamamda çimən sultan Arslan ibn Toğrula içirib...

Burada Sə'dəddin Əsədin dedikləri yada düşür: Yüz illərin, min illərin təcrübəsi öyrədir ki, rəyasət hərisliyi bə'zən ana südündən də, ata qanından da üstün tutulub..."

## MƏSCİDDƏ

Naxçıvana saraydan mürasilə gəlməsə də, Əcəmi Cahan Pəhləvanın Təbriz hakimi üzərindəki qələbəsindən xəbər tutmuşdu və bunu Azərşəhrdən gəlib Çuxur Səd'ə gedən elə bir adam danışmışdı ki, ona tam inanmaq olardı. Bu xəbər qan tökməyin, dava-dalaşın düşməni olan, sakit təbiətli me'marda xoş bir sevinc doğurmuşdu.

Evdə otura bilmədi, küçəyə çıxdı, Atabəylər meydanına gəldi. Gün əyildiyi üçün gözünə gəlib-gedən dəymədi. Came məscidinin qənşərinə çatanda ayaq saxladı. Məsciddə günorta namazı çoxdan qurtarmışdı. Baş şeyx Hatib ibn Mübarək evinə getməyə hazırlaşırdı. O, əlindəki Qur'anı öpüb gözlərinin üstünə qoydu, sonra minbərdə yer elədi, məscidin hücrələrini gözdən keçirdi, heç kim yox idi. Bir az əvvəl buradakı hay-küydən əsər-əlamət qalmamışdı. Kürəyinə zəncir vuranlar, sinələrinə döyə-döyə haray-həşir salanlar dağılışıb evlərinə getmişdilər. Əcəmi birdən qapını açıb içəri girdi. Hatib ibn Mübarək özünü itirən kimi oldu. Bildi ki, Əbubəkr oğlunun bu gəlişi səbəbsiz olmaz. Buna görə gözlədi ki, görsün o nə deyir — Əcəmi isə bilirdi ki, baş şeyxi hələm-hələm söhbətə sövq etmək o qədər də asan iş deyil. Əvvəlan, "Allahın xidmətçisi" hər adamla söhbət etməyə həvəs göstərmir, ikincisi, baş şeyx Dəryanurdan sonra Əcəmidən uzaq gəzməyə, onunla üz-üzə gəlib kəlmə kəsməməyə ciddi təlaş göstərirdi...

— Deyəsən, gözləmirdiniz, cənab əş-şeyx ər-rəis? — Əcəmi salamlaşmadan söhbətə başladı və əlindəki səndəl ağacının ucu ilə yanağını qaşıdı.

— Gözləmirdiniz deyəndə ki, günorta namazı çoxdan qurtarıb. Əbubəkr oğlu. — Baş şeyx ağ ipəkdən tikilən cübbəsinin ətəklərini dəstələyib əlinə yığdı. — Bir də sən nə vaxt namaza gəlibsən ki, bu gün də təşrif buyurasan?

— Yə'ni namaza mütləq gəlmək lazımdır?

— Əlbəttə, müsəlmançılığın birinci şərti allahın ibadət olunmalı yeganə varlığına inamdırsa, ikinci şərti namaz qılmaqdır. — Baş şeyx kinayə ilə onu sancdı. — Sən müsəlmançılığın birinci şərtinə əməl edirsən ki, qala ikincisi...

Məsciddən niyə qaçırsan, Əbubəkr oğlu?

— Sizdən zəhləm getdiyi üçün.

— Bərəkallah mə'rifətinə!..

— İtmişdiniz, yenidən niyə bitdiniz bu Naxçıvanda? — Əcəmi

özünü saxlaya bilməyib kin-küdurətini büruzə verdi.

Baş şeyx alındı. Şəvə kimi qara səddanəsi əlindən yerə düşdü. Götürüb ovcunun içərisinə yığdı, hirslə cübbəsinin cibinə qoydu.

— Mən... mən xəlifənin xidmətçisiyəm... Barmağın hara tuşladı, ora da getməliyəm... Bir neçə il bundan əvvəl buranı lazım bilmişdi, gəldim. Sonra Marağanı lazım bildi, getdim. Bir-iki ay bundan əvvəl, yə'ni atabəy-ə'zəmin vəfatından xeyli əvvəl yenə buranı lazım bildi, yenə gəldim. Yoxsa xilafət mənə qulluq buyuranda səninlə razılaşmalı imiş?...

Əcəmi istədi deyə ki, keçən il rəhmətə gedən baş şeyx heç olmasa namuslu adam idi. Ancaq demədi, özünü güclə saxladı. Çünki gələndə cavan bir gəlinin məscidin lap axırıncı hücrəsinin qapısından bir an boylanıb fövrən gizlənməsini görmüşdü. Və tez də Dəryanuru xatırlatmışdı. Həm də inanmışdı ki, vaxtı ilə baş şeyxin "allahın evində"ki bəd əməllərindən danışanda o haqlı imiş. Və onu da eşitmişdi ki, Məs'ud ibn Əbutahirin cavan gəlin bacısı hərdənbir məsciddə baş şeyxin görüşünə gedir... Ancaq belə işlərin üstünü vurmağı o hələ cavan yaşlarından özünə rəva bilməzdi. Buna görə də sualı da gözlənilməz oldu Əcəminin:

— Bəlkə deyəsiniz, cənab əş-şeyx ər-rəis, Məhəmmədin doğmaca əmisi Əbutalıb İslamı niyə qəbul etmədi? Hələ üstəlik, bundan onun el arasında hörmətinə, izzətinə zərrəcə xələl də toxunmadı...

— Ləyaqətsiz adam idi Əbutalib!.. Məhəmməd peyğəmbər sonralar onun əmiliyindən imtina etdi. — Baş şeyx səddanəsini cibindən çıxarıb təzədən çevirməyə başladı və cavabından razı kimi özünü dartdı.

— Mən bu əqidədəyəm ki, — Əcəmi keçib minbərin yanındakı kürsüdə əyləşdi. — Din, Qur'an mərdi və namərdi, yaxşını və pisi aşkar etməkdə heç bir rol oynamır. Mərd elə mərddi, namərd elə namərddi, yaxşı elə yaxşıdı, pis elə pisdi... Vəssalam!

— Bu ölçü və vəznlərini təsdiq edəcək şahidlərin var?

— İnsan üçün ən yaxşı şahid onun öz vicdanıdı...

— Əgər vicdan yoxdursa...

— Onda çoxdan ölmüsən, yaşamağa haqqın yoxdur. O ki, qaldı mənə, şəriətim də, allahım da öz vicdanımdır. "Mənə kömək elə, ey allah" deyən məqamlarda da həmişə özümə güvənmişəm. Bilmişəm, kərpici, daşı məndən başqa heç kim götürüb divara hörən deyil... Atamın bənna, anamın xalçaçı olmaları ilə isə həmişə fəxr eləmişəm, ağ-

lım kəsəndən onlar nə öyrədiblərsə, onu da icra etmişəm, həmişə də həqiqəti danışmışam.

— Təəssüf ki, danışdıqların həqiqət deyil, Əbubəkr oğlu.

— Xeyr, cənab əş-şeyx ər-rəis, həqiqətdi!... Siz görübsüz ki, həmişə məşriqdən doğub məğribdə qürub edən Günəş heç olmasa bircə kərə məğribdən doğub məşriqdə qürub edə?..

Baş şeyx Əcəminin ciddi danışıqlarından narahat oldu:

— Məscidə gəlməkdə məqsədin yoxsa islamı təhqir etməkdi? — dedi və dərhal da hücuma keçdi: — Bil və agah ol ki, bura müqəddəs məkandı. Burada hərcayı-hərcayı danışmaq olmaz!

— Unutmayın ki, buranı, müqəddəs məkan adlandırdığınız bu məscidi mən bu əllərimlə tikmişəm. Özü də dünən yox, srağagün sən cənaba təhvil vermişəm... — Əcəmi istehza ilə gülümsədi.

— Sən icraçısan, tikmisən, haqqını da almısan... Allah-təala isə bir haqqı çatdıranda, o bir haqqı əldən alır.

— Bəs onda siz nə haqla...

— Mən allahın xidmətçisiyəm... İslama xor baxanları doğru yola sövq etməkdi, borcum, vəzifəm. — Əcəmiyə imkan verməyib öz havasını çaldı.

— Bir müsəlman kimi mənim İslamla işim yoxdur, onun adından hədyan danışanlarla barışa bilmirəm.

— Nəyə görə? — Baş şeyx bu dəfə güzəştə gedib şit-şit güldü.

— Ona görə ki, mənim mə'dəm İslamın adından düzəldilən yalanları həzm edə bilmir.

— Küfr danışma, Əbubəkr oğlu!..

Neçə-neçə illər bundan əvvəl baş şeyxlə aralarında olan bir söhbət

Əcəminin yadına düşdü:

... — Mənim həyətimə ayaq basmağı sənə qadağan edirəm. Vallahı, bir nalə edərəm ki, evin-eşiyin cəhənnəmə dönər, od tutub yanar... Özün də yanıb külə dönərsən... Ürəyində bəd əməl gəzdirən heç bir bəni-Adəmin ayağı mənim evimin astanasına dəyməməlidi. O ki, qaldı Dəryanura, ondan gözünü çək... O, xilafətə məxsusdu...

— Axı biz bir-birimizi sevirik.

— Yalandı... Dəryanur bilir ki, sevmək ixtiyarı ağlı kəsən gündən onun əlindən alınıbdı.

— Çağırın gəlsin... Mən bu sözləri onun öz dilindən eşitmək istəyirəm.

— Onun öz camalını namәhrәmә göstәrmәk ixtiyarı da yoxdu...

... Yadına düşәnlәri beynindәn kәnar etmәyә çalıdı, oturduğu yerdәn durdu, sәndәl ağacını qurşağına keçirә-keçirә dedi:

— Mәn hәmişә gözlәrimlә gördüyümә sitayiş etmişәm.

Baş şeyx әsas mәtlәbә keçәrәk:

— Belә ki, görürәm sәnin dinin dә, mәzhәbin dә şübhәlidi. — dedi.

— İnam, e'tiqad bәşәr övladının hәr birinin öz arzusu, öz istәyi ilә icra olunmalıdı. Hansı dinә, hansı tәriqәtә, hansı mәzhәbә inanmaq, sitayiş etmәk hәr kәsin öz işidi. Әdalәtlilik, paklıq, düzlük mö'minlikdәn üstün olub hәmişә. Mәn bu fikirdәyәm.

— Özün bilәrsәn... Amma unutma ki, İslam yolunda qaldırılan qılınc da, vurulan zәrbә dә müqәddәsdi. Babәkә vurulan zәrbә kimi!

Әcәmi fikrә getdi: "Ay qoca Bağdad tülküsü, yaralı yerimә toxunmaqla mәni sındırmaq istәdin, elәmi?.."

Әcәminin düşüncәlәrә daldığını görәn baş şeyx sual verdi:

— Sükut edirsәn, Әbubәkr oğlu?

Әcәminin cavabı yenә sәrt oldu:

— Nadan sözә әn tutarlı cavab sükutdur. — Baş şeyxin susduğunu görәn Әcәmi әvvәlki söhbәtә qayıtdı: — İnsanlara dini e'tiqadına görә fәrqi, ayrı-seçkiliyi ancaq nadanlar qoyarlar... O ki, qaldı Babәkә... Babәk tarixdә yeganә sәrkәrdәdi ki, bu ayrı-seçkiliyi görmәyib. Din, tәriqәt, mәzhәb ixtilafları heç bir hakimә, heç bir sәrkәrdәyә xeyir gәtirmәyib, qәlәbә qazandırmayıb!

— Sәn axırda dinә dә xәyanәt edәcәksәn... — Baş şeyx Әcәmiyә qara yaxmaq istәdi:

— Bizim nәsil xәyanәtdәn daim uzaq olub, cәnab әş-şeyx әr-rәis. Nәsilbәnәsil nifrәt etdiyimiz o mәl'undu, o üzüqaradı... Kimdisә, nәdisә, bilmirәm, amma bizim nifrәtimizin ilk hәdәfi oldu. Mәn isә ağlım kәsәndәn iki şeyә nifrәtimi gizlәdә bilmirәm: onun biri xәyanәtdi, biri dә yaltaqlıqdı. — Әcәmi birdәn elә bil nәyisә xatırladı. — Bir itimiz var idi... Hәyәtimizә kim gәldi, ayaqlarına yıxılardı, o tәrәfbu tәrәfinә keçib quyruq bulayardı. Axırda dözә bilmәdim, aparıb azdırdım...

Baş şeyx özünü onda qoymamağa çalışdı:

— Bәndәnin borcudu itaәt etsin göydә allaha, yerdә xilafәtә...

— Sәhәr dua elә xilafәtә, günorta qulluğunda dur xilafәtin, axşam ayaqlarına döşәn xilafәtin. Bәh, bәh!.. Mәdhiyyә de şә'ninә, al-

qış söylə adına xəlifənin. Səni söysə də, təhqir etsə də, dərini soysa da, qayğısı kimi qələmə ver xəlifənin... Bu dərdi çəkmək üçün bir ürək, bu yükü daşımaq üçün bir kürək azdı, cənab əş-şeyx ər-rəis!..

— İnsan zülmə tabedi, Əbubəkr oğlu. — Yenə öz sözünün üstündə durdu.

— Bu zülmə, bu sitəmlərə bizik ki, tab gətirib dözürük. Əminəm ki, bu zülmə və bu sitəmlərə nəvələrimiz, nəticələrimiz dözsələr də, kötücələrimiz dözməyəcək! Zülm yerdə qalmaz, rəzilik, qəddarlıq çox ömür eləməz. Bir gün haqqa da, ədalətə də yol açılar. Məhv olub gedər xilafət də, uçub yerlə-yeksan olar saraylar da. Cəzasına çatar xəlifələr də, saray sahibləri də!... Bunu təkcə dilim demir, ürəyim də deyir... Buna da gərdişi-dövran deyərlər, cənab əş-şeyx ər-rəis!..

Baş şeyx təbiətcə sakit olan me'marın birdən-birə belə qızışmasını heç ağlına gətirməzdi. Fikirləşdisə də, səbəbini heç vəchlə ayırd edə bilmədi.

— Mən gedə bilərəm, Əbubəkr oğlu? — Rişxəndlə soruşdu baş şeyx.Əcəmi səndəl ağacını hirslə çəkib qurşağından çıxardı və onunla üz-üzə dayandı. Kənardan baxan olsaydı, elə zənn edərdi ki, Əcəmi bu saat əlindəki gödək səndəl ağacını balta sapı, belə sapı bilib baş şeyxin başına endirəcəkdi...

— Xeyr, gedə bilməzsiz! Çünki hələ soruşmamısız niyə gəlmişəm...

— Allahın evinin qapısı hamının üzünə açıqdı...

— Bir parça çörəyə ehtiyacı olanların necə?

— Allahtaala öz bəndəsinə çatan ruzisini heç vaxt əsirgəmir.

— Əyər ruzinin çatmasına əngəl törədənlər olsan necə?

— Allahtala onu özü də cəzalandırar.

— Bəs onda Allahtaala siz cənabı niyə cəzalandırmır?

Baş şeyxin yaşına görə çox diri görünən gözləri Əcəminin sifətində dikilib qaldı, hülqumu enib-qalxdı.

— Bu nə şər-şamatadı, Əbubəkr oğlu? — dedi. — Deyəsən, səninki din davası deyil, un davasıdı... Yoxsa məndən intiqam alırsan?.. Yoxsa ilk məhəbbətin odudu, alovudu səni belə yandırıb-yaxan?

Əcəmi bir-iki addım atıb məscidin Ağrı tərəfə baxan pəncərəsinin önünə gəldi. Neçə-neçə illər bundan əvvəl — Came məscidi tikilib hələ istifadə verilməyən həmin vaxtda, şəhərin Becanlı məhəlləsindəki böyük mehrabda baş şeyxlə olan söhbəti yuxu kimi xatırladı.

... Mehrabın qapısını açıb içəri girəndə Hatib ibn Mübarək şəvə

kimi qara səddanəsini arxayın-arxayın çevirə-çevirə öz müridlərinə nə isə tapşırıq verirdi. Bunun fərqinə varmadan Əcəmi düz minbərin qabağına gəldi, əlindəki səndəl ağacı ilə onu hədələyib dedi: "Yerini de Dəryanurun! Hara apardın, kimə bağışladın o zavallı, ufacıq göyərçini?.. Allah adamı, allahın xidmətçisi ola-ola yalan danışırsan, Məhəmməd ümmətini ələ salırsan... Qızın olmaya-olmaya hamıya deyirsən ki, Dəryanur qızımdı... De, yerini de... Mən gedib taparam onu... Harda olsa taparam... Həmədanda da olsa, Bağdadda da olsa..." Belə bir həmləni birinci dəfə görən baş şeyx özünü yığışdırıb güclə demişdi: "Tapa bilməzsən, Əbubəkr oğlu! O indi çox-çox uzaqdadı... Xəlifə sarayındadı... Get, öz çörəyini tapıb ye... Hatib ibn Mübarəkin çörəyini yeyib, tərbiyəsini görən bir qız sənin kimi mülhid bir dulusçunun babı deyil... Salın bu ədəbsizi eşiyə!... " Elə həmin vaxtdan da onların arasında uçurum yaranmışdı.

... Əcəmi bir müddət pəncərədən günəşli çöllərə baxdı və özünü ələ alıb geriyə döndü:

— Mən... mən dediyiniz o ilk məhəbbəti pis bir yuxu kimi çoxdan unutmuşam...

— Yalan danışırsan! O pis yuxu səni qiyamətə kimi yandırıb-yaxacaq... Cəhənnəm odu kimi! — Baş şeyx səddanəsini hirslə bir neçə dəfə bu ovcundan o ovcuna ötürdü, sonra bir yerə yığıb cibinə qoydu, minbərin qabağında o tərəf-bu tərəfə gedib-gəldi. Bir neçə dəfə də gözaltı axırıncı hücrədəki otağa baxdı...

— Çox da narahat olmayın, cənab əş-şeyx ər-rəis... bir sualıma da cavab verin, çıxıb gedim... Sərdabənin işini niyə dayandırmısınız?

— Məhərrəmlikdi... İmamların qırxı çıxmayınca işləmək olmaz.

— Bəs ac qalmaq olar?

— Qureyşi aqilləri deyiblər: "Hilmul insan aunuhu"[1] Hər halda, heç kim acından ölməz.

— Ölsə necə?

— Bəni-Adəmi allahtaala bir tərəfdən nə qədər azaldırsa, o biri tərəfdən də bir o qədər çoxaldır.

— Siz hökmdarın fərmanına zidd gedirsiz axı... Sərdabənin tikiliş müddəti pozula bilər?

— Əvvəlan, hökmdar uzaqdadı, görək Əhmədili oğulları ilə hesabı necə çürüdür...

— Yoxsa Cahan Pəhləvanın qələbə çalacağına şübhəniz var?

1. Dözüm dünyanın köməkçisidir.(*Ərəb.*)

— Xeyr, xeyr! — Baş şeyx tez geri çəkildi və söhbətin üstündən adladı. — Onu demək istəyirəm ki, şəhərin öz hakimi var... Biz birgə razılığa gəlmişik... Sənin də borcundur ki, dövlətxanadan edilən təklifə həmişə tabe olasan, boyun əyəsən.

— Tabe olmağı deyə bilmərəm, amma boyun əyməyi məndən heç vaxt gözləməyin, cənab əş-şeyx ər-rəis! Nə olar, gedərəm Həmədana... hamısını danışaram hökmdara, qələbə münasibətilə də təbrik edərəm onu!..

— Hansı qələbə?

— Təbrizi Azərbaycan Atabəylər dövlətinin tərkibinə qatması münasibətilə.

Hatib ibn Mübarək cəld xəbər aldı:

— Biz belə qanaq ki, xəbər dürüstdü, hə?

— Əlbəttə!

Baş şeyx ürəyində rəisin arxasınca gileyləndi: "Güdükçüləri də, qulaqçıları da bivec oğlunun elə özünə oxşayırlar..."

— Əbubəkr oğlu bekar qaldığı günlərdə darıxmasın... Ola bilsin ki, rəis ona mühüm bir tapşırıq verdi... İcra etmək üçün. — Baş şeyx könülsüz-könülsüz oxunu atıb yayını gizlətdi.

— O nə tapşırıqdı elə?..

— Rəisin dilindən eşitsən yaxşıdı...

Əcəmi baş şeyxi ilk dəfə görür kimi onu başdan-ayağa bir də süzdü. "Allahın xidmətçisi" bu gün onun gözlərinə daha hiyləgər, daha xəbis göründü... Əcəminin baş şeyxlə əlavə kəlmə kəsmək həvəsi elə bil birdən yoxa çıxdı, ondan uzaqlaşıb məscidin hücrələrini gəzməyə başladı. Aşağı hücrəyə yaxınlaşanda baş şeyx şübhələnib soruşdu:

— Əbubəkr oğlunun qəsdi nədir?

— Məndən başqa qəsd gözləməyin... Gəlmişəm özümün əvvəlki işlərimə baxam... vurduğum naxışları təzədən keçirəm... İstəyirəm bundan belə nə tiksəm təkrara yol verməyim, cənab əş-şeyx ər-rəis!..

Elə bu vaxt məscidin aşağısındakı hücrədə çadraya bürünmüş həmən zənən xeylağı yenə görünüb qeyb oldu.

Əcəmi daha dayana bilməyib məsciddən çıxdı...

Hatib ibn Mübarək fikirləşdi: "Görəsən ömrünü sənətə bağlayanlara bu cür'ət haradan verilir?.. Yəqin cür'ət fitrən sənətkar doğulanlarla elə ekiz gəlir dünyaya... Nə qədər sakit təbiətli olsa da, bir o qədər odlu, alovludur bu Əbubəkr oğlu!.. Az qala şəkkak eləmişdi məni də, məl'un!.."

## BOZ RƏNG

Gün əyilmişdi. Payız günəşi tala-tala boz buludların arasında gah itir, gah görünürdü. Bir azdan Ağrı dağının arxasına enəcəkdi, üfüqdə ancaq bir parça qızartısı qalacaqdı. Bu parça da sonra bir qırığa dönəcəkdi...

Dağlara yavaş-yavaş qaranlıq düşəcəkdi... Keçmə payızın axşamından; qəlim-qüssəli, hüznlü-kədərli, səssiz-səmirsiz...

Əcəminin cavan vaxtlarından belə payız axşamlarından xoşu gəlməzdi. Sazaq qalxanda, sonra küləyə çevrilib rəbatın sümsük itləri kimi həyət-bacaya soxulanda, ağacların sarı-qırmızı yarpaqlarını vaxtından əvvəl yoluşdurub tökəndə, qabağına qatıb ora-bura çırpanda hövsələsi bir tikə olardı, keçirdiyi nigarançılıqlar, gördüyü pis günlər çoxalardı. Belə vaxtlarda özünü doğma evində yad, doğulub böyüdüyü şəhərində qərib hiss edərdi. Bu gün də beləcə hövsələsiz idi Əcəmi. Üstəlik, anasını xatırlamışdı. Badisəba arvadın belə bir payız günündə qəfil ölməyi onu hər dəfə odsuz-alovsuz yandırıb-yaxırdı. Bir dəfə Cəmilə demişdi: "Anam məni ikiqat yetim qoyub getdi: həm anasız qaldım, həm də tənha..."

Uzaqdan yenə ud səsi eşidildi. Kor Əhsən bu dəfə də bütün dərdsərini, acı-ağısını udun simləri üstünə tökmüşdü. Səsi dinlədikcə Əcəmiyə elə gəlirdi ki, haradasa qayalardan tökülən bir şəlalənin suyu get-gedə azalır... Kor Əhsən yenə muğam çalırdı... qədim bir muğam...

Rəfdən səndəl ağacını götürüb evdən çıxdı.

Növbəti iş günü başa çatmışdı.

Cəmil də getmişdi, İbrahim də. Bənna şagirdlərini də, tikintidə işləyən şəhər əhlini də öz komalarına, evlərinə buraxmışdı. Tapşırmışdı ki, cümə axşamı olduğu üçün səhər işə gəlməsinlər. Yoxsa baş şeyx ibn Mübarəkin müdridləri abır-həyamızı tökər, yediyimiz bir loğma çörəyi zəhər-zəqqum eləyərlər...

Hamı çəkilib gedəndən sonra dikdirə tərəf gəldi. Əvvəlcə nar yarpağı rənginə çalan buludlara baxdı, sonra gözlərini Araza dikdi. Birdən nə fikirləşdisə oturduğu daşın üstündə geri döndü. Bəlkə də birinci dəfəydi xatırladı ki, sərdabənin tikintisinə başladığı vaxtdan bir neçə il keçir. Gözəyarı ölçüb-biçdi... Ürəyi sakit oldu: təxminən hesabladı ki, işin yarısı görülüb...

Gözləri işıqlandı, sifətində qəribə bir əndişədən doğan sevinc qığılcımları peyda oldu, sinəsi tez-tez enib-qalxdı. Elə bil nəfəsi darıx-

dı. Durub bir də oturdu. Evə getmək istədi, fikrindən döndü. Axı onu evdə heç kim gözləmirdi... Fikirləşdi: yenə öz yaratdığıma baxıram burada, bəsimdi. Özü də, deyəsən, pis yaratmıram... möhtəşəm olacaq!

Keçən illər ərzində bəlkə də birinci dəfəydi ki, özü haqqında xoşgüman olurdu.

Birdən özü də bilmədən zümzümə etdi. Bir vaxtı anası Badisəbanın oxuduğu bayatını... Pəsdən, ancaq çox yanıqlı səslə etdiyi zümzümə elə bil özünün də xoşuna gəldi: "Bu qala, bizim qala, həmişə bizim qala. Tikmirəm özüm qalma, Tikirəm izim qala..."

Bir az ara verib bayatını bir də zümzümə etdi. Anasının bir vaxtı oxuduğu bu bayatını elə bil onun üçün qoşmuşdular. Burası onun daha çox xoşuna gəldi: "Tikirəm izim qala..."

Əcəmi diqqətlə əllərinə baxdı. Bu da birinci dəfəydi ki, əlləri xoşuna gəldi: yaraşıqlı idi. Dəryanuru xatırladı. Bir dəfə qız onun əllərinə xeyli baxandan sonra aparıb sinəsi üstünə qoymuşdu və "Nə qəşəng əllərin var, Əcəmi!.. — demişdi. Bir də niyə olmasın, elə incə, gözəl naxışları elə belə qəşəng əllər vura bilər..."

Birdən günəşin üfüqdə görünən qızartısı yoxa çəkildi. Ətraf da bozardı, sərdabənin bayaq əlvan görünən simasına da bir bozartı çökdü, Əcəminin üzündə də boz-boz cizgilər peyda oldu... Əcəmiyə elə gəldi ki, dünyanı — yeri də, göyü də, dağları da, qayaları da, dərələri də, düzləri də boz bir parçaya bürələdilər. Bağların üstünə boz örtük çəkdilər, çaylara, bulaqlara isə haradansa bulanıq sular axıb qarışdı, onları da boz rəngə boyadı. Ayağa qalxdı, yavaş-yavaş sərdabəyə tərəf gəldi, səndəl ağacının qurşağına keçirdi, kənarda dayanıb diqqətlə sərdabəyə baxdı, baxdı... Elə bil içəridən səs gəldi: "Əlin-qolun var olsun... Əməlin yaxşı əməldi, xeyirxah əməldi... Burada bir ana yatsa da, dünyadan köçən bütün anaların ruhu sənə daim duaçı olacaq..." Fikirləşdi: "Olsun da... Anaların təkcə özləri yox, ruhları da bizdən razı qalmalıdı... Bu, onların haqqıdı, bizimsə borcumuz... Həmin borcu ödəmək də bizim borcumuzdu... Belə olmasa yer üzündə övladlarından heç bir yadigar qalmaz... Təlatüm içrə biz, sükunətdə daim rüzgar..."

Fikrindən keçən sözlər içərisində qırılıb yarımçıq qaldı...

Bir dəstə sığırçın haray-həşirlə onun başının üstündən keçib qonşu həyətdəki çinar ağacına qondular, xeyli sarı yarpaq töküldü.

Əcəminin fikri dağıldı, sığırçınlar elə bil təzədən onun qulağına pıçıldadılar: ustad, payızdı ha!..

Əcəmi yenə əvvəlki yerinə qayıtdı, daşın üstündə əyləşdi. Əyləşən kimi də əvvəlki bayatı təzədən yanıqlı zümzüməyə çevrilib dodaqlarına axdı: "Bu qala, bizim qala..."

— Axşamın xeyir, qardaşoğlu!

Başını qaldırdı. Dostları idi: qoca kuzəçi, dəmirçi və zərgər... Əcəmi sağ əlini dizinə dayaq verib ayağa qalxdı. Ona elə gəldi ki, neçə illəridi tanış olduğu, bir yerdə çörək kəsdiyi bu ürəyi saf, zəhmət adamları da bu gün boz rəngdədirlər. Halbuki paltarları təzələnsə də, heç biri köhnə dəbə xəyanət etməmişdi. Dərgah kişi yenə ləbbadəsini geyib, hava soyuduğu arxalığını çiyninə salmışdı. Nurməhəmməd yenə saqqallı idi və yay-qış geydiyi alt köynəyinin və qolsuz kürkün içində idi, Mustafanın əynindəki də Gəncə mahudundan tikilən ləbbadə idi. Fərqi o idi ki, rəngi başqaydı, bu dəfə qara mahuddan tikilmişdi paltarı. Bu isə onun get-gedə sarılığı çoxalan sifətinin rəngini bir az da tez büruzə verirdi. Əcəmi isə onun sifətini sarıdan çox boz görürdü...

— Xoş gəlmisiz, Dərgah kişi. — Əvvəlcə qoca kuzəçinin əlini sıxdı, ona elə gəldi ki, beş-altı dənə iydə çubuğunu ovcuna alıb sonra yerə tökdü. Nurməhəmmədlə, Mustafa ilə də əl tutdu.

— Uzaqdan gördük bu həndəvərdəsən, dedik yenə bir baş çəkək... Əslini axtarsan, elə lap son aylarda bir neçə dəfə gəlmişik, amma kənardan durub tamaşa eləmişik. — Zərgər Mustafa dedi.

— Babam deyərdi, dağa gərək uzaqdan baxasan... Uzaqdan baxanda dağ həm yaraşıqlı görünür, həm də əzəmətli... Yə'ni necə var, eləcə, olduğu kimi. — Bunu da dəmirçi Məcusi dedi.

— Dağlar da iki cür olur ha, Məcusi — Qoca kuzəçi başını yavaş-yavaş yırğaladı. — Mərd dağ, namərd dağ... Mərd dağ razı olmur yağı onun bir cığırına da ayaq bassın, namərd dağ isə gələnə də, gedənə də sinəsi üstdən yol verir...

Dəmirçi də geri çəkilmədi:

— Dağda təqsir yoxdur, ay Dərgah kişi! Onu da biz insanlar namərd eləyirik... Deyir "Avesta"da yazıblar: "Yalan, namərdlik dünyanı axırda kor qoya bilər..."

— Di yaxşı! — Zərgər Mustafa darıxdı. — Elə sizi də qoyasan mübahisə eləyəsiz. Sən palçığı tə'rif edəsən, sən də poladı... Qoyun görək bir kişinin işləri nə yerdədi, nə kömək lazımdı?.. Biz gərək ki, bura gələndə belə şərtləşmişik...

— Sağlığınıza işlərim pis getmir. — Əcəmi səndəl ağacını qur-

şağına keçirdi. — Hələlik işimin də öhdəsindən gəlirəm... namərdlərin, naxələflərin də qabağından hələ ki, qaçmıram.

— Rəhmətlik atana çəkmisən, qardaşoğlu!.. Elə halalxor kişinin ki, ad-sanını batırmırsan, allahtəala səni heç vaxt xəcil eləməz. — Dərgah kişi sərdabəyə yaxın gəlib onun başına hərlənə-hərlənə naxışlarına, rənglərinə diqqətlə baxmağa başladı. Zərgər də, dəmirçi də ona qoşuldular. Qoca kuzəçi get-gedə mərhum dostunun sənətkar oğlunun əlindən çıxan əmələ valeh-valeh baxır, gah zərgərə, gah dəmirçiyə müraciətlə deyirdi: — Zərgər işidi, vallah! Yoxsa səhv edirəm, Mustafa?.. Adam inana bilmir ki, bu naxışları insan əli vurub bu kitabələrə... Mö'cüzədi, billah!.. Mənlə razısan, Məcusi?

— Razıyam, Dərgah kişi... Yüz kərə, min kərə razıyam!..

Qoca kuzəçi dostlarının razılıqlarını alandan sonra yenə sərdabənin kitabələrinə baxa-baxa fırlanır, hərdən bir də qəddini düzəldib, hələ yarımçıq tikilinin yuxarısına diqqət kəsilir, sonra kənarda dayanan Əcəmiyə sarı çevrilib razı-razı gülümsəyirdi.

— Mərhəba! Əllərin var olsun, qardaşoğlu! — Kuzəçi dəmirçiyə, zərgərə üzünü tutub adəti üzrə yenə misal çəkdi: — Deyir, sarsaq bir xətib bir kəndə gələn kimi özünü, eşşəyini və palanının kəndirindən asdığı xoruzu göstərib deyir: "Acmışam, tez olun mənə təam gətirin, eşşəyimə də, xoruzuma da yeminən, dən..." Kəndlilərdən biri qoltuğundakı qovunu ona uzadıb deyir: "Al, sizin yeməyiniz budur. Qovunu özün ye, qabığını eşşəyin, toxumunu da xoruzun... Üçünüzə də bəs elər..." İndi də bu. — Dərgah kişi başı ilə sərdabəyə işarə elədi. — Qardaşoğlu elə tikir ki, üçünə də bəs eləsin...

Qoca kuzəçinin eyhamını ilkin zərgər Mustafa başa düşdü:

— Bərəkallah, Dərgah kişi! Qızıl kimi söz dedin!..

Birdən "Qızlar bulağı" tərəfdən dikdirə bir oğlan uşağı qalxdı və onları görən kimi:

— Əcəmi dayı!.. Əcəmi dayı! — deyə-deyə təngnəfəs sərdabənin ətrafına yaxınlaşdı. Əcəmi cəld ona tərəf yeridi:

— Rəşid, nə olub?.. Yoxsa nənə...

— Yox, Əcəmi dayı, evin yanır... — Uşaq hönkürdü.

— Ev yanır? — Əcəmini təşviş bürüdü.

— Hə, keçirə bilmirlər...

Qoca kuzəçi də, dəmirçi də, zərgər də uşağın son sözlərini eşidən kimi yaxın gəldilər. Onlar həyəcanla Əcəmigilə tələsdilər.

... Yangın söndürülmüşdü. Əslini axtarsan, qonşular tökülüb gə-

lincə içəridə nə vardısa hamısı yanmışdı. Yerində boz-boz kül topaları qalmışdı. Həyətə də elə bil boz rəng çəkilmişdi... Bomboz rəng — kül rəngi...

Kənarda köhnə çəliyinə söykənib zorla ayaq üstə dayanan qonşu Xədicə qarı bir əlini də nəvəsi Rəşidin çiyninə qoyub vaysınırdı:

— Oğul, Əcəmi... bağışla... gücüm bircə səsimə çatdı... Haray təpdim... Car çəkdim... Üst-başım od almasaydı içəri girib heç olmasa pal-paltarını, yatacağını eşiyə çıxardardım... Amma gücüm çatmadı... Bağışla, oğul!.. Niyə mən heç nə eləyə bilmədim, ilahi? Bəs qonşu qonşuya hansı gündə lazımdı?..

— Elə sənə kömək ediblər, bu bəsdi, Xədicə xala. — Əcəmi səndəl ağacı ilə yanağını qaşıdı.

— Xədicə xalanı yerə girsin!.. Gözüm baxa-baxa koman yanıb külə döndü... — Xədicə qarı özünü saxlaya bilməyib ağladı. Əcəmi isə bircə şeylə təsəlli tapdı: yaxşı ki, rəhmətlik kişinin atasından qalan qılınc evdə olmayıb... Yoxsa yanıb korlanardı... Elə buna görə bu gün hər şey gözümə boz rəngdə görünürdü. Bomboz... kül rəngində...

— Çox sağ ol, Xədicə xala... Yanan ev-eşik olsun... Hamısı düzələcək.

— Çox çalışdım həyətdən çıxanın üzünü görəm, amma görə bilmədim çolax köpəkoğlunu!.. Evi yıxılsın baisin!.. Çırağı sönsün.

— Xədicə qarı kiminsə qarasınca qarğış tökdü.

— Namərd oğlu namərd! — Dərgah kişi dedi.

— Biləm kimdi, basam körüyün ağzına! — Məcusi hədələdi. Mustafa dəmirçinin sözlərinə qüvvət verdi:

— Hə... Hə!..

Xədicə arvadın "çolax köpəkoğlu" sözü Əcəminin qulaqlarında xeyli müddət ilişib qaldı və ürəyinə şübhə saldı: "Bu Əbutahirli törəməsinin əməli olmaya?.."

## ALLAH, PEYĞƏMBƏR, XƏLİFƏ

Məhəmməd öləndən sonra onun varisləri xeyli fikirləşməli, götür-qoy etməli oldular. Əhmədi-mürsəlin, Qasimi-rəhmətin[1] adını yaşatmaq, irsini qorumaq, buyurduğu qayda-qanunları hifz edib saxlamaq lazım idi. Doğrudur, daha me'raca[2] gedib-gələn yox idi, amma rəsulullahın,[3] xətəmun-nəbiyin[4] yer üzərində kölgəsi daim gəzir, ruhu gecə-gündüz dolanır, nəfəsi hər addımda duyulur, Qüreyşi övladları vaxtlı-vaxtında boy atıb böyüyürdülər...

Götür-qoy çox çəkmədi, baş sındırmaq da bir o qədər lazım olmadı: varisləri özlərini "xəlifə" e'lan etdilər, dövlətlərinə isə "xilafət" adı qoydular. Əllərinə allahın müqəddəs kitabını — Qur'anı alıb başlarının üstünə İslamın yaşıl ələmini tutub atlarını dördnala obadan-obaya, yurddan-yurda, mahaldan-mahala çapdılar. Xilafət öz adamlarını, əlaltılarını, xəbərçilərini, qulaqçılarını, güdükçülərini İslama boyun əyən ölkələrə səpələndi, onlar da bu gün burda, sabah orda göbələk kimi göyərdilər, artıb çoxaldılar...

Yedilər, içdilər, harınladılar, gözləri də qızanda başqalarının namusuna əl uzatdılar, bakirə qızları, kəniz-cariyyə adı ilə hərəmxanalarına doldurdular, oğlanları qul adı ilə bazarlarda satdılar...

Hamısı da "rəhmli və mərhəmətli olan" allah adından. Həm də bir olan allahın əbədi müqəddəs kitabı Qur'anın buyuruğu ilə... "Bə'zən də "La ilahə illəllah və Məhəmmədun rəsulullah"[5] deməkdən imtina edənləri, "La caliba illəllah"[6] hökmünə inanmaq istəməyənləri qılıncdan keçirdilər... Balaca bir ərəb tayfasının dini e'tiqadına hamı asanlıqla boyun əymədi. İslam ayaq tutub oba-oba, yurd-yurd, ölkə-ölkə gəzsə də, hər yerdə rəğbətlə qarışlanmadı. Qorqud dədənin yurdunda sakin olanlar isə daha artıq inadkarlıq göstərdilər. Onlar öz qanlarına boyansalar da, qılınclarını qınına qoymadılar, dağlara çəkilib bir insan ömrü qədər vuruşdular. Ata öləndə qılıncını oğluna, baba öləndə nəvəsinə, oğul öləndə atasına, qardaş öləndə bacısına verdi. Şəhid oldular, amma tabe olmadılar. Bir alim deyib: "Azərbaycanlılar da o

1. Məhəmməd Peyğəmbərin ləqəbləri.
2. Allahın göydəki məskəni.
3. Allahın elçisi.
4. Peyğəmbərin möhürü.
5. Allahdan başqa heç bir ibadət olunan varlıq yoxdur və Məhəmməd allahın elçisidir.
6. Allah məğlubedilməzdir.

millətlərdəndi ki, öz azadlığı, öz istiqlaliyyəti, öz namusu yolunda həmişə silah götürməyə, at belinə sıçramağa, qılınca qurşanmağa hazırdır... Onlar qalib, ya məğlub olmalarının fərqinə varmadan həmişə döyüşə girir, vuruşa atılırlar..."

Xilafət sərkərdəsi Səlman ibn Rabiə azərbaycanlılarla vuruşa-vuruşa öz qoşunlarını Beyləqana yeridəndə bunu gördü, bərdəlilər son adamlarına kimi şəhid olanda, amma boyun əyməyəndə bunun şahidi oldu...

İgidlər atların belindən düşmədilər, əllərini qılınclarının dəstəsindən çəkmədilər. Gəncə, Təbriz, Naxçıvan, Marağa, Ərdəbil, Həmədan, Şabran düzlərindən atların kişnərtisi kəsilmədi...

Bunu bilən xilafət sərkərdəsi Məhəmməd ibn Mərvan sonralar azərbaycanlılara daha amansızcasına divan tutmağa başladı...

Səfvan oğlu Vard da ələ keçdi. Mənsur oğlu İbbən də,[1] Abdulla oğlu Babək də...

Əcəmi yol boyu gedə-gedə bunları fikirləşir, kitablardan oxuduqlarını, eşitdiklərini, bildiklərini götür-qoy etdikcə ürəyi sıxılır, nəfəsi təngiyirdi. Ona elə gəlirdi ki, haradansa baxan minlərlə intizar dolu gözlər onu addım-addım izləyir, xilafətin çağırılmamış xidmətçilərindən biri Hatib ibn Mübarəklə onun evində edəcəkləri söhbətdə bənna oğlunun özünü necə aparacağını görmək, necə danışacağını eşitmək istəyirdilər...

Əcəmi məsciddəki söhbətdən sonra baş şeyxlə üz-üzə gəlmək arzusunda deyildi. Buna görə də onun sifarişini qulaqardına vurmuşdu... Bu gün isə baş şeyx xüsusi mürid göndərib onu evinə də'vət etmişdi.

Əcəminin də qəlbində nədənsə məsciddəki söhbəti elə bil davam etdirmək, fikrindən keçənləri heç olmasa ikilikdə "qoca Bağdad tülküsü"nə deyib yüngülləşmək arzusu baş qaldırmışdı...

Əcəmi cavan bir gəlinin açdığı darvazadan içəri girəndə baş şeyx hovuzun başındakı dibaçədə uzanıb mürgüləyirdi.

Əcəmi bəlkə də Hatib ibn Mübarəkin bu də'vətini qəbul edib onun həyətinə ayaq basmazdı. Amma Dəryanurdan sonra aralalarında yaranan uçurumu dərinləşdirmək, ürəyindəki kin-küdurəti büruzə verməmək qəsdində idi. Baş şeyx sifətdən mülayim görünsə də, kəlməbaşı Qur'ana müraciət etsə də, məclisdə insafdan, mürvətdən, ləyaqətdən, düzlükdən danışsa da, qəddar idi, satqın idi, rəzil idi. Bunları bilirdi Əcəmi. Əcəmi onu da bilirdi ki, Hatib ibn Mübarəkdən hər cür

1. Babəkdən əvvəlki kəndli hərəkatının başçıları.

nadanlıq, naqislik gözləmək olar... O, dini Qur'anı əlində dəstəvuz edib çoxunu istədiyi vaxt yolundan çıxara bilər. Axı o, həmişə İslam adından danışır, xilafət adından fitva verir...

Əcəmi cavan gəlinin salamını aldı, az qala pıçıltı ilə dediyi xoşgəldinə razılıq etdi. Ötəri olsa da başını qaldırıb onun kədərli sifətinə, həsrətli gözlərinə baxdı. Deyəsən, bu gəlin məscidin axırıncı hücrəsində ötəri gördüyü övrət idi. Əcəminin ürəyindən ani də olsa qəribə bir hiss keçdi: "Görünür, bə'zi kişilər ocağın odunu keçirib külüynən oynamağı xoşlayırlar..."

— Sabahınız xeyir.

Hatib ibn Mübarək uzandığı dibaçənin üstündə gözünü tənbəltənbəl açıb onu salamlayana baxdı. Özünü elə göstərdi ki, guya onu həqiqətən huş aparmışdı. Əcəmi ürəyində dedi: "Desələr dünən ölmüsən, mən inanmaram. Çünki bu ölməyində də bir biclik, bir kələk olar sənin..."

Əcəmi darvazadan içəri girəndə onun bağaranın[1] yanında sovçandan su töküb taxta teştdə paltar yuyan cavan gəlinin açıq baldırlarına hərisliklə oğrun-oğrun baxmaşını görmüşdü...

Hatib ibn Mübarək gözlərini necə tənbəl-tənbəl açmışdı, eləcə də qəddini düzəldib ayağa qalxdı, qılçaları arasına aldığı çəliyini dibaçəyə söykədi, sonra Əcəminin salamını aldı:

— Sabahın xeyir, Əbubəkr oğlu... Buyur bura.

Hatib ibn Mübarək onu hovuzun baş tərəfinə salınmış xalçanın üstündə oturmağa də'vət etdi. Özü də "Ya allah" deyərək güllü döşəkçənin üstündə bardaş qurub əyləşəndən sonra şəvə kimi səddanəsini çevirməyə başladı... Və çevirə çevirə də Əcəmiyə başqa döşəkçənin üstündə oturmağı işarə elədi.

Əcəmi səndəl ağacını qurşağına keçirəndə baş şeyx onu ürəyində qarğadı: "Görüb-görəcəyin elə o əlindəki bəqqəm[2] olsun..."

Əcəmi keçib əyləşdi və əyləşən kimi də soruşdu:

— Mən sizə qulaq asıram, cənab əş-şeyx ər-rəis.

— Bəlkə Əbubəkr oğlunun səhər təamına meyli var?.. Birdən söhbətimiz haçalanar, bu da səbəb olar bir yerdə çörək kəsməməyimizə... Ay qız, Şəmsiyyə! — cavan gəlini səslədi.

— Bəli, cənab şeyx! — Cavan gəlin taxta teştin üstündən dikəlib qəddini düzəltdi.

Əcəmi əlini qaldırıb cavan gəlinə öz işində olmasını işarə etdi.

1. Su quyusunun üstündəki qurğu.
2. Səndəl ağacı.

Baş şeyxin danışığının arasında gizlənən xəbərdarlığı hiss etdiyi üçün ötkəm səslə dedi:

— Mən bu fikirdəyəm ki, cənab əş-şeyx ər-rəis məni evinə qonaq də'vət etməyib... O ki, qaldı mənə, keçən dəfə məsciddə etdiyimiz söhbətlər barədə bir az da ətraflı danışmağa ehtiyac duyduğum üçün gəlmişəm... Və buna görə də siz cənabların də'vətini qəbul etmişəm... Mənə bu da agahdır ki, məndən bədgümansınız. Buna görə də, çalışacağam ki, sizi maraqlandıran suallara öz nöqteyi-nəzərimi düzgün izhar edim. Qaldı səhər təamına meylimin olub-olmamasına... təklifiniz üçün minnətdaram. Hatib ibn Mübarək də arif adam idi. Əcəminin sözlərindəki incə kinayəni, onun həyətinə də'vət olunmağından razı qalmadığını, Dəryanurdan sonra baş şeyxə qarşı ürəyində gəzdirdiyi nifrəti birbaşa deməsə də, danışığındakı ahəngin vurğuları özünü büruzə vermişdi və bunları da ev sahibi dərhal başa düşmüşdü. Hələ onun millətinin qarasınca ürəyindən nadancasına fikirlər də keçirmişdi: "Zıllu a'vac a'vacun"[1].

— Nə var, nə yox, Əbubəkr oğlu? — Baş şeyx adəti üzrə hamının bir-birinə verdiyi sualı Əcəmiyə də verdi.

— Nə olacaq, işləyirik, çalışırıq. Şair Əfzələddin demişkən: "Vəta, Adəm, Xizr, Musa üçün mə'na naxışları vururam hər gün..." Ən ümdə işimiz sərdabəni tikib başa çatdırmaq, hökmdarın fərmanına əməl etməkdir... Sarayın hökmü belədir ki, sərdabə gərək verilən vaxtda hazır ola, özü də xəlifə sərdabəsindən əskik olmaya. Məsələn, Üzzöhəb[2] kimi... Baş şeyxə fikrə getdi: "Görəsən, səlcuq Toğrulun[3] artığı niyə belə təbərrük olub? Şəmsəddin oğlunun iştəhasına bax!.. Deyəsən öz dağarcığını çuvalların yanına sürükləmək qəsdindədi..."

İstədi ürəyindən keçənləri Əcəmiyə deyə, ancaq demədi, ehtiyat etdi.

Ehtiyat etdi ki, birdən Əcəmi də deyər: "Dul olanda nə olar. "Allahın elçisi" Məhəmməd peyğəmbərin özü də ilkinə dul övrət almadı?.. Yanında pirkeşik[4] işləyəndə Xüvəylid ibn Əsədin iki dəfə ərdə olan dul qızı Xədicənin varına aldanıb onu özünə övrət eləmədi? Üstəlik, onu öləndə Məkkədə dəfn elətmədi?..." "Üzzöhəb kimi?! Yə'ni mərhum xəlifənin sərdabəsinə oxşar, eləmi?". Sualına cavab almamış

1. Əyri ağacın əyri də kölgəsi olar. (*Ərəb.*)
2. Xəlifə Mənsurun sərdabəsi.
3. Mö'minə xatın Sultan Toğrulun arvadı arvadı olmuşdur. Toğrul öləndən sonra Şəmsəddin Eldəgəzə ərə getmişdir. Cahan Pəhləvan onların ilk oğludur. ("Azərbaycan Atabəylər övləti").
4. Ticarət işlərini idarə edən şəxs.

fürsəti də fövtə vermək istəmədi:

— Yeri gəlmişkən, istərdim biləm: Əbubəkr oğlu Mö'minə xatuna tikdiyi sərdabədən daha əzəmətli, başqa möhtəşəm bir sərdabə tikə bilərmi?

Əcəmi baş şeyxin bu dəfəki sualının arxasında gizlənən xəbis niyyəti tuta bilmədi:

— Niyə tikmirəm, tikərəm!.. Sərdabə yox, lazım olsa qəsr də tikərəm... Siz İslamın gücünə necə inanırsınızsa, mənim də sənətin qüdrətinə e'tiqadım bir o qədər çoxdur. Sabahını bu gündən, gələn ayını bu aydan, gələn ilini bu ildən məhsuldar görməyi bacarmayan sənətkar əsl sənətkar deyil... İstər alim olsun, istər ədib olsun, istər me'mar olsun, istərsə də zərgər, dəmirçi, lap kuzəçi... Belə adamlar həmişə gələcək barədə düşünməlidirlər... O ki, qaldı bizə — Mö'minə xatun anaya abidə ucaldanlara... buyruq quluyuq...

— Bir halda ki, buyruq quluyuq — Hatib ibn Mübarək gözlərini qıyıb əlavə etdi: — onda gərək həm qulluğumuzu göstərək, həm də buyrulanlara əməl edək. Sarayın da, məscidin də fikirlərilə razılaşaq...

— Möhtərəm əş-şeyx ər-rəisi nə məcbur edir ki, oxunu atıb yayını gizlədir? — Əcəmi səndəl ağacının ucu ilə yanağını qaşıdı.

Baş şeyx udqundu, ancaq tez özünü ələ alıb bic-bic gülümsədi:

— Mənim əzəldən oxunu atıb yayını gizlədənlərdən xoşum gəlməyib. — dedi. — Cavanlıqda özüm də yaxşı at minən, ox atan olmuşam, sonra İslama hörmət əlaməti olaraq oxu qılıncla, Məhəmmədin qılıncı ilə əvəz etmişəm... Yaşa dolduğum vaxtdan isə qılıncı yerə qoyub Qur'anı əlimə götürmüşəm... Bu müqəddəs kitabın surələrini də, ayələrini də həmişə müqəddəs bilmişəm, başqaları kimi onlara şəkk-şübhə ilə baxmamışam... Yeddi yuxunun içində də olsam, durquzub soruşsalar deyərəm ki, Qur'anın yüz on dörd surəsi altı min iki yüz otuz altı ayəsi var. Qur'an yazılanda yetmiş doqquz min dörd yüz otuz doqquz sözdən istifadə ediblər... Qur'anda iyirmi beş peyğəmbərin... Baş şeyxin get-gedə cuşa gəldiyini görən Əcəmi onu yaxından qaytarmaq istədi:

— Əgər belədirsə, əsl allah adamısınızsa, bəs onda öz dediklərinizə niyə əməl etmirsiniz, cənab Hatib ibn Mübarək?

— Bu nə cür'ətdi, Əbubəkr oğlu? — Baş şeyx özünü elə göstərdi ki, guya sualı yarıciddi, yarızarafatla verir.

— İndicə dediniz ki, cavanlıqda yaxşı ox atan olmusuz, həm də dediniz ki, oxunu atıb yayını gizlədənləri xoşlamırsınız... Amma yenə

oxunu atıb yayını gizlətdiniz... Biz bu gün ikilikdə söhbət edirik, açıq danışsanız! — Əcəminin son sözləri xahişdən çox, əmr kimi çıxdı. Baş şeyx də bunu hiss etdi. Ancaq Əcəmi üzr istəməyi özünə sığışdırmadı.

Hatib ibn Mübarək elə bil darıxdı və ürəyindən keçənləri deməyə başladı:

— Siz nəyə görə böyük xəlifənin, həşəmətli hökmdarın adına xütbə oxunan günləri Cameyə gəlmirsiniz?

— Bu barədə bizim gərək ki, əvvəllər də söhbətimiz olub... Mən təkcə xütbə oxunan günlərdə deyil, çox vaxt məscidə gəlmirəm... Çünki sarayın fərmanını yerinə yetirirəm... Və sizə də agahdı ki, mənə kömək etməli olanlar əngəl törədirlər. — Əcəmi səndəl ağacını qurşağından çıxarıb baş şeyxə tərəf tuşladı. Hatib ibn Mübarək əyləşdiyi döşəkçənin yanındakı yastığın ucunu qaldırdı, oradan balaca gümüş qutunu çıxardı, onun içərisindən həb götürüb ağzına atdı, bir neçə dəfə udqunandan sonra, təzəcə həna qoyulduğu üçün haqqıq rənginə çalan topa saqqalına bir neçə dəfə tumar çəkdi.

— Yaxşı, — dedi. — Camenin yarımçıq qalan işlərini görəndə sütunların baş tərəfinə bizim müqəddəs adları həkk eləmədiniz ki, mərmər korlanar. Bəs sərdabənin ki üzlüyünü vurmağa başlamısız, kitabələrində niyə həmin müqəddəs adlar yenə yaddan çıxıb?

- - Hardan bilirsiz?

— Bilirəm.

— Cənab əş-şeyx ər-rəis ki, sərdabənin tikintisi aparılan yerə hələ ayaq basmayıb?

— Müridlərim baxıblar...

— Belə deyin! — Əcəmi istehza ilə gülümsədi. — Mən sizin müridlərinizin əlindən belə işlərin gəlməsini ağlıma da gətirmirdim... Din xadimləri başqa bir vəzifəni də icra edirmişlər demək?!

— İslam yolunda xeyirxah iş savab sayılır...

Əcəmi baş şeyxin sözünü kəsdi:

— Xəbərçilik də... güdükçülük də?..

— Siz... nə cür'ətlə... — Baş şeyx söz tapıb fikrini tamamlaya bilmədi.

— Bu qədər ki, İslam, İslam deyirsiz, xəlifə, xilafət dilinizdən düşmür, deyin görək onlardan bu adamlar, mənim həmyerlilərim, həmobalarım, həmvətənlərim hansı xeyri görüblər?.. Hə, niyə dinmirsiz, cənab əş-şeyx ər-rəis?.. Yoxsa belə bir sualı gözləmirdiniz? Məndən

qorxmayın, çəkinməyin, mən bu sualı sizə nə Camedə, nə minbərdə, nə də hökmdar yanında verirəm... İkimizik deyə, bir allah bəndəsi kimi bir allah adamına verirəm bu sualı... Bir müsəlman kimi müsəlmandan soruşuram bunu...

— Əbubəkr oğlu belə sözləri danışanda dindən ehtiyat etmir?

— Hatib ibn Mübarək bu dəfə ona vahimə ilə baxdı, həmsöhbətinin qəlbinə şübhə salmaq istədi.

— Heç nədən ehtiyat etmirəm... Mənim üçün ən böyük din azadlıqdı. Mən insan ləyaqətinə hörmət edirəm. Ona görə ki, yer üzündə insandan adil və mənsur, güclü və zəkalı bir canlı görmürəm, bir varlıq tanımıram!

— Əgər insan naqisdirsə, bəs onda necə?

— İblis, şeytan necə ki, aramızda gəzir, dolanır, cənnət, cəhənnəm sözləri nə qədər ki, bizi vahiməyə salır, idrak da bir o qədər korlanır, nəfs də bir o qədər artır, tamah da bir o qədər güclənir, sərvət, şəhvət hərisliyi də bir o qədər çoxalır... Şair dostum Nizaminin kəlamlarıdır bunlar!

— Onları səhər-səhər yadıma salıb iştahamı küsdürməyin, Əbubəkr oğlu.

— Bu nə sözdü? — Əcəmi açıq-aşkar rişxənd etdi.

— Mənim şüəra tayfasından zəhləm gedir...

— Şairlər zamanın vəkilləri, dövrün haqpərvərləridirlər... Onlardı vaxtında adamları xəbərdar edib deyənlər: amandı, qoymayın yaman yaxşını üstələsin, nadan arifə həmlə etsin, namərd mərdin üstünə yerisin. Şairsiz məmləkət sarbanı olmayan qafilə kimidi...

— Hamısının çörəyi dizinin üstündədi... Başçıları dostunuz İlyas deyil? Əsərini Cahan Pəhləvan dura-dura aparıb İran səlcuqu şah Toğrula bağışladı.

— Mənim şair dostum İlyas Nizami atabəy Əbucəfər Məhəmməd Eldəgəzə öz borcunu ona həsr etdiyi tə'rifdə çox gözəl mə'nalandırıb... Bəlkə əş-şeyx ər-rəis cənabları bunu bilmir? — Əcəmi baş şeyxə diqqətlə baxa-baxa şair dostunun bə'zi misralarını yadına salıb dilinə gətirdi: "Şamil-olan zaman hər kəsə rəhmət, iki sahib adı oldu. Məhəmməd Məhəmmədin biri son peyğəmbərdir, biri də son şahdır, bu gün ömr edir. Ərəb səmasında biri qəmərdir, biri Əcəm şahı — bir tacvərdir..."

Şairin Cahan Pəhləvanın adını Məhəmməd peyğəmbərlə qoşalaşdırması baş şeyxin xoşuna gəlməsə də "rəsulullahı" ərəb səmasında

aya bənzətməsindən çox məmnun oldu. Bunu nəzərə alaraq Nizamidən "əl çəkib" başqalarının babalını yumağa başladı....

— Bu tayfa qədir-qiymət bilən tayfa deyil... İstər gəncəli olsun, istər şirvanlı, istər naxçıvanlı... hamısı bir bezin qırağıdı. Elə götürək "Vəta, Adəm, Xizr"...la başlanan əş'arın müəllifi Əfzələddini... Yoxsa yadından çıxıb onun bəd əməlləri? Öz ustadına, üstəlik, qayınatasına həcv yazıb elə mö'təbər bir kişini el içində xar eləmədi? Əbül-Ülanın bütün yaxşılıqlarını yerə vurmadı?.. O boyda hörmətli zatı təriqət düşməni kimi rüsvayi-cahan eləmədi?.. Getsin qurban olsun Eldəgəzlər xanədanına, atabəy-ə'zəmə. Qanının arasına girməsəydi, indi başı Mildəydi, bədəni Muğanda. Belədi onların hamısı... Mücirəddin Beyləqanisi də belədi. Məhəmməd ibn Tahiri də, Malik əl Kəlamisi də belədi, hətta sarayın artıqurtuğuynan dolanan Kəmaləddin Naxçıvanisi də... hamısı bir-birindən nankor, bir-birindən bettər!

— Möhtərəm əş-şeyx ər-rəis! Gərək ki, Qur'anda deyilir "zalım olmaq günahdır"?

Əcəminin gözlənilməz sualı baş şeyxə yersiz görünsə də, onu cavabsız qoymadı:

— Günah yox, cinayətdir! — Baş şeyx özünü sındırmadı. — Allahın ən mö'təbər kəlamıdı ki, əbədi müqəddəs kitabımız Qur'ana köçürülüb...

— Bəs onda niyə əməl olunmur Qur'ana?

— Allahın, Qur'anın qəsdinə duranlar o dünyalıqdı, özü də cəhənnəmlik!

Əcəmi gülümsədi, baş şeyxə tərəf əyilib yavaşca dedi:

— Qorxuram cəhənnəmə elə birinci cənab əş-şeyx ər-rəisin özü təşrif apara.

Hatib ibn Mübarək güclə də olsa səsini qaldırmağa sə'y göstərdi, ancaq səsi boğuq çıxdı:

— Niyə?

— Çünki zalımsız! Həm də yaxşı ilə yamanı, arif ilə nadanı bir-birindən ayırd edə bilmirsiz...

— Kim bu haqqı verib sizə mənimlə belə danışırsız? — Hatib ibn Mübarək bu dəfə hirslənib özündən çıxdı.

— Əbul Abbas Ə'manın adını eşitmisiz?

— O kimdir?

— Babəkdən də əvvəl yaşamış şairimizdir. O, deyir ki...

— O kafirin adını çəkmə, amma şairin əş'arını de görüm nə deyir?

— Baş şeyx maraq göstərdi.

— Əbul Abbas Ə'ma deyir: "İslama yağdırır dildə tə'riflər, qəlbindəsə ona nifrətlər bəslər..."

— Kim? — Hatib ibn Mübarək özünü itirdi.

— Bu suala şairin özü cavab verib: "Minbərdə boğazdan yuxarı dindar.

Oradan enən kimi dostudur küffar..."

— Səni də Şərur məliki Oğuz kimi cəzalandırmaq gərəkdi, Əbubəkr oğlu! — Baş şeyx bu dəfə yana-yana danışdı. — Sənə kim haqq verib ki... — Sözünün ardını deyə bilmədi.

Əcəmi isə kefini pozmadan xasiyyətinə xas olan sakitliklə sözünün ardını deməyə başladı:

— Onda qulaq asın, qüdsi-barigah! — Əcəmi yenə kinayə etdi: — Bu haqqı mənə ata-babamdan qalan bu torpağım verib, bu haqqı mənə başı bəlalar çəkən millətim verib! Artıq beş yüz ildir ki, alnımıza "müsəlman" damğası vurub heçliyə çağırırsız bizi... Unudursuz ki, insan oğlu həmişə işıqlı yol arayıb, nağıllarımızda deyilən kimi, tilsimli quyuya atılanda da, qaranlıq dünyaya düşəndə də "işıq, işıq" deyib. Qarşısında bir ağ, bir qara qoyun peyda olanda da, ağ qoyunun üstünə atıb özünü işıq həsrətilə... Siz isə insan oğlunu qaranlığa, zülmətə alışdırırsız əzəli gündən... Kimdir günahkar? Aldadan, yaxud aldanan? Mən isə ağlım kəsəndən nifrət etmişəm aldadanın sevincinə, acımışam aldananın kədərinə...

Baş şeyx Əcəminin get-gedə qızışdığından, axırda bəlkə də söhbəti gətirib yenə Dəryanurun üstünə çıxaracağından şübhələndiyi üçün ayağa qalxdı:

— Bəsdirin allah xatirinə!

— Cavanşir kimi bir sərkərdəyə sui-qəsd edən, kafir adlandırdığınız

Babək kimi bir qəhrəmanı xəyanətlə aradan götürən xilafət, onun şeyxləri, müridləri bizim kimi sadə el sənətkarlarının çətin ki, qədrini bilə! — Əcəmi səndəl ağacını qurşağına keçirdi.

— Allahtəala komanı yandırıb küllü-küfan elədi, yenə ibrət olmadı sənə... Bu dikbaşlıq axırda başını yeməsə yaxşıdı. — Baş şeyx birdən hədə-qorxu gəldi, hiyləgərcəsinə başını yırğaladı.

— Sizin bəd əməlləriniz mənə agahdır, cənabi qüdsi-barigah! — Əcəmi səndəl ağacını qurşağından çıxarıb baş şeyxi hədələdi. — Bağdaddakı əməlləriniz də, Xorasandakı əməlləriniz də, buradakı əməllərinizdə...

Cavan yaşındakı əməlləriniz də, ixtiyar yaşındakı əməlləriniz də... Siz gəlin məni rahat buraxın... Mərdi qova-qova namərd eləməyin, cənab əş şeyx ər-rəis!..

Baş şeyx sevindi: yaxşı ki, Əcəmi deməcdi: "Komamın külü-kufan olması da sizin əməlinizdi". Və həmsöhbətinin qırımını görüb dinmədi, dibaçənin üstünə qoyduğu mücrüdən balaca bir müshəfi çıxarıb ona uzatdı. Bu, Cahan Pəhləvanın fərmanı idi. Onu baş şeyx Həmədandan özü ilə gətirmişdi. Orada hökm olunurdu ki, Mö'minə xatunun məzarı üstündə inşa olunan sərdabənin kitabələrini hazırlarkən başqa naxışlarla yanaşı, ərəb əlifbası ilə yazılan "Allah", "Peyğəmbər", "Xəlifə" sözlərindən də bəzək ünsürləri kimi istifadə olunsun...

Əcəmi fikrə getdi: "Peyğəmbərə inamım azdı... Xəlifəyə nifrətim çox... Bəs allah?..."

Darvaza hirslə necə açılmışdısa, eləcə də örtüldü...

## ŞƏHDİGÜL

... Pəncşənbə günü idi. Əcəmi tezdən durub iş yoldaşlarının təzədən düzəltdikləri evinə, həyətinə nəzər yetirdi. Sərdabədə işi dayandırıb gecə-gündüz bilmədən tikib-quran tə'mir aparan həmkarlarının ünvanına ürəyində də olsa dönə-dönə xoş sözlər dedi. Hamıdan çox əziyyət çəkən Cəmilin ata-anasına rəhmət oxudu, bütün qab-qacağını yuyub təmizləyən pal-paltarını təzələyən Zəhraya xoşbəxtlik arzuladı. Və yenə də sevindi ki, yaxşı olub darvazaya xətər toxunmayıb... Yanğın tez söndürülməsəydi, alov yəqin ki, onu da qarsacaqdı, üstündəki naxışları korlayacaqdı. Hamı da fikirləşəcəkdi ki, hökmdarın ayağı düşmədi... Şəmsəddin oğlu nəzərlədi Əbubəkr oğlunu...

Əcəmi bunları fikirləşə-fikirləşə həyətində bir az qurdalandı, sonra bazara getdi. Məqsədi qonşu uşağı Rəşidin şikəst nənəsi Xədicə qarıya qovun, üzüm alıb gətirmək idi. Alıb evə qayıtdı. Rəşidi səsləyib aldıqlarını ona verdi, sonra tut ağacının altındakı yanı qarsalmış kötüyün üstündə oturub dincini almaq istədi. Anası Badisəba yadına düşdü.

— Nə tez qayıtdın, oğul?

— Sənə Ələmdar qovunu, nəxşəbi üzümü almışam, ana!

— Ay pir olmuş, nə qaçhaqaçlıqdı?.. Qorxdun ki, Badisəba ölə, qovun, üzüm yemiyə? Onsuz da neçə ildi Mö'minə xatun səni üzüb əldən salıb... Dilim də gəlmir deyəm ki, balam son illərdə az qala...

— Qocalıram, hə?
— Mənim o sözdən zəhləm gedir... Onu dilinə gətirmə...
— Baş üstə.
— Yaxşı, bəs bilmədin evini yandıran kimdi?.. Sənə kim düşmən kəsilib?..
— Deyərlər mal gedər bir yana, güman gedər min yana... Yer üzündə ha çox namərd...
Elə bu vaxt Cəmil özünü tələsik həyətə saldı. Əcəmi onu belə görən kimi fikri alt-üst oldu və tez də soruşdu:.
— Nə olub, Cəmil?
Cəmil yana-yana dedi:
— Bənna İbrahim... səhərə yaxın qəflətən keçinib...
— Niyə?! Nə olub?
— Heç kim bilmir... Səni gözləyirlər.
... Əcəmi bənna İbrahimin kirayənişin qaldığı balaca həyətə girəndə adamların hamısı pəjmürdə dayanmışdı. Sərdabənin tikintisinidə işləyənlərdən də burada var idi. Onların sifəti payız səması kimi tutulmuşdu, çoxu tüklü çənəsini ovucları içərisinə alıb dərin fikrə getmişdi. Qız-gəlinlər xısın-xısın göz yaşı axıdırdılar. Bə'ziləri də çirkli və nimdaş baş yaylıqlarının ucları ilə islanmış yanaqlarını qurudurdular. Qocalardan bir neçəsi kənara çəkilib demilərini tüstülədirdi...
Bənna İbrahimin köhnə tabuta qoyulan cənazəsini isə bir qız xeylağı bərk-bərk qucaqlamışdı. Qız gülləri solmuş baş yaylığını meyidin üstünə sərmişdi. Şəvə kimi qara saçları çiyinlərindən aşağı tökülərək sifətini örtmüşdü. Qızın yanıqlı bir səslə dediyi ağı ürəklərə dağ çəkirdi: "Aşiqin yaxası var, teşnəyəm, yaxa suvar. Fələk, əlin dəyməmiş, de kimin yaxası var?.."
Əcəmi Cəmilə işarə edib qızın kimliyilə maraqlandı. Cəmil çiyinlərini çəkdi. Kimsə yavaşdan dedi:
— Bədbəxtin bacısıdı... Sən demə elə var-yoxu bu qız xeylayığmış...
Cənazəni qucaqlayan qız bu sözləri eşidən kimi səsini kəsdi, başını qaldırdı, ürkək nəzərlərini Əcəmiyə zillədi. Və birdən özünü saxlaya bilməyib təzədən hönkürdü. Əcəmi yaxın gəlib onu cənazənin üstündən qaldırdı. Qız sifətinə tökülən qara tellərini yanlara çəkdi, əlləri ilə yanaqlarının yaşını sildi. Cəmil qızı tanıdı. Əcəmi Cəmilə baxanda o da başı ilə elə bil işarə edib dedi: "Hə, odur... özüdür..."
Bu, Əcəminin bir vaxt Şeyx Yusifin sərdabəsi yanında, sonra "Qızlar bulağı"ndan su aparan qızların içərisində gördüyü Şəhdigül

idi...

Beləcə bir-birinə baxa-baxa qaldılar. Əcəminin xasiyyətinə, gözəlliklə qənşər-qənşərə dayananda nitqinin tutulmasına bələd olan Cəmil, deyəsən, bunu nəzərə aldı, yaxına gəlib qızın qulağına pıçıldadı:

— Əcəmidi.

— Hə, odur... ha budu, görən kimi tanıdım. — Qız elə bil birdən pənahını tapdı, özünü Əcəminin üstünə atıb başını sinəsinə söykədi, əllərilə belini qucaqladı. Əcəmi heç nə deyə bilmədi. Kimsəsiz bir qıza təskinlik üçün münasib heç bir söz tapmadı. Təkcə dağınıq saçlarına sığal çəkdi...

Ancaq heç kim bilmədi ki, bir gün əvvəl işsizlikdən darıxan İbrahim axşamçağı sərdabənin içərisinə girəndə Mə'sud ibn Əbutahiri orada görmüşdü və başa düşmüşdü ki, o bura nə isə xoş niyyətlə gəlməyib. İbrahim onu yoxlamaq istəyəndə arxadan vurulan qəfil zərbədən gicəllənmiş, ayaq üstə dayana bilməyib yerə sərilmişdi... Bir müddətdən sonra özünə gələn İbrahim bərk susadığını görüb, içəridə Əcəmiyə məxsus balaca bardağı götürüb başına çəkmişdi. Əhvalı yaxşılaşmaq əvəzinə get-gedə pisləşmişdi. Və hiss etmişdi ki, bardaqdakı suya nəsə tökülüb. O, bardağı yerə çırpıb qırandan sonra özünü güc-bəla ilə kirayənişin qaldığı evə çatdıra bilmişdi...

***

Bu dünyada ölənlərə kim ömrü boyu yas tutub, hüzr saxlayıb?.. O qədər əzizlər, o qədər istəklilər bu dünyadan köçüb gediblər ki!. O qədər ağır dərdlər get-gedə yüngülləşib, o qədər ağrı-acılar get-gedə unudulub ki!.. Sayı yox, hesabı yox.

Bir həftə ötdü, bir ay keçdi, mərhumun qırxı da çıxdı. Şəhdigül də ağır itkinin ağrı-acısını unudub təzədən tikilən otağı, tə'mir olunan eyvanı qaydaya saldı, dost-tanışın Əcəmiyə təzədən ev-eşik düzəltmək üçün gətirdikləri əşyaları, pal-paltarı, palaz-kilimi təzədən bir də yuyub təmizlədi... Əcəmi isə otağa özünəməxsus bir səliqə ilə bər-bəzək vurdu... Zəhranın toxuduğu xalça isə otağın baş tərəfini bəzədi...

Xoş günlərin birində Şəhdigül səbrini basa bilməyib Əcəmiyə birdən dedi:

— Mənə, ha budu, daha bacı demə!

— Bəs nə deyim? — Əcəmi güldü, əlindəki səndəl ağacını pəncərənin artırmasına qoydu.

— Zəhra bacı məni sənin komana, ha budu, bacı kimi gətirdi. Sən də məni bacı kimi qəbul etdin... Bunun üçün çox sağ ol... Allahtaala səndən razı qalsın... Atana-anana da qəni-qəni rəhmət eləsin... Amma mən, ha budu, sənin komandan çıxıb daha hayana gedə bilərəm? — Qəhərləndi, ancaq ağlamadı. — Kimim var səndən özgə?.. Bir komada da, ha budu, biz həmişə bacı-qardaş kimi necə qala bilərik?..

— Bəs onda nə etməliyik? — Əcəmi yenə güldü.

— Nə bilim? Ha budu, kişi sənsən... özün bir əncam çək. — Şəhdigül başını sinəsinə əyib kəlağayısının uclarını oynatmağa başladı.

— Nə əncam? — Əcəmi istədi ki, Şəhdigül öz ürəyini özü açsın.

— Mən sənin qulun ollam, Əcəmi... Gündə on dəfə ayaqlarına döşənərəm, təki məni yad qapılara göndərməyəsən. Bilirsən ki, var-yox bir siğə xalam var. Onun boynuna yük olmaq istəmirəm. — Bu dəfə hönkür-hönkür ağladı Şəhdigül. — İbrahimdən sonra sənin komana ayaq basmışam... Qoy buradan da meyidimi çıxarsınlar... Əcəmi bu sadə kəndli qızının ürəyi açıqlıqla dediyi sözləri eşidən kimi narahat olmağa başladı. Elə bil nəfəsi darıxdı, balaca otağın havasını sanki ikibaşlı əjdaha sümürdü. Sinəsi tez-tez qalxıb-endi. İndi inandı ki, nə qədər çətin imiş yumruq boyda ürəkdə ilk məhəbbətin müqəddəs yerini ikinci məhəbbətə təslim etmək... Götür-qoy xeyli çəkdi... Otaq yavaş-yavaş təmiz hava ilə doldu, ev sahibinin sinəsi genişləndi, döyünən ürəyi əvvəlki halına düşdü. Birdən Əcəmiyə elə gəldi ki, neçə-neçə illərdi harayladığı kimsə onun səsinə səs verdi, neçə-neçə illərdi yolunu gözlədiyi kimsə gəlib çıxdı. Neçə-neçə illərdi axtardığı kimsəni indicə tapdı...

Elə bu vaxt nəzərləri pəncərədən həyətə dikildi. Çoxdan uçub harasa gedən leylək də qarşı küçədə qurumuş qoca tut ağacının çılpaq budağı üstündəki yuvasına qayıtmışdı...

— Ağlama... Mən zənən xeylağının göz yaşlarına baxa bilmirəm...

— Dünya binnət olanda, ha budu, elə bil məni sənin adına yazıblar, Əcəmi... Bunu bax... bu da deyir. — Şəhdigül Əcəminin sağ əlini qaldırıb sol döşünün üstünə qoydu. — Görürsən, necə döyünür ürəyim...

— Axı... mən... səndən yaşlıyam.

— Yalvarıram, ha budu, o sözü bir də demə. Ürəyim səni tutub, elə sözlər deyib, ha budu, məni özündən uzaqlaşdırma... Bir də gördün ki, sındı ürəyim səndən, onda gərək öldürəm özümü, Əcəmi!

— Şəhdigülün üzündə gah təbəssüm göründü, gah da yanaqları, dodaqları səyridi. Və birdən Əcəminin önündə diz çökdü.

— Sən... sən dəli olmamısan? Bu nədi? — Əcəmi onun qollarından tutub ayağa qaldırdı, çənəsini yuxarı dartıb gözlərinin yaşını sildi. O, inandı ki, sadə bir kəndli qızı tapdığını itirəcəyindən qorxur. Özü də nigarandı, çox-çox nigaran...

— Mənə söz ver ki, bu komada daha ağlamayacaqsan... Söz verirsən?.. Bir mənə bax... hə, söz verirsən?..

— Hə... Verirəm. — Şəhdigülün dodaqlarına ani bir təbəssüm qondu. Ev sahibinin dodaqları Şəhdigülün ənbər iyi gələn saçlarında gəzdi...

— Sən... mənim bu balaca komamdan... heç yerə getməyəcəksən, Şəhdi!..

Ürkək ceyran qayaya sığınan kimi Əcəminin köksünə sığındı Şəhdigül...

... Əcəminin ricasına görə Cəmil qazı gətirdi, qazı da əqdnamə[1] yazıb onlara kəbin siğəsi oxudu...

Səhərisi Zəhra quymaq bişirib gətirdi, təzə gəlinə Şahbulağın nadir hallarda insan ayağı dəyən döşlərindən yığılan kəklikotunun şərbətini içirdi...

Axşam isə Əcəmi onun üçün qeysəriyyədən aldığı yer-yemişi, müxtəlif rəngli noğulları siniyə düzüb zivaf yatağının yanına qoymuşdu...

## BU XATİRƏ YENƏ ƏCƏMİ DİLİNDƏNDİR

"... Yetim böyümüşəm, rəhmətlik İbrahim, ha budu, mənə həm ata olub, həm də qardaş. Özümün isə bəxtimi allahtəala əzəli gündən qara yazıb... Bir gün gəldi ki, xalam oğluna nişanladılar məni. Əslində mən getmək istəmirdim, qardaşım tək-tənha qalırdı, o halında... Amma sözündən də çıxa bilmədim. Xalam oğlu da, ha budu, dinc bala deyildi. "Vur ölüm, haqqımı ver"in biriydi. Gedib qoşuldu qaçaq-quçağa. Toyumuz olmamış vurub öldürdülər... Yazıq hələ əlimdən də tutmamışdı, üz-üzə durub bir kəlmə belə kəsməmişdik... Bizim kənddə də, ha budu, adət var: hansı qızın ki, toyu olmamış nişanlısının başına bir qəzavü-qədər gəldi, o qızın adını daha heç bir oğlan dilinə gətirməz. Gətirsə də, ata-anası razı olmaz... Deyər qarabəxtdi... O ki, qaldı Şahab meydanında gördüyün övrətə, rəhmətlik anamın siğə bacısıdı. Gözümü açandan Xəzangül arvadı özümə doğma xala bilmişəm.

1. Nigalı kağızı.

Körpə də, ha budu, onun nəvəsiydi... "Qızlar bulağı"na su gətirməyə məni İbrahim göndərmişdi... İndi bəxtimdən, ha budu, yüz kərə, min kərə razıyam. Görüm Cəmil qardaş da, Zəhra bacı da "neynim, necə eləyim" deməsinlər. Məni sənə ürcah elədiklərinə görə işləri həmişə uvand olsun..."

Şəhdigülün nisgilli taleyindən, cavan yaşında başına gələn müsibətlərdən hali olandan sonra bu sadə, ürəyi açıq qıza məhəbbətim birə-on qat artmışdı. Artmışdı deyəndə ki, bu məhəbbəti aramızda, əslində, rəhmətlik bənnanın bacısı özü yaratmışdı. Onun qayğısı, mehribanlığı, uşaq kimi sadəliyi, qəlbinin güzgü kimi təmizliyi, üstəlik, gözəl səliqə-sahmanı məni ona elə bağlamışdı ki, görən deyərdi biz neçə-neçə illərin ər-arvadıyıq. Dəryanurdan sonra qəlbimdə yaranan boşluğu özüm də hiss etmədən pünhan-pünhan, qətrə-qətrə doldururdu Şəhdigül. Yavaş-yavaş başa düşürdüm ki, adamlar bir-birinə isnişəndə, öyrəşəndə, bağlananda nə yaşa baxırlar, nə rəngə fikir verirlər, nə də gözəlliyin, çirkinliyin fərqinə varırlar... Bir də adamlar zahirən cavan, yaxud ixtiyar görünürlər. Əsl cavanlıq, ixtiyarlıq ürəklə ölçülür. Ürək necə ki döyünür — cavandır. Onun sevməyə də, sevilməyə də haqqı çatır. Özünü neçə yaşında hiss edirsənsə elə o yaşdasan... Bir dəfə söz arası Şəhdigül mənə dedi: "Sən sevilməyə layiq kişisən, elə qız, elə gəlin tapmaq olmaz ki, sənə vurulmasın, sən onun ürəyinə yatmayasan, xoşuna gəlməyəsən. Onlardan biri də mənəm. O xoşbəxt özüməm..." Bu sözlərdən sonra özünü tamam başqa aləmdə hiss etdim. Ürkək duruşlu, xoş təbəssümlü, mə'sum baxışlı, şirin dilli bir kəndli qızı mənə yenidən həyat eşqi bəxş etmişdi...

Onu da deyim ki, mən də onun bir sözünü iki eləmirdim. Eləmirdim deyəndə ki, ürəyimdən gəlmirdi. Fikirləşirdim: bir sözünü yerə salsam, ürəyi istəyəni eləməsəm, böyük günaha bataram, elə günaha ki, sonralar onu heç vəchlə yuya bilmərəm.

Nə gözəl, nə ülvi ne'mət imiş dünyada həyat eşqi, ilahi!..

... Gecədən şərtləşdiyimiz kimi, sübhdən durdum. Söz vermişdim ki, cümə günü Şəhdigülü anasının kəndinə aparım. Anası yuxuda giley-güzar eləmişdi ki, kəndimizə gəlmirsən, qəbrimi ziyarət eləmirsən. Atanın kəndinə — Yurdçuya gedirsən, amma məni yada salmırsan... Dağlara tərəf qalxmağa özümün də həvəsim çoxalmışdı. Baharın, Şəhdigül deyən kimi, ha budu, bakirə vaxtı idi. Dağların zirvəsində arabir qar talaları görünsə də, döşləri, yolları ağ libasını çoxdan soyunub yaşıl donunu geymişdi. Otların, güllərin, çiçəklərin biri ovxarlanıb tö-

külür, digəri hələ təzə-təzə yaşıllaşıb əlvanlaşırdı...

Bundan əlavə, rəis təvəqqe etmişdi, Əlincə ətrafındakı dağlarda Əli Şimşəyi tapım və onunla görüşüm. Bəlkə onu yola gətirə bildim ki, qaçaqçılıqdan əl çəksin. Divanla ağac-ağac qoymasın. Rəisə kimsə demişdi ki, Əli Şimşək eşitsə bir Əcəmini eşidər...

Qalxıb yerimin içində oturdum. Məşriqdə günəşin özü görünməsə də, şəfəqləri Elalnı dağının arxasından ağlı-qızılı örpək asmışdı. Yadıma bir neçə il əvvəl eşitdiyim bayatı düşdü: "Əzizinəm elalnı, açıq olur el alnı. Burda bir dağımız var, çağırırlar Elalnı..."

Günəşin nazik zolağı döşəməyə sancılıb, yanğından sonra təzəcə ağardılan balaca otağımızı işıqlandırdı. Şəhdigül həmişəki kimi xumarlana-xumarlana yatırdı. Yanımda uyuyan, mənim balaca kasıb evimdə özünə həm isti yuva, həm də e'tibarlı pasiban tapan göyərçin timsallı bu kəndli qızına xeyli müddət maddım-maddı baxdım. Birdən ona həm yazığım gəldi, həm də qanım qaynadı. Ürəyimdən səs gəldi elə bil: "Ay münəccimlər, ay üləmalar, illərlə baş sındırıb göylərə baxırsınız, ayın, ulduzların sirlərini öyrənməyə təlaş edirsiniz. Amma sizinlə bir evdə, bir həyətdə, bir kənddə, bir şəhərdə bu torpaq üstündə yaşayan həmcinslərininiz barədə hələ çox şeyləri bilmirsiz. İnsanı öyrənmirsiz, onun həyat eşqini araşdırmırsız. Bilmirsiz ki, insan niyə kədərlənir, niyə sevinir, niyə gülür, niyə ağlayır... Niyə nifrət edir, niyə sevir bəni-Adəm? Bax, elə uzağa getməyək, götürək rəhmətlik bənna İbrahimin bacısını, bu ufacıq göyərçini... Nədir onu mənə bağlayan?..

Ey insan, ey təbiətin ulu mö'cüzəsi, yaradanın şah əsəri! Necə oldu ki, sən bu torpaq üstə ayaq açdın, sonra ayaq tutub yeridin, bu torpaq üstünə haradan gəldin, bələdçin kim oldu? Bir qətrə sudan, bir qırtıq qandan nə böyük bir vücud yarana bilərmiş?.. Nədir bu sirr? Nədir bu sirrin açarı?..

Birdən dostum Asiman Mirzə ilə bir vaxt etdiyimiz söhbət yadıma düşdü:

"Heç bilirsən həyat eşqi nədir? Yadımdadı, babam doxsan yaşında Təbrizdən xanım-xatın bir övrət siğə eləyib gətirdi. Onun ehtiramını elə saxlayırdı, onun qayğısına elə qalırdı ki, deyərdin bəs otuz-otuz beş yaşındadırlar... Mən hələ o vaxt qət elədim ki, babamda həyat eşqi güclüdür. Babamın bir sözü indi də yadımdadı. O deyərdi: "İnsanı bu fani dünyaya bağlayan yalnız həyat eşqidir. O olmasa insan ağlı kəsən günü özünü ya asar, ya da intihar edər... Onu da deyim ki, babam həmin övrətlə düz bircə il yaşayıb rəhmətə getdi..."

Şəhdigül hənirtimi hiss edən kimi qımıldandı, gərnəşdi. Ətli çiyinləri silkələndi, sinəsi daha da qabardı. Gözlərini bir an açdı və yumdu. Axı o bilirdi ki, səhərlər onun gözlərini, yanaqlarını, boynunu, sinəsini öpüşlərə qərq etməyi, onun qara zülflərini iyləməyi çox xoşlayıram.

Bu gün də xasiyyətimə xilaf olmadım. O, nazlandı, əzildi... Mən də başımı sinəsinə doğru əydim, belini qucaqladım...

— Qolların nə uzundu...

— Səni bərk-bərk qucaqlamaq üçün.

— Gözlərin nə iridi...

— Səni... yaxşı görmək üçün.

— Dodaqların nə istidi.

— Səni... hərarətlə öpmək üçün.

— Sinən nə genişdi...

— Səni... — Onu bərk-bərk qucaqladım.

Şəhdigül mənə sarıldı. Bir müddət beləcə qaldıq. Elə bil hər ikimiz sərçələrin haray-həşirinə qulaq kəsildik. Sərçələr birdən susdular, sonra "pırr" eləyib budaqlardan qalxdılar, pəncərənin üstündən keçib evin arxasında gözdən itdilər.

Şəhdigülün isti dodaqları sinəmdə gəzdi...

Bir az sonra ikimiz də həyətdəydik. Şəhdigülün arzusu ilə yolumuza götürmək üçün xoruz kəsməyə hazırlaşırdım.

— Sən bilirsən peyğəmbər pəridar barədə nə deyib?

— Pəridar kimdi, Əcəmi?

— Pəridar bax, bu xoruzdur.

Şəhdigül uğunub getdi.

— Peyğəmbər deyib ki, xoruz ən əziz quşdu, çünki o səhərin açılmasını xəbər verir... İndisə biz onun başını kəsmək istəyirik.

— Səndəl ağacını qurşağından çıxarıb ona verdim.

— Onda kəsmə, Əcəmi! — Şəhdigül xoruzu əlimdən almaq istədi.

— Zarafat edirəm, ay qız. — dedim. — Yer üzündə nə varsa insan üçündür, bizim üçündür. — Bıçağı xoruzun boğazına dirədim.

— Üzünü qibləyə tut.

— Tutmuşam.

— Hanı?

— Ən yaxşı qiblə Günəşdi, Şəhdi... Bizə həyat verən odu... Sən də sev Günəşi, Şəhdi.

— Mən... səni sevirəm.

— Nə olar, məni sev... Sonra ikiləşək... Sonra da ikilikdə Günəşi sevək. Bu, Günəşin də xoşuna gələr, mənim şirin dillim!

Şəhdigül mənə xeyli baxandan sonra səndəl ağacını mənə uzatdı, xoruzu əlimdən aldı, qanı süzə-süzə götürüb yan damına tərəf qaçdı. Birdən əhvalım dəyişdi, axı indiyə kimi bir quşun belə başını üzməmişdim, bir toyuğun başını kəsməmişdim. E'dam mərasimləri keçiriləndə isə iki-üç gün şəhərdən çıxıb getmişdim...

Bunları gizlətdim, istəmədim ki, təzəcə gəlin olan Şəhdigül bilsin.

***

Saraya məxsus ilxıdan ayrılan sarı kürən şəhərdən xeyli aralanıb Əshab-kəhf tərəfə gedən cığırla yuxarı qalxmağa başladı. Mən nəzərlərimi uzaqlara zilləmişdim. Elalnıya baxıb fikrə gedir, gah Əlincəyə nəzər yetirib xəyala dalırdım. Gözlərimi uzaqdan çəkib ətrafıma baxanda isə az qala məst olurdum. Atın yüyənini çəkib düşmək istəyirdim, özümü güllərin, çiçəklərin içərisinə atıb onların min bir ətrini, rayihəsini sinəmə çəkmək istəyirdim. Bir az sonra başqa bir cığıra düşüb yaşıl vadiyə endim, atı dayaz çaya vurub o biri sahilə adladım. Elə bil birdən hava da dəyişildi, anlaşılmaz, insan ürəyində müxtəlif xoş hisslər oyadan qəribə bir sərinlik duydum. Ayırd edə bilmədim ki, bu əsrarəngiz gözəllik köçüb gedən qışın qalığıdır, yoxsa dağlara, dərələrə sığal çəkən baharın ilk müjdəsi, ilk ətridir...

Şəhdigül diksinib yanağını kürəyimdən qaldırmasaydı və "bıy, ha budu, az qaldım yıxılam..." deməsəydi, az qala onu tərkimdə olmasını da unudacaqdım.

— Yoxsa yatmısan, Şəhdi?

— Yatmısan da sözdü... hələ, ha budu, yuxu da görürdüm...

— Elə atın üstündə?

— Atın üstü niyə olur? Sənin kürəyində... Deyirsən bu mən elə yuxunu, ha budu, sənin qoynuna girəndə görürəm?..

Qoltuğumun altında uzanıb ürəyimin üstünə qoyulan incə əlini mehribanlıqla sığalladım. Bu nəvazişi görən Şəhdigül sinəsini daha bərk-bərk kürəyimə sıxdı.

— Yaxşı, de görüm nə yuxu görürdün?

— Elə atın... üstündə deyim?..

— Deyirsən düşək bir az dincələk?

— Özün ha bilən yaxşıdı. — Şəhdigül əsnədi.

Əvvəlcə atdan özüm düşdüm, sonra Şəhdigülü yəhərin arxasına bağlanmış kiçik güllü döşəkçənin üstündən qollarımın üstünə aşırdım, qucaqlayıb ehtiyatla yerə qoydum... Şəhdigül qırış-qırış olan tumanını sığalladı, özünü düzəldib sol əlini alnına apardı, iri gözlərini azacıq qıyıb Elalnı tərəfə baxdı.

— Nə gözəl yerlərdi, ilahi! — deyib uşaq kimi sevindi. Sonra qollarını yanlara açdı, köksdolusu nəfəs aldı. Elə bil birdən sinəsində həyat eşqi, gənclik ehtirası, cavanlıq arzuları qaynayıb daşdı. Atılıb boynumu qucaqladı, o üzümdən, bu üzümdən öpdü, əlimdən tutub bulağa tərəf çəkdi. Məxmər küləcəsinin cibindən sümük darağı çıxarıb mənə uzatdı, yanları mavi haşiyəli kəlağayısını başından götürüb çiyninə aşırdı, alnına, yanaqlarına tökülən tellərini yana sığalladı.

Sarı kürən suya tərəf dartındı, qolumun bükümünə keçirdiyim yüyəni buraxdım. At özünü suyun üstünə salıb acgözlüklə içməyə başladı. Şəhdigül ona baxıb ucadan güldü. Mənə elə gəldi ki, qayada kəklik qaqqıldadı...

— Yazıx, ha budu, əlindən alan yoxdu ki, bir az toxtaya-toxtaya iç da! — Sözü sarı kürənə deyə-deyə mənə göz vurdu.

— Görünür dayana bilmir, — dedim. — Ürək istəyəndə heç nə gözə gəlmir.

— Əcəmi, adamlar da ata oxşayır? — Şəhdigül məndən soruşdu.

— Necə ki?.. Heyvanların içində insana ən çox vəfalısı bir atdı, bir də. it. — dedim.

— İti demirəm... mən də bilirsən ki, ha budu, sənə at kimi vəfalıyam... Mənim axı, yer üzündə səndən başqa heç kimim yoxdur. — Şəhdigülün birdən dodaqları səyridi, dupduru sifətində kədərlə sevincin qarışığından yaranan qəribə cizgilər göründü, gözlərinə anlaşılmaz kölgə düşdü.

Narahat oldum, tez soruşdum:

— Sənə nə oldu. Şəhdi?

— Tapdım, — dedi — bu cığır, ha budu, anamın kəndinə gedir...

Onun əlindən tutub bulağın gözünə tərəf çəkdim, çöməldim, onu da yanıma dartdım. Bulağın suyundan ovcuma doldurub uşağın üzünü yuyan kimi Şəhdigülün üzünü yudum, hətta burnunu da sildim. Bu qayğım xoşuna gəldiyi üçün e'tiraz etmədi, diş donduran suyun sərinliyi canına yayıldı, yorğunluğu bir anda yox oldu. Yaş əllərimi əlləri-

nə alıb tez-tez öpdü. Mən də onu bulaq başında bağrıma basıb yaş yanağını, sulu dodaqlarını oxşadım...

— Sən bulağın bu dikinə dirsəklən, mən də sənə, ha budu, bir dəstə gül yığıb gətirim.

— Sənin özün elə gülsən də, Şəhdi... Sənin ətrin heç bir güldə yoxdur... Sənin şəhdindən heç bir güldə olmaz. — Sinəsinə işarə elədim, ifallanıb başını aşağı saldı, yanaqları pörtdü. — Özün də başdan-ayağa şəhdsən, sinən də şəhddi, yanağın da, dodağın da şəhddi... — Çənəsindən tutub yuxarı qaldırdım, qoşa xalına, yanlara gərilmiş qaşlarına, Şahab bulağının suları kimi qaynar gözlərinə, qırmızı yanaqlarına, gilas kimi parlaq dodaqlarına baxdım, baxdım...

— Ha budu, lap şair kimi danışırsan!..

— Me'mar şair olmasa naxış vura bilməz, Şəhdi. Çünki ən böyük şair təbiətdi.

— Təbiət kimdi?

— Təbiət? — Güldüm. — Təbiət bax, bu gördüklərin... Bu dağlar, bu dərələr, bu çöllər, bulaqlar, çaylar, güllər, çiçəklər... Başa düşdün?

— Düşdüm, ya düşmədim, nə fərqi?.. Ha budu, sən danışırsan, mən qulaq asıram, elə bəsimdi... Təki səsini eşidim, nəfəsini duyum... Bir yerə getsən yola salıb dalınca su atım, xeyir-dua verim... Bir səfərdən qayıdanda qabağına çıxım, xoşgəldin eləyim...

— Sonra?

— Sonra da səni qucaqlayıb üzündən-gözündən öpüm...

— Sonra?..

Şəhdigül cavab vermədi, ayağa durdu, gedib atın yəhərindəki döşəkçəni və xurcunu gətirdi. Xurcunu görən kimi soruşdum:

— Hələ acmamısan?

— Yox.

Şəhdigül balaca uşaqlar kimi hoppana-hoppana bulaqdan uzaqlaşdı.

— Uzağa getmə ha, Şəhdi!

— Yox, elə ha budu, buradan yığıram...

Bir az keçməmiş Şəhdigülün xoş zümzüməsi axıb qulaqlarıma doldu. Bildim ki, uşaqlığı kənd yerində keçən, çöllərin ən yaxşı çiçəklərini, güllərini bir-bir dərib əlinə yığmayınca, onlardan dəstə bağlayıb tər sinəsinə sıxmayınca qayıdan deyil. Və ona da inandım ki, onun zümzüməsi bir az sonra mahnıya çevriləcək. Qoy verilsin, axı Şəhdigülün oxumasını hələ eşitməmişdim. Qardaşının nisgilli ölümündən

sonra o, necə həvəsə gəlib oxuya bilərdi? Amma indi oxuyurdu: "Aşığam yar dilini, Rəqibin yar dilini. Gədalar söz anlamaz, Yar bilər yar dilini...

Nə gözəl səsi var idi Şəhdigülün! Arxası üstdə otluğa uzandım, gözlərimi aydın səmaya dikdim. Şəhdigülün incə səsi bulağın həzin səsinə qarışıb qulaqlarıma axdı. "Mən aşıq, sənə gözüm. Səyriyir sənə gözüm. Birdən ayrılıq olar. Qoy baxsın sənə gözüm..." Bu səslər birləşib ürəyimdə qəribə, anlaşılmaz hisslər oyatdı...

Birdən məni huş apardı, Şəhdigülün son sözlərini kəsik-kəsik eşitdim. Sonra bildim ki, xatirəli günlərimdən biri başında mürgülədiyim bulağın suyu kimi axıb yuxuma girib:

... "Elə bax bugünkü kimi baharın bakirə çağı idi. Həyətimizin divarı üstündə oturub uzaqlara baxırdım. Marağaya gedən atamı gözləyirdim. Atam bir ay olardı ki, bu şəhərdə bir tacirə karvansara tikirdi. Anam narazı olsa da, atam dediyindən dönmədi. Anam dedi: "Bilmirəm bu məğərənin[1] nəyinə vurulmusan?.. Atına, ya eşşəyinə?.. Kişi imarət tikər, qəsr bina edər..." Atam isə əməl-hacatını heybəsinə yığdı, atının belinə qalxıb yoluna düzəldi. İşi belə görən anam heç onun dalınca su da atmadı. Amma öz-özünə deyindi: "Başı-daşlı getməsin nə eləsin. Bir parça çörək qazanmaq olub müşkül iş... Nə bənnasının xoş günü var, nə xarratının, nə palanduzunun, nə də..."

— Ə, eşitmirsən? Sənnən deyiləm?

— Məni çağırırsan, ana? — dedim.

— Ə, bəs kimi çağırıram? Sənnən başqa da həyətdə adam var?

— Bu saat gəldim. — Divardan sıçrayıb düşdüm, həyətin yuxarı başında divara söykənəli hananın yanına gəldim. Anam toxuduğu xalçanı az qala yarıya çatdırmışdı.

— Nə deyirsən? — Mən soruşdum.

— Get, evdən o teşdəki yumaqları bura gətir. Dayanıb heyran-heyran yarımçıq xalçaya tamaşa etməyə başladım. Bilirdim ki, anam gözəl xalçalar toxumağı bacarır. Bu dəfəkinə isə söz ola bilməzdi... Neçə gündü başım oynamağa, ağaclara çıxmağa, həyətimizin aşağısından axan çayın başında palçıqdan evcik düzəltməyə qarışdığı üçün anama məhəl qoymamışdım. Bekarlayan kimi də divarların üstünə çıxıb Naxçıvan-Culfa yoluna baxmaqdan başqa məşğələm yox idi.

— Ə, bə niyə getmirsən? — Anam əl saxlayıb mənə baxdı.

— Ana... bir dayan... — Nəzərlərim xalçanın naxışlarına dikilib qalmışdı.

1. İlxı saxlanan yer.

— Niyə elə baxırsan, oğul? — Soruşdu anam.

— Ana... — Bir az da yaxına gəldim.

— Nədi, başına dönüm? — Anamın səsi mülayimləşdi.

— Ana... sənin əllərin qızıl imiş ki! — Birdən anamın əllərini sinəmə qaldırıb öpməyə başladım.

— Bıy, başıma xeyir! — Anam oturduğu yerdən ayağa qalxdı, boynumu qucaqladı: — Sənə nə olub, Əcəmi?!

— Heç nə! — Hanaya yaxınlaşdım, yarımçıq xalçanın naxışlarını ehtiyatla oxşamağa başladım:

— Bunlar nədi, ana?

— Naxışdı, ağrın alım... Niyə, birinci dəfədi görürsən?

— Hə... birinci dəfədi... heç fikir verməmişəm... Naxış nədi, ana?

— Naxış nədi? — Anam fikrə getdi. — Hər şeyin bir naxışı olur, bala... Bu naxışı ona yaradan vurur, yaradan bəxş edir. Bir az fikirləşəndə görürsən ki, yer üzündə bu qədər ki, məxluqat var, hərəsinə bir naxış vurulub... İpək naxışına görə bəyənilir, atlas, xatay naxışına görə ürəyə yatır. Çini qabları biz naxışlarına görə seçib alırıq. Xalça-xalıya isə naxış daha çox lazımdı. Xalça-xalının naxışı nə qədər gözəl olsa o qədər ürəyə yatımlı olur...

— Ana, bir dağlara bax, onların da hərəsinin bir naxışı var. Ağacların da hərəsinin bir naxışı var... Güllərin də, çiçəklərin də, otların, hətta heyvanların da, quşların da!.. Düzdür, ana?..

— Düz deyirsən, oğul. Biz analar, nənələr elə həmin naxışları bir-bir xalçalara köçürürük. O şeyə ki, insan gözü baxır, o şeyi ki, insan görür, o şeyi ki, insan sevib hiss edir, onun naxışları da gözəl olmalıdı, oğul!

— Mən də naxış vurmaq istəyirəm, oğul!

— Axı, xalça toxumaq arvad işidi... Kişilər bu peşənin dalınca getmirlər, ağrın alım.

— Naxışı elə gərək xalçaya vurasan? Başqa şeyə vurmaq olmaz?.. İndicə özün demədin ki, hər şeyin naxışı olur?

Anam fikrə getdi. Soruşdum:

— Görəsən xalça toxumağı kim tapıb, ana?

Anam öz peşəsi barədə bildiklərini elə həmin gün mənə danışdı, özü də təmkinlə, maraqla, yerli-yerində.

— İnsanlar. — dedi. — Düzünü desəm analar, nənələr əvvəlcə belə xalçalar toxumayıblar. O vaxtlar, hələ kəndlər, şəhərlər olmayanda adamlar köçəri idilər. Onlara yayda istidən, qışda soyuqdan qorun-

maq lazım idi. Yağışdan, doludan da qorunmaq lazım idi. Çox-götür qoydan sonra adamların karına yenə qoyun-keçi gəldi... Yuna, qəzilə pənah gətirdi insanlar. Yundan, qəzildən həm paltar toxudular, həm də dolanacaq düzəltdilər. Əvvəl-əvvəl palaz, cecim, karbıd, şəddə, vərəni, zili toxudular. Çünki bunlar köçərilər heç vaxt hava-su kimi lazım olur... Elə ki, evlər bina olundu yer üzündə, onda analar da, nənələr də peşələrinə daha ürəkdən girişdilər. Əvvəlcə kilimlər, sonra xalçalar, xalılar toxundu. Toxunub kəsildi, evlərin bəzəyi oldu. Analar, nənələr ömürlərini bu peşəyə bağladılar, hələ bayatı da düzəltdilər özləri: "Mən aşıq, hana qursam, Xanədə hana qursam. O gün azar taparam, Hanadan yana dursam..."

— Ana, bir də oxu həmin sözləri.

Anam bir də oxudu, hələ həvəsə gəlib başqasını da oxudu. Sonra yenə əvvəlki söhbətinə qayıtdı:

— Xalçaçılıq qədim sənətdi, oğul. — dedi. — İllər keçdikcə nəsildən-nəslə verilir bu sənət. Əgər bildin niyə? Ona görə ki, bir mahnıdı bu sənət. Nənələrimiz onu gecə-gündüz oxuyur, sonra qızlarımıza öyrədirlər o mahnını. Onlar da həmin mahnını baharda oxuyurlar, payızda oxuyurlar. Necə deyərlər, mahnı oxunur, ilmə toxunur. Oddan atəş, güldən ətir almışıq... Atəşə buta şəkli verib xalçalara işləmişik. Lalənin rəngini, çəmənin gözəlliyini xalçalarla yaşatmışıq, toxuduğumuz xalçalara, xalılara adlar da vermişik: "Ləçək-turunc", "Hilə-buta", "Əfşan", "Təbrizi", "Sərabi", "Gömü", "Gəncə", "Fatmeyi", "Naxçıvanı" — Anam danışdı, mən qulaq kəsildim. — Gərək hər kəs öz işinin ustası ola, oğul. Bu, xalçaçıya daha çox gərəkdi. Hananın dalında ki oturdun, gərək əvvəlcə yundan başın çıxa. Çünki elə yun var, onu heç boyaman vacib deyil, qoyun özü ona rəng verib: ağ, qara, xakı... Sonra gərək naxış vurmağı, rəng seçməyi bacarasan. Biləsən ki, hansı qoyunun yununa hansı rəng uyğun gəlir. Elə rəng var ki, yanındakı, yaxud ortasındakı rəngi dirildir, eləsi var öldürür. Eləsi var işıq verir, eləsi var kölgə salır... Xalçaçı gərək bilə ki, hansı otunan, hansı gülün çiçəyiynən, hansı ağacın yarpağıynan, nəyin qabığıynan yunu necə boyamaq olar, onu hanada necə işlətmək olar. Bunları bilməsək gözəl-gözəl xalçaları toxuya bilmərik. Qırmızının yanında sarı rəng, yaşılın yanında ağ rəng həmişə gözəl görünür. Bu barədə nənələrimizin gözəl kəlamları da var: "Ağ ilə yaşıl — nə xoş yaraşır", "Qırmızı sarı — yar tapıb yarı..." hələ usta xalçaçılar deyəllər ki, isti rəng də var, soyuq rəng də, yaxın rəng də var, uzaq rəng də... Onlar ipi nədə boya-

mağı da bilirlər. Bilirlər ki, boya kökündən, badam ağacındannnnnnn, sumaxdannnn, zirincdən, yemişandan, həmərsündən, zə'fərandan, canım balama desin, əncir yarpağından, süddüynən, gülxətmi çiçəyindən, hətta yandırılmış arpadan, səhləbdən, qov göbələyindən hansı rəngi almaq olar, hannsı yunu onunla necə boyamaq olar... Görürsən xalçaçılar nələri bilirlər... xalılar nə qədər əziyyət, zəhmət hesabına toxunub başa gəlir... Amma heyf ki, həmin xalçaları, xalıları imarətlərinin fərşinə döşəyən, divarlarına vuran varlılar heç vaxt fikirləşmirlər ki, onların ilmələri arasında neçə-neçə gəlinin, neçə-neçə ananın, neçə-neçə nənənin gözlərinin nuru gizlənib...

— Bəs bunlar nədir, ana?

— Butadı.

— Buta nədir?

— Deyirsən buta nədir? Hə, oğul, buta da oddu, alovdu... Analarımız, nənələrimiz xalçaları butayla bəzəməyi xoşlayıblar...

— Sağ ol, ana!"Səsimə ayıldım, başımı Şəhdigülün yamaca qoyduğu kiçik güllü döşəkçənin üstündən qaldırıb dikəldim. Şəhdigül yanımda oturub gözlərini mənə zilləmişdi. Müxtəlif güllərdən, çiçəklərdən

dəmət bağlayıb bərk-bərk sinəsinə sıxaraq mənə baxıb şirin-şirin gülümsəyirdi.

— Deyəsən yuxu görürdün, ha budu?

— Nədən bildin?

— Rəhmətlik Badisəba xalanı çağırırdın...

— Hə, anamı yuxuda gördüm.

— Elə bayaq at üstündə mürgüləyəndə, ha budu, mən də anamı görmüşdüm... Allah hər ikisinə rəhmət eləsin! — Şəhdigül boynunu sol çiyninə əyib mənə yazıq-yazıq baxdı. Birdən mənim ürəyimin sıxılacağından ehtiyat edir kimi özünü şad-xürrəm göstərməyə çalışdı.

— Hə, heç baxmırsan, gör sənin üçün, ha budu, necə qəşəng güllər, çiçəklər yığmışam... Ətrindən doymaq olmur. — Şəhdigül gülləri, çiçəkləri sinəsindən aralayıb burnuma tutdu. Gözlərimi yumub güllərin rahiyəsini dönə-dönə iylədim, sonra qolundan yapışdım. Yanıma çəkildi, qolumu onun boynuna saldım. Başını sinəmə dayadı.

— Sən qız deyilsən, Şəhdi... Sən su sonasına oxşayırsan, su pərisinə bənzəyirsən. — Niyəsə ürəyim yamanca cuşa gəlmişdi. — Sən dağlarda azad böyüyən ürkək ceyransan, sən qayalarda səkə-səkə oxuyan kəkliksən, turacsan, qumrusan, göyərçinsən...

— Di yaxşı, bəsdi! — Şəhdigül ərklə sözümü kəsdi. — Bəs deyirsən, ha budu, mən yalançı deyiləm... İndi görürəm yalançısan.

— Nəyə?

— Ona görə ki, mən onların heç biri deyiləm... Ha, budu, niyə yalan danışırsan?

— Bəs nəsən? Bəs kimsən?

— Məəən?

— Hə, sən.

— Mən rəhmətlik bənna İbrahimin bacısı Şəhdigüləm... Kəndli qızı Şəhdəgül. Onun başını sinəmdən qaldırıb heyran-heyran baxdım. Elə baxdım ki, nüfuzuedici nəzərlərim Şəhdigülü bir az da əritdi, mə'sumluğunu isə daha da çoxaltdı. Elə bil nədənsə utandı, fındıqca burnunun yanlarında, ağlı-qırmızılı yanaqlarında səhər-səhər gül üstünə düşən şehə bənzər tər damcıları göründü...

Özümü saxlaya bilmədim, onu yenə qucaqlayıb bağrıma basdım. Elə bu vaxt Günəş bir parça buludun arxasına girdi, bulağın da üstünə gölgə düşdü...

## ƏLİ ŞİMŞƏK

Əcəmi Şəhdigülü qayınanasının siğə bacılığı Xəzangül arvadın yanında qoyub rəisin tapşırığını yerinə yetirmək üçün atını dağlara sarı sürdü, özü də elə yerlərdən sürdü ki, tez-tez bulağa rast gəlcin. Əcəmi hələ cavanlıq çağlarından bilirdi ki, Əlincə silsiləsinə gedən cığırların, yolların kənarlarında suyu diş donduran neçə-neçə bulaqlar çağlayır... Onun isə uşaq vaxtından bulaqlardan xoşu gələrdi, buludların göz yaşından, gül-çiçəyin şəbnəmindən yaranıb ah bu daşın altından qaynayan, gah o qayanın dibindən pıqqıldayan bulaqlardan... Dizini yerə qoyub bulaqların göz yaşı kimi duru suyundan içəndə, pıçıltısına qulaq asanda ürəyinə xoş arzular dolardı.

İndi də bulaqlara baş çəkə-çəkə, dupduru sularından içə-içə gəlib çıxdı. Əlincənin ətəklərinə. Sal qayanın altından çıxan Xanəgah bulağının başında atını əylədi, səndəl ağacını qurşağına keçirib süfrə açdı. Şəhdigülün dəsmala bükdüyü pendir və çörəyi iştahla yedi. Amma bulaqdan ayrılmaq istəmirdi. Sal daşın üstündə əyləşdi. Nəzərləri uzaqlara zilləndi. Uzaqda dumana bürünmüş Əlincə qalası görünürdü.

Bu vaxt bulaqdan bir az aralıdakı balaca həmərsün koluna bağladığı sarı kürən kişnədi. Əcəminin nəzərləri uzaqlardan yığıldı. Sal da-

şın üstündən qalxdı, bulağın başına gəldi. Aşağı əyildi, ovuclarını doldurub sudan içdi. Sonra atını minib qarşıdakı yaşıl təpənin gədiyinə sarı uzanan cığırla üzüyuxarı qalxmağa başladı.

... Əli Şimşəyin qartal gözlərinə bənzəyən iti gözləri uşaqlıq yoldaşı Əcəmini uzaqdan tanıdı.

— Uşaqlar, deyəsən, gələn Əcəmidi...

İgidlərdən iki nəfəri sür`ətlə təpənin döyüşlə tullana-tullana aşağı qaçdılar, sarı kürənin yüyənindən yapışıb onnu mağaranın ağzına çəkdilər. Kömək edib qonağı atdan düşürdülər. Elə bu vaxt Əli Şimşək boyuna görə uzun görünən qollarını açıb Əcəmini bərk-bərk qucaqladı, enli sinəsinə sıxdı.

— Salam, Əli.

— Sən bizim bu dağlara xoş gəlib səfa gətirmisən.

Əcəmi də onun mehribanlığını, səmimiliyini cavabsız qoymadı, uşaqlıq dostunu qucaqlayıb bağrına basdı. Xüsusi bir ahənglə dedi:

— Dəyişmisən. Əli... Yaman dəyişmisən!..

Kimsə oyalandı:

— Sən görən Əli Qazanxan kəndində qaldı, ustad... Eldəgəzlərin adamları kəndlərimizi yandırandan sonra... qız-gəlinlərimizi qul kimi satandan sonra... haqlı tələblərimizi qulaq ardına vurub bizi adam yerinə qoymayandan sonra təkcə Əli Şimşək yox, hamımız dəyişildik...

Əcəmi gördü ki, Əli Şimşək mütəəssir oldu. Əli heç nə demədən qonağın qoluna girib sal qayanı altındakı mağaraya apardı. Burada elindən-obasından ayrı düşən, günlərlə arvad-uşağının üzünü görməyən bir dəstə qaçaq özləri üçün qəribə bir daldanacaq düzəltmişdilər. Mağaranın nəm döşəməsinə çoxlu ayı, pələng, qaramal, davar dəriləri salınmışdı. Dərilərin üstünə qurama çəkilmiş müxtəlif rəngli balaca yastıqlar düzülmüşdü. Bir tərəfdə qab-qacaq gözə dəyirdi. Göydən asılmış yelləncəklərə lavaş yığılmışdı...

Uzaqdan baxandan qartal yuvasına oxşayan bu zirvədəki mağaranın içərisi böyük bir otağa bənzəyirdi.

Əli Şimşəyin işarəsi ilə süfrə açıldı. Daş ocaqların üstündə qızardılmış ət parçaları, sulanmış lavaş süfrəyə düzüldü, kəklikotundan hazırlanmış şərbət gətirildi. Bir azdan sonra Əli Şimşək öz qardaşları, Mahirlə Tahirə himcimlə başa saldı ki, Əcəmini onunla mağarada tək buraxsınlar. Onlar mağaradan eşiyə çıxan kimi Əli Şimşək dedi:

— Hə, bilirəm niyə gəlmisən, qardaş... Gəlmisən deyəsən ki, Eldar Bəhmənin oğlu, inadından əl çək. Əzrayılla çiling-ağac oynama.

Çulu cırıq bir çoban oğlu hara, padşah xanədanı hara? Sən od olsan belə özünü odlaya bilməzsən!..

Əcəmi dinmədi, fikrə getdi, səndəl ağacını qurşağından çıxarıb çənəsinə dayadı.

— Hə, niyə dinmirsən? Yoxsa fikirləşirsən ki, məni necə dilə tutasan, necə yola gətirib saraya aparasan?.. Yox, qardaş, öldü var, döndü yoxdu!.. Bərk ayaqda mənə güvənən, məni özlərinə arxa bilən bu ətraf kəndlərin adamlarını, necə ki nəfəsim gedib-gəlir, tək qoyan deyiləm! — Əli Şimşək qayğılı gözlərini bir nöqtəyə dikib dayandı, dərin fikrə getdi.

Əcəmi uşaqlıq dostunun balaca bədənində böyük bir ürək gəzdirdiyinə indi tam inandı.

— Sən haqlısan, Əli! — dedi. — Amma özün deyən kimi, əzrayılla çilingağac oynamaq müşkül işdi. Sən bu kiçik dəstənlə, beş-on nəfər həmyaşıdınla qoşunu, cəbbəxanası olan xanədanla nə edə bilərsən? Fəlakət üstünə fəlakət gətirərsən. Özünüz də məhv olarsınız, kəndləriniz də daşı daş üstdə qoymazlar.

Əli Şimşəyin yorğun sifətində istehzalı cizgilər göründü.

Əcəmi hiss etdi ki, səsindəki ahəng onun xoşuna gəlmədi, ürəyinə yatmadı. Uşaqlıq dostuna acı cavab, kəskin söz demək də ürəyindən gəlmədi. Əli Şimşək bir az fikrə gedəndən sonra:

— Babək, — dedi, — xilafətin üstünə qılınc qaldıranda ona gün kimi bəyan idi ki, onun xəlifə Mə'muna, xəlifə Mö'təsimə gücü çatmaz. Xilafətin qoşununun sayını da bilmirdi, amma onu bilirdi ki, öz qoşunu xəlifənin qoşunundan çox-çox azdı. Bircə bunu bilirdi ki, xilafəti kökündən silkələyəcək, onu nüfuzdan salacaq! Ölsə də öz məqsədi, öz amalı yolunda canını qurban verəcək. Bax, Babək bunu bilirdi, buna inanırdı... Rica edirəm məni düz başa düş... Mən özümü Babəklə müqayisə etmək istəmirəm. Amma onu istəyirəm ki, mənim həmkəndlilərimin dədə-babadan qalan az-çox torpaqlarını özləri əkib-becərsinlər. Onların əkinlərini başqalarının atı-qatırı ayaqlamasın... Mə'murlar, darğalar onların namusuna əl uzatmasınlar... Dostum, qardaşım, igidə elə bu bəsdir! El-oba bilər ki, beş gün də yaşasaq kişi kimi yaşadıq! Namərdlərə boyun əymədik. Qılıncımızın dəstəyinə haqq yolunda əl atdıq, ədalətdən ötrü qan axıtdıq!..

Əcəmi Əli Şimşəyə xeyli qulaq asdı. Onun çox inamla, qətiyyətlə dediyi sözlər, çəkdiyi misallar Əcəminin fikrini qanadlandırdı, xəyalını çəkib bir neçə il qabağa apardı. Əli Şimşəklə bir yerdə keçirdi-

yi uşaqlıq çağları, cavanlıq illəri, onun inadkarlığına, cəldliyinə, dönməzliyinə aid hadisələr xəyalında canlandı.

... Kənddə toy idi. Cavanlar öz güclərini yoxlamaq üçün meydana toplaşmışdılar. Burada güləş vaxtı kimin güclü olduğu aşkar ediləcəkdi. Bu vaxt ucaboylu, yoğunbiləkli, enli-kürəkli başqa bir yerdən gələn pəhləvan ortaya çıxdı. Bunu görən şüvərək bir oğlan da ortalığa gəldi. Belinə bağladığı çatını bərkitdi. Əli ilə sarı bığlarını eşdi. O, pəhləvanın yanında xeyli balaca göründü. Qız-gəlinlərdən pıqqıldayanlan oldu. Meydançada hədis deyən pəhləvan bir an dayandı. Üzünü camaata tutub rişxəndlə dedi: "Mənə kişi lazımdı, kişi qırığı yox..." Şüvərək oğlan isə özünü sındırmadı: "Qonaqsan, hörmətini saxla. Artıq-əskik danışmaq kimə lazımdı? Gəl qurşaq tutaq, onda görərlər kişi kimdi, kişi qırığı kimi... Şərtim belədi: kim basılsa bir də bu yerlərə ayaq qoymayacaq..." Şüvərək oğlan pəhləvanın qabağına keçib döşə-döşə dayandı. "Belə getsə mən onsuz da bu kəndə daha gələn deyiləm... Mənə özümə tay kişi lazımdır..." Pəhləvanın sözü yarımçıq qaldı. Şüvərək oğlan əlini atıb onun sinəsindən yapışdı, köynəyini ovcunun içərisinə yığıb çənəsinin altına dirədi. "Sən gəlməsən də, mən gələrəm!.. Doğmaca kəndində isbat edərəm ki, Qazanxan kəndinin igidləri sənin həmkəndlilərindən qoçaqdırlar, igiddirlər... sözü bütövdürlər!.." Şüvərək oğlan pəhləvanın sinəsini buraxdı, zurnaçılara tərəf döndü və qartal kimi qıy vurdu: "Cəngi!.."

Hamı heyrət içində idi. Cəngi qızışdıqca güləşənlərin də həyəcanı artır, fəndləri çoxalırdı. Onlar gah ayrılır, gah qurşaq tuturdular.

Sonra bir-birini lingə çəkib tilişdimə atırdılar. Beldən yapışıb yana əyir, boynunu qoltuğunun altına keçirib burur, dizini yerə gətirib irəli-geri sürüyürdülər. Qara zurnanın səsi isə get-gedə zilə qalxırdı, nağaranın səsi bütün kəndin üstünə yayılırdı. Bu səslərin altında pıçıltılar da artırdı:

— Əli onun tayı deyil axı...

— Çobanoğlu gərək buna qol qoymayaydı...

— Zəvzək oğlunun danışığını Əli həzm edə bilmədi...

— Basılsa xing olacaq Eldar Bəhmənin oğlu...

— İgid utandı — sındı, basıldı — öldü...

Birdən Əlinin qıy vuran səsi yenidən kəndin üstünə yayıldı. Pəhləvanın yekə gövdəsi onun başının üstündə idi. Əli onu bir neçə dəfə fırlayıb yerə tulladı. Və bir göz qırpımında qırğı kimi sinəsinə qondu.

Arazın o tayından, Həsənli kəndindən pəhləvanla gələn bir neçə

dəliqanlının xəncərləri qınından çıxdı. Qazanxan kəndinin cavanları isə xəncərlərin qabağına qılınc uzatdılar. Yaxşı ki, ağsaqqallar işə qarışdılar: dava-dalaş olmadı, qan axıdılmadı...

Əcəminin gözləri bir müddət Əli Şimşəyin üzündə qaldı. Sonra bu danışdı, o qulaq asdı, o danışdı, bu maraq kəsildi. Əcəminin fikri gah ötən günlərə qayıtdı, gah şəhərə yönəldi, gah da mağarada qərar tutdu...

— Bilirsən nə var?.. Cahan Pəhləvan sənin igidliyinə, mərdliyinə vurulub. Məqsədi budur ki, sən dağa-daşa düşməkdən əl çəkəsən, saraya gəlməyə razı olasan. Hökmdar sənə əmirnizam ləqəbi verib xüsusi alayına sipəhsalar tə'yin etmək istəyir.

— Kəndli oğlundan sipəhsalar olmaz, dost...

— Qul oğlundan hökmdar olur, kəndli oğlundan qoşun böyüyü olmur? — Əcəmi bu dəfə hirslə cavab verdi. Sonra səsinin ahəngini dəyişib əlavə etdi: — Heyifsən, bir gün divan tutarlar sənə... Onsuz da bədgümandı səndən. Vəzir Sə'dəddin Əsədə də bir dəfə deyib ki, görünür, Gəncədə baş verən üsyandan xəbərdardı çoban Eldar Bəhmənin oğlu...

— Düz deyib, xəbərdaram.

— Onu da deyib ki, görünür, Gəncə əmirinin əsir alınmasını da bilir.

— Düz deyib, bilirəm. Niyə də bilməyim? — Əli Şimşək əlini əlinə vurub xeyli güldü.

— Hələ deyib, görünür, Təbrizdəki iğtişaşlar barədə mə'lumatı da var...

— Bəli, var. Onu da düz deyib... Niyə də olmasın?.. Dağda-daşda yaşamağımıza baxma...

— Deyib yəqinimdir ki, qisasçılar dəstəsini yaradanları da tanıyır..,

— Qardaş qardaşı tanımalıdır. — Əli Şimşək qayğılı gözlərini qıyıb fikrə getdi.

— Deyib, görünür, Əli Şimşək bilmr ki, zərgərin, misgərin birliyindən bir şey çıxmaz...

— Nə çıxsa elə onlardan çıxar! Onlar azlığa yox, çoxluğa arxalanırlar. Kimsəsizlərə əl tuturlar, yurdsuzlara həyan olurlar, acları doyuzdururlar, əlsiz-ayaqsızları darda qoymurlar. Bu adamlar hətta silahsız bir yerə yığışsalar dəyənəklə, daşla qoşun qabağı saxlamağı bacararlar...

... Günbatana yaxın dağlarda xoş bir ətir yayıldı. Əli Şimşəyin döyüşçülərindən kimsə bir neçə lavaş və bir neçə şiş kabab gətirdi. "Ceyran ətindəndi, — dedi, — bu gün səhər ovlamışıq... Olmaz heç yerdə bizim Əlincə ceyranından..."

Əli Şimşək Əcəmiyə tərəf dönüb dedi:

— Yaxın otur, qardaş, bəlkə bir yerdə, bir süfrə başında çörək kəsmək bizə daha qismət olmadı... Amma heç birimiz yaddan çıxara bilmərik ki, biz cavanlıqda da bir yerdə çörək kəsmişik, yaşa dolanda da bir süfrə başında əyləşirik. Babəkdən sonra bu yerlərdə Qur'ana and içmək adət olub. Biz isə bir çörəyə and içirik, bir də Babəkin müqəddəs ruhuna... Yaxın otur... Götür görək, soyuyur...

Süfrəyə əl uzada-uzada əvvəlki söhbətinə qayıtdı. Əcəmi:

— Sənə kənd bağışlamaq, iqta ayırmaq istəyir. Əmr verib ki, sənə aylıq təxsis etməyi də götür-qoy etsinlər.

— Eli-obanı muzd alıb mühafizə etməzlər. Bu, nakişilik olar. Lazım gəlsə var-yoxunu da, hətta başını da yurd yolunda, el-oba yolunda gərək qurban verə kişi... Bir də, qardaş, bu padşahların gücünə inan, vicdanına yox... Sözünə də inanma rəyasət sahiblərinin. Çünki yalanları olmasa dövləti idarə edə bilməzlər. Bir də, qardaş, insan ali məxluq olsa da, naqisliyi də var. Bir-birimizin ürəyini niyə oxuya bilmirik, hə?.. Bu gün taxt-taç düzəldən niyə sabah tabut düzəldir, hə?.. Bu gün saray tikən sabah niyə sərdabə hörür, hə?.. Bu gün üstünə gül-çiçək yağdırılan bir baş sabah niyə cəllad kötüyünün üstünə qoyulub qəsdinə qılınc qaldırılır, hə?.. Sən ki bunları məndən yaxşı bilirsən. Əcəmi daha dayana bilmədi, Əli Şimşəyi bərk-bərk qucaqladı: — Özünü qoru, Əli! Görünür, hər bir millətə üləma lazım olan kimi, şüəra lazım olan kimi, qılınc vuranlar da gərəkdi!..

Əcəmi səndəl ağacını qurşağına keçirib əlini süfrəyə uzatdı. Birinci tikəni yeyəndən sonra Əli Şimşək ötkəm səslə ona təklif edib dedi: — Bir qulağını daya bu qayaya... Gör nə eşidirsən...

Əcəmi əvvəlcə onu başa düşmədi. Əyləşdiyi dərinin üstündə qurcalandı və sol tərəfindəki mağaranın çıxıntısına işarə etdi:

— Nəyə görə?

— Daya, daya. Fərqi yoxdur, harası olur-olsun.

Əcəmi dostunun sözünü yerə salmadı.

— Yaxşı. — Qulağını qayaya söykədi və xeyli dinlədi.

— Nə eşidirsən?

— Heç nə eşitmirəm.

— Ola bilməz. — Əli Şimşək e'tiraz etdi. — Yaxşı qulaq as... Bax, beləcə... Qulağına igid nə'rəsi, at kişnərtisi, qılınc səsləri gəlirmi?

— Xeyr.

— Qəribədir!.. Bəs sən o səsləri niyə eşidə bilmirsən?.. Bəs mən niyə eşidirəm? Babəkin səsini eşidirəm... Axı Babək tacirbaşı Şiblimin sarbanı olanda bizim bu dağlardan keçib... Sonralar xürrəmilərin başçısı olanda qərargahlarından birini yenə bizim bu dağların hansındasa yerləşdirib... Bu yerlərdən keçəndə onun səsini eşidirəm, qulağıma Alapaçanın kişnərtisi gəlir... Qulağını qayaya daha bərk söykə, eşidərsən. O nə'rə Babəkindi... O qılınc səsləri xürrəmilərin qılınclarının səsidi. O at kişnərtiləri Babəklərin atlarının səsidi... Kim eşitmir qoy eşitməsin, mən eşidirəm, eşitdikcə də ürəyim dağa dönür... O vaxtdan üç yüz il keçsə də, Babək bu gün də xilafətə qarşı vuruşur. Mənə elə gəlir ki, xürrəmilərin səsləri kəsilməyib, bu dağlarda, bu daşlarda, bu qayalarda qeyb olub... Bir gün xürrəmilərin özləri də, onların səsləri də zühur edib üzə çıxacaq... Mənə görə xilafət atabəylər üçün xilafətdi, bizim üçün isə xilafət elə atabəylərin özüdü... Biz haqqədalət yolunda qılınc qaldırmışıq, bu yoldan dönən deyilik! — Əli Şimşək ayağa qalxdı. — Bu gecə səni heç yerə buraxan deyiləm, bizimlə qalacaqsan... Onsuz da şər qarışıb. Deyərlər, gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdı.

Onlar mağaradan eşiyə çıxanda Əli Şimşəyin silah yoldaşları yaşıl otların üstündə bardaş qurub əyləşmişdilər. O, nə işarə etdisə təbilin səsi havalanıb dağlara yayıldı. Bir neçə dəliqanlı ortaya çıxdı, çiyinlərini oynada-oynada rəqs etdilər, öz güclərini yoxladılar. Birdən dəliqanlılar kənara çəkildilər. Bu vaxt birisi əlini qulağının dibinə aparıb xüsusi avazla dedi: "Mərd anadan mərd oğul, Namərd olmaz mərd oğul..."

Dəstə onun çəkdiyi bayatının arxasını dedi: "Qorxaq töhmət gətirər. Baş ucaldar mərd oğul..."

Yaşıl otların üstündə əyləşənlərin nəzərləri Əcəmiyə tərəf yönəldi. İkinci bayatı çəkildi: "Əzizinəm, əl incə, Ayaq incə, əl incə..." Dəstə yenə bayatının ardını dedi: "Burdan bir pəri keçdi, Yeri-yurdu Əlincə..."

Bu dəfə hamının nəzəri kənarda tonqal qalayan gümrah oğlana dikildi.

O isə utanıb başını aşağı dikdi.

Bayatı çəkən yenə dedi: "Əzizim, ulu dağlar. Çeşməli, sulu dağlar..."

Bütün dəstə yenə öz işini görmək istərkən Əli Şimşək əlini qaldırıb onları dayandırdı.

— Ayrılıqdan, ölümdən söhbət açmayın! Hamı tabe oldu.

— Hanı bizim ozan?

Hamı dönüb boyca uzun, sarışın oğlana baxdı. O isə heç nə demədən yanında gizlətdiyi sazı götürüb ortaya çıxdı. Sazı köynəyindən çıxarıb sinəsinə qaldıranda ətrafda əyləşənlərdən bir neçəsi öz arzusunu bildirdi:— Ə, dağlardan oxu.

— Yalan deyirə, ə! Əsmərdən de gəlsin.

Bir az sonra ozanın məlahətli səsi gecənin sakitliyində dağlara yayıldı. Gecə şənliyi xeyli çəkdi.

Əli Şimşəyin cingiltili səsi eşidildi:

— Ocağa od vuran, tonqalı yandıran!..

Əlüstü tonqal çatıldı. Bütün cavanlar ayağa qalxıb tonqalın ətrafında halay tutdular. Bir azdan yallı başlandı...

Əcəmi isə kənara çəkilib yanan tonqala baxırdı.

Bu anlarda ona elə gəlirdi ki, tonqalın qalxıb-enən, sönüb-alışan alovları neçə-neçə yerə parçalanan başıbəlalı millətinin ahu-naləsidir, bülənd olub ərşə dirənir...

... Onlar bulağın başında xeyli söhbət etdilər. Uşaqlıq, cavanlıq illərini də yada saldılar. Xatirələr hər ikisinin həm sevincinə, həm də kədərinə səbəb oldu.

— Hə, qardaş... daha mən qayıtmalıyam... Burdan belə tək getməli olacaqsan. — Əli Şimşək Xanəgah bulağının başındakı sal daşın üstündən qalxdı.

Əcəmi də könülsüz-könülsüz durub atına tərəf getdi. Əli Şimşək başa düşdü ki, dostu, deyəsən. hələ ürəyindəkilərin hamısını deməyib. O, yanılmamışdı. Əcəmi atın yüyənini qoluna keçirib yenidən onun yanına qayıtdı:

— Bilirsən, Cahan Pəhləvan bir dəfə sənin barəndə nə deyib?

— Nə deyib? — Əli Şimşək suala sualla cavab verib Əcəminin son sözlərini təkrar etdi.

— Deyib: "Yoxsa Azərbaycanda təzə Məhəmməd ibn Bəis peyda olub? Şimşəkdi, ya İldırımdı, onu başa salmaq gərəkdi ki, qılıncına çox da bel bağlamasın. Qılınc bir xanədana arxalananda — silahdı. Tək-tək adamların əlində adicə dəmirdi. Bunu çarıqlı-patavalı o çoban

oğluna yaxşı-yaxşı anladın..."

Əli Şimşək xısın-xısın güldü və başını silkələdi.

— Elə bu?

— Bəyəm bu azdır? — Bu dəfə də Əcəmi suala sualla cavab qaytardı:

— Ortada xainlər var, axırda səni güdaza verərlər, Əli. Sən bilirsən, hər məmləkətə, hər millətə xainlər də gərəkdi...

Axı saraylarda onların əli ilə də çox iş görülür... Bir xainin gördüyü işi bə'zən bir ordu görə bilmir. Gərək ki, bunu da bilməmiş deyilsən.

— Bilirəm, Əcəmi... Sən haqlısan.

— Qardaş, bir məsələni də unutma ki, bu xalqın gözünü din, şəriət elə bağlamayıb ki, onu hələm-hələm ayıltmaq mümkün olsun. Qırdı bu milləti müxtəlif məzhəblər, təriqətlər...

— Nə edək, de görək qoya: yerə qılıncımızı, alaq boynumuza boyunduruğu?.. Qul doğulaq, qul da ölək?..

— Qardaş, — Əcəmi bu dəfə daha mehriban dilləndi. — Günəş Günəşdi, o da hamı üçün eyni məqamda, eyni formada doğmur, batmır. Biri üçün meşənin arxasından doğub, meşənin arxasında gözdən itir, biri üçün

dağın arxasından görünür, dağın arxasında da yox olur. Biri üçün də dəryaların sularından tülu edib, dəryaların sularına da girib qeyb olur... Daha bəsdir, sən gəl bu də'vəti rədd etmə.

— Yox, Əcəmi. — Əli Şimşək sözünün üstündə möhkəm durdu. — Mən kəndimdən-kəsəyimdən ayrı-yaşaya bilmərəm. Bir ilməsin çəksən, yüz yamağı tökülər kəndlinin. Komasında çörəyi yox, cibində parası. Dəvə-dərman görməz, təbib tanımaz... Beytülmala hər il verdiyi təxsisat qırıb belini bu binəvaların. Elə bil xudavəndaləmin də üzü dönüb kəndlidən. Nə mərhəmət göstərir, nə də bərəkət göndərir. Hamı da deyir ver: əmr də, məlik də, darğa da... Bir müddət nə Əcəmi danışdı, nə də Əli Şimşək.

— Vətən təkcə doğulduğun kənd deyil, Əli. Ata-baba yurdu deyəndə biz ancaq onların yaşadığı yeri düşünə bilmərik...

Əli Şimşək Əcəminin nəyə işarə etdiyini başa düşməsə də, geri çəkilmək istəmədi:

— Qınama məni, qardaş! Vurulmuşam ağlım kəsən gündən ata-baba yurdumun ulu dağlarına da, azman qayalarına da, gen dərələrinə də, sulu çaylarına da, duru bulaqlarına da... Bizim yerlər ilin hər fəs-

lində gözəldi... Qışda geniş çöllər ağ örpəyə bürünür, yazda hər tərəf yaşıl don geyir, yayda hər şey qırmızıya boyanır. Payızda hər yerə qızılı rəng ələnir. Qışın ələyəzli çəkməsi, yazın ətirli kətəsi, yayın buz ayranı, payızın pendiri başqa yerlərdə ələ düşməz... Mən ata-baba yurdumun çörəyinə xor baxa bilmərəm. Məni o böyüdüb ərsəyə çatdırıb. Onun yolunda da vuraşacağam, lazım gəlsə başımı da verəcəyəm. Mən xəyanətə qol qoyan deyiləm.

— Nə xəyanət?

— Deyirlər o bayaq adın çəkdiyin el sərkərdəsi Məhəmməd Bəis oğlunun adamlarından biri satqın çıxır. Daha doğsu, düşmən qızıl verib onu ələ alır. Bunu bilən Bəis oğlu deyir: "Aparın, qızılı əritdirib tökün boğazına. O, çörəyə xəyanət edib, içdiyi andı pozub. Qızılı çörəkdən üstün tutub. Çörək xainidi. Bu gün çörəyə xainlik eləyən sabah yurduna, elinə-obasına xainlik edər". Xainlər də cürbəcür olurlar, qardaş... Xəyanətlər də cürbəcür olur. Çörəyə xəyanət edənlərin günahı, təqsiri tanrıya, yaradana xəyanət edənlərin günahına təqsirinə bərabərdi. Ona görə ki, çörək yaradanın ne'mətidi. Verib bizə yaşamaq üçün. Mən də çörəyə xəyanəti Səhil Sumbat xəyanətindən üstün bilirəm! Ona görə də kəndlinin çörəyini ayaqlayanı, onun çörəyini əlindən alanı cəzalandırmayınca ürəyim sakit olmur...

— Sənə heyfim gəlir, Əli! — deyə Əcəmi oyalandı.

— Niyə?

— Bizim bu ata-baba yurdumuzun sənin kimi igidlərə həmişə ehtiyacı olub və olacaq... Qorxuram itirək səni...

— Qorxma, dostum! Məni o qədər də aciz bilmə. Deyir məhərrəmlik günü kor bir kişi məscidin qırağında oturub şərab içirmiş. Deyirlər: "A bədbəxt, bu nə işdi tutursan, allahın qəzəbinə gələrsən". Kor kişi gülüb deyir: "İslanmışın yağışdan nə qorxusu? O şey ki, mənə lazım idi, onu sizin allahınız əlimdən alıb. Dünyada gözdən qiymətli nə ola bilər? Daha mənim ondan zərrə qədər qorxum yoxdur. Gedin allahınıza deyin ki, bacardığını məndən əsirgəməsin. Əsirgəsə heç kişi deyil!.."

— Görürəm ki, sən tutduğun yoldan dönən deyilsən... Onda ehtiyatlı ol, Əli... Hər adama bel bağlama, qardaş... Deyərlər, insan çiy süd əmib, hər adamı başına toplama...

— Bir dəfə qəbiristanlığın yanından keçirdim. Gördüm bir qız xeylağı bir qəbrin başına dolanır, gah ağlayır, gah gülür. Hərdənbir də geriyə çəkilib qəbri daşa basır. Atımdan endim, yaxına gəldim. Gör-

düm qız deyir: "Səni lə'nətə gələsən, məni niyə doğdun? Doğdun ki, darğa zorla aparıb qatsın evinə, kefini sürəndən sonra gətirib ötürsün kəndə? İndi kəndə gedə bilmirəm, utanıram... Çək məni də yanına... Gecələr qorxuram çöldə-bayırda..."

Bir az da yaxına gəldim, qız məni görcək durub qaçdı və məni daşa basdı... Səsi qəbiristanlığı başına götürdü: "İndi də sən istəyirsən məni aldadasan, kef sürəsən?" Gördüm ki, qızın başı havalıdı. Zənnim də düz çıxdı. Qız gülə-gülə kəndə tərəf götürüldü. Səhər yolum ordan düşəndə gördüm ki, qəbiristanlığın yanından keçən arxın başındakı iydə ağacından qız özünü asıb... Özü də lüt... Əynindəki tumanını ip kimi eşib ağacın budağına sarıyıb... Elə həmin gün and içdim ki, intiqamını alım zəlil olanların, yetimlərin, kimsəsizlərin, köməksizlərin. O vaxtdan da at belindəyəm... Vuruşacağam elim-obam üçün nə qədər canımda can var, keşiyində duracağam kasıb-kusubun, əlsiz-ayaqsızların!..

Əcəmi özünü saxlaya bilmədi, Əli Şimşəyi yenə bərk-bərk qucaqladı...

— İndi mənim bir-iki sualıma cavab ver. — Əli Şimşək çox rəsmi soruşdu.

Ancaq Əcəmiyə elə gəldi onun rəsmiyyətçiliyində də bir mehribançılıq, bir səmimiyyət var.

— Sərdabənin tikilişi necə gedir?

— Yaxşı.

— Mö'minə xatun ağıllı, təmkinli övrət idi. Ona ceyran aparmağım tez-tez yadıma düşür...

— Hə, sənin o əməlin şəhərdə uzun zaman bir hekayət oldu. Bəlkə də buna görə atabəy-ə'zəm sənin şıltaqlıqlarını bağışladı, üstündən keçdi... Amma hər oğul atasına oxşamır ha, Əli!..

Əli Şimşək Əcəminin eyhamını bilməzliyə vurdu. Başqa mətləbə keçdi.

— Evlənməyin xoşuma gəlib...

— Bəs sən özün?

— Sən mənə baxma... Dağda-daşdayam həmişə... Qaçağın gərək övrəti olmaya...

Əcəmi nədənsə dinmədi. Əli Şimşəyin əlini bərk-bərk sıxıb ayrıldı. Beş-on addım atandan sonra dayanıb ucadan dedi:

— Səni bu dağlarımızda amanat qoyub gedirəm, Əli!

— Çox sağ ol, qardaş! Bu dağlar insanlardan çox-çox e'tibarlıdı!..

# SÖYÜD AĞACI

— Ey söyüd ağacı! Allahtəala məni sənə oxşadanda, ha budu, niyə demədin yazıqdı. Deyəydin ki, bədbəxt eləmə o yetimçəni... Bəlkə özü kimi eləsinə qismət oldu ki, ha budu, onun da heç kimi olmadı... Qoy bir övladları olsun, havadarları olsun, qocalanda əllərindən tutanı olsun...

Şəhdigül həyətin aşağısındakı söyüd ağacının altında iki dizini də yerə qoyub başını yuxarı qaldırmışdı, ovuclarını ağaca söykəyib elə bil onunla bəhsə girmişdi. Birdən ayağa qalxdı, ev yananda Zəhranın Əcəmiyə bağışladığı balaca xalçanı yovşan süpürgəsi ilə təmizlədi, ikiqat büküb hovuzun yanına qoydu, təzədən nə fikirləşdisə söyüdün hovuzun üstünə uzanan budağından tutub bərk-bərk silkələdi, o tərəf-bu tərəfə əydi, sındırmaq istədi, gücü çatmadı. Birdən həyətdə qəribə bir zümzümə qanadlandı. O, başını söyüdə söykəyib zümzüməsini elə bil ağıya çevirdi: "Əzizim, dillər haray, Sonalar, göllər haray. Fələk qəsdimə durub, haray, ay ellər, haray..."

Əcəmi darvazanı açıb içəri girəndə Şəhdigülü balaca xalçanın üstündə diz çöküb söyüd ağacıyla danışan görən kimi dayandı, əlindəki səndəl ağacı ilə yanağını qaşıya-qaşıya arxadan yaxına gəlib qulaq kəsildi. Şəhdigülün dilindən qopan sözləri eşidincə sarsıldı. Ehtiyatla yaxınlaşıb əlini Şəhdigülün çiyninə qoydu.

Şəhdigül diksindi və cəld kənara çəkildi. Əcəmini görəndə özünü bir uşaq kimi onun üstünə atdı, belini qucaqladı, başını sinəsində gizlədib hönkürdü.

— Sən... sən nə edirsən, Şəhdi?!

Şəhdigül göz yaşları içərisində ancaq "heç..." deyə bildi.

Əcəmi onun saçlarını oxşadı, başını sinəsindən güclü qaldırıb əvvəlcə alnından, sonra yanaqlarından öpdü. Saçları nəm idi, ənbər iyi verirdi. Bildi ki, elə indicə yuyunub... Saçını bir də iylədi, təzə yuyulan qadın saçından xoşu gələrdi Əcəminin. Dəryanuru xatırladı, onun da saçından beləcə xoş bir iy gələrdi həmişə...

Şəhdigül isə gözünün qarasını bir yerdən sıxıb min yerdən boşaldırdı. Əcəmi gördü ki, övrəti toxtaya bilmir, fikirləşdi ki, qoy ağlayıb ürəyini boşaltsın. Ancaq Şəhdigül kirimək bilmirdi, çiyinləri Əcəminin ovucları içərisində daha bərk silkələnirdi...

— Bax, bu olmadı... Kirisənə, uşaq ki deyilsən?.. Bax, bu olmadı! — Əcəmi eyni sözləri təkrar edirdi: — Di yaxşı, kiri görək!.. Bax,

belə... Mənim ağıllı Şəhdim... Mənim ceyranım, turacım. — Zarafata keçdi. — Ha budu, kəkliyim...

Şəhdigülün dodaqları qaçdı və kiridi, başını Əcəminin sinəsindən götürüb onun üzünə baxdı. Elə bil deyirdi: gözlərimin, yanaqlarımın yaşını sil.

Şəhdigülün iri, qara gözləri qızarmışdı, göz yaşı yanaqlarını islatmışdı. Onun belə halı da Əcəmiyə xoş gəldi, səndəl ağacını qurşağına keçirib, əli ilə Şəhdigülün yanaqlarını sildi, kirpiklərinə barmağı ilə sığal çəkdi, sol qolunun altına alıb hövuzun başına gətirdi. Balaca xalçanın qatını açıb onu oturtdu, sonra özü əyləşdi.

— Hə, indi mənim Şəhdim desin görüm nə olub?

Şəhdigülün dodaqları səyridi, üzündə təbəssümlə ağlamağın qarışığından doğan ani cizgilər göründü, yenə "heç" dedi.

— Yaxşı, demirsən, demə... Mən bu fikirdəyəm ki, sənin məndən gizlin heç bir işin olmayacaq, amma indi görürəm ki...

Şəhdigül cəld özünü yığışdırdı və Əcəminin sözünü bəlkə də birinci dəfəydi ki, kəsdi:

— Mənim... səndən heç bir gizlin işim yoxdur... Bunu, ha budu, allah-təala özü də bilir.

— Bəs onda niyə danışmırsan?.. Axı mən narahat oluram... Özün bilirsən ki...

— Yox, narahat olma sən, əzizim... İndi hamısını danışaram. — Şəhdigül kəlağayısının ucu ilə gözlərini, yanaqlarını sildi. — Onsuz da axşam hamısını sənə yerbəyer deyəcəkdim. — Əcəmiyə qısıldı, qolunu onun qoluna keçirdi, başını çiyninə dayadı.Bir müddət beləcə qaldılar. Şəhdigül handan-hana söhbətini davam etdirdi: — Mənə dedilər ki, ha bunu, Gomayıllı məhəlləsindəki qoca bir qarı var, özü də təbibdən çox bilir... Özünü ona göstər.

— Niyə xəstəsən? — Əcəmi təəccüblə soruşdu.

— Yox, xəstə deyiləm... — Şəhdigül həya edib başını aşağı saldı, kəlağayısının uclarını bir-birinə düyünləyib açdı: — Ha budu, bir ilin gəlniyəm, amma hələ uşağa qalmıram... Zərniyar xalam bilir...

— Nəyi bilir?

— Bilirsən... Uşaq vaxtı dağa gedirdik. Mənim on bir-on iki yaşım olardı. Anamın tərkinə minmişdim, ha budu nə oldusa anam atdan düşdü. Anam düşən kimi ata nə oldusa üzü aşağı götürüldü, mən özümü saxlaya bilmədim, yəhərdən aşıb arxası qatda daşların üstünə düşdüm. Bir həftə belimə yuxa döşədilər... Yaşlı arvadlar kimi olmuş-

dum... Obada qonşu kənddən qoca bir arvad var idi, Ha budu, deyirdilər onun ayağı biləni təbiblərin başı bilmir. Atam anama dedi ki, dənən bir öyəc verirəm qışda qovurmalıq edər, qoy qızı sağaltsın. O da qırx gün bildiyi dava-dərmanı elədi. Havalar soyuyub arana enəndə, ha budu, anamnan xeyli pıçıldaşırdılar. Bircə onu eşitdim ki, anama dedi: "Qızınınkı qalıb xaliqə..."

— Elə bu? — Əcəmi onun başını köksünə sıxdı. Əslində, Əcəminin özünün də bu xəbər ürəyincə olmadı. O da istərdi ki, övlad sahibi olsun, arxası olsun, ocağının tüstüsünü, çırağının işığını özündən sonra alışdıran, yandıran bir varis qoyub getsin. Ancaq nə etmək olardı, kimsəsiz, uşaq kimi, ürəyiaçıq sadə bir kənd qızını övladsızlığa görə eşiyə salmaq, evdən qovmaq dünyada baş verən ən rəzil işlərdən biri olmazdımı?..

— Bu azdı? Ha budu, sənin də çırağını yandıran olmalıdır, ya yox? — Şəhdigül Əcəminin ürəyindən keçəni deyib başını aşağı saldı, elə bilözünün böyük günahını yumaq, qəbahətini təzələmək üçün yol axtarırdı və həmən yolu da elə o anda tapdı və tapan kimi də deməyi üstün tutdu: — Əcəmi... bilirsən nə var? Gəl sən təzədən evlən... Mən sənin komana özüm gəlmişəm... qoy özüm də çıxım gedim... Kəndə qonşumuzda gözəl bir gəlin var. Adı da elə mənə oxşayır: İncəgül... Ərini ilan çaldı, öldü... Bir oğlu olmuşdu, o da qızılcadan öldü. İndi tək-tənha yaşayır. Onu al... bir övladın olsun...

— Kəs! — Əcəmi birdən hirslənib özündən çıxdı. — Bunun danışdığı sözə bax!.. Utanmaz! Elə bir oturuşmuş qarıdı... Hovuzun kənarından durub getdi. Həyətin baş tərəfində də xeyli qurdalanandan sonra gəlib otağa qalxan səkidə oturdu.

Şəhdigül Əcəmini hirslənən görməmişdi, daha doğrusu ona elə gəlmişdi ki, hirslənməyi, başqasına acı söz deməyi bacarmayan kişilərdəndi. İndi Əcəmini hirslənən görəndə təəccüb etdi və onu da yəqin etdi ki, ərinin qəlbinə dəydi. Fikirləşdi: "Haradan gəldi bu axmaq fikir mənim ağlıma?.. Adam ərinə deyər ki, evlən?.. Yaxşı, birdən o mənə desəydi gəl təzədən ərə get, Şəhdigül, mənim xoşuma gələrdi?.. Gör nə böyük qələt eləmişəm, kül mənim başıma!.. Birdən ürəyinə elə gələr ki, məndən yaşca böyük olduğu üçün peşmanlamışam? Aman, allah! Nə işdi bu, tutdum mən?.."

Şəhdigül hovuzun kənarından durdu, böyük günah sahibi kimi özünü danlaya-danlaya Əcəmiyə yaxınlaşdı, birdən diz çöküb onun dizlərini qucaqladı. Əcəmi onu qaldırdı, çəkib səkidə yanında oturtdu.

— Bağışla, Əcəmi... Bilmədim, sənə elə sözlər dedim... Şeytan aldatdı məni... hə, hə... ha budur, şeytan aldatdı... Allah haqqı... Sənin canına!.. — Şəhdigül bilmədi nə etsin, hansı mehribanlığı göstərsin ərinə. Əcəminin də hirsi soyudu. Fikirləşdi. "Görəsən, yer üzündə elə kişi tapılar ki, sizin nəvazişinizə biganə qala bilsin, ay allahım yazıq şəhdigülləri..."

— Bağışladım... Əvvəlincə və sonuncu söhbət olsun. Bildin?..

— Bildim.

Əcəmi özü rəsmi danışdığı üçün cavabı da rəsmi oldu. Birdən qanı qaynadı və Şəhdigülü qucaqlayıb bağrına basdı, üzündən-gözündən öpdü, öpdü. Şəhdigül də nazlandı, xumarlandı... Bütün söhbətlər yaddan çıxdı...

## TƏŞRİF

Cahan Pəhləvan bir aya yaxın idi ki, Həmədəndan çıxıb Azərbaycan Atabəylər dövlətinin tabeliyində olan şəhərlərə — İsfahana, Mazandarana, Xuzistana baş çəkəndən sonra ən böyük şəhərə — Gəncəyə gəlmişdi. Gəncə səfərindən sonra isə oradan birbaşa Naxçıvana təşrif gətirmişdi, özü də qəfil, təmtəraqsız, heç kimə xəbər vermədən, bir dəstə şəxsi xidmətçi və mühafizəçiləri ilə. Onsuz da Şərur mələki Oğuzun əhvalatından sonra bütün əmirlər, məliklər, rəislər ondan bərk ehtiyat edir, xüsusi mürasilələr[1] almamış, xüsusi çaparlar gəlməmiş hüzuruna təşrif gətirmirdilər, imkan daxilində sarayla əlaqədən, onun sahibi ilə ünsiyyətdən kənar qaçırdılar. Həm də Cahan Pəhləvan son vaxtlar yaman səbirsiz olmuşdu. Onun ova çıxanda təntiklik etməsindən, fərman verəndə tələsməsindən, hökm çıxaranda özünü dalıqaçaraq göstərməsindən, saray adamlarını tez-tez cəzalandırmasından, şuluqluq salan kəndliləri, hərbi qaydanı pozan döyüçüləri zindanlara saldırılmasından, saraydan, darülmülükdən kənarda söz-söhbət gedir, dedi-qodular artırdı. Bə'ziləri bunu şahın yaşdanmasına yozur, bə'ziləri əsəbiliyinin artması kimi baxır, bə'ziləri də Eldəgəzlər nəslindən olanların yaşamaması kimi mə'nalandırıldılar...

Amma həqiqət bu idi ki, Əcəmi darıxan kimi, hökmdar da darıxırdı. Sərdabənin tikintisinin tez başa çatmasını arzulayırdı. Əcəmi isə istəyirdi ki, əlindən adicə bir sərbadə yox, böyük sənət əsəri çıxsın. Özü Cəmilə, iş yoldaşlarına deyən kimi: "Naxçıvana nəqşi-cahan deyəndə, Mö'minə xatun sərdabəsi yada düşsün, fikirlərə gəlsin. Axı bir

1. Də'vətnamə.

vaxt gələcək ki, biz gedəcəyik, o yadigar qalacaq. Qoy qalacaq yadigarımız işıqlı olsun, layiqli olsun, bizdən sonra gələn nəsillərimizə fərəh gətirsin, başıucalıq bəxş etsin..."

Amma Əcəmi ehtiyatıda əldən qoymurdu. O, hökmdarı inandırmışdı ki, əsas niyyəti Mö'minə xatın kimi xeyirxah bir insana, böyük bir anaya layiq əbədiyyət evi, qiyamət gününə kimi onun müqəddəs ruhunu özündə hifz edib saxlayacaq son məkan otağı tikməkdir. Axı onu da bilirdi ki, hökmdarlar iki cür olur: birinin yaşa dolduqca ağlı, dərrakəsi çoxalır, öz rəiyyətinə mehri, rəhmdilliyi artır. Birisi isə quduzlaşır, əzazilləşir, cəfakeş rəiyyət üçün bəlaya çevrilir. Fərman, hökm isə yerində qalır. Onu gah birisi, gah da digəri imzalayır. Əlinin üstündə başqa bir əl olmayan, özünü hamıdan yüksək bilən, özündən aşağıdakılara sürü, naxır kimi baxan hökmdarlar, hakimi-mütləqlər azmı olub dünyada?..

Əcəmi sübhdən Atabəylər meydanına gəldi. Şəhər əhlindən olan köməkçiləri onun ricasına əməl edərək öz işlərinin üstünü kəsdirmişdilər. Bir tərəfdə iki oğlan səliqə ilə bio-birinin üstünə yığılan kərpici xüsusi mancanaqlarla yuxarı qaldırır, bir tərəfdə iki nəfər qadın səbət-səbət yumurtaları bir-bir qıraraq ağını sarısından ayırır, saxsı teştlərə doldururdu;. Cəmil isə süd və cirişümü bir-birinə qatıb məhlul hazılayır, onların quzu dərisindən düzəldilən kiçik dağarcıqlara doldurub sərdabənin içərisindəki pillələrlə yuxarı göndərirdi. Ədəmi balaca kərpic parçalarının üstünə xüsusi kaşı çəkən ustanın, bəzək şəbəkələri düzəldən xarratın, kərpic-füqurlar işləyən cavanın yanına gəldi. Onu ilk qarşılayan Cəmil oldu. Salamlaşdılar.

— Sabahın xeyir, ustad.

— Sabahın xeyir, Cəmil... Deyəsən, hamı gəlib, hə?

— Bəli.

Əcəmi növbə ilə hamının işinə baş çəkdi, qəliblərdən çıxan naxışlı parçalardan bir neçəsini götürdü, yoxladı. Təzəcə yuxarı çıxıb şaqulu aşağı sallamışdı ki, Cəmilin səksəkəli səsi eşidildi:

— Ustad... Hökmdar təşrif gətirir...

## AY İŞIĞINDA

Aylı yay gecələrindən biri idi. Havanın elə bil od-alov yağırdı... Ancaq bir az keçəndən sonra hava yavaş-yavaş sərinlədi, Yəzd-Kürd tərəfindən əsən meh bürkünü qovub Icə küçələrdən, həyətlərdən, son-

ra da şəhərdən, uzaqlaşdırmağa başladı...

Şahdigül yataqlarını axşam həyətdəki kətildə salmışdı, bürküdən darıxdıqları üçün Əcəmi balaca kilimi də, yorğan-döşəyi də çiyninə alıb pilləkənlə damın üstünə qaldırmışdı. Onun dalınca pillələri qalxan ev sahibəsi yatacağı yer-yurd eləmiş, sonra ərinin yanına uzanaraq gözlərini bədirlənmiş Aya dikib dərin fikrə getmişdi. Əcəmini yorğun bildiyi üçün onu sual-cavaba da tutmamışdı. Fikirləşmişdi. "İşinin qızğın çağıdı... tez gedib, gec qayıdır... qoy yatıb dincəlsin...". Ancaq Əcəminin döşəkdə tez-tez böyrünü dəyişdiyini görüb əhdigül yenə dinc durmadı:

— Oyaqsan?

— Hə... yuxum qaçdı...

— Gördün, ha budu, deyəsən, hava sərinləyir...

— Sərinləyəcək... Bizim şəhər gecələr heç vaxt küləksiz olmur... Yoxsa yay aylarında adam bürküdən lap boğulur... Sənə bir az çətindi, amma mən öyrəşmişəm...

— Yavaş-yavaş mən də öyrəşərəm.

— Öyrəşəcəksən, amma gec öyrəşəcəksən... Axı sən kənd qızısan, Şəhdi... Sərin çeşmələri, gözəl ab-havası olan bir kəndin qızı... Səni belə qəşəng, gümrah, tutiməqam eləyən də elə o kəndin suyudu, ab-havasıdı...

Şəhdigül yataqda arxası qatda uzanan Əcəminin böyrünə qısıldı:

— Hamısını başa düşdüm, amma tutiməqam nədi, onu başa düşmədim... Neçə dəfə demişəm ki, mənimlə qəliz dildə danışma... İndicə dedim ki, kəndli qızıyam, başa düşmürəm...

Əcəmi güldü, böyrü üstə çevrilib ona tərəf döndü. Gözlərini buludsuz səmadan yavaş-yavaş məğribə tərəf enən Aydan çəkən Şəhdigüldə onun başının altında qoyduğu qolunu çəkib yana uzatdı, qara hörüklərini boynun dalına yığıb başını ərinin sinəsinə söykədi.

— Hər gəlinə tutiməqam deməzlər... Sən həqiqətən tutiməqamsan. Yə'ni şirindilli. — Əcəmi onu yamsıladı: — Ha budu, bal kimi şirin dil...

— Di yaxşı! — Şəhdigül barmaqlarının ucunu Əcəminin dodaqları üstünə qoydu, sonra bir uşaq dəcəlliyi ilə saqqalını oxşadı. — Yorulmadın məni tə'rifləməkdən?.. Elə danışırsan ki, ha budu, elə bil bu dünyada məndən başqa qız-gəlin yoxdu! — Bu dəfə səsindəki ərkötünlüyü, həm də şübhəni Əcəmidən gizlədə bilmədi.

— Niyə yoxdu?.. Var. — Əcəmi aram-aram dedi: — Qız-gəlinə

nə gəlib... Amma səndən yoxdu, sənin kimi ürəyəyatanı, ürəyiaçığı yoxdu. Sən yaxşı qızsan, Şəhdi! — Əcəmi onun alnından öpdü.

— Alnımdan niyə öpürsün? — Əlini Əcəminin sinəsində gəzdirdi. — Sonra dikəlib onu öpdü və arxası qatda düşüb qaldı.

Əcəmi onun öpüşünü cavabsız qoydu. Şəhdigül elə bil incidi, başını yana çəkdi, Əcəminin qolunu başının altından çıxardı, dirsəkdən qatlayıb sahibinin sinəsi üstünə aşırdı.

— Ay şıltaq!..

Araya xeyli sükut çökdü.

Ay məğribə tərəf xeyli əyilmişdi...

Şəhdigül başını yastıqdan qaldırıb dikəldi, yerinin içərisində oturub, dizlərini qucaqladı.

— İstəyirəm... Ha budu... bir söz soruşam, inciməzsən ki?

— Niyə inçiyirəm, soruş. — Əcəmi əli ilə onun kürəyini oxşadı.

— Şeyxin qızını da çox istəyirdin?

— Hansı şeyxin?

— Hatibdi, itibdi... Onun da...

Əcəmi güldü, sonra zarafata keçdi:

— Ha budu, sən ki, baş şeyxə lap qəşəng ad tapmısan...

— Sözünü qəribəliyə salma... Dəryanuru deyirəm.

Əcəmi əlini Şəhdigülün kürəyindən çəkdi və onun sualına birdən cavab vermədi. Bir müddət heç biri dinib danışmadı...

Tut ağacında gecələyən sərçələrdən biri "pırr" eləyib başqa budağın üstünə qondu. Bir neçə sərçə bir-iki ağız civildəyib səsini kəsdi... -

Haradansa, lap uzaqda bir xoruz vaxtsız banladı...

Şəhdigülsə elə bu anda verdiyi sualın xəcalətini çəkdi. Anasının bir vaxtı siğə bacılığı Xəzəngülə dediyi sözlər yadına düşdü: "Qız uşağı ki, ər evinə ayaq basıb gəlin oldu, gərək sahibinin işlərinə qarışmaya... Qarışsa ortada həmişə inciklik olar. Çünki kişi öz evinin qibləsini hamıdan yaxşı bilər... Elə öz övrətindən də... Kişiyə kişi deyiblər...".

Əcəmi belə bir sualı gözləmirdi. Gözləmirdi ki, bütün varlığı ilə ona bağlanan bu sadə kəndli qızı bir gün onun köhnə yarasının qaysağını qoparar, onun yavaş-yavaş unutmağa çalışdığı nisgilini təzədən təzələyə bilər... Əcəminin xəyalı ötən illərə qayıtsa da, gözləri buludsuz səmaya zilləndi. Üfüqdə, göyün lap dərinliyində ara-sıra gözə dəyən ulduzlara baxdı. Ayın gur işığında onlar güclə işarırdılar. Əcəmi

həmin ulduzları uğursuz ilk məhəbbətinin çodan sönüb itən işığına bənzətdi. Bədirlənmiş Ay isə ona gecənin yarısı dizlərini qucaqlayıb yanında əyləşən, verdiyi qəfil sualın xəcalətini çəkən ömür-gün yoldaşının timsalı kimi baxırdı. "Nə cavab verim?.. Düzünü deyim, ya yalan danışıb aldadım?.. Düzünü desəm ürəyinə xal salacağam... yalan deməs özümü bağışlaya bilməyəcəyəm. Hə, ver cavabını, durub-oturub tə'riflədiyin, mədhiyyə dediyin cavan arvadının, hərdən bir gülə, bülbülə bənzətdiyin Şəhdigülünün..."

Şəhdigül özü Əcəmini çətinlikdən qurtardı.

— Deyəsən, elə sən, ha budu, qızları-gəlinləri istəməyi bacarırsan... Şeyxin qızını onda istəyə bilmisən ki, indi də məni istəyə bilirsən... Yoxsa istəməyi əvvəlcədən bacarmasaydın, heç məni də, ha budu, indi necə istəyə bilərdin?..

Əcəminin yadına anası Badisəbanın neçə-neçə illər bundan əvvəl toxuduğu xalçaya heyran-heyran baxarkən dediyi karıxdırmalardan biri düşdü: "... Bu mis nə pis mis imiş, bu mis Misir misi imiş..."

Bir müddət gözlərini səmada gəzdirdi, göyün dərinliyində işaran ulduzları saydı "bir, iki, üç..." Sonra aya baxdı... Birdən haradansa bir parça bulud qəfil Ayın qabağına kedi, bu an səmada gözünə quzeydən güneyə uzanan "karvan yolu" görünüb yox oldu. Əcəmiyə elə gəldi ki, yaşıl-yaşıl dərəynən axan köpüklü bir çayın suları xırp kəsildi... Fikirləşdi: "Bax, onu da, neçə-neçə illər keçəndən sonra adını kimdənsə eşidib öyrəndiyin, yaxud kiminsə aramıza girmək qəsdilə qulağına pıçıldadığı Dəryanuru da baş şeyx belə gecələrin birində, nağıllarda deyilən kimi şəhərdən gizlincə çızarıb intəhası bilinməyən eləcə bir yolla apardı... Və o, bir daha geri qayıtmadı... Məni ona, onu mənə həsrət qoydu, təmarzı qoydu qoca Bağdad tülküsü..."

— Bilirsən nə var, Şəhdi? — Nəhayət, danışdı Əcəmi

— Haradan bilirəm?.. Deyərsən, ha budu, bilərəm.

— Sənə yalan deməyə mənim dilim var gətirmir... — Əcəmi nəzərlərini

səmadan çəkdi, başını yastıqdan qaldırdı və dikəlib yerinin içərisində Şəhdigüllə yanaşı oturdu. — İndi ki, soruşursan, gərək düzünü deyəm... Adını çəkdiyin Dəryanur baş şeyxin qızı deyildi... Bir kasıb kişinin qızıydı... Özü də çox gözəl idi. Təmiz ürəyi var idi, mehribanıydı, heç kimə pislik eləməzdi. Ancaq bədbəxt idi. Elə bədbəxt də oldu. Baş şeyx onu götürüb gizlincə, bir gecə hara apardısa heç kim xəbər tutmadı... — Şəhdigül üzünü Əcəminin çiyninə söykədi. O, ağ-

layırdı.. Əcəmi Dəryanur barədə başladığı söhbəti yarımçıq kəsdi. — Sən ağlayırsan?

— Hə... ağlayıram... Dəryanur kimi bir qızın başına gələn müsibəti eşidəndə, ha budu, adamın göz yaşı sözünə necə baxa bilər? — Şəhdigül gecə köynəyinin yaxası ilə göz yaşını sildi. — Daha dalını demə, Əcəmi...

Əcəmi kiridi, Şəhdigülün ürəyiaçıqlığına, ürəyiyumşaqlığına təzədən heyrət etdi, qolunu onun çiyninə aşırdı və söhbəti dəyişməyə çalışdı: — Sənin də, mənim də yadımızdan çıxıb ki, gecə yarısıdı, hamı yatıb, biz isə oturub köhnə boxça sökürük. Görürsən, Ay da yavaş-yavaş batmağa gedir.

Şəhdigül başını qaldırıb məğribə sallanan Aya baxdı və bilə-bilə söhbəti dəyişdi:

— Bilirsən yadıma nə düşdü?.. Gülmə ha! Qoy danışım... Bilmirəm neçə yaşım olardı. Deyirdim bə, ha budu, gecələr hər həyətin üstündə bir

Ay doğur. Bir gün gördüm ki, bizim Ayın yarısı yoxdu. Başladım zır-zır ağlamağa ki, ha budu, bizim Ayın yarısını Muxtarəddinin oğlu oğurlayıb... Bilirsən niyə belə deyirdim? Ona görə ki, qonşumuz Muxtarəddin kişinin oğlu iki gün əvvəl, gecə divardan aşıb həyətimizə düşmüşdü. Sonra da hinimizi açıb mənim xoşuma gələn ları xoruzumuzu oğurlayıb aparmışdı.

Əcəmi özünü saxlaya bilməyib xeyli güldü:

— Oyunun olsun, Şəhdi!.. Qiyasətsən, vallah!..

— Onun da bir gic arvadı var!.. — Şəhdigül dirsəyilə Əcəminin böyrünü dümsüklədi.

— Gecə keçir ha, Şəhdi. — Əcəmi əsnədi.

— Doğrudan ha! Oyaq elə üçümüzük... Sən, mən, bir də Ay — sonra öz-özünə danışır kimi əlavə etdi: — Kim yatıb, kim oyaq? Hamı yatıb, cırtdan oyaq!.. Özümü deyirəm ha, Cəmi, ha budu, səni cırtdana oxşatmaq ürəyimdən gəlməz... Sən böyük adamsan! Cəmil qardaş da bir dəfə dedi ki, Əbübəkr oğlu dünyada təkdi... Ucaltdığı abidə kimi!.. Belədi ki, deyir Cahan Pəhləvanın özü də abidəyə baxanda ağzı açıla qalıb. hələ tikilib qurtarandan sonra, ha budu, ağzı lap açıq qalacaq. Axı mənim Əcəmimin əlləri qızıldı!.. — Şəhdigül Əcəminin əlini dodaqlarına dayayıb öpməyə başladı. — Sənin bu əllərinə qurban kəsilim!..

— Di yaxşı... Ay baxır, ulduzlar baxır...

Şəhdigül nəzərlərini göyə zillədi:

— Əcəmi, sənnən mənim ulduzum da onların içərisindədi? Axı anam

deyərdi ki, ha budu, hərənin göydə bir ulduzu var...

Əcəmi əli ilə güney tərəfdə, üfüqdə parlayan bir ulduzu göstərdi:

— Bax, o parlayan sənin ulduzundu... Onun yanındakı da mənim.

— Doğrudan?

— Lap doğrudan.

— Əcəmi, sən bilərsən, ha budu, göydə neçə ulduz var?

— Ha çox.

— O ulduzların sayı çox olar, yoxsa sənin abidəyə hördüyün kərpiclərin? Əcəmi güldü.

— Ay qız, bu gecə vaxtı dilotu yemisən? — Əcəmi onu qucaqlayıb özü ilə bərabər yatağa uzatdı və belə vaxtlarda onu kiritmək üçün dediyi sözü təkrar etdi: — Qara qazan, qup!.. Yatdıq!..

## PİŞGAHDA

Naxçıvandan təzəcə qayıdan Cahan Pəhləvanın yanına bə'zi məliklər çağırılmışdı.

Hamı tə'zim edib yerlərini tutandan sonra hökmdar adəti üzrə çənəsini sol ovucunun içərisindən qaldırıb pişgaha toplaşanları bir-bir nəzərdən keçirdi və birbaşa məqsədini bəyan etməyə başladı:

— Müharibə etməsək, qan tökməsək, qurban verməsək bizə qeyrətsiz-cəsarətsiz ərkəklər kimi baxarlar bütün Arranda. Müharibənin iki yolu var: ya əllərini qaldırıb təslim olmalısan, ya sinəni qabağa verməlisən ki, qalib gələsən... Biz ikinci yolla gedəcəyik. Eldəgəzlər xanədanın keşiyini çəkməe üçün bizə qüdrətli, bütöv bir dövlət lazımdır. Güclü qoşun lazımdır, həm də e'tibarlı müdafiə lazımdır.

Vəzir Sə'dəddin Əsəd hökmdarın sözünə qüvvət verib dedi:

— Əlbəttə, ehtiyat igidin yaraşığıdır...

— Müdafiə tikintilərindən bizə ən əvvəl lazım olanı qaladır, hasarlardır. Bizə belə qalalar, belə hasarlar Həmədanda da lazımdır, Gəncədə də; Naxçıvanda da lazımdır, Təbrizdə də... Özü də qalalar elə inşa olunmalıdır ki, böyük bir qoşun oraya yerləşə bilsin...

— Mən Şirvanın... ilhaq olması barədə xəbərdarlıq etmək niyyətindəyəm.

Məliklərdən Cəmalləddin Ayəba soruşdu:

— Buna qonşumuz gürcü çarlığı necə qiymət verər, hökmdar? Axı Georgi ilə şirvanşah qohumdur...

— Biz Şirvanın üstə əli qılınclı gedə bilmərik. Bu, qardaş qırğını olar. — Sə'dəddin Əsəd elə bil öz-öbzünə danışırdı. — Biz Şirvan hakimini təmkinlə, əmin-amanlıqla başa çalmalıyıq ki, arranlılar ona abxazlardan yaxındır, məhrəmdir. Kiminən qohum olursan-ol, bu sənin öz işindir.

Bəs din, bəs məzhəb? Mən bu əqidədəyəm ki, din ayrı, məzhəb ayrı olanda qohumluq da axıra kimi rəvan olmur. Haradasa bir gün narazılıq baş verir... Biz ata-babadan öz rəqibimizə həmişə nəsihət verməyə, onu düz yola çağırmağa adət etmişik. Sözümüzü eşidən qazanıb, eşitməyən uduzub. — Hökmdarın da, məliklərin də ona qülaq asdıqlarını görən ixtiyar vəzir bir az da həvəsə gəlib sözünü davam etdirdi: — İnadkarlıq edənləri isə necə lazımdırsa, eləcə də cəzalandırmışıq, qılınclarımızın qabağından, atımızın döşündən qaçıb qurtara bilməyiblər. Ağıllı hökmdarlar öz nəslinin, öz məmləkətinin tənsibini heç vaxt mələkəsinin nəslinə qurban verməyiblər...

— Mərhaba, vəzir! — Cahan Pəhləvan özünün ilk həmsöhbəti, ilk məsləhətçisi olan müdrik qocaya razılıq etdi. — Azərbaycanda da iki dövlət mövcud ola bilməz... Düzdür, mə'yus olmağa da dəyməz. Çünki birinci bizik — Atabəylər, ikinci onlardır — Şirvanşahlar. Şirvanın şahını baş salarıq ki, artıq vaxt çatıb, "ikini" birləşdirib vahid "bir" yaratmaq lazımdır. — Cahan Pəhləvan iki barmağını büküb baş barmağını göstərdi.

— Hökmdar, özünüzə əyandır ki, başqa dövlətin üzərinə qoşun yeridəndə hakimlər ən əvvəl beytülmaldakı var-dövlətin haqq-hesabını da nəzərə alıblar. Bu ilin vergiləri çox pis yığılıb. Yerlərdən xoşagəlməyən xəbərlər alınır... Bə'zi kəndlərdə peyda olan qaçaq-quldurlar, bədəvilər...

Hökmdar əlini yuxarı qaldırdı, bu o demək idi ki, kiri. Sə'dəddin Əsəd də kiridi. Cahan Pəhləvan birdən sərtləşdi:

— Bunun təqsiri sizdədir! — dedi. — Əvvələn, sən vəzir də, sonra da bunlar da günahkarsınız. — Oturanları göstərdi. — İş belə getsə mən iqtalar paylayıb əlavə qoşun saxlamalı olacağam. Sən mərhum atəbəy-ə'zəmin vəziri olubsan. O vaxtdan da bu işlərin içindəsən. Yaxşı bilirsən ki, əsgər iqtidar olandan sonra vay əkinçinin gününə! Qoy üzünü qibləyə çevirib kəlmeyi-şəhadətini oxusun... Şuluqluq sa-

lan, özbaşınalıq edən kəndliləri yerində oturda bilməyən kəndxudaları buğamı saxlayırıq? Yoxsa şəhər əhalisinə həmsöhbət təy'yin etmişik bu fərsiz darğaları? Sarayın ki taxıl, çəltik zəmiləri, pambıq, yonca sahələri, meyvə bağları olmadı, o nə saraydı? Xanədan ki sürülərə, naxırlara, ilxılara malik olmadı, o nə xanədandı? Bir ölkədə ki kəhrizlər, bulaqlar su vermədi, çaylar, sellər axıdılıb göllərə doldurulmadı, o nə məmləkətdi? O ki, qaldı yerlərdən alınan xoşagəlməz xəbərlərə... — Hökmdar çox sərt göründü: — Dövlətə əl qaldırmaq olmaz, necə ki, allaha ağ olmazlar!... Mən külli miqdarda xərc çəkib Naxçıvanda, Marağada xüsusi qoşun alaylarını niyə saxlayıram? Bu qoşun hissələrinin ümdə vəzifəsi yerlərdə baş qaldıran iğtişaşları yatırmaqdır, asayişi bərpa etməkdir. Məndən əvvəlki hakimlərin də belə qoşun hissələri olub, indi də var. Döyüşməyən, vuruşmayan, qan tökməyən, cızığından çıxıb dövlətin üzünə ağ olmaq istəyən bir para adamlara vaxtında divan tutmayan əli nizəli, kəməri qılınclı qoşun belinə yəhər qoyulub minilməyən ata bənzəyir, özü də ayğır ata yox, madyan ata! Mənim belə qoşun hissələrindən əzəli gündən zəhləm gedir... Nizə ki ələ alındı, öz hədəfinə dəyməlidir, qılınc ki belə bağlandı, lazım gələndə qanından çıxmalıdır. Birdəfəlik sırğa, ya da heydəri edib qulağınızdan asın bu həqiqəti. — Məliklərdən birinə müraciətlə dedi: — Marağadakı qoşundan bir dəstə göndərin Naxçıvana, göstərsin zərbi-dəstini özbaşınalıq edən kənd camaatına... Həm də oranın fərsiz rəisinə!..

— Baş üstə, hökmdar. — Məlik Cəmaləddin Ayəba dedi.

— Özlərinə də ixtiyar verin necə bacarırlar, elə də rəftar eləsinlər dövlətin üzünə ağ olanlarla! Küçük, qulağını kəsəndən qorxar!.. Onda rəiyyət, ələlxüsus, kənd camaatı birdəfəlik başa düşər ki, saraya, xanədana verilən vergilər məcbridir, hər kəsin xoşuna deyil. Kim ondan boyun qaçırsa cəzalanacaq.

Məlik Cəmaləddin Ayəba dilini yenə cinc qoymadı:

— Üstünə qaynar su töküləcək, qışda çılpaq buzlu suda saxlanacaq. Kimin adı siyahıya düşübsə öləndən sonra da vergidən azad edilmir, əgər övladı varsa...

Cahan Pəhləvan isə öz adamlarının ünvanına dediklərini ixtisar etmək fikrində deyildi:

— Bizim darğalar da yaxşı işləmirlər, biganəlik göstərirlər, camaatı yaxşı başa salmırlar. Belə darğalardan bir neçəsini ciddi cəhalandırmaq, lazım gəlsə lap zindana salmaq gərəkdir ki, qalanlarına ibrət olsun. — Cahan Pəhləvan hər iki yumruğunu o biri məliklərə göstərdi:

— İnsan yaranan gündən zülmə boyun əyib, cəbrə tabe olub... Düzdür?

— Bəli, düz buyurursunuz. — Bu dəfə hökmların dediklərini hamıdan tez Qəzvin hakimi Nurəddin Qara təsdiq etdi.

— Zülm etməsən, cəbr işlətməsən dövləti idarə etmək olmaz. Dövlət sözü, mənim zənnimcə, elə zülm deməkdir, hökm deməkdir, cəbr deməkdir. Düzdür, vəzir?

— Bəli, düzdür. — Sə'dəddin Əsəd onun sözünü təsdiqlədi.

— Bunun üçün Nizamülmülk[1] olmaq gərəkdir... Bir də belə olsaydı şahların nə dərdi-səri! — Cahan Pəhləvan yana-yana əlavə etdi: — Elə vəzir olmaq üçün bir baş, iki ayaq çox azdır... Kəllə, qabiliyyət, nüfuz, uzaqgörənlik, siyasət, ağıl, zəka.. nə bilim, daha nələr gərəkdir. O ki, qaldı qaçaq-quldura.. ƏIəlxüsus o çoban Eldar Bəhmənin oğluna... bilmirəm Şimşək Əlidi, yaxud ildırım Əlidi... Mənim üçün heç bir təfavütü yoxdur... — Deyəsən, təfavütü var idi, saray sahibi niyəsə dayandı, əyri-əyri vəzirə baxdı, ani fikrə getdi, sonra davam eidi: — Mən bu fikirdəyəm ki, çoban oğlunu başa salmaq üçün Əbubəkr oğlundan e'tibarlı adam yoxdur. Əcəmi istəsə onu dağlardan kəndə endirə bilər.

Məliklərin yanında ünvanına eyhamla da olsa irad tutulan Sə'dəddin Əsəd özünü ələ alıb dedi:

— Endirə bilməyib, hökmdar...

— Demək, istəməyib... Mən dedim istərsə... Onda mənim xüsusi fərmanımı hazırla, qoy çapar aparıb Naxçıvanın o fərsiz rəisinə çatdırsın. O da çoban Eldar Bəhmənin oğluna qəti xəbərdarlıq etsin ki, beş-on çulucırıq kəndli-kütdünü başına yığıb xanədana hədə-qorxu gəlməsin. — Cahan Pəhləvan yenə fikrə getdi. Əlincə ətrafındakı dar keçiddə Əli Şimşəklə qarşılaşdığı yeri, aralarındakı söhbəti xatırladı. — Fərmanda onu da göstər ki, bir ay içərisində çoban Eldar Bəhmənin oğlunu tutub saraya təhvil versin! O qaçaq onda qanar ki, ərəblərin oyununda olduğu kimi, "şahla" oynamaq "piyadaya" xeyir gətirməz!...

Pişgahda sükut yarandı. Hökmdar bu dəfə niyəsə xeyli düşürdü. Əyləşənlər də tez-tez bir-birinə baxıb çiyinlərini çəkdilər. Saray sahibi handan-hana dilləndi:

— Mənim deyəcəklərim bunlar idi... Amma, vəzir, sən qal.

Hamı otağı tərk etdi, Sə'dədin Əsəd fürsət əldə etdiyi üçün elə

1. Səlcuqilərin məşhur vəziri, "Siyasətnamə"nin müəllifi

bil sevindi:

— Hökmdar, siz... Naxçıvanın baş şeyxinə, həm də rəisinə inanmayın... Əbubəkr oğlu...

Cahan Pəhləvan onun sözünü kəsdi:

— Vəzir, özün bilirsən ki, mərhum atabəy-ə'zəm filosoflardan, üləmalardan, şüəralardan heç vaxt uzaq qaçmayıb... Onlarla görüşlərdən həmişə məmnun olub. İnan ki, mən də atam xasiyyətdəyəm. Və indinin özündə də sənətkarlarla belə bir ünsiyyətə girişmək arzusundayam. İstərəm ki, Əbubəkr oğlu da məndən, saraydan heç vaxt rəncidə-xatir olmasın. — Gözlərini qıyıb vəziri sərt-sərt süzəndən sonra sözünə davam etdi: — Mərhum atabəy-ə'zəm tez-tez deyərdi: "Siyasətşünaslıq hökmdarın ilkin qabiliyyətidir". — Cahan Pəhləvanın sifətindəki sərtlik birdən yox olub getdi, dodaqlarında ani bir təbəssüm göründü.

— Başa düşdüm, hökmdar...

Cahan Pəhləvan vəzirə beytulmala əlavə sikkələr toplanmasına, əlavə vergilərə tə'yin edilməsinə, Naxçıvandakı Duzdağdan duz aparan başqa yerli tacirlərdən rüsumların vaxtında alınmasına, xanədana mənsub ilxılarla qaçışda yüyrək olan ərəb atlarının sayının artırılmasına, zindana salınan oğruların bir neçəsinin əfv edilməsinə, təravətini itirmiş bə'zi cariyələrin saraydan uzaqlaşdırılmasına əmrlər, sərəncamlar verəndən sonra zarafata keçib dedi:

— Vəzir, çoxdan istəyirəm səndən bir şey soruşam.

— Buyurun, hökmdar. — Sə'dəddin Əsədin də zehni açıldı.

— Sənin övrət məsələsindən başın yaxşı çıxır?

— Üzrxahlıq istəyirəm, hökmdar. Mən övrətlər barəsində təmamən bisavadam.. Bunu mərhum atabəy-ə'zəmin özü də bilirdi.

Cahan Pəhləvan birdən qəhqəhə çəkdi:

— Onda dünyadan xəbərin yoxmuş ki, ay mağmın! Övrət fitnə-fəsadından başı çıxmayan kişi gərək başını dövlət işlərinə də soxmaya!

Sə'dəddin Əsəd yazıq-yazıq hökmdara baxıb çiyinlərini çəkdi:

— İnanın ki, düz sözümdür.

— Mən isə övrət barəsində çox şey bilirəm, vəzir... Və bu qənaətə gəlmişəm ki, Allah-təala övrətləri iki cür yaradıb, biri halal, biri haram. — Cahan Pəhləvan başından tacını götürüb taxtın üstünə qoydu, əllərini çoxu ağarmış cod saçlarına çəkdi. — Halal övrət adamın öz övrətidir, xərc çəkib aldığıdır. Necə ki, mülk alırsan, ev-eşik alır-

san, at alırsan, mal-davar alırsan... Haram isə cavanlıqda divardan oğurluqla aşıb getdiyin, yaşa dolanda aldadıb evinə, otağına gətirdiyindi...

— Allah-təala sizi həmişə şad-xürrəm eləsin! Heç bir nigarançılığınız, narahatçılığınız olmasın... Həmişə süfrənizin başında, övladlarınızın üstündə olasınız.

— Mən sənin Eldəgəzlər zanədanına sədaqətinə inanıram, vəzir! Çünki mərhum atamın öz dilindən dəfələrlə eşitmişəm... Heç özüm də bilmirəm kefim niyə duruldu...

Sə'dəddin Əsəd ürəkləndi:

— Sizə xatırlatmağı özümə borc bilirəm ki, keçən görüşümüzdə səlcuqilərin sultanı barədə nəsə demək istədiniz, amma qardaşınız atabəy Qızıl Arslan gəldiyi üçün söhbəti saldınız tə'xirə.

Cahan Pəhləvanın sifəti yenə sərtləşdi, fikrə getdi, adəti üzrə taxtında yanını dəyişdi. Saray sahibi bir məsələ barəsində qəti fikir demək istəyəndə həmişə belə edərdi:

— Mən səlcuqilərə olan ehtiramımı axıra qədər saxlamaq niyyətindəyəm, vəzir. Bilirsən nəyə görə? Ona görə ki, səlcuq xanədanı təslim olmasaydı, hakimiyyətdən əl çəkməsəydi, mənim mərhum atam Şəmsəddin Eldəgəz bizim sülalənin əsasını qoya bilməzdi... Qafqazda İran cisrinə qədər uzanan belə bir dövlət də bərqərar olmazdı. Bax, buna görədir ki, mən səlcuqilərin sonuncu sultanı — üçüncü Toğrulu qəyyumluğa almağı özümə borc bilmişəm... Və məni hökmdən heç kim, heç kəs üz döndərməyə vadar edə bilməz.

Sə'dəddin Əsəd bu barədə söhbətin uzanmasını lazım bilmədiyi üçün başqa bir məsələni hökmdara xatırlatdı:

— Qul karvanı barədə hökmünüz necədir?... Bir də xəlifəyə göndəriləcək hədiyyə barədə fikrinizi bilmək vacib olardı...

Cahan Pəhləvan taxtından yenib pişgahda o tərəf-bu tərəfə var-gəl etdi. Bunu görən vəzir də dərhal ayağa qalxıb onun hüzurunda fərağat dayandı:

— Xəlifəyə cariyə dindən də, dövlətdən də əzizdir... Həvadpərəstlik,[1] fisqu-fücurluq[2] Qureyşi nəslinin ən naqis cəhətidir. Xəlifənin atası tünbətün də belə olub, babası tünbətün də... Harun ər-Rəşidi də, əl-Müstərişdi də, ən-Nəsiri də... Üstəlik babaları Məhəmmədin özü də. — Hökmdar dayandı, alnını ovuşdurdu: — Bir həftəyə qul karvanını yola salın çıxıb getsin... Amma bir nəfər də qız göndərməyin...

1. Ehtiraslılıq.
2. Pozğunluq.

575-17

Bizə xəlifeyi-ruzyəminin mərhəməti daha gərək deyil! Biz daha bundan sonra hər şeyt müstəqil məmləkət kimi özümüz həll etməli olacağıq. Mənim yeganə məramım Arazın sağ və sol sahillərində müqtədir bir dövlət yaratmaqdır. Qoy bunu dostlarımız da bilsinlər, düşmənlərimiz də... Mənə isə bu tac-təxt atamdan qalıb, mən onu qorumalıyam, hifz etməliyəm, öləndə də öz varisimə təhvil verməliyəm... Çalışıram ki, yaxşı hakim òlam, mərhum atabəy-ə'zəmə layiq!..

— Hökmdar həzrətlərinə bəyan olsun ki, indi camaatın çoxu məscidlərdə namaz qılanda "Əşhədü Məhəmməd" sözünə görə peyğəmbərlə yanaşı, hökmdar barəsində də fikirləşir. Onların çoxu ali sözlərini Allah-təaladan sonra sizə aid edirlər. Camaatımız çox gözəl başa düşür ki, xalq küllən müqərrəbi-dərgah[1] olmasa, dövlət bərqərar olub möhkəmlənməz. Bu da hamıya əyandır ki, hökmdarın damarlarında atasının qanı axır. O, Şəmsəddin Eldəgəz kimi bir hökmdarın ilk oğlu, ləyaqətli xələfi, əvvəlinci varisidir. O istəsə öz qılıncının gücünə, ağıl və dərrakəsi ilə Azərbaycan Atabəylər dövlətinin ərazisini də, sərhədlərini də genişləndirər. Bu dövlətin ərazisi məşriqdən məğribə kimi uzanıb gedə bilər...

— Amma biz gərək yüz ölçüb bir biçək. Elə edək ki, rəiyyət narazı qalmasın. — İxtiyar vəzirin mədhiyyəsindən xeyli xoşhal olan Cahan Pəhləvanın səsində birdən rəhm çalarları hiss olundu: — Mən bütün bəni-Adəmi sevirəm. Bu bəni-Adəmdən isə mənim üçün arranlılar daha əzizdirlər. Onların heç birinin başından bir tükün əskik olmasını rəva bilmirəm.

Sə'dəddin Əsəd istədi deyə ki, bəs onda bu sərtlik, bu cəzalar nə üsündür?.. Amma cür'ət etmədi.

Cahan Pəhləvan vəzirin ürəyindən keçənləri elə bil başa düşdüyü üçün fikrini bir az da geniş izah etməyə çalışdı.

— Hamıya agahdır ki, ələlxüsus, sən ixtiyar vəzir çox yaxşı bilirsən ki, hökmdar öz məmləkətində qayda-qanun yaratmaq, asayişi bərpa etmək üçün sərt olmalıdır, yolundan azanları vaxtında cəzalandırmalıdır. Amma lazım gələndə, məqam çatanda öz rəiyyətini yağıların qəfil basqınlarından sinəsi ilə qorumalıdır. Çalışmalıdır ki, heç bir əcnəbidən onun rəiyyətinə heç bir xətər toxunmasın. Deyərlər, hər bir ərkək öz komasının mühafizidir, hökmdar isə təkcə öz komasının yox, bütün məmləkətin mühafizidir... Yadımdadır, atabəy-ə'zəm də tez-tez deyərdi: hakimin ilkin borcu və məramı öz rəiyyətinin haqq-ədalət və sakitlik içərisində yaşamasını tə'min etmək olmalıdır. Təəssüf ki, hər

1. Hökmdara yaxın .

hakim buna nail ola bilmir.

— Dediklərinizə nail olmaq o qədər də asan iş deyil. Hakim bütün rəiyyəti razı sala bilməz. Yunan padşahı İsgəndər də bunu istəsəydi, nail ola bilməz. Bu cahandidə vəzirə inanın, hökmdar. — Sə'dəddin Əsəd səsinin ahəngini dəyişdi: — Daha bir mə'lumat. Naxçıvanın baş şeyxi Hatib ibn Mübarək dünən Həmədana gəlib. Daha doğrusu, mənim yanımda olub... Sizinlə görüşmək niyyətindədir. Deyəsən, Əbubəkr oğlundan yenə narazıdır...

— Bu qoca, Naxçıvnla Həmədanın arasını niyə su yolu eləyib?

— Nə deyim...

— Yaxşı... qoy sabah təşrif gətirsin... Amma ikilikdə o qoca tülkünü başa salmalıyıq ki, Əbubəkr oğlu nə molladır, nə də şeyx. Əcəmi me'mardır, filosofdur.. şairdir... Mənim isə belə şəxslərə böyük ehtiramım, böyük hörmətim var!.. Əcəmi təkdir, Hatib ibn Mübarəklər isə çoxdur. İtlərə atılacaq qədər çox!...

Həbəş qulam özünü içəri saldı:

— Atabəy, Xilat hakimi Ərman şahın şəxsi çaparı gəlib... Sizi tə'cili görmək istəyir...

Cahan Pəhləvan vəzirin üzünə baxa-baza dedi:

— De, gəlsin...

## ÜZ-ÜZƏ, GÖZ-GÖZƏ

... Qədim Dvin ətrafındakı düzənlikdə Cahan Pəhləvanın qoşunu ilə Georginin qoşunu arasındakı döyüş get-gedə qızışırdı. Atabəy-ə'zəmin sağ olmadığını bilən Gürcüstan hakimi Azərbaycan Atabəylər dövlətinin möhkəmlənməsindən, Təbrizin, Marağanın Eldəgəzlər xanədanın tərkibinə daxil edilməsindən bərk narahat olmuşdu və və'dini pozaraq otuz minlik qoşunu ilə Dvin üzərinə yenə yürüş etmişdi...

Cahan Pəhləvan qardaşının, oğlanlarının bu döyüşdə iştirakına razılıq verməmişdi. Onlar nə qədər tə'kid etsələr də, şah öz dediyinin üstündə durmuşdu: "Gürcüstan hakimi mənimlə təkbətək üz-üzə gəlmək niyyətindədir. Buna görə də mən necə istəyirəmsə, elə də olmalıdır... Mən sizinlə qardaş və ata kimi yox, hökmdar kimi danışıram. Hökmdarınsa dediklərini müzakirəyə qoymazlar, onun hökmlərinə düzəliş verməzlər. Mənim əmrim olmadan siz Təbrizdən kənara çıxmırsız. Demetre törəməsinin pişvazına özüm çıxacağım..."

... Hər iki tərəfdən yaralananlar da, ölənlər də çox idi. Buna bax-

mayaraq dəstələr seyrəkləşən kimi arxadakı hissələri irəli ötürürdülər. Qabaqdakı dəstələr üz-üzə dayananda isə arxadakı dəstələr onların yerini tuturdular. Başlarında məxfərin, əyinlərində zirehli geyim olan əsgərlər əllərində ki, qılınclarla, sinanlarla özlərinə yol açır, biri nə'rə çəkə-çəkə, biri lə'nət yağdıra-yağdıra, biri söyüş söyə-söyə düşmən səflərini yarırdılar. İlk zərbədən nalə qoparanların, yaralı-yaralı düşmən üstünə şığıyanlara ürək-dirək verənlərin səsləri də eşidilirdi... Səpələnən dəbilqələrin, ölən, can verən atların, qana bulanan dəmir köynəklərin, qalxanların, nizələrin sayı get-gedə artıb çoxalırdı...

Günortadan sonra nə'rələr də, lə'nətlər də, söyüşlər də, nalə qoparanların, ürək-dirək verənlərin səsləri də qılınc-qalxan səslərinin içərisində əriyib batdı...

Hələ döyüşə girməyən süvari dəstələrinin önündə, ağ kürənin belində şahanə əyləşən Cahan Pəhləvan öz piyadalarının vuruşundan hələ ki, narazı deyildi. İlk günlərdə onlar geri çəkilsələr də, dünəndən öz yerlərində sayırdılar. Onun haqq-hesabına görə döyüş meydanında ölənlərin çoxu Georginin əsgərləri idi.

Cahan Pəhləvan fikirləşirdi: "Qoy ölənlərin anaları əvvəl-əvvəl Georgini lə'nətləsinlər. Mən ona əmin-amanlıqla, bir qonşu kimi mehriban olmağı təklif etmişdim. Görünür, verdiyi sözə axıra kimi əməl edə bilmədi. Qoy bilsin ki, Cahan Pəhləvanın qabağında duruş gətirmək hər kişinin işi deyil. Eldəgəzlər qılıncını hər ərən korşalda bilməz, onu Şəmsəddin oğullarının əlindən hələm-hələm vurub yerə salmaq mümkün deyil!.." Birdən yadına atabəy-ə'zəmin sağlığında göstərdiyi döyüş düşdü. Onda Rey ətrafında vuruşurdu. Sonralar ilk qayınatası olacaq Qutluq İnancla üz-üzə gəlmişdi. Və üç tərəfdən sıxışdırırlırdı. Atlıları ortadan döyüşə buraxdı, düşmən hissələrini yarıb keçdilər, qarşıdakı süvarilərlə döş-döşə dayandılar...

Pərən-pərən olub yanlara dağılan piyadalar özlərinə gəlincə hər şey həll olundu: qoşunu pencər kimi biçib tökdülər.

Rey hakimi aman istəməli oldu...

— Hökmdar, məqamdı, bəlkə Naxçıvandan gətirilən xas süvari alayını döyüşə buraxaq? — Arxada at üstündə dayanan məliklərin içərisindən irəli çıxıb Cahan Pəhləvanı ötən günlərə uçan xəyalından ayıran Qəzvin hakimi Nurəddin Qaraydı.

Cahan Pəhləvan sağ əlini qılıncının qəbzəsindən çəkib yuxarı qaldırdı və bir az sərt tərzdə:

— Gərək olanda, — dedi, — özüm əmr eləcəyəm!

Məlik heç nə deməyib atının cilovunu geri dartdı, at dalı-dadlı həsdəyib əvvəlki yerini tutdu. Yəhərdə əyləşib döyüşün gedişini diqqətlə izləyən məliklərdən Cəmaləddin Ayəba və onun adaşı Cəmaləddin Özəba bir-birlərinə baxdılar, bir kəlmə də kəsmədilər.

Elə bu vaxt irəli yortan dəstələrin arxa çərgəsindən beş-on əsgər qəfil geriyə dönüb qaça-qaça gəldi və Cahan Pəhləvanın ağ kürəni ilə döş-döşə dayandı. Onların içərisindən ucaboy, şüaərək əsgər irəli çıxdı, başındakı məxfərini çıxarıb hirslə yerə atdı, əlindəki qılıncını qəzəblə kənara tulladı.

— Bəsdir! — deyə səsi gəldikcə bağırdı. — Az verin bu adamları qırğına! Doymadınız tökülən bu günahsız qanlardan?.. Dayandırın davanı! Biz daha vuruşmaq istəmirik... İstəmirik! — Əsgər bu sözləri deyə-deyə belindəki toqqasından polad tiyəli qəməni çəkib ağ kürənin sağ böyrünə cumdu. Yaxınlaşan kimi də havada bir şəfəq parlayıb yox oldu. Ucaboy, şüvərək əsgərin başı bədənindən ayrılıb torpağa düşdü , qəmənin dəstəyini ovcunda bərk-bərk sıxan başsız bədən əvvəlcə geriyələngər vurdu, sonra üzüqoylu torpağa səriildi... Bu, elə ani, elə gözlənilməz baş verdi ki, əvvəlcə heç kim heç nə kəsdirə bilmədi. Yalnız Cahan Pəhləvan qılıncının tiyəsini ağ kürənin yalına çəkib qanını təmizləyəndə hər şey aydın oldu...

Hökmdarın üzünə "ağ olmaq" istəyən əcnəbi əsgərlər bu hadisənin fərqinə varan kimi dərhal geri döndülər. Georginin piyadalarına qarşı canı-dildən vuruşan qoşunun içərisində yox oldular...

... Bu dəfə Karmasin düzündə gedən vuruş yadına düşdü. Atabəyə'zəm Şimala Ay-Doğdunun qoşununu sıxışdırmışdı... Bu vaxt düşmən qoşunundan əsir alınan və heç bir suala cavab verməyən cavan bir döyüşçünü Şəmsəddin Eldəgəzin hüzuruna gətirdilər. Əsir başını dik tutaraq hökmdar atının qabağına yeridi.

"— Suallara niyə cavab vermirsən?"

"— İstəyirdim məni hökmdar hüzuruna gətirsinlər.."

"— Məqsədin nə idi?"

"— Sənin o kifir üzünü görmək..."

"— İgid oğlana oxşayırsan... Onun qollarını açın, buraxın getsin".

"— Getmərəm.. Sərkərdəmiz elə bilər ki, xain çıxmışam, ona görə məni buraxıblar... Bir də əsir düşən bir əsgər öz qoşununa nə üzlə dönə bilər?"

Əsir birdən geriyə döndü, arxasında dayanan iki mühafizin əlindəki nizələrin uclarından yapışıb öz sinəsinə soxdu. Qan qusub üzü-

qoylu nizələrin üstünə düşdü...

"— Başqa yol yox idi, vəzir! Ölüm-dirim vuruşunda heç kimə güzəştə getmək olmaz... Hərbgaha, cədəlgaha girən hər bir əsgər qeyrəti özünə dost bilməsə, məsləkdaş seçməsə, uğursuzluq fikrini kənara atıb mətinlik, qətiyyət göstərməsə, sərkərdə qalibiyyət qazana bilməz".

— Hökmdar, cinahlara baxırsan? — Sə'dəddin Əsəd Cahan Pəhləvanın bütün diqqətini döyüş meydanına cəmləşdirmək istədi.

— Baxıram da, görürəm də! — Cahan Pəhləvanın cavabı yenə qısa və sərt oldu.

Ancaq Sə'dəddin Əsəd məlik kimi bu cavabla kifayətlənmədi və atını yaxına sürüb rica və tələbqarışıq bir ahənglə:

— Bəs... onda nəyi gözləyirsən? — dedi. — Qoşunu üç tərəfdən mühasirə... — deyəsən, dili var gətirmədi, sözünü tez dəyişdi. — Sıxışdıra bilərlər... Bir cəhəti də gərək nəzərə alasan ki, Georginin qoşunu xeyli məşqdən sonra döyüş meydanına girib...

— Cəbban[1] olma, vəzir! Sən ki, bilirsən mən belə vuruşları çox görmüşəm... Geri də çəkilmişəm, mühasirəyə də düşmüşəm... amma bu qılıncım mənə axır məqamda yol açıb. — Cahan Pəhləvan sağ əlini daim dəstəyi üstünə qoyduğu qılıncını bir dirsək yuxarı çəkdi və hirslə təzədən qınına itələdi...

Sə'dəddin Əsəd daha dinmədi. Cahan Pəhləvan ağ kürənin üstündə bir az dikələn kimi oldu, sağ və sol cinahlardan qoşunun üstünə yeriyən düşmən əsgərlərinin səflərinə diqqətlə baxdı. Vəzirə də, məliklərə də elə gəldi ki, hökmdar onların miqdarını dəqiqləşdirmək istəyir.

Əslində isə Cahan Pəhləvan belə ağır vaxtda öz əsgərlərinin qabiliyyətini, nə qədər soyuqqanlı olub-olmadıqlarını, ölümün gözünün içinə baxa bilib-bilmədiklərini yoxlamaq istəyirdi. Bu istək isə onun ürəyində muzdla tutulan əsgərin üzüdönüklüyündən sonra birə-on qat artmışdı.

Elə bil piyada əsgərlər birinci növbədə sərkərdələrinin, sonra isə hökmdarlarının ürəyindən keçənləri dərhal başa düşdülər. Cinahlardan hücum edildiyini görən kimi sanki qəfil bir dalğanın tə'siri ilə fövrən sağa-sola dönüb üç hissəyə bölündülər. Bir hissə əvvəlki yerində döyüşü davam etdirdi, yanlarındakı hissələr cinahlardan həmlə edən düşmənlə üz-üzə dayandılar.

1. Ağciyər, qorxaq.

Döyüş meydanında səs-küy daha da çoxaldı:

— Nəslər!

— Andırlar!

— Çorlar!..

— Vur!

— Sağa!

— Sola!

— Aman verməəə!

"Allahu-əkbər!" deyib döyüşə atılanlar isə get-gedə çoxalırdı...

Sə'dəddin Əsəd bu dəfə atını hökmdarın yanına sürdü.

— Gərək bu gecə mən deyənə razı olaydın, hökmdar, şəbxun[1] da düzəltsəydik xeyli qazanmışdıq. — deyib oyalandı.

— Gərək ki, sən də onu bilirsən, mən cavan çağlarımdan heç vaxt şəbxun tərəfdarı olmamışam. Mən düşmənlə açıq-aşkar vuruşmağa adət etmişəm. Sən ki atəbəy-ə'zəmlə, mənimlə dəfələrlə döyüşlərdə olmusan. Gözləyirdim ki, car çəkib indicə qoşhunun ürəyinə təpər verəcəksən, müsəlmanları kafirlərə divan tutmaqda həvəsləndirəcəksən... Başlamısan şəbxun düzəldək... Bir də o sözü dilinə gətirmə, vəzir!

— Baş üstə.

Vəzirin sözü yarımçıq qaldı, hardansa bulud kimi uçub gələn saysız-hesabsız ox onların başının üstündən keçdi: biri Sə'dəddin Əsədin sol buduna sancıldı. Qoca vəzir oxu çıxartdı və atın üstündən arxaya atdı. Əbasının cibindən çıxardığı yekə yaylıqla budunu sarıdı. Və sarıya-sarıya da xəbərdarlıq etdi:

— Hökmdar, özünü gözlə.

— Ox qorxaqlara dəyir, vəzir. — Hökmdarın sözləri yarıciddi, yarızarafat olmasaydı, Sə'dəddin Əsəd bəlkə də cavab qaytaracaqdı...

... Gün get-gedə əyilirdi. Uzaqdakı dağların döşündə kölgə düşən yerlər çoxalırdı. Dvin düzlərində isə vuruş getdikcə qızışırdı. İndi hər iki qoşun bir-birinin üstünə ox, mizraq "yağışı" yağdırır, mancanaqlara qoyulan yekə-yekə daşlar tullayır, içi neftlə dolu çəlləklər, bərkidilmiş yanar arabalar hellədirdilər...

Georginin əsgərləri döyüş meydanının yoxuş hissəsində dayandıqları üçün bu əlavə "silah" növlərindən daha səmərəli istifadə edirdilər...

Cahan Pəhləvan vuruş başlanan gündən düşmən qoşununun başçısını görə bilmirdi. Bunu həm özü, həm vəziri, həm də məlikləri hə-

1. Gecə Həmləsi

rə bir səmtə yoxurdu. Ancaq düşmən qoşununun arxasında üç çadırın — biri yaşıl, ikisi qara çadırın qurulmasını da əbəs bilmirdilər və Cahan Pəhləvanın ürəyinə dammışdı ki, qara çadırlarda nəsə bir fitnə-fəsad var...

Sə'dəddin Əsədin bir sözü də onun ağlına batmışdı: "Gürcüstan hakimi mərhum atabəy-ə'zəmdən sonra özünə təzə dostlar tapıb və onların məsləhəti ilə oturub-durur... Onun təzə məsləhətçiləri isə azacıq aşın duzu deyillər, onlardan hər cür fitnə-fəsad gözləmək olar..."Elə bu vaxt baş verən hadisənin özü də fikirlərini təsdiq etdi. Qara çadırın pərdəsi qaldırılan kimi it sürüsü özünü düşmən qoşunun içərisinə saldı. Xüsusi tə'lim görüb harınlanmış itlər Cahan Pəhləvanın əsgərlərinin üstünə dırmanaraq birini burda, birini orda didib parçalamağa başladılar. Piyadaların içərisinə çaxnaşma düşdü. Bundan istifadə edən qoşun Cahan Pəhləvanın əsgərlərini yandan və arxadan qırmağa başladı. Cahan Pəhləvan cəld geri döndü, işarə edib Məlik Cəmaləddin Özəbanı yanına çağırdı:— Mənim şəxsi süvari mühafizlərimə tə'cili əmr ver ki, itləri zərərsizləşdirsinlər! Becid ol, məlik!

Cəmaləddin Özəba tə'zim etmədən atını dördnala arxaya çapdı və bir an keçmədi ki, gecələr gizli qazılıb düzəldilən xəndəkdən əllərində xüsusi nizələr olan bir dəstə süvari özünü piyadalara yetirdi. İt zingiltisi döyüş meydanını ağzına götürdü...

İtlərin qəribə səslərini eşidən Georgi əlində qılınc yaşıl çadırın qapısında göründü. Cahan Pəhləvan sol çiyni üstündə geriyə qanrılıb məliklərə baxdı. Cəmaləddin Ayəba kinayə ilə dedi:

— İtin yekəsi yaşıl çadırdaymış?!

Çox çəkmədi ki, bütün itlər qılıncdan keçirildi, nizələr ucunda parça-parça edildilər...

— Gürcüstan hakiminin belə əskik işləri də varmış? — Bu dəfə də Sə'dəddin Əsəd öz-özünə yana-yana deyindi.

— Eyb etməz, vəzir... Səbrini bas. Deyəsən, Georgi Lori Dma düzənliyindəki vuruşu yadından çıxarıb. Ağşəhər mahalındakı vuruşda qaçıb canını qurtardı. Bu dəfə onu görə bilməz. Ona elə gəlir ki, atabəy-ə'zəmin qılıncı qınında yatıb, həm də pas atıb. Daha fikirləşmir ki, mərhum Şəmsəddin Eldəgəzin bir qılıncı ondan sonra iki oldu, indi də altıdı!.. Bu dəfə ona dərsi özüm tək verəcəyəm, sultansız, şahərmənsiz...

Sə'dəddin Əsəd hökmdarın əvvəlcə özünə və qardaşına, sonra da oğullarına işarə vurduğunu dərhal başa düşdü və döyüş meydanında

ölüm-dirim vuruşu ərəfəsində əsgərin də, sərkərdənin də xeyir-duaya olan ehtiyaclarını nəzərə alaraq üzünü göyə tutub dedi:

— Sübhənallah! Sən bizim həşəmətli hökmdarımızın özünü də, qardaşını da, oğullarını da bütün bəlalardan hifz elə! — Sonra Cahan Pəhləvanın özünə müraciətlə: — Hökmdar, qılıncın heç vaxt əlindən düşməsin. Qalxana, sinəbəndə heç və'də ehtiyacın olmasın! — dedi.

Cahan Pəhləvana agah oldu ki, ixtiyar vəzir onun özünün döyüşə girmə məqamının yaxınlaşdığını hiss etdiyi üçün xeyir-dua verməyə başlamışdır.

... Hər iki tərəfdən sağ qalan, yüngül yaralanıb ayaq üstə dura bilən piyadalar atların ayaqları altında qalmasınlar deyə xüsusi əmrlə səf-səf olub döyüş meydanının kənarlarına çəkilmişdilər. Biri qılıncına, biri nizəsinə söykənmişdi. Yaralıların çoxu salamat silahdaşlarını özlərinə dayaq etmişdi...

Ortada süvarilərin döyüşü gedirdi. Cahan Pəhləvan əvvəlcə vuruşa girməyi arranlılardan təşkil edilən hissələrə əmr etmişdi. Vəzirə, məliklərə bir söz deməsə də fikirləşmişdi: "Qoy baxıb görək arranlı əsgərlər necə qılınc vururlar, necə nizə işlədirlər... Bir də xəyanət, satqınlıq döyüşün əvvəlində aşkar olunsa onu ləğv etmək, üzüdönükləri cəzalandırmaq asandır. Vay o gündən ki, xəyanət, satqınlıq son məqamda, döyüşün şirin yerində, həlledici vaxtında müəyyən oluna. Bu, qoşun başçısına çox baha başa gələr...

Sərkərdə bədgüman olsa da, Gürcüstan süvarilərinə qarşı arranlılar bu dəfə çox inadla vuruşurdular: at kişnərtisi kəsilmir, qılınc-qalxan səsləri ara vermirdi...

Buna baxmayaraq Georginin süvariləri güc gəlirdi.

Sə'dəddin Əsəd box ayğırını yenə irəli sürüb hökmdara dedi:

— Bəlkə çapar göndərim Qızıl Arslana xəbər versin ki...

— Vəzir!.. Dedim ki, cəbban olma... Mən hələ sağam... Qılıncım da hələ qınındadır! Karmasin düzlərində Ay-Doğdunu necə darmadağın etdiyim yadındadır?.. Unutmamısan ki, üçüncü Toğrulun əmisi şahzadə Məhəmmədi yerində oturtmaq üçün Həmədandan İsfahana birbaşa at sürən atabəy Məhəmməd mənəm!..

Sə'dəddin Əsəd bu suallardan qane olub boz ayğırı yenə öz yerinə qaytardı.

Cahan Pəhləvanın atlıları isə bir-bir öldürülüb sıradan çıxır, ya da yaralanıb döyüş meydanını tərk edirdilər. Arranlı süvariləri döyüşə aparan adaş məliklərin qılıncları hələ işləyirdi. Cəmaləddin Ayəba ba-

şından yaralansa da, adaşı ilə bə'zən dal-dala, bə'zən çiyin-çiyinə verib bütün həmlələri mərdliklə dəf edirdi.

Cahan Pəhləvan vəzirə əyilib dedi:

— Atını sür, pusquda duran piyadaları sağ cinahdan cədəlgaha burax.

Sə'dəddin Əsəd təzəcə başı ilə razılıq edib hökmdarın yanından uzaqlaşmaq istəyirdi ki, sol cinahdan bir süvari dəstəsi qıy vura-vura düşmən qoşunlarının üstünə şığıdı.

Bir göz qırpımında qılınclar işlədi, nə işlədi. Düşmən dəstələrinin səfləri yarıldı. Boyunlar bir-birinin ardınca çiyinlərə əyildi, atların yəhərləri boş qaldı...

— Bu süvarilər kim ola, vəzir? — Cahan Pəhləvan qalxansız, məxfərinsiz vuruşan döyüşçüləri göstərib çiyinlərini çəkdi.

— Bəlkə Qızıl Arslandı..

— Ola bilməz! — Hökmdar qəti e'tiraz etdi. — Qızıl mənim əmrimi heç vaxt pozmaz!.. Diqqətlə bax... o qabaqdakı süvari mənə tanış gəlir...

Cahan Pəhləvanın yadına birdən Əlincə gədiyində, qayalar arasında üz-üzə gəldiyi Əli Şimşək düşmüşdü. Vəzir diqqətlə baxsa da, deyəsən, dəstənin önündə qılıncını sür'ətlə sağa-sola hərləyən, aşağı-yuxarı endirib-qaldıran döyüşçünü tanıya bilmədi.

— Ayırd edə bilmirəm, hökmdar!.. Çox cəld vuruşur.

— Mən ayırd etdim, vəzir!.. Çoban Eldar Bəhmənin oğludur.

— Əli Şimşək?!

— Bəli... Yanılmıram, odur, özüdür. — Cahan Pəhləvan döyüş meydanına bir də diqqətlə baxdı. — Onu bura çəkib gətirən saraya sədaqəti deyil, vəzir... El-oba qeyrətidir, çətin məqamda öz həmyerlilərinə arxa durmaq istəyidir... Mərhəba!

Düşmən dəstələrinin sıraları pərən-pərən olub seyrəlirdi, qalanlar da geriyə dönüb hara gəldi qaçırdılar. Qalxansız, məxfərinsiz qaçaqlar onları qılıncdan keçirə-keçirə cədəlgahdan uzaqlaşırdılar. Qələbəyə arxayın olandan sonra döyüş meydanına, qəfildən necə daxil olmuşdularsa eləcə də tərk edib getdilər oranı Əlincə qisasçıları...

— Bəs... bunlar necə gəlib bura çıxıblar? — Vəzir təəccübünü gizlədə bilmədi.

— Kimsə deyib: Çoban Eldar Bəhmənin oğlu laməkandı...

Cahan Pəhləvan sevincini gizlədə bilməyib yenə əvvəlki sözünü təkrar etdi: — Mərhaba!..

Dəliqanlı süvarilərin meydana girməsi ilə hər şey dəyişmişdi. Az keçmədi ki, düşmən atlıları özlərini itirdilər. İşi belə görən Georgi piyadalarına yenidən döyüşə girmək əmri verdi.

Cahan Pəhləvanın xüsusi süvariləri də bunu görüb əmr gözləmədən döyüşə atıldılar.

Qan yenidən su yerinə axdı...

Elə bu vaxt Cahan Pəhləvan gördü ki, sarı kəhərin üstündə cavan bir əsgər qəribə bir cəldliklə cövlan edir: atını tez-tez şahə qaldıraraq sağını, solunu biçib tökür — qılıncının altına düşənin, tiyəsinin qabağına keçənin biri başını itirir, biri qolunu, biri əlləri ilə üzünü tutub atının yalına yatır, biri qarnını qucaqlayıb, biri ombasını ovcunun içərisinə sıxıb yəhərdən aşır, biri kürəyini arxaya dartıb atının sağrısına tərəf hərəkətsiz qalır, biri canını götürüb atı ilə birlikdə kənara sıçrayır... Cavan süvari isə əməlinə aludə olaraq get-gedə qızışır, hərdənbir də pəhləvanlar kimi nə'rə çəkərək bu tərəfdən vurub o tərəfdən, o tərəfdən vurub bu tərəfdən çıxır... Cahan Pəhləvan fikirləşdi: "Yoxsa bu, Əli Şimşəyin dəstəsindəndi, qalıb?.."

Birdən cavan əsgəri elə bil yəhərin üstündən çəkib yuxarı qaldırdılar, əvvəlcə arxaya gərildi, sonra başı sinəsinə endi. Onun kürəyinə eyni vaxtda hardansa uçub gələn iki ox sancılmışdı. Cahan Pəhləvan bunu görən kimi sağ əlini bir anlığa qılıncının qəbxəsindən çəkib sinəsinin üstünə qoydu. Dodaqları güclə, həm də böyük qəzəblə bircə söz pıçıldadı: "Namərdlər!" Və bildi ki, qəfil süvarilərin və cavan əsgərin igidliyini Georgi həzm edə bilməmiş və özünün hardansa pusquda duran sərrast ox atanlarına əlavə tapşırıq vermişdi...

Əsgərlərdən kimsə atının yüyənini çevirib süvarinin yanına sürdü və cəld hərəkətlə oxları bir-bir çəkib onun kürəyindən çıxardı. Cavan əsgər qılıncını yəhərin qaşına dayaq verib qəddini düzəltdi və oxları onun kürəyindən çıxaran silahdaşına nə dedisə, o da onun atını yedəyinə alıb Cahan Pəhləvanın hüzuruna gətirdi. Hökmdar bunu görən kimi ağ kürəni ilə irəli çıxdı.

— Sağ ol, oğlum! — dedi. — Əsl igid kimi vuruşdun... Sən də Əli Şimşəyin o igidlərindənsən?

Cavan əsgər əlinin dalı ilə cəvcələrindən axan qanı silə-silə dedi:

— Yox, hökmdar... Mən ustad Əcəminin dostu... bənna Cəmilin oğluyam... Bu qılınc ustad Əcəmiyə atası Əbubəkr babadan yadigardı... O da mənə bağışlamışdı. Ustad Əcəminin babası... Babəkin xür-

rəmilərindən olan bir igidin nəslindəndir... Əmr edin... ustad Əcəmiyə desinlər ki, dostunun oğlu... son nəfəsinə qədər onun bağışladığı qılıncın qəbzəsini... əlində möhkəm saxladı. Bir də əmr edin... məni elə yerdə basdırsınlar ki, Naxçıvandan əsən küləklər... qəbrimin üstündən keçsin... Anam Zəhranın yanıqlı ağısını mənə çatdırsınlar... layla kimi...

— Adın nədir, oğul?

— Cəlaləddin, hökmdar... — Əsgər sözünün ardını deyə bilmədi, qan qusdu... üzüqoylu kəhərin qabaq qaşının üstünə düşdü. Silahdaşı qılıncı onu əlindən zorla çəkib çıxara bildi və hökmdara uzatdı...

Cahan Pəhləvan fikirləşdi: "Ruhun da adın kimi uca olsun, yüksək olsun, bülənd olub göyə qalxsın..."

— Onu mənim çadırıma aparın! — Fikirdən ayrılıb dedi.

Sə'dəddin Əsəd də ürəyində heyfsiləndi: "Anan öləydi yerinə, igid!.."

Elə bu vaxt düşmən tərəfdə təbillərə xüsusi zərbələr vuruldu, hamı diksinən kimi oldu. Atların kişnərtisi, qılınc-qalxan səsləri xeyli seyrəldi.

Sə'dəddin Əsəd hökmdara tərəf əyildi:

— Bu... nə deməkdir?!

— Bilmirsən, nə deməkdir? — Cahan Pəhləvan ağ kürənin üstündə özünü düzəltdi. — Georgi məni təkbətək vuruşa çağırır. Və birdən gur səslə əmr verdi. — Vuruşu dayandırın!.. Piyadalar da, atlılar da kənara çəkilsinlər!.. Meydanın ortasını boş...aldınnn!..

Az çəkmədi ki, hər iki qoşun kənara çəkilib üz-üzə dayandı. Döyüş vaxtı ölən piyadaların, atından salınan süvarilərin meyitlərini meydandan tez yığışdırıb götürdülər.

— Möhkəm ol, hökmdar... Namərdə mərdliyini göstər... Allah amanında!

Cahan Pəhləvan heç nə demədi, sol əlini girdə saqqalına çəkib sinəbəndini sahmanladı.

Sə'dəddin Əsəd onun sifətindəki soyuqqanlığı, gözlərindəki qəzəbi, dodaqlarındakı azacıq təbəssümü görüb rahat nəfəs aldı.

Cahan Pəhləvan qılıncını qınından çıxardı, dabanlarını ağ kürənin böyürlərinə sıxıb onu irəli buraxdı. Və bir an içərisində qarşı tərəfdən gələn Gürcüstan hakiminin qənşərində dayandı. Bir-birinə toxunan iki qılıncdan qopan ilk qığılcım havada parlayıb söndü...

Döyüş meydanı daş atılmış qurbağalı gölə bənzəyirdi. Elə bil

sübh açılmamış Dvin düzənliyini başına götürən at kişnərtisi də, qılınc-qalxan səsləri də yalan imiş. Hamı nəfəsini içəri çəkib, yaralarının göynərtisini unudub iki sərkərdənin vuruşuna maraqla tamaşa edirdi...

... Ağ kürənlə sarı kürən yenidən üz-üzə gəldilər. Bu dəfə iki qılınc iki qalxanın üstünə endi. Və qəzəb yağan iki sifət bir-birinin qarşısını kəsdi, qəzəblə alışıb yanan dörd göz bir an bir-birinə baxdı, qılınclar bir-birinin tiyəsini yenidən ovxarladı... Atlar yerlərini yenə dəyişdilər, qılınclar yenə bir-birinin üstünə enib qalxdı, tiyələr gah məxfərinə, gah sinəbəndə, gah qalxana dəyib müxtəlif səslər çıxardılar...

Onlar bir kəlmə danışmasalar da, qolları uzun zaman işlədi, qılıncları, qalxanları gah başlarının üstündə, gah sifətlərinin, gah sinələrinin önündə hərləndi...

Birdən Cahan Pəhləvanın sərrast zərbəsi Georginin qılıncını iki böldü...

Atlar yenə geri çəkildilər... Növbəti həmlə üçün arada xeyli məsafə yarandı. Cahan Pəhləvan adətinə xilaf olmayaraq imkan yaratdı ki, ona ikinci qılınc versinlər.

Eldəgəz xənandanına məxsus qoşundan bir uğultu qopdu, müxtəlif səslər eşidildi:

— Namərdə aman düşmür!..

— Hökmdar, gürcüstan hakiminə inanma!..

Elə bu vaxt Cahan Pəhləvanın gözləmədiyi bir hadisə baş verdi: Gürcüstan hakimi ona uzadılan ikinci qılıncı yana itələyib rədd etdi, məxfərini başından götürdü, atının yüyənini hirslə yalının üstünə tulladı...

Cahan Pəhləvanın başının üstünə qaldırdığı qılıncı havadan asılı qaldı...

***

Səhərisi, günəş hələ məşriqdə buludların arasında cida boyu qalxmamış Cahan Pəhləvanın çadırında barışıq barədə müqavilə bağlandı. Georgi bu dəfə Azərbaycan Atabəylər dövlətini rəsmən tanıdı və Eldəgəzlər xanədanı ilə həmişəlik əmin-amanlıq şəraitində qonşuluq edəcəyini öz imzası və möhürü ilə təsdiqlədi...

Cahan Pəhləvanın əmrinə görə Azərbaycanın heç bir şəhərində bu qələbə bayram kimi təntənə ilə qeyd olunmadı.

Sarayda bu işə e'tirazını bildirənlərə vəzir Sə'dəddin Əsədin cavabı isə çox qısa oldu.

— Cahan Pəhləvan qaçanı qovan hakimlərdən deyil...

## DƏRBAN VƏ MÜHAFİZ

### (Payız söhbəti)

— Ə, nətərsən, ə?

— Nətər olacam, demək olar ki, pisdən də pis.

— Ə, niyə, İman? — Mühafiziçəri adladı, nizəsini köşgün divarına söykədi. — Payız gəlib, qeysəriyyədə nə desən var. Amma bizim cibimizdə bir axçamız yodu ki, bazardan heç olmasa uşaq-muşağa az da olsa ayın-oyun alıb göndərək. — Gödəkboy dərban sinəsini qaşıdı.

— Hə, keçmə Naxçıvanın payızından. Payız yox ey, bolluq fəsli de...

O günü mən də getdim qeysəriyyəyə. Nə yoxdu bazarda!.. Paran olsa lap quş südü də tapmaq olar... Qovun-qarpız ayaq tutub yeriyir, əlvan-əlvan üzümlər səbət-səbət, sültani alması, lətənziri armudu tay-tay. Qənarələrdən elə qoyun cəmdəkləri asıblar ki, adamın lap çiyinə tamahı düşür... Hələ yağını, pendirini, şorunu, qurutunu demirəm. Hə, nə başını ağrıdım, xalısı, xalçası, kilimi, gəbəsi, xurcunu nə qədər istəsən; qoyunu, keçisi, quzusu, çəpişi də ayaq tutub yeriyir.

— Düz deyirsən, Duman. — Dərban yenə sinəsini qaşıdı. — Amma bir şeyi yadından çıxarırsan... Bizim şəhərdə satan çoxdu, alan az. Payız həqiqətən bolluq fəslidi. Gərək payızda hər tədarükünü görəsən ki, qışda yaxşı-yaxşı dincələsən, yazda da gümrah çıxasan... Belədi dədə-babadan. — Əbasının cibindən tütün kisəsini çıxarıb demisini doldura-doldura sözünə davam etdi: — Payız yığasan, qışı yeyəsən, yazı işləyəsən... Amma demək olar ki, bu hamıya qismət olmur. Allah-təala varlılar üçün yaradıb. Kasıb-kusuba, fəqir-füqəraya nə yaz, nə yaya, nə payız, nə qış? Yaxşı deyiblər, kora gecə-gündüz birdir... Elə götürək bizi. Kəsmişik bu sarayın darvazasının ağzını. Sən bayırdan, mən içəridən... Nə var, nə var, aman gündü rəisə bir şey olar, onun xatununa bir zaval toxunar! İşimizə-güdümüzə bax. Biz də adımızı qoymuşuq kişi!

— Ə, İman, imanın olsun. Onun adını çəkmə, sinəm göynədi... Dünən yenə tovuz quşu kimi cilvələnib taxtı-rəvana minəndə görmü-

şəm dəyyusun qızını... Öz-özümə fikirləşirəm ki, görəsən bu Nəsrin xatunu Allah-təala yaradanda kefinin hansı məqamıymış?.. Bütün səliqəsin işlədib. Hər şeyi yerindədi: ay kimi duru sifəti, kaman kimi qaşları, piyalə kimi gözləri... Elə bil yanaqları lalədən rəng alıb. Saçlar dabanını döyür. Sinəsini bilmirəm nəyə bənzədim?.. Dələmədi deyim,pambıqdı deyim, qardımı deyim?..

— Duman, belə getsə qorxuram şair olasan axırda.

— Ə, şair olan deyiləm, başqa şey olacağam.

— Nə olassan?

— Ə, nə olacağam? Dəli... Məcnun... heç özüm bilirəm ki? — Mühafiz məxfərini başından götürüb dizinə keçirdi, daz başındakı bir qom tükə tumar çəkdi, siçanquyruq bığlarını eşdi...

— Duman, sinən doludu ki, sənin.

— Ə, İman, yadımdan çıxıb deməmişəm sənə, mənim ana nənəm Salatın arvad ozan olub... aşıq yox ha, ozan!.. El şənliklərində zənən xəylaqları üçün çalıb-çağırıb. Sinəsi dolu bil arvad idi. Sözündən-söhbətindən doymaq olmurdu. Nə qədər bayatı bilirdi! Elə bil bulağıdı zalımın qızının ürəyi, coşub çağlayırdı. Elə də gözəl danışığı vardı!... Dastanlar danışardı, qoşmalar deyərdi, saz da çalıb oxuyardı. Hələ bayatısını, ağılarını, tapmacalarını demirəm... İndi həndənbir ki, qırıldadıram, bunun hamısı o qəbrinə nur çilənmişin tə'siridi, onun mənə qalan əmanətidi. Amma bircə eybi var idi: xoruzbazdı nənəm.

İman demisini dodaqlarından çəkib ucadan güldü.

— Qoy görək, Duman...

— Ə, fikrinə ayrı şey gəlməsin. Sən deyən xoruzbazlardan yox. Elə rəsmən xoruzbazdı, yaxşı beçələri seçib saxlardı, bəsləyib quzu kimi xoruzlar edərdi. Kim xoruz döyüşdürmək istəsəydi, Salatın arvaddan xoruz alardı.

— Oyunun olsun, Duman! — İman uğunub getdi.

Aralıqda bir müddət sakitlik yarandı.

— Təzə xəbərdən xəbərin var?

— Ə, nə təzə xəbər?

— Bilmirsən xəbər nədi?

— Ə, niyə bilmirəm? De, bilim də!

— Rəisin damağı, deyirlər, yaman aşağıdı.

— Ə, niyə?

— Deyirlər, saray sahibi Həmədana çağırtdırıb elə başını oradaca qoydurmaq istəyirmiş kötüyün üstünə. Yenə vəzir girib qanının ara-

sına...

— Ə, nə olub ki?

— Qaradan da artıq rəng? Vilayətdə, şəhərdə demək olar ki, özbaşınalıqdı. Hərki-hərkinəlikdi. Vergilər yığılmır, çapovçular göbələk kimi çoxalır. Ədəvilər karvanlara həmlə edib tacirləri soyurlar... Dəbir nəql edir ki, bə'zi kəndlərdə mə'murları sayan yoxdur. Deyir ki, onları döyənlər, hətta öldürənlər ortaya çıxıb. Bunların zəminəsi bilirsən hardan başlayıb? Mən xeyli götür-qoydan sonra belə qənaətə gəlmişəm ki, bu işlər Əli Şimşək məşhurlaşandan sonra ortaya çıxır... Görünür, el-oba daha bəni-Eldəgəzlərə inanmır, e'tibar etmir. Yoxsa səhv edirəm, Duman?

— Ə, sən divarın içəri səmtindəsən... saraya məndən yaxınsan... Nə deyim?..

— Pəhləvan bir də Naxçıvana təşrif gətirsə, yəqinimdir ki, rəisin kitabı bağlanacaq...

— Ə. İman belələrinin kitabı tez açılıb, gec bağlanır... Bu dünyanın dəyyusa-qurumsağa, oğraşa həm e'tibarı çoxdur, həm də qəyyumluğu artıqdır... Niyə elə baxırsan?.. İnanmırsan?

— Duman, bir az ehtiyatlı ol.

— Ə, İman, nə ehtiyat? İslanmışın yağışdan nə qorxusu?

— Yağışın adını çəkmə, ancaq ara verib. — Dərban burnunu çəkdi.

— Ə, elə demə, İman, varam Naxçıvanın yağışına! Yağmır, yağanda da elə tökür ki, tut ucundan, çıx göyə... Bu yerlərin yağışından da bərəkət iyi gəlir... Bir də elə yağışın özü bərəkətdi, axıb göydən yerə tökülür... Yağış olmasa kəndli dirigözlü batıb gedər. — Mühafiz siçanquyruq sarı bığlarını eşə-eşə oyalandı: — Göldən su açmağa ixtiyarı yoxdu, çünki göllər saraya məxsusdur, çaydan su götürməyə izin verilmir, çünki çaylar sarayındır. Bir qalır bulaqdan, çeşmədən su doldurması, qorx ki, bu gün-sabah onu da rəva görməyələr kəndliyə. Deyərlər ki, bütün çeşmələr də, bulaqlar da məscidindi, mehrablarındı... Yazıq kəndliyə nə qaldı? Özünün göz yaşı... Göz yaşıynan da əkin suvarmaq olar?

Bu vaxt eşikdə səs gəldi, mühafiz tez nizəsini götürüb özünü eşiyə atdı və tez də qayıtdı.

— Kim idi? — Dərban sinəsini qaşıya-qaşıya soruşdu.

— Ə, dedim bu dəyyus qaraulbaşıdı... Amma yenə it idi, rəbatın sahibsiz itlərindən. — Mühafiz gileyləndi: — Sən işə bir bax ha, kasıb-kusubun sahibsiz itlər qədər də hörməti yoxdur. — Siçanquyruq

bığlarına yenə tumar çəkdi. — Sahibsiz itlərə izin verilir şəhristana girməyə, kasıb-kusuba yox. — Birdən elə bil üsyan etdi: — Ey Allah, özün də ədalətdən danışırsan, baş şeyxin Hatib ibn Mübarək də qulağımızı dəng eləyib səni tə'rifləməkdən. — Mühafiz bu dəfə başını yuxarı qaldırıb köşkün tavanına baxdı: — Hanı bəs sənin ədalətin? Belə də kişilik olar?.. Varsansa, cavab ver!.. Nəmərdlərə cəza göndər!.. — Öz-özünə coşdu və bunu hiss edib kiridi.

Dərban yarıciddi-yarızarafatla heyfsiləndi:

— Duman, sən lap mülhid olub getmisən ki!

— Ə, düz deyirsən... Bu işlərə daha tab gətirə bilmirəm... Belə getsə bir gecə nizəni qaraulxanaya tullayıb yayınacağam.

— Nə danışırsan, Duman? Necə yə'ni yayınacağam? — Dərban mühafizi bu dəfə şübhəli-şübhəli başdan-ayağa nəzərdən keçirdi.

— Ə, yayınmaq bilmirsən nədi? Qaçacağam... Əkiləcəyəm!..

— Dəli olma, Duman! Tutub dərinə saman təpərlər, başın haqqı! Ağır otur, batman gəl... Səfeh-səfeh fikirləri başından çıxart. Oturduğun yerdə başına əngəl açarsan, yazıqsan. İndi hara qaçıb qurtarmaq olar?.. Rəyasət sahibi süvaridi, biz piyada...

— Ə, yaxşı, qoy sən deyən olsun!

— Hə, bu ayrı məsələ... Duman, gəlsənə səni yaxşı yaylaq pendiriynən sac lavaşına qonaq eləyəm. — Dərban köşkün bucağındakı kötüyün üstünə qoyduğu bağlamanı götürüb yerə saldığı ayı dərisinin üstünə açdı. — Oba dağdan yenəndə tutulan pendirdi... Xalis yağdı!

— Ə, dayan, yaraşığın da mən gətirim. — Mühafiz çıxdı və qoltuğunda zolaq-zolaq bir qarpız qayıtdı.

— Bu ki oldu lap nurələnnur! — Əvvəl mühafizi başa düşməyən dərban keçə papağını başından götürüb dizinə keçirdi. — Sac lavaşı, payız pendiri, bir də Kültəpə qarpızı! Bəh, bəh! — Bıçaqla qarpızı kəsdi, — havarına bax, sən allah bunun! Göbəyinə bıçaq toxunan kimi həvəsə gəlib nə səslər çıxardır... — Dərban burnunu çəkib bic-bic onun eyhamına qımışsa da, mühafizə kar eləmədi...

Yeməyə başladılar. Bir az keçəndən sonra mühafiz soruşdu:

— Ə, dəbir daha nə deyirdi?

— Deyir, saray sahibi göndərib ki, get bax gör sərdabənin tikilişi necə gedir? Bir xəbər gətir. Bir də, deyəsən, Əli Şimşəkdən ehtiyat edir. Qorxur ki, adamları Əlincə qalasına həmlə edib beytulmaldakı var-dövləti ələ keçirələr. Axı Əli Şimşək bir dəfə ovdan qayıdanda vəzirin qabağını kəsib deyib ki, qalada nə varsa camaatındır, camaata da

paylamaq lazımdır. Bunu da o saat qoyublar saray sahibinin ovcuna. Bu da saray sahibinə yamanca yer eləyib. Bilirsən niyə? Söz-söhbət gəzir ki, saray sahibi Əlincədəki var-dövlətə neçə ki, sağdı, toxunmaq istəmir, son məqamda açarını vermək istəyir Zahidə xatuna... Ya da qızı Cəlaliyyəyə.

— Ə, kimdən eşitmisən? Səhihdi?

— Səhihdi... Heyvərə Həsən ağzından qaçırıb...

— Ə, o deyibsə inan. — Mühafiz təsdiq etdi. — Düzlü, dəyyusun biridi, adam deyil. Allahın tələsik vaxtına düşüb adam eləyib onu, yoxsa heyvan yaradacaqmış... Amma hər şeydən xəbərdardı, köpəkoğlu!..

— Bax, bunu tamam düz deyirsən, Duman!

Hər ikisi fikrə getdi. Heyvərə Həsən elə bil gəlib durdu gözlərinin önündə. Saray xəbərçilərinin, güdükçülərinin, qulaqçılarının başçısı həqiqətən heyvərənin biri idi. Yekə əlləri, kobud qılçaları, domba gözləri, qırmızı kərpicə oxşar sifəti onu daha eybəcər göstərirdi. Şit-şit danışığı, duzsuz gülüşü qulaq asanları darıxdırır, onlard ikrah hissi doğururdu.

— O ki qaldı Əlincədəki var-dövlətə... İnan ki, hamısını verəcək Zahidə xatuna. Bilirsən niyə? Çünki onu övrətlərinin hamısından çox istəyir. Görmürsən hara gedir, özü ilə aparır. Bu da sinələrinə çarpaz dağ çəkir o biri övrətlərinin, ələlxüsus, Rey hakiminin qızı İnanc xatunun. Deyirlər, yaman kin-küdurət sahibidi baş ülya mələkə.

Fürsət düşsə axırına çıxar bənn-Eldəgizlərin. Onu da eşitməmiş olmazsan: deyirlər, Cahandan sonra özünü hakim eləmək istəyir İnanc xatun. Deyib ki, mənim bərdəli Nüşabədən nəyim əskikdir? O, İsgəndər Kəbiri qarşısında diz çökdürə bilər, mən düşmənlərimə göz dağı çəkdirə bilmərəm?

— Nüşabənin adını çəkdin, Nizami düşdü yadıma. Deyir saray sahibi Nizamidən də inciyib yaman.

— Ə, nəyə görə? Saray sahibinin ki, alimlə, ədiblə, me'marla arası sazdır? — Mühafiz siçanquyruq bığlarını yenə eşdi.

— Deyir bir dastan yazıb saray sahibinin adına. Bunu eşidən hökmdar da Təbrizdən xüsusi mütərcim çağırmağa hazırlaşırmış ki, oxuyub onu başa salsın. Axı hökmdar fars dilini bilmir. Elə bu məqamda xəbər gətirirlər ki, dastanı şair göndərdi şah Toğrula. Bu da saray sahibinə yamanca yer eləyib... Elə ona görə də, Gəncədə çox qalmayıb, oradan qayıdıb Naxçıvana, buradan da gedib Həmədana... Həm də danışırlar ki, xəstələnib...

Buna baxmayaraq tikili başlanandan üç kərədir ki, Naxçıvana gəlir...

— Hökmdar olsa da, görünür, ana xatirini əziz tutur... O ki qaldı Nizamiyə... — Mühafiz sözünün ardını deyə bilmədi.

— Belə şeydər sənətkarları onun gözündən sala bilər. Bizim Əcəmidən də bədgüman olar. — Dərban onun fikrini tamamladı.

— Ə, hələ eşitməmişəm ki, tikilən sərdabələrə çəkilən xərcin beşdə birini onu tikənə verirlər... Amma Cahan Pəhləvan hökm edib ki, altıda birini versinlər...

— Bəs Əbubəkr oğlu nə deyib? — Dərban maraqlandı.

— Ə, nə deyəcək? Tanımırsan Əbubəkr oğlunu?.. Deyib mənə nə versəniz, qəbulumdu, amma mənimlə işləyənlərin haqqını kəsməyin. Söhbət də belə qalır...

Eşikdə öskürək səsi gəldi. Mühafiz nizəsini götürüb çıxmaq istəyirdi ki, dərban onun ətəyindən dartıb saxladı:

— Hara qaçırsan?

— Ə, deyəsən, qaraulbaşıdı...

— Qaraulbaşı burada yoxdur... Onu başqa iş dalınca göndəriblər.

— Ə, hara?

— Yuxarıya... Əlincə tərəfə...

— Ə, nədən ötrü?

— Nədən ötrü? — Dərban mühafizin süalını təkrar etdi: — Deyirlər başını qoyub ətəyinə...

— Ə, açıq danışsana, İman!

Dərban çiyinlərini çəkdi, süfrəni yığışdıra-yığışdıra təam duası oxudu:

— Kəraminə çox şükür, ey xudavəndi-aləm!..

Mühafiz nə başa düşdüsə daha sual vermədi.

— Hə, belə-belə işlər!.. — dedi və bayatı çəkdi: "Araz qırağı çiçək, Gətir bura su içək. Özümə yar seçmişəm, alagöz, qara birçək..." — Nizəsini götürüb köşkdən çıxdı.

Bayırda çiskin yağış yağırdı. Şəhərin üstünə boz-boz buludlar sallanmışdı...

## XEYİRXAHLIQ

Yay təzə girsə də, havalar isti keçirdi...

Günəş düz günorta yerində dayanmışdı. Bəlkə də buna görəydi ki, müəzznilər şəhər əhlini tələm-tələsik zöhr namazına də'vət edib

minarələrin şərəfələrindən enərək özlərini məscidlərin, mehrabların sərin hücrələrinə vermişdilər...

Əcəmi belə bir vaxtda Came məscidinin arxasından keçib sarayın darvazası qabağına gəldi. O, yüngül iş paltarında idi. Fikirləşdi: "Rəis üçün şorunan lorun heç bir fərqi yoxdur... Al da geysən — birdir, şal da da geysən — bir..."

Mühafiz onu görən kimi salamlaşdı. Səsə dərban da öz köşkündən çıxıb onlara yazınlaşdı. Əcəmi hər ikisi ilə əl tutub kef-hal elədi. Elə bu anda köşkün içərisindən arvad ağlaması eşidildi. Bu, adicə ağlama deyildi, nalə idi. Əcəminin tükləri ürpəşdi, əhvalı dəyişdi. Diqqətlə qulaq asıb soruşdu:

— İman, içəridə ağlayan kimdi?

Dərban əvvəlcə burnunu çəkdi, sonra açıq sinəsini qaşıdı, Demisinə tənbəki doldura-doldura:

— Yurdçudan bir kəndlidi. — dedi. — Buğda vergisini verməyib, o qansız darğa da mindirib qatıra, qatıb atının döşünə, sübh çağı sürüb gətirib şəhərə. Övrəti də gələndən, demək olar ki, gözünün yaşını tökür. "Körpələrim kənddə başsız qaldı" deyə-deyə başına-dizinə döyür...

— Nə eləsin yazıq! Ağlamaqdan, dizinə döyməkdən başqa nə çarəsi var bədbəxtin. Sarayın darğalarında bir tikə də insaf qalmayıb... Kəniseyi Babək haqqı!

— Görəsən neçə illik borcu qalır — Əcəmi əlindəki səndəl ağacının ucuyla yanağını qaşıdı.

— Qalan təkcə bu ilin brrcudur... Deyir zəmisin biçib, döyüb, sovuruğa verib qurtarandan sonra haradasa quyu qazıb büğdanı gizlədib... Darğaya da deyib ki, keçən il mən heç yerli-dibli buğda əkməmişəm...

Əcəmi dərbanın dediklərinə diqqətlə qulaq asandan sonra dedi:

— Rəisi görəcəyəm. — Bu xəbərdarlıqdan sonra darvazadan içəri adladı.

(Cahan Pəhləvanın əmrinə görə rəis həm dərbana, həm də mühafizə xüsusi tapşırıq vermişdi ki, Əbubəkr oğlu həftənin hansı günü, günün hansı və'dəsi gəlmə onu sual-cavabsız yanıma buraxın).

— Buyurun, — mühafiz dedi.

— Rəis dərgahda öz otağındadır. — Dərban əlavə edib izahat verdi.Əcəmi darvazanın astanasında ayaq saxlayıb hər ikisinə ərklə tapşırıq verdi:

— Yurdçuluya deyin məni gözləsin.

Mühafizin eyni açıldı:

— Dünya xali deyil...

— Onsuz da onları heç yana buraxan deyillər. — Dərban dedi.

— Buraxarlar... — Əcəmi geri qanrılıb gülümsündü. — Atamın Yurdçuda yaxın bir bənna dostu olub. Rəhmətə gedib.

Onun görü xatirinə bunların borcunu mən ödərəm.

Dərbanla mühafiz baxışdılar...

Əcəmi darvazadan uzaqlaşıb sarayın güllü-çiçəkli həyətilə üzüyuxarı getdi. Həyətdə əvvəlki təzahüm,[1] təmtəraq yox idi. Müqərrəbidərgahdan[2] bircə rəis öz iş otağında idi. Həyətin ortasında xacə Xəlil hovuzun ətrafındakı güllərə su çiləyirdi. Kənizlərdən iki cavanı həyətin yuxarı başına süpürgə çəkirdi. Nə Əcəmi onları işindən ayırmaq fikrində oldu, nə də onlar Əcəmiyə məhəl qoydular...

Cahan Pəhləvan Naxçıvanı tərk edib Həmədandakı hökmdar sarayında taxta əyləşən vaxtdan atabəy- ə'zəmin sarayı suyu sovulmuş dəyirmana bənzəyirdi. Güllü-çiçəkli həyətə də, aynalı-döşəməli otaqlara da şair Kəmaləddin Naxçıvaninin tə'birincə, rəisin ləbşəkər arvadı Nəsrin xatun sahibkarlıq edirdi. Bütün təcəmmülatını[3] üst-başına düzüb həyətdə veyillənə-veyillənə gəzən, hovuzda üzən müxtəlif balıqlara tamaşa edən, boş vaxtlarında da öz istirahət otağına çəkilib ürəyinə yatan, lazım olanda karına gələn, gərəyi olan cariyələrlə mırt vura-vura günlərini keçirən rəisin arvadının ürəyindən son vaxtlar iqtidar olmaq arzusu da keçirdi...

Əcəmi ayağını axırıncı pilləyə qoyanda qapı açıldı. Nəsrin xatun az qalmışdı onunla döş-döşə dəysin. Tez kənara çəkilib rəisin arvadına yol verdi Əcəmi. Nəsrin xatun bir anlıq ayaq saxladı:

— Salamınız hanı, usta?

— Hə... bağışlayın, xatun... Bir az fikirli idim.

— Deyirlər bəs siz bizə qarşı çox həssassınız. — Nəsrin xatun əllərini belinə qoyub bütün sinəsini nümayiş etdirməyə həvəs göstərdi. Əcəmi onun bu xasiyyətinə bələd olduğu üçün heç nəyin fərqinə varmadı.

— Elədir. Amma elə məqamlar olur ki, adam az qala özünü də unudur...

İllər də ki, yaman tez gəlib gedir...

— Yoxsa bir nigarançılığı var ustanın? — Nəsrin xatun başını sol

1. Qələbəlik.
2. Hökmdarın yaxın adamları.
3. Zinət şeyləri.

çiyninə tərəf əyib iri gözlərini süzdürdü. Elə bil Əcəmiyə çatdırmaq istəyirdi ki, bu sarayda ağa da mənəm, ağacan da...

Əcəmi rəisin arvadının uzun gedəcəyini və həyətə süpürgə çəkən cavan kənizlərin qədlərini düzüldib onlara baxdıqlarını, xısın-xısın pıçıldaşdıqlarını görüb suala sualla cavab verdi:

— Cənab rəis pişgahdadır?

— Pişgahda olmasaydı nə dərban Sizi içəri buraxardı, nə də mühafiz.

— Nədənsə onları qarğıdı. — Adları bir-birinə oxşayan üzlərini mürdəşir yumuşlar!..

— Onda icazənizlə, xatun...

— Buyurun, usta. — Nəsrin xatun Əcəminin ona biganəliyini görüb çiyinlərini silkələdi və ətəklərini yığışdırıb pillələri enməyə başladı.

... Rəisin yanından çıxan qulam Əcəmini pişgaha də'vət etdi. rəis yuxarı başda qoyulan sədr kürsüsündə əyləşib fikrə getmişdi. Əcəmi oturmaq üçün rəisin təklifini gözləsə də, ondan səs çıxmadı. Bunu görən Əcəmi keçib pəncərə qabağındakı dibaçədə əyləşdi, əyləşən kimi də boğazınıü arıtladı: "Gəlmişəm, başını qaldır, ay özündən bədgüman..." Rəis elə bil Əcəminin ürəyindən keçən bu sözlərə bənd idi, başını yavaş-yavaş qaldırdı və sualı da Əcəmi üçün gözlənilməz oldu:

— Əbubəkr oğlu, sən bilən, bu kəndli-kündlünün bir qanan vaxtı olacaq?.. Yoxsa elə belə gəlib, belə də gedəcək? — Əcəminin belə suallara cavab verəcəyinə arxayın olmadığı üçün elə oradaca da oyalanmağa başladı: — Bu tayfanı, rəiyyətin bu qanmaz qismini başa salmaq olmur ki, sizə bəxillik[1] əl verməz... Dağalar səl'əb[2] kimi dərinizi soyub boğazınızdan çıxararlar... Gətirin, xanədana, olan borcunuzu ödəyin... Kimə nə tə'yin edilib öz xoşuyla verməlidi. Onsuz da atabəylər hər kəsin rənginə baxmamış damarından qan almırlar. Belə olduğu halda nankorluq nəyə gərək? Gətirin verin, canınız qurtarsın.

Əcəminin ürəyincə oldu ki, rəisin özü söhbəti "kəndli-kündlüdən saldı. Və bu da imkan yaratdı ki, dərbanın köşkündə girov kimi saxlanan yurdçuluya, onun kənddə başsız qalan körpələrinə kömək əlini uzatsın.

— Vergi verməyə imkanı olmayanlardan birini də deyəsən dərbanın yanında girov saxlayıblar?..

1. Xəsislik.
2. Tülkü.

— İmkanı olmayan yox, — rəis Əcəminin sözlərinə düzəliş verdi, — vergisini vermək istəməyən... O yurdçuluq girov deyil, qurbanlıqdır!.. Bir azdan sonra onu zindana atdıracağam... Darğanı geriyə, kəndə qaytarmışam ki, körpələrini də qabağına qatıb bura gətirsin. Ona gərək burada elə bir toy tutam ki, səsi Yurdçuda eşidilsin...

Rəisin kəndlilərə qarşı kin-küdurətinin son vaxtlar artıb çoxalmasının səbəbi Əcəmiyə aydın idi. Əli Şimşək rəisi və atlılarını Əlincə düzlərində yaxşıca əzişdirmişdi. Bir neçə adamını itirən rəis güclə qaçıb canını qurtara bilmişdi...

— Onun nə qədər vergisi qalır? — Əcəmi soruşdu.

— Nə bilim... Hə çox! — Rəis əl-qolunu oynatdı.

— Çox deyil... Mənə dedilər ki, bu ilin vergisidi qalan.

— Sən o yurdçulunu tanıyırsan?

— Xeyr. Üzünü də görməmişəm... Dərbana deyiblər, o da mənə dedi... Özünün də bir çətən uşağı var.... — Əcəmi fərqinə varmadan ürəyindən keçəni bildirdi: — Gəlin siz razı olun, o yurdçulunun borcu nə qədərdisə abidənin tikilişindən mənə çatan axırıncı xərcdən götürsünlər... Əmr edin kişinin özünü də, övrətini də buraxsınlar, çıxıb getsin evinə... Körpələri kənddə başsız qalıb Anaları da köşkdə göz yaşı axıdır. Ana naləsi eşitdiyim üçün köşkə də girə bilmədim. Mən anaların göz yaşına baxa bilmirəm... onlar nalə qoparıb ağlayanda varlığımdan oluram... Siz ki, mənim xasiyyətimə az-çox bələdsiz... Sözümü yerə salmayın. Rica edirəm.

— Sən bilirsən heç bunun axırı nə olar, Əbubəkr oğlu?! Kəndlilərdən bundan sonra vergi almaq olar müşkül iş...

— Olmaz... İstəsəniz mən özüm Yurdçuya gedərəm... onları başa salaram. Onsuz da mənim o kəndə hərdənbir yolum düşür. Axə abidənin tikilişi üçün bir ildi südü, yumurtanı həmin kənddən gətirirlər.

Rəis bir az fikrə getdi, sədr kürsüsündən durub arxasındakı pəncərədən həyətə baxdı və qayıdıb təzədən oturdu.

— Elə bunun üçün təşrif gətirmisən, Əbubəkr oğlu?

— Xeyr... Dərbanın köşkündə ağlayan ananı siz azad edəndən sonra gəlişimin əsas səbəbini deyəcəyəm. Əlbəttə, mənim sizinlə şərt kəsməyə nə haqqım var, nə də ixtiyarım... Mən elə bir səlahiyyətə də sahib deyiləm. Amma saraya olan xidmətimi, xanədana göstərdiyim qulluğu və sizin mənə olan hörmətinizi nəzərə alaraq həmən ricanı et-

dim... Mən dərbanı da, mühafizi də inandırmışam ki, cənab rəis mənim ricamı yerə salmaz... Məni sarayın iki nəfər pişxidməti yanında xəcil etməyin... Əks təqdirdə, gərək onda mən pişgahın astanasından bir də içəri ayaq basmayam... Mənə bu il sarayın beytülmalından çatası vəsaitdən nə qədər lazımdırsa, indicə öz yanınızda imzanamə verim ki, həmin vəsaiti almışam... — Əcəmi narahat halda gah dibaçədən durur, gah oturdu, əlindəki səndəl ağacını gah qurşağına taxır, gah da oradan çıxarıb yanağını qaşıyırdı.

Rəis isə fikirləşirdi: "Bax, sənətkarların da belə-belə gic işlərinə yoxam. Başqalarına xeyirxahlıq göstərmək üçün az qala zülü gedirlər..."

— Bu çulucırıqlar yaxşılıq qanandılar bəyəm? — Axır ki, dilləndi rəis.

— Deyərlər balığı tutdun — at dəryaya... Balıq da bilməsə, xaliq biləcək... O ki qaldı mənə, insanlara xeyirxahlıq etməkdən xüsusi zövq alıram... Əgər ikinci bir ömür yaqasaydım onun da həvəslə bu işə həsr edərdim... Təkcə özü üçün yaşayanlar nadanlardır, namərdlərdir...

Deyəsən Əcəminin "çulucırıq" bir kəndlidən ötrü keçirdiyi nigarançılıq, göstərdiyi təlaş, dediyi sözlər rəisin qəlbində də rəhm oyatdı.

— Yaxşı... mən razı... İndi hər şeyi yoluna qoyaram... De görüm bu dəfə nədən ötrü təşrif gətirmisən? — Rəis bir az əvvəl verdiyi sualı yenə təkrar etdi və Əcəminin cavabını maraqla gözləməyə başladı.

Əcəmi kürəyini arxayın-arxayın dibaçənin oturacağına söykədi və cavabını elə bil qəsdən xeyli yubatdı. Bir xeyli fikirləşəndən sonra aram-aram danışmağa başladı:

— Bilirsiniz ki, mən sarayın mühüm bir tapşırığını icra edirəm... Onu da bilirsiniz ki, bu il qış yenə sərt keçib... Novruz bayramından sonra da iki-üç həftə işləyə bilməmişik. Bir neçə gündür gecəni gündüzə qatıb əlləşirik ki, abidənin günbəzini də vaxtında qurtaraq. Axı hökmdar məni gözləyir. Amma bizə sarayın Yurdçunun Qaratəpə düzlərində saxlanan sürülərindən gətiriləcək südü də, yumurtanı da vaxtında ala bilmirik... Cüzi bir miqdarda gətiriblər, özü də neçə gün bundan əvvəl. Gəci də ləngidirlər. O da sizə bəllidir ki, süddə həll olmayan, südlə yoğrulmayan gəci işlədə bilmərəm. Yumurtasız sirişüm hazırlamaq isə heç mümkün deyil. Xüsusən günbəz üçün... İndicə adını çəkdiyiniz Yurdçu kəndinin darğası da deyəsən adamları yesir edib ora-bura aparmaqla məşğuldur... Onu da deyim ki, bir dəfə

gətirilən südə çoxlu su qatdıqları üçün işlədə bilməmişik, aparıb axıtmışıq Atabəylər meydanının aşağısından axan çaya...

Əcəminin son sözləri rəisin xoşuna gəlmədi.

— Bütün təqsiri darğanın üstünə yıxmaq da düz deyil... Darğa da şikayətlənir ki, orada işləyənlərin bə'zisi yumurtaları oğurlayır, südü küçük kimi yalayır...

Bu dəfə də rəisin sözləri Əcəminin xoşuna gəlmədi:

— Yalandır! — deyə qəti cavab verib e'tirazını bildirdi. — Bə'zən iş dayanmasın deyə mən cibimdən pul xərcləyib bazardan süd alıram, yumurta alıram. Axı şəhərin rəisi kimi, Atabəylər dövlətinin səlahiyyətli şəxsi kimi abidənin yaxşı olması həm də sizin başucalığınızdır... Bir də Cahan Pəhləvan kimi sərt, sözü ötkəm bir hökmdarın fərmanını kimin cür'əti çatar ki, vaxtında icarə etməyə, onu özünə borc bilməyə?.. — Əcəmi saray sahibinin Naxçıvanı tərk edərkən verdiyi tapşırıqları bilə-bilə rəisə xatırlatmaq istədi və deyəsən istəyinə də nail oldu. Rəis sədr kürsüsündə bir az qurcalandı, ayağa durdu və nəsə fikirləşib təzədən əyləşdi. Əcəmi isə sözünün ardını dedi: — Hələ mən onu demirəm ki, mərhum Mö'minə xatun ananın müqəddəs ruhu bizim hamımız üçün, Eldəgəzlər sülaləsinə qulluq göstərənlərin hamısı üçün əzih olmalıdır...

Rəisin başını trpədib Əcəminin dediklərini təsdiq etməkdən başqa çarəsi qalmadı:

— Əlbəttə, əlbəttə...

— Və mən bu fikirdəyəm ki, Mö'minə xatun ananın abidəsinin tkilib başa çatacağı illər ərzində siz rəis cənabları da mənimlə birgə cavabdehsiniz... Bunlar mənim sözlərim deyil. Bu sözləri mənə cənab Sə'dəddin Əsəd hökmdarın adından söyləyib.

Rəis ayrı söz tapa bilmədiyi üçün əvvəl dediklərini yenə təkrar etdi:

— Əlbəttə, əlbəttə...

— Onda rica edirəm tədbir görün... Bilirsiniz isti aylarda abidədə görülən hörgü işləri də, üzlük işləri də, naxışlama işləri də keyfiyyətli olur...

Rəis Əcəminin danışıqlarına qulaq assa da, fikri yenə darğanın Yurdçudan gətirdiyi kəndlinin üstündə cəm oldu. Ona bir ağ vərəq uzatdı, sonra da lələk-qələm verib dedi:

— Mən sənin ricanı nəzərə alıb kəndlini azad edirəm... Bir şərtlə: gərək o bir də başından yekə qələt eləmiyə... Bir də rəsmi ya-

zın ki, onun borcunu sizə çatası vəsaitdən tutaq... Sən öhdəliknaməni yazana kimi mən də dəftərdara[1] sərəncam verəcəyəm.

Əcəmi heç nə demədən ağ vərəqi qabağına çəkdi, yurdçulunun adını, atasının adını öyrənəndən sonra öhdəsinə götürdü ki, onun son bir ilə aid buğda vergisinin dəyərini ödəyir. Kağıza imza edib rəisə qaytardı.

— O ki qaldı tikili üçün süd və beyza[2] məsələsinə... Yurdçu kəndinin darğasını məcbur edərəm ki, sənin kimi o da öhdəliknaməyə qol qoysun... Və qəti söz versin ki, bundan sonra südü də, beyzəni də Mö'minə xatuna... yə'ni mərhumənin məqbərəsinə vaxtında çatdırsın. — Əlini əlinə vurdu. Əcəmini bir az bundan əvvəl içəri də'vət edən pişxidmət qapıda göründü: — O yekəbaş qaravulbaşına de ki, dərbanın köşkündəki kəndlini övrətiynən birgə evlərinə buraxsın... Rədd olub getsinlər xarabalarına hər ikisi.. Onun borcunu Əbubəkr oğlu ödəyəcək...

Pişxidmət baş endirib çıxdı.

## ZAMAN – NƏHRDİR

Bir bulağa bir çöp atırsan aram-aram axıb gedir. Bir çaya xəşəb[3] salırsan sular onları öz axarında aparır.

Zaman da nəhrdir. İnsanlar öz mürlərinin illərini çöp kimi, xəşəb kimi bu nəhrə tökürlər. Əcəmi də beləcə tökdü ömrünün neçə-neçə ilini bu həyat nəhrinə. Əvəzində də torpaq üstündə ölməz bir yadigar ucaltdı...

... Muzdun bir hissəsinin ödənilməsi işə cəlb edilən camaatın canıyananlığını artırmış, əhvali-ruhiyyəsini xeyli yüksəltmişdi. Bu, Əcəminin də ürəyincə olmuşdu. Əcəmi özünə çatan muzdun yubanmasından o qədər narahat olmazdı, ancaq əlinin altında işləyənlərin muzdu vaxtında verilməyəndə gecələr gözünə yuxu getməzdi, bə'zən də öz-özünə deyinərdi: "Əlmuzdu deyiblər, ver, işlət... Vermirsən, xoş gəldin... Əlinin bacarığını satanın ağlı qaçıb ki, belə bir sövdələşməyə razı olsun? Əvəzində para verməsən heç kim heç kimə bir çöp də bağışlamaz. Əmək də belədi, zəhmət də... O da satılır. Satılır, deməк, əvəzi alınmalıdır. Say ovcuna axçanı, dirhəmi, dinarı, versin əvəzində əməyini, zəhmətini..."

... Tezdən Atabəylər meydanına gələndə hamını yenə iş başında

1. Mühasib.
2. Yumurta.
3. Taxta-şalban.

gördü.

Bir neçə gün əvvəl sərdabənin tikilişinə baxmağa gələn hökmdarın razı qalması, əsas işlərin görülüb başa çatması, ustadın əlindən kamil bir tikili çıxması hamının əhvalı-ruhiyyəsini yüksəltmişdi...

Onu görən kimi hamı bir an işdən əl götürdü. Əyilənlər qamətini düzəltdi, oturanlar ayağa qalxdı, ədəb-ərkanla ustadı salamladılar. Əcəmi də onların salamını aldı, işarə elədi ki, hər kəs öz işi ilə məşğul olsun.

Cəmillə xüsusi salamlaşdı. Fikirləşdi. "Bu qara xəbəri mən ona necə deyim... Dünyada oğul dağından da ağır dərd olar?.. Atalar bə'zən bu dərdə dözürlər, bəs analar?.. Yazıq Zəhra..." Və qət etdi ki, deyilənləri hələlik gizli saxlasın, əlverişli bir məqamın çatmasını gözləsin...

— Deyəsən pis çıxmır? — Əcəmi Cəmildən soruşdu.

— Yaxşıdır... Özün ki deyirsən səliqəsiz iş görməyin özü də tənbəllikdir. O ki, qaldı tapdığın bu rəngə, min il solmaz.

Əcəmi sirişüm hazırlayan cavanların yanına adladı, sağ əli ilə götürüb sol ovcuna tökdü, baxdı... deyəsən xoşuna gəldi; əlini onlardan birinin kürəyinə çəkdi, birinin saçını oxşadı. Hər ikisinin üzündə ötəri bir təbəssüm göründü... Sonra Əcəmi sərdabənin zirzəmisinə endi, paltarlarını soyunub Mö'minə xatun ananın sanduqəsinin yanına qoyulmuş balaca kətilin üstünə yığdı, səndəl ağacını da onun üstünə qoydu. Qalın boz bezdən tikilən iş paltarını geydi, divardan asılmış şaqulu, tişəni götürüb bir-bir yoxladı. Sonra zirzəmidən çıxdı, içəriyə girdi, divarda hörülmüş yayvari pillələrlə yuxarı qalxdı, divarın qurtaracağında dayanıb ətrafa göz gəzdirdi, sonra sərdabənin belinə kəmər kimi dolanan xüsusi ağac dayanacaqların üstünə adladı. Sol əlini alnına qoyub şəhərə baxdı. Şəhəristan və bütün rəbatlar əl içi kimi görünürdü... Sərdabə şəhərin ən uca tikilisi olmuşdu. Cahan Pəhləvanın sözləri düşdü yadına: "Sərdabə elə əzəmətli, elə möhtəşəm olmalıdır ki, bir günlük məsafədən görünsün..."Daha böyük həvəslə, yüksək əhvali-ruhiyyə ilə bugünkü işinə başladı. Artıq sərdabənin günbəzinin hörülməsinə hazırlaq gedirdi...

— Cəmil, kaşı göndər, balaca kərpic də... Şirəli kərpic də...

— Bu saat.

Əcəminin əlləri həmişə olduğu kimi, bu gün də çox iti işləyirdi,tişəsinin ucundan çıxantoza diqqətlə baxanda Cəmilə elə gəlirdi ki, şəhərin baş .zərgəri Mustafa qızıl onluqların kənarlarını yonur... Əcə-

mi onun nəzərlərində min bir nəqqaşın ustasına dönürdü.

"Sən palçığa can verirsən, kərpicə qan, suvağa nəfəs... Bunları birləşdirib gözəl bir libas tikirsən... Tikdiyin bu libasda mahud yumşaqlığı, qanovuz əlvanlığı, atlas parlaqlığı görünür. Hazırladığın kaşılara isə elə bil səma rəngi köçüb. Bunları o usta, o ustad bacarar ki, əlləri qızıl olsun. Sənin əllərin vallah-billah qızıldı, Əcəmi! Kim öz camalını görmək istəyirsə, buyurub gəlsin Atabəylər meydanına, başdan ayağa öz əksini görsün bu bədənnüma güzgüdə... Səhər mavi görünür, günorta qızılı, qürub çağı narıncı. Haradan baxırsan gözəllik qütbü kimi gözünü qamaşdırır. İstəyirsən məğribdən bax, istəyirsən məşriqdən, istəyirsən güneydən bax, istəyirsən quzeydən... Get axirət dünyasında da min-min dua elə, Mö'minə xatun ana. Əbubəkr oğlu olmasaydı sənin adın da min-min şah və padşah övrətləri kimi itib-batacaqdı... İndi təzədən dünyaya gəlib dirildin. Axirət evin sərdabə deyil, qəsrdir, saraydır..."

Sərdabə barmaq-barmaq dikəlirdi, dirsək-dirsək ucalırdı... Əcəmi öz zümzüməsində idi: "Bu qala, bizim qala...

## "OXŞAR TALELƏR

Sarayın adından gələn xüsusi çapar məktubu şəhər rəisinə verib geri qayıdan günün səhərisi Əcəmi Təbrizə yola düşmüşdü.

Cahan Pəhləvan öz candarı və şəxsi mühafizələri ilə birdikdə Təbrizə gəlmişdi. Havaların soyuduğunu, özünün yolda nasazlığını nəzərə alaraq oradan Naxçıvana dönməkdən vaz keçmiş, axırda da belə qərara gəlmişdi ki, Əbubəkr oğlunu yanına çağırsın və Mö'minə xatun ananın abidəsinin tikilişinin nə vaxt başa çatacağını me'marın öz dilindən eşitsin.

Belə çağırışlar birinci dəfə deyildi. Əcəmi ötən illər ərzində bir neçə dəfə Təbrizə də'vət olunmuş, həmədana getmiş, abidənin tikintisinin gedişi barədə mə'lumatlar vermişdi.

Bu dəfə yubanmağının səbəbkarı isə Qızıl Arslan idi. O, Cahan Pəhləvanı vəzir Sə'dəddin Əsədlə birlikdə Həmədana yola salandan sonra Əcəminin şərəfinə xüsusi məclis düzəltmişdi, burada özünə yaxın olan şairlərin mədhiyyələrini dinləmişdi, şirindilli xanəndə qızların mahnılarına qulaq asmışdı, əndamlı cariyə qızların rəqslərinə tamaşa etmişdi, ən yaxşı şərablardan içərək saatlarla xumarlanmışdı, hərdənbir də naxçıvanlı me'marın şə'ninə tə'riflər deməyi də unutmamışdı.

... Naxçıvandan bir həftə olardı ki, çıxan Əcəmi elə buna görə də hələ geri qayıtmamışdı. Bu yubanmağın nigarançılığını ən çox çəkən isə Şəhdigül idi. Ötən günlər ərzində elə bil onun itiyi itmişdi. Bir yerdə qərar tuta bilmirdi... O, indi bir daha yəqin etmişdi ki, evin sahibi də, dirəyi də ərimiş... Dağılsın kişisiz evlər, bir gün belə yaşamasın sahibsiz övrətlər... Əcəmi də ona deyəndə ki, evin yaraşığı arvaddı, sənsən, Şəhdi... o da cavab vermişdi ki, kişisiz övrət suyu quruyan çeşmədi, kişisiz övrət odu sönmüş ocaqdı... Bir də nəsə demişdi, amma indi nə qədər fikirləşdisə yadına sala bilmədi. Bircə yadına o düşdü ki, bu sözlərdən sonra Əcəmi qolunu onun boynuna salıb saçından, yanağından öpmüşdü. Demişdi: "Sən gözəl olduğun qədər də ağıllısan, mənim Şəhdim!.."

Darvazanın çaxçaxı döyülməsəydi Şəhdigül bu şirin xəyallardan ayrılan deyildi. Həyətdə tut ağacının altında hanada toxuduğu kənarəyə vurduğu ilmələri yarımçıq qoyub ayağa qalxdı, dizlərinin üstünə tökülən cürbəcür rəngli iplərin tükünü çırpa-çırpa darvazaya yaxınlaşdı, balaca qapının cəftəsini yuxarı qaldırdı. Zəhranı görən kimi elə bil çiçəyi çırtladı.

— Həmişə sən gələsən, ay bacı! — Şəhdigül qollarını Zəhranın boynuna doladı, yanaqlarını öpüşlərə qərq elədi. Kənardan baxan olsaydı, zənn edərdi ki, onlar neçə aydır bir-birlərini görməyiblər, halbuki bir həftə əvvəl Əcəminin Təbrizə yola salmağa gələndə Cəmil demişdi ki, Zəhra gəlib axşamlar Şəhdigülün yanında qalsın. Əcəmi də əvvəlcə Cəmilə, sonra da Zəhrəya göstərdikləri qayğıya görə təşkkür etmişdi və sonra demişdi ki, ev-eşiyinizi adamsız qoymayın, həmişəki kimi qonşumuz Xədicə arvad Şəhdigülün yanında qalacaqdı. Onlar da arxayın olmuşdular. — Sənnən ötrü, ha budu, bürnümün ucu göynəyirdi.

Zəhra da öz növbəsində onu öpdü.

— Elə mən də birdən sənə görə yamanca darıxdım... Dedim durub gedim bir görüm nə var, nə yox?.. Əcəmi qardaşdan nə xəbər var?

— Gərək bu qədər, ha budu, yubanmayaydı. — Şəhdigül birdən mə'yus oldu, dərindən köks ötürdü. — Qardaşın da bu səbrin sahibi deyil...

— Darıxma... Sabaha, birigünə gəlib çıxar... Cəmil də deyir ki, Qızıl Arslan onu hələm-hələm buraxmaz gəlsin. — Zəhra səkinin üstündən durub hanaya yaxın gəldi və söhbəti dəyişərək:

— Naxışların qəşəngdi. — Əlini xalçanın üstündə gəzdirdi. —

Mən heç güman eləməzdim ki, sən belə naxış vura bilərsən.

— Mənim niyə olur?.. Əcəminindi naxışlar... Əvvəlcə "Oxu, hanam, oxu, hanam. Buta güllər toxu, hanam" deyə-deyə bir qarışca özü toxudu, sonra məni öyrətdi... Mən də, ha budu, neçə vaxtdı onun naxışlarının ardını toxuyuram... Qonşumuz Xədicə xalanın nəvəsi Rəşidi də görüm sağ olsun, ha budu, iplərin boyanmasına həmişə kömək eləyir. Nə vaxt desəm bazara gedib ayın-oyun alıb gətirir, Cəliləddindən yaxşı olmasın, ha budu, çox yaxşı oğlandı. Əcəmi deyir götürəcəyəm yanımda işləsin, qabil baladı, ha budu, nə töksəm, onu da yığışdıracaq...

Şəhdigül danışsa da, Zəhranın fikri kənarənin naxışlarında idi.

— Əcəmi qardaş xalça da toxuya bilir? — Zəhra soruşdu.

— Sənin qardaşın nəyi bilmir ki, ha budu, onu da bilməsin?..

Məhəllə məscidindən müəzzinin camaatı günorta namazına çağıran səsi ucaldı:

— Allahü-əkbər.

— Nə tez günorta oldu, ay Şəhdigül? — Zəhra özünü elə göstərdi ki, ev sahibəsinin kefini xəbər aldı, toxuduğu xalçaya baxdı, indi də getmək istəyir...

— Hara hazırlaşırsan, bacı? — Şəhdigül narahat oldu. — Lap vaxtında gəlibsən, o məscid haqqı! — Müəzzinin səsi gələn səmtə işarə etdi: — Yaxşı sərid bişirmişəm... əti də, Rəşidi göndərmişdim, ha budu, qeysəriyyədən alıb gətirib. Xalis erkək ətidi, özü də döşdən... Əcəmi də ət alanda erkək əti alar... Özü də ya döşdən, ya da peysərdən... Mən də ondan öyrənmişəm... Elə bayaqdan fikir məni götürmüşdü ki, tək canıma, ha budu, necə süfrə açım?..

— Sərid nədi, ay Şəhdigül? — Zəhra birinci dəfə belə xörək adı eşitdiyi üçün maraq göstərdi.

— Ərəbcədi. — Ev sahibəsi şirin-şirin gülümsədi. — Əcəmi deyir ki, Məhəmməd peyğəmbərdən, ha budu, bir dəfə soruşublar: "dünyada ən gözəl övrət kimdi:" O da deyib: "Aişə". Bir başqası da xəbər alıb: "Canına fəda olduğum bəlkə deyə görək ən dadlı xörək nədi?" O da deyib: " Sərid". Yə'ni erkək ətindən bişirilən bozbaş...

Zəhra əvvəlcə güldü, sonra uğunub getdi.

— Oyunun olsun, ay Şəhdigül!.. Mən bunu birinci dəfədir ki, eşi-

1. Sözü tez başa düşən.
2. Heyvan dərisindən hazırlanan böyük sürfə.
3. Cənubda görünən parlaq ulduz.

dirəm.

— Deyirsən bə əbəs yerə, ha budu, deyirəm ki, sənin qardaşın hər şeyi bilir?..

— Düz deyirsən... Əcəmi qardaşa bax ha!.. Belə getsə kişin sənə çox şeylər öyrədəcək... — Zəhra təzədən uğundu.

— Əcəmi kimi kişiyə qismət olduğuma görə, ha budu, oturub-durub sənə dua eləyirəm. Atana-anana min-min rəhmət oxuyuram, bacı! — Şəhdigül

öz bəxtindən razı olan başqa gəlinlər kimi Zəhranı təzədən bir də qucaqladı, ifallanıb üzünə baxa bilmədiyi üçün başını onun çiyninə dayadı. Zəhra da onun öz bəxtindən razılığına sevindi, bir vaxtı onu bu evə gətirib xoşbəxt elədiyi üçün öz əməlindən razı qaldı. Əvvəlcə

Şəhdigülün saçından öpdü, sonra da əlini uzadıb, kürəyi aşağı uzanaraq topuqlarını döyən yoğun, qara hökürlərini oxşadı. Bu mehribanlıqdan xoşhal olan ev sahibəsi, daha heç nə demədən içəri keçib süfrə açmağa başladı. Zəhra isə öz taleyi ilə Şəhdigülün taleyi arasındakı oxşarlığı ilk dəfə olaraq ağlına gətirdi...

... Gecəydi. Gəncə yatırdı. Həmişəki kimi bir azdan məşriqdə əvvəlcə bir parça şəfəq peyda olacaq, sonra bu bir parça böyüyüb-böyüyüb bütün səmanı ağ örpəyə bürüyəcək. Günəş isə bu ağ örpəyə min-min zərrin-zərrin rəng vuracaqdı... Amma şəfəq təzəcə peyda olanda, səma ağ örpəyə təzəcə bürünəndə elə bil qüdrətli bir əl yerin sinəsindən yapışıb onu bərk-bərk silkələdi. Bir anın içərisində yüzlərlə həyətin hasarları uçdu, evlərin divarları yatdı. Şəhərin ətrafında yerlə göyün birləşdiyi yerdə gah boz, gah sarı, gah açıq narıncı görünən tozanaq qopdu. Bu tozanaq qabarıb göyə dirəndi. Yeri silkələyən qəfil əl elə bil gücünü bir də sınadı: çat-çat olan hasarlar bu dəfə tamam uçub töküldü, həmindən qopan divarlar tamam yatdı. Hasarlar uçmamış, divarlar yatmamış evlərdən qaçıb canlarını qurtaranlardan heç kim baş aça bilmədi ki, bu bəlaya səbəb nədi, adamlar allah-təala qarşısında hansı günahı işlədiblər?.. Səksəkəli-səksəkəli yuxudan oyanan qocalar, yuxulu-yuxulu şivən qoparan uşaqlar, əllərini dizlərinə çırpa-çırpa Allahdan kömək üman qızlar, gəlinlər, nənələr göz yaşı tökürdülər. Dizi yerə gəlməyən igidlər isə onların imdadına çata bilmədikləri üçün çaşbaş qaldılar, nə edəcəklərini ölçüb-biçməyə macal belə tapmadılar. Heç kimin nə əli çatdı, nə ünü yetdi bu qəfil bəlanı göndərənə. Zəlzələ qədim Gəncəni yerlə yeksan edib viran qoydu...

Elə bu vaxt şəhərin məğrib tərəfində, Gəncə çayının çol sahilin-

də kasıb-kusub yaqayan məhəllənin lap qurtaracağında uçmuş bir komanın dirəkləri arasından dağınıq saçları, nimdaş paltarı toz-torpağa bulanan yeddi-səkkiz yaşlı bir qız uşağı çıxdı... Əvvəlcə devikə-devikə yan-yörəsinə baxdı, orda-burda yerə uzadılan meyitləri görən kimi əlləri ilə üzünü ötrüb şivən qopardı: "Baba".. Ana!.. Hanı mənim anam?.." Ağlaya-ağlaya da divarları uçub, tavanı yatan komanın başına dolandı, dolandı: "Mənim anamı verin!.. Babamı verin!.." deyib haray qopartdı. "Ağlama, qızım... ağlama, Zəhra..." Bu, onların qonşusu — ud düzəldib satan Muxtarəddin kişi idi. "Muxtarəddin əmi... bizim evi kim uçurdu?.." "Tək sizin evi uçurmayıblar... Görürsən bizim ev də uçub..." "Bəs mənim babam kim olacaq?" "Mən..." Zəhra kiridi... Zəlzələ Zəhranın ata-anasını, Muxtarəddin kişinin isə arvadını əlindən almışdı.

Muxtarəddin kişi Gəncədə qalmadı, Zəhranı da götürüb Naxçıvana gəldi. Gəncədəki komasına oxşar bir koma tikib Zəhra ilə ata-bala kimi yaşamağa başladı...

Ud düzəldəni Naxçıvana elə bil əcəl çəkib gətirmişdi. İl tama olmamış ömrünü, atalıq etdiyi yetim bir qıza bağışlayıb dünyadan köçdü. Ondan Zəhrəya bir ud yadigar qaldı, bir də öyrətdiyi bir mahnı...

Ud düzəldən qəfildən vəfat edəndən sonra Həzraya təzə bir pasiban tapıldı: qeysəriyyədə dilənən qızları mühafizlər tutub gətirəndə şəhər rəisi onu baş şeyxə — Hatib ibn Mübarəkə bağışladı...

Zəhra öz həyatını dalıqaçaraq xatırlayana kimi Şəhdigül də süfrəni düzəldib qonağı içəri də'vət etdi. Zəhra içəri keçə-keçə Dəryanurla ilk dəfə e'malatxanaya Əcəminin yanına gəlmələrini, baş şeyxin hökmdar Şəməsddin Eldəgəz üçün sifariş verdiyi hədiyyəyə baxmalarını, baməzə bir oğlan olan Cəmili elə oradaca xoşladığı anları da yadına saldı. İstədi Şəhdigülə borclu qalmayıb Cəmil kimi qeyrətli, ürəyi təmiz, cəfakeş bir kişiyə qismət olduğu üçün o da ev sahibinin ata-anasına rəhmət oxuya, amma ürəyindən keçən sözləri dilinin ucundan qaytardı. Qorxdu ki, söhbət uzana və axırda gedib Dəryanurun üstünə çıxa, ev sahibəsinin də süfrə başında oaqatı təlx ola...

Şəhdigül səkinin üstündəki gümüş aftafa-ləyəni gətirdi, su tökdü, Zəhra əllərini yudu. Ev sahibəsi isə dilini dinc qoymayıb yenə əvvəlki söhbətinə qayıtdı:

— Əcəmi qardaşın deyir ki, lap qədim zamanlarda, ha budu, çoxbilmiş bir qoca olub. Bu qocanın hər şeydən başı çıxarmış. Adı da Qorqud dədə... O deyərmiş ki, ha budu, çığnam-çığnam qayaların al-

tından axıb gələn su peyğəmbər övrəti Aişənin, peyğəmbər qızı Fatimənin nikahıdı... Sonra da üzünü Məhəmməd ümmətinə tutub, ha budu, dua eliyə-eliyə deyərmiş: qarlı qara dağlarınız yıxılmasın, qamən axan çeşmələriniz qurumasın...

Zəhra içəri keçmək əvəzinə qayıdıb hananın arxasında oturdu. Ev sahibəsinə heyran-heyran baxıb dedi:

— Danış, Şəhdigül... Sən allah, bir az da danış!.. Mən heç bilməzdim ki, sən belə danışırsan.

— Necə danışıram ki? — Ev sahibəsi gülə-gülə başını silkələdi.

— Şirin-şirin...

— Bilirsən Əcəmi şirin danışan öarətlərə nə deyir?

— Nə deyir?

— Tuuutiməqam. — Şəhdigül sözü uzada-uzada qaş-gözünü süzdürdü. O, bu halında Zəhşranın daha çox xoşuna gəldi. Və o da xoşuna gəldi ki, heç yerdən bacı əvəzi olan belə ürəyiaçıq bir qızla ünsiyyət tapıb, bir evli kimi olub.

— Düz deyir Əcəmi qardaş.

Şəhdigül birdən elə bil unutduğu nəyisə xatırladı:

— Bay, başıma xeyir!.. Ha budu, boyumu yerə soxum... Bacımı tutmuşam söhbətə, xörək soyudu. — Əyilib Zəhranın qolundan tutdu, oturduğu yerdən qalxmasına kömək etdi. Zəhranın da bu anda nəzərləri ev sahibəsinin sifətində ilişib qaldı:

— Dayan, dayan! — Zəhra əli ilə Şəhdigülün çənəsini yuxarı qaldırdı, əvvəlcə alnına, sonra yanaqlarına baxdı, baxdı...

— Ay qız... bəs... mənə niyə demirsən?!. Bu ləkələr nədi?! Şəhdigül utanıb başını sol çiyninə tərəf əydi, kalağayısının ucunu sağ yanağına çəkdi. Zəhra qolunu onun boynuna salıb çiyinini qabarıq sinəsinə sıxdı:

— Əcəmi qardaş bilir?

Şəhdigül cavab vermək əvəzinə başının işarəsi ilə "yox" dedi və birdən uşaq kimi ağladı...

Zəhranın yadına bir dəfə Əcəminin Cəmilə dediyi sözlər düşdü: "Dünyaya hələ hər babətdən bəxtəvər olan adam gəlməyib. Hər kəsin bir nigarançılığı olur..."

## SEVİNC VƏ KƏDƏR

İlin ən gözəl çağı idi...

Buludlar nəm köynəklərini arabir Arazın sularına sıxırdılar...

... Günəş hələ Elalnının arxasından doğmasa da, onun ilk şəfəqləri üfüqün qara pərdəsini yavaş-yavaş kəsib doğrayır sonra eninə-uzununa pardaqlayırdı.

Təbrizdən təzəcə qayıdan Əcəmi gecəyarısı ayılıb daha yata bilməmişdi. Şam işığında vaxtilə ağ Xorasan kağızları üzərində "Mö'minə xatun" üçün çəkdiyi müxtəlif naxışları yenidən nəzərdən keçirirdi. Bir neçə gün idi ki, evdən bayıra çıxmırdı, Şəhdigül az qala yalvarmışdı ki, məni evdə tək qoyub heç yerə getmə... Özümü narahat hiss edirəm... Nəysə olacaq.

Əcəmi də çox vaxt pəncərə önündə əyləşib uzaqdakı dağlara, düzənliklərə axan Arazın sularına tamaşa edir, gündüzlər onun beynində dolaşan fikirlər gecələr həqiqətə çevrilir və şam işığında lələklə çəkilən təzə-təzə eskizlərə dönürdü...

O, inanırdı ki, ağ Xorasan kağızları üzərində çəkilən bu eskizlər sabah yeni əlvan naxışlara, gözəl kitabələrə çevriləcək, Azərbaycan Eldəgəzlər dövlətinə tabe olan şəhərlərin hansınısa bəzəyən başqa bir sənət əsərinə dönəcəkdir...

Ürəyinə damınışdı ki, ya Cahan Pəhləvan sağalıb ayağa duran təki ona növbəti sifariş verəcək, ya da "Mö'minə xatun"un şöhrəti Şərqə yayılan kimi hansısa hökmdar onu öz ölkəsinə ya qəsr, ya sərdabə, ya came, ya da abidə tikdirmək üçün də'vət edəcəkdi...

... Kağızların üzərində lələk gəzdikcə yeni-yeni naxışlar peyda olur, gah pozulur, gah təzələnirdi...

Ancaq Şəhdigülün son vaxtlar səksəkəli oturub-durması, işi oldu-olmadı həyətə çıxıb evə qayıtması Əcəmini bərk narahat edirdi. Özünü saxlaya bilməyib bir dəfə soruşmuşdu:

— Gözümə birtəhər dəyirsən, Şəhdi... Sənə nə olub?..

— Nə bilim... ha budu, elə birtəhərəm.

— Nə təhər?.. Naxoşsan?

— Yox... naxoşlamamışam...

— Bəs niyə fikirlisən, narahatsan?.. Elə bil məndən nəyisə gizlədirsən...

— Yox, əzizim... İnan ki, allahdan gizli işim olsa da, ha budu, səndən heç nəyi gizlətmirəm... Bu dünyada səndən başqa kimim var?..

Ha budu, pənahım göydə allahdı, yerdə sən... Amma istəyirdim hər şey yaxşı qurtarsın, sonra sənə deyim...

— Nəyi?

— Uşağa... qalmışam... Ha budu...

Əcəmi bilmədi nə etsin, bir müddət maddım-maddım baxdı Şəhdigülə. Və birdən "Şəhdi!" deyib onu bağrına basdı, üzündən-gözündən, saçından, əllərindən öpdü, öpdü...

— Amma... deyəsən, ha budu, öləcəyəm, Əcəmi...

— Sən... sən nə danışırsan?..

Şəhdigül daha heç nə deyə bilməmişdi. Daha doğrusu, qorxmuşdu, qorxmuşdu desin ki, gomayıllı qarı ona nəsə bir dava-dərman verib ki, uşağı salsın... Özü də bərk-bərk tapşırıb ki, salmasan öləcəksən. Çünki sənə doğmaq olmaz... Sadə, ürəyiaçıq kəndli qızı haradan biləydi ki, bütün bunlar Məs'ud ibn Əbutahirin qurmasıdır. Baş şeyx tapşırıb ki, nə edirsən et, o kəndli qızı Əcəmiyə varis doğmasın...

Özü də bu sirr gizli qalsın...

Bütün bu fitnə-fəsaddan xəbərsiz olan Əcəmi qabağına tökdüyü ağ Səmərqənd kağızlarını yavaş-yavaş yığışdırdı, sonra pəncələri üstə Şəhdigül yatan təxti-xaba yazınlaşdı, xeyli baxdı... Və sevindi, sevindi ki, ev sahibəsi neçə gündən bəridi ki, bu gün şirin yuxuya getmişdi. Özündən asılı olmayaraq pıçıldadı: "Çox şükür... qoy yatsın gələcək körpəmin anası..."

Elə bu vaxt kimsə darvazanın çaxçaxını yavaş-yavaş vurdu. Əcəmi pambıq parçadan tikilən xirqəsini çiyninə atıb bayıra çıxdı. Pillələri enib darvazaya gəldi, qapının balaca gözünü açdı. Darvazanı döyən tanımadığı bir oğlan idi. Əcəmi heç nə xəbər almadan qonağı içəri də'vət etdi. Qonaq içəri adladı, salamlaşmağı ilə qoltuq cibindən çıxardığı məktubu ona uzatmağı bir oldu.

— Gəncəli şair İlyasın məktubudur... Bizim Nizaminin.

— Nizami təkcə sizin deyil, hamınındır... Gəl evə...

— Çox sağ olun, yol üstəyəm, Təbrizə gedirik. Karvan məni gözləyir.

— Axı... belə yaxşı olmadı. — Əcəmi heyfsiləndi.

— Yəqin siz Əcəmisiz? — Oğlan maraqla soruşdu.

— Gərək bunu məktubu verməmişdən əvvəl soruşaydın. — Əcəmi yarıciddi, yarızarafatla oğlana irad tutdu.

— Düz buyurursuz. — Oğlan da gülümsəyib razılaşdı. — Bir də fikirləşdim ki, elə Əcəmi sizin kimi olar.

— Necəyəm ki?
— Elə... Nizamiyə oxşuyursuz.
— Doğrudan?!
— Bəli... düz sözümdür... Deyəsən, siz Nizamini görməmisiz. Axı o hələ Gəncədən bir yana çıxmayıb.
— Hə, görməmişəm. Amma görmək istəyirəm. — Əcəmi heyfiələndi. — Yaman görmək istəyirəm!
— Sağlıq olsun, görüşərsiz. İki böyük ustadın görüşməyi çox xeyirxah iş olar... Təbrizdən qayıdanbaş yenə sizə dəyərəm... Əgər naməniz olsa məmnuniyyətlə apararam... Təşrif aparmaq istəsəniz lap özünüzü də apararam... hələlik, sağlıqla qalın.

Qonaq darvazadan eşiyə adladı, xudahafizləşib getdi.

Əcəmi otağa qayıtdı. Artıq hava işıqlaşmışdı. Üfürüb şamı keçirdi. Pəncərədə oturub məktubu oxumağa başladı. Nizami onu "Şeyxülmühəndis" adı alması münasibətilə təbrik edirdi və ona ilk dəfə "Şeyx Əcəmi" deyirdi. Əcəminin ürəyindən anlaşılmaz fərəh hissi keçdi. Dadaqları bir neçə dəfə sakit-sakit eyni sözləri pıçıldadı: "Şeyx Əcəmi... Şeyx Əcəmi... Şeyx!..." Özündən asılı olmayaraq həmin sözləri ucadan dedi.

Şəhdigül yuxudan ayıldı, ərini şad-xürrəm gördüyü üçün heç nə soruşmadı, gur saçlarını kürəyinə aşırıb Əcəmiyə qoşuldu. Əcəmi onun isti bədənini qolları arasına alıb sinəsinə sıxdı, saçlarını gah öpdü, gah oxşadı.

— Deyəsən... darvazanı döyürdülər...
— Hə, döyürdülər... Heç bilirsən kimdən məktub gəlib sənin Əcəminə?
— Kimdən?
— Gəncəli İlyasdan...
— İlyas kimdir?
— Nizami... şair Nizami.
— Hə, bildim... Danışıbsan... "Leyli Məcnun"u yazandan... Ha budu, dedin ki, elə mən də Leyliyə oxşayıram... — Şəhdigül gülümsədi. Mirvari kimi dişlərindən dodaqlarına ötəri bir işıq qondu.
— Əlbəttə, oxşayırsan... Sən də mənim Leylimsən, Şəhdi!.. sən Şeyx Əcəminin Leylisisən!

Şəhdigül ərinin əhvali-ruhiyyəsinin nəyə görə belə yüksək olmasının fərqinə varmadı.

Elə bu vaxt ud səsi gəldi. Kor Əhsən yenə muğam çalırdı. Hər

ikisi qulaq asdı.

— Eşidirsən? — Sualı Şəhdigül verdi.

— Eşidirəm.

— Sən də Məcnun kimi Leylisiz qalacaqsan.. Eləcə nalə çəkəcəksən...

— Çıxar bu axmaq fikri başından! — Əcəmi özündən asılı olmayaraq hirsləndi. Sonra yazığı gəldi Şəhdigülə, onu bir də qucaqlayıb bağrına basdı.

Şəhdigül ağlayırdı...

Bir neçə gündən sonra uşaq tələf edən Şəhdigül öz ömrünü də Əcəmiyə bağışladı...

## ƏL QİSAS BİL QİSAS

Baş şeyx Məs'ud ibn Əbütahiri heç və'də belə soyuq qarşılamamışdı. Onun bivec işlərini ara-sıra qaxınc edib başına vursa da, pis üz göstərməmişdi. Tanıdığı illər ərzində özü dediyi kimi, belə qanmışdı ki, bu ə'rəc[1] bənnanın əlindən hər cür namərdlik də gələr, çünki nə qeyrəti var, nə də kişiliyi; arı yeyib, namusunu da atıb dalına...

"Ortada vəcihə[2] gəlinbacısı olmasa onu itbaxandan da qoymaram baxa. Hələ qala evimə ayaq döyməsinə, üzünə salıb yuxarı başa keçməsinə...

Bihəmdüllah[3] bunu qanmazın özü də qanır... Amma vurub özünü arsızlığa. Bu da elə Əbutahir törəməsinin bir qanmazlığıdır..."

— Keç otur! -Baş şeyx əlindəki şəvə kimi qara səddanəsinin dənələrini ovucunun içərisinə yığıb ipək bürdəsinin[4] cibinə qoydu və bir müddət gözlərini qıyıb Məs'ud ibn Əbutahiri mə'nalı-mə'nalı süzəndən sonra:

— Təhsin[5] — dedi. — On dəfə təhsin!..

Baş şeyxin təklifi ilə keçib balaca sərv ağacının altındakı kürsüdə təzəcə əyləşən Məs'ud ibn Əbutahir qalxmaq istədi, ev sahibəsi işarə etdi ki, lazım deyil, əyləş... Və özü dediyi kimi, onu da qandı ki, Məs'ud ibn Əbutahir onun sözlərinin yaxşı başa düşmədi, düşsə də, özünü onda qoymadı... Baş şeyx isə adətinə xilaf olmayaraq dili ilə deməyə cür'ət etmədiyi sözləri ürəyində təkrar etdi: "Bivec oğlu bive-

1. Topal.
2. Lətif, incə.
3. Allaha şükür.
4. Ərəblərdə uzun üst geyimi.
5. Afərin.

cin elə yaxşı-yaxşı oturub-durmağı var.... Baş əyib tə'zim eləməyi var...

Yoxsa əlindən də bir iş gəlmir... Zati-əkrəm[1] belələrini bilmirəm niyə xəlq edir?.."

Hatib ibn Mübarəkin dilinin altında nəsə dediyini, sifətindəki narazılığı görən Məs'ud ibn Əbutahir özünü saxlaya bilmədi:

— Nə olub ki?.. Nədən narazısız?..

Baş şeyx sözünü tamamlamağa ona imkan vermədi:

— Hələ dildin də var danışırsan?.. Ə, yekə kişisən!.. Elə iş tut ki, bir işə oxşasın da! — Hatib ibn Mübarək nəsə fikirləşib güzəştə getdi: — Qureyşi aqilləri deyiblər: "Qaddir filaməl tunci minəz-zələl". Başa düşdün?

— Təmamən yox.

— Təmaməni budur ki, — Hatib ibn Mübarək dediklərini xırdalamağa başladı. — İşin ehtiyatlı tut ki, səhv etməyəsən...

— Açıq danışsanız, şey cənabları!

— Deyirsən açıq danışım?.. Baş üstə!.. Sən gərək biləsən ki, kuzəçidən qisas almaq istəyəndə onun kuzəsini sındırmazlar... Səhər sındırarsan, günortaya kimi birini də düzəldər... Dərzidən qisas almaq istəyəndə onun tikdiyi bürdəni oğurlamazlar. — Hatib ibn Mübarək əynindəki paltara işarə etdi: — Bu gün oğurlarsan, sabah birini də tikər... Bənnadan qisas almaq istəyəndə isə onun həyətinin hasarını uçurmazlar. Bu həftə uçurarsan, gələn həftə təzəsini hörər. Başa düşdün?

— Təmamən yox.

— Bah, atonnan! — Hatib ibn Mübarək əllərini dizinə çırpdı: — Sən nə ağılla Əbubəkr oğlunun evinə od vurmusan? Bilsələr ki, belə bir əməlin sahibisən, heç bilirsən nə olar? Saray sahibi neçə il bundan əqdəm rəisə qəti hökm edib ki, onun başından bir tük belə əskik olmamalıdır. Yaxşı ki, rəisin fikrini yayındıra bilmişəm, yoxsa...

— Ayrı yol tapa bilmədim. — Məs'ud ibn Əbutahir elə bil kiçildi və heç nəyə e'tiraz etməyə cür'əti çatmadı. — Əlacsız qalıb, bu yolla heç olmasa ziyan vurmaq istədim... Dedim qoy heç olmasa evəşiyi yanıb kül olsun.

— Əbubəkr oğlunun əlində ev tikmək, imarət salmaq bilirsən ki, su içmək kimi bir işdi?.. Axı bunu sən məndən yaxşı bilirsən, möhtərəm me'mar! — Hatib ibn Mübarəkin son sözlərindəki kinayəni Məs'ud ibn Əbutahir açıq-aşkar hiss etsə də, üstünü vurmadı. Onun e'tiraz

1. Kərəm sahibi.

etmədiyini görən baş şeyx isə daha açıq danışmağı lazım bildi: — Bilirsən Qureyşi aqilləri bir də nə deyiblər?.. Deyiblər ki, əl qisas bil qisas[1]... — Hatib ibn Mübarək dediklərini bu dəfə tərcümə etmədi, çünki həmin kəlamları bir dəfə də demişdi, indi onu Məs'ud ibn Əbutahirin təzədən yadına salırdı.

— Bildin?

— Bildim! — Məs'ud ibn Əbutahirin sifətində birdən müəmmalı ümid işığı peyda oldu. Bunu özü görüb hiss etməsə də, Hatib ibn Mübarək həm gördü, həm də hiss etdi. Elə buna görə də ötkəm səslə dedi:

— İndi ki bildin, gedə bilərsən...

— Baş üstə.

— Bir də bu qapını bildiyinə əməl edəndən sonra açarsan.

— Darvazanı göstərdi. — Bunu da bildin?

— Bəli...

Hatib ibn Mübarək bürdəsinin ətəklərini bir az yuxarı dartıb həyətdəki səkinin pillələrini qalxdı və otağa keçib qapını örtdü...

***

Şəhdigülün ölümü Əcəmiyə bərk tə'sir etmişdi. Ona get-gedə tam agah olurdu ki, burada nə isə gizli bir əl var. Sadə, ürəyiaçıq kəndli qızı kiminsə qəsdinə düçar olmuşdu. Həm Şəhdigülün səksəkəli keçən son günləri, həm Zəhranın sözlü adama oxşaması, həm də qonşuları Xədicə arvadın Əcəmini görən kimi elə bil qəsdən Becanlı məhəlləsinin cadugəri Hində qarının qarasınca deyinməsi, onu yamanlaması Əcəminin şübhələrini daha da artırmışdı. Hələ qonşu övrətlərdən adda-budda eşidib fikir vermədiyi sözlər də yaddaşında təzələnirdi:

— Becanlı Hində qarı istəsə öküzü də doğuzdura bilər...

— O imanı yanmış cadugər Hindəni buralara dadandırma, qızım...

Ancaq gec idi, çox gec...

Şəhdigül artıq yox idi...

Elə bil həyətə qonmuş bir quş idi, birdən uçub getdi...

Elə bil qayanın altından çıxan bir bulaq idi, birdən çağladı, birdən də qurudu...

Elə bil gözəl bir mahnı idi, oxundu, axıra çatmamış birdən kəsildi...

Əcəmi bunları fikirləşə-fikirləşə gah burda, gah orda oturur, gah

1. İntiqama intiqam lazımdır.(*Ərəb.*)

otağa girir, gah həyətə çıxırdı...

Səndəl ağacını nə vaxt əlinə aldığının, nə vaxt qurşandığına taxdığının da fərqinə varmadı... Ürəyində yığın-yığın giley-güzar keçirdi: "Görəsən, məni kim qarğıdı? Gətirmir mənimki ömür-gün sirdaşı sarıdan... Birincisi elə, ikincisi də belə... Darıxıram, yaman darıxıram. Tə'kid eləyib şəhərdən çıxmağıma mütləq bir neçə günlüyə razılıq almalıyam..."

Əli də işdən soyumuşdu. Abidənin günbəzinin tamamlanma işləri yubanırdı. İşə bir gün gələndə iki gün gəlmirdi... Belə vaxtlarda nasaz olduğunu bəhanə edib öz komasına çəkilir, ürəyinə dolan dərdi-səri ilə əlləşirdi...

İşin ləngiməsindən sarayda da bir nigarançılıq yaranmışdı. Buna baxmayaraq şəhərə varid olan Cahan Pəhləvanın tə'kidilə abidənin açılışına ciddi hazırlıq aparılırdı: ətrafı abadlaşdırılır, saraydan ora qədər uzanan yolla çaylaq daşları düzülür, xüsusi ləklərə Ədilağa gölünün ətrafından kəsilib gətirilən yaşıl çimlər döşənirdi...

Saraydan gümbəzin tamamlama işlərini tezliklə qurtarmaq barədə mütəmadi sifarişlər alınırdı.

Rəis xəbər göndərirdi: "Abidənin qalan işləri bir həftəyə tamamlanmalıdır..."

Baş şeyxin adından deyirdilər: "Beş-on günə Bağdada gedəsiyəm, qoy işi tə'cili qurtarsın..."

Hökmdar hökm edirdi: "Əbubəkr oğluna deyin ki, Mö'minəxatun ananın abidəsinin açılışını bu ayın son pəncşənbə gününə tə'yin etmək niyyətindəyəm... Axır sözü nədi, saraya bildirsin..."

Əcəmi yenə işə çıxmamışdı, evdə idi. Sübh durub ac-susuz həyətdə qurdalanırdı. Qış yuxusundan təzə-təzə ayılan ağacların artıq-urtuq budağlarını bir az daradı, payızda göyərti əkdiyi bir-iki ləki qaydaya saldı, gecələr boş vaxtlarında iydə şillərindən, nazik qamışlardan toxuduğu səvərələri gətirib ağacların budaqlarına keçirdi, daşdan yonduğu fiqurların yerini dəyişib sahmanladı....

Birdən ayağına qart keçi qəzilindən toxunan sicim dolaşdı. İki-üç qat eləyib ağacın haçasına atdı. Sonra keçib tut ağacının altındakı kötüyün üstündə oturdu. Kürəyini ağaca söykəyib gözlərini yumdu. Yuman kimi də Şəhdigülün mə'sum siması gəlib gözləri önündə dayandı. Onun belə günləri çox olurdu, Şəhdigülün qəbrinə baş çəkəcəyi günləri də yadından çıxmırdı. Nə vaxt ki, qəbristanlığa gedirdi, elə bil qəbrdən niskilli bir səs gəlirdi:

— Görürsən, ha budu, təklik nə böyük bəladı, Əcəmi?...

— Görürəm, Şəhdi... Görünür taleyimiz belə imiş...

— Tale bizə, ha budu, çox amansız hökm yazdı, Əcəmi...

— Qəzavü-qədərdən qaçıb yaxa qurtarmaq olmaz, Şəhdi...

— Gərək elə qəzavü-qədər bu müsibəti bizim başımıza açaydı?.. Ha budu, axı birini bilir, birini bilmirsən...

Əcəmi arxası darvaza qapısına tərəf oturmuşdu. Buna görə də darvazanı kimin açdığını görmədi. Səs eşidən kimi ona elə gəldi ki, yenə Cəmildi. Gəlib ki, onun boş damarından tutub işə aparmağa həvəsləndirsin. Ancaq ehtiyatı əldən verməyib fikirli-fikirli xəbər aldı:

— Kimsə... gələn?..

Cavab bir az ləngidi.

— Əcələm...

Cavab verənin səsi elə bil həqiqətən o dünyadan gəldi. Ötkəm olsa da çox boğuq çıxdı. Əcəmi macal tapıb ayağa qalxmış sicim onun sinəsindən keçib kürəyini tut ağacına sıxdı. Ona qəsd etmək istəyən cəld tərpənib sicimi bir neçə dəfə onun bədəninə sarıdı, qollarını burub ipin altına keçirdi, düyünlədi və onun qənşərinə keçib xəncəri çənəsinin altından boğazına dirədi. Əcəmi nə qədər təlaş eləsə də özünü bu qəfil basqından xilas edə bilmədi. Əlacsız qalıb başına açılacaq həngaməni çox soyuqqanlıqla gözlədi və qəsdin icraçısını tanıyan kimi laqeyd-laqeyd gülümsəyib dedi:

— Ə, Məs'ud, sənin ikinci adın da varmış! Əcəl... Əcəl! Ə, bu adı sənə kim veribsə düz verib... Cəmil demişkən, az qala elə mənim adıma bənzəyir ki, ikinci adın... Əcəmi... Əcəl... Mərhaba, Əcəl!

— Uzun danışma!... Kəlmeyi-şəhadətini de!

— Niyə?

— Səni öldürməyə gəlmişəm.

— Təqsirim nədi?

— Ömrün boyu yolumun üstündə əngəl olmusan. Daha bəsdi! — Məs'ud ibn Əbutahir xəncəri bir az da yuxarı dirədi və ürəyi tövşiyə-tövşiyə əlavə edib kin-kudirətlə dedi: — Sənin nəslinin kökü kəsilməlidir. Sən Əbubəkrlilər nəslinin son törəməsi olmalısan... Övrətini də, hələ ana bətnində olan körpəni də bu niyyətlə aradan götürdük... Fitvasını da baş şeyx özü verdi...

Elə bil bütün yer də göy də bir-birinə qarışıb Əcəminin üstünə töküldü... Başı gicəlləndi, gözləri dumanlandı, dizləri sözünə baxmadı. Bədəni bir tikə ət parçasına dönüb bütün ağırlığı ilə sicim dodaqları-

nın üstünə sallandı.

Məs'ud ibn Əbutahir Əcəminin heç vaxt görmədiyi halından razı qalıb bu dəfəki əməlinə elə bil sevindi və gülümsəyib fikirləşdi: "Bax, belə... bu dəfə tədbirli tərpənmişəm..." Və elə oradaca Əcəmi ilə hələ cavan vaxtı üz-üzə gəldiyi bir günü xatırladı...

... Şeyx Yusifin sərdabəsinin tikilişinə təzəcə başlanmışdı. Sərdabə hələ bir adam boyu qalxmamışdı...

Məs'ud ibn Əbutahir bir gün lap sübhdən Şahab meydanına gəlmişdi. Heç kim gözə dəymirdi. Qoca xuddam da deyəsən subaşına getmişdi. İçəri adladı, əlindəki qatranı ağzına kimi hazır sirişümlə dolu çəlləyin üstünə axıtmağa başladı. Birdən biləyinin üstünə qəfil bir əl endi və kirpiyini qırpmamış çənəsinin altına ağır bir zərbə dəydi. Zərbəni endirən nədənsə həmin gün işə hamıdan qa'baq gələn Əcəmi idi...

Yerdən ağır-ağır qalxan Məs'ud ibn Əbutahir sərdabənin içəriküncündə qoyulan balaca külüngü götürüb Əcəminin üstünə yeridi. Əcəmi başına qaldırılan külüngün altından elə cəldliklə sərtib kənara sıçradı ki, Məs'ud ibn Əbutahir səndirləyə-səndirləyə bir neçə addım atdı və üzüqoylu yerə gəldi. O, fürsət tapıb ayağa durunca Əcəminin sağ ayağını yerdəki külüngün sapı üstündə gördü... Əcəmi balaca külüngü Məs'ud ibn Əbutahirin başına endirmək istəsə də bacarmadı, bəni-Adəmə əl qaldırmaq ürəyindən gəlmədi. Külüngü sərdabənin alçaq divarı üstündən eşiyə tulladı...

Elə bu vaxt qoca xuddam subaşından qayıtdı. İşdən agah olan kimi dedi: "Sən təqsiri nahaq Əbubəkr oğlunda görürsən. Camaat pis əməllərini nəzərə alıb səni Şeyx Yusif kimi hörmətli bir şəxsin sərdabəsinin tikilişində işləməyini məsləhət bilmədi... Heç utanıb yerə girirsən?.. Heç olmasa böyük şeyxin xatirəsinə hörmət qoyaydın, ay zatıqırıq nəslin nankor törəməsi..."

Məs'ud ibn Əbutahir bunları fikirləşə-fikirləşə Əcəminin xirtdəyindən çəkib qınına qoydu. Bir-iki addım geri adladı. Birdən otağa qalxan səkinin pillələri yanında divara söykənən səhəngə tərəf getdi, mis cama su süzdü, bir-iki qurtum içdi. Sonra qalan suyu gətirib Əcəminin üzünə çırpdı. Yarıayıq, yarıhuşsuz həyət sahibi özünü düzəldib nüfuzedici bir tərzdə Məs'udun düz gözlərinin içinə baxdı. Əbutahir törəməsi qılınc kimi kəsən bu iti baxışdan sarsıldı, üzünü yana çevirdi.

— Namərd!.. Namərdlər!!!

Əcəminin səsi bütün həyətdə səsləndi. Məs'ud ibn Əbutahirə elə gəldi ki, bu səs deyildi, haray idi, bütün şəhərin üstündən keçən nalə idi...

— Bəs nə bilirdin? — dedi Məs'ud ibn Əbutahir. — Nəzarət altındaydın, dinə bilmirdik... Elə şey tikirdin ki, xələl toxundurmaqdan ehtiyat edirdik. Ortada saray var idi, onun sahibi var idi... İndi işini tamam eləmisən, daha heç kimə gərək deyilsən... Nə saraya, nə məscidə, nə də şəhər əhlinə. İndi ölə bilərsən. — Məs'ud ibn Əbutahir xəncərini təzədən qınından çəkib çıxardı, başının üstünə qaldırıb yavaş-yavaş Əcəmiyə tərəf gəlməyə başladı. Əcəmi haray çəkməyi özünə sığışdıra bilmədi. Gözlərini yumdu. Elə bu vaxt kimsə bel ilə xəncəri vurub Məs'udun əlindən yerə saldı.

Bu, həyətə girən Cəmilin endirdiyi qəfil zərbə idi. Dediyi "alçaq" sözü də zərbəsi ilə eyni məqamda ağzından çıxdığından özünü qəsdçinin üstünə nə vaxt atdığının da fərqinə varmadı.

Süpürləşdilər. Özünə gələn Əcəmi nə qədər əlləşsə də, sicimin düyününü aça bilmədi. Cəmil imkan tapıb Məs'ud ibn Əbutahirin çiyinlərindən tutdu, başını bir neçə dəfə tut ağacının kötüyünə çırpdı. Qəsdçinin onun sinəsinə yapışan əlləri boşaldı. Cəmil ayağa durub kənara yeridi və xəmcəri ləkin içərisindən götürdü, heç nə demədən gəlib Əcəminin bədəninə sarılan sicimi hirslə doğrayıb yerə tökdü. Əcəmi elə bil xəcalət çəkə-çəkə sicimin qırıqları arasından çıxdı. Heç bir razılıq etmədən keçib tut ağacının altındakı kötüyün üstündə əyləşdi, başını aşağı dikdi.

— Arxadan zərbə endirmək bu oğraş nəslin köhnə peşəsidir!

— Cəmil ayağa qalxıb üst-başını qaydaya salan Məs'ud ibn Əbutahiri göstərdi.

— Allahın özü də bezardı bu Əbutahir nəslindən... Namərdlik damğa kimi alınlarına vurulub bu qurumsaq dəyyusların!

— Ağzını təmiz saxla...

— Təkcə ağız yox gərək kişinin vicdanı da təmiz ola... O da nə səndə var, nə də sənə havadarlıq edənlərdə!..

Məs'ud ibn Əbutahir mə'yus-mə'yus başını aşağı salıb dayanmışdı. Əslində, o yenə xəbislik edərək özünü peşman kimi biruzə vermək istəyirdi.

— Niyə mane oldun?— Əcəmi gülümsədi. — Qoyaydın kişi işini görəydi...

— Sən buna kişi deyirsən? — Cəmil Mə'sud ibn Əbutahirə tərəf tüpürdü.

— Xəncərini qaytar... rədd olub getsin! — Əcəmi dedi.

Cəmil indi əlindəki xəncəri havaya qaldırıb diqqətlə baxdı.

— Ə, Mə'sud, nə tez yadındın çıxartdın Mərənd yolunda başına açdığım oyunları? Dizin-dizin sürünüb aman istədiyin yoxsa yadından çıxıb, oğraş? Biləyimi çırmayıb soxaram ağzına! — Xəncər bir az bundan əvvəl Əcəmini xirtdəyinə necə dirənmişdisə, indi də eləcə öz sahibinin boğazına dirənmişdi.— Kişisən bircə kəlmə kəs, əgər hulqumunu yerində görsən!.. Bir də yadında saxla, sinəmi sipər elərəm, qoymaram Əcəminin başından bir tük əskik ola. Bütün el-oba sənətkara göz olanda, bütün Arran onun arxasında dayananda sənin kimi iki-üç qurumsaq onun yanından yel olub keçə bilməz!.. Bir şeyi də sırğa eləyib qulağından as ki, Cəmil ibn Səlmanın mala, şaqul tutan əli lazım gələndə xəncərə də, qılınca da uzana bilər!..

— Cəmil!— Əcəmi əvvəlki sözlərini bir də təkrar etdi:— Xəncərini qaytar, rədd olub getsin.

— Deyirsən qaytar, qaytarım... Amma bir şərtlə. — Cəmil kənara çəkildi. — Bir də elə qələt eləməsin ki, bizim əlimiz qana batsın... — Mə'suda hirslə barmaq silkələdi: — Bilirsən nə var, Əbutahir törəməsi?..Çıx get!! Əvvəlcə bu həyətdən rədd ol, sonra da bu şəhərdən! Birdəfəlik rədd olub get! Başını hələlik bədənin üstündə saxlamaq istəyirsənsə övrətini də, uşaqlarını da götürüb get... Bilirsən, get buralardan! İt, qeyb ol!..

Cəmil az qala ov üstünə atılmağa hazırlaşan pələngə dönmüşdü. Əcəmi onun bu halından, əlindən xata çıxacağından ehtiyat etməyə başladı: — Cəmil!..

Cəmil əlindəki xəncəri sahibinə qaytarmadı, bir vaxtı Əcəmi külüngü atan kimi, o da onu həyətin divarının üstündən küçəyə tulladı.

Elə bil qəfil bir əl də xəncərin sahibini sinəsindən alıb darvazadan bayıra atdı.

Cəmil keçib səkidə əyləşdi:

— Yaxşı... necə oldu ki, sən bu hala düşə bildin?!

Cəmil, mən dulus çarxının arxasından durub əlimə mala, şaqul, tişə alan gündən heç kimin üstünə əl qaldıra bilmirəm... Fikirləşəndə ki, qarşımda dayanan insandı, ürəyimdə əyər bəd bir niyyət də olsa dəahal yox olub gedir...

— Bəlkə sənə doğrudan qəsd edəydi, onda necə olardı?..

— Heç nə olmazdı. — Əcəmi zarafata salıb güldü: — Əbutahir oğlunun arzusu yerinə yetirilmiş olardı... Gəlib işləri korladın...

Cəmil bəlkə də birinci dəfəydi ki, Əcəmiyə əyri-əyri baxıb başını silkələdi: — Qəribə adamsan, vallah!..

## TÖVBƏ

Nəsrin xatundan söz düşəndə qaravaşlar da, cariyələr də, "aman, aman!" deyə az qala sinələrini yırtıb tökürdülər. Nəsrin xatunun işi-peşəsi yatıb-durandan, yeyib-içəndən, bəzənib-düzənəndən sonra gah bu cariyənin, gah o kənizin qarasınca deyinmək, gah bu tacirin, gah o tacirin arvadının qeybətini qıamaq, gah bu məlikin, gah o məlikin övrətinə loğaz qoşmaq və imanı ərşə çəkiləndə də onun-bunun babalını yumaq idi...

Qəribə də xasiyyəti var idi rəisin övrətinin. Özündən çirkin qızgəlinə qarşı insaflı, mülayim idi, özündən gözəl övrətlərə qarşı isə insafsız, qəddar. Camalca göyçək, yarlı-yaraşıqlı, mütənasib əndamlı bir gəlin görəndə elə bil qəfəsdə ilan görürdü Nəsrin xatun. Bircə Zahidə xatuna "dişi bata" bilmirdi... Bir də hardan bata biləadi? O, hökmdaa övaəti, bu aəis övaəti. Özü də get-gedə xanədanda nüfuzunu itiaən bia aəisin övaəti... Mələkə baaədə təkcə öz-özünə deyinməklə, qaaasına qaağımaqla, onun yaşadığı otağa saaı həadənbia boğma basmaqla özünü ovunduauadu... Son vaxtlaada isə min bia fəad işlədib Zahidə xatunun yanına ayaq açması ilə təskinlik tapıadı...

Nədənsə Cahan Pəhləvana yaxınlıq etməyi ağlına belə gətiamiadi aəisin övaətini. Bu baaədə fikai dolanan kimi elə bil qəfildən bia səs gəliadi qulaqlaaına: "Gül camalına, göz-qaşına, sir-sifətinə, sinə-göbəyinə o qədər də arxalanma..." Buna baxmayaaaq yenə tərəddüd edirdi: "Kişiləri tanımaq olmaz. Bir də baxırsan elə şux qamətli, sifətinə baxanda huşu başdan aparan bir kişi elə bivec bia övrətə vurulur ki, matın-qutun quruyur... Görünür, o bivec hesab elədiyimiz övrətin elə naz-qəmzəsi, elə rəftarı, elə mehribanlığı var ki, kişinin ağlını əlindən alır, iradəsini qırır..." Belə vaxtlarda Şərur məliki Oğuzun bir sözü yadına düşərri: "Deyirlər açıq-aşkarda mülayim görünən bə'zi gəlinlər yatağa girəndə çox çılğın olurlar..."

Bu müəmmalara baxmayaraq, ürəyinin dərinliyində Zahidə xatuna yaxınlıq etmək həvəsinin tez-tez baş qaldırmasından özü də baş aça bilmirdi.

Elə bu axşam da onu mələkənin istirahət otağına çəkib gətirən həmin müəmmalı həvəs idi...

Uzun-uzadı söhbətini sona çatdırıb belə Nəsrin xatun:

— Anam atamdan nəyisə rica edəndə kişi hirslənib deyərdi: "İlan Həvvanı cənnətdə bir alma ilə aldadıb yoldan çıxarmadı? Onun uc-

batından da Adəm kimi abırlı, cəfakeş bir peyğəmbəri cənnətdən qovmadılar? Sizin hamınız elə ulu nənəniz kimi nəfsəksiz. Vəssalam" — Qəhqəhə çəkib güldü.

Zahidə xatunun sifətində ötəri bia təbəssüm göründü. Cəlaliyyə isə ilk görüşdən xoşlamadığı bu "sırtıq xatun"a gözaltı baxa-baxa dodağını büzdü və anasının tapşırığına əməl edərək bir kəlmə də kəsmədi.

— Mən ananızın yerinə olsaydım atanızın dedikləri ilə razılaşmazdım... Çünki atanızın zəndi yanlışdı. Axı hamısı nəfsək olmur... Bir də bədnəfs kimi sağalmayan ikinci bir azar yoxdu dünyada. Zənən xeylağı üçün isə nəfsibütünlük ilkin gözəllikdir. — Zahidə xatun rəis övrətinin bugünkü söhbətindən razı qalmadığını dərhal büruzə verdi. O, qonağın inciyəcəyini nəzərə alaraq onun qarşısındakı nəlbəkiyə əlavə badam içi, səbzə qoydu. Bayaqdan ağzı işləyən Nəsrin xatun daha heç nəyə əl vurmadı, alçaq mizin üstündəki badəni götürüb bir-iki qurtum tərxun şərbəti içdi.

— Amma mən atamı haqlı bilirdim, mələkə...

Cəlaliyyə daha özünü saxlaya bilmədi. Nəsrin xatunun bayaqdan çərənləməsinə yekun vurmaq qəsdilə anasının dediyi sözlərin üstünə qayıtdı:

— Mərhəba, ana!— dedi.— Sözlərindən Böyük xanımın rubailərinin ətri gəlir? — Cəlaliyyəyə birdən agah oldu ki, rəisin övrəti kimə işarə edilməsini başa düşməyəcək və sual verəcək. Bu sual-cavab olmasın deyə elə oradaca əlavə etdi: — Yə'ni Məhsəti Gəncəvinin... Şairə deyir ki, qız-gəlini "qənaət əzizlər, tamah xar edər..." Tamahın ikinci adı o dediyin nəfsdir, ana...

Nəsrin xatun pərt olsa da, özünü onda qoymadı. Ayağa durub Cəlaliyyəyə tərəf gəldi, onun boynunu qucaqlayıb üzündən öpdü.

— Maşallah! Mələkə, qızınız gözəl olduğu qədər də ağıllıdır! — Bir də qucaqladı. Cəlaliyyəyə elə gəldi ki, gümaah bia zənən xeylağının qollaaı arasında yox, adamın tüklərini ürpəşdirən, cır-cındırından cin-şayətin hürkən dilənçi övrətlərdən kimsə onu qucaqladı. Çünki balaca xatun rəisin arvadından nə isə diksinirdi... Səbəbini isə hələ özü də bilmirdi. Bəlkə də bu, həddi-buluğa təzə-təzə çatan bir qız uşağının ürəyində həyatın gərdişindən, qadınlar aləminin müxtəlif əndişələrindən yaranan naşılıq müəmması idi? Buna görə də Nəsrin xatun mələkənin görüşünə gələndə, bir bəhanə tapıb özünü onların yanına salan Cəlaliyyənin çox səksəkəli qəlbində müxtəlif suallar baş qaldı-

rırdı. O, bu sualların heç birinə cavab tapa bilmirdi və xeyli ölçüb-biçsə də, anasına hələlik bir şey demirdi.

Nəsrin xatun Cəlaliyyənin özünə qarşı laqeydliyini görüb, bir dəfə şair Kəmaləddin Naxçıvaninin ona dediyi və yaddaşında bərk-bərk həkk elədiyi sözləri bu gün balaca xatunun ünvanına yönəldib təkrar etməyi özünə lazım bildi:

— Mən gülləri çox sevirəm, mələkə. Otağımda da güllər saxlayıram, özü də müxtəlif aəngli güllər: ağ, qırmızı, sarı... Gecələr hüznlü, pərişan, qəmgin görünən bu güllər sübh olan kimi günəşə təaəf boylanırlar. Gün günorta yerinə dayananda isə görürəm ki, güllərin ən gözəli-inciçiçəyi ,düz günəşə baxır. Özü də şən, şad, xüaaəm... lap canlı kimi, həddi-buluğa çatan gözəl, göyçək, təaavətli, ətiali bia qız kimi... Qızınız Cəlaliyyə lap inciçiçəyinə bənzəyir.

— Məni gülə bənzətməyin. — Cəlaliyyə üz-gözünü tuaşutdu. — Gülün ömrü az olur...

— Allah eləməsin!.. — Nəsrin xatun alındı.

Ana-bala bir-birinə baxdılar.

Nəsrin xatun birdən Cəlaliyyənin əlindəki kitabı gördü. Söhbəti dəyişmək qəsdi ilə əlini uzadıb kitabı ondan aldı, xeyli baxdı.

— Yoxsa usta Əcəminin düzəltdiyi kitab budur?..

— Hə, budur... Məhsəti xanımın rübailəridir.

— Cəlaliyyənin cavab vermədiyini görən mələkə rəisin övrətinin dediklərini təsdiq etdi.

— Cariyəm neçə dəfə bu kitabı tə'rifləyib...

— Bu nədi ki, ustad Əcəminin əlində?... Onun tikdiyi abidəyə bu gün-sabah bütün dünya heyran qalacaq.

Nəsrin xatun kitabı sağa-sola vəaəqləyib Cəlaliyyəyə qaytardı.

Əcəmi də bir kişi deyil! — Nəsrin xatun birdən əllərini qoşalayıb böyrünə boğma basdı. — Avara-avara gəzməyi var. Görmədiz bir kəndli qızını da axıra kimi qoruyub saxlaya bilmədi... Özünə umac ova bilmir, başqasına ərişdə kəsir... Əlindən bircə naxış-maxış vurmaq gəlir.

Nəsrin xatunun adlı-sanlı bir kişi, şəhərin baş me'marı, Mö'minə xatun ananın abidəsi kimi gözəl sənət əsərinin yaradıcısı barədə birdən belə bədgüman olması mələkədən çox Cəlaliyyəyə yer elədi. Bəlkə də buna görəydi ki, balaca xatun yenə özünü saxlaya bilməyib az qala hücuma keçdi:

— Ustad Əcəmi heç nəyə adi naxış-maxış vurmur! Onun vurdu-

ğu naxışlar "maxış" deyil. Ustad Əcəmi lal naxışları xoşlamır.

— Başa düşmədim, balaca xatun?

— Burada başa düşməməli nə var ki, böyük xatun! — Cəlaliyyə yerindəcə irad tutdu, mələkəyə baxdı, onun sifətindəki xoş təbəssümü görən kimi əlavə etdi: — Ustad Əcəminin vurduğu naxışlar danışan naxışlardı: musiqi kimi, əş'ar kimi. Çünki me'mar da şairdir. Belə olmasa ürəyindən keçənləri bizdən sonra gələnlərə necə danışa bilər?... Deyialəa ustad Əcəmini vurduğu naxışlarla neçə kərə danışan görüblər. Hələ deyirlər bir şagirdi ondan soruşub: "Kiminlə danışırsınız, ustad?" Ustad Əcəmi də belə cavab verib: "Bu xasiyyət mənə anamdan qalıb. Anamı toxuduğu xalçalara vurduğu naxışlarla danışan görmüşəm. İndi də mən öz naxışlarımla danışıram. Mənim naxışlarım təkcə mənimlə yox, ona tamaşa edənlərlə də danışmalıdır..." Ustad Əcəmi düz deyir. Mən də Mö'minə xatun nənənin abidəsinə baxanda naxışlarla danışıram...

Balaca xatunun "bizdən sonra gələnlər" ifadəsindən Nəsrin xatunun əti ürpəşdi, özünü biatəhər ələ alıb narahat-narahat mələkəyə baxdı. Zahidə xatun isə qızına çox sakitcə qulaq asırdı. Əvvəllər qızından eşitdiyi bu sözləri istəyirdi ki, indi də rəisin arvadı eşitsin. Və yadında qalsa Əcəmidən bədgüman olan ərinə danışsın, həm də desin: "Kişi, heç bilirsən hökmdar ailəsi Əbubəkr oğlu barədə nə yüksək fikirdədir..." Ancaq mələkə də, balaca xatun da işin mahiyyətindən xəbərdar deyildilər. Axı onlar hardan biləydilər ki, Nəsrin xatun Əbubəkr oğlundan yanıqlıdır... Və ondan da xəbərsiz idilər ki, neçə dəfə fürsət düşəndə rəisin arvadı Əcəmiyə yaxınlıq etmək istəmişdi, ancaq Əbubəkr oğlu ona gözünün ucuyla da baxmamışdı...

Nəsrin xatun danışmağa daha başqa söz tapmadı. Buna görə də əvvəlki sözlərini təkrar etdi:

— Maşallah! Mələkə, qızınız gözəl olduğu qədər ağıllıdır. — Ancaq bu dəfə Cəlaliyyəni qolları arasına alıb qucaqlamadı. — Gecəniz xeyrə qalsın. — deyib getmək istədiyini bildirdi. — Deyəsən çox başağrısı verdim... Bir də niyə axı ey! Adam nə qədər çox danışarsa, bir o qədər yüngülləşir... Ələlxüsus, biz zənən xeylaqları...

Rəisin arvadının yenə təzə-təzə həddi-büluğa çatan balaca xatunu da özlərinə qatıb "zənən xeylağı" adlandırması nə ananın, nə də qızın xoşuna gəldi...

Nəsrin xatun gedəndən sonra Cəlaliyyə anasına dedi:

— Ana... Mənim nə rəisin özündən xoşum gəlir, nə də arvadın-

dan... Xatunu bizə gələndə isə iştaham tamam qaçır... Bu dşfş isə birdəfəlik sidqim siyrildi bu sırtıq xatundan...

— Niyə, qızım?

— Ustad Əcəmi barədə bədgüman olması heç xoşuma gəlmədi. Bir bax ha! Gör, kim kimi bəyənmir... Bir də razılıq verme o bizə gəlsin...

— Qonağı qovmaq olmaz, qızım.

— Yaxşı, qovmaq olmaz. — Cəlaliyyə razılaşdı. — Bəs soruşmaq da olmaz ki, niyə gəlmisən? Bax, bu gün niyə gəlmişdi?

— Gəlmişdi ki, sən ona tövbə verəsən...

— Deyəsən verdim axı tövbəni. — Cəlaliyyə qəhqəhə çəkib güldü. Onun şaqraq gülüşü bərli-bəzəkli otağın gözəlliyini elə bil bir az da artırdı.

— Tə'nəli söz beləlәrinin ovqatını korlaya bilmir, bu, mənim də ürəyimdəndir... Çünki ağlım kəsəndən sırtıq qız-gəlini xoşlamamışam. Amma zənən xeylağıdı deyə heç birinin xətrinə də dəyməmişəm.

— Sənin kimi anası olan qızın nə vecinə...

Zahidə xatun qızının özünü ağıllı aparmasından, dərrakəli sözlərindən, onu mədh etməsindən az qala məst olmuşdu. Birdən özündə qəribə bir fərəh hiss etdi. Bu elə bir fərəh hissi idi ki, ancaq gözəl, ağıllı, dərrakəli, ləyaqətli qız böyüdən anaların ürəyində baş qaldıra bilərdi... Öz-özünə dedi: “Mənim qızım Bərdə hökmdarı Nüşabə kimi hakim olacaq. Ağlına, kəmalına hamı qibtə edəcək... Nizamidən sonra dünyaya gələn böyük bir şair də onun barəsində dastan bağlayacaq... Bunu mənə ürəyim deyir. Mən ürəyimə inanıram... O, məni heç vaxt aldatmayıb...”

Ana gələcək barədə belə xoş arzuların qanadında təzəcə uçmağa başlamışdı ki, xidmətçi qız içəri girib dedi:

— Hökmdar təşrif gətirir, mələkə...

## QAN PULU

Karmasin vuruşundakı qələbədən sonra Cahan Pəhləvan döyüşdə igidlik göstərdikləri üçün məlik Nurəddin Qaraya, Cəmaləddin Ayəbaya, Cəmaləddin Özəbaya özünün xas naxırından seçmə atlar bağışladı, onların xanədan qarşısındakı xidmətərini xüsusi fərmanla qeyd etdi və Sə'dəddin Əsədə tapşırdı ki, həmin fərmanın surətini mə”lumat üçün bütün məliklərə göndərsin.

— O ki qaldı, mənnən sənə-deyə vəzirə ürək-dirək verib könlünü aldı. — Biz Eldəgəzlər dövlətinə nə muzd, nə də ən"am almaq üçün xidmət etmirik... Daha dürüst desək, ikimizin də buna heç vaxt ehtiyacımız olmayıb vy olmayacaq da...

— Əlbəttə, Hökmdar. Bu nə sözdür? Mən mərhum atabəy-ə'zəmin zamanından and içib əhd eləmişəm ki, ömrümün sonuna kimi bu xanədana sadiq oldum və sədaqətlə xidmət göstərim. — Sə'dəddin Əsəd də öz növbəsində razılıq etdi və ürəyindən keçənləri saray sahibinə ehtiyatla bildirməyin məqamı çatdığını kəsdirdi:

— Vuruşlarda igidlik göstərən bir neçə nəfər süvarinin xidmətini də qiymətlədirsəniz pis olmaz... Allah eləməsin, bir də dava etməli olsanız...

Cahan Pəhləvan adəti üzrə sağ əlini yuxarı qaldırdı. Vəzir həkmdarın xasiyyətinə bələd olduğu üçün sözünün ardını demədi və saray sahibinin fikrini bildirməsini intizarla gözlədi.

— Məndən qabağa düşdün, vəzir... Mən Karmasin döyüşlərində seçilənlərdən bir neçəsinə iqta bağışlayacağam... O ki qaldı Əbubəkr oğlunun bağışladığı qılıncla vuruşan, həm də igidliklə ölən o növcavana...

Təbrizdən təzəcə qayıdan Əcəmi aşxanadan çıxanda Kəmaləddin Naxçıvani ilə rastlaşdı. Bura Dərgah kişinin bacısı oğlunun aşxanası idi. Əcəmi ürəyi istəyən ev xörəyini ancaq burada yeyə bilirdi. Aşxana sahibi isə ona xüsusi hörmət və ehtiram göstərirdi. Onu dayısı Dərgah kişiyə görə özünə, bir növ, simsar sayırdı...

Əcəmi bu dəfə xörəyini yarımçıq qoyub aşxanadan çıxmışdı.

— Me'mara şair salamı.

Əcəmi fikirli olduğu üçün keçib getmək istədi. Kəmaləddin Naxçıvani onun qolundan dartdı:

— Əbubəkr oğlu, niyə belə qaşqabaqlısan?

— Heç özüm də bilmirəm! — Könülsüz-könülsüz dönüb şairə baxdı.

— Kim də bilməsə gərək özün biləsən... Gərək onu da biləsən ki, bizim şəhərimizdə ülamanın da, şü'əranın da başbiləni sənsən... Biz hamımız səni özümüzə ustad bilirik. Baxma ki, səni camaat əsasən me'mar kimi tanıyır... Mən isə sənə me'mardan qabaq şair kimi baxıram... Birdən baş şeyx kimi deyərsən bə sərxoşam... Qoca Bağdad tülküsünə nə vaxt düz söz deyirəm, deyir keflisən... hə, yadıma bir şey düşdü. Neçə ildi ürəyimdə gəzdirdiyimi gərək indi deyəm... Qoca Bağdad tülküsü sənin ilk məhəbbətinə qəsd eləyən gündən sidqimi si-

yirib... Hərdənbir danışmağıma baxma... sonra ikiüzlülük etdiyim üçün özümü o ki var danlayıram. — Kəmaləddin Naxçıvani köks ötürdü. — Hə, Əbubəkr oğlu, ehtiyac adamı bə'zən namərd qapısına da aparır.

Əcəmi söhbəti dəyişmək üçün səndəl ağacını qurşağına taxa-taxa oyalandı:

— Heç bilirsən nə ediblər?

— Kim? — Kəmaləddin Naxçıvani də təəccüblə soruşdu.

— Şəhərin rəisi... İndicə mənə içəridə xəbər verdilər ki, dünən Cəmili çağırıb oğlunun Karmasin vuruşunda həlak olduğunu bildirib və üstəlik də deyib ki, hökmdarın tapşırığına görə sənə diyət[1] çatır, buyur al. Cəmil də başıalovlu çıxıb gedib. Gecə də evə gəlməyib... — Əcəmi öz-özünə oyalandı: — Ay namərdlər, Cəmil kimi kişiyə oğlunun ölümü üçün qan pulu təklif edərlər?.. Cəmil heç o diyəti götürəü?!. Cəliləddin kimi ləyaqətli bala üçün ata beş-on dinara göz dikər? Adam öz ciyərparəsinin ömrü üçün verilən pulu xərcləyə bilər? Bilmirəm bu adamların ürəyi get-gedə niyə daşa dönür, Kəmaləddin?.. — Bu dəfə ona adı ilə müraciət etdi Əcəmi.

— Adamların niyə?.. Daşa dönən hökmdarların ürəyidir...

— Görəsən hara getmiş olar bu bədbəxt!..

— Qəbiristanlığa.

— Bu nə sözdü? — Əcəmi həmsöhbətinə çox sərt baxdı.

— Bütün gecəni qəbiristanlıqda olub Cəmil... Bir qəbir qazıb. Oğlunun göndərilən qanlı paltarlarını orda basdırıb. Sənin bağışladığın qılıncı da qoyub onların üstünə. Qəbri səliqə-sahmana salandan sonra Zəhranı aparıb oraya. Deyib ki, Cəliləddinin qəbri budur. Onun cismi uzaqda olsa da, ruhu buradadır... Yanımızdadır...

— Sinəsinə oğul dağı çəkilənə gülməzlər... Özündən bu sözləri quraşdırmağın nə nəfi?..

Kəmaləddin Naxçıvani pərt oldu:

— Mənə ayıb olar ki, başqasının dərdinə gülüm, yaxud ələ salım.. Doğru sözümdür. İndicə gözlərimlə görmüşəm.. İkisi də qəbir üstündən gəlirdi.

Əcəmi həmsöhbətinə diqqətlə baxdı. Kəmaləddin Naxçıvaninin gözləri yaşarmışdı. Daha heç nə demədi. Əvvəlcə üzr istədi, sonra geriyə dönüb addımlarını yeyinlətdi.

Kəmaləddin Naxçıvani onun hara tələsdiyini dürüstləşdirən kimi ardınca yortdu. Bunu görən Əcəmi də ayaq saxlayıb onu gözlədi.

...Darvazadan içəri girəndə Əcəminin ayağına ilk duran Cəmil oldu.

1. Qan pulu.

— Bu nə iş idi başımıza gəldi, qardaş?..

Cəmil dostunu ilk dəfəydi ki, ağlayan görürdü.

— Əmisi... bağışla ki, Cəlaləddin... verdiyin qılıncı axıra kimi... əlində saxlaya bilməyib. — Bu sözləri başını aşağı salıb hönkürən Zəhra dedi.

Əcəmi sinəsinə çarpaz oğul dağı çəkilən anaya ürək-dirək vermək üçün heç bir söz tapmadı. Dərhal üzünü yana çevirdi.

Zəhranın iki-üç gündə tamam ağaran saçlarına baxa bilmədi.

## SARAY EHSANI

Atabəylər meydanında qələbəlik başlamışdı. Şəhər əhli və yaxın kəndlərin adamları dəstə-dəstə axışıb gəlmişdi. Qoşun dəstələrinin əsgərlərindən xüsüsi mühafizlər olmasaydı şəhristanın darvazalarında qarışqa kimi qaynaşan camaatın qarşısını saxlamaq olmazdı.

Xüsusi atlı qulamlar küçələrdə car çəkirdilər ki, asayişi pozmayın belə əziz gündə. Mö"minə xatun abidəsinin açılışı günündə, Eldəgəzlər xanədanının ünvanına xüsusi xütbələr oxunacaq gündə, sarayın verəcəyi ümumşəhər ehsanı günündə şuluqluq salmayın, məscidlərə gedib dua oxuyun, allaha ibadət edin, günorta namazından sonra ehsana təşrif gətirib təam alın... Onu da bilin ki, Mö'minə xatun abidəsinin açılışına başqa yerlərdən də qonaqlar də"vət olunublar: Qaraxitaydan Şirvandan, Xarəzmdən... gələnlər var. Atabəy Cahan Pəhləvanla səmimi dostluq edən Xarəzmşah Təkiş də gəlmişdir... Hətta xilafətin nümayəndəsi də bugünkü mərasimdə iştirak etmək üçün Bağdaddan Həmədana, Həmədandan da hökmdarla, Qızıl Arslanla-vəliəhdlərlə birlikdə Naxçıvana təşrif gətirmişdir...

Meydanın baş tərəfində ayrılmış xüsüsi yerləri dövlət xidmətçiləri — mahalların başçıları, məliklər, naiblər, kənd sahibkarları, darğalar, sərbazlar tutmuşdular. Başqa bir tərəfdə isə əhli-ürvan-alimlər, ədiblər əyləşmişdilər.

Carçılar boğazlarını yırtsalar da, hərə öz işində idi. Şəhər əhli gah bu məscidə girir, gah o karvansaraya soxulurdu. Ətraf kəndlərdən gələnlər, rəbatlardan özlərini ora-bura dürtənlər ya aşkar, ya gizli Atabəylər meydanına girməyə, adını eşidib üzünü görmədikləri yeni sərdabəyə baxmağa tələsirdilər. Meydanda Əcəmi külliyyəsinin[1] ilk binaları-dövlətxana, Came məscidi sərdabəni araya aldıqları üçün onu kənardan görmək olmurdu. Bir də hardan görə bilərdilər? Sarayın əm-

1. Kompleks.

ri ilə onun üzünə qara, yaşıl və qırmızı Təbriz ipəyindən şırım-şırım örtüklər çəkilmişdi... Qara-matəm rəmzi, qırmızı-Azərbaycanın qılınc nişanlı bayrağının rəmzi idi. Xəlifə ən-Nasirin nümayəndəsinin təşrif gətirəcəyini eşidəndən sonra isə əlavə olunan yaşıl rəng də İslamın rəmzi idi...

Came məscidinə şəhərin hörmətli sahibi-mənsur şəxsləri-alimləri, ədibləri başqa ziyalıları də"vət olunmuşdular. Şəhərin məhəllələrindəki məscid və mehrablardan fərqli olaraq mərhum Mö"minə xatunun adına oxunacaq rəhmət duasını baş şeyx Hatib ibn Mübarək öz üərinə götürmüşdü, salavat çevirməyi isə müridlərinə tapşırmışdı.

Bir azdan sonra minarələrin şərəfələrinə qalxan müəzzinlərin əzan səsləri ucaldı, dindarlar günorta namazını qılıb başa çatdırdılar. Camenin baş tağlarının yanlarında müridlər sıraya düzülüb Hatib ibn Mübarəkin məsciddən çıxmasını gözlədilər.

... Başdan-ayağa qara geyinmiş hökmdar ailəsi sarayın giriş qapısından çıxıb sakit addımlarla abidəyə tərəf gəlməyə başladı. Saraydan abidənin gündoğar tərəfində qurulan qara ipək qəməriyyələrə[1] qədər olan yola payəndazlar döşənmişdi. Müxtəlif rəngli payəndazların üstü ilə yavaş-yavaş fikirli-fikirli yeriyən Cahan Pəhləvanın rəngi xeyli avazamışdı, sifətində almacıqlar qabarıq görünürdü, üstəlik, əvvəlki sərtlik də yarıbayarı azalmışdı. Uca qaməti əyilmişdi. Söz-söbət gəzirdi ki, saray sahibi xəstədir... Cavankən sətəlcəm olub... O vaxtdan da üstündə qalan xəstəlik yaşa dolduqca şiddətlənirdi. Hələ onu da danışırdılar ki, hökmdar indi heç kimə inanmır, o cümlədən, öz təbibi-xünkarına da. buna görə də əcnəbi təbib cağırıblar, o da baxandan sonra deyib ki, bimari-rəncürdür[2]...

Hökmdarın ailə üzvləri öz yerlərini tutandan sonra belində qızıl kəmər, əlində xüsusi sinan gəzdirən bir neçə yaraqlı-yasaqlı mühafiz qulam çiyinlərində qızıl əmut tutanbir neçə əsgərlə birlikdə gəlib onların keşiyini çəkmək üçün əvvəlcədənmüəyyən edilmiş yerlərində farağat dayandılar. Hökmdar ailəsi rahatlanandan sonra divanxanadan qonaqları müşayiət edib gətirdilər. Təbriz hakimi Qızıl Arslanın başçılıq etdiyi qonaqlar gəlib xüsusi qəməriyyənin altına düzülən kürsülərdə əyləşdilər.

Hatib ibn Mübarək onların rahatlandığını görcək özü sərdabənin önündə düzəldilmiş minbərə oxşar kürsüyə çıxdı.

— Ey əşrəfi-ə'la, cahani-pənah!.. Ey əyani-əşrəf və əhli-ürfan!..

1. Üstü örtülü, yanları açıq çadır.

1. Sağalmayan xostəlik.

Ey pirlər və faili-muxtarlar və əhli nəqşi-cahan!— dedi, meydanın sağına, soluna, aşağısına, yuxarısına nəzər yetirəndən sonra ucadan ərəb dilində rəhmət oxudu. Onun dediklərini müridlərin xüsusi dəstəsi təkrar etdi. Baş şeyx öz sözlərini bu kəlamlarla bitirdi:

— İrz və namus ilahəsi, ləyaqət və şərafət mələkəsi, xeyirxahlıq və müdriklik anası, axirət dərgahın daim nurla dolsun, ruhun daim cənnətdə dolaşsın, süfrəni mələklər daim Zəmzəmin kənarında açsınlar. Ey mərhum hökmdarın mərhum məlikəsi, allah sənə yüz rəhmət, min rəhmət əta etsin! Rəhmət əta etsin! Rəhmət, yenə də rəhmət!

Meydandakılar təkrar etdilər:

— Rəhmət, rəhmət!

Toplaşanlardan yenə səs ucaldı:

— Yüz rəhmət, min rəhmət!..

Baş şeyxin səsinə səs verənlər, dediklərini təkrar edənlər meydanın günbatan tərəfinə döşənmiş xalçaların üstündə gah əyləşir, gah əllərini saqqalarına çəkib salavat çevirir, gah da ayağa durub şəhadət barmaqlarını qulaqlarına tıxayaraq sonsuz, dibi görünməyən mö'cüzəli göylərə baxır vş öz-özlərinə nəsə pıçıldayırdılar...

Rəhmət duası sona yetən kimi əllərində batgir içində yanan qızıl şamlar tutmuş came xidmətçilərindən bir necəsi Hatib ibn Mübarəkin işarəsi ilə pillələri enib abidənin aşağı hissəsinə düşdülər. Mö'minə xatun ana əbədi yuxuya gedəndən sonra burada uyuyurdu. Onun qara ipəyin içərisinə alınmış mərmər sənduqəsinin ətrafındakı şamları yandırdılar, yenə dua oxuyub təzədən qayıtdılar.

...Şəhər əhli, kənd camaatı bu müddətdə meydanın kənarlarında sıraya düzülüb əmniyyəti tə'min etmək üçün dayanan qoşun hissələrinin əsyərləri ilə çənə-boğazda idilər... Hər kəs qabağa soxulmağa tələsir, meydanın geniş sahəsinə toxunan müxtəlif rəngli, müxtəlif ölçülü kabrıdların, qamışdan toxunan payəndazların üstündə özünə yer tapmağa can atırdı. Oradan həm sərdabəni apaydın görmək olardı, həm də verilən saray ehsanını rahat almaq.

Əcəmi bir kənalda, əvvəlcədən onlar üçün ayrılmış xüsusi yerdə dayanmışdı, yanında da dostu Cəmil. Ğüəyinin dərinliyindən bir səs gəlirdi: "Kaş anam Badisəba da, Şəhdigül də sağ olub bu günü görəydilər..."

Cəmil isə fikirləşirdi ki, dostu yaratdığı bu sərdabə ilə adını tarixlərə həkk elədi, nəslini bütün Şərqə, İslam aləminə tanıtdı, doğma yurdunun, el-obasının şöhrətini artırdı... Naxçıvana əlavə bir naxış vur-

du, özü də elə ustalıqla, elə məharətlə vurdu ki, həmin naxışlarpın həm özü pozulmazdı, həm də ustadının adana pozulmazlıq gətirdi, naxçıvanı "nəqşi-cahana" döndərdi...

Atabəylər meydanının ətrafında dayanan şəhər əhlinin, kəndələrdən gələn adamların, dilənçilərin səs-küyü getdikcə çoxalırdı...

Əcəmi isə xəyala getmişdi. Ona agah idi ki, abidəyə baxmağa həvəs göstərənlər saray ehsanına tələsənlərdən azdır...

Baş ülya mələkə İnanc xatunun üz-gözünü turşudub öz-özünə donquldamasına baxmayaraq hökmdarın işarəsi ilə Mahmud və Əmir Əmiran kürsülərindən qalxıb abidəyə yaxınlaşdılar.

Bir az aralıda əyləşən Zahidə xatun əilib qızı Cəlaliyyənin qulağına nəsə pıçıldadı. Balaca xatun özünü güclə gülməkdəşn saxlaya bildi... Kütəybə xatun isə dərindən köks ötürdü və ürəyindən keçirdi ki, əri səhv eləyib, gərək İnanc xatunu gətirməyəydi... Nə olar baş mələkə olanda...

Hatib ibn Mübarək qalxıb ucadan fatə verdi və əzana keçən kimi Mahmudla Əmir Əmiran abidənin başına hərlənə-hərlənə müridlərin dedikləri yerdən ipək ipləri doğradılar sarayın xidmətçi qadınlarından bir neçəsi doğranan ipləri yığıb, abidənin üstündə boyaboy aşağı sallanan qara, yaşıl, qırmızı iplərin ətəyindən ehmal-ehmal dartdılar. İpək parçalar cinçin olub abidənin kitabələri ilə üzüaşağı yerə tərəf sürüşdü.

Hamı heyran-heyran tikiliyə baxırdı, çoxuna elə gəlirdi ki, uca bir qayadan qara, yaşıl, qırmızı şəlalə axır. Əcəmiyə isə elə gəlirdi ki, yaşıl çəmənlikdə ayaqları altında qırmızı-qaralı lalələr tökülmüş qəddqamətli, bərli-bəzəkli bir gəlin dayanıb. Ürəyi qürurla döyündü, sevincdən gözləri yaşarı.

Birdən anası Badisəbanın neçə-neçə il bundan əvvəl dediyi sözləri xatırladı. "Sən bir ana xatirəsini əbədiləşdirirsən oğul... Çalış əlindən yaxşı iş çıxsın. Mən sənə inanıram, Əcəmi..."

Abidəyə heyran-heyran bir də baxdı, gedib onu qucaqlamaaq, sifətini kitabələrə sürtmək istədi. Özündən asılı olmayaraq yanlara açılan əllərini Cəmilin boynuna doladı. Cəmil də on qucaqladı, üzündən öpdü. İki damla yaş yanaqlarına düşüb aşağı yuvarlandı. Qəhərlənə-qəhərlənə dedi:

— Badisəba ananın südü sənə halal olsun, Əcəmi!..

Abidəyə baxan qonaqların nəzəri isə hökmdara tərəf çevrildi. Bu baxışlarda abidənin bina olunmasına fərman verən Eldəgəzlər xanədanına, onun hakimnə dərin minnətdarlıq hissləri duyulurdu.

Qonaqların hərəkətlərinə, danışıqlarına diqqət yetirən Cəmil düşünürdü: "Eh, dünyanın da qəribə işləri var. Çox vaxt iş görən unudulur, iş gördürən yada düşür. O ki, qaldı sənə, dahisən, Əcəmi!.. Dahilərinsə qədr-qiyməti sağlığında az bilinir. Sən özünə öz əlinlə, öz iste'dadınla, öz gücünlə elə bir dahilik qazanmısan ki, buna hökmdarlar da həsəd aparacaqlar..."

Qara, yaşıl, qırmızı pərdələr abidənin kitabələrindən sürüşüb onun yanlarına töküləndən, bökmdarın oğlanları qayıdıb öz yerlərini tutandan sonra baş şeyx xəlifə ən-Nasirin, Şəmsəddin Eldəgəzin, Cahan Pəhləvanın adlarına dua oxudu. Dua bitən kimi hökmdarın ailə üzvləri də, qonaqlar da ayağa qalxdılar, salavat çevirdilər. Cahan Pşhləvanın də'vəti ilə onlar sarayın rəsmi qəbul sarayına getdilər...

...Atabəylər meydanında qələbəlik azalanda qoca kuzəçi ilə Məcusi özlərini Təbriz darvazasından şəhəristana necə salmışdılarsa Əcəmi özü də bilmədi. Dərgah kişi qanadlarını zorla yanlara gərən qollarını gendən gen açıb onun üstünə yeridi. Çatan kimi Əcəmini bağrına basdı.

— Qardaşoğlu, — qəhər qocanı boğdu, — inan ki... şadlığımdan bilmirəm nə eləyim... Sən çox böyük, xeyirxah bir iş görmüsən... Əllərin var olsun! Tikən, quran, yaradan qalacaq bu yer üzündə... — Qoca kuzəçi Əcəminin ən çox sevdiyi, hərdən bir zümzümş etdiyi bayatını özünə məxsus bir ləhcə ilə ucadan dedi: — "Əzizim, bizim qala, Tikdim ki, izim qala..." Sənin izin qaldı yer üzündə, qardaşoğlu!..

Məcusi isə Əcəminin əllərini yekə ovucları içərisinə alıb buraxmaq istəmirdi.

— Ulu yaradan isə sənin gözlərinə bol-bol qüvvət versin... Günəş üstünə bol-bol nur ələsin, qardaş! Sənin bu əməlin... — Yana çevrilib abidəyə bir də heyran-heyran baxdı. — vergidi!..

— Qardaşoğlu. — Qoca kuzəçi həyəcpnlandı: — Daha sənə qardaşoğlu deməyə dilim gəlmrir... əcəl aman versə, bundan sonra sənə ustad Əcəmi deyəcəyəm...

Gülüşdülər, yenə qucaqlaşdılar.

— Nş deyirsən — de, amma Dərgah kişi üçün elə qardaşoğluyam, vəssalam!

Qoca kuzəçi birdən doluxsundu, qəhərini boğa-boğa:

— Heyf! — dedi. — Heyf ki, sənin bu şad günündə Mustafa aramızda yoxdur. Sənin əməllərini eşidəndə rəhmətlik az qalırdı qanad-

lanıb uçsun. Sərrafi-süxən[1] idi... Nə etmək olar, görünür bu dünyada torpaq qızıldan vəfalıdı. Rəhmətlik qızılla oynaya-oynaya köçüb getdi, amma torpaqla eşələnən bu Dərgah kişinin nəfəsi hələ gedib gəlir...

Zərgər Mustafaya hər üçü rəhmət oxudu...

Bu vaxt ehsan qazanlarının ağzı açıldı. Atabələr meydanına buraxılan camaatın ilk dəstələri kabrıdların, payəndazların üstündə açılmış ədim[2] süfrələrin başında bardaş qurub oturdular, intizar dolu gözlərini xörəkpaylayan saray xidmətçilərinə dikdilər. Xüsusi xidmətçilər yanlarına Qur'an ayələri həkk olunmuş böyük sinilərə çəkilən ehsan xörəyini süfrələrə düzməyə başladılar.

Cəmil camaata baxa-baxa başını buladı, sonra qayğılı gözlərini bir də abidəninkitabələrində gəzdirdi.

— Hə, gedək ustad! — deyə Əcəminin qoluna girdi. — Səhər gələndə ağ erkəyi sənə qurban kəsmişəm. Zəhra ürəyin istəyn plov bişirib, sədr düyüsündən...

— Cəmil...

— Dünya xali deyil, — Əcəmi! — Cəmil onun hislərini duyub sözünü kəsdi. — Bu gün bizim ürəkdən gülən günümüzdü...

...Onlar Atabəylər meydanından çıxanda əmniyyət dəstəsinin döyüşçüləri camenin baş tağının yanındakı darvazasından camaatın şəhristana daxil olmaq isthəyən yeni dəstələrinə ehsan yeməyinə oturmağa razılıq verirdilər.

## GÖYDƏN YERƏ ENMİŞ SÜHEYL[3]

Şəhrdə hamı Atabəylər medanında bina olunan abidədən danışırdı. Rəsmi açılışdan sonra verilən fərmana əsasən onun ətrafında xüsusi mühafizlər gecə-gündüz növbə çəkirdilər. Abidəni qara rəngə boyanmış Təbriz ipəyi içərisində saxlayırdılar.

Ancaq çoxlarına elə gəlirdi ki, bu nəhəng qara örpəyin içərisində bəzəkli bir gəlin dayanıb, işıqlı bir dünya bərqərar olub, nadir bir iste'dad sahibinin böyük, yeninilməz ürəyi döyünür. Bu gün o, pünhan döyünsə də, sabah mütləq aşkar olacaq... Ayın hüsnünü həmişə bulud tutmaz, qızıl həmişə gizli qalmaz, su həmişə qaya altında yatıb qalmaz. Ay bir gün doğmalıdır, qızıl aşkar olub parlamalıdır, su bir gün üzə çıxıb çağlamalıdır...

Abidənin bundan sonra necə adlanacağını hələ heç kəs dəqiq kəs-

1. Sözü tez başa düşən.
2. Heyvan dərisindən hazırlanan böyük süfrə.
3. Cənubda görünən parlaq ulduz.

dirə bilmirdi. Mülahizələr haçalanmışdı, rə'lər tez-tez dəyişilirdi. Şəhər əhlinə bircə o mə'lum idi ki,abidə tikilən yerdə Mö'minə xatun ana dəfn olunub. Həmin yer hökmdar arvadının, hökmdar anasının əbədiyyət evidir...

Biri deyirdi: " Bəlkə hökmdar Həmədana basdırılan atası atabəyə'zəmin sümüklərini təzədən gətirib burada dəfn etmək qəsdindədir?.." Digəri deyirdi: "Sarayın belə məramı olsaydı Şəmsəddin Eldəgəzi elə rəhmətə gedən gün buradaca torpağa tapşırardılar..."

Söbətlər yumaq kimi çözələnir, uzanır, uzanırdı... Axırda gəlib çıxırdı yenə me'marın üstünə. Hərənin ağzından peşəsinə uyğun bir avaz gəlirdi:

Bənna deyirdi: "Beytülmalın ağzını yəqin hökmdar açar Əcəmi üçün. Qaya çapmaq bundan asan olardı, inan vallah!.."

Baqqal deyirdi: "Kisə-kisə qızıl bağışlasalar əbubəkr oğluna, yenə azdı, billah!.."

Zərgər deyirdi: "Əcəmi gözü-könlü tox adamdı... öz qazanclarını yeyiblər daim ata-babadan bu bənna Əcəmilər tayfası..."

Sarban da öz qanacağını göstərib deyirdi: "Şeyx Yusif hara, bu hara!.. At-eşşək təfavütü var bunların arasındı..."

Əkinçi deyirdi: "Ey allah sən özün Əbubəkr oğluna kömək ol, qoy onun əlinin bərəkətindən bizimdə çöllərimiə, meşələrimizə, dağlarımıza bir pay düşsün..."

Ədib deyirdi: "Bizim səneətkar bəradərlərimizin yaratdığı bu tikili sərdabə deyil, abidədir, qəsrdir, möhtəşəm bir sənət əsəridir. Bir az da əş'ari desək, suhuyldir, nəqşi-cahandır..."

Saraydakı intriqalar, çəkişmələr, dedi-qodular sadə adamlara çatan kimi, rəiyyət arasında gedən söbətlər də, giley-güzarlar da saraya vaxtında çatırdı. Şeytan ölməyib ki, o həmişə adamların arasındadı, onlarla bir oturub bir durur, onlarla bir yatıb bir oyanır, onlarla bir yeyib bir içir, onlarla bir deyib-gülür... Münasibətdən asılı olaraq gah qabağa qaçır, gah dala qalır, gah da birlikdə addımlayır. Saray xidmətçilərinin, güdükçülərinin, qulaqçılarının başçısı heyvərə Həsənin adamlarının bu deyilənlərin, çöl qarpızı kimi, hərəsini bir dərədən toplayır, vaxtında hökmdarın xəlvətiyyəsindən lazım olan adamların ovcuna qoyur, qulaqlarına pçıldayırlar...

Qoy kim nə danışır-danışsın, Cahan Pəhləvan isə öz dərdi ilə əlləşirdi. Onun içində olan bir ağrı hərdən əhədini kəsirdi.Ağrılarını unutmaq üçün gündə bir "sifariş" verirdi. Şəxsi müğənnisinin udda çal-

dığı muğamlara qulaq asanda, onun məlahətli səslə oxuduğu mahnıları dinləyəndə isə elə bil dünyanın bütün ağrlığı çiyinlərinə düşürdü: "Alçaqların ayağna atdı dünya, Əzabıma, zillətimə şaddı dünya. Tək səninlə şərbət oldu zəhər mənə, Sən olmasan, deyərdim ki, batdı dünya..."

Müğənni verilən tapşırıqlara əməl edərək Cahan Pəhləvanın dərdini dağıtmaq üçün gah udun naləsindən, gah məhəbbət eşq mahnılarının "sümüyə işləyən gücündən" istifadə edir, gah piyaləyə şərab süzərək hökmdara içidrir, gah da çələbiyyəsinin ətəklərini yığışdırıb hökmdarla yanaşı oturur, ona müxtəlif mehribanlıq göstərirdi...

Ancaq heç kim bilmirdi ki, hökmdar belə vaxtlarda cz növbəti fərmanını da ara-sıra ürəyində diqqət edir və saray adından yazdırmaq üçün hazırlıq görürdü...

...Səhərisi bütün saray əhli divanxananın "şadyanalıq salonu"na toplaşmışdı. Buraya adlı-sanlı məliklər, əhli-ürfan, saraya yaxın olan bə'zi baqqallar, bəzzazlar, zərgərlər və qoşun nümayəndələri də'vət olunmuşdular. Salonun mərmər sütunlarından birinin yanına düzülmüş kürsülərdə mələkə Zahidə xatun, yanında yeganə qızı Cəlaliyyə, şəhər rəisinin qısır arvadı Nəsirə xatun və başqa ali rütbəli saray mə'murlarının xanımları əyləşmişdilər. Üzlərinə Təbriz, Şəki ipəyindən niqab salan bu zənən xeyləqları evlərində gümanları gələn nə'bər-bəzəkləri vardısa hamısını vurmuşdular.

Hamı öz işində idi: deyən kim, gülən kim, pıçıldaşan kim.

Təkcə Əcəmi pəncərənin önündə dayanıb gözlərini uzaqlara zilləmişdi; fikirli, dalğın, pəjmürdə idi. Bəlkə də onu belə gördükləri üçün heç kim kefini soruşmur, abidənin tikintisi barədə sorğu- sual etmirdi. Nədənsə o özünü bu adamlardan təcrid olunmuş sayırdı, tənha hiss edirdi.

Birdən salonun qapısı açıldı, iki nəfər fərraş içəri girib, sağda farağat dayandılar. Salonda danışıqlar kəsildi. Hamının üzü qapıya tərəf çevrildi.

Cahan Pələvan içəri girəndə bütün saray ərkanı həmişəki kimi ayağa qalxdı. "Şadyanalıq salonu"nda qəribə bir sakitlik yarandı. Hökmdarın işarəsi ilə hamı öz yerində əyləşdi. Saray sahibi vəzirin qulağına nə isə pıçıldadı. Sə'dəddin Əsəd işarə edib pəncərə önündə dayanan Əcəmini hökmdarın hüzuruna də'vət etdi və boş sədr kürsüsündə əyləşməsini buyurdu.

Hökmdar ağır-ağır qalxdı, salona göz gəzdirib dedi:

— Mən bir qədər, — istədi "xəstəyəm" desin, özünə sığışdırmadı — Həyəcanlıyam... Söhbətə başlamağa çətinlik çəkirəm... Əvvəlcə ərz etmək istəyirəm ki, əhsən olsun bizim bu qədim torpağımıza, ulu yurdumuzak.. Eldəgəzlər xanədanının bəxti onda gətirmişdi ki, rziyyətinin ata-babaları ağıllı kişilər olublar... Və elə gözşl ,yerlərdə məskən salıblar ki, övladları yüz il, min il keçsə də, onların müqəddəs ruhuna dua oxuyacaqlar... Əsası atabəy-ə'zəm tərəfmndən bina olunan Eldəgəzlər dövləti gzünün üləmaları ilə, ədibləri ilə də müdam fəxr etmiş, iftixar tapmışdır. Onlardan biri bizim görkəmli me'marımız Əbubəkr oğlu əcəmidir... Bu gün saray əhlini, əhli-ürfanı, şəhərimizin başqa adlı-sanlı şəxslərini bura də'vət eiməkdə məramımızı onlara bildirmək niyyətindəyik... Bilirsiz ki, Əcəmi Eldəgəzlər xanədanı üçün xeyli xidmətlər göstərmişdir. Bu günlərdə isə Atabəylər meydanında Möminə xatun ananın məzarı üstündə gözəl bir abidə ucaltmışdı. Bu, ədiblər demişkən, adi abidə deyil, qəsrdir, daha dürüst desək, böyük sənət əsəridir. Bizim xanədanın baş şəhərini zinətləndirən parlaq bir incidir...Bu abidənin yaradığısı böyük hörmətə, böyük mükafata, böyük təltifə layiq bir zatdı, əvəssiz bir şəxsiyyətdir...

Hökmdar dayandı, dönüb vəzirə baxdı. Salona toplaşanların marağı artdı, pıçıltılar eşidildi. Sə'dəddin Əsəd mərmər sütunlardan birinin yanındakı mizin üzərindən qırmızı atlas çəkilənqızıl sinini əlləri üstündə gətirib farağat dayandı.

Salonda yenə pıçıltılar çoxaldı. Saray adamları da, əhli-ürfana da, qonaqlara da elə gəldi ki, hökmdar qırmızı atlası indicə qaldıracaq, sininin içərisindəki çoxlu qaş-daşı indicə Əcəmiyə bəxş edəcəkdir...

Cahan Pəhləvan həqiqətən atlası qaldırdı, sininin içərisindən daşqaş əvəzinə üzərinə nazik qırmızı dəri çəkilmiş fərmanı götürdü və vəzirə verib dedi:

— Mənim fərmanımı e'lan et, vəzir!

Salondakıların marağı azaldı, köks ötürüb rahat nəfəs aldılar.

Sə'dəddin Əsəd sinini qaytarıb yerinə qoyandan sonra Xorasan kağızına yazılan fərmanı asta-asta oxumağa başladı: "Eldəgəzlər xanədanı qarşısındakı xüsusi xidmətlərinə görə..."

Cahan Pələvan öz fərmanı ilə Əcəmi ibn Əbubəkr Naxçıvaniyə şeyxül-mühəndisi adını verir, ona bir kənd bağışlayır,çiyninə atabəylərə məxsus xüsusi Təbriz atlasından tikilmiş əba saldırırdı...

Vəzir fərmanı oxuyub qurtarandan sonra yenə rəsmiyyət xatirinə əlavə edib dedi:

— Fərmanı adil və mənsur hökmdarımız nüsrətdin Atabəy Məhəmməd Cahan Pəhləvan ibn Şəmsəddin Eldəgəz cənabları imzalayıb. Fərman Atabəylər dövlətinin möhürü ilə möhürlənib... Fərman dövlət sənədi kimi sarayın xüsusi çüngündə saxlanılacaq...

Baş şeyx gizli-gizli şəhərin rəisnə baxıb şəvə kimi qara səddanəsini hirslə çevirdi və ürəyində dedi: "Bu Fərmanın, qureyşi aqilləri demişkən, zararuhu əksəru min nəf'ihi[1]..."

...Danışıqlardan, təbriklərdən, razılıqlardan sonra hamı salonu tərk edəndə içəridə hökmdarla Sə'dəddin Əsəd qaldı. Vəzir Cahan Pəhləvanı fikirli və narahat görüb xəbər aldı:

— Hökmdar, gözlərim aldatmırsa, sizi pərişan görürəm... Yoxsa əhvalınız yenə...

Cahan Pəhləvan sol əli ilə yavaş-yavaş topa saqqalını qaşıdı, sonra geniş alnını ovuşdurdu. Əvvəlcə qızıl payəli kürsüdə qıvrılıb açıldı, sonra elə bil bütün gücünü toplayıb qəddini düzəltdi:

— Baş şeyx sənə bir söz deməyib?

— Xeyr.

— Mənə deyib...

— Nə deyib?!

— Deyib ki, Əbubəkr oğlunun səmimiyyətinə inanmayın...

— Niyə?!

— Əbubəkr oğlu sabah saraya xəyanət edə bilər...

— Əbubəkr oğlundan xəyanət gözləməyin hökmdar!

— Bəs gözləsəm necə? — Cahan Pəhləvan səsini ucaldıb diqqətlə vəzirin üzünə baxdı.

Elə bu vaxt zənci qulam, əlində su piyaləsi və həblər qapını açıb içəri boylandı. Vəzir tez işarə edib onu pişgaha çağırdı və sualını bilə-bilə təkrar etdi. Cahan Pəhləvan cavabı təkrar edəndə qulamı gördü və ona çox əsəbi bir hərəkətlə ona rədd olub getməyi əmr elədi.

Qulam əlindəki su piyaləsini və həbləri vəzirə göstərdi. Vəzirsə "Rədd ol!" deyib onun üstünə çımxırdı. Zənci balası devikə-devikə salondan cəld özünü bayıra atdı.

Sə'dəddin Əsəd bundan istifadə edərək:

— Bilmirəm bu şübhələr bökmdarın qəlbinə haradan dolub?.. — dedi. — Yoxsa ba şeyx...

Cahan Pəhləvan vəzirz axıra kimi qulaq asmadı:

— Ürəyimə damıb ki, Əbubəkr oğlu Mö'minə xatun ananın abi-

1. Xeyrindən çox ziyanı olacaq. (*Ərəb.*)

dəsini tikəndə bacardığının hamısını sərf etməyib.

— İnanmıram. — Sə'dəddin Əsəd fərqinə varmadan qəti e'tirazını bildirdi. — Sidq-ürəklə işləyib Əbubəkr oğlu... Bunu özünüz ki e'tiraf etdiniz...

— Bəs siyasət? — Qəfil sualı hökmdar verdi.

— Heç nə başa düşmürəm... Bir tərəfdən böyük ə'nam, mükafat o biri tərəfdən də e'tibarsızlıq, bədgümanlıq...

— Vəzir, gərək ki, yadınız da ola... Xəlifə Harun-ər-Rəşid öz sevimli vəziri Cəfərə dörd yüz min dinar qızılı hədiyyə verəndən üç gün sonra başını cəllada vurdurdu. Və onun meyidini yandırmaq üçün bir dinarlıq odun işlətməyi əmr etdi...

Vəzir Cahan Pəhləvanın ikibaşlı danışığındakı eyhamı başa düşsə də, özünü avamlığa qoyub fikrini yayındırmaq istədi:

— O ayrı, bu ayrı... Ortada namus məsələsi var idi...

— Yalandı! O da xilafət siyasətinin bir uydurması idi...

Sə'dəddin Əsəd gah əlvan rəngli xalçalar döşənmiş, qızıl avizlərlə bəzənmiş "şadyanalıq salonu"na, yaşıl zümrüdlə işlənmiş pəncərələrə, gah da qəddini əyib yavaş-yavş gəzişən hökmdara baxdı. — Hökmdar... Əbubəkr oğlu Eldəgəzlər xanədanına lazım olan adamdı...

— Əbubəkr oğlu Eldəgəzlər xanədanı üçün lazım olan işi görüb qurtardı... Bir də ya qismət!..

— Sə'dəddin Əsəd hökmdarın eyhamını yaxşı başa düşmədi. Onunla danışmaq əvəzinə düşüncələrə daldı: "Şəmsəddin oğlu bu gün niyə görəsən niyə ikibaşlı sözlər deyir?.. Niyyəti nədi saray sahibinin?.."

Cahan Pələvan salonu bu başdan o başına bir neçə dəfə ölçdç, sonra vəzirə yaxınlaşıb onunla üz-üzə dayanda. Sə'dəddin Əsəd diqqətlə ona baxdı. Bir az bundan əvvəlki sərtlik hökmdarın sifətindən silinib getmişdi. Onun gözləri cavnlıqda olduğu kimi qayğılı və mehriban idi.

— Bilirsən nə var, Sə'dəddin? — Cahan Pəhləvan onun köməyinə, məsləhətinə ehtiyac hiss etdiyi vaxtlarda olan kimi mehribanlıq göstərib adı ilə müraciət etdi: — Sən mənim mərhum atam atabəy-ə'zəmin ən ağıllı və tədbirli vəziri olmusan... Gərək biləsən ki, siyasətsiz saray saray deyil, karvansaradı. Güclə siyasət əkizləşəndə məğlub edilməz olur... Təntənə, mərasim, təltif ona görə gərək idi ki, şəhər əhli bədgüman olmasın.... Fikirləşməsinlər ki, yaradana, tikib-qurana qiymət vermirlər. Görsünlər ki, hökmdarın ədaləti də var... Elmi, əş-

’arı qiymətləndirməyə də qadirdir... O ki, qaldı Əbubəkr oğluna, mən əzəli gündən bu qərara gəlmişəm ki, o ağıllı olduğu qədər də sakitdir, mülayimdir, səbrlidir. Belələrinə gərək çox da inanmayasan... Mən isə görürsən ki... günlərimin çoxunu nasaz yola salıram. Sən elə fikirləşmə ki, Şəmsəddin oğlu Nüsrətəddinin dərdi yoxdu... Hökmdarların dərdi-səri də adları kimi böyük olur... Qardâşım Müzəfərəddin isə əbtərdir[1], övladı yoxdur. Məndən, ondan sora inanmıram ki, bu sülaləni hifz eləyib saxlaya bilsinlər! Cahan Pəhləvan başını əlləri arasına alıb fikrə getdi: — Ürəyimə damıb ki, Əcəmi məndən sonra başqa hakimlərin payitəxtində Mö’minə xatun ananın abidəsindən daha böyük, daha əzəmətli, daha gözəl abidə, qəsr tikə bilər. Bizim xanədan qalar kölgədə... Mən istəyirəm ki, Bütün Şərqdə ən məşhur abidələrin adı çəkiləndə birinci Mö’minə xatun ananın abidəsi dilə gəlsin...

— Siz inana bilərsiniz ki, elə belə də olacaq, hökmdar!

— Yox, inana bilmirəm, vəzir! — Cahan Pəhləvan birdən vəzirə gözlənilməz bir sual verdi: — Sən ...Xəvərnəq qəsrini tikdirən Ne’man padşahla me’mar Simnar Sam oğlunun əhvalatını eşitmisən?

— Xeyr.

— Necə xeyr?

— Hökmdar... səhvimdir...

— Səhv yox, vəzir üçün böyük bir qəbaphətdtr. — Hökmdar sözünə davam etdi: — Simnar Sam oğlu bənna da olsa, min nəqqaşın böyük ustadı idi... Ne’man padşahın ölkəsində onun kimi qiyaslı sənətkar yox idi. Ondan söbət düşəndə deyərlərmişlər ki, rumlu Bəlinasdan geri qalan deyil. Bunu nəzərə alan Ne’man padşah Xəvərnəq qəsrinin tikilişini ona həvalə edir. Qızıl barmaqlı me’mar beş il gecəni gündüzə qatıb gözəl, yaraşıqlı, möhtəşəm bir qəsr tikir. Ne’man padşah da müqabilində me’mara qiymətli xələt, müşk, mirvari bağışlayır, çəkilən xərcin yarısı qədər də qızıl verir. Və soruşur: “Ey Sam oğlu Simnar, çox pul versəm bundan yaxşısını tikərsən?..” Me’mar da deyir: “Bəli tikərəm... Buna üç rəng vurmuşam, ona yüz rəng vuraram, bunun bir günbəzi var, onun yeddi qübbəsi olar...” Ne’man padşah bir az fikrə gedəndən sonra deyir: “Me’marı buraxsam gedib özgəsinə daha gözəl qəsr tikər”. Əmr edir ki, Sam oğlu Simnarı qəsrin başından yerə tullasınlar”. Camaat isə padşaha bu tədbirinə, uzaqgörənliyinə, ağlına görə “Xəvərnəqin allahı” adını verir...

— Şübhə çox pis mərəzdi, hökmdar...

1. Sonsuz.

Cahan Pəhləvan vəzirin sözlərinə yenə də əhəmiyyət vermədi:

— Mən bu abidəni təkcə öz anam üçün bina etməmişəm, onu bütün Eldəgəzlər sülaləsi üçün tikdirmişəm. — Səsinin ahəngi dəyişilidi, təzədən keçib kürsüdə əyləşdi: — Vəsiyyət edəcəyəm ki, özümü də orada dəfn etsinlər...

— Sən... Nüsrətəddin... Nə danışırsız, hökmdar?!

— Mən ürəyimi sənə açdım, Sə'dəddin. — Cahan Pəhləvan yenidən sərtləşdi: — O quldur başçısı Əli Şimşəyin Şərur məliki Oğuzun tərəfinə saxlamaq istədiyi vaxtdan bu Əbubəkr oğlundan sidqim sivrilib... Hələ onda bənna idi, nə bilim dulusçu idi... İndi olub ustad, şəhərin baş me'marı. Hamı onu sənətkar kimi tanıyır. — Hökmdarın səsi yenə sərtləşdi: — Deyirlər atabəy-ə'zəm rəbatın tikilişində ölən naxçıvanlılar üçün çox tez-tez heyfsilənir. Mö'minə xatun ananın abidəsinin tikilişi gedən illərdə ölənlərin adlarını da tez-tez sadalayır. Mənə çatan səhih xəbərə görə gəncəli şair Nizamiyə yazıb ki, sən poeziyada "Xəmsə" yarat, mən də me'marlıqda... Demək, niyyəti budur ki, yenə ya qəsr tiksin. ya da abidə... Bəs harda tikəcək?.. Bax, əsas məsələ də budur... Vəzir cənablarına əlavə bir mə'lumat da verim ki, xəlifə bizim şeyxül mühəndisi sarayına də'vət edir... Amma onun bundan xəbəri yoxdur... Bilmirəm bir köhnə qələmdanı, bir cırıq heybəsi olan, müxtəlif cızıqlar çəkilən beş-on köhnə Xorasan kağızını qoltuğunda gəzdirən bu Əbubəkr oğlu ən-Nasirin nəyinə lazımdı? İndiyə kimi on beş xəlifəni əlində oyuncaq olan bizim yurddan nə istəyir əmirəlmö'min?.. Özü də bir başa nədənsə mənə yox, Qızıl Arsalana yazır ki, Mö'minə xatun abidəsinin sədası bizə də gəlib çatıb. Səyyahlar məni inandırıblar ki, bu adi məqbərə deyil, əlqlüba[1] sənət əsəridir... Arran məmləkinə bəzəkdir, növraqdır, heyf ki, işimin çoxluğu müzayiqə eləmir ki, özüm gəlib şəxsən baxam. — Cahan Pəhləvan səsinin ahəngini dəyişərək sözünə davam etdi: — Vəzir, unutma ki, böyük sənətkarlara öz el-obasından, öz yurdundan kənarlarda daha çox qiymət verilib tarix boyu... Bax, buna görə də gərək iki fərmana qol qoyasan: biriynən iş gördürəsən, biriynən də...

İstədi deyə ki, belə olub əzəli gündən. Şahlar ya açıq-aşkar e'dam elətdiriblər düşmən hesab etdiklərini, ya da gizlicə zəhər veriblər rəqib bildiklərinə. Bunu gecə yuxumda Mö'minə xatun ana da mənə irad tutub... Deyib: "Niyə böyük oğlum şahzadə Arslan şahı abidənin açılışına gətirməmişdin?.. Yoxsa başında bir iş var?.. Sən kin-küdurətlisən ha, birdən əlindən xəta çıxar, onda səni yanıma qəbul et-

1. Valehedici.

mərəm... Bir də qoyma Əbubəkr oğlu bizim əbədiyyət evindən yaxşısını tiksin başqalarına... Qoy biz ana-balanın əbədiyyət evindən yaxşısı olmasın heç yanda".

Cahan Pəhləvan sakit-sakit addımlayıb salonun qapısını açdı, astanada ayaq saxlayıb dedi:

— Şair Nizaminin me'mar Əcəmiyə yazdığı məktubu ələ keçiriblər, deyərəm gətirsinlər oxu... — Və elə bil qeyb oldu.

— Ey ulu tanrı, özün kömək ol!.. Hökmdarın ürəyinə dolan şübhələri özün kənar et... Saraylarda şübhə çox vaxt oğlu atanın, atanı oğlun qəsdinə durmağa vadar edib... Qardaş-qardaşın üstünə qoşun yeridib, qılınc qaldırıb. — Sə'dəddin Əsədin elə bil beli büküldü, qəddi daha da əyildi, əvvəlcə zarıdı, sonra ağladı: — Axı sən belə deyildin, Şəmsəddin oğlu!.. Deyəsən əcəlin yaxınlaşdıqca amansız olursan!..

Birdən qəddini düzəltdi və nəsə tapmış, nəsə kəşf etmiş kimi siəfətində bir qırıq işıq ucu peyda oldu. Ürəyində dedi: "Bağışla, zənci balası, bağışla məni... Əbubəkr oğluna görə sən..."

## NAMƏ'LUM SÜVARİLƏR

Vəzir çox narahat idi. Yerində otura bilmirdi. Gah eşiyə çıxıb içəri qayıdır, gah pəncərələri məğribə açılan iş otağını ölçür, Ədilağa gölünə, Araza baxır, gah da kürsüdə əyləşib "Afərinnamə"ni əsəbi-əsəbi sağa-sola vərəqləyirdi. Vərəqlədikcə də öz-özünə deyirdi: "Elə siz baş sındırın, riyazi qanunlar kəşf edin, göylərin sirlərilə əlləşin, həyatda düzlüyün, doğruluğun labüdlüyündən yazın... Bəs dediyiniz ölçü, ədalət, vicdan hanı"? Birdən səsini ucaldıb:

— Yoxdur, yalandır! — dedi ixtiyar vəzir. — İnsan çox mürəkkəb məxluqdur. Onun əməlində, felindən baş açmaq olmur. Əlalxüsus...

Birdən əlindəki "Afərinnamə" yerə düşdü, elə bil sarayda olduğunu indicə xatırladı, kitabı götürüb yerinə qoydu, sonra o biri pəncərə önünə gəldi. Buralan "Mö'minə xatun" apaydın görünürdü. Günəş onun bəzəklərinin üsütnə düşüb ətrafda mö'cüzəli bir aləm yaradmışdı. Günün bu vaxtında abidə lap bəzəkli gəlinə oxşayırdı.

Tikən elə tikmədi, bina edən elə bina etmişdi...

Fikirləşdi: "Ədiblər bu naxışların dünyəviliyini nəzərə alıb nəqşi-cahan desələr də, hökmdar abidənin sifarişçisi kimi o naxışları öz adıynan bağlayıb onları nəqşi-cahan adlandırsa da, o naxışlar Əcəmi

naxışlarıdı, nəqşi-Əcəmidi... Bəs belə olduğu təqdirdə sən nə haqla, hansı ədalət naminə me'mara şübhə ilə baxmağa başlamısan, Nüsrətəddin ibn Şəmsəddin?.. Ürəyinə dolan bu şübhələr səni amansız bir hökm verməyə aparıb çıxara bilər.. Sən Nizami kimi bir şairin sənət dostuna yazdığı məktubdan da şübhələnməyə başlamısan... Yox, bu nankorluqdur... Nankorluq deyil, cinayətdir!.. Ey ulu tanrı, sən hökmdarın ürəyinə yol tapan çirkin şübhəni qov!.. Qov çıxart onun son illərdə amansız olan qəlbindən!.. Mənə kömək ol, yol göstər... Əbubəkr oğluna bir zaval toxunmasın..."

***

...Sə'dədddin Əsəd dəbirin işlədiyi otağa gələndə gözünə çox pəjmürdə göründü. Qoca vəziri qapıda görən kimi dəbir ayağa qalxıbsoruşdu:

— Cənab Sə'dəddin, nə xəbər?

Dəbirin təəccüblənməyə, vəzirə əyləşmək üçün yer göstərmədən belə sual verməyə haqqı var idi. Çünki həm Həmədanda, həm də Naxçıvanda bir yerdə işlədiyi, bir-birinə hörmət qoyub, etiram göstərdikləri illər ərzində həmişə dəbir onun otağına gedərdi. Bu, həm onun sarayda atabəy-ə'zəmin vaxtında icra etdiyi vəzifə çininin dərəcəsindən irəli gəlirdi, Həm də Sə'dəddin Əsədə olan ehtiramının nəticəsi idi, həm də dəbirin mərhum anası onunla bir şəhərli idi — ərdəbilliydilər...

— Halım fənadı, dəbir...

Dəbir tez əl-ayağa düşdü, kürsü çəkib vəzirə əyləşmək üçün kömək etmək istədi:

— Nasazlamısız yoxsa?..

— Kaş elə... nasazlılaydım! — vəzir əyləşdi, işarə etdi ki, o da otursun.

— Bəs axı.. nə olub, cənab Sə'dəddin?

— Saray sahibi Əbubəkr oğlundan şübhələnməyə başlayıb... Sən bilirsən sarayda şübhə nə deməkdir?..

— Mənim də ürəyimə dammışdı ki, hökmdar...

— İki gündür, gecələr yata da bilmirəm, yaxınlıqda quyu da yoxdur ki, İskəndərin dəlləyi kimi gedəm... bu qulaqlarım eşidənləri ora deyəm... Ürəyim sakitləşə...

— Quyu mən... Deyin, ürəyiniz sakitləşsin, cənab Sə'dəddin...

Sə'dəddin Əsəd otaqda var-gəl etdi, birdən onu öskürək tutdu. Az

qala boğulacaqdı...

— Deyəsən hökmdarın qəsdi başqadır, axı?..

— Hə, başqadır... Əcəmiyə daha inanmır. — Qəhərləndi vəzir.

— Hökmdarlar söhbətinizi başqa birisi eşidibmi?

— Başqa birisi?!

— Hə... üçüncü şəxs.

Sə'dəddin Əsəd fikrə getdi:

— Üçüncü şəxs... üçüncü... hə, hə... Biz söhbət edəndə o həbəş qulam içəri girdi... Nüsrətəddin ibn Şəmsəddin üçün həb gətirdi.

— Deməк söhbəti də eşitdi?

— Yəqinimdir ki, eşitdi. Səni başa düşürəm, dəbir... Əvvəl mən də belə bir fikrə düşdüm... Amma sonra fikrimdən çəkindiim, yazığım gəldi günahsız zənci balasına...

Xeyli fikrə getdi dəbir, durub otaqda gəzişdi... Sonra vəzirə yaxın gəlib dedi:

— Bu işi mənə həvalə edin...

— Sənə ha?!

— Bəli, mənə...

Vəzirin az qala ağzı açıla qaldı...

***

...Gecədən xeyli keçmişdi. Göydəki ulduzlar bir-bir sönürdü. Elalnı dağı tərəfindən yazın ilk sazağı əsirdi. Şəhərin küçələri bomboş idi. Sarayın darvazası yanındakı dirəklərdə yanan şamdanlar söndürülmüş, küçələrdəki piy-çıraqların piltələri qaralmışdı...

Darvazanı döydülər.

Əcəminin bütün fikirlşri alt-üst oldu, qalxıb oturdu, qulaq asdı.

Bir də döydülər... O adət etdiyi kimi, alt paltarında otaqdan çıxdı, darvazaya yaxınlaşıb divarın o tərəfindəkinin kim olduğunu xəbər almağa macal tapmamış, əlləri arxasında bir-birinə sarıldı. Kimsə əlini atıb onun köynəyini əynindən çıxartdı. Başına toba keçirdilər, ağzını, gözlərini bağladılar... İki nəfər onu bir göz qırpımında qaldırıb yəüərin üstünə qoydu. Çatı ilə ata sarıdılar. Atlılar bir an içərisində küçələrdən çapa-çapa keçib şəhərdən uzaqlaşdılar...

Bütün bu işlər elə cəldliklə icra olundu ki, Əcəmi nə müqavimət göstərdiyi adamları görə bildi, nə onu ata mindirənləri tanıya bildi. Atlar gah yorğa getdi, gah dördnala çapdı, gab yoxuşa dırmandı, gah eni-

şə endi, gah daşlığa düşdü, gah çaydan keçdi. Ancaq Ziyaülmülk cisrini keçəndə Əcəmi başa düşdü ki, onu Arazın o tayına keçirirlər: "Bu xəyanət yenə Əbutahirin işi olmaya?.."

Əcəmi bunları fikirləşəndə alnına bahar günəşinin ılıq nəfəsi dəydi. Deməк, səhər açılırdı. Təkcə səhər açılmırdı, uca hasarlı həyətin darvazası da açıldı, süvarilər kiminləsə pıçıltı ilə salamlaşdılar da...

— Sabahın xeyir, ustad...

Səs Əcəmiyə tanış gəlsə də, cavab vermədi, daxilən əsəbi olduğu üçün ələ salındığını, yaxud ona həqiqətən "xoş gəldin" edildiyini də ayırd edə bilmədi:

— Bu bənbələn oyunu nədi? — dedi. — Adamı qəfil bayıra çacırıb əl-qolunu bağlamaq nakişilikdi!..

Gecəki qüvvətli qollar Şcşmini yenə bir göz qırpımında yəhərdən götürüb yerə qoydu, əllərini açdı, başına keçirilən torbanı çıxartdı.

Əcəmi qarşısında Əli Şimşəyi görəndə çaşıb qaldı:

— Əli, sənsən?!

— Mənəm... Bunları da yəqin tanıdın? Üzlərinin sarıqlarını açan cavanları göstərdi. Əli Şimşəyin qardaşları idi. Görüşdülər, qucğaqlaşdılar. Astanada yaşlı bir qadın göründü, onları səhər yeməyinə də'vət etdi. Əcəmi ayağını sürüdü:

— Məni bu işdən hali eləməsəniz, əlimi süfrəyə uzadan deyiləm.

Əli Şimşək güldü:

— Sənin inadkarlığına mən çox yaxşı bələdəm, — dedi. — Siz içəri keçin. Mən bunu bə'zi işlərdən agah edim...

Həyətdə Əcəmiylə Əli Şimşək qaldı.

— Di, danış görüm.

— Nə danışım, mən səni ölümün ağzından qaçırıb bura gətirmişəm.

— Nə ölüm, necə ölüm?! — Əcəmi təəccüblə soruşdu.

— Adicə ölüm... Bir namərdin əliyə icra olunacaq ölüm... Sarayın tapşırığı ilə yerinə yetiriləcək qəsd.

— Heç nə başa düşə bilmirəm.

— Buyur oxu... İndi hər şeyi başa düşərsən.

Əli Şimşək qoltuq cibindən dörd qat bükülmüş bir naməni çıxarıb ona uzatdı. Əcəmi naməyə baxan kimi Cəmilin xəttini tanıdı. İlk sətirləri oxudu: "Yalvarıram, oxuyandan sonra yandır, ələ keçməsin, unutma ki, biz ömrümüzü qumara qoyuruq..."

Əcəminin başı hərləndi, gözləri qaraldı: "Hökmdar dostumdan ya-

man şübhələnib. Bu şübhədən qan qoxusu gəlir... Əcəmiyə ancaq sənin köməyin dəyə bilər. Ağıllı bir tədbir fikirləş. Elə elə ki, bu işdən heç kim xəbər tutmasın..."

Əcəmi məktubu axıracan oxumadı.

— Bəs məni niyə oğurluqla gətirmək nəyə lazım idi?

— Fikirləşdik ki, heç kim görməsin... Əcəmi qeyb olub, vəssalam!..

— Bəs soyundurulmağıma nə deyərsən?

— Belə lazım idi... Həyətindən qanlı köynəyini tapacaqlar. — Əli Şimşək dostunu bərk-bərk qucaqladı. — Ömrünün axır günlərini yaşayan saray sahibini inandırmaq üçün...

Əcəmi heç nə demədi. Başını qaldırıb Əli Şimşəyin üzünə baxdı. Əli Şimşək atəşzənə qov qoydu, bir dəfə vuran kimi qov közərdi, üfürdü, məktub yazılan Xorasan kağızının alışması çox çəkmədi. Əli Şimşək onu yerə atıb ayağı ilə əzdi.

— Hə, demək belə-belə işlər...

— Darıxma, qardaş, bir gün bax beləcə səhər açılıb günəş doğanda görəcəksən ki, zalımların da ulduzları sönüb, tacı-taxtları tökülüb yerlə yeksan olub... Hə, indi keç içəri, bura özgə yer deyil. Çörəkdən sonra sənə deyiləsi sözlərim də var... Mən qayıtmalıyam, burada çox qala bilmərəm...

— Özünü gözlə, Əli... Sərvaxt ol...

— Hamını dərdli-sitəmli görəndə adam özünü qeydinə çox çətin ki, qala bilə...

Əcəmi bir-iki addım atıb dayandı, əvvəlcə tutqun üfüqlərə, sonra Əli Şimşəyin yorğun üzünə baxıb dedi: "Ey zülmüylə xalqı ağlar qoyan zalım, sitəmindən ellər cana doyan zalım! Yerdə qalmaz məzlumların nahaq qanı, Qisas günü öz qanına boyan, zalım!.."

— Səhv etmirəmsə şe'r Qətran Təbrizinindir?..

Əcəmi həmsöhbətinə bir də diqqətlə baxdı, bu sadə kəndli oğlu onun nəzərində elə bil bir az da böyüdü.

— Əhsən!..

Əli Şimşək onun qoluna girdi, otağın qapısını göstərdi...

## ODLA SU ARASINDA

Cahan Pəhləvan gecəni pis yatmışdı. Sübhə yaxın yuxuya getsə də, xoruz banı eşidib ayılmışdı. Səbəb də o olmuşdu ki, atabəy-ə'zə-

mi yuxuda görmüşdü. Görmüşdü ki, atabəy-ə'zəm taxtdan durub, onun qənşərinə gəlir, sağ əlini oğlunun çiyninə qoyur. Sonra altdan-yuxarı onu diqqətlə süzür. Axı, oğul atasından həm hündürdü, həm də qəddi-qamətli. Bu, hökmdarın xoşuna gəlir, onu sevindirir... Ürəyində Mö'minə xatuna razılıq edir:"Mərhaba südünə, ülya mələkə!.." Sonra deyir: "Mənə gətirilən səhih xəbərlərə görə Rey hakim cızığından çıxır. Və bizim xanədana açıqdan-açığa kin- küdurət bəsləyir. Onun yerinə oturtmaq gərəkdir. Hökmdar atanın ilkin oğlu kimi, Eldəgəzlər xanədanın gələcək ikinci hakimi kimi bu işi sən görməlisən. Sənə həm inanıram, həm də qılıncına güvənirəm... Get, sənə uğurlar arzulayıram. Göstər özünü, qly əmirlər, məliklər, rəislər sənin zərbi-dəstini indidən görsünlər... Amma unutma ki, müharibə çox pis şeydi, gərək onu tez qurtarasan. Yoxsa insanlar bir-birini qırmağa adətkar olarlar. Onlarda şəhərləri, kəndləri viran qoymağa, yandırmağa həvəs çoxalar, adamları qarət etməyə, soymağa meyl artar. Sonra bunun qarşısını almaq olar müşkül iş..."

Sonra müxtəlif vuruş səhnələrini görmüşdü. Məğlub olan Qütluq İnancın onun atının ayaqlarına düşməsi, dil çıxarıb yalvarması, qızını ona ərə verib düşmənçiliyi aradan götürmək istəməsi, gecə ciddi sifətli, süzgün baxışlı, məğrur duruşlu İnanc xatunun onun yanına göndərilməsi, evlənmələri şərəfinə düzəldilən eyş-işrət məclisi qırıq-qırıq nəzərində canlanmışdı.

Birdən uşaq kimi diksinib ayılmışdı. Bir az sonra yenə mürgüləmişdi.

Bu dəfə kal bir yuxu görmüşdü. Görmüşdü ki, İnanc xatun ona şərbət içirmək istəyir. Elə bu vaxt atasının çoxdan ölmüş vəziri Şihabəddin Nişapuri içəri girərək onun əlindəki şərbəti vurub yerə tökür və deyir: "İçməyin, hökmdar, mələkəniz şərbətə zəhər qatıb..." Bu dəfə İnanc xatun ərini ayaqlarına düşüb yalvarır. O isə əlini-əlinə vurur, içəri girən həbəş qulama deyir: "Cəllad gəlsin..." Şihabəddin Nişapuri mane olur: " Əvvələn, mənə qulaq asın, sonra e'dam buyurun. Sizin yüksək adınızı və ləyaqətinizi xələldar edər zənən xeylağının boynunu vurdvrmaq, həm də oğlanlarınız sizdən rəncidə olarlar. Allah təala öz ümmətinin bir qismini zənən xəlq edəndə əlilliyi və zəlilliyi də heydəri kimi onların qulaqlarından asıb, özü də müvəqqəti yox, daimi. Saray sahibi sual verir: "Bəs nə edim?" Şihabəddin Nişapuri deyir: "ana üçün ən ağır cəza onu övladlarına həsrət qoymaqdır. Mələkəni saraydan qovun. Vəssalam..." Hökmdar çığırır: "Rədd ol get burdan!.."

Cahan Pəhləvan öz səsinə ayılmışdı və durub yatağında əyləşib fikirləşmişdi: "Bu yuxular məndən niyə əl çəkmir görəsən?.. Təxtirabdan elə durub, elə düşüb, elə geyinmişdi ki, gec yatıb şirin yuxuya gedən Zahidə xatunun da, Cəlaliyyənin də xəbəri olmamışdı. Bayırda növbə çəkən mühafizə isə işarə etmişdi ki, yerindəcə farağat dayanıb növbəsini çəksin. Sonra sarayın həyətini gəzmişdi. Ay işığında apaydın görünən mərmər hovuzdakı balıqları tamaşa etmişdi, şəffaf suyu yuxarı millənən fəvvarələrə baxmışdı, həyətdəki sərv ağaclarına, müxtəlif güllərə nəzər yetirmişdi. Sonra mərmər pilləleri yuxarı qalxıb pişgaha getmişdi. Bir müddət pəncərənini önündə dayanaraq həyətə baxmış, burada keçən uşaqlıq illərinin şirin-şirin xatirələrini yadına salmışdı. Xatirələr zəncir kimi uzandıqca uzamışdı...

Birdən zəncirin halqası qırıldı, xamtirələr də bir anın içində qeyb olub harasa çəkildilər.

— Sabahınız xeyir, ə'lahəzrəta.

Cahan Pəhləvan geri dönəndə Xəlili qapının ağzında farağat dayanan gördü. O, başını sol çiyninin üstünə əyərək məlul-məlul ayaqlarının ucuna baxırdı.

—Hə, sənsən? — Bu dəfə niyəsə ona "İsfahan lotusu" demədi və çoxdan görmədiyi hərəmxana işlərinə baxan pişxidməti diqqətlə süzüb onun varlığına elə bil şübhə ilə baxdı. — Sən hələ saraydan mürəxxəs olmamısan?..

— Xeyr, ə'lahəzrəta... Əvvəla, mən necə mürəxxəs ola bilərəm ki, hələ qulluğum baqidir sizin hüzurunuzda... Ali mənsəbin hər hökmünə can-başla bey'ət etmək onun müti qulu olan mənim üçün böyük şərəfdir. Bihəmdulla, adillik də sizdədir, bazillik də...

Cahan Pəhləvan sırtıq pişxidmətin tez-tez təkrar etdiyi bu sözlərdən elə bil darıxdı:

— Qurtardın?..

— Xeyr, hökmdar... Saniyən , yeni bir cariyyə gətirmişəm ki, indiyə qədər saraya Bəsrədən, Şamdan, Kufədən gətirilən qul qızların ən gözəlidir... Özü də şütürban qızdır... Yaradan elə bil özü təqdis edib bu afəti. Beləleri ərkəklər üçün göydən düşmə olur, billah! Həmədan bazarında hərraca qoyulmuşdu, ən yuxarı qiyməti mən deyib almışam. Özümlə də hüzurunuza gətirmişəm. Qız sizin ən sevimli cariyyəniz olacaq. Mən buna əminəm. Mənim anamın doğmasına əmin olan kimi...

— Anan səni doğunca qara daş doğaydı. — Cahan Pəhləvan ke-

1. Günəşə ən yaxın olan ulduz.

çib taxtda əyləşdi. — Deyirlər: "Həvəsdir, bəsdir..." Səninlə sövdamız qurtardı... Demişəm, səni razı salacaqlar. Beytülmaldan nə versələr... al, get! Daha səni buralarda görməyim. Naxçıvanın iqtadarı bundan sonra zənən xeylağı olacaq, ona hərəm lazım deyil... Demək bu işlərə baxan pişxidmət də lazım olmayacaq. Qandın?..

Xəlil hökmdarın qırımını görüb heç nə demədi, qapının ağzında necə qəfil görünmüşdüsə, eləcə də qeyb oldu.

Cahan Pəhləvan taxtdan durub pişgahda var-gəl etməyə başladı.

— Sabahınız xeyir, hökmdar.

Gələn Sə'dəddin Əsəd idi. Saray sahibi ixtiyar vəzirin salamını aldı, ona əyləşmək üçün yer göstərdi. Ancaq vəzir əyləşmədi, hökmdarın öz taxtına keçməsini gözlədi. Belə də oldu, hər ikisi eyni vaxtda oturdular, hökmdar öz taxtında, vəzir də sədr kürsüsndə. Cahan Pəhləvan istədi deyə ki, mərhum həmkarını gecə yuxuda görmüşəm, amma nə fikirləşdisə demədi. Daha doğrusu, son vaxtlar çox səksəkəli və qulağı səsdə olan saray sahibi fikirləşdi ki, vəzir yuxunu birdən pis niyyətlə yozar, bu da narahatçılığını, nigarançılığını bir az da artırar...

Hökmdarı fikirli görən vəzir yenə qabağa düşüb sözə başladı.

— Səni yenə narahat görürəm, bir səbəb var?

— Hökmdarların rahat vaxtı olub ki?.. — Cahan Pəhləvan yanındakı mizin üstündən tacını götürüb başına qoydu.

Sə'dəddin Əsəd fikirləşdi: "Təqsirin hamısı o başına qoyduğun tacdadır. Onun dəmirin də, onun qızılın da, üstünə düzülən daş-qaşındadır... O kimə qismət olursa təkcə rahatlığını yox, ağlını da, insanlığını da, insafını da, vicdanını da elə həmin gün əlindən alırlar... Tac, hökmdar görünüşcə hamıdan yuxarı qaldırsa da, mahiyyətcə hamıdan aşağı endirir... Rəyasət insanı şərabdan da çox məst edir... Buna ggörə vicdanı da, insafı da tez itirilər. Bəlkə də Süleyman peyğəmbərdən sonra yer üüzünə vicdanlı, mnsaflı, rəhmli hökmdar gəlməyib... Və gəlməyəcək...

— Bəs niyə belə tez durmusuz?

— Yata bilmirəm, vəzir. — Özünü axıra kimi saxlay bilmədi. — Gecələr pis-pis yuxular görürəm...

— Çalışın yatın...

— Hər şeyi özümə tabe eləyə bilirəm, bircə yuxuya gücüm çatmır... Onun sinəsiniəlimə keçirib özümə sarı darta bilmirəm... Sən demə yuxu hakimlikdən də güclü imiş.

— Əlbəttə, hökmdar. Dünyada yuxudan güclü heç nə ola bilməz. Onun qarşısında bütün bəni-Adəm acizdir... Yuxu da ölüm kimi bir şeydir...

Sə'dəddin Əsədin son sözləri hökmdarın xoşuna gəlmədi. Son vaxtlar ən çox zəhləsi gedən sözlərdən biri də "ölüm" sözüydü.

— Demək, istədiyi vaxt məni yaxalaya bilər, səni də.

— Kim?

— Dediyin o yuxu, o ölüm.

— Sizə qıymaram, hökmdar. Amma mən səmtə nə vaxt meyl etsən mən hazır. — Ölümdən söhbət salan Sə'dəddin Əsəd öz-özünü məzəmmət edəndən sonra zarafata keçib Cahan Pəhləvanın könlünü ovutmaq, onu qarmaqarışıq fikirlərin əlindən almaq istədi. — Hökmdara belə bədbinləşmək olmaz. Hakim bu gün dünyadan əl üzmək istəsə vəzir, vəkil, rəiyyət gərək dünən, ya da srağagün köçüb getmiş olaydılar axirət evinə... Bir də sizə nə olub, hökmdar? Maşallah, sağlam, gümrah! Adam sizə baxanda əlavə bir ömür də yaşamaq istəyir.

— Yoxsa ürək-dirək verirsən, Sə'dəddin?

Cahan Pəhləvan adətinə görə qəribsəyəndə, kövrələndə vəzirə adı ilə müraciət edərdi.

— Xeyr, hökmdar... Düz sözümdü!..

Cami məscidindən "allahu əkbər" sədası eşidildi. Müəzzin şəhər əhlini sübh namazına də'vət edirdi. Sə'dəddin Əsəd qalxıb pəncərənin tağını açdı. Açan kimi də minarədən axıb gələn güclü səs içəri doldu: "Allahu-əkbər, bismil-lahirəhmanir-rəhm. Qül hüvəllahü əhəd, allahüz-səməd...allahünməsəlli əla Məhəmmədin və ali Məhəmməd..."

Vəzir birdən nə fikirləşdisə pəncərənin tağını qapadı və qayıdıb öz kürsüsndə əyləşdi.

Cahan Pəhləvan taxtda dirsəklənib fikrə getmişdi. Vəzir öz hərəkətini ürəyində pislədi. "Deyəsən qaş qayırdığım yerdə yenə göz çıxartdım!.." Müəzzin "əla Məhəmməd", "ali Məhəmməd" sözlərindən xoşu gələr zənn etdiyi halda atabəy Məhəmmədi deyəsən bir az da kədərləndirmişdi...

— Hökmdar, istəyirəm fikrimi sizinlə bölüşəm. — Sə'dəddin Əsəd başqa bir niyyətə əl atdı.

— Nə fikir? — Cahan Pəhləvan başını qaldırıb xəbər aldı.

— Razılıq versəniz Sizin Ruindəj və Karmasin döyüşləriniz barədə dastan bağlamaq üçün sifariş verərdik.

— Kimə?

— Ədiblərə, şü'əraya...

Cahan Pəhləvanın sifətində qəribə bir maraq yarandı. Vəzir məqsədinə çatdığına, saray sahibinin "boş damarını" tapdığına sevindi. Gözlədi ki, görsün hökmdar özü bu barədə nə fikirdədir. Demə Cahan Pəhləvanın ürəyindən elə belə bir istək keçirimş.

— Yaxşı ki, sarayın vəziri axırda belə bir qənaətə gəldi. — Cahan Pəhləvanın sifətində xüsusi bir ifadə yarandı. — Qətran Təbrizi Sərab yaxınlığında azərbaycanlıların vuruşmağını elə gözəl təsvir edib ki, yazdıqlarını dinlədikcə, onlara qulaq asdıqca insan valeh olur. Məgər Ruindəj ətrafında, Karmasin düzlərində gedən döyüşlər, göstərilən igidliklər, qoçaqlıqlar təsvir eddilməyə, mədh olumağa layiq deyil?..

— Əlbəttə, layiqdir!

— Onda sifariş elə yazsınlar. Bəs biz Gəncədə, Həmədanda, yyaxud Naxçıvanda bu məclisi-şü'əraları nədən ötrü saxlayırıq? Beytülmaldan onlara hər il nəyə görə təxsisat ayırırıq? Gəncədə olan kimi mən Naxçıvanda da, Həmədanda da Əbül-Ülalar, Xaqanilər, Nizamilər görmək istəyirəm... Və kim yazsa, layiqincə təsvir etsə, onun layiqincə də qiymətləndirəcəyik.

— Qorxuram inanmayalar. — Sə'dəddin Əsəd bir an fikrə getdi.

— Niyə?

— Deyəsən Əbubəkr oğluna olan münasibətimizi kimsə saraydan faş edib, kənara çıxarab. — Vəzir çox ehtiyatla danışdı.

— Kim edə bilər?.. Bu söhbət bizim ikimizin arasında olub...

Sə'dəddin Əsəd birdən üşəndi, danışığı özünün də xoşuna gəlmədi. Yaxşı ki, bir neçə gün əvvəl Əcəmi barədə aralarında söhbət gedən vaxt qəfil içəri girən həbəş qulamı xatırladı...

— Sizə həb gətirən qulamı nəzərə almırsız... Yoxsa hökmdar mən ixtiyar vəzirə...

Cahan Pəhləvan onun sözünü kəsdi.

— Dayan, vəzir! — Sə'dəddin Əsəd kiridi. Cahan Pəhləvan soruşdu: — O qulam indi hardadır?

— Sarayda.

Hökmdar bir müddət fikrə getdi, nəyisə götür-qoy etməyə başladı. Şübhələri artan vəzir siyasətdə çətin aldadıla bilən saray sahibinin fikrini başqa səmtə yönəltməyə qərar verdi:

— Atabəy-ə'zəm dönə-dönə deyərdi ki, sarayı mədh edənlərə ən'an verəndə, mədhiyyəçiləri təltif edəndə mükafat verilənin şəxsi

dəyəri də, el-oba içərisində nüfuzu da əməlli-başlı yoxlanmalıdır. Dedi-qodular bir kənara qoyulub, onun ancaq öz zəhməti, öz alın təri, öz ləyaqəti, öz bacarığı nəzərə alınmalıdır... Belə olarsa həm hökmdarın fərmanı qiymətə minər, həm də mükafatdan el-oba razı qalar...

— Sözlü adama oxşayırsan, vəzir...

Pişgahın qapısı açıldı, Hatib ibn Mübarək otağa daxil oldu. Onun özbaşınalığı deyəsən Cahan Pəhləvanın xoşuna gəlmədi, çünki baş şeyxə oturmaq üçün yer göstərmədi. Hatib ibn Mübarək özü keçib sədr kürsülərindən birndə əyləşdi və cibindən şəvə kimi qara səddanəsini çıxarıb əsəbi-əsəbi çevirməyə başladı.

— Şeyx cənabları, yoxsa çox vacib bir iş var? — Sualı Sə'dəddin Əsəd verib hökmdarı əsəbləşdirmək ehtimalının qarşısını almaq istədi.

— Şəkk-şübhədən çıxdığım üçün çağırılmamış gəlmişəm. Mənim müridlərimdən birisi şair Nizaminin Əbubəkr oğluna göndərdiyi məktubu ələ keçirib. Gəncəli şair naxçıvanlı me'marı "xəmsə" yaratmağa çağırır. Heç bilirsiniz bu nə deməkdir? Bu, mərhum Mö'minə xatunun müqəddəs ruhuna hörmətsizlikdir. Əbubəkr oğlu ağzından qaçırıb ki, çəkilən xərcin üçdə birin verən olsa bundan əzəmətli, yarısını verən olsa bundan qat-qat həşəmətli sərdabə tikərəm...Əbubəkr oğlu bu bəd niyyətinə görə, iti nəfsinə görə mütləqə cəzalandırılmalıdır! — Baş şeyx məktubu Sə'dəddin Əsədə uzatdı və səddənəsini bir yerə yığıb bu ovcundan o ovcuna, o ovcundan bu ovcuna keçirə-keçirə özünü yalandan narhat göstərməyə cəhd etdi.

Sə'dəddin Əsəd istədi ki, onu yerində oturtsun, ancaq tez də fikrindən daşındı.

— Sonra?..

Baş şeyx atdığı oxun hədəfə dəymədiyini güman edərək "sadağaya başqa bir ox qoymağı" qət etdi.

— Sonrası sizə çox yaxşı mə'lumdur... Mülhiddir, laməzhəbdir[1] qateüttəriqlərə[2] rəğbət bəsləyir, din xadimlərinin üzünə ağ olur...

— Səbəbi?

— Səbəbi uzundur. — Baş şeyx birdən Dəryanuru xatırlayıb alındı və atını çox uzaqlara sürdü. — Deyirlər nəslində xürrəmilərdən kimsə olub... O da bununla yeri gələndə öyünür... İslama şübhə ilə baxmağı da, peyğəibər salavatullah barədə bədgüman olmağı da yəqinimdir ki, elə bunların ucbatındandır... Bir dəfə görün mənə nə deyir.

1. Dinə inanmayan.
2. Qaçaqlar

— Nə deyir? — Cahan Pəhləvan nədənsə maraq göstərdi.

— Deyir bilirsən kasıb bir işdən yapışanda niyə "allah qoysa" deyir? Deyirəm niyə deyir? Deyir ona görə ki, inanmır. Fikirləşir ki, birdən namərdlik elər, qoymaz bu işi icra edəm... — Baş şeyx birdən özündən çıxdı. — Bilirəm nəyi gözləyirsiniz, hökmdar? Bələlərini tə'xirə salmadan tə'cili olaraq cəzalandırmaq gərəkdir... Yaxud da məmləkətdən xaric etmək gərəkdir... Mənim məsləhətim belədir, atabəy!

Baş şeyxin danışığı da, gəlişi kimi ürəyinə yatmadı saray sahibinin. Bir müddət Sə'dəddin Əsədə baxdı. Birdən qəddini düzəldib kürəyini taxtın dayanacağına söykədi:

— Cənab Hatib — Cahan Pəhləvan bəlkə də ilk dəfəydi ki, baş şeyxə adı ilə müraciət edirdi: — Sizə əyandır ki, mənim, Nüsrətəddin ibn Şəmsəddinin İslama da, xilafətə də, xəlifəyə də hörməti var. Amma unutmayın ki, Eldəgəzlər xanədanının hakimiyəm. Mərhum atabəy-ə'zəmdən sonra bu dövləti idarə edən mənəm, onun düşmənlərinə öz yerini tanıtdıran da mənəm. Kimi əfv etmək, kimi cəzalandırmaq bir hökmdar kimi mənim səlahiyyətimə daxildir. Kənardan məsləhətə ehtiyacım yoxdur. Görürsünüz bu ixtiyar vəziri? — Sə'dəddin Əsədi göstərdi. — Bir vaxtı mərhum Şəmsəddin Eldəgəzə vəzirlik edib, indi də mənə vəzirlik edir... Dünyanın hər üzünü görmüş müqtədir bir qocadır. Amma bir dəfə görmədim nə atabəy-ə'zəmin hüzurunda, nə də mənim yanımda özündən çıxıb hirslə danışsın. Siz Cameni sarayla qoşalaşdırmayın!.. Bunların hər birisinin öz səlahiyyəti, öz vəzifəsi var. Məsləhət görürəm ki, ancaq sizə verilən səlahiyyətdən istifadə edin. Ancaq öz vəzifənizi icra etməyə tələş göstərin. Hökmdar da allah kimi təkdir, hər buyruğu da, hər hökmü də özü verir. Hökmdar-hökmü-fərmandır. Vəssalam!

— Biz belə qanaq ki, hökmdar cənabları bizim xeyirxah tələşımızdan heç də narahat olmur, hə?

— Hökmdarın nə vaxt rahat, nə vaxt narahat olması da onun özünə məxsus işdi.

Söhbət bura çatanda Hatib ibn Mübarək xəlifənin bir sözünü xatırladı: "Sənin xidmət etdiyin Arranın camaatı başlayıb xilafətə verilən vergilərdən imtina etməyə. Bu, bizim sülalənin başlanğıcını qoyan möhtərəm və müqəddəs bir zata ləkədir. Bu, Eldəgəz törəmələrinin dərsidir... Unutmaq olmaz ki, Şəmsəddin Eldəgəz öləndə yerində iki varis qoyub gedib. Cahan həqiqətən pəhləvandı, qardaşı Arslan da elə arslandı, üstəlik, hər ikisi siyasətçildir. Güclə siyasət birləşəndə yenil-

məz olur. Bu yenilməz qüvvədən daim ehtiyat etmək gərəkdir... Ayıq və sayıq olmaq gərəkdir..."

Bunları təkcə baş əeyx yox, vəzir də fikirləşirdi: "Siyasətdə tayın-bərabərin yoxdur, Şəmsəddin oğlu. Mərhum tabəy-ə'zəm tökdüklərin sən yığışdırmısan..."

Hatib ibn Mübarək özünü zorla ələ ala bildi və saray sahibinin cavablarından xeyli narhat oldu. Səddanəsini cibinə qoyub ayağa qalxdı.

— Əfv edərsiniz, hökmdar... Və inana bilərsiniz ki, mən Hatib ibn Mübarək bundan belə sarayın işlərinə qarışan deyiləm... İcazə verərsiz mürəxxəs olam?

Baş şeyxin qaməti indi xeyli əyilmişdi, o içəri girəndə nümayiş etdirdiyi şuxluğunu itirmişdi. Bunu hökmdardan əvvəl vəzir hiss etmişdi və həm də xoşhal olmuşdu...

Saray sahibi baş şeyxi yenə sancmağı əldən vermədi:

— Gələndə icazə almışdınız ki, mürəxxəs olmağa da icazə istəyirsiniz?

— Şair Nizaminin məktubu qalsın, aparım?

— Apara bilərsiz... O məktubu sizdən qabaq mənə gətirib oxuyublar...

— Kim?!

— Onun sizə dəxli yoxdur!..

Baş şeyxin sifətinə ötəri bir qızartı qondu, heç nə deməyib pişgahdan çıxdı.

— Mən bu məqamı çoxdan gözləyirdim, hökmdar. — Sə'dəddin Əsəd saray sahibinə razılıq etdi. — Ləyaqətli kişi iki şeyi yaxşı bilməlidir: birincisi öz yerini, ikincisi öz sözünü...

— İnsan mürəkkəb məxluqdur, vəzir! Hərəsinin də bir xasiyyəti olur. Xasiyyət pis niyyət daşıyanda gərək onun sahibinə güzəştə getməyəsən. Bu hərif nə sezibsə mənim əlimlə düşmən kimi baxdığı Əbubəkr oğlcndan intiqam almaq niyyətindədir... Buna görə də saraya qulaqçı-güdüuçü xidməti göstərmək həvəsinə düşüb. Hakim ki, xəbərçiyə, güdükçüyə möhiac oldu, elə o vaxtdan kişiliyinin yarısını itirdi...

Sə'dəddin Əsəd fikirləşdi ki, yaxşı fürsət düşüb, saray sahibinin yenə "boş damarı"nı axtarım, bəlkə tapa bildim...

— Siz də Hatəm[1] səxavəti var, hökmdar. Buna görə də üləma da, şü'əra da sizdən daim qəddanlıq umurlar, qədr-qiymət gözləyirlər. O cümlədən, Mö'minə xatun ananın möhtəşəm abidəsini...

1. Şərqdə öz səxavətilə məşhur olan ərəb əmiri və şairi

Cahan Pəhləvan həmsöhbətinin məqsədini başa düşdüyü üçün sağ əlini yuxarı qaldırdı. Vəzir onun adətinə bələd olduğu üçün fikrini yarımçıq saxdladı.odla-su arasında qalan və vəzirin söhbəti hara gətirib çıxardığını hiss edən Cahan Pəhləvan fikrini handan-hana bir yerə cəm edib dedi:

— Amma mənim ərz etdiyiniz Hatəm səxavətimi bütün sənətkarlara şamil etməyə sə'y göstərməyin. Və baş şeyxlə söhbətimdən ayrı nəticə çıxarmıyın... Vəzir bilməlidir ki, mənim həm Eldar Bəhmənin oğlu barədə, həm də Əbubəkr oğlu barədə...

Həbəş qulam qəfil içəri girdiyi üçün hökmdarın sözü yarımçıq qaldı. Qulam tələşla xəbər verib dedi:

— Əbubəkr oğlunu gecə oğurlayıblar...

## EL-OBA NAMİNƏ

Dağlar da insanlar kimi müxtəlif olur: alçaq-uca, mülayim-sərt... Naxçıvan dağlapının isə başqa bir xüsusiyyəti də budur ki, ilin müəyyən aylarında bir səhərlər, bir də axşamçağılar hərəsi bir rəngə çalır. Çox vaxt ayırd edə bilmirsən ki, bu qəribə rəngləri bu dağların üzünə hansı qəfil bir əl sürtür, onları kimin gözəgörünməz mö'cüzəli fırçası bu rənglərə boyayır. Elə dağ var, gələnə-gedənə sinəsi üstən cığır açır, yol verir. Elə dağ da var, qalaya-qəsrə çevrilib torpağa yad ayaq dəyməsinə, düşmən atlarının keçməsinə keçilməz sədd olur, qənim kəsilir, evindən-eşiyindən iraq düşən igidlərə havadarlıq edir, qoynunda daldanacaq verir.

Əli Şimşəyin dəstəsi həmişə bu dağlardan ən gözəllərini özünə məskən seçərdi.. Bu il də onlar çiyin-çiyinə verib bir-birinə söykənən, pəhləvanlar kimi əzəmətlə yana-yana dayanan Əlincə dağlarında məskən salmışdılar. Bu dağların döşündəki hamar düzənlik cıdır meydanına oxşayırdı. Səma aydın, dağlar çənsiz-dumansız olanda, bura qalxıb məğrib tərəfə baxanda az qala bütün Naxçıvan torpaqları nəhəng bir süfrə kimi adamın qarşısında açılır; alçaqlı-ucalı təpələr, bu təpələrin yan-yörəsinə dolana-dolana bir-birini kəsən cığırlar, dərələr, gümüş kəmər kimi parıldayan sısqagur çaylar...

Əli Şimşəyin dəstəsi həmin düzənlikdə məşq edirdi: kənd igidləri at çapır, qurşaq tutub güləşir, qılınc vurub qıy çəkirdilər...

Kənardan baxan olsaydı Əlincə dağlarının qoynuna sərilən güllü-çiçəkli düzənliyi həqiqi cədəlgah zənn edərdi...

...Əli Şimşək mağaradan çıxdı, kənarda dayanıb başına toplaşan igidlərə xeyli baxdı. Dağlar kimi müxtəlif olan bu el qisasçılarını bir yerə bir məqsəd cəm etmişdi: xanəgahın və ona qonşu olan kəndləri kasıb-kusubuna, əlil-zəlilinə qəmxar olmaq, bərk ayaqda onlara kömək əli uzatmaq, onların var-yoxunu talançılardan qorumaq, namusuna uzadılan əlləri kəsmək...

. . İgidlərdə biri onu dalğın və fikirli görüb yanına gəldi və əlindəki iki qılıncdan birini torpağa sancmağı ilə geri tullanması bir göz qırpımı qədər çəkdi.

— Özünü müdafiə elə, Əli — Xəbərdarldıq edən Mahir idi.Əli Şimşək kiçik qardaşının məramını dərhal anladı, qılıncını qəbzəsindən çəkib onu torpaqdan çıxardı və "rəqibi"nin üzərinə şığıdı. Süvarilər atlardan endilər, qurşaq tutanlar aralandılar, qılınc vuranlar kiridilər.Əli ilə qardaşı "vuruşan" yerdə ətdən divar çəkdilər. Bu döyüşdən əvvəlcə baş açmayanlar da get-gedə işdən agah oldular, böyük maraq göstərib, iki "rəqib"in hansının qalib gələcəyini gözlədilər...

Qardaşlar get-gedə qızışırdılar: gah döş-döşə gəlir, ciyinləri ilə bir-birini geri oturdur, sonra qılıncların qəzəsinə yaxın yerini bir-birinə söykəyib fırlanır, birdən geri çəkilib təzədən həmlə edirdilər. Əli Şimşəyin sərrast zərbələrinin qarşısını Mahir bə'zən məharətlə alır, gah başına, gah ayaqlarına enən zərbələri xüsusi cəldliklə zərərsizləşdirirdi... Sinə-sinəyə dayanıb bir də geriçəkiləndə Əli Şimşək qılıncını torpağa sancdı, Mahirin əlindəki qılınc havadan aslı qaldı. Əli Şimşək qardaşını bərk-bərk qucaqlayıb bağrına basdı. Yavaşca pıçıldadı:

— Mərhaba, qardaş...

Dövrə vurvb dayananlar böyük sevinclə əl çaldılar. Əli Şimşək kənarda dayanan qardaşı Tahirə baxıb yerə sancılan qılıncı göstərdi.

— Nağıllarımızda kiçik qardaşlar daha igid olurlar... Göstər görüm məharətini...

Tahir sıçrayıb ortaya atıldı. Qılıncı yerdən çəkib Mahirə "hücum" etdi. Aralarında birbaşa vuruş başladı. Qılıncların səsi elə bil dağlara dəyib əks-səda verdi...

Elə bu vaxt hardansa eşidilən bir haray səsi qılıncların səsinə qarışdı. Səs get-gedə yaxınlaşdı:

— Əlii!.. Haradasan, Əlii!..

Hamı qulaq kəsildi. Birdən Əli Şimşəyin işarəsi ilə cavnlardan bir neçəsi xəncəri, qılıncı cəld belinə bağlayıb üzüaşağı götürüldü. Əli Şimşək cəld dikdirə qalxdı, ətrafı gözdən keçirib səs gələn tərəfə boy-

landı. Cavanlar gələn adamın başının üstünü kəsdirmişdilər və onu araya alıb yoxuşa qaldırdılar. Əli Şimşək dikdirdən endi və qəfil qonağın pişvazına çıxdı. Birdən gələni tanıdı: qonşu bənənyarlı bənna idi. Salamlaşdılar, qucaqlaşdılar, hal-əhvallaşdılar. Bənna işarə edib Əli Şimşəyi kənara çəkdi.

— Dünən şəhərə getmişdim... Şaqulumu itirmişəm, malam da sınıb... Əbubəkr oğlunun dostu Cəmilə rast gəldim. Qoymadı xərcə düşəm... Mənə təzə mala da verdi, şaqul da... Qazanxan kəndində iş götürdüyümü bilən kimi rica etdi ki, sərvaxt olasan. Niyə ki, rəis bu həftənin içərisində Əlincə ətrafı kəndlərin üstünə yenə qoşun göndərəcək. Məqsədi də bu ilin taxıl vegisini verməkdən imtina edənlərin varyoxunu alıb aparmaqdı... Cəmilin bu xəbəri göndərməsi, mənim bu xəbəri gətirdiyim qorxulu olsa da, özümə borc bildim... Di salamat qal...

Əli Şimşək bənanyarlı bənnanı yeməyə də'vət etdi, amma qoca razılıq vermədi. Əli onu ata mindirib yola salmaq istəsə də, bənna rəva görmədi. Bənəyarlı gözdən itəndən sonra Əli Şimşək sal daşın üstündə əyləşdi, açıq səmaya baxdı. İki boz qartal Əlincə dağlarının zirvəsində dolanırdı... Hamının intizar dolu nəzərləri Əli Şimşəyə dikilmişdi. O, ayağa durdu, sal daşın üstünə çıxdı və əli ilə işarə edib kənd qisaçılarını yanına çağırdı...

***

Xanəgah və ona yaxın kəndlərin vergidən boyun qaçıran kasıbkusubundan zorla alınan mal-qaranı, var-yoxu yüklənmiş ulaq-qatırı qabağına qatıb şəhərə tərəf sürən bir neçə nəfər darülmülk süvarisi yoxuşdan Pir Cüvar düzənliyinə təzəcə enmiədilər ki, Əshabi-kəhf dağını ikiyə bölən dərədəki dağdağanlıqdan çıxan bir dəstə atlı onların başının üstünü aldı. Qışda mağaralardan tükünü tülləyən, yaz-yay aylarında Əlincə dağlarının döşlərindəki bol otu, gül-çiçəyi yeyib sığırlarını ətə-qana dolduran kürən və qaşqa kəhərlərin, alapaça və boz ayqırların üsütündə şux əyləşmiş kənd qisaçılarının səs-küyü bir an içərisində Pir Cüvar düzənliyini ağzına götürdü. Bir az sonra bu hay-küyü at kişnərtsi, onun səsləri əvəz etdi. Çox da uzun sürməyən bu döyüşdə Əli Şimşək iki süvarini vurub atdan saldı, üç mühafizi yaralayıb şil-küt elədi. Atdan enib Mahirlə qız-gəlinlərin bağlı qollarını açdı...

— Mal-qaranı bir yerə toplayın! Ulaq-qatırı kənara çəkin... Qız-

larımızdan, gəlinlərimizdən yorulanları ulaq-qatırlara mindirin... Rəisin bu binamuslarının atlarını da götürün. Özü də bu kəsə yolunan geri qaytarın. Mahir, Tahir, İldırım, Cavanşir, siz bunları qabaqda aparın... Biz burada bir az ləngiyəcəyik... Başa düşdünüz?

Adları çəkilən kənd qisaçılarından ən əvvəl Tahir göydəmir atın yəhərinə sıçradı.

İşin nə yerdə olduğunu bilən qız-öəlin birdən Əli Şimşəyə tərəf qaçışıb onun ayaqlarına döşəndilər, çoxu sevincini gizlədə bilməyib ağladı.

— Allah səni bizə çox görməsin, qardaş!

— Ömrünüz uzun olsun, ay halal südəmmişlər!

— Yüz yaşayın!

— Min yaşayın!

— Var olun! Var olun!..

Əli Şimşək geri çəkilmək əvzinə, onlara bir az da yaxın gəldi, qız-gəlinin qolundan yapışıb gah onu, gah bunu ayağa qaldırdı. Eyni sözləri təkrar edə-edə dedi:

— Bax, bu olmadı... Bax, bu olmadı...

Elə bu vaxt Əli Şimşək birdən zarıyıb zorla qəddini düzəltdi. Kimsə oxu düz onun sol kürəyinin altına saplamışdı...

Hamı özünü itirdi. Mahir qaçıb ayaq üstə zorla dayanan Əlinin kürəyindən oxu çəkib çıxardı, onu otların üstünə uzatdı... Zərbə çox sərrast idi. Əli Şimşək bircə kərə gözlərini açıb-yumdu. Deyəsən, Əlincə dağlarının zirvələrində dolaşan boz qartallara baxdı. Nəsə demək istədi, bacarmadı. Bircə kəlmə kəsə bildi:

— Tahir... hanı?..

Hamının gözü yan-yörəni gəzdi. Bu vaxt uzaqda bir atlını qovan Tahiri gördülər. Onqun qılıncı bir anın içərisində qalxıb endi. Bir az sonra kəsilmiş bir baş Əli Şimşəyin ayaqları altına atıldı. Bu, yaxınlaqda böyük-böyük daş qalığının arxasından ox atıb, sonra alapaçanın yəhərinə sıçrayaraq aradan çıxmaq istəyən sarayın qaraulbaşının başı idi.

Pir Civar düzənliyində birdən səs-səsə qarışdı; haray çəkərək ağı deyib hönkürən qızlar-gəlinlər idi...

El-oba yolunda vuruşan bir igidə xəyanət edilmişdi...

## HAMI GEDƏN YOL

Cahan Pəhləvan sərdabənin açılışından sonra xəstələndiyindən Həmədana dönməmişdi. Şirazlı təbibi-xünkarın dedikləri düz çıxmışdı: hökmdar bimarü-rəncür idi. Sarayda da, şəhəristanda da, söz-söhbət gəzirdi ki, şahın halı gündən-günə xarablaşır.

Hökmdarın xəstələnməsi, atabəy-ə'zəmdən sonra üz-gözləri öyrəşmiş vəliəhdin onları əbədilik tərk etməsi ehtimalı bir sıra məliklərin, sarayın xəlvətiyyəsinə yaxın olan varlıların ciddi narahatlığına səbəb olmuşdu. Sarayın daxilində də bayırında da söz-söhbətə bir an belə ara verilmirdi:

"Yəqin ki, qardaşını yerinə vəsiyyət edər.." "Mən bu əqidədəyəm ki, oğlanlardan birinə e'tibar edər taxt-tacı...", "İnanmıram, oğlanları fərsizdir...", Bəlkə türk qızının doğduğuna bel bağlaya, Əbubəkrə? Deyirlər çox istəyir həmin vəliəhdi...", "Qardaşlar səlcuq sultanları kimi bir-birilərinin qəsdinə durmasalar yaxşıdı... Taxt-tac çox köpəkoğlu şeydi". "Ən böyük iştəha İnanc xatunundur deyirlər... Hələ onu da deyirlər ki, nə Mahmuda, nə də Əmir Əmirana ülya-mələkə qalanda belə yerikləmirmiş, nəinki indi taxt-tac üçün yerikləyir..."

Sarayda isə hamı özünü bikef aparır, damağı aşağı gəzib dolanırdı. Gizli-gizli bir-birinə qaş-göz eləyənlər də, təkliyə düşən kimi pıçıldaşanlar da yox deyildi...

İnsanın ölümünə, kim olur-olsun, sevinmək, onun işıqlı dünyadan köçməsinə şad olmaq ən rəzil, ən namərd işlərdən biridir. Amma şahların, padşahların ölümünə sevinənlər də olur. Bə'zən belə ölümlər bir millət üçün toy-bayrama da çevrilir.

Bu da şahların, padşahların bir bədbəxtliyidir...

Yer üzünə hələ elə hökmdar, elə rəyasət sahibi gəlib-getməyib ki, onun ölümünə bütün bir ölkə həqiqətən yas tutsun, bütöv bir millət küll halında onun hüzrünə dursun, ondan ötrü sidq-ürəklə göz yaşı töküb qəm-qüssəyə batsın...

Bu da hökmdarların, rəyasət sahiblərinin bir bədbəxtliyidir...

Sə'dəddin Əsəd bunları fikirləşdikcə qəlbi üşənirdi, saray sahibinin verəcəyi son hökmü səbirsizliklə gözləyirdi. Amma necə? Nə təhər? Heç vəchlə bir qərara gələ bilmirdi. Qalmışdı odla su arasında. Qulağı daim səsdə idi. Günlər isə bir-birin əvəz edirdi.

Elə bu vaxt dəbir içəri girib xəbər verdi ki, Əbubəkr oğlu sağ-salamatdır. Hər şey yaxşı olub...

Sə'dəddin Əsəd özünü saxlaya bilmədi, ayağa durub onu qucaqladı:

— Mərhaba, dəbir! — dedi. — Hökmdar şübhələnməsə yaxşıdır...

Eşikdə külək yalquzaq kimi uğuldayırdı. Yazın ilk həftələrinə məxsus sazaq adamın iliyinə işləyir, əlini, üzünü dalayırdı. Bəhkə də buna görəydi ki, adamlar küçələrdən şər qarışana kimi çəkilib getmişdilər.

Şəhərdə tam sakitlik idi.

Cahan Pəhləvan axşamdan əmr etmişdi ki, onu tək buraxsınlar. Hamı da xəstə hökmdarın dediklərinə tabe olmuşdu... Hətta təbibihünkara da demişdi ki, gedib dincəlsin. Onu da əlavə etmişdi ki, guya özünü yaxşı hiss edir, lazım olsa həbəş qulam onu gəlib çağırar; onu da demişdi ki, bəlkə heç çağırmaq lazım olmadı. Təbibi — hünkar da şübhəli-şübhəli fikirləşmişdi: "Deyən qafil deyil, dedirdən qafildir..."

...Hökmdar arvadları İnanc xatunu da, Qüteybə xatunu da qardaşı və oğlanları ilə Həmədana, Təbrizə yola salmışdı. Yanında Zahidə xatunu və Cəlaliyyəni saxlamışdı.

Ağrıları sakitləşib azacıq ara verən kimi nədənsə övrətləri barədə xatirələri beyninə doldu. Axı kişiyə öz ömür yoldaşından yaxın adam olmur. Əlbəttə, ömür yoldaşı bir olsa...

"...İnanc xatunla elə-belə yaşadım. Ürəklə yox, bədənlə... o da bunu qandı, başa düşdü. Mənə həm uşaqlarının atası kimi baxdı, həm də öz atasını məğlub edən bir cəngavər kimi.. Ürəyinin dərinliyində mənə qarşı bir kin-küdurət də gəzdirirdi həmişə... Əlinə fürsət düşsə inanıram ki, alar atasının intiqamını məndən... Məndən ala bilməsə də qardaşımdan, türk qızından, anaları kəniz olan övladlarından mütləq alar... Yatağa girəndə nə qədər mütidirsə, əvəz çıxmaqda bir o qədər qəddardır. Sevməyi də bacarır, nifrət etməyi də... Güləndə də ürəkdən gülür zalımın qızı, ağlayanda da ürəkdən ağlayır. Kəsməyinə isə söz ola bilməz: cəllad kimi kəsir xəlifeyi-ruyi-zəminin nəvəsi... Var-dövlət üçün sinov gedir, rəyasətə sahib olmaq üçün hər şeyindən keçər... Çox çalışdı ki, məni ancaq özü üçün hifz edib saxlasın, ondan başqa heç bir zənən xeylağı ilə üz-üzə, nəfəs-nəfəsə olmayım, bacarmadı... İt qursağı yağ götürməz... Rey hakiminin özü kimi də elə satqın övladı olar... Övrət var-gözdən qızar, övrət var - sözdən... Ay İnanc, İnanc!.. Ömrümdə hər şeyi bildim, bircə şeyi bilmədim. Bilmədim ki, bu dünya beş günlük imiş, vəfasız imiş... Sənin məhəbbətin, sənin sədaqətin kimi saxta imiş, namərd imiş... Buna bel bağlamağa, e'tibar et-

məyə dəyməzmiş, tüpürmək gərək bu dünyanın üzünə!..”

Qonşu otaqda Zahidə xatunun öskürək səsi eşidildi. Bu o demək idi ki, yatmamışam, oyağam... Nə vaxt çağırsan, hüzurunda hazır olacağam...

Cahan Pəhləvan da öskürdü. Bu da bir işarə idi... Əvvəlcə fikri dağıldı, xeyli müddət xəyalından keçənləri bir yerə cəm edə bilmədi. Elə bil Qüteybə xatunun səsi qulağına gəldi: “Deyəsən, nəsə demək istədi?..”

“Sənsən, səlcuq nəvəsi?.. Hə, səni də mən həmişə kiçik sultanlara atabəylik edən Eldəgəzlər nəslinə səlcuqilərin töhvəsi bilmişəm... Amma sən səmimi övrətsən, həm də yaxşı anasan... Mənim Əbubəkrimin anansı... İtaətkarlığın, mehribanlığın xoşuma gəlib həmişə. Sevincini hamı ilə bölüşməyi bacarırsan. Dərdini, qəm-qüssəni gizli saxlaya bilirsən... Ülya-mələkənini həmişə özünə rəqib bilmisən və ondan intiqam almaq istəmisən, amma bunu bir dəfə də olsun büruzə verməmisən... Özünü elə göstərmisən ki, baş mələkə öl desə ölərsən, qal desə qalarsan... Ay öldün ha! İnanc xatunun həm xoş, həm bəd sözlərini həmişə incə bir təbəssümlə qəbul etmisən, amma içərində olan qəzəbi, kini heç kim bilməyib məndən başqa...”, “Mən bilmişəm, amma açıb ağartmamışam...”, “Elə bax, buna görə də səndən xoşum gəldi, cariyə xatun... Yadındadı, sənə zifaf gecəsi “cariyə xatun” deyəndə kəklik kimi qaqqıldayıb güldün?.. Sonra dedin: “Cariyədən də xatun olar? Dedim: “Bəs kimdən olar?” Dedin: “Rey hakimin qızı İnancdan.. Səlcuq sultanının nəvəsi Qüteybədən... Mənim nə əslimə, nə də nəslimə “xatunluq” düşür”. “Yadındadı onda sənə nə dedim?” “Yadımdadı...” Dedim: “Sabah qazını çağırıb əmr edərəm nigah əqd edər, kəbinimizi kəsər. Əqdnaməni də mücrünə qoyub saxlarsan... Sonra da mənə bir oğul doğarsan... Sənə də hamı “cariyə xatun” deyər... Qadın qadındı... kim olur olsun. Elə kəndli qızı var ki, on şah, on beş də padşah qızına dəyər... Elə şah, padşah qızı var ki, bir dəllakın qabil qızının əlinə su tökməyə yaramaz... Qadının gözəl sifəti olsun, mütənasib əndamı olsun, təmiz ürəyi olsun. Daha heç nə lazım deyil... Al, özünə övrət elə... Bir qadın kimi sənin hər şeyin yerində idi. Məni də sənə bağlayan bunlar oldu, Zahidə. Səninlə keçirdiyim günlərə həmişə xoş günlərim kimi baxmışam... Bəxtin orda gətirdi ki, mənim kimi zərbi-dəsti olan kişinin övrəti oldun, yoxsa ülyə-mələkə İnanc xatun sənin tükünü didərdi. İstədiyi məqamda səni aradan götürərdi. Bir də bəxtin orda gətirib ki, həm oğul anasısan, həm də qız...”

Hardansa, gecənin dərinliyindən uşaq səsi gəldi. Eşikdəki sazaq ağlayan uşağın səsini şəhərin hansı məhəlləsindənsə qovub saraya gətirdi. Cahan Pəhləvan diqqətlə qulaq asdı. Səs gah uzaqlaşdı, gah yaxınlaşdı...

Görünür, ana oyandı, döşünü körpəsinin ağzına toxunduran kimi, o da kiridi... Axı körpənin ana südündən başqa dava-dalaşı nə ola bilər?..

"Yadındadı, Zahidə xatun, bizim Özbək də ağlayan uşaq idi... Süd əməndə bir dəfə əlimi uzadıb döşünü onun ağzından zornan dartıb çıxardım... Bir şivən qopardı ki, peşman oldum. Dedim: "Bundan yaxşı iqtədar olacaq." Dedin: "İqtədar nədir?" İzah elədim ki, "iqtədar" nədir... Sənin də xoşuna gəldi... Soruşdun: "Yə'ni doğurdan mənim oğlum da şah olacaq?" Dedim: "Niyə olmur, cariyə xatun... Oğlun da olacaq, qızın da..." Birdən niyəsə uşaq kimi ağladın, sonra güldün... Sən mənim yadımda həmişə beləcə də qalacaqsan, mənim cavan mələkəm..." Saray sahibinin qulaqlarına bu dəfə durna səsi gəldi. Diqqətlə qulaq asdı. Fikirləşdi: "Bəlkə mənə elə gəlir?.. İndi nə durna?.. Yox, durna səsidi... Yəqin köçüb gəlirlər... Axı bir azdan yaz başlayır... Bax, həmədana da durnalar belə tez gələrdi, hələ yaz girməmiş... Onların gəlməsini Zahidə hamıdan tez bilərdi... Mənim Zahidə durnam... hara getdim durna kimi uçub dalımca gəldi. Bu gecə vaxtı Naxçıvana uçub gələn durnalar kimi nə gecə bildin, nə gündüz... Zahidə durna... Göyərçin qızım Cəlaliyyənin anası... Biz bir-birimizi çox istəmişik, Mənim nə qüsurum olubsa, bir ər kimi, qızının atası kimi, üstünü vurmayıb... Ürəyi açıqdır, ürəyində nəyi varsa dilindədir... Xəbis deyil, paxıl deyil, birinin qarasınca bu gün deyinsə sabah yadından çıxır, birinə bu gün acığı tutubsa, sabah onu bağışlayır... Aza da qaildi, çoxa da... Bütün qayəsi, qayğısı bir odur ki, həmişə yanımda olsun, ikincisi odur ki, özünə oxşar qızı Cəlaliyyəni həmişəlik xoşbəxt eləsin... Deyir: "Nə olar hökmdar qızı olanda... O qədər bədbəxt şah, padşah qızları gəlib-gedib bu dünyaya... Mənim Cəlaliyyəm onlardan olmasın... Bizdən sonra da xoş keçsin hər günü, ayı, ili..."

Qonşu otaqda Zahidə xatunun xorna səsi gəldi. İki-üç ağız xoruldayıb səsini kəsdi.

"Narahat yatanda həmişə xorna çəkər... Neçə gündü narahatdır, nigarandır. Niyə də narahat olmasın, nigaran olmasın? Ürəyinə damıb ki, sahibi sağalmayan bir dərdə mübtəla olub... Cahan bu cahandan getməyə hazırlaşır. Onun ölümünə sevinəcək Kəsrani, Ağ süngər sü-

lalələrinin kiçiyindən böyüyünə kimi hamısı... Demetrenin, Georginin nəsli də öz növbəsində lap toy-bayram edəcək... Eldəgəzlər xanədanının ikinci hakiminin ölüm xəbərini eşidən kimi... Heyf, yüz dəfə, min dəfə heyf ki, insan ikinci dəfə dünyaya gəlmir. Belə olsaydı mən bilərdim nə edərdim!.. Etmədiklərim çox şey qaldı... Hələ çoxundan intiqam almalıydım, almadım, çoxuna cəza verməliydim, vermədim. Dar ağcları qurmalıydım, qurmadım. Hələ yürüşlər etməliydim, etmədim, vurub-dağıtmalıydım, vurub-dağıtmadım. Məndən sonra nə olacaq? Oğlanlarım necə yola gedəcəklər? Əmilərinə qulaq asacaqlarmı? Yaxud onlarda səlcuqların baş sultanı məlik şahın oğulları, əmilləri Sultan Səncərin qəsdinə duran kimi Qızılın əleyhdarları olacaqlar?... Yox, inanmıram... Qardaşım ağıllıdır, təmkinlidir... Bircə maülinəbbaz[1] olmasa, nəfskarlığın[2] azalda bilsə... Bir də... bir də İnanc xatundan özünü hifz edib qoruya bilsə...

Bunlar haradan mənim ağlıma gəldi?: Bəs indiyə kimi bu fikirlər niyə mənim beynimə dolmurdu?.. Yoxsa... Yox, mənə də Cahan Pəhləvan deyərlər. Mənim kürəyim hələm-hələmlə yerə gələn deyil... Qoy bunu üzünə tüpürmək istədiyim əzrayıl da bilsin... "Bura çatanda elə bil beyninə dolan müxtəlif fikirlərin zənciri qırıldı. Gözlərini qıyıb otağın tavanın bir bucağına zillədi. Xeyli baxdı. Birdən ona elə gəldi ki, bucaq aralandı və ordan həbəş qulamların ən heyvərəsinə oxşar əcayib bir məxluq çıxıb əvvəlcə baş endiridi, sonra iri ayağını irəli qoyub yekə əllərini sinəsində çarpazladı və kinayə ilə gülümsədi...

"— Sən... sən kimsən?" — "İndicə üzünə tüpürmək istədiyin əzrayıl". — "Nə istəyirsən?: Niyə gəlmisən?" — "Can istəyirəm... Gəlmişəm canını alam... Düzdür, şahlar, padşahlar çox çətin can verirlər, amma mən də, naşı deyiləm, öz işimin ustasıyam... O qədər inadkar, davakar şahın, padşahın canını almışam ki, axırda haq-hesabımı özüm də çaş-baş salmışam..." — "Səni kim göndərib?... Fələkəddin, ya Şimla?.." — "Onların canını çoxdan almışam... Məni sənin öz mələkən göndərib..."

— "Hansı?" — "Qanına yerikləyən... Taxt-tacına göz dikən..." — "İnanc xatun?" — "Bəli", — "Mən onu zindana saldıraram... Ac itlərə atdıraram!.." — "Bu ki, mənim ürəyimcə olar... hesab edərəm ki, işimin birini də gördüm... Onda sənə möhlət verib gedirəm... Sabah yenə gələrəm, İnanc xatunla haqq-hesabını çürüt... " Elə bil otağın bucağı təzədən aralandı və həbəş qulamların ən heyvərəsinə oxşar əca-

1. Şərab düşkünü
2. Şəhvət düşkünü

ib məxluq da həmin anda qeyb oldu. Cahan Pəhləvan əvvəlcə diksindi, sonra boğazı birdən açıldı:

— Zahidə!..

Zahidə xatun səs eşidən kimi özünü cəld içəri saldı.

— Nə var, Cahan!?

— Yatmısan?

— Yox, yatmamışam... Necə yata bilərəm?.. Yuxum ərşə çəkilib.

— Amma... mən yatmışdım. — İstədi indicə gördüyü əzrayıldan söhbət sala, mələkənin qorxacağını nəzərə alıb günorta yatanda gördüyü yuxunu danışdı: hə... hə... Bilirsən, yuxuda görmüşəm... Gördüm ki, Əcəmi çox gözəl bir sərdabə tikib... Mö'minə xatun ananın sərdabəsindən həm gözəl, həm də qəlbi... Özü də başqa bir yerdə... ha baxıram, nə yer mənə tanış gəlir, nə də adamlar... Bu nə ola bilər, Zahidə?

— Özünü üzmə, Cahan...

— Əzrayıla oxşayan o qara həbəşə de, vəziri bura çağırsın!

— Bu gecə vaxtı?!

Axı mən ona tapşırmışam ki... Əcəmini...

Əcəmini neyləyirsən, Cahan?..

— Heç. — Cahan Pəhləvan fikri elə bil yenə çözələdi, gözlərini yumdu, sinəsi daha tez-tez qalxıb-endi.

Mələkə istədi Cəlaliyyəni oyada, fikirləşdi ki, qorxar... Əllərini sinəsində çarpazlayıb, gözləzini ərinin gözlərinə dikdi. Ona artıq bəlli idi ki, saray sahibi əcəllə əlbəyaxadır... Ancaq bu adi can vermək deyildi, əzab idi, dəhşət idi. Elə bil bütün bəd əməlləri,günahları qəsdinə durmuşdu hökümdarın, elə bil sinəsi üstə bir yox,bir neçə əzrayıl əyləşmişdi Şəmsəddin oğlunun... Onu yumşaq, zər-zibalı, taxtı-rabda iki yox, on, yüz əl çarmıxa çəkirdi,açılıb-qıvrılıdı xanədanın ikinci hakimi...

— Sən demə rahat ölümün özü də bir xoşbəxtlik imiş...

— Bir az yatsan, yaxşı olar... Ağrıların azalar. Zahidə xatun tez fikrini dəyişdi: — Ağrıların azalıb?!

Hə... azalıb...

Özün bilirsən ki, mən səni...

Bilirəm, sən mələkələrin kiçiyi olsan da mən səni ürəyimdə həmişə böyük mələkə yerinə qoymuşam... Baş mələkə bilmişəm... Özün bilirsən...

—Pazıyam...Cahan...

—Cəlaliyyə yatıb?

— Hə, yatıb... Daş kimi ağır yatır.

— İndi onun elə vaxtıdır... Zahidə, yaxın otur. Sənə deyiləsi sözüm var... Məni deyəsən atamın, anamın yanına də'vət edirlər...

— Bu nə sözdü,Cahan?— Zahidə xatun kətildən qalxıb ərinin yatdığı taxtı-rabın kənarında əyləşdi,onun əlini ovuclarının içərisinə aldı.

—Hamı bu yolun yolçusudur...Bu,hamı gedən yoldur...İstər şah olsun,istər gəda olsun...— Cahan pəhləvan elə bil nəsə eşidib qulaq asdı.— Elə bil mənihərdənbir kimsə çağırır, qulağıma səs gəlir,amma hələ çox uzaqdan gəlir:

“Ey yolçu, hazırlaş!— deyir bu səs... Son mənzilə gedən yola hazırlaş”. — deyir bu səs...”Bu gün-sabah bir köhlən at qapında dayanacaq,səni dəvət edəcəklər ki, gəl min bu atın belinə... Amma bu at sənin həmişə mindiyin ağ kürən deyil, qara,qapqara bir atdı...Yəhəri də qaradır,tərdiyi də,yüyəni də. Başdan ayağa qaradır bu at... Bu at sənin ilxılarındakı atların heç birindən deyil... Bu at Məhəmməd peyğəmbərə me’raca getmək üçün göydən göndərilən hüca cinsindəndir. Buraqın törəmələrindəndir... Bu at əcəl atıdır... Elə danışma,Cahan...

— Sözümü kəsmə...Bu at adamları o dünyaya aparır...

Zahidə xatun ağladı.

—Sən allah, danışma, Cahan, dözə bilmirəm...

Zahidə xatun onun əlini qaldırıb dodaqlarına sıxdı.İki damla ılıq göz yaşı Cahan Pəhləvanın əlinin üstünə düşdü. Qadının göz yaşı hökmdar ürəyinə də tə’sir etdi.

—Yaxşı...Onda bir bayatı de...Özü də Əbubəkr oğlunun...Əcəminin Cəlaliyyə üçün tərtib etdiyi kitabdakı bayatılardan...

—Bayatı nəyinə lazımdır, Cahan?— Zahidə xatun onun əlini ovucları içərisindən götürüb yanına uzatdı.

—Mərhum anam Mö’minə xatun...dövlət işlərində atabəy-ə’zəmin... ən yaxşı məsləhətçisiydi. Həmişə ona kömək edərdi... Buna görə də məni lap kiçik yaşlarımdan dayə saxlayıb, mənə həmişə laylanı da o çalardı, özü də bayatı çəkə-çəkə...İndi nədənsə o bayatılar yadıma düşdü...

Zahidə xatun fikirləşdi; ”hə, deyəsən,·Cahan həqiqətən gedir cahandan... ”Ərinə baxdı...Cahan Ləhləvan gözlərini yumub onu gözləyirdi. Zahidə xatunun həzin və hüznlü səsi eşidildi: ”Dağları gəzən ağlar, Daşını düzən ağlar...Yarını gedən görüb, Əlini üzən ağlar...”

Cahan Pəhləvan gözlərini açıb diqqətlə Zahidə xatuna baxdı. Mələkə birdən özünü onun üstünə atdı, başını sinəsinə dayayıb, əlini uzadıb əvvəlcə boyun-boğazında, sonra sifətində gəzdirdi.

Çox sağ ol...Mən səni elə belə bilirdim... Amma bayatın lap yerinə düşdü...Vəsiyyətim vəzirdədir... Sə'dəddin Əsəddə... Demişəm yazıb, imza da etmişəm... möhür də vurmuşam. Əvvəlan, vəsiyyət etmişəm ki, məndən sonra xanədana Qızıl Arslan sahiblik etsin... O dura-dura oğlanlarımdan birisini yerimə qoyub getsəm... Mö'minə xatun ananın, atabəy-ə'zəmin ruhu məndən inciyər.., həm də yeganə qardaşım üçün böyük dərd olar...Fikirləşər ki, yəqin Cahan övladım olmadığı üçün beləhərəkət etdi...Əlincədəki beytülmalın ixtiyarını sənə həvalə eləmişəm... açarını sənə verəcəklər... Cəlaliyyəni Haxçıvana iqtidar tə'yin etmişəm... Qalan vəsiyyətlərim də orda yazılıb...Həmədana dönəndən sonra Sə'dəddin Əsəd bütün saray ərkanını bir yerə cəm edib həmin vəsiyyətnaməni mənim adımdan e'lan edəcək. Sən həmin vəsiyyətnamədə yazılanları öz dilinlə mənim adımdan təsdiqləyəcəksən... Deyəcəksən ki, vəsiyyətnamədə nə yazılıbsa... hamısını şəxsən mənim dilimdən eşidibsən... Vəzirə tapşırığım belədir... Bunları sənin bilməyin də vacibdir... Sə'dəddin Əsədə də demişəm ki, Zahidə bunlardan agahdır... İnsan çiy süd əmib, heç kimə inanmaq olmur...

Amma ürəyimdən indicə bir səs gəldi: "Zahidəyə inan, çünki təkcə o sənə sidq - ürəklə övrətlik edib... "Bir ricamı da səndən gizlətmirəm: ömrüm harda sona çatsa, mənim cənazəmi Naxçıvana gətirin... Mö"minə xatun ananın yanında... Əbubəkr oğlu ikinci adamın dəfn edilməsi üçün... yer saxlayıb... Düzdür,o mənə dedi ki, bir gün gələr atabəy-ə'zəmin məzarını Həmədandan buraya köçürərlər.

Amma yalan danışırdı, o yeri əvvəlcədən mənim üçün nəzərdə tutmuşdur... Üzə vurmasa da, mənə diri-diri qəbr hazırlamağı xoşuma gəlməmişdi. — Cahan Pəhləvan dayandı, udqundu. Zahidə xatun şərbət süzüb verdi:

— Özünü niyə üzürsən, Cahan... Səhərə az qalır. Bəlkə...bir az yatıb dincələsən?

Yox, sonra gec olardı... Mən deyəsən hər şeyi dedim... hə, bircə şey qaldı... Dur tapşır mənim atımı gətirsinlər... Ağ küranı.Qara atdan qabaq ağ ata minmək istəyirəm. Yola çıxmaq istəyirəm...

Zahidə xatun diqqətlə ərinin üzünə baxıb ehtiyatla soruşdu.

— Bu gecə vaxtı nə yol,Cahan?

— Gecə niyə olur?... Görmürsən Elalnı dağının arxa tərəfi ağa-

rır... Şəfəq atır... hə, dağlar, dağlar... Siz daimisiz, biz gəldi-gedər... bir bax... görürsən Elalnını... At gəlincə hava işıqlaşacaq... Zahidə!..

— Nədir,Cahan?

— Bilirsən nə var?.. Mən yorğan-döşəkdə ölməyi özümə sığışdıra bilmirəm... Bu, kişilikdən deyil... Bəlkə deyəm taxtırəvan hazırlasınlar... Mühafiz dəstəsi də ayırsınlar... Həmədana dönək... Axı sənin oğulların, qohum-qardaşların.

Axı mənim atam... Şəmsəddin Eldəgəz də, anam Mö'minə xatun da ömürlərini burada, Naxçıvanda başa vurublar. Mənim ömrümün... qaynar çağları da... burada keçib... hə, Zahidə... sən yanımdasan-bəsimdir... Cəlaliyyə buradadı-bəsdir... Qara atdan qabaq ağ ata minmək iştəyirəm... Yola çıxmaq istəyirəm... Qoy desinlər Eldəgəzlər xanədanının hakimi... Cahan Pəhləvan at üstündə öldü... Əbədiyyət evinə də... bir süvari kimi getdi... hə, Zahidə... sən hesab elə ki, vidalaşdıq...

— Cahan Pəhləvan yenə qıvrılıb açıldı və birdən bütün qüvvəsini toplayıb taxtı-rabdan qalxdı.

— Bəs... niyə dayanmısan? Çıx, mənim adımdan tapşır ağ kürəni gətirsinlər... Mən yola çıxmaq istəyirəm!..

— Axı...sənə soyuq olar, Cahan!

— Olmaz.

—Olar... Vallah, olar... havada sazaq var.

— Mənim üçün...indi nə soyuq...nə isti...

— Onda deyim taxt-rəvanı da hazırlasınlar. — Zahidə xatun tə'kid etdi.

Yaxşı... ürəyin istəyir, de. — Cahan Pəhləvan axır ki, razılaşdı və öz sözünü dedi:— Amma... ağ kürəni mütləq gətirsinlər... Taxt-rəvanın önündə... Bildin?.. Ağ kürəni!

Zahidə xatun bu dəfə ərinin üzünə baxanda elə bil dəhşətə gəldi: Cahan Pəhləvanın sifətindən anlaşılmaz kin-küdurət yağırdı. Elə bil işıqlı dünya ilə haqq-hesabı çürütməyə hazırlaşırdı sarayın ikinci hakimi...

Sübh tezdən, Elalnının arxasında ilk şəfəq görünəndə Naxçıvandan bir qafilə çıxıb Təbərək yoluna rəvan oldu. Xüsusi mühafizə dəstəsinin əhatə etdiyi taxt-rəvanda Zahidə xatunla qızı oturmuşdu. Cəlaliyyə başını anasının çiyninə söykəmişdi. Hər ikisinin yanağını göz yaşları isladırdı...

Qafilənin önündə gedən ağ kürənin yəhərində az qala iki qat olub bükülən hökmdar əyləşmişdir...

Azərbaycan Atabəylər dövlətinin ikinci hakimi Cahan Pəhləvan hicrətin 581— ci ilində zül - hiccə ayının sonunda, özü dediyi kimi, axırıncı dəfəydi ki, yola çıxırdı...

## DƏRBAN VƏ MÜHAFİZ
### (qış söhbəti)

Böyük çillə təzəcə çıxmışdı. Kiçik çillə bütün gücünü toplayıb şəhər əhlinə öz zərbi-dəstini göstərirdi.

Allahın elə bil ildə iki dəfə bu yerlərin sakinlərinə qəzəbi tuturdu: yayın ortalarında güclü istisi ilə,qışın ortalarında sərt soyuğu ilə.

Qışda hər tərəf ağ örpəyə bürünürdü:yer ağ,göy ağ,dağlar ağ, dərələr ağ, düzlər ağ...Çılpaq ağacların budaqlarında zanbaq-zanbaq qar, divarların üstündə qarış-qarış qar, çeşmələrin ətrafında qalaq-qalaq qar...hara baxırsan salxım-salxım sallanan buzlar: evlərin artırmalarında buz, eyvanların məhəccərlərində buz, qapıların örtüklərinin üstündə buz, pəncərələrin şüşələrində buz...

Küçələrdə ayaq dəyən yeələr cırıldayır,darvazaların həncamaları cırıldayır, yoldan ötən arabaların təkərləri cırıldayır...

Hər yerdə şaxta, hər yerdə qar, hər yerdə buz, hər yerdə cırhacır...

Belə vaxtlarda küçələrə çıxanların hamısı ehtiyatla yeriyir, səfərə gedən süvarilər atlarını ehtiyatla sürür, sürüşüb yıxılanlar ehtiyatla qalxıb-dururlar...

Yəzd-kürd tərəfdən əsən külək də belə günlərdə havada ağ kəpənəklər kimi oynaşan qarı qabağına qatıb sağa-sola, aşağı-yuxarı qovur, onun-bunun üzünə çırpırdı...

Gah bu bucaqda,gah o küncdə bir-birinin üstünə qalayırdı...

Evlərin buxarılarında daldalanan, odun sobalarının divarlardan eşiyə çıxan dirsəklərində gecələyən kirli-kirli sərçələr özlərini ora-bura vurub dən gəzir, yemək axtarır, haray-həşir sala-sala dəstə-dəstə gah yerə,gah divarların üstünə, gah da çılpaq ağacların budaqlarına qonurdular.

Belə şaxtalı-çovğunlu günlərin birində mühafiz yenə dərbanın kiçik köşkünün qapısını açıb içəri adladı.Ələkdən ələnən un kimi sıx qarı özü ilə qovan külək elə bil onu arxadan itələyib qəfil bir yolçu kimi içəri saldı. Mühafiz xoşbeşdən əvvəl əlindəki sinanı divara söykədi, dəridən tikilən yekə əlcəklərini çıxartdı.

Ortada yanan ocağın yanına gəlib əvvəlcə sifətini, sonra qulaqlarını yarım qarışca qalxan göyümtül alovun üstündə qızdırdı. Yun papağını qaşının üstündən arxaya itələdi. Özünə gələndən sonra titrək səslə xəbər aldı:

— Ə, nətərsən, ə?

Kürkə bürünüb köşkün yuxarı başındakı kötüyün üstündə oturan dərban demisini qullablayıb könülsüz cavab verdi:

— Nə təhər olacağam?.. Demək olar ki, pisdən də pis...

— Ə, niyə, İman? Nə vaxt soruşdum elə dedin pisdən də pis. Yə'ni sənin bir xoş günün olmur?

Yox, olmur, Duman... İnan ki,bu yaşa gəlmişəm, ikisini alıb boşamışam, evdəki üçüncüsüdür, nə özümün, nə onun, nə də uşaqlarımın ürəkdən şad olduğumuz gün olmayıb.— Dərban demisinin külünü boşaltdı, yenidən tütün doldurdu, çaxmağın üstünə qov qoydu, nə qədər əlləşdisə qov od almadı.

Mühafiz özünü saxlaya bilmədi, ucadan güldü:

— Ə, İman deyəsən sənin də mənim kimi fikrin uçub harasa gedib...Ocaq yana-yana çaxmaqla neyləyirsən?

Dərban da gah qova,gah çaxmağa baxıb başını buladı, çiyinləri silkələndi, sonra mühafizə qoşulub xeyli güldü.

— Oyun olsun, ay Duman! — Ocaqdan balaca bir köz götürüb demisinin üstünə qoydu. — Ay, Duman, dərd-sərimiz guya az idi, bu qardaşlar da başımıza əlavə bir oyun açdılar. A kişi, zənən xeylağından da padşah olar?.. Yə'ni bu mahalda o qədər kişi qıtlığıdır ki, ümid bir qız uşağına qalıb?.. Bu yerləri balaca xatuna bağışlamaq, onu iqtidar eləmək ən azı insafsızlıqdır. Guya atası öz vəsiyyətnaməsində belə məsləhət bilib. Axı ölünün huşu nə vaxt başında olub? Ölənin hər vəsiyyətini yerinə yetirməzlər ki! Cahan Pəhləvan vəsiyyət etmiş olsa da, gərək xanədanın yeni hakimi onu əməlli-başlı götür-qoy edəydi... Yüz ölçüb, bir biçəydi... Bir də Qızıl Arslan nə qədər igid, ağıllı, tədbirli olsa da, deyirlər meybazdır, kefbazdır. İsti baş da həmişə saz işləməz... Görəsən hansı və'dəsinə düşüb fərman verib: "Cəlaliyyə xatun da olsun Naxçıvan hakimi..." — Dərban uzun getsə də, ona dəxli olmayan dövlət işlərinə qarışsa da, mühafiz onun danışıqlarına fikir vermədi və ürəyindən keçənləri dilinə gətirdi:

—Ə, İman, deyirəm indi ələyəzli, əvəlikli bir qazan yarma aşı ola!.. İçində də balaca-balaca küftələr. Qaşığı alıb əlinə düşəsən qazanın üstünə, hortahor içəsən... Aş içməli gündür, ləzzət verər adama,

başın üçün!— Mühafiz siçanquyruq bığlarını eşdi. — Belə qarlı-çovğunlu qışınkı duru xörəkdir yarmaaşı, qurudaşı, umacaşı...

Dərban fikirləşdi: "Mənim bu siçanquyruq dostumun da fikri-zikri elə yemək yanındadı... Mən deyirəm hədəm-dəmə, bu deyir damdan-dama... "Bunları fikirləşə-fikirləşə oturduğu kötüyün üstündən qalxdı, küncdəki qara çölməyi götürüb çalanın kənarına qoydu. Mühafiz bildi ki, həmsöhbəti onu yenə nəyəsə qonaq eləmək istəyir. Buna körə də dinməyib dərbanın danışmasını közlədi.

— Xəbərdən xəbərin var?

— Ə, İman, yenə nə xəbər?

— Deyirlər Qızıl Arslanın işləri yaşdı...— Əvvəlki sözünə qayıtdı:— Məliklərin bir qismi ondan üz döndərib, bir qismi də keçib o ifritənin-İnanc xatunun tərəfinə... Qorx ki, Qızıl Aslanı aradan götürsünlər. Saraydakı ikitirəlik yarandı — axırda bir tufan qopar, fəlakət olar... Dərban olmağıma baxma, demək olar ki, bu darvaza ağzında otura-otura neçə illərdi belə-belə şeyləri çox görmüşəm.

— Ə, atalar yaxşı deyiblər: "Özü yıxılan ağlamaz." — Mühafiz məxvərini çıxarıb içini odun üstünə tutdu, qaytarıb başına qoydu. — Qızıl Arslan gərək Cahan Pəhləvan kimi bir kişinin övrətilə izdivac bağlamayaydı. Mənim zəndimə görə şəriət yol versə də, ölən qardaşın övrətini almaqdan dəyyus iş yoxdur!..

— Elə ki, danışırlar, İnac xatun istədiyi kişini özünə ram edə bilir. Təzə hökmdarın saqqızını da yəqin beləcə oğurlayıb. — Dərban demisinin müştüyünü çıxarıb onunla ocağın külünü yanlara verdi, yaxındakı kisədən bir neçə kömür götürüb gözlərin üstünə atdı.

— Oğullar, oğullar!.. Bu övrətlərin fitnə-fəsadı dünyaya özlərindən qabaq gəlib... Övrət ağacından yıxılanı fələyin əli də ayaq üstə qaldıra bilməz... Görmədin Nəsrin xatunu? Neçə il mənim günümü göy əskiyə döndərmədi, dəyyusun qızı.. Ə, İman, deyirəm nə yaxşı ki, başımızdan izalə olub getdi, yoxsa şeytan məni aldadıb yoldan çıxaracaqdı... — Mühafiz bir az fikrə gedəndən sonra siçanquyruq bığlarını eşə-eşə əlavə edib dedi:— Amma yaxşı canan idi dəyyusun qızı!

— Yamanca qaçıb qurtardı rəis! Naxçıvana hakimlik eləyənlər buradan hələm-hələm başı salamat çıxıb gedə bilməzlər... Diyarbəkirli tacir bicəngə çıxdı, bivec kürəkəninin yaxasını xəlifənin köməyi ilə Qızıl Arslanın əlindən yaman aldı.

— Dərban başını bir neçə dəfə sağa-sola yırğaladı.— Demək olar ki, əcəl aman vermədi, yoxsa Cahan Pəhləvan onun dərisini diri-diri

soyacaqdı... Əbubəkr oğluna görə... Axı dönə-dönə demişdi ki, Əcəminin başından bir tük əskik olsa, özünü ölmüş bil...

Qəfil külək birdən həmlə edib köşkün qapısını açdı, qar içəriyə doldu. Mühafiz cəld sıçrayıb qapını örtdü, sinanı götürüb qapının arxasına söykədi, sonra balaca pəncərədən eşiyə baxdı.

— Ə, siyasətdir, ay İman! Əbubəkr oğlunu özləri aradan götürüblər... Ə, elə qızıl əl sahibinə də qıyarlar? Gəl bir məqbərəyə tamaşa elə... Yayda bəzəkli gəlinə oxşayır, qışda da həşəmətli pəhləvana. Məqbərəyə baxanda adamın ölməyi gəlir. Bir şərtlə: əvvəlcədən söz verələr ki, qəbrinin üstündə belə bir tikili tikəcəyik...— Başı ilə bayıra işarə etdi.— Heç fikir verməmişdim, sisin-dumanın içərisində gör necə pəhləvansayağı dayanıb!

Dərban da yaxına gəlib mühafizin çiyni üstündən eşiyə boylandı.

— Danışığından görürəm ki, deyəsən, təzə xəbərdən xəbərin yoxdur. Deyirlər ki, Əbubəkr oğlu sağdır... Bağdadda onu görən olub.

— Ə, İman, düz sözündür?

— Ocaq yanmasa tüstüsü çıxmaz. Yəqin bir şey var ki, söz-söhbət gəzir.

— Ə, səni şadxəbər olasan, ay İman! Yoxsa nigaran gedəcəkdim. — Mühafiz siçanquyruq bığlarının uclarını cəvcələrinə doldura-doldura dərbana baxdı.— Axı gedirəm, İman!..

— Hara gedirsən?!

— Ə, hara gedəcəyəm? Lazım olan yerlərə... Belə dağlara...

— Dağ nədir, ay Duman?... Sən hökmdar sarayının mühafizisən. — Dərban demisinə təzədən tütün doldurdu.

Mühafiz hüsusi əda ilə e’tirazını bildirdi:

— Mühafizi idim... Ə, indi nə saray var, nə də hökmdar. İndicə özün dedin ki!.. Mən zənən xeylağına qaraul olub çörək qazana bilmərəm. Saraydan da, ona qulluq edənlərdən də, lətifəsi səndən uzaq olsun, sidqim birdəfəlik siyrilib... Dəyyus oğlu qaravulbaşı Əli Şimşək kimi bir igidə xəyanət edəndən sonra bütün xanədana tüpürmüşəm, lə’nət oxumuşam... Amma bir şeylə təskinlik tapıram ki, Əli Şimşəyin qardaşı bu qanı yerdə qoymayıb. Hələ qorx ki, rəisdən də hayıf alsınlar. Diyarbəkrdə olmasın, lap Bağdadın özündə olsun...

— Nə deyə bilərəm, ay Duman? Demək olar ki, qalmışam matməhəttəl. — Dərban burnunu çəkdi. — Baxaq görək nə olur bu işlərin axırı? Əcəmi bir dəfə dedi: ”Şəb obestonəst, ta zayəd səhər”... Dedim usta, yaxşı başa büşmədim.

Dedi: “Yə’ni gecə hamilədi, görək səhər nə doğacaq... ”Fars məsəlidi, yadımda qalıb...

— Amma bir ricam var...— Mühafiz bir müddət siçanquyruq bığlarını tumarladı.

Dərbana elə gəldi ki, o nəsə ürəyindəki arzusunu bildirməyə çətinlik çəkir.

— De, Duman. Ürəyində sözün var deyəsən?

Mühafiz əlini uzadıb dərbandan demisini aldı, bir-iki qullab vurub ona qaytardı. Çəkən olmadığı üçün tüstüdən az qala boğuldu, xeyli öskürəndən sonra dedi:

— Sənə deməmişəm indiyə kimi... Atam zərgər olub... Bir dəfə tanışlardan biri kiçik qardaşını gətirib atamdan təvəqqə eləyir ki, onu özünə şagird götürsün. Atam da onun təvəqqəsini yerinə·yetirir. Bir gün şagirdinə deyir: “And iç ki, əliəyrilik eləməyəcəksən... ”Şagird bir allaha, on iki imama, yüz iyirmi dörd min peyğəmbərə and içir. Atam heç nə demir, gətirib süfrə açır, şagirdlə bir yerdə çörək yeyir. Süfrəni yığışdırmamış əvvəlki sözünü təkrar edib şagirdinə deyir: “And iç ki, əliəyrilik eləməyəcəksən...” Şagird təəccüblə soruşur:

“Usta, axı mən indicə and içdim”. Atam deyir: “Mən onları and hesab eləmirəm.

De kəsdiyimiz bu çörək haqqı...”Mənim and yerim Kəniseyi-Babək olan kimi, atamın da and yeri çörək idi... İndi də səninlə məni, ə, İman kəsdiyimiz çörək dost edib, qardaş edib. Gərək bu sirr ikimizin arasında qala. Buradan birbaşa Əlincə dağlarına gedib Əli Şimşəyin qardaşlarına qoşulacağam...

Dərbanın demisi əlindən yerə düşdü, götürüb külünü boşaltdı, cibinə qoydu.

— Sən nə danışırsan, Duman?

— Ə, doğru sözümdü, başın üçün!

— İnanmazlar! Qaravulbaşının əhvalatından sonra...

Mühafiz onun sözünü yarımçıq kəsdi:

— Çalışaram inansınlar... İnanmazlar, özümə qəsd edərəm, vəssalam!

— Ağlın olsun! Demək olar ki...

Dərbanın sözünün ardı gəlmədi, diqqətlə mühafizi süzdü. Başını aşağı salıb fikirli-fikirli siçanquyruq bığlarının uclarını dodaqlarına sürtən mühafiz onun nəzərlərində birdən başqalaşdı. Dərban qara çölməyin ocağın kənarından götürüb yerə qoydu, bucaqdakı qoyun dərilərin-

dən birini öz altına, birisini də mühafizin altına çəkdi. Süfrə açdı. Sac lavaşının, sirkəyə qoyulan baldırğanın iyi köşkə doldu. Qara çölməklən yarma çəkməsini siniyə çəkib ortalığa qoydu.

— İndicə yarma aşı arzuladın... Götür görək... yenə çörək kəsək.— Dərban qəhərləndi, burnunu bir neçə dəfə çəkdi.— Amma bu bizim bir yerdə kəsdiyimiz axırıncı tikəmiz olmasın, Duman!

— Ə, ürəyini geniş elə, İman! Dünya hali deyil.— Mühafiz də qəhərləndi, pəncərədən uzaqlara baxıb adəti üzrə bayatı çəkdi: "Araz, Araz, xan Araz, Min yerdən axan Araz. Dərd əlindən üstündə Şimşəklər çaxan Araz.."

Yeməyə başladılar.

Eşikdə çovğun cövlan edirdi...

## QƏFİL KÜLƏKLƏR ƏSƏNDƏ

Günəş məşriqdən neçə dəfə çıxıb məğribdə neçə dəfə qürub etdi-heç kim hesablamadı, neçə-neçə bulaqlar birləşib çaylara qovuşdu-heç kim baş açmadı, dəryalara nə qədər təzə sular axdı-heç kim fərqinə varmadı, neçə-neçə gündüz gecəni qovdu, neçə-neçə gecə gündüzün üzünə zülmət pərdəsi çəkdi-heç kim bilmədi.

Əcəmi də günəşin doğub batmasına tamaşa edə-edə, bulaqlardan su içə-içə, çaylardan adlayıb neçə-neçə gecəni gündüzə, gündüzü gecəyə qata-qata, nağıllarda deyilən kimi, neçə-neçə yollardan keçdi, aşırımlar aşdı, keçdikcə də, aşdıqca da saçlarına düşən dən çoxaldı, illər çin-çin olub yaşının üstünə qalandı...

Bir də gördü ki, cavan çağlarında ürəyində baş qaldıran ülvi hisslər get-gedə azalır, dizlərinin kirdarı zəifləyir, gözləri işıqdan düşür, əvvəllər böyük həvəs göstərdiyi işlər üçün kahallığı artır. Ətalət ayaq açıb onun kölgəsi ilə yanaşı addımlayır, işlədiyi, gecələdiyi yerlərdə ona yoldaş, sirdaş olmağa can atır.

Ətalət... Şərqliləri min illərlə geriyə atan ətalət! Bir sıra böyük-böyük kəşfləri şərqlilərin əlindən alıb səxavətlə qərblilərə bəxş edən ətalət!..

Əcəmi bu qarmaqarışıq fikirlər içində Xorasan bazarına gəldi. Bazar hələ bağlı idi. Arıq-arğaz dəvələr divarların dibində xıxıb ləzzətlə kövşək vururdular. Hərdənbir də başlarını silkələyərək zınqırovlarını səsləndirirdilər.

Bir az keçəndən sonra bazarın darvazası önündə təbil çalındı. Qa-

pılar açıldı... Hərə öz matahını içəri sürdü, münasib yer tapmaq, gətirdiyini tez satmaq üçün sə'y göstərdi.

Əcəmi adamların, yan-yana xıxlanmış dəvələrin, bir-birinə çatılmış ulaq-qatırın yanından keçib yuxarı başa tərəf addımladı. Çörəksatanın yanına gəldi, cibindən naxışlı kisəsini çıxartdı, götürdüyü pulu ona uzatdı.

— Nə istəyirsən, qoca... Qalın, ya səngək?

— Hansı təzədirsə ondan ver... yol gedəcəyəm.

— Nə hərcayı-hərcayı danışırsan? Təzə olmamış köhnə olacaq? Palı atonnan, hamı olub şərbaz! Bilmirəm bu Məhəmməd ümtətinin şər-şamatadan niyə xoşu gəlir? — Çörəkçi birdən özündən çıxdı.— A kişilər, qandırın da məni... Bəlkə mən qanmazam... Bu da ixtiyar məxluq!— Müştəriyə təpindi:— Qoca, xeyir-dua vermək əvəzinə bazarımı korlama. Çəkil get! Heç sənə çörək satmıram, sənin pulun da mənə lazım deyil. Vəssalam!— Pulu onun üstünə tulladı.

— Bağışla, bəradəri-əziz, — Əcəmi çörəksatanın yersiz əsəbiliyini azaltmaq istədi.— Bilirsən, uzaq yol gəlmişəm... Yorulmuşam... Bağdaddan gələn qafiləmiz bir az bundan əvvəl Xorasana çatıb... Aclığım var... hirslənmə, mən təzəsindən deyəndə yumşağın demək istədim.— Əlindəki quruşlardan bir neçəsini təzədən ona uzatdı. — Götür, neçəsi lazımdırsa, bir az da artıq götür... Mənə təzə çörək lazımdır, karvan sabah, sübhdən yola düşəcək... Naxçıvana gedib çatana kimi...

Çörəkçi onun sözünü ağzında qoydu:

— Gözlərim aydın! Kişi Naxçıvana gedəcək!.. Qoca kişisən qaxıl otur evində, bu qafilədən ayrılıb o birisinə qoşulmaq, bu dəvədən düşüb o birisinə minmək xoşuna gəlir?— Çörəksatan yenə qızışmaq istədi.

Əcəmi onun uzun gedəcəyini görüb dedi:

— Bəradəri-əziz, evindən-eşiyindən sərgərdan düşənlərin nəsibi əzəli gündən karvanlar olub, qafilələr olub, yollar olub... Bu yollar da ki uzandıqca uzanır, nə əvvəli var, nə də sonu...

Çörəkçi qocanın ağ saqqalına, əlindəki səndəl ağacına xeyli baxandan sonra istehza ilə soruşdu:

— Qoca, yoxsa məlikülhacsan?[1] — Əlini əlinə çırpıb şit-şit güldü.

Əcəmi fikirləşdi: "Həyatda təzada bax ha? Gözəl-gözəl gülləri bə'zən kifir - kifir adamlar satar... Çörək kimi əzizləziz ne'məti də belə-belə heyvərələr..."

1. Ziyarətə gedənlərin bələvçisi

Əcəmi çörəksatana baxıb başını buladı, ovcundakı pulu qaytarıb kisəsinə qoydu, bazardan çıxmaq istədi. Elə bu vaxt adamların içərisindən başı çarşablı bir zənən xeylağı onun boy-buxununa, sonra başındakı ağ çalmasına, əynindəki xakı rəngli mahud çuxasına, çuxanın altından geydiyi tünd sarı ipək köynəyinə, köy-nəyin yaxasında buta-buta naxışlara diqqətlə baxdı. Nəzərləri bir anlığa onun mütənasib sifətində, tamam ağarmış topa saqqalında gəzdi və nəhayət, hələ də diri görünən qayğılı gözlərində ilişib qaldı. Sonra qurşağına keçirdiyi səndəl ağacından bir müddət nəzərlərini çəkmədi. "Özüdür... odur... amma yaman qocalıb..." deyib öz-özünə pıçıldadı..

Əcəmi isə yerindəcə donub qalmışdı. Fikirləşirdi: "Görəsən məni kimə oxşadır?.."

Zənən xeylağı nəhayət dilə gəlib dedi:

Gəlin bura... məndən alın... Səngək məndə var... özüm bişirmişəm... təzədi, yumşaqdı...

Müştərisinə zənən xeylağının müştəri çıxması çörəkçinin xoşuna gəlmədi.

— Hə, get, get! O bihəyanın müştərisi ol... Səngəyi də özü kimi yumşaqdı.

Misir pambığı kimi... Nişapur mütrüblərinin göbəyi kimi! — Ucadan qəbqəhə çəkib güldü. Ağız deyəni qulaq eşitməyən səs-küylü Xorasan bazarında çörəkçinin qəh-qəhəsini çoxu eşitdi.

— Bir az ədəbli olun, bəradəri-əziz...

— Bəradəri-əziz, bəradəri-əziz!— Çörəkçi Əcəmini yamsıladı.— Qoca, səni mənlə kim qardaş elədi? Əcəlin mayallaq vurmasın, rədd ol!..

Əcəmi kor-kobud çörəkçiyə baxıb xeyli başını buladı.

— Çox şükür ki, qardaş deyilik...

— Əlbəttə, çox şükür!— Çörəkçi Əcəminin sözlərini başa düşmədiyi üçün razılaşdı və birdən yenə qəhqəhə çəkib güldü və güləgülə də dediyi sözləri bir neçə dəfə təkrar etdi:— Əlbəttə, çox şükür, əlbəttə, çox şükür!..

Zənən xeylağı Əcəminin qolundan tutub onu yana çəkə-çəkə dedi:

— Baş qoşma ona... Adam deyil, əzrayıldı... Tünbətün hatib ibn Mübarəkin tayfasındadır... Bəri gəl.

Əcəmi Hatib ibn Mübarək adını eşidəndə, üstəlik, onun ölümünə işarə vurulanda ayaqları yerə yapışdı. Deməli, zənən xeylağı kimdisə onu tanıyıb...

— Sən... sən kimsən, bacı?!

— Gəl... gəl...

— Yox! Gərək biləm, sonra... Zənən xeylağı onun qolundan dartışdıranda çarşabı başından siyrilib çiyinlərinə düşdü. Əcəmi ona diqqətlə baxdı, saçları gümüşə çalan, qırış-qırış olsa da, əvvəlki təravətini qismən hifz edib saxlayan sifət ona tanış gəldi...

Zənən xeylağı daha dözə bilmədi:

— Sən tanıya bilməzsən... Amma mən görən kimi tanıdım səni, Əcəmi!.. Bir... gözlərindən tanıdım... bir də... səndəl...

— Dəryanur!..

...Əcəmi gələn qafilə bir isfahanlı tacirin karvanı idi. Naxçıvandan xalça-xalı, dulusçuluq mə'mulatı yukləyib geri qayıdacaqdı. Əcəmi sarbana kifayət qədər pul verib onu Naxçıvana aparmağa razı sala bilmişdi.

Xorasandan aralanandan sonra qara nərin belinə bərkidilən arvanada mürgüləyə-mürgüləyə yol gedən Əcəmi gecə Dəryanurun ona danışdıqlarını bir-bir yadına salırdı...

..."Qüdsi-barigah Bağdada varid olan günün səhərisi məni xəlifənin sarayına apardı. Xəlifə ipək pərdənin arxasında oturmuşdu. Özünü güclə görsək də, səsini yaxşı eşidirdik:"Hatib, illər tez-tez gəlib-gedir... Verdiyin və'də nə vaxt gəlib çatdı, boyun olduğun bu ceyran nə vaxt böyüyüb ərsəyə gəldi, heç bilmədim..

Amma ceyranın xoşuma gəlir, Naxçıvanda deyəsən belələri çoxdu, hə?.." Şeyx şit-şit gülüb dedi: "Əmirəlmö'minin, bu ceyran Naxçıvan ceyranı deyil, Təbriz ceyranıdır. Bunlar iki bacı idilər. Bunun adı Dəryanurdur, kiçiyin adı Cahannur idi... Palanduz qızıdırlar. Bunu mən alıb saxladım. Əhd elədim ki, böyüdüb, yetkin vaxtı hüzurunuza gətirim... Özünüzə hələ cavanlıqdan agahdı ki, mən borclu qalmağı xoşlamıram... "Ağız-ağıza verib xeyli gülüşdülər, biri pərdənin bu tərəfində, biri də o biri tərəfində... handan-hana xəlifə özünü düzəldib dedi: "Hatib, özündən az de, heç mən də borclu qalan oğul deyiləm... Nə demişəm, nəyə söz vermişəm mütləqa olacaq... Şeyx öz sözünü yerinə yetirəndə, xəlifə dünəndən yerinə yetirib..."

Mən isə sakitcə bir tərəfə qısılıb dayanmışdım... Bütün bədənim əsirdi... Bu nə sövdələşməydi?.. Baş aça bilmirdim... Xəlifə soruşdu: "Dedin bunlar iki bacıydı?.. Bəs kiçiyi necə oldu?" Şeyx dedi: "Kiçiyi bir axşam evdən yoxa çıxdı... Dedilər ki, Təbriz hakimi Fələkəddinin adamları oğurlayıblar qızı... Bir həftə Fələkəddinin yanında qalan qızı qul kimi satmağa aparanda qaçıb, hər yeri ələk-vələk eləyiblər ta-

pa bilməyiblər... heç bilirsiz, həmin Cahannur sonralar harda peyda olub? Həmin qızdı ki, Cahan Pəhləvanı aldadıb oğlan adıynan onun məktubunu Ruindəj qalasında Təbriz hakiminə aparıb. Qəsdi də Fələkəddini öldürmək imiş. Bunu bilən hakim də onun boynunu vurdurub, atı ilə birlikdə başını Nüsrətəddin ibn Şəmsəddinə qaytarıb... Bəlkə də həmin qız olmasaydı, Cahan-Pəhləvan bizim köhnə dostumuz Fələkəddi Əhmədin gözlərinə mil çəkdirməyi rəva bilməyəcəkdi..."

Mən xəlifə ilə şeyxin söhbətindən sonra bildim ki, adı uzun müddət Naxçıvanda, Təbrizdə, Həmədanda xoş niyyətlə çəkilən, yad olunan Cahannur mənim bacım Cahannurumuş... Çox heyfsiləndim ki, bir neçə günlüyə Naxçıvana gətirilən bacım mənim orada olmağımı bilməyib... Heç məndə bilməmişəm... İstədim qışqıram, özümü şeyxin üstünə atıb üzünə tüpürəm, onu boğam, amma bacarmadım. Xəlifə də, şeyx də bir müddət dinmədilər... Birdən xəlifə sağ əlini üç dəfə sol əlinin ovcuna vurdu. Xidmətçi tez qapının dalından çıxıb özünü içəri saldı, əllərini sinəsində çarpazlayıb baş endirdi. Xəlifə əsəbi-əsəbi dedi: "Bu qızı mənim istirahət otağıma apar... "Xəlifə əl-Müktafi məni bircə gün öz otağında saxladı. Özü də elə bil məndən intiqam alırdı...

Təkcə məndən yox, mənə süd verən anamdan, palanduz atamdan, padşahla üz-üzə dayanaraq başını onun qılıncının altına verən bədbəxt bacımdan intiqam alırdı... Mən o gecə hər şeyə nifrət etdim... Xilafətə də, xəlifəyə də, hətta adı onların üstündə olan Məhəmmədə də, kölgəsi onların üstündə olan allahın özünə də... Nə başını ağrıdım, səhərisi xəlifə mənim qulağıma heydəri saldırıb heyvərə bir zindan gözətçisinə bağışladı. Həm də ona dönə-dönə tapşırdı ki, nəbada-nəbada bunu zindandan kənara buraxasan! Buraxsan, həmin gün başını bədəninin üstündə görməyəcəksən... Beləliklə də həm bəndam oldum, həm də zindan dustağı. Ömrümün düz on altı ilini beləcə zindanda keçirdim. Neçə dəfə cəhd göstərdimsə zindandan qaça bilmədim, özümü öldürmək istədim, fürsət düşmədi. Əvəzində cəzalandım,təhqir olundum... Bir gün zindançı ağır xəstələndi, məni də ona qoşub zindandan buraxdılar, amma üstümüzə elə göz qoydular ki, bir addım kənara ata bilmədik.

Bir gün gəldi ki, xəlifə cəhənnəmə vasil oldu. Zindançı da elə bil onu gözləyirdi, ömrünü sənə bağışladı.

Qaldım onun bu komasında tək-tənha. Əvvəllər bilmədim nə eləyim... Sonralar yavaş-yavaş əlimi yığdım başıma, xırda-xuruş alver etdim. Bir neçə ildi şatırçılıq edirəm. Axşamlar səngək bişirib səhərlər

satıram... Bu vəfasız dünyaya niyə gəlmişəm, bilmirəm... niyə yaşayıram, onu da bilmirəm..."

Əcəmi qara nərin zınqırovlarının səsinə xəyaldan ayrıldı. Yan-yörəsinə baxıb təzədən mürgüləməyə başladı. Bu dəfə də öz başına gələnləri Dəryanurun hönkür-hönkür ağlaması, avazla ağı deməsi yadına düşdü, bədənindən bir gizilti keçdi.

Vidalaşanda etdikləri söhbət qulaqlarında səsləndi:

"— Razı ol sənə kömək edim..."

"— Çox sağ ol, Əcəmi!"

"— Heç olmasa yüz dinar..."

"— Bu niyyətini bilsəydim, özümü tanış verməzdim..."

"— Ötən illər ərzində hara getmişəm gözlərim səni gəzib... Təbrizdə də axtarmışam, Bağdadda da. Amma heç gözləmədiyim halda gəlib Xorasanda tapmışam... Gəl səni Naxçıvana aparım".

"— Mən daha o tərəfə ayaq basmaram..."

"— Peşman olmazsan..."

"— Yox, Əcəmi... Bircə ona sevinirəm ki, bir-birimizdən qiyamət gününə kimi nigaran qalmadıq... Sən yolundan qalma, get... vətəncuda[1] olmaq ağır dərddir... Bir də sənin ata-baba yurdunda əziz yadigarların var. Sənə yaxşı yol. Sağ-salamat gedib çatasan... Cavan vaxtlarını xatırlayanda məni də yad eləsən, elə bəsimdir... Allah amanında!..

...Qafilə Şahab meydanında dayandı. Əcəmi dəvədən enəndən və sarbana razılıq edəndən sonra yorğun olmasına baxmayaraq əvvəlcə Yusif ibn Küseyrin sərdabəsinə gəldi, onun başına hərləndi, içəri girib tələsik ziyarətnamə oxudu. Şəhdigülü yad etdi. Onu ilk dəfə burada gördüyü çağları xatırladı... Şahab meydanından keçib Yəzd-kürd qalasına tərəf getdi, dar küçələrdən keçib sağa buruldu, Atabəylər meydanına çıxdı. Mö'minə xatun ananın abidəsini görəndə özünü saxlaya bilmədi, əlindəki səndəl ağacını yol kənarındakı qələmələrdən birinə söykəyib doluxsundu. Ürəyindən qəribə hisslər keçdi. "Ey qələmə ağacları, gələn mənəm, Əcəmiyəm... Bir vaxtı sizi əkib-becərən Əcəmi... Sizsiz darıxan, sizin həsrətinizi çəkən Əcəmi!.. Siz yazda yaşıla bürünürsünüz, qışda çılpaq olursuz. Mən Əcəmi isə daha yarpaqlayıb yaşıllaşan deyiləm...

Getdi Əcəminin yarpaqlayıb yaşıllaşması!.. Kəsdi Əcəminin başı üstünü payızın qalın-qalın, boz-boz buludları!.. Düz demirəm Elalnı?.. Düz demirəm Araz?.. Düz demirəm ülya-mələkə Mö'minə xatun?.."

1 Qürbətdə yaşayan.

Birdən bədənindən qəribə bir üşütmə keçdi, ayaqlarının altı, əllərinin içi göynədi, çiyinlərindən soyuq bir sızıltı axıb barmaqlarının uclarına doldu. Elə bil boğurdular onu... Dərindən ala-ala yola düzəldi, abidəyə çatan kimi kövrəldi, nə kövrəldi!.. Sümükləri çıxan qollarını yanlara açıb "Mö'minə xatun"u qucaqladı, üzünü kitabələrə sürtə-sürtə başına dolandı, dolandı:

— Salam, mənim suheylim!.. Sə'di-əkbərim!...[1]

Özünü saxlaya bilmədi, sürüşüb abidənin səkisinə yıxıldı...

Qoca bir kişi iki əli ilə onu silkələyib ayıltdı, uzandığı yerdən qaldırıb oturtdu.

Əcəmi ağarmış başını yavaş-yavaş qaldırıb dumanlı gözlərini qənşərində dayanan qocaya dikdi. Sir-sifəti dəyişilsə də gözləri, xoş təbəssümü yerində idi qocanın. Xeyli baxışdılar; birdən Əcəmi qollarını yanlara açıb onu bərk-bərk qucaqladı:

— Cəmil!

— Əcəmi!..

— ...Səni soraqlamağa başladım. — deyə Cəmil evinin balaca eyvanındakı taxta çarpayının üstündə yatağa uzanan Əcəmiyə olub keçənləri nəql edirdi: — Məndən də çox, bax, bu narahat idi.— Kənarda dayanan Zəhranı göstərdi. — Elə oturub-durub deyirdi ki, sən necə dostsan, bəs adamı bir ayırıb-axtarmazlar? Amma mənim ürəyim rahat idi... Elə hey eşidirdim ki, Bağdadda bir bənna görüblər, lap Əbubəkr oğluymuş ki, durmuşmuş. Marağada bir məqbərə tikiblər, naxışlarını elə bil Əcəmi əlləri vurub... Xorasanda söz gəzir ki, Cahan Pəhləvanın şeyxül-mühəndisi sağdır...

— Hə,— Əcəmi dərindən köks ötürdü.— Mən hələ sağam. Amma Əlini hifz edib saxlaya bilmədiniz... Bir gün Bağdadda bir adama rast gəldim. Söhbətindən mə'lum oldu ki, xanəgahlıdır... Məni tanımadı, dedim ki, bir dəfə Əlincəyə gəlmişəm.— Öskürdü, bir an gözlərini yumdu, sonra söhbətinə davam etdi:— Xanəgahda da olmuşam. Tanıdığım adamları ondan soruşdum, o da bildiklərini danışdı... Mən bilirdim ki, axırı belə olacaq... Ancaq heyf Əlidən, həqiqətən şimşək idi, çaxdı və söndü... Bəşər övladı üç bəladan qaçıb qurtara bilməz... Bunun biri pic övladdır... Mən bundan azadam... Biri qocalıqdır, biri də ölüm... Bunların hər ikisi məni haxlayıb... Gedirəm... Yaxşı ki, yer üzündə yadigarlarım var... Onlara baxıb məni yada salarsız...

— Sənin qədrini bilmədilər, Əcəmi!— Cəmil onun başının altına əlavə bir balış qoydu.

1. Günəşə ən yaxın olan ulduz.

— Saraylardan bundan artıq nə gözləmək olardı?.. İnsan oğlu yüz illərdi... min illərdi ədalət axtarır, amma tapmır. Min-min il də axtarsa tapmayacaq... Bu arzu qiyamətə kimi ürəklərdə qalacaq.— Əcəmi bir müddət yenə öskürdü, sakitləşəndən sonra gözlərini bir müddət səmanın dərinliyinə dikib dayandı. Birdən nəyəsə qulaq kəsildi. Cəmilə elə gəldi ki, o nəsə eşidib qulaq asır. Yanılmamışdı. Əcəminin qulağına yenə ud səsi gəlirdi, çalan Kor Əhsən idi... Udda muğam çalırdı, qədim bir muğam...

— Odur... yenə çalır... Mərhaba, eloğlu!..

Cəmil qulaq asdısa da, heç nə eşitmədi.

— Kim çalır, Əcəmi... Nə çalır?!

— Eşitmirsən... Əhsəndi çalan...

Cəmil sınıb mə'yus oldu.

— Sənə... sənə elə gəlir, Əcəmi... Əhsən keçən il rəhmətə gedib...

Cəmilin bu sözündən sonra Əcəminin "qulağına gələn səs" xırp kəsildi.

Eşitdiyi bir əhvalat yadına düşdü: Əhsən şərab nuş edib rəisin qabağını kəsir. Rəis soruşur: "Niyə içmisən?" Əhsən deyir: "Sənin zülmünə, bəd əməllərinə dözmək üçün gərək yarıayıq, yarıxumar olasan..." Rəisin onun başına endirdiyi zərbə ani olur. Əhsən yıxılır, ayılanda onun nəzərində artıq zülmət idi...

— Heyf!.. Qəbri nurla dolsun... Yaxşı sənətkar idi. Onun udunu heç kim çala bilməzdi... İndi elə qulaq asardım!..

Cəmil Zəhraya baxdı. Ev sahibəsi heç nə demədi, başını aşağı salıb içəri keçdi, ud səsləndi.

— Sən... sən mənim sözümü niyə qəribliyə salırsan... Axı kimsə ud çalır... özü də lap yaxında.

— Hə... indi çalırlar.— Cəmil qəhərləndi.— Zəhra çalır... O, bu evə ayaq basandan uda əl vurmamışdı. Udunu Cəliləddinə bağışlamışdı. Cəliləddinin ölüm xəbəri gələndən sonra udu qırıb parçalamaq istədi, qoymadım. Amma bu gün sənin xatirindən keçə bilmədik...

— Mərhaba!..

Əcəmi gözlərini yumub bu sözü kəsik-kəsik təkrar etdi. Dəryanuru xatırladı... Udda çalınan təranə də dəyişildi. İlk dəfə Hatib ibn Mübarəkin həyətinin yanından keçəndə cariyə qızın-o vaxtkı dəcəl, deyib-gülən cavan Zəhranın çaldığı mahnı ilə əvəz olundu...

Əcəmi yavaş-yavaş dikəldi, sinəsi üstə qoyduğu səndəl ağacını götürdü və əlini Ağrı dağına tərəf uzadıb nəsə demək istədi, lakin nə-

fəsi gedib-gəldiyindən dili bir müddət söz tutmadı. O, handan-hana sakitləşdi və qırıq-qırıq danışdı:

— Uzun-uzun yollar... keçib gəlmişəm ki, ata-baba... yurdumu... övladlarımı... Şeyx Yusifin məqbərəsini... Mö'minə xatunun abidəsini yaxından görüm... Yoxsa bu torpaq... məni öz qoynuna... halallıqla qəbul etməz.— Əcəmini yenidən öskürək tutdu. Cəmil ev sahibəsini çağırdı. Udun səsi kəsildi.

— Su gətir...

Zəhra əlində cam gəldi. Cəmil bir-iki qurtum suyu ona zorla içirdi.

— Məni... yerə uzat...

Onun xahişini yerinə yetirdilər, hər ikisi gözlərini ağzına dikib nə deyəcəyini gözlədilər. Əcəmi bir-iki ağız da öskürüb güclə sözünə davam etdi:

— Dostum Nizami deyib: "Həme momkenol-vocudi rəqəme-həlak darəd..."[1]

Cəmili qəhər boğdu:

— Dostun axı bunu da deyib: "To ke, vacebol-vocudi... əzəlo əbəd... bemani"[2].

— Hə... düz deyirsən...

— Özün dedin ki, Naxçıvana əbədi bir möhür vurmaqdır məramım. Qoy bu möhür gələcək nəsillərə desin: "Bu yerlər bizim ata-baba yurdumuzdur... Başqaları bura göz dikməsinlər..."

— Qocanın qocaya təskinlik verməsi əbəsdir... Yadından çıxarma mənim sözlərimi: dünyada acı olmasa şirin... yaman olmasa yaxşı, nadan olmasa arif, kədər olmasa sevinc yada düşməz... Bəşər övladı düşmənə görə dostun, namərdə görə mərdin, qürbətə görə vətənin qədr-qiymətini bilib... Belədir əzəli gündən hökmü-zamanın!— Yenə öskürdü, az qaldı boğulsun.— Deyirlər Şərqdə təbabətin tacı sayılan... "Əl-qanun fittibb" kimi bir kitab bağlayan... min bir dərdə əlacın yollarını göstərən... Hüseyn Əbuəli[3] öz dərdinə dərman tapa bilmədi...

Əcəmi gözlərini yumdu...

Cəmil mütəəssir oldu. "Elə bil ölümə yox, şirin yuxuya gedir..." Zəhra hönkürüb yaylığının ucunu gözlərinə sıxdı... Yəzdi-kürd tərəfdən qəfil küləklər əsməyə başladı...

1 Əcəldən heç kim yaxa qurtara bilməz.(fars.)
2 Yaradana ölüm yoxdur bu dünyada.(fars.)
3 İbn Sina.

## *SARAY DƏBİRİNİN SON YAZISI*

*Ey dünya! Ey ərşi-fələk! Ey asəfi-dövran! Gərdişindən fələyin özü də baş aça bilməyən dünya! Bolluca-bolluca dərdisəri, acısı-ağusu, azca-azca şadlığı-sevinci, şirini-şəkəri olan dünya!.. . Birinə batman-batman yamanlıq, birinə misqal-misqal yaxşılıq paylayan dünya. Birinə əlçim-əlçim nur, birinə bulud-bulud zülmət bəxş edən dünya... Gəlimli-gedimli, olumlu-ölümlü, qalımlı-itimli dünya. Gör kimlər gəldi, kimlər getdi, kimlər oldu, kimlər öldü, kimlər qaldı, kimlər itdi səndə? Birinə mərd, birinə namərd dünya!.. Hanı atabəy-ə'zəm Şəmsəddin Eldəgəz? Hanı onun bir sözü iki olmayan, qılıncından qan daman oğulları Nüsrətəddin Cahan Pəhləvan, Müzəffərəddin Qızıl Arslan? Hanı atlarının kişnərtisi bir günlük mənzildən eşidilən nəvələri Mahmud, Əmiran, Əbubəkr, Özbək? Hanı bütün bəni-Eldəgəz, Hanı? Bəyaz saçlı mərhum anam deyərdi: "Bizim bu dünyadan köçüb axirət dünyasına getməyimizə bir o qədər qalmır. Bu gün-sabah cənab Mehdi Sahib əs-Zaman zühur edəcək. Zühur edən kimi də bu dünyaya onun öz ümməti gələcək... "Madam ki, belə olacaq, onda bu dünyanı mütləqa hifz edib Mehdi Sahib əs-Zamana da, onun ümmətinə də abad halda, tikili halda təhvil verməк gərəkdir... Əlbəttə, bunlar çox vaxt bizdən asılı olmur, tarixin öz dərsi, zamanın öz gərdişi mövcuddur. Tarix, zaman isə istiqbala gedən yollardır. Əyri-üyrüsü də olur, düpdüzü də, dolayısı da olur, hamarı da... Nə olur-olsun, amma mən bir dəbir kimi onu bilirəm ki, gün keçəcək, həftə ötəcək, ay dolanacaq, il ilə qovuşacaq, Günəş yenə məşriqdən tülu edib doğacaq, məğribdə qürub edib batacaq. Bu ulu dünyamıza nəsillər gəlib, nəsillər gedəcək, nə şahları yada salacaqlar, nə də padşahları; nə xaqanları xatırlayan olacaq, nə də hökmdarları... Amma Əcəmini, Əbubəkr oğlu Əcəmini hamı yad edəcək, hamı xatırlayacaq-xeyirxah əməlinə görə, ilkin növbədə, bəzəkli gəlinə oxşayan, həmişə canlı kimi görünən, nəfəs alan, insanların ovqatını təzələyən "Mö'minə xatuna" görə. Hamı da deyəcək: "Mərhaba, mərhaba!" Və bunu da deyəcəklər:*

*"Ey insanlar, bu yurd da, onun üstündəki abidələr də sizə bir ata-baba amanatı..." Axı böyük ustadın özü də ürəyindən keçənləri abidənin lal kitabələrinə elə beləcə həkk edib: "Təlatüm içrə biz, sükunətdə daim rüzgar. Köçərik dünyadan, amma bu qalar yadigar..."*

*1973 — 1984*

# Hekayələr



## VİCDAN SƏSİ

Şəhərə azacıq yağış çilənmişdir, özü də axşamçağı, günəş üfüqə əyiləndə. Torpaqdan qalxan xoş rayihə təzəcə tumurcuqlanan ağacların ətrinə qarışıb pəncərədən içəri dolurdu. Evlərin eyvanları qarşısındakı bağ-bağçalarda quşlar yaz nəğməsi oxuyurdu. Qarlı-şaxtalı qışdan sonra təzə-təzə eşidilən bu səsləri küçədən ötən maşınların uğultusu hərdənbir pozsa da yaz özünü göstərirdi; torpaq da dəyişilmişdi, səma da, havada da bir yenilik hiss olunurdu, insanların əhval-ruhiyyəsində də ...

Kamal müəllim isə həm fikirli idi, həm də xürrəm. O, belə vaxtlarda üzü Xəzərə baxan aynabənddə dayanmağı, sahilsiz sulara saatlarla tamaşa eləməyi, dənizin üfüqlə birləşdiyi xətt boyu sağa-sola nəzər yetirməyi xoşlardı...

Birdən dənizdən külək gəldi, ağacların budaqları bir-birinə toxunub qarışıq səslər çıxartdı. Uzaqda boz təpələrin arxasında şimşək havanı yardı, hardansa göy gurultusu eşidildi.

Ev yiyəsi elə bil birdən üşüdü, aynəbənddə çoxdan dayandığını indicə xatırladı, əllərini bir-birinə sürtə-sürtə otağa keçdi. Pəcərənin açıq tağını örtmək istəyəndə qonşu binada kiminsə tarda çaldığı qədim bir muğamın həzin sədaları axıb içəri doldu. Kamal müəllim yerindəcə donub qulaq kəsildi. Tarzən çalırdı. Elə bil aşiqin ürəkləri riqqətə gətirən naləsi; mə'şuqun pünhan iztirabları tarzənin incə barmaqlarından axıb sarı simlərə hopur, oradan da qanadlanıb məhəlləyə yayılırdı...

Kamal müəllim son illər tar səsinə belə arxayın, belə ləzzətlə qulaq asmamışdı. Qəribədir, nədənsə tar səsi eşidən kimi o, Füzulini, saz səsi qulağına dəyən kimi aşıq Ələsgəri xatırlayardı...

Tarın səsi birdən kəsildi. Kamal müəllim pəncərənin tağını örtdü, otağa axşam qaranlığı çökdüyü üçün işığı yandırdı. Keçib kresloya əyləşdi, axırıncı səhifələrini oxuduğu kitabı mizin üstündən götürdü: "Sərdar Rəşidin Zəncan şəhərində teleqrafxanaya girərkən öldürülməsi və qatilin ələ düşməsi ildırım sür'əti ilə Təbrizin hər tərəfinə yayıldı..."

Qapının zəngi çalındı. Kitab əlində qalxıb dəhlizə çıxdı. Gələn Şəfa xanım idi. Kamal ömür yoldaşını yenə yorğun gördü. Kamal heç nə demədi, onun əlindəki zənbili alıb mətbəxə apardı, sonra qayıdıb plaşını soyunmasına kömək etdi, hətta nəfəsini dərsin deyə heç bir sual da vermədi. Şəfa xanım keçib yataq otağında paltarını dəyişdi, gətirdiyi meyvəni yuyandan sonra vaza yığıb stolun üstünə qoydu. Kamal müəllim daha dözə bilmədi.

— Bu gün niyə yubanmısan?

— Yenə ağır yaralı gətirmişdilər...
Kamal müəllim kreslosunda dikəldi, təşvişlə xəbər aldı:
— Cavandır?
Şəfa xanım dərindən köks ötürdü:
— Bəs kim olacaq? Dünən yaş gününü qeyd ediblər. Məclisdən sonra da qəzaya düşüb. Özü də atasının maşınında.
Kamal müəllim narahat oldu, tez soruşdu:
— Vəziyyəti ağır deyil ki?
Şəfa xanım kəsik-kəsik danışdı:
— Necə deyim, əvvəlcə çox ümidsiz idi. Qan çox itirmişdi... Eh mən də gedib özümə sənət seçdim!... Cərrahlıq qadın peşəsi deyil! Öz övladının ayğına tikan batanda onu çıxarmağa ürəyin gəlmir. Başqasının uşağını necə kəsib doğrayasan?..
Otağa sükut çökdü. Kamal müəllim kitabı götürüb mizin üstünə qoydu. Ömür yoldaşına təsəlli vermək üçün valideynlərin qarasınca deyindi:
— Bu atalara nə deyəsən! Bə'ziləri yaman soyuqqanlı olublar! Maşını alıb verirlər dəli qanlının birisinə. Sonra da deyirlər: min, çap! Elə bil dayısı Qulamhüseynin kürənidi, minir hara istəyir ağzını çevirir. Daha demir ki, bir yığın metal parçasıdır, dil qanmır, insafı yox! Görürsən gözəl-göyçək bir igidi elədilər şikəst... Oldular tay-tuş yanında xəcil! Ya da...
Sözünü axıra kimi demədi. Bilirdi ki, Şəfa xanımın "ölüm" sözündən xoşu gəlmir. Söhbətin səmtini dəyişmək istədi. Ancaq evin sahibəsi ondan qabağa düşdü:
— Yaxşı, sən narahat olma. Çay içmisən?
— İçmişəm. Uşaqlar indicə getdilər. Səni çox gözlədilər.
— Xörək hazırlayım?
— Hə, Qulamhüseyn dedim yadıma düşdü. — Kamal müəllim gərginliyi azaltmağa çalışdı, gülümsəyib əlavə etdi: — Qulam zəng eləmişdi, bizə təşrif gətirir.
Bu xəbər Şəfa xanımın ürəyincə olmadı, üz-gözünü turşutdu. Həmişə xoş bir təbəssüm sezilən sifətində sərt cizgilər göründü:
— Gözümüz aydın! — dedi. — Görəsən yenə nə işi düşüb... Quyruğu qapı arasında qalanda qohumluğumuz yadına düşür. Zəhləm getmiş! — Səsinin ahəngini dəyişdi: — Sən də qəribə adamsan, ay Kamal. Deyəydin ki...
— Nə deyəydim?
— Nə bilim... Söz tapaydın da.
Qapının dalbadal çalınan zəngi otağa doldu.
— Buyur, — deyə Kamal qapını göstərdi. — Deyərlər adını çək, qulağını bur... Səs küyünü eşidirsən?

— Birinci dəfədir? — Şəfa xanım da suala sualla cavab verdi. — Mən mətbəxdəyəm, — deyə dəhlizdən adladı. Zəng yenə də səsləndi. Kamal müəllim qapını açdı. Qulam təngnəfəs içəri keçdi, salamsız-kəlamsız soyunub plaşını qapının arxasına qoyulmuş asılqana keçirdi, şlyapasını da onun üstündən asdı. Darağını cibindən çıxarıb daz başının ortasındakı bir neçə tükü darayıb sol qulağına tərəf apardı. Eynəyini sol əlinin baş barmaqları ilə burnunun üstündən bir balaca yuxarı dikəltdi. Özündən çox razı halda, həm də ərklə keçib stolun başında əyləşdi. Kamal müəllim isə ona məhəl qoymadan öz yerində oturdu

— Çıxartdılar! — deyə Qulam dərindən nəfəs aldı. Elə bil çiynindəki ağır yükü götürüb yerə atdı: — Axır ki, mən deyən oldu! Atdılar mitilini bayıra!..

Kamal müəllim maraq göstərdi:

— Kimin?

— Savalanın.

Kamal müəllim çiyinlərini çəkdi. Qohumunun nə barədə danışdığını, nəyə görə belə yüksək əhvali-ruhiyyədə olduğunu da aşıra bilmədi. Və təəccüblə:

— Nə olub ki?!— dedi.

Qulam başını silkələdi.

— Necə yə'ni nə olub?.. Bilmirsən ki, neçə ildi mənim gözüm onun yerindədir? Buyur, ixtiyar sahibisən çirmə biləyini, göstər qohuma köməyini!— Vazdan bir alma götürdü, cibindən kiçik bıçaq çıxartdı, dilim-dilim edib qabağına yığdı. Kamal müəllim tez qalxıb balaca nimçə gətirdi. Sonra Qulama müraciətlə:

— Bir stəkan çay içəkmi? — soruşdu.

Qulam ev sahibinin kinayəsini sezə bilmədi, səsini bir az da ucaltdı:

— Çay da içərik, kabab da yeyərik! Həm qırmasından, həm də dəyməsindən! Qohum da sənin sağlığına uzunlama bir nitq irad eylər, sonra da doldurar bu sirlər mücrüsünə bir beş ulduz, bir də gümüşü papaq! — Qarnını göstərib şaqqanaq çəkdi.

Kamal müəllim pərt oldu, darıxdı. Fikrindən keçdi: "Yenə köhnə mahnılar, yenə şit-şit sözlər, adamda ikrah hissi doğuran söz-söhbətlər..."

Mətbəxtdə qab-qacaq səsi gəldi. Qulam tez yan-yörəsinə boylandı, söhbətin səmtini dəyişdi:

— Heç soruşmuram, Şəfa xanım hanı?

— İşdən bir az yorğun gəlib...

Qulam ev sahibinə axıra qədər danışmağa imkan vermədi:

— Tanıyıram!— deyə Şəfa xanımın arxasınca gileyləndi: — Elə tələbə vaxtından bir az nərmə-nazikdi. Bəs uşaqlar hara gediblər?

Kamal müəllim bu sözləri qohumundan dəfələrlə eşitsə də, onun suallarını cavabsız qoymadı.

— Konsertə gediblər.

— Zəhləm gedir konsertdən... Artıq xərcdir! — O, əsl məqsədinin üstünə qayıtdı: — Hə qohum, nə deyirsən? Savalan Ramazanoviçin yerinə düzəldirsən mənim kürəkənimi?

— Cabiri?

— Xeyr! Onun kefi kökdü. Əli də gətirir, ayağı da...O birisini deyirəm, Sabiri. Dannıları da yaxşıdır. Atası zır kəndli, özü namizəd. Anketi güzgü kimi!

Kamal müəllimin dodağı qaçdı, sol əlinin iki barmağı ilə çallaşmış bığını tumarladı.

— Məsələ təkcə anketdə deyil, — deyə o, e'tirazını bildirmək istədi. — Məsələ ondadı ki...

Qulam onun sözünü kəsdi:

— Bəs nədədir? Dayıda? O da ki, allaha şükür var! O, həm professor, həm də mö'təbər bir idarədə böyüyün birinci müavini!

— Kürəkəninin təcrübəsi hələ azdır.

— Ay sağ olmuş, indi kimdi təcrübəyə baxan? — Qulam sağ əlinin barmaqlarını qəribə bir əda ilə bir-birinə sürtdü. — Varındı? Ver, keç! Yoxundu? Yol bağlıdı!..

— Qulam, sən son vaxtlar qəribə danışırsan...

— Niyə qəribə danışıram? — Qulam razılaşmadı. — Kor-kor, gör-gör...

Qulam eynəyini hirslə çıxarıb stolun üstünə qoydu, özündən razı halda gözlərini qıyıb ev sahibinə baxdı, darağını çıxardıb başının ortasındakı seyrək tüklərə sığal verdi.

Şəfa xanımın içəri girməsi söhbəti yarımçıq qoydu. Ev sahibəsi "Axşamın xeyir, Qulam" deyib gətirdikləri çay stəkanlarını stolun üstünə qoydu, sonra hal-əhval tutdu:

— Uşaqlar necədir? Niyə görünüb eləmirsiz?

Qulam stolda yanını dəyişdi, səsinə xüsusi bir ahəng verərək təslim olmaq istəmədi:

— Sizdən öyrənmişik!

Şəfa xanım istehza ilə gülümsədi:

— Peyğəmbər pişiyi kimi kürəyi yerə gəlməz! — Tez də soruşdu:— Mürəbbə də istəyirsən?

Qulam suala sualla cavab verdi:

— Mürəbbəsiz çay olar?

— Axı deyirsən diabetəm?!

— Fikir vermə!.. İndi məclisə baxıb özünə xəstəlik uydurmaq mod olub. — Qarnını tutub şit-şit güldü. Şəfa xanım heç nə demədən

mətbəxə qayıtdı. Qulam tez təzə söhbətə başladı. — Təzə xəbəri də eşitməmiş olmazsan?

— Hansı xəbəri?

— Vəlizadənin katibəsi ilə eşq məcarasını!

— Yalandı! — Kamal müəllim yana-yana e"tirazını bildirdi: — Vəlizadə abırlı adamdır. Bu ancaq dedi qodudu, istəməyənlərin qurmasıdı!..

Şəfa xanım müxtəlif mürəbbələr,şirniyyatlar gətirib stolun üstünə düzdü. Qulam ağzını əncir mürəbbəsi ilə doldurub fikrini tamamlamaq istədi:

— Nazir özü deyib ki, son illər kadr seçmə siyasətində bir xoruz buraxmışam, o da Vəlizadədi...

Bu dəfə Kamal müəllim özünü saxlaya bilmədi, güldü, güldükcə də çiyinləri silkələndi. Şəfa xanım da bir an ona qoşuldu, sonra kiridi.

— Qulam, sən allah yorulmadın?

— Nədən, Şəfa xanım?

— Onun-bunun qiybətini qırmaqdan?!..

Qulam şit-şit güldü:

— Həzər siz arvadlardan!

Şəfa xanım oyalandı:

— Biz əsası olmayan qiybət eləmirik! Evin yıxılmasın, sənin kimi kişilərin yanında biz indi olmuşuq toya getməli...

Kamal müəllim söhbətə müdaxilə etdi:

— Görürsən Şəfa nə tünd tənqidçidi!

— Yazıq Şəfa xanımın dünyadan nə xəbəri var? — Qulam bu dəfə çayına başqa mürəbbə salıb qarışdırdı: — Başı qarışıb xəstələrə. Xəstələrdə ki, canlarının hayında. — Çaydan bir qurtum içdi. — Birindən soruşurlar ki, keçmişdə filan yerdə yaxşı atlar var idi, necə oldu onlar? O da cavab verib deyir: yaxşı kişilər də var idi, mindilər, getdilər. — Bir qurtum da içdi. — İndi də o kişilərdən yoxdu. Adamlar yaman xarab olublar.

Kamal razılaşmadığı üçün başını buladı:

— Düz demirsən, Qulam! Yaxşılar daha çoxdur. Ancaq sən onları görmürsən! Mən isə onları eynəksiz də görürəm.

Qulam əlindəki stəkanı qaytarıb nəlbəkiyə qoydu, dönüb ev yiyəsini əyri-əyir süzdü:

— Eynəyimə sataşırsan?

Kamal müəllim alındı. Şəfa xanım başını buladı.

— Xeyr! — Kamal müəllim incidiyini gizlətməyə çalışdısa da bacarmadı:— Atalar deyiblər: "Dəvə çöldən danışanda onu həmişə özü kimi qozbel qələmə verər... "O ki, qaldı mənə, ömürüm boyu heç ki-

mə sataşmamışam, onun-bunun arxasınca danışmamışam. Ona-buna qara yaxanları isə görməyə gözüm olmayıb! — Telefon zəng çaldı. Kamal müəllim cəld qalxıb dəstəyi götürdü: — Bəli, eşidirəm... Axşamınız xeyir... Çox yaxşı... Xoş xəbər üçün sağ olun!.. Bu saat, bu saat... Siz də sağ olun!— dəstəyi yerinə qoydu. Şəfa xanıma üz tutaraq: — Səni təbrik etmək olar.— dedi-Mirvari xanımdır. Deyir ki, xəstə özünü lap yaxşı hiss edir, narahat olmasın.

Şəfa xanım sevindi, sifətindəki yorğunluq cizgiləri elə bil seyrəkləşdi:

— Çox yaxşı! — dedi.

Qulam elə bil birdən ayıldı:

— Xəstə kimdi ki? — Təəccüblə soruşdu. — Yoxsa qohumlardandı?

— Xeyr, — Kamal müəllim qabağa düşdü. — Şəfanın xəstələrindəndir.

— Belə təlaş keçirmənizdən görünür, böyüklərdən kiminsə qohumudu, hə?

Şəfa xanımı söz yaman tutdu:

— Fəhlə uşağıdır!— dedi.— Tikintidə işləyir,atası da,özü də.

Qulam elə bil arxıyınlaşdı,səsinin ahəngi dəyişildi, biganə dedi:

— Onda heç nə olmaz! İndi fəhlə sinfinin işi xoddu!..

— Bunların həkimə dəxli yoxdur! Onun üçün fəhlə hər şeydən əvvəl insandı.

— Şəfa xanım, — deyə Qulam inad etdi, — sən allah qoy oturmuşuq, oturaq! Hə, qohum... Kamal müəllim, axır sözün nə olur?..

Kamal müəllim bu dəfə fikrini qəti bildirdi:

— Təəssüf ki, sənin xahişini yerinə yetirə bilməyəcəyəm.

— Niyə?!

— ...

Şəfa xanım araya girdi:

— Qulam, niyə təəccüb edirsən? Kamal bir həftə olar öz ərizəsinə görə işdən azad olunub. Yoxsa eşitməmisən?

Qulam səsini ucaltdı:

— Elə şey olmaz!

— Görürsən,— Kamal müəllim güldü.— Sən heç bir əsası olmayan xəbərlərə bizi inandırmağa çalışırsan... Ancaq Şəfa sənə çox səhih bir mə"lumat verir, inanmaq istəmirsən!

— İnanmıram! Necə olub ki,eşitməmişəm?..

Şəfa xanım onu sancdı:

— Sən düz şeyləri eşitməyə adət etməmisən axı!

Qulam əsəbləşdi:

— Di yaxşı!— Şəfa xanımın üstünə çımxırdı:

— Az sanc görək!

— Kamal müəllimdən xəbər aldı: — Bir səbəb var?

Kamal müəllim qohumunu diqqətlə süzdü. Fikirləşdi ki, nə desin? Axı Qulam min bir fikir deyəcək, fərziyyə söyləyəcək,çürükçülük edib onun-bunun qarasınca danışacaq, "Bir budağa çıxıb onunu yırğalayacaq..."

— Səbəb odur ki, yorulmuşam, qoy indi də cavanlarımız işləsinlər. Onlar günün nəbzini bizdən yaxşı tuturlar. Gərək bunu biz atalar e'tiraf edək. Daha doğrusu, e'tiraf etməyi bacaraq, bunu şənimizə sığışdırmağa cür'ət edək. Bu, bizi övladlarımızın nəzərində yüksəldər. Qocalar barədə bədgüman olmazlar.— Ev yiyəsi kresloda yerini rahatladı.— Qulam, güley-güzar eləməyə haqqımız yoxdur! Çünki əsgər də olmuşuq, komandir də! O ki qaldı sənə, elə gözümü açandan səni əmr verən, hökm edən görmüşəm. Mənim isə, özün bilirsən ki, əvvəldən rəyasətdə gözüm olmayıb. Bə'zi simasızlar kimi, vəzifə üçün kiçilməmişəm, əyilməmişəm. Bilirsən niyə? Ona görə ki, vəzifə peşə deyil, onun bu gün də olmasa, sabah itirilmə ehtimalı var. — Kamal müəllim bir an dayandı, fikrə getdi, hissiyyata qapıldı. — Nə vaxt meşəyə yolum düşüb, orada gözüm ilk növbədə çinar axtarıb, palıd gəzib. Hər hansı bir dağın döşündən keçəndə gözlərimi ilk növbədə zirvəyə zilləmişəm. Yalçın qayada qartal görəndə sinəm qabarıb! Bu da ondan irəli gəlir ki, həyat mənim başıma həmişə tumar çəkməyib! — Kamal müəllimin burada səsinin ahəngi dəyişildi: Sən ki, bilirsən mən kasıb bir kişinin oğluyam... Daşdan çörək çıxaran adi bir fəhlənin... Ləyaqətli adamlar da görmüşəm, ləyaqətsizlər də. Qeyri-insani münasibətlərə mə'ruz qaldığım vaxtlar da olub. Ancaq heç zaman müvazinətimi itirməmişəm, vüqarımı pozmamışam... Həmişə şux gəzməyə, yaxşı əhvali-ruhiyyədə olmağa çalışmışam. Fikirləşmişəm ki, qoy övladlarım, onların həmyaşıdları mənə baxıb dəyanətli olmağı öyrənsinlər, bə'zi nacinslərin bəd əməllərini görüb ruhdan düşməsinlər, həyat yollarında büdrəməsinlər!

Bayaqdan qulaq kəsilən Qulam elə bil birdən ayıldı, dönüb Kamal müəllimin ötkəm-ötkəm danışığını heyran-heyran dinləyən Şəfa xanıma baxdı.

— Şəfa xanım! — dedi. — Sənin ən ağır xəstən evdəymiş ki!

— Niyə?

Şəfa xanımın sualına Qulam birdən cavab verə bilmədi. Bir qaşıq mürəbbə götürüb ağzına qoydu. Deyəsən tumunu da udduğu üçün tez-tez udqundu.

— Sağlam adam da vəzifənin əleyhinə gedər? Yaxud da ondan könüllü imtina edər? Heyif deyil vəzifə! Möhür əlinə düşən kimi olursan küllü-ixtiyar! İçəriyə girirsən, hamı ayağına qalxır. Keçib quylanır-

san qurşağa kimi yumşaq kresloya. Barmağın ağ düyməyə toxunan kimi qapı açılır, gözəl bir qız nazlana-nazlana içəri girir: "Nə buyurursunuz, Qulam Kərimoviç?..." soruşur.

Evin sahibəsi Qulamı istehza ilə süzdü və:

— Bəsdir, sən allah! — dedi — Ətimizi tökmə!...

Kamal müəllim Qulamın danışığına öz münasibətini bildirdi:

— Qulam, vəzifə bir növ məhək daşıdır, qabiliyyət me'yarıdır. Burada adamların gücü, nüfuzu yoxlanır, sınaqdan keçirilir...

Qulam razılaşmadı:

— Bəs dayısı hesabına irəli gedənlər necə?...— tə'kid-lə xəbər aldı, — hə, niyə dinmirsən?

— Bir müdrük qocadan soruşurlar ki, "niyə belə çox yaşamısan?" Cavab verir ki, "ömürüm boyu paxıllıq etməmişəm. Bıçağı uzun olana qəssab, kəfkiri uzun olana aşbaz demişəm..."

— Hə Kamal müəllim hər şey aydındı. — Qulam rahat nəfəs aldı. — İndi bildim ki, qocalırsan, zəmanədən ayrı düşürsən.

Kamal müəllim tez sual verdi:

— Qohum, bilirsən qocalar neçə cür olur?

Qulam çiyinlərini çəkdi.

— Qocanın da sortu var?..

— Qocalar iki cür olurlar. Bə'ziləri yaşa dolduqca müdürikləşir, bə'ziləri də...

Kamal müəllimin susmasından istifadə edən ev sahibəsi yarı ciddi, yarı zarafatla Qulamı göstərib onun fikrini tamamladı:

— Bə'ziləri də səfehləşir. Bu yaxınlarda çoxdan bizim binada tənha yaşayan sadə, xoşxasiyyətli bir qoca kişi rəhmətə getdi... Onu dəfn etməyə aparanda nə görsən yaxşıdır? Balışların üstündə 8 orden, hələ medalları demirəm...İki Lenin ordeni!.. Heç kim təsəvvürünə gətirməzdi ki, bu kimsəsiz, heç yerdə özünü gözə soxmayan təvazökar qocanın vətən qarşısında, xalq qarşısında belə böyük xidmətləri olub!..

Şəfa xanımın mərhum qonşuları barəsindəki səmimi söhbəti Kamal müəllimin ürəyindən oldu, üzünə deməsə də ürəyində Şəfa xanıma dönə-dönə razılıq etdi və gözlədi ki, o, danışığına necə yekun vuracaq. Zənni düz çıxdı. Ev sahibəsi misalı əbəs yerə çəkməmişdi. — Ancaq sənin xəta olmuş bir nişanın var, bütün pencəklərinin yaxası dəlmə-deşikdi...

Qapının zəngi çalındı. Ev sahibəsi dəhlizə çıxdı və oğlu Hikmətlə qayıtdı. Yaraşıqlı sifəti, enli kürəyi, qayğılı baxışları olan Hikmətə kim baxsaydı dərhal ürəyindən keçərdi ki, "Bax, Kamal müəllim də cavan vaxtı beləcə xoşagəlim bir oğlan olub." Hələ üstəlik Hikmətin deyib-gülməsi, zarafatı, eyham danışmağı da var idi...

Müasir geyimi onu daha şux göstərirdi. Sifətindəki aydın cizgilər-

dən dərhal hiss olunurdu ki, ürəyi açıqdır. Bəlkə də buna görəydi ki, həmsöhbətlərinə dərhal xoş əhval-ruhiyyə təlqin etməyi bacarırdı.

Qulamı görən kimi Hikmət irəli gəldi, əl verib görüşdü:

— O!.. Xoş gördük, Qulam Kərimoviç! — deyə zarafata keçdi.— Deyəsən günəş yenə Qərbdən doğub?..

Qulam qımışdı, əlini onun ovucundan çəkib çıxarmaq istədi. Hikmət buraxmadı. Stulu çəkib onun yanında oturdu.

— Səndən incimişəm...

— Niyə, Qulam əmi?!

Şəfa xanım oğluna işarə elədi ki, mübahisəyə girişməsin, onsuz da hər ikisini bayaqdan xirtdəyə yığıb, Hikmət Qulamın sualına cavab verməməsindən istifadə edib başqa söhbətə keçdi.

— Sizə zəng eləmişdim. Heç kim cavab vermədi. Yaxşı ki, özünüzü gördüm,yoxsa dalınızca gələcəkdim.

Qulam tez maraq göstərdi:

— Nə yaxşı?

— Heç elə-belə. — Hikmət anasına göz vurdu. — Xalq Nəzarət Komitəsində mənə yaxın bir yoldaş işləyir... Sizin idarə barəsində xoşa gəlməyən bə'zi sözlər danışdı... Bir az ehtiyatlı olun... Deyəsən komissiya göndərmək istəyirlər...

Qulam özünü düzəldib xəbər aldı:

— Komissiya?

— Material veriblər...Yoxlayacaqlar.

— Mənim rəis olduğum idarəni?!

Şəfa xanım söz atdı:

— Niyə, sən allahın bacısı oğlusan? — Gətirdiyi çay stəkanını oğlunun qabağına qoydu.

— Düzü, mən də inana bilmirəm... Deyirlər cinayətkarlıq var... Bir də fikirləşirəm ki, xanəndə qız demişkən: "Elin sözü əvvəl-axır düz olur..."

Qulam hirsləndi:

— Xanəndə qız qələt eləyir!.. Yalandı!

— Nə?

— Sənin dediklərin!

Şəfa xanımın dili yenə dinc durmadı:

— Axı yazıq uşaq hələ heç nə deməyib!..

Hikmət Qulama təpindi:

— Dövləti aldatmısınız, rəqəmləri şişirtmisiniz. Bu bir! İkincisi, bu yalan hesabına xeyli miqdarda pul mükafatı almısınız... Özünüzü də hər yerdə ali təhsilli kimi qələmə verirsiniz?

Qulam qaş-qabağını salladı, kəkələyə-kəkələyə:

— Qohum balası, mən inistitutda oxumuşam....

— Düzdü, oxumusuz! Ancaq dövlət imtahanı verməmisiniz...
Qulam Kamal müəllimə baxdı:
— Qohum, oğlun məni lap cinayətkar elədi ki! Başqa cür olada bilməzdi. Ot öz kökü üstündə bitər. Bilsəydim ailəlikcə mənə hücum edəcəksiz, bura ayaq basmazdım. Elə eləyəcəksiz, bura ayaq basmayacağıq, bir qohum kimi qapınızı açmayacağıq! Vicdanım haqqı düz deyirəm, kölgəsiz adamsız.
Kamal müəllim söhbətə müdaxilə etməyə məcbur oldu:
— Qulam, sən heç bilirsən vicdan nədi?
— Əşi, nə bilim nədir... Söz danışdı!..
Kamal müəllim oturduğu yerdən durdu, ciddi halda dedi:
— Aqil adamlar bir əməl işlətmək istəyəndə həmişə vicdanlarının səsinə qulaq asırlar. Çünki bu səs ən ülvi hissdir, insan ləyaqətinin keşikçisidir!
Qulam rişxənd elədi:
— Baş üstə bundan sonra o səsə qulaq asarıq, görək nə deyir? Hələlik! — Dəhlizə keçib plaşını götürdü. Hikmət irəli çıxıb ona hörmət etmək istədi. Qulam rədd etdi, plaşını geymədi. — Bağışlayın əziyyət verdim sizə, hörmətli Kamal müəllim və onun ailə üzvləri!
— Qapını hirslə örtüb çıxdı.
Kamal müəllim narahat oldu, fikirli-fikirli otağa qayıtdı:
— Yaxşı olmadı. Kişi incdi!
Şəfa xanım onun arxasınca boğma çıxartdı:
— Qoy rədd olsun! Bir adam ki, bilməyə vicdan nədir...
Hikmət pərtliyi azaltmağa çalışdı, yenə zarafata saldı:
— Gəl səni bir öpüm, — Mənim mamılı-matan anam!
— O qolunu Şəfa xanımın boynuna saldı və sağ yanağından öpdü, sonra saatına baxdı. — Mən gedim uşaqların dalınca, indi konsert qurtarar. — Plaşını əlinə alıb qapıdan çıxdı, pilləri cəld enib uzaqlaşdı.
Şəfa xanım nigarançılıq keçirdi, bildi ki, ömür yoldaşı narahatdı, Qulamın yersiz söhbətləri, aralarındakı mübahisə, üzə vurmasa da, onun ürəyincə olmamışdı. Belə vaxtlarda ev sahibinin çay içməyə həvəsi artırdı. Şəfa xanım bunu xatırlayan kimi soruşdu:
— Kamal, çayını təzələyim!
— Hə... təzələ... Bir az da rəngli elə.
Şəfa xanım mətbəxə keçdi. Kamal müəllim pəncərəni açdı, səmaya baxdı. Ev sahibəsi çay dolu stəkanı gətirib stolun üstünə qoydu, sonra Kamal müəllimə yaxınlaş — Hava yaman tutulub, — dedi, — yağacaq.
— Qoy yağsın! — Kamal müəllim qolunu onun çiyninə qoydu.
— Bahar yağışının özgə gözəlliyi var! Çirkabı ancaq leysan yu-

yub apara bilər!...

Uzaqda, Xəzərin üstündə şimşəklər qıvrılıb açılırdı...

## KƏND HƏSRƏTİ

Uzaq yol gələn təyyarə əngin göylərin qoynundan aşağı endi, ləngər vurub sağa tərəf əyildi. Buludların arxasından çıxan günəşin zərrin şüaları təyyarənin gümüş qanadı üzərinə düşdü, oradan da axıb pəncərələrdən içəri doldu. Öz kreslosunda mürgüləyən qoca professor Qoşqar Çinarlı günün ılıq nəfəsindən diksinib ayıldı, gözlərini açdı. Elə bu vaxt cavan stüardessa təntənəli surətdə e'lan etdi: "Təyyarəmiz yerə enir... Qayışları bağlayın. Xahiş edirik ki..."

Professor kürəyini kreslonun söykənəcəyindən çəkib dikəldi. Girdə pəncərədən eşiyə boylandı. Gözləri qarşısında gözəl mənzərə açıldı: aşağıda, təyyarənin qanadları altında topa-topa bulud parçaları mavi sularda süzən böyük ağ zanbaqları xatırladırdı. Yanlarda bir-birinə söykənən bulud komaları qar altında qalan təpələrə bənzəyirdi. Lap uzaqda görünən nəhəng bir bulud elə bir ağ ayı idi, qabaq qıçlarını qaldırıb özünü günə verirdi. Yuxarıda görünən mavi səma isə çətir kimi buludların üzərinə çəkilərək göz işlədikcə lap yuxarılarda qara rəngə boyanırdı.

Qoşqar Çinarlı zümrüd rəngli bu dibsiz göyləri çox görmüşdü, buludların tez-tez dəyişilən rənginə, görkəminə dəfələrlə tamaşa edib valeh olmuşdu. Qışda da uçmuşdu, yayda da. Hava yollarının çənli-dumanlı günlərini də görmüşdü, güzgü kimi aydın vaxtını da...

Təyyarə yerə düşəndə o, salonu adəti üzrə hamıdan axırda tərk etdi. Trapın üstünə çıxanda dərindən nəfəs aldı. Bakının bahar havasını acgözlüklə sinəsinə çəkdi. Gilavar sifətini yaladı, ağ saçlarını birbirinə qarışdırıb alnına yaydı. Qoca portfelini sol əlinə alıb yavaş-yavaş aşağı endi. Təyyarə meydanının qarşısındakı açıqlığa çatanda qulağına ilk dəyən "Baba!.." sözü oldu. Yeganə nəvəsi anasının əlini buraxıb özünü onun üstünə atdı, balaca əlləri ilə dizlərini qucaqladı. Baba əyilib nəvəsinin yanaqlarından, çəhrayı lent bağlanmış saçlarından öpdü. Elə bu vaxt oğlu Elşənin, gəlini Gülşənin ona tərəf uzanan əllərini sıxdı, birinin üzündən, o birinin alnından öpməyi də unutmadı. Oğul atasını bu dəfə çox yorğun, əzgin gördüyü üçün dönüb gəlinə baxdı. Bəlkə də buna görə onu əvvəlkilər kimi sorğu-suala tutan olmadı. İlk dillənən yenə ata oldu:

— Nə var, nə yox?..

— Sağlığın, ata.

— Sən necəsən, gəlin qızım?

— Sağ olun! Siz necə, yaxşısız?

— Ürəyin əziyyət verməyib ki,— Elşən gülşənin sualını tamamladı, qayğı göstərib portfeli onun əlindən aldı.

— Yox birtəhər yola vermişik.— Professor gülümsədi, özünü şən göstərməyə çalışdı. Elşən inanmadı, ürəyindən keçdi ki, yenə onları pərişan etmək istəmir. Baba keçib maşına əyləşdi, nəvəsinin başını anasının çiyninə dayaması ilə yuxuya getməsi bir oldu. Professor oğlunun idarə etdiyi "Volqa"nın pəncərə şüşəsini aşağı endirdi. Əvvəlcə uzaqlardakı çılpaq təpələrə, neft vışkalarına baxdı. Axı bu yerlər ona çox tanış idi. Sinəsini xitabət kürsülərinə dayayıb bu sirli, mö'cüzəli torpaqdan, dənizdən, Odlar yurdunun bitməz-tükənməz sərvətlərindən nə qədər danışmışdı, yuxusuz gecələr keçirib neçə-neçə əsərlər yazmışdı!..

Maşın, üzü Xəzərə baxan çoxmərtəbəli binanın qarşısında dayandı. Elşən yuxulu qızını maşının arxa oturacağından götürüb qucağına aldı. Portfeli bu dəfə Gülşən götürdü. Qoca isə pillələri yavaş-yavaş qalxdı. Gəlin irəli keçib qapını açdı. Professor astanadan içəri keçəndə birdən qəhərləndi, oğlu, gəlini görməsin deyə üzünü yana çevirdi. Axı birinci dəfə idi ki, uzaq səfərdən qayıdanda "ömür-gün yoldaşı" Mehri xanım, özü dediyi kimi, onun "pişvazına" çıxmırdı...

Professor əl-üzünü yuyandan sonra adətinə xilaf olaraq iş otağına deyil, yataq otağına keçdi. Evdəkilər onu tək buraxdılar.

...Mehri xanımın cavanlıqda çəkilib çərçivəyə salınan şəkli çarpayının üstündən ona baxırdı. Sağlığında olduğu kimi iri qara gözləri yenə qayğılı idi, üzündə elə bil ancaq ona xas olan xoşa gəlim bir təbəssüm görünürdü.

"Salam, Mehri, gəlmişəm","Xoş gəlmisən, Qoşqar...Səhəttin necədir?", "Həmişəki kimi", "Niyə yubandın, Qoşqar?", "Buraxmadılar"." Gözümə birtəhər dəyirsən?" "Özüm də bilmirəm, səndən sonra belə hallarım çox olur, Mehri... Deyirlər iki göyərçin həmişə bir yerdə yaşayardı. Gün gəldi ki, göyərçinlərdən biri...", "yaxşı, yaxşı! Daha bəsdi...çay süzümmü ?", "Heç onu soruşarlar? Sən ki bilirsən mən çayxoram..."

Elşənin səsi eşidildi:

— Ata, çayın soyuyur!

Qoca yataq otağından çıxdı.

— Hə, oğul, yaman çaysızlamışam! — Giley-güzar etdi:

— Yorub əldən saldı məni koko-kolalar, qara kofelər!..

— Limon da var?

Gəlin cavab verdi:

— Bəli, var.

Elşən atasının kefini ələ almaq üçün zarafata keçdi:

— Var da sözdü, özü də lap ə'lasından!...Ordubad lumusu!..

Professor özünün armudu stəkanını dərhal tanıdı. Çay, həmin çay idi.Bircə fərq o idi ki, onu bu süfrəyə Mehri xanım deyil, evin gəlini gətirmişdi...

***

Qoşqar Çinarlı akademiyadan, prezidentin yanından çıxanda iş vaxtı çoxdan qurtarmışdı. O, küçə aşağı enib sağa döndü, yeraltı keçiddən addayıb dəniz kənarına çıxdı.

May günəşi uzaqlarda üfüqə enirdi. Qərbdə boz buludların üstünə elə bil çəhrayı örpək çəkilmişdi. Sahilə yavaş-yavaş axşam kölgəsi düşürdü.Havalar hələ sərin keçdiyi üçün gəzintiyə çıxanlar az idi. O, pillələri enib, lap sahilə gəldi, dəniz vağzalına tərəf getdi. Cavan çinar ağacının altındakı skamyaya əyləşdi, gözlərini uzaqlara, üfüqün dənizlə birləşdiyi yerlərə zillədi. Yaxında isə bir dəstə qağayı gah qalxır, gah enir, qanadlarını sulara toxundurub qıy vururdu. Birdən meh dənizin rütubətli havasını onun üzünə çırpdı, nəfəsini təngitdi. Ayağa durdu, pillələri necə enmişdisə, eləcə də qalxdı. Əllərini arxasına çarpazlayıb xoşuna gələn küçələrdən keçdi, Elşənin layihəsi əsasında tikilmiş bir binaya çatanda ürəyi xüsusi qürurla doldu. Binanın açıq pəncərələrinin birindən axan mahnı onun ürəyinə yayıldı. Kimsə pianoda, "Mahur" çalırdı. Bir ata kimi qəlbən sevindi ki, oğlu insanlara lazım olan xeyirxah peşə sahibidir.

Qəribə idi, tanışlardan, həmkarlardan, saysız-hesabsız tələbələrindən heç birinə rast gəlmədi.

Füzulinin heykəlinin yanına çatanda ayaq saxladı. Bu da onda bir növ adət halına çevrilmişdi. Bəlkə də şairin dalğın görkəmi, ağır duruşu, dərin fikirlər dolaşan ağıllı gözləri ona xoş gəlirdi... Heykəlin əsası üzərindəki müxtəlif şəkillərə baxarkən keçirdiyi qəribə hisslər onun xəyalını ulu babalarımızın yaşadığı nağılvarı aləmə çəkib aparırdı. Bə'zən də gəzdiyi ölkələrdə rast gəldiyi abidələri, xatirə ansambllarını bu heykələ müqayisə edirdi. Doğulduqları yerlərdə basdırılan filosofların, sərkərdələrin, şairlərin dəbdəbəli sərdabələrini xatırlayırdı, qəbirlərin başdaşına, sinə daşına həkk olunmuş vəsiyyətləri yadına salırdı.

Birdən qocanın özünün də ürəyindən çox qəribə bir hiss keçdi : "Gərək Elşənə deyəydim ki, öləndə mənim qəbrimin üstünə belə yazdırsın: "Ey yolçu, ayaq saxla, məni yad et. Mən ölməmişəm, sadəcə olaraq yaxşı adamlardan ayrı düşmüşəm..." Birdən dodağı qaçdı, gülümsədi. Başını mə'nalı-mə'nalı silkələdi, özünü danladı: "Qoşqar, son günlər sənə nə olub?.. Niyə belə bədbinləşmisən? Axı sən ömrün boyu nikbin olmusan, adamlara həmişə nikbinlik təlqin etməyə çalışmı-

san."

Küçələrdə lampalar alışıb yandı. Qoca xəyaldan ayrılıb yola düzəldi. Yol boyu cavan yaşlarında əzbərlədiyi şe'ri ürəyində dönə-dönə təkrar etdi: "Heyrət, ey büt!.."

Axşamdan xeyli keçmişdi. Qoşqar Çinarlının evində hərə öz işində idi. Nəvə babası ilə xeyli oynayıb yatmışdı. Gəlin öz otağında şagirdlərin dəftərlərini yoxlayırdı. Professor kresloda əyləşərək hansısa jurnalı oxuyur, ensiz vərəqlərə qeydlər edirdi. Elşən isə televizorun səsini xeyli azaldaraq "Neftçi"nin oyununa baxırdı. Gərgin mübarizə şəraitində keçən oyun qutardı, növbəti veriliş başladı. Birdən Elşən titrək səslə atasını xəbərdar etdi:

— Ata, ata! Sənin kəndini göstərirlər...

— Hardan bildin mənim kəndimdi?

— Diktor özü dedi ki,"Kosalı kəndindəyik"..— Elşən televizora işarə etdi: — Təqsir kimdədir? Kim inanar ki, ölkələr gəzib dolaşan bir alim vaxt tapıb övladlarını bircə dəfə ata-baba yurduna aparmayıb?

Söz professoru tutdu. Çeşməyi burnunun üstündən götürdü, əlindəki jurnalı bükub stolun üstünə qoydu. Elə bu vaxt diktor Kosalının yetirməsi Qoşqar Çinarlının adını çəkdi. Kəndin cavan müəllimlərindən biri onun barəsində səmimi sözlər dedi...

— Elşən çönüb çox mə'nalı bir tərzdə atasına baxdı. Professor heç nə demədi, fikrə getdi. Necə də getməyəydi? Axı arxasını Qartallı qayaya söykəyən, Dağdağanlı dərə ilə Söyüdlü piri arasında yerləşən balaca bir dağ kəndində dünyaya göz açmışdı. Kosalıda ömrü boyu heç yerə çıxmayan, hamının "Seyid qızı" çağırdığı Mədinənin döşlərindən süd əmə-əmə ayaq tutub yerimişdi, atası Süleymanın min bir əziyyətlə əkib-becərdiyi çöllərin çörəyini yeyə-yeyə böyümüşdü. Hələ babası dəyirmançı Dünyamalı kişinin bir dəfə dediyi söz də dumanlı şəkildə yadına gəldi: "Ömrüm boyu nə qədər yuxu görmüşəmsə hamısı Kosalıda vaqe olub..."

— Hə oğul, haqlısan. Kosalını unutmaq, yaddan çıxarmaq olmaz. Onu görməyib ölmək də qəbahət olar... Bu yay gedərik Kosalıya, mütləq gedərik... Hamılıqla. — Professor fikirli halda birdən ayağa qalxdı. — Gecən xeyrə qalsın,

— deyə öz otağına tərəf yönəldi.

Elşən də tez ayağa durdu.

— Ata, yoxsa yatmaq istəyirsən?

— Bu gün yaman yorulmuşam...

— Ata... Narahat deyilsən ki?

Professor oğlunun eyhamını başa düşdü, özünü yenə şən göstərməyə çalışıb zarafata keçdi:

— Ürəkdi də! Sakit vaxtı da olur, əsəbi vaxtı da. Bə'zən mən güzəştə getsəm də, o, tərslik edir. İndiyə kimi mehriban dolanmışıq, bir-birimizə həyan olmuşuq. Ancaq son vaxtlar, yazıçılar demişkən, aramızda deyəsən bir balaca konflikt yaranıb...

— Bu nə sözdü, ata?

Professor fikirləşdi: "Ay oğul, qaya uçanda toz qopar... " Sonra qayğılı bir ahənglə:

— Get rahatlan, Elşən, — dedi. — Yuxun şirin olsun. Zarafatdır da edirik!

— Sağ ol,ata... Gecən xeyrə qalsın.

Qoca öz yataq otağına keçdi. Bir az sonra televizorun səsi tamam kəsildi, yemək otağının işıqları söndü. Professor soyunub yatağına uzandı. Adəti üzrə yerinə girən kimi də gözlərini yumdu, tez yuxuya getmək istədi. Ancaq yata bilmədi. İstədi yuxu dərmanı atsın, fikrindən daşındı: "Bir belə də dərman yemək olar?.. "Arxası üstə uzandı, sola döndü, sağa çevrildi. Yata bilmədi ki, bilmədi. Fikrində saymağa başladı: bir,iki,üç...

Kosalı gəlib durdu gözlərinin önündə. Yenə arxası üstə çevrildi. Gözlərini otağın tavanına dikdi. Bu dəfə xəyal onu çəkib əlçatmaz, ünyetməz illərin arxasına apardı.

"...Bahardı. Gözəl bir bahar... Ağaclar çiçəkləyib, ətrafdakı dağların yamaclarına yaşıl xalı sərilib. Qaragöz yarpızlar sulara sallanıb,novruzgülü, lalə çöllərə ilk salam gətirib... Qaranquşlar səmaya qalxıb,hərdənbir qulaqlara hop-hopun səsi gəlir. Həyətlərdə totuq quzuların, dəcəl çəpişlərin sayı getdikcə artır, çoxalır...

Bəli, yaz gəlib, hər bir zəhmətkeş üçün ilin ən əziz fəsli olan yaz!

Qışın uzun, darıxdırıcı kəsalətindən yaxa qurtaran kənd uşaqlarının da zehni açılıb, şən qəhqəhələri evlərə, küçələrə dolub...

Gümrah bir kəndli balası alçaq divarları olan həyətdəki kələ-kötür daşdan tikilmiş evdən çıxdı, gərnəşib quluncunu sındırdı, iri gözlərini havada dolandırdı. Qalaqda gecələyən xallı köpək özünü onun üstünə atdı, qabaq ayaqlarını qaldırıb sinəsinə dırmaşdı. Bu dəfə köpəyə fikir verməyən uşaq birdən götürüldü, dar küçədən keçib evlərinin dalındakı yastı təpəyə üz tutdu. Ətrafa boylandı, kəndin çox hissəsi ayağının altında qaldı: odur bax, Məmmədyar kişi cütü öküzlərin boyunduruğuna qoşub kövşənə gedir, bənna Məşədi Heydər at kimi uca uzunqulağına iki çuval dən atıb dəyirmana aparır, qəssab Abbasəli qara bir keçinin buynuzundan tutub böyürdə-böyürdə kənd içinə sürükləyir, Şirin xalanın buz baltası kimi sağlam, bəstəboy qızı Nərgiz əkiz bacılarını yanına salıb yenə dəvədabanı,quzuqulağı,qazayağı yığmağa gedir... Dar küçənin başında at kişnərtisi eşidildi, qızlar tez diksinib di-

varın dibinə qısıldılar. Qonşu kəndlərdən evlənən cavanların toyunda həmişə papağı birinci gətirib muştuluq alan bığlı Qasım öz qızılı kürənini çapıb harasa getdi...

Elə bu vaxt şərqdə üfüq od tutub yandı. Uşaq qollarını qaranquş qanadı kimi yanlara gərdi. Atılıb-düşdü. Kənd mirzəsi ziyilli Səfərin nəvəsindən eşitdiyi sözlərlə doğan günəşi salamlamağa başladı:

"Doğdu günəş qırmızı..."

Nimdaş geyimli, güllü yaylığının yanlarını çənəsinə yığıb gümüşü boğazaltı ilə özünü bərk-bərk boğan irigözlü, solğunsifətli Mədinə evin astanasında göründü, diqqətlə o tərəf-bu tərəfə baxdı. Oğlunu yastı təpənin üstündə görcək harayladı:

— Qoşqar, huy!

— Burdayam,ana!

— Bulağa gəl, xamır yoğuracağam.

— Gəlirəm, ana!..

Mədinə öz-özünə deyinə-deyinə ağzıtıxaclı saxsı səhəngi, qara çaydanı götürüb həyət qapısından çıxdı.

Uşaq Yastı təpədən endi, qaçıb anasına çatdı, alıb səhəngi götürdü..."

Professor bir-iki ağız öskürdü, çarpayıda yönünü dəyişib sağ böyrü üstə çevrildi. Elə bil anasının bişirdiyi qabar-qabar sac çörəyinin, babasının dəyirmanda alapərt hazırladığı fətirin gözəl ətri axıb otağa doldu. Sonra atasının biçindən əvvəl ütdüyü sütülün, anasının qonşu Qonçabəyimlə bişirdiyi səməninin, atası ilə bostandakı çardaqda əyləşib ləzzətlə yeyib-içdiyi yarpızlı, yumurtalı qara çölmək bozbaşının, çaydanda dəmlənən kəklikotu çayının ətri də fətirin ətrinə qarışdı. Birdən yay ayları gündə iki-üç dəfə çimdiyi, sahilindəki yaşıl çəməndə uzanıb özünü günə verdiyi Lələ gölünün ayna kimi dupduru suları gözlərinin önündə ləpələndi...

Nə oldu? Bu köhnə xatirələr niyə yenidən cana gəlib?.. Bəs okean sularında, nəhəng gəmilərdə üzəndə Kosalının balaca Lalə gölü niyə bircə dəfə onun yadına düşməmişdi? Böyük restoranlarda əyləşəndə, büllur badələrdə rom,viski, koko-kola içəndə sac çörəyini, dəyirman fətirini, qara çölmək bozbaşını, kəklikotu çayını niyə xatırlamışdı?..

Elə bil bu suallara anası Mədinə cavab verdi.Bir dəfə qardaşının qarasınca gileylənib ərinə dediyi sözlər professorun qulaqlarında səsləndi: "Ay Süleyman, bilirsən ki, ha insan naşükür məxluqdu... Güzəranı yaxşı keçən kimi qara günü bir mərrə yadından çıxarar?.."

Birdən Xəzərdə üzən gəmilərdən biri uzun fit verdi. Qonşu otaqda nəvəsi oyanıb anasını səslədi. Gülşən onu sakitləşdirdi. Sonra səs kəsildi.

Qocanın bütün fikirləri alt-üst oldu. Başından bir ağrı keçdi. Yuxuya getmək istədi, bacarmadı. Bu dəfə yüzə kimi saymağa qərar verdi: bir, iki, üç,... Əlliyə çatanda hesabı itirdi.

Yenə Kosalıya döndü.

"...Qışdı. Hər yer ağ örpəyə bürünüb. Qartallı qaya da, Dağdağanlı dərə də, Söyüdlü pir də... Yaşıl taxıl zəmiləri də, damların üstü də... Qoşqar qonşuları yetimdar Şirin arvadın damının qarını tökdü, sonra hoppanıb qar qalağının üstünə düşdü. Əlindəki kürəyi təmizlədi. Şirin arvad onu içəri də'vət etdi:

— Gəl, oğul, gəl kürsüdə qızın. — Dua elədi: — Allah səni Seyid qızına çox görməsin! Ömrün duz dağına dönsün!..

Qoşqar getmək istəmədi. Şirin arvadın əkiz qızlarının hərəsi onun bir əlindən tutub güclə içəri dartışdırdı. O, ayaqqabılarını soyunub kürsü yorğanının altına girdi. Elə bu vaxt Nərgiz çiynində su səhəngi bulaqdan gəldi. Soyuqdan yanaqları daha da allanmışdı. Qoşqarı görcək gülümsədi. Nərgiz anasına tərəf döndü:

— Naxır gəldi...

Şirin arvad buxarının başından cəld qalxıb bayıra çıxdı.

Nərgiz divardakı taxçadan balaca bir torba götürdü, ağzını qatlayıb kürsünün üstünə qoydu.

— Ye, Qoşqar, — dedi, — təzəcə qovurmuşam...

— Sağ ol, Nərgiz, indicə evimizdə yemişəm...

— Yalan danışma. — Nərgiz güldü. — Xıdıra hələ çox var... Bunu elə özüm qovurmuşam. Gecələr adam bekar qalır... Əkiz bacılar da əl çəkmədilər. Qoşqar küncütlü, çətənəli qovurğanı qabağına çəkdi. Nərgiz qalaylanmış mis ləyəndə kündələnmiş qovut da gətirdi.

— Bunun da dadına bax, özüm qovurmuşam...

Elə bu vaxt Mədinənin səsi eşidildi:

— Qoşqar, hey! Atan çağırır!..

Qoşqarın birdən yadına düşdü ki, ələyəzli yarma çəkməsini babası Dünyamalı kişiyə aparmalıdır. O da iftarını açmalıdır. Cəld kürsü yorğanının altından sivişib çıxdı. Axı babası həqiqətən acdı. Çünki onun özü də bir dəfə oruc tutmuşdu. Tutmuşdu deyəndə ki, anası məcbur etmişdi. "Nəzir demişəm, gərək şəhid olan İmam Hüseynin əvəzindən bir gün oruc tutasan"... Sonra sübh tezdən, xoruzun ilk banında onu da özü ilə bir durğuzmuşdu, süfrə başına əyləşib doyunca yemişdilər. Gün əyilənə yaxın oruc tutmaqla işi olmayan atası hiss etmişdi ki, oğlu acıb. Fürsət tapıb yaxşıca bir yağ dürməyini Qoşqara verib demişdi: "Apar samanlıqda ye, ancaq anan bilməsin..." Axşam molla Həbib azan verən kimi onlar süfrə başına yığılmışdılar. Mədinə xörəyin üzünü qalaylanmış mis ləyənə çəkib əvvəlcə ata ilə oğulun qabağına qoymuşdu. Süleyman kişi oğlunun üzünə baxıb göz vurmuşdu,

bığının altından qımışmışdı...

Küçədən yük maşını keçdi. Sürücü gecə yarısı maşını harasa qovurdu. Professor'un xəyalı bir anlığa Kosalıdan ayrıldı. Yemək otağında Elşənin ayaq səsləri eşidildi. Professor hiss etdi ki, oğlu yavaş-yavaş onun qapısına yaxınlaşdı, qulaq asdı. Atasının hənirtisini eşidən kimi yenə də ayaqlarının ucunda qayıdıb getdi.

Qoca qayıdıb pəncərədən bayıra baxdı.

Limandakı gəmilərin işıqları dənizin üzərində qəribə bir mənzərə yaratmışdı. Birdən bu işıqlar projektor zolağına döndülər: elə bil Kosalıdan çıxıb Qartallı qayanın döşünə dolanan cığıra bənzədi. Cığır uzandıqca uzandı, uzaqlarda yox olub üfüqlə birləşdi.

Professor ata-anasını itirəndən sonra, həddi-buluğa təzəcə çatan vaxtlarında həmin bu cığırla Kosalıdan çıxmışdı və bir daha geri qayıtmamışdı... Dünyamalı kişinin bir kəlamı yadına düşdü. Babası deyərli: "İnsan ömrünün bir hissəsini yollarda keçirir. Ömür isə ilə bənzəyir. Onun yazı da olur, qışı da..."

Yemək otağındakı kəfkirli saat səsləndi. Gecə yarısı idi. Qoca birdən yamanca qəribsədi, özünü tək-tənha hiss etdi, ürəyi darıxdı, başı hərləndi. İstədi Elşəni çağırsın. Bacarmadı, səsi tıxanıb boğazında qaldı. Divardan tuta-tuta keçib stula əyləşdi. Əlini güclə uzadıb çarpayının yanındakı balaca tumboçkanın üstünə qoyulmuş elektrik lampasının düyməsini basdı. Otağa dumanlı bir işıq yayıldı. Zorla yeriyib özünü çarpayıya saldı. Sinəsindən anlaşılmaz bir ağrı qopub, sifətinə, gözlərinə tərəf yeridi... Mehrinin şəklinə baxdı. Ancaq nə iri gözlərini, nə də təbəssümlü sifətini əvvəlkilər kimi aydın görə bilmədi. Ürəyindən bir səs gəldi: "Həmişə mən sənə qulaq asmışam, indi də sən məni eşit. Heç kimi çağırıb narahat eləmə. Sən bir insan kimi, bir vətəndaş kimi öz borcunu ləyaqətlə yerinə yetirmisən. Atalar deyib: dolan boşalacaq, gələn gedəcək... Bu səfərdə heç kimə güzəşt yoxdur. O ki, qaldı mənə, səndən razıyam. Ancaq bir qüsurunu bağışlaya bilmirəm: adlı-sanlı adam olandan sonra məni bircə dəfə məcbur etmədin ki, səni ata-baba yurduna, Kosalıya aparım..."

Professor istədi qalxıb geyinsin, gecə yarısı olmasına baxmayaraq küçəyə ensin, rastına çıxan hər hansı bir sürücüdən xahiş etsin ki, nəyin bahasına olursa-olsun onu Kosalıya çatdırsın. Özü də elə sür'ətlə sürsün ki, günəş Qartallı qayanın arxasından boylananda kənddə olsun. Axı indi o, uşaqlıqda olduğu kimi yenə Yastı təpənin üstünə dırmanmaq, qollarını qaranquş qanadı kimi yanlara açıb "Doğdu günəş qırmızı..." deyə bağırmaq istəyirdi.

Özü də elə bağırmaq ki, səsi Dağdağanlı dərədə, Söyüdlü pirdə əks-səda verib, hər yerə yayılsın, bütün Kosalının üstündə səslənsin.

Ancaq, gec idi.., çox gec...

***

Elşən tezdən ayılanda atasının yataq otağından dəhlizə işıq süzüldüyünü görüb təəccübləndi. Pijamasını cəld əyninə keçirib qapını açdı. Stolüstü lampa yana-yana qalmışdı. Professor isə yarıoyaq, yarıyuxulu halda çarpayıya uzanmışdı.

— Sabahın xeyir, ata...

Cavab almadı, yaxına gəldi. Sol döşünün üstünə qoyduğu əlinə toxunanda ev sahibinin başı balıncın üstündən aşıb yana düşdü. Elşənin qəhərli haray səsi bütün otaqlarda səsləndi:

— Ata!!!

Oğulla gəlin onu qaldırıb çarpayıya uzatdılar, balaca kağız parçasını barmaqları arasından güclə çıxara bildilər. Orada qısa bir cümlə yazılmışdı: "Məni Kosalıda dəfn edin..."

## TƏMİZ ADAM

Bakıya gələn qatarın yumşaq vaqonuna bir əyləşdik. Təsadüfə bax ki, ikimizə bir kupedə yer vermişdilər. Mən e'zamiyyətdən qayıdırdım. Yelmar müəllim isə bacısıgildən. Bu görüşdən ikimiz də xoşhal olduq. Axı, neçə il olardı ki, bir-birimizi görmürdük. Yelmar müəllim təqaüdə çıxandan sonra şəhərdə, dənizkənarı parkda görünmürdü. Ancaq eşitmişdim ki, memuar yazır. Azərbaycanın görkəmli hüquqşünaslarını cavanlarımıza tanıtmaq istəyir...

Kupedə yerimizi rahatlayandan sonra mənə baxıb gülümsədi. Sifəti yenə qayğılı idi, lap universitetdə dərs dediyi illərdə olduğu kimi...

— Ay Nüsrət, — dedi. — Səni görməyimə yamanca sevindim... Gör neçə il olar mən səni görmürəm... Ancaq deyəsən, özünə yaxşı baxmırsan... Saçlarına niyə dən düşüb, ayə?

— zarafat etdi, gözlərini qıyıb üzümə, saçlarıma diqqətlə baxdı.

— İllər öz işini görür...

— Demək istəyirsən ki, qocalırıq... Ə, sən ki, dünənki uşaqsan.

— Nə uşaq, Yelmar müəllim?! Nəvəm var...

— Yox əşşi! — Yelmar müəllim başını mə'nalı-mə'nalı silkələdi. — Gör ha!.. On beş il olar ki, görüşmürük?

— Olar.

— Günah özündədi... Sənə dedim, gəl hüquq fakültəsinə, sənsə qaçdın jurnalistliyə... Çətin peşədi jurnalistlik. Çox şey yazmaq istəyirsən, amma yaza bilmirsən, sonra da salırsan ürəyinə, — zarafata keçdi, — həm də gərək təzə sözlər tapıb işlədəsən. — Güldü və tez də əvvəlki söhbətə qayıtdı — on beş il... Elə bil dünən idi...

— Mənə elə gəlirdi ki, siz Bakıdan köçübsünüz... Axı, bilirəm ki, sizin əsliniz...

Kupenin qapısı açıldı. İçəriyə yaşı ötmüş bir kişi daxil oldu. Söhbətimiz yarımçıq qaldı. Sərnişin yol çantasını üst yatacağa qoyub bizimlə salamlaşdı. Sonra Yelmar müəllimlə üz-üzə oturdu, panamasını başından götürüb qırmızı və ətli sifətinə yelpik çəkdi, cibindən dəsmalını çıxarıb tükünün çoxu tökülmüş başının tərini sildi...

Təzə sərnişin üzündən mülayim görünsə də gözlərinin dərinliyində anlaşılmaz bir əndişənin cizgiləri özünü dərhal büruzə verirdi. Bunu mən ilk baxışdan kəşf etdim.

Yelmar müəllim bir müddət ona diqqətlə baxdı, gözlərini yumub elə bil fikrə getdi. Sonra birdən dikəlib dedi:

— Axşamınız xeyir... Xoş gördük sizi. — Yelmar müəllim təzə sərnişinlə təzədən salamlaşdı, hal-əhval tutdu, hətta əl verib görüşdü də. — Yoxsa tanımadınız?

— Xeyr... Tanımadım.

— Bəlkə qocalmışam?

— Nə deyim, — təzə sərnişin çiyinlərin çəkdi.

— Doğrudan tanımadınız? — Yelmar müəllim sualını bir də təkrar etdi.

— Yox... mən sizi... birinci dəfədi görürəm.

— Birinci dəfə?!

— Bəli.

— Yox əşşi! — Yelmar müəllim ucadan güldü. — Mən Yelmar Zərgərliyəm... Çiynini niyə çəkirsən? — Bu dəfə onun səsində ciddi bir məzəmmət var idi.

— Düz sözümdü, yoldaş... Tanımıram mən sizi.

— Sən... sən Kətanov deyilsən? İman Kətanov? — Yelmar müəllim təzə sərnişini bir də diqqətlə süzüb mənə baxdı.

Sərnişin dedi:

— Bəli, Kətanovam...

— Demək tanıdıq bir-birimizi.

— Xeyr... Mən sizi tanımıram.

— Bəs onda mən sizi haradan tanıyıram? — Yelmar müəllim təəccüblə xəbər aldı.

— Nə bilim. — Təzə sərnişin kinayə ilə gülümsədi.

Daha dözə bilmədim, söhbətə qarışdım:

— Bir az fikirləşin, — dedim, — respublikamızda az adam tapılar ki, Yelmar Zərgərlini tanımasın.

— Səhvimdi... Görünür, elə o az adamlardan biri də mənəm.

Yelmar müəllim təzə sərnişinə tepindi:

— Özünüzü xamlığa qoymayın! Yoxsa zarafatdan xoşunuz gəlir?

Qatar yola düşdü. Təzə sərnişin dala-qabağa ləngər vura-vura dedi:

— Xeyr, xeyr! Mənim zarafatdan xoşum gəlməz. Abbasqulu ağa demişkən: "Zarafat məhəbbətin qayçısıdır". O ki, qaldı sizə, ilk dəfə gördüyüm adamla zarafat eləmək ədəbsizlik olar mənim tərəfimdən.

— Pa atonnan! — Yelmar müəllim əlini dizinə sürtdü, mənə baxıb əlavə etdi: Adamlar nə yaman dəyişiliblər! Bu yoldaş Kətanov bizim evdə də olub. Yoldaşım Səfurə xanım bunu əncir mürəbbəsi ilə pürrəng çaya da qonaq edib. — Yenə sərnişinə tərəf döndü. — Onda siz səhv etmirəmsə, fəhlə təchizatı idarəsində rəis işləyirdiniz... Yenə yadınıza düşmədi? Bizə necə gəldiniz, necə getdiniz?..

— Düz buyurursunuz... Mən uzun illər ORS-da işləmişəm... Amma sizi birinci dəfədir görürəm.

Yelmar müəllim təzə sərnişinin öz sözünün üstündə möhkəm durduğunu görüb güzəştə getməli oldu:

— Daha sözüm yoxdu!..

Mən hiss edirdim ki, Yelmar müəllim büruzə verməsə də, onu od götürmüşdü. Əsəbi halda gah təzə sərnişinə, gah da mənə baxırdı. Tez yadıma öz cinayətini boynuna almayan, etdiyi qəbahətin altından çıxmağa çalışan məhbusu dindirən müstəntiqin vəziyyəti düşdü... Daha söhbətə müdaxilə edib onun narahatlığını çoxaltmaq istəmədi.

Söhbətimiz bitdi. Bir azdan işığı da söndürdük. Təzə sərnişinin yatağa uzanması ilə xoruldaması bir oldu. Səhər ayılanda Kətanovu kupedə görmədik. Yelmar müəllim oyalandı:

— Əclaf! Yəqin Biləcəridə düşüb...

***

Bakıda havaların isti keçən günləri idi. Axşamçağı dəniz kənarına endim. Pillələri düşüb sahilə gəldim. Gah aşağı şığıyan, gah qanad açıb dövrə vuran təyyarələr kimi sahildə cövlan edən qağayılara təzəcə tamaşa etməyə başlamışdım ki, kimsə məni arxadan çağırdı:

— Nüsrət!..

Geri döndüm. Skamyalardan birində tək-tənha əyləşib uzaqlara tamaşa edən Yelmar müəllimi gördüm. Yaxına gəldim. Salamlaşdıq, əl verib görüşdük. Yanında əyləşmək üçün yer göstərdi. Tabe oldum. Bir müddət nə o sual verdi, nə də mən danışdım. Tez vaqonun kupesindəki əhvalat yadıma düşdü. Bu barədə söhbət açmaq istəyirdim ki, Yelmar müəllim oyalana-oyalana dedi:

— O günü gördün tipi?

— Kimi?

— Kupedəkini deyirəm də? Axı, söz vermişdim ki, əhvalatı sənə başdan danışam. Yaxşı oldu görüşdük. — Yelmar müəllim kürəyini

oturacağa söykəyib sözünə davam etdi: — Qocalığıma baxma, hafizəm hələ yerindədi... Təkcə hafizəm yox, gözlərim də yaxşı görür, qulaqlarım da yaxşı eşidir... İşləyəndə hərdənbir volakardin içərdim, gecələr seduksen atardım... İşlə əlaqədar idi. Naqis adamlarla təmasda olurdum... Sağlığına, indi onların heç birinə ehtiyacım yoxdu... Çünki bə'zi namərdləri indi görmürəm, ləyaqətsiz adamlarla üz-üzə gəlmirəm...

Yelmar müəllim söhbətinə ara verdi. Bundan istifadə edib sözünə qüvvət verdim:

— Göz dəyməsin, sizə heç kim cür'ət edib qoca deyə bilməz.

— Yox, Nüsrət! — Yelmar müəllim qayğılı gözlərini üzümdə gəzdirdi. — Belə ötkəm danışmağıma baxma, illər yaman tez-tez gəlib gedir... Şair demişkən: "İllər, qanadlı illər!" — Köks ötürdü, əllərini saçlarına çəkib, bir an fikrə getdi. — Hə deyəsən, əsas məsələdən uzaqlaşdıq... Keçək mətləbə... Beş-altı ay olardı ki, məni universitetdən birbaşa respublika prokurorluğuna işə aparmışdılar. Bir gün bizim şö'bəyə ciddi bir siqnal daxil oldu. Həmin siqnala görə, müavinimi səninlə bu yaxınlarda olduğumuz şəhərdəki fəhlə təchizatı idarəsinə göndərdim. Bir-iki gündən sonra zəng, zəng dalınca vuruldu. Dəstəyin birini götürüb, birini qoyurdum. Zəng vuranların içərisində nazir də , rəis də, alim də var idi, hətta təsəvvür elə ki, şair də... Nazir deyir: "Yoldaş Zərgərli, Kətanovun işi ilə özünüz məşğul olun, görünür, onu gözü götürməyənlər var..." Rəis deyirdi: "Təsəvvür edin ki, 30 ildir Kətanov ticarətdə qüsursuz işləyir..." Alim deyirdi: "Kətanov gözəl atadı... Bütün övladları ali təhsil alıb, böyük oğlu kandidatdı... "Şair də çox qısa, ancaq lirik bir tərzdə bəyan edirdi: "Olmaz, İman müəllimdən..." Mənə elə gəlirdi ki, bu adamlar yəqin əvvəlcədən dilbir olub razılığa gəlib, sonra mənə zəng vurmağa başlayıblar. Çünki hamısının son sözü bu olurdu: "O, təmiz adamdır..."

Adamlara inanmaq lazımdır. Mən ağlım kəsəndən bunu özüm üçün, jurnalistlər demişkən, bir deviz seçmişəm. Ona görə də zəng edənlərin hamısına inandım. Müavinimə zəng edib göstəriş verdim ki, yoxlamanın yekunu barədə arayışı yerli təşkilata təqdim edib şəhərə qayıtsın...

***

Bir gün axşam Səfurə xanımla oturub qızımın toyunu necə keçirməyi götür-qoy edirdik. İkimizin də məqsədi bu idi ki, yeganə övladımız Nargül ata evindən narazı getməsin... Səfurə xanım hazırladıqları cer-cehizləri sadalayırdı. Mən də öz mülahizələrimi çox ehtiyatla ona bildirirdim. Səfurə xanımın adi bir narazılığını hiss edən kimi güzəştə gedirdim. Axı, anaların ürəyi çox kövrək olur. O ki, qala qız köçürən

analara... Elə bu vaxt qapının zəngi çalındı. Dəhlizə çıxdım. Astanada dayanan iki nəfər təklif gözləmədən özünü içəri saldı. Birisi bax, o gün kupedə gördüyün Kətanov, ikincisi də sısqa, dişlərini yerli-yersiz ağardıb hırıldayan orta yaşlı bir kişi. Onları tanımadığım üçün elə dəhlizdə soruşdum:

— Sizə kim lazımdır?

— Siz... Zərgərli yoldaş.

— Mənimlə işiniz var?

— Bəli... Mən İman Kətanovam...

Tez zənglər, xahişlər yadıma düşdü. Onları otağa də'vət etdim. Oturmaq üçün yer göstərdim. Əyləşdilər. Sarışın adam əlindəki domino qutusunu da stolun üstünə qoydu.

Qonaq-qara gələn kimi mətbəxə keçməyə adət etmiş Səfurə xanıma sərəncam verdim:

— Xörək hazırla...

— Çox sağ olun, yoldaş Zərgərli.. Çörək yeyən deyilik! Sarışın adam da şit-şit gülüb, arvad səsi ilə əlavə etdi:— İndicə yemişik sağlığınıza...

— Onda adama bir stəkan çay içərik.

Səfurə xanım qonaqlara çay gətirdi, stolun üstünə mürəbbə də, şirniyyat da düzdü. Qonaqlar çayı tələsik nəlbəkiyə süzüb içdilər. Onların narahat olduğunu görüb soruşdum:

— Bakıya iş üçün gəlibsiniz?

— Xeyr, sizi görməyə.

— Mənə görə nə qulluq?

— Qul sahibi olasınız, yoldaş Zərgərli. — Kətanov başını ağır-ağır yırğalayıb razılığını bildirdi. Vallah, siz ki, mənə elə böyük yaxşılıq etdiniz. Ömrüm boyu oldum sizin qulunuz.

— Bu nə sözdü, canım?..

Sözümü kəsdi:

— Ürək sözümdü! — Kətanov bu dəfə əzilib-büzüldü.

— Bilmirəm sizə necə razılıq edim. Məni yaman xəcalət eyləmisiniz... öz yanınızda.

— Bizim borcumuz təmiz adamları böhtandan, şər-şamatadan qoruyub hifz etməkdir...

Deyəsən sözlərim sarışın adamın xoşuna gəldi, yenə şit-şit gülüb arvad səsi ilə dedi:

— Əhsən, afərin Yelmar müəllimə!

Kətanov üz-gözünü turşudub ona sarı elə sərt baxdı ki, sarışın adam dərhal əl-ayağını yığışdırıb yerindəcə kiridi.

— Gəlmişik, ayaq üstə də olsa sizə razılıq edək,

— Kətanov sarışın adama işarə elədi. — Bu da özgə adam deyil,

qaynımdı...

Eşitmişik ki, bu günlərdə qızınız Nargülün toyu olacaq... Elə sizin qızınız bizim də qızımızdı... Əvvələn, sizi təbrik edirik. Övladın xeyir işi valideynin bayramıdı, deyirlər... Gözünüz aydın olsun. Allah sizi nəvəli-nəticəli, kötükcəli eləsin... Sizi də, Səfurə xanımı da... Gələcək kürəkəniniz Elşadı da, qudanız da pis adam deyil... Mən Bakının, demək olar ki, yarısını tanıyıram, yoldaş Zərgərli...

Təccüb məni götürdü: "Kətanov mənim ailə üzvlərimin adlarını haradan bilir?" Daha söz tapa bilmirdim. Düzü, ilk dəfə evimə gələn adamlarla sərt danışmaq, onların qəlbinə toxunacaq bir hərəkət etmək adətim deyildi. Adətim deyildi, deyəndə ki, ata-baba qanun-qaydasıdı...

— Sağ olun çox sağ olun, — deyə dönə-dönə minnətdarlıq etdim.

Səfurə xanım çayları təzələmək istədi. Qonaqlar əllərini armudu stəkanın ağzına qoyub razılıq etdilər, Sonra ayağa qalxdılar... Süfrənin başından ayrılıb dəhlizə çıxanda domino qutusunu stolun üstündə gördüm. İşarə etdim ki, qutunuzu götürün. Onların heç biri özünü onda qoymadı.

— Qızınızın toyu mübarək olsun ...

Geri dönüb qutunu götürdüm, astanaya çıxdım:

— Qutunuz qaldı ...

Kətanov dalı-dalı qaçaraq pillələri düşə-düşə yenə öz sözünü dedi:

— Qızınızın toyu mübarək olsun...

— Ay yoldaş!..

Aşağı mərtəbələrdən yenə qulağıma bu sözlər gəldi:

— Yoldaş Zərgərli ...

— Qızınızın toyu ...

Domino qutusu əlimdə geri qayıtdım, eyvana çıxdım. Binanın qarşısında dayanan "Pobeda"nın qırmızı işıqları bir anın içində yanıb söndü və yerdən götürülüb irəli şütüdü...

— Qutunuz qaldı...

Səfurə xanım qolumdan tutdu :

— Sənə nə olub?

— Heç nə ! — əlim əsə-əsə domino qutusunu ona uzaidım. Eyvandan otağa keçdik.

— Bu nədi ki? — Səfurə xanım soruşdu.

— Nə bilim, — çiyinlərimi çəkdim, — hər halda...

Hirs məni boğdu. Sözümün ardını deyə bilmirdim. Səfurə xanım nə hiss etdisə cəld qutunu açdı. Nazik kağızlara bükülmüş qızıl pullar stolun üstünə səpələndi. Saydıq. Düz əlli dənə... Hamısı da bir boyda, bir çəkidə: onluq...

Qulaqlarımda mənə zənglər zamanı bir-birini əvəz edən sözlər səsləndi: "Təmiz adamdır..."

Yelmar müəllim söhbətinə ara verib uzaqlara baxdı.
— Bəs sonra nə oldu?
— Nə olacaq? — Yelmar müəllim köks ötürdü. — Səhərisi "təmiz adam"ın hüzuruna özüm buyurmalı oldum...

## NƏCİBLİK

Əli çəlikli qoca qəbul otağına girəndə katibə qız cəld yerindən qalxdı, stul götürüb irəli və onun qolundan tutaraq hörmətlə:
— Buyurun, əyləşin, baba — dedi.
Üçüncü mərtəbəyə qalxmaq üçün təntiyən qocaya elə bil dünyanı bağışladılar. Ehmalca stula əyləşdi, nəfəsini dərdi.
— Üzü qara olsun qocalığın! — Ay qızım, salamım da yadımdan çıxdı...
Katibənin yaraşlıqlı sifətində təbəssümlə qarışıq ani bir qızartı göründü. Qıza elə gəldi ki, qocanın niyyəti onu utandırmaqdır.
— Bağışlayın, baba... Salamı mən verməliydim.
Qoca bir-iki ağız öskürdü, nimdaşlığı dərhal gözə çarpan qaragül papağını başından götürüb yanındakı stolun üstünə qoydu, cibindən bir yaylıq çıxarıb alnının tərinin sildi.
— Qızım, təzə rəis yerindədir?
— Bəli, yerindədir?
— Bəli, yerindədir.
— Cavandı, ya ahıl?
Qız gülümsədi:
— Necə deyim, baba, olar da qırx yaşında...
— Hə, lap yaxşı! Deyin məni çox yox, dörd-beş dəqiqəliyə qəbul eləsin. Vacib sözüm var. Adım da Sərdardır, Muradxanlı Sərdar!
Qız bu adı eşidən kimi qocanı başdan- ayağa süzdü. Babasının tez-tez işlətdiyi sözlər yadına düşdü: "Muradxanlının vaxtında ..." "Muradxanlının bir sözünü iki eyləyən..." "Muradxanlının yumruğu stola dəyən kimi... "Katibə öz ürəyində bir də götür-qoy etdi: "Yox, bu o Muradxanlı ola bilməz!.. "Axı babası ondan elə danışırdı ki, qulaq asanların çoxunun, o cümlədən nəvəsinin də yadına at belində qılınc oynadan igidlər, nağıllarda divlərin dizini qatlayıb yerə söykəyən pəhləvanlar düşərdi. Qız xəyaldan tez ayrılıb, özünü düzətdi və qapını ehmalca açıb rəisin otağına getdi. Bir an keçmədi ki, qoca qarşısında son dəbdə çox səlqəli geyinmiş, gur saçlarının yanlarında tək-tük ağ xətlər nəzərə çarpan rəisi gördü.

— Xoş gəlmisiniz, Sərdar müəllim! — Rəis onun qarşısına yeridi, əl verib görüşdü və dərhal qoluna girib otağına apardı.

Qoca işıqlı, geniş otaqda yumşaq kreslolardan birində yerini rahatlayandan sonra rəisi diqqətlə süzdü və dərin fikirə getdi. Zəng çalan telefona cavab verən rəisin enli sinəsi, qara qaşları, sol yanağındakı balaca çapıq yeri ona yamanca tanış gəldi.

Rəis dəstəyi yerinə qoyan kimi üzr istədi:

— Bağışlayın, Sərdar müəllim. Mənə görə nə qulluq?

Qulluq sahibi olasan, ay oğul, — qoca fikirini bir yerə cəm etməyə çalışdı. — Özümü yaxşı hiss etmirəm. Deyirəm bir kömək edəsiz bəlkə kurorta gedəm!...

— Ürəyiniz haranı istəyir, Sərdar müəllim?

Qoca ah çəkdi:

— Şir qocalanda yuvadan kənara çıxmaz! Hara istəyəcəyəm? Mərdəkana.

— Baş üstə. — Rəis barmağını sol tərəfdəki stolun üstünə qoyulmuş boz rəngli aparatın ağ düymələrindən birinə toxundurdu.

— Eşidirəm, yoldaş professor...

Qoca "professor" sözünü eşidəndə gözlərini qıyıb rəisə bir də maddım-maddım tamaşa etdi. Professor sərəncam verdi:

— Nazim, kağız götür, yaz. Muradxanlı Sərdar Bayandur oğlu. Sən tanımazsan. İndi yenəcək yanına, Mərdəkana bir putyovka ver. Hə pulsuz, bizim hesabımıza.

Qoca çəliyə söykənib ayağa durdu, necə razılıq edəcəyini bilmədi. Ancaq titrək səslə:

— Ay oğul, — dedi, — sən ki, məni lap, necə deyərlər, yeddi qatıma kimi tanıyırmışsan! — Çəkinə-çəkinə əlavə etdi:

— Bəs, sən özün kimlərdənsən?

Rəis çiyinlərini çəkdi:

— Məhşur soydan deyilik, Sərdar müəllim.

— Yenə də... — Qoca tə'kid etdi: — tanış gəlirsən.

Proessor söhbəti azdırmağa çalışdı:

— Sizə yaxşı istirahət arzu edirəm. Nə lazım olsa gəlin, zəng edin.

Sonra qocanın qoluna girib onu müşayiət etmək istədi. Qoca yarızarafat, yarıciddi dedi:

— Oğul, kimliyini məndən niyə gizlədirsən?! Deməsən, gedən deyiləm. Məni belə mehriban qəbul edən, hörmət, ehtiram göstərən adamı mən tanımalıyam, ya yox?.. İstəyiniz odur ki, bu qapıdan birdəfəlik ayağımı kəsim?...

Rəis inadkar qocaya daha e'tiraz edə bilmədi.

— O nə sözdü, Sərdar müəllim!.. Mən sizi heç vaxt yadımdan çı-

xara bilmərəm. Mən institutu təzəcə bitirmişdim. Tə'yinatımı verdilər sizin nazirliyə. Onda siz nazir idiniz. Mən, bəlkə xatırınızda ola, Arpaçay rayonundanam. Adım Eldənizdi, familiyam da elə Arpaçaylı gedir.

Qoca bir an gözlərini yumdu. Elə oradaca xəyalı ötən günlərə uçdu. Adı da, familiyası da qəribə səslənən, cavan bir oğlan indiki rəis düz bir həftə onun yanına ayaq döymüşdü, çox vaxt qəbula düşə bilmədiyi üçün maşının qabağını kəsmişdi. Nazir isə gündə bir bəhanə ilə onu başından eləmişdi. Çünki boş olan yeri ən yaxın adamının oğlu üçün saxlamışdı. Hətta bir gün: "Yetim oğlanam, şəhərdə nə qohumum var, nə də simsarım" deyən Eldənizin üstünə çığırmışdı da: "Mənə dəxli yoxdu! Bura detdom deyil! — Göndəriş vərəqəsini üstünə tullamışdı: — Gedə bilərsən, çıx kabinetdən!.."

Cavan mütəxəssis isə daha heç nə deməmiş, otağın qapısını hirslə çırpıb çıxmış və bir də ora üz döndərib ayaq basmamışdı!..

Qoca indi bunları xatırladı, özü də ürək ağrısı ilə. Qeyri-ixtiyarı olaraq xəcalət çəkdi, hətta qəhərləndi də. Yaylığını cibindən çıxardı, sifətinə yaxınlaşdıran kimi cəld də qaytarıb öz yerinə qoydu. Boğuq səslə:

— Bağışla, oğul!.. Əziyyət verdim, — deyib getdi.

Rəisin də keyfi pozulan kimi oldu. Fikrində özünü məzəmmət etdi: "Ay Eldəniz, yaxşı gəlmişdin, axırda korladın!. Gərək kimliyimi bildirməyəydim."

Professor keçib kreslosuna əyləşdi, nə fikirləşdisə, əlini yenə aparatın düyməsinə toxundurdu və tez də xahiş etdi:

— Nazim, qoca gəlir, qabağına çıx, onu pilləkəndə qarşıla...

Nədənsə rəis bütün günü bir yerdə qərar tuta bilmədi...

## KÖHNƏ ONLUQ

Mənə şəhərin səfalı yerində tikilmiş binada təzə mənzil verdilər. Yeni evə köçənlərin hamısı kimi məni də maraqlandıran bir məsələ idi: "Görəsən, qonşum kim olacaq?"

Özümü saxlaya bilmədim, order yazan qaraşın qızdan pıçıltı ilə xəbər aldım:

— Yaxşı qız, bəlkə deyəsiz, mənim qonşum kimdir?

— İyirmi beş adam... Hamısı sizin qonşunuzdur.

— Orası düzdür, ancaq məni maraqlandıran qapıbir qonşudur.

— Bu başqa məsələ, — deyə qız masanın siyirməsindən ensiz bir kitab çıxarıb baxdı, başını qaldırıb gülümsədi və əlavə etdi: — Qonşunuz barədə işiniz gətirib Sizin qapı qonşunuz Musa müəllimdir, yəqin tanıyırsınız, şəhərimizin ən hörmətli müəllimlərindən biri-

dir.

Musa müəllimin adını dəfələrlə radioda eşitmiş, qəzetdə çıxışlarını oxumuşdum, ancaq özünü şəxsən tanımırdım.

Elə həmin gün də mənzilə köçdüm. Köçdüm deyəndə ki, iş yoldaşlarım məni, necə deyərlər, əlimi ağdan-qaraya vurmağa qoymadılar: "Yoldaş mühəndis, — dedilər, — biz əhd eləmişik ki, sizə yeni mənzil versinlər, əmlakınızı biz daşıyaq..."

Bəli, evimin əşyaları kirayişin qaldığım uzaq bir məhəllədən iki-üç saatın içərisində mənzilimə daşınıb yer-yurd olundu. Ayaq üstə olsa da fəhlə yoldaşlarımı qonaq etmək istədim, razı olmalıdılar: "Bu gün yorğunsunuz, sabah". — dedilər.

Yoldaşlarımı təzəcə yola salmışdım ki, dəhlizdə zəng səsləndi. Qapını açanda qarşımda 45— 50 yaşlarında gümrah bir kişi gördüm. Onun şəvə kimi saçlarına təzə dən düşmüşdü. Alıcı gözləri, şəstli qaməti var idi. Sifətində xeyirxah və qəlbi açıq adamlara xas olan bir təbəssüm göründü.

— Salam, qonşu, — deyə təklifimi gözləmədən içəri keçdi, — xoş gəlmisiniz!

Razılıq etdim, mənə agah idi ki, Musa müəllimdir.

— Qonşu, deyəsən axı sən də mənim kimi subaysan?

— Xeyr, — dedim, — uşaqları kəndə, anamın yanına göndərmişəm... İstilər sınan kimi gətirəcəyəm.

— Zarafat edirəm, ay Nəsir... mən də uşaqları hər il Batabata aparıram. Arvadın ürəyi bir az xəstə kimidir, istiyə heç tab gətirmir... Həkimlərdən biri deyir ki, Batabatın havası ürək üçün ən yaxşı dərmandır.

— Çox ağıllı iş görmüsünüz, Musa müəllim. Batabat bizim yerlərin dilbər guşəsidir.

Bir-birimizi beləcə tanıdıq. Hətta, Musa müəllimin təklifi ilə şəhər bağındakı restorana gedib şam etdik.

Hesabı kəsəndə Musa müəllim mənim əlimi saxladı, inciyəcəyini bildirdi. Mən tə'kid etmədim, xidmətçi qadına pul verəndə qonşumun kisəsindən stolun üstünə dördqat bükülmüş köhnə bir onluq düşdü. O, bundan alınan kimi oldu.

Musa müəllimin qaşları çatıldı. Üzünü yana çevirib restoranın açıq pəncərəsindən uzaqlara, günbatan tərəfdən narıncı rəngə çalan buludlara "Ağrı-dağı"nın arxasına enən günəşin "Ədilağa gölü"nün ayna sularına sancılan zərrin tellərinə baxdı.

— Yəqin kisə dibidir, — deyə köhnə onluğa işarə etdim.

— Xeyr, Nəsir, — dedi, — bu onluq kisə dibi deyil, uğursuz bir eşqin... — Musa müəllim dayandı, xidmətçi qadının gətirdiyi xırda pulları kisəsinə qoyduqdan sonra əlindəki onluğu açıb diqqətlə baxdı,

yenə səliqə ilə qatlayıb bükdü, kisəyə qoydu, — gedək, Nəsir, eyvanda əyləşib bir nərd ataq...

Aylı bir yay axşamı idi, şəhərimizin gündüzləri isti keçsə də, axşamlar mülayim meh küçələrdə, eyvanlarda dolaşır, pəncərələrdən içəri dolub tül pərdələri dalğalandırırdı. Nərd oynayıb yorulmuşduq. Düzü, məndə nərddən çox köhnə onluğa maraq oyanmışdı. Ancaq sual verib, onsuz da dalğın görünən Musa müəllimi qəmləndirmək istəmirdim. Mənim gözlədiyimi hiss etdiyi üçün sözə başladı:

— Mənim əslim Bulaqlı kəndindəndir, — dedi, — institutu bitirən ili öz xahişimlə kəndimizə gəldim. Dərslər təzəcə başlamışdı ki, Bulaqlıya institutu bitirmiş cavan bir həkim gəldi. Qız gözəl idi... Atası yox idi, anası ilə gəlmişdi. Bulaqlıda həkim olmadığı üçün onu gücbəla ilə kəndə gəlməyə razı salmışdılar. O, xəstəxananın yanındakı məhəllədə, sonsuz bir arvadın evini kirayə edib anası ilə birlikdə yaşayırdı. Mən onlara qonşu idim. İşə gedəndə, işdən qayıdanda.rastlaşır, salamlaşırdıq. Bir gün tezdən əl-üzümü yuyurdum. O, alçaq divardan boylanaraq şirin bir dillə:

— Sabahınız xeyir, Musa müəllim! — dedi, — bəlkə sizdə "Suram qalası" ola?

— Bəli, var, həkim...

İstədim deyəm ki: "Səyyarə, buyur, keç içəri, hansı kitab lazımdırsa, seç apar... İstəyirsən bütün kitablarımı apar. Bu yetim oğlan səndən heç canını da əsirgəməz..."Ancaq deyə bilmədim, otağa keçib kitabı gətirdim, divarın üstündən əlim əsə-əsə ona uzatdım.

— Çox sağ olun... Axşam oxuyub qaytararam.

— Qaytarmasanız da olar...

— Nə üçün?

— Elə-belə... Onu sizə bağışlaya bilərəm... Mənim kitabım çoxdur...

Səyyarə başını qaldırıb iri gözləri ilə gülümsədi. hörüklərinin ucunu oynada-oynada başını aşağı dikdi, sonra heç nə demədən asta-asta uzaqlaşıb getdi.

Həmin gün nə etdiyimi bilmədim. Fikirləşdim ki, yəqin tale özü bizi birləşdirmək üçün belə bir tədbir tökmüşdür: Səyyarə institutu bitirib Bulaqlıya gəlməli, mənimlə qonşu olmalıymış. Biz hər gün bir-birimizlə qarşılaşmalı, boylanıb bir-birimizin həyətinə baxmalı, sonra üz-üzə dayanıb danışmalı, bir-birimizə nəzər yetirməliymişik. Nə olsun ki, arada alçaq bir divar var? Divarı aradan götürmək çətin iş deyil!..

Bəli divar aradan yavaş-yavaş götürüldü, biz bir-birimizin evinə ayaq açdıq. Gülçöhrə xala, Səyyarə də, mənə analıq etməyə başladı. Bizim sevgimizdən bütün Bulaqlı xəbər tutdu. Əhd-peyman bağladıq.

Üzümüzə gələn payız toy eləməyə hazırlıq gördük. ...Elə-beləcə isti bir yay günündə düşmən sərhədi keçdi. Gülçöhrə xala və Səyyarə məni gözləri yaşlı yola saldılar.

Bizi bir-birimizdən min kilometrlərlə məsafə ayırırdı. Yuxusuz gecələrimi Səyyarə ilə birlikdə keçirir, ən şirin arzularımı onunla birlikdə bölüşdürürdüm...

Ancaq Səyyarənin məktublarıma cavab yazmaması mənim onsuz da az olan rahatlığımı tamamilə əlimdən almışjı. Yaxın dostlarımdan birini yaralı halda arxaya yola salanda Səyyarədən mənə bir xəbər yazmağını xahiş etdim. Kaş etməyəydim!.. Odun-alovun içərisində vuruşan bir əsgərin sevgilisi üzüdönüklük edib, onun ilk məhəbbətini tapdalasa nə olar? Mən güllələrin haradan yağdığını ayırd edə bilmədim. Yaralanıb arxaya xəstəxanaya göndərildim...

Musa müəllim fikrə getdi, papiros çıxarıb yandırdı. Mənə elə gəldi ki, o, söhbətinin arxasını danışıb həm özünün, həm də mənim qanımı qaraltmaq istəmir. Ona görə başımı qaldırıb onun tutqun sifətinə, intizar dolu gözlərinə baxdım. O, papirosundan bir qullab vurub söhbətinin ardını danışdı:

— Nəsir, nə başını ağrıdım, səndən yaxşı olmasın, həmin dostum hər şeyi yerli-yerində öyrənib mənə yazdı. Demə, məndən sonra Səyyarəni bir həkim kimi tez-tez rayon hərbi komisarlığına çağırırlar. O, burada bir hərbiçi ilə tanış olur. Yüksək rütbəsi olan həmin hərbiçi kömək edib Səyyarəni şəhərdə işə düzəldir. Az vaxtdan sonra isə mənim qayıdacağıma ümid etməyən Səyyarə, yaşlı olmasına baxmayaraq ona ərə gedir. Hətta dostum onu da öyrənmişdi ki, onlar əvvələr mehriban yaşamışlar, ancaq son illərdə nədənsə araları xeyli soyumuşdu.

Təxris olunandan sonra şəhər məktəblərindən birinə müəllim tə'yin olundum. Ancaq narahat idim, necə olursa-olsun Səyyarəni görmək istəyirdim. Arzum yerinə yetdi. İstirahət günlərinin birində teartrda yerimə təzəcə əyləşmişdim ki, məndən bir neçə sıra arxada Səyyarənin yaşlı bir kişi ilə otuduğunu gördüm. Kişi hərbi paltarda deyildi, görünür iste'faya çıxmışdı. Səyyarə xeyli dəyişmişdi... Baxışlarımız qarşılaşanda işıqlar söndü. Fasilədə foyeyə çıxmağa hazırlaşanda həmin yerləri boş gördüm...

Otaqda telefon səsləndi. Musa müəllim cəld qalxıb içəri keçdi. Söhbət uzandı, o, əvvəlcə arvadı, sonra uşaqları ilə şirin-şirin söhbət etdi, şəhərdə olan yenilikləri onlara danışdı, mənim adımı da çəkdi, təzə qonşu gəldiyini bildirdi. Hətta, arada zarafata keçərək arvadına: "Qadası, darıxma, havalar sınan kimi yanındayam" — deməyi də unutmadı.

Musa müəllim dəstəyi yerinə qoyub yanıma qayıtdı, danışıq zamanı hər şeyi başa düşdüyüm halda, arvadı Səlbi bacı ilə nə danışmış-

dısa, hamısını yenidən mənə nəql etdi. Qonşumun kefi indi durulmuşdu.

— Bəlkə birini də ataq?— deyə nərdtaxtaya işarə etdi. Mən başa düşdüm ki, arvadı ilə, uşaqları ilə çox mehriban danışması Səyyarəni də, köhnə onluğu da yadından çıxarmışdır.

— Musa müəllim dedim axı söhbətimiz yarımçıq qaldı.

Qonşum odu sönmüş papirosunu yenidən yandırdı.

...Deyirlər söz vaxtına çəkər...Üç dörd ilin söhbətidir... Elə bu cür isti yay günü idi. Yenə uşaqları Batabata göndərmişdim. İstirahət günü olduğundan bir az eyvanda qurdalanırdım, sonra güllərə qulluq edirdim. Birdən gəzmək fikrinə düşdüm. Aşağı enib qarajı açdım. (Musa müəllimin "Volqa" maşını var idi) Sükanın arxasına keçdim, bir müddət şəhərin küçələrini fırlandım... Bazarın yanından keçəndə bir qadının əlində iki zənbil yol kənarında dayandığını gördüm. Yanında 7—8 yaşlarında bir oğlan uşağı da durmuşdu. Mənim qabağımca gedən taksilər boş olmadığı üçün, qadın əlini qaldırsa da, heç biri dayanmırdı. Mən yaxınlaşanda oğlan irəli çıxıb əlini havada yellətdi. Maşını saxladım. Arxa qapını açan uşaq təklifimi gözləmədən keçib əyləşdi, qadın da onun arxasınca keçib yerini rahatladı. Maşını tərpətdim.

— Hansı küçəyə gedəcəksiniz?

— Minarənin yanındakı...

Nəzərlərimiz ön aynada toqquşdu, onun sözləri qırılıb boğazında qaldı. Maşına minən qadın Səyyarə idi. Mən bir müddət sükanı necə tutduğumu, hara sürdüyümü bilmədim. Birdən gördüm ki, şəhərdən çıxıb Naxçıvan çayının körpüsünü keçmişəm, az qalıram Nehrəmə çatam. Maşını geri döndərdim, şəhərin şərqindən uzanıb gedən təzə şosse yolunu adlayıb Şahbuz yoluna çıxdım. Xalxal meşəsinin başına hərlənib duz mə'dənlərinə tərəf getdim. Kanat yolunun kəsişəcəyindən dönüb yenidən şəhərə daxil oldum... Uşaq başını pəncərədən çıxararaq yolların kənarındakı laləli düzləri, yamacları, tərəvəz becərən qadınları anasına göstərdi. Səyyarə narahat vəziyyətdə oturmuşdu. Yanaqlarında yaş görünürdü. Aramızda pıçıltıya oxşar sual-cavab başladı:

— Niyə vəfasızlıq etdiniz?

— Mənim dərdim özümə bəsdir.

— Sizi ki, məcbur edən yox idi?

— Qəlbimə toxunmayın, onsuz da...

— Özü yıxılan ağlamaz...

Səyyarə ağladı, yaylığını gözlərinə basdı, çiyinləri əsdi. Daha ona əzab vermək istəmədim, istəmədim deyəndə ki, ürəyim gəlmədi. Səyyarə səhvinin həqiqətən əzabını çəkirdi. Bu elə bir əzabdı ki, ömrü boyu ondan əl çəkməyəcəkdi. İlk məhəbbəti ayaq altına salıb tapdalamaq olmaz!

Maşını minarənin yanında saxladım. Uşaq tez başını pəncərədən içəri çəkdi:

— Çatdıq, ana.

Yerə düşüb, qapını açdım, Səyyarənin zənbillərindən birini götürüb ona kömək etmək istədim.

— Zəhmət çəkməyin. — O, zorla gülümsədi, üzümə baxdı. Bu baxışlarda böyük bir təəssüf var idi...

Səyyarə başı ilə razılıq edib getmək istəyəndə uşaq onu dayandırdı:

— Ana, bəs əmiyə pul vermirsən? — deyə əvvəlcə Səyyarəyə, sonra mənə baxdı.

— Hə... bu saat... — Səyyarə pul kisəsini açdı.

— Lazım deyil, mən taksi sürmürəm...

— Nə olsun, — uşaq yekəxana cavab verdi, — biz müftə gəzməyə öyrənməmişik.

— Eybi yoxdur, heç olmasa, bu onluq məndən xatirə qalsın. — Səyyarə iri gözlərini qaldırıb həsrətlə mənə baxdı, sonra üzünü yana çevirib uzaqlaşdı, tini burulub gözdən itdi... — Bəs sonra nə oldu?

— Daha onu görmədim. Musa müəllim bu dəfə dərindən bir ah çəkdi: — Qonşunun qonşudan heç bir sirri olmamalıdır, — dedi, köhnə onluq kisə dibi deyil, uğursuz bir eşqin yadigarıdır...

Mən yerimin içində uzun zaman oyaq qaldım. Musa müəllimin isə gecədən xeyli keçənə kimi nə işıqları söndü, nə də zümzüməsi kəsildi...

## ŞİRİN XATİRƏ

Poçtalyon təzə qəzetləri gətirdi, divana əyləşib nəzərdən keçirməyə başladım. Qəzetlərdən birini açarkən gözümə dodaqlarında azacıq təbəssüm görünən bir qızın şəkli sataşdı. Bu qızın iri gözləri şəkildən düz mənə baxırdı. Girdə sifəti, sol yanağındakı iri xalı, kəlağayısının altından çıxıb gicgahlarında qıvrılan saçları da nəzərimdən qaçmadı.

Şəkilə diqqətlə baxdım, onu kiməsə oxşatdım, ancaq xatırlaya bilmədim.

Fikrə getdim. Şəkildəki qıza oxşatdığım adamı yavaş-yavaş xəyalımda canlandırmağa başladım. Bir anın içərisində xəyalım qanadlanıb məni ötən günlərə apardı.

...Ağır illərdən biri idi. Həmin il mən Ceyranlı rayon komsomol komitəsinin katibi işləyirdim. Komsomolçulardan bir dəstə könüllünü cəbhəyə yola salmağa hazırlaşırdıq. Bir neçə məktəbli qızla cəbhəyə gedəcək gənclərin sənədlərin qaydaya salır, onlar üçün içərisində isti

paltar, yol yeməyi olan bağlamalar düzəldirdik.

Bu vaxt içəriyə ortaboylu, başına ağ kəlağayı örtmüş bir qız daxil oldu. Payız havası onun yanaqlarını daha da allandırmışdı. Sol yanağındakı xalı duru sifətinə daha da gözəllik verirdi. Xurmayı, qıvrım saçları kəlağayısının altından çıxmışdı. Bu qız Ərikli kəndindəki "Xoş günlər" kolxozunun manqabaşçısı Yazgül idi. O, salam verdi, əvvəlcə mənimlə, sonra məktəbli qızlarla əl tutub görüşdü. Onun sözlü adama oxşamasını dərhal başa düşdüm.

— Camal yoldaş, sizinlə xüsusi işim var, bir dəqiqə olar? — deyə iri gözlərini sifətimdə dayandırdı, sonra dərindən köks ötürdü.

— Buyur içəri, Yazgül, — deyə onu kabinetimə də'vət etdim.

O, keçib əyləşdi, bir müddət başını sinəsinə endirib fikrə getdi. Görünür, söhbətə haradan başlamaq haqqında düşünürdü.

— Eşidirəm, Yazgül, — deyə onun köməyinə çatdım. O, kəsik-kəsik danışmağa başladı:

— Camal yoldaş deyirlər komsomolçulardan cəbhəyə könüllülər göndərirsiniz... Xahiş edirəm məni də göndərəsiniz. Özünüz bilirsiz ki...

Yazgül fikrini axıra kimi demədi, dayandı başını yana çevirib ürkək gözlərini üzümə zillədi...

— Cəbhəyə gedən könüllülər oğlanlardır. Yazgül, hələlik qızlara ehtiyac yoxdur. Bir də ki, arxada da mühüm işlər var. Cəbhədə vuruşanlara çörək lazımdır, paltar lazımdır. Axı sən...

Görünür ona təsəlli məqsədi ilə dediyim sözlər ağlına batmadı, mənim fikrimi tamamlamağa macal vermədi.

— Bağışlayın, Camal yoldaş, — dedi, — siz nə üçün ayrıseçkilik salırsınız? Ailəyə bir fəlakət üz verəndə qızı oğlandan ayırmazlar.

Nə cavab verəcəyimi bilmədim. Axı Yazgülü mən yaxşı tanıyırdım. Dünənə kimi utancaq bir qız idi. Hətta yazda onların kolzunda iclas keçirdiyim gün yadıma düşdü. Onda Yazgül utana-utana bir neçə kəlmə danışdı, kəndli qızlara xas olan bir həya ilə öhtəçiliyini bildirdi. Bundan başqa rayon komsomol komitəsinə katib seçilməmişdən əvvəl Əriklidə müəllim işlərkən Yazgülə iki il dərs demişdim.

— Yazgül, mən sənin cəbhəyə getməyinə razı olmaram!

— Rica edirəm, Camal yoldaş, — deyə xahişedici nəzərlərini yenidən üzümə zillədi. — Mənə kömək edin, burada qala bilmərəm. Mən getmək istəyirəm!

Marağım artdı. Fikrimə başqa şeylər gəldi: "Bəlkə kənddə qızı incidirlər... Yoxsa qəlbinə dəyiblər, yoxsa..."

— Yazgül, — dedim, — onda açıq danış. Sən nə üçün belə tə'kid edirsən?

Yazgül bu dəfə gözlərini düz gözlərimə dikdi, xeyli baxdı. Elə

bil bu baxışlar deyirdi: "Buyur, gənclərin rəhbəri, hünərin varsa ürəyindəkiləri gözlərimdən oxu..."

Mən isə heç nə oxuya bilmədim, əlacsız qalıb sualımı təkrar etdim.

— Camal yoldaş, bir halda ki, maraqlanırsınız gərək düzünü deyəm... Ancaq üzr istəyirəm, gərək məni bağışlayasınız... Mən sizdən heç nəyi gizlətmək istəmirəm... Mən Rəşiddən sonra kənddə qala bilmərəm... Nə əlim iş tutur, nə də rahatlığım var.

Yazgül qəhərləndi, üzünü yana çevirdi, kəlağayısının uclarını barmaqlarının arasına alıb əzişdirdi.

— Hansı Rəşid? Briqadir?

Yazgül dinmədi.

— Yazı stolunun arxasından çıxdım, kabinetdə var-gəl etdim. Keçib yenə kresloda əyləşdim, bir an gözlərimi yumub fikrə getdim. İki həftə bundan qabaq cəbhəyə yola saldığım həmişə gülümsər sifətli, zarafatcıl pəhləvan cüssəli bir gənc olan Rəşid gözlərimin qabağında dayandı. Elə bil səsi qulağıma gəldi "Yazgül sizə düzünü deyir, Camal müəllim. Biz bir-birimizi sevirik, hətta and içmişik ki, son nəfəsimizə kimi bir yerdə olaq..."

— Sən nahaq yerə narahat olursan, Yazgül, — dedim,— bu gün-sabah müharibə qurtarar, hamı qayıdıb gələr, Rəşid də qayıdar...

Yazgül köks ötürdü.

— Bu müharibə tez qurtaran müharibəyə oxşamır, — deyə xüsusi ahənglə cavab verdi, — bir də fikrinizə gəlməsin ki, mən təkcə Rəşidi tapmaq üçün cəbhəyə getmək istəyirəm. Yox, istəyirəm ki, orada vuruşanların köməyinə çatam, ürək-dirək verəm. Siz gəlin mənə kömək edin... Arzum ürəyimdə qalmasın!..

Yazgül məni yaman yerdə yaxalamışdı. Nə cavab verəcəyimi bilmirdim. Bəlkə də öz kəndindən, Ceyranlıdan başqa ayrı yer görməyən, böyük şəhərlərdə yaşamayan bu sadə kəndli qızı belə açıq danışacağını, mənə ürəyini açacağını, öz sözünün üstündə belə möhkəm duracağını heç ağlıma da gətirməzdim. Doğrusu, dünənki şagirdimin təklifi məni narahat etsə də, cür'əti, ürəyiaçıqlığı, mənə inanması xoşuma gəldi.

— Onda imkan ver, bu axşam xahişini lazımi yerlərə çatdırım, — ayağa qalxdım, — sabah nəticəsini sənə deyərəm, razısan?

— Razıyam!— deyə ötkəm səslə cavab verdi, — ancaq, Camal yoldaş təkcə xahişimi çatdırmayın, özünüz də xahiş edin... İnanın ki, başınızı aşağı etmərəm!

Əl verib xudafizləşdik. İşlərini qurtaran məktəbli qızları evlərinə yola saldım. Divana əyləşib yenidən fikrə getdim.

...Yazgüldən iki-üç ay xəbər gəlmədi. Anası Durna xala bir neçə

dəfə yanıma gəlib məni xeyli sorğu-suala tutardı. Həmişə də gözü yaşlı evinə dönərdi. Durna xalanın narahatçılığı mənim də qəlbimi sıxırdı. Mən əvvəldən bilirdim ki, Yazgül atasız qızdır. Çox erkən atasını itirən bu qızı çox çətinliklə böyüdüb ərsəyə anası çatdırmışdı.

— Özünüz bilirsiz ki, mən razı deyildim, Durna xala,— deyə hər dəfə ona ürək-dirək verirdim. — Ancaq inadından dönmədi, Bakıdan, Moskvadan belə teleqram vurdu...

— Atası da elə edərdi, ay oğul. Təzə kolxoz təşkil ediləndə hamıdan qabağa düşdü. Kəlbalı uşaqlarının da gözü götürmədi. Bir gecə zalımlar yazığı qanına qəltan elədilər. Oturub Gərayın yadigarını böyütdüm. Axırda da mənim gözümü yollarda qoydu... Axı qız xeylağının odun-alovun içində nə işi var?.. Nə edim oğul? Yuxum da ərşə çəkilib, gün olur ki, sübhü beləcə açıram. Axı anayam... Xahiş edirəm öyrən, komandirinə yaz, gör balamın başında nə var?..

Durna xalaya həmişəki kimi bu dəfə də təsəlli verib yola saldım. Ancaq hara yazım, kimdən öyrənim? Yazgül elə bil bir daş idi, quyuya atmışlar: Nə xəbər var idi, nə də ətər.

Az sonra qaraşın, alçaqboylu poçtalyon qız qapını tıqqıldadıb içəri girdi, salam verdi, təzə qəzetləri, bir də üçkünc məktubu stolun üstünə qoyub getdi...

Məktub Yazgüldən idi. Cəbhə qəzetində onun haqqında yazılmış bir məqaləni də kəsib məktubla mənə göndərmişdi. Qəzetdə onun hərbi paltarda şəkili də verilmişdi. Ancaq o, həmişəki kimi gülümsəmirdi, sifəti tutqun, gözləri dalğın idi. Bunlara baxmayaraq hərbi geyim ona çox gözəl yaraşırdı. Saçlarını əsgər papağının altında səliqə ilə boynunun ardında bir yerə toplamışdı. Onun haqqında yazılanlardan aydın olurdu ki, Yazgül üçaylıq kurs bitirəndən sonra tibb bacısı kimi cəbhəyə göndərilmişdir. Dəfələrlə yaralı döyüşçülərə yardım göstərmiş, döyüş meydanından çıxarmışdır. Bu qoçaqlığı üçün Yazgülə "İgidliyə görə" medalı verilmişdi. Axırıncı dəfə qıçından yaralandığı üçün xəstəxanada yatırmış.

Yazgül yazırdı ki,"Camal müəllim, bu yaxınlarda yenidən cəbhəyə gedəcəyəm. Məndən arxayın olun, başınızı aşağı etmərəm... Ancaq Rəşidi hələ tapa bilməmişəm".

...Bir həftədən sonra məni Ceyranlıdan başqa yerə dəyişdilər, Yazgüldən daha xəbər tuta bilmədim.

Günlər həftələri səslədi, həftələr aylara qovuşdu, aylar illərə döndü. Gedib qayıtmayanların yerini yeni nəsil gəlib doldurdu...

İndi Yazgülü gördüyüm vaxdan çox keçmişdi. Bəlkə də qəzetdəki ona oxşayan şəkili görməsəydim, heç Yazgülü xatırlayan da deyildim. Bunu mənə irad da tutmayın, çünki yaşa dolduqca insanın özü ilə bilavasitə əlaqəsi olmayan hadisələr çətin yadda qalır.

Belə bir vaxtda yolum Ceyranlıya düşdü. Qəzetdəki şəkili xatırlayan kimi maşını birbaşa Ərikliyə sürdüm. Kəndə gün əyiləndə çatdım. Günəş yavaş-yavaş dağların başına enirdi. Üfüqlər ətəyinə narıncı gəbə tutur, dağlardan əsən bahar yeli təzəcə çiçəklənmiş ağacların budaqlarında səslənirdi...

Maşını kolxoz idarəsinin qabağında saxladım. Həyətdəki ərik ağaclarının birindən balaca bir budaq qırıb burnumun qabağına tutdum, tər çiçəklərin ətri məni məst etdi. "Doğurdan da Ərikli" deyə başımı tərpətdim... "İçəriyə girəndə kimi görsəm yaxşıdır?.. Rəşidi. O, sədr stolunun arxasında oturub nə isə yazırdı. Vaxtı ilə gümrah bir oğlan olan Rəşid indi yaşa dolmuş, qara saçlarının yarıdan çoxu ağarmışdı.

İllər gəlib keçməsinə baxmayaraq məni görcək tanıdı, tez ayağa qalxdı.

— Xoş gördük, Camal müəllim! — deyə bərk-bərk əllərimi sıxdı, qoluma girib divana tərəf apardı, əyləşdik, hal-əhval tutduq. Nə yaxşı belə, bizi yada salmısınız? Şəhərli olandan gəlib-getmirsiniz... Bir görün neçə ildir mən sizi görmürəm! Əlbəttə, məndə də təqsir var ki, sizi axtarab tapmamışam. Əslinə baxsanız, bizi də qınamalı deyil. İş çox olur, bə'zən başımızı qaşımağa vaxt tapa bilmirik. İndi kəndlərdə görüləsi işlər heç şəhərdən əskik deyil...

Rəşid yamanca qızışmışdı. Sözlərinə diqqətlə qulaq asır, hərdənbir də dediklərin təsdiq edirdim.

— İnciməyə haqqın var, Rəşid, ancaq bilirsən kənddə elə bir işim olmadığı üçün çoxdandır ki, Ərikliyə yolum düşməyib...

Rəşid həm razı, həm də narazı bir vəziyyətdə başını buladı.

— Yox, heç inana bilmirəm!.. Gərək işiniz düşə? — deyə sözümü kəsdi, gəlib gəzmək, köhnə tanışları, dostları görmək necə? Axı uşaqlığımız, cavanlığımız kənddə keçib, Əriklidə müəllim işləmisiniz, burada dərs dediyiniz çoxlu adamlar var...

— Haqlısan, Rəşid! — deyə onunla razılaşdım. Təslim olduğum üçün daha dərinə getmədim.

...Biz kəndi xeyli gəzdik. Ərikli keçən illərə nisbətən xeyli dəyişmişdi. Kəndi tən ortadan yarıya bölən çayın üzərindən salınmış körpüyə çatanda Rəşid maşını dayandırdı.

— Yadınızdadır, biz ilk dəfə köhnə körpünün üstündə tanış olmuşduq? Onda buradan iki adam keçə bilməzdi. Bizim kəndə təzə müəllim gəlmişdiniz...

— Doğrudur, xatırlayıram, — dedim və fikrə getdim. Əriklikdə keçirdiyim günlər, dərs dediyim uşaqlar dumanlı şəkildə xəyalımdan keçdi. Yazgülü də yada saldım, nədənsə onun haqqında Rəşidə sual verməyə cür'ət etmədim. Elə bil ürəyimə danmışdı ki, xoşa gəlməyən bir cavab alacağam.

...Rəşid qayıtmağıma heç vəchlə razı olmadı. Bir də axı, Yazgül haqqında heç nə öyrənə bilməmişdim, əslini axtarsan fikrimdən də dönmüşdüm. Çünki Rəşid məni gəzdirərkən, kənddə aparılan tikintiləri mənə göstərərkən gəlib xəstəxanaya çatmışdıq. İçəri girəndə bizi bir qaraşın gəlin qarşıladı.

Rəşid onu mənə təqdim edərək:

— Xəstəxanamızın baş həkimidir, tanış olun, — dedi. Mən əl verib görüşdüm. Sonra onu mənə yenidən təqdim etdi: — İndisə yenidən tanış olun, həyat yoldaşımdır...

Hər üçümüz güldük, mən Humay bacının əlini ikinci dəfə sıxdım. Xəstəxanaya baxdığım bir neçə dəqiqənin ərzində hiss etdim ki, onlar çox mehribandırlar... Belə bir şəraitdə Yazgülün adını çəkib onu qəmginləndirmək ürəyimdən gəlmədi.

Ancaq uşaqlıqdan hər şeyi axıra kimi öyrənmək həvəsim burada da mənə güc elədi. Axşam qonaq olmağa Rəşidə razılıq verdim.

...Humay bacı bu dəfə ağ xələtdə yox, güllü ev paltarında qarşıladı, "xoş gəldin" elədi. Görünür, belə mədəni qadınla ömür yoldaşı olduğu üçün Rəşid özündən, taleyindən çox razı idi. Humay bacı yaxşı bir süfrə açdı. Otaqda ikimiz qalanda Yazgülü soruşdum.

— Yazgül... — Rəşid xüsusi bir ahənglə təkrar etdi, başını mə'nalı-mə'nalı silkələdi, qaşlarını çatıb üzümə baxdı, mənim sualımı gözləmədən elə bil ürəyimdən keçənləri oxuyub, əlavə etdi: Namuslu qız idi, özü də qəhrəmanlıqla həlak olub... Təssəvür edin ki, ömrünün axırıncı günü döyüş meydanından tək canına ondan artıq yaralı çıxarmışdı...

Rəşid dayandı, qıyılmış gözlərində dərin bir intizar göründü...

— Cəbhədə səni tapa bilmədi? — deyə onu ötən günlərə uçan xəyalını geri qaytarmağa çalışdım.

— Xeyr, biz görüşə bilmədik, — Rəşid xəyaldan ayrıldı, — bu məsələ uzun əhvalatdı... Humayın qardaşı Yazgül döyüşən hissədə komissar olub. Onun haqqında doğru mə'lumatı mənə o danışıb...

Rəşidin özü də Yazgül haqqında bildiklərini mənə ətraflı danışdı...

Limonlu çayın ətri otağa doldu.

...Səhərisi məni Rəşid, Humay bacı hörmətlə yola saldılar. Onlarla səmimi görüşdüm, qonaq də'vət etdim.

Maşına əyləşdim, Əriklidən çıxıb şəhər yoluna düşdüm. Günəş üfüqdən yenicə baş qaldırırdı. İndi qarşımdakı yol mənə daha geniş görünürdü...

Növbə mənə çatanda rektorumuz eynəyini çıxarıb stolun üstünə qoydu, diqqətlə üzümə baxdı. Həmişə sərt görünən sifətində ani bir təbəssüm gəzdi.

— Hə, — dedi, — gənc müəllim buyursun görək, onu hansı rayona göndərək?..

Düzü, ömrüm boyu adımın yanına əlavə olunacaq "müəllim" sözünü onun ağzından eşitməyim yamanca xoşuma gəldi.

— Azərbaycanın hər yeri mənim üçün doğmadır... Siz hara məsləhət görsəniz, ora...

Hiss etdim ki, rektor da, nazirliyin nümayəndəsi də cavabımdan razı qaldı. Onlar bir-birinə baxıb qarşılarındakı kağıza imza etdilər.

— Gilançay rayonuna...

İşlərim yaxşı gedirdi. İlk gündən mənə həm Məzrə kəndinin camaatı, həm də məktəbin müəllimləri böyük ehtiram göstərir, hörmət qoyurdular. O gün olmazdı ki, bir evə qonaq də'vət edilməyəm. Mənə bircə o qalırdı ki, də'vəti qəbul edə bilməyəcəyim üçün üzr istəyəm. Təkcə yeni dərs ilində başqa rayondan doğma kəndlərinə dəyişilən riyaziyyat müəllimi, həmyaşıdım Sabirin sözündən çıxa bilmədim. Çox tə'kid etdiyi üçün bir gün dərsdən sonra onlara getməyə razılıq verdim. Yaşıl rəngli darvazaya çatanda ortayaşlı bir qadınla rastlaşdıq. Sabir ayaq saxladı.

— Salam, Müşgünaz xala.

Arvad da dayandı, kəndli qadınlara xas olan qaydada bizdən çəkinirmiş kimi, qara şal yaylığının yaşmağını bir az da yuxarı qaldırdı. Sonra diqqətlə baxdı, birdən Sabiri qucaqladı.

— Bıy, Sabir, sənsən?! — dedi — saqqalın ağarsın, az qala tanımamışdım!.. Yoxsa kəndimizə dəyişilmisən?

— Bəli, Müşgünaz xala.

— Çox yaxşı! İşin həmişə avand olsun, bala! Məsmə sənsiz darıxırdı. Allah heç ananı oğuldan uzaq salmasın!

— Ürəkdən dua elədi, sonra dönüb mənə baxdı, əl uzatdı, barmaqlarımı bir müddət ovcunda saxlayıb, iri gözlərini sifətimdə gəzdirdi. — Oğul, səni tanıya bilmədim. Yoxsa, Malik İbrahim kişinin nəvəsisən?

Əvəzimdən Sabir cavab verdi:

— Yox, Müşgünaz xala, bizim kənddən deyil. İnstitutu bu il bitirib. Göndəriblər bizim kənddə işləməyə. Adı Naildir.

— Çox gözəl! Xoş gəlib! — Müşgünaz arvad əlimi buraxıb məni altdan-yuxarı bir də süzdü... — Allah hamınızın ömrünü duz dağına döndərsin! Di, sağ olun!

Müşgünaz xala yenə dua edə-edə uzaqlaşdı. Sabir bir an fikrə gedəndən sonra:

— Yaxşı qadındı, — dedi Sərdar əmi cəbhədən qayıtmadı. Bu da bir üzü qız, bir üzü gəlin oturub onun yeganə yadigarı Narıncı böyüdüb boya-başa çatdırdı. Müharibə illərində manqabaşçısı olub, orden alıb. Qız da iki-üç il olar ki, tibb texnikomunu bitirib kəndə qayıdıb. Narınc ləyaqətli qızdır! Həmişə fikirləşirəm ki, kaş halal süd əmmiş bir oğlana qismət ola!

— Yoxsa qıza "quşun qonub", Sabir? — deyə nədənsə birdən zarafat etdim.

— Yox, Nail! — Sabir ciddi cavab verdi. — Əslini axtarsan, Narınc sən deyən kimi, "quş qonmalı" qızdı. — Bir an fikrə gedib gülümsədi. — Ancaq mənim quşumun qonacağı budaq başqa ağacdadır.

— Necə başa düşək?

Darvazadan həyətə adladıq.

— Anamın bacılığı var, hələ tələbə olanda onun qızını mənə nişanlayıblar... Əlbəttə, öz razılığımla...

Sabirin anası şüşəbənddə göründü, bizi evə də'vət etdi.

— Oğlum da xoş gəlib, qonağı da. Hər ikisinə Məsmə qurban kəsilsin!..

Məzrə kəndi zirvəsində həmişə qar görünən, çiyin-çiyinə verib bir-birinə söykənən Üçbacı dağının ətəyində yerləşir. Kəndin hər iki tərəfindən axan çaylar aşağıda birləşir, sonra Araza qarışırlar. Məzrənin gözəl təbiəti var. Aranda taxıl biçiləndə burada sünbüllər təzə dənə dolur. Yayı sərin, qışı mülayim keçən kəndin bulaqları bütün Gilançayda məşhurdur: Mərcanlı, Qaragöz, Yarpızlı... Suları da göz yaşı kimi şəffaf, təmiz, təmli, şirin. Adamlarına isə söz ola bilməz! Xeyirdə də, şərdə də hamını bir işdən yapışan görərsən. Bir adama xoşbəxtlik üz verəndə hamı sevinər, bədbəxtçilik olanda qoca da, cavan da kədərlənər. Burada biri digərinin malına xor baxmaz, ocağının tüstüsünə, ağacının nübarına göz dikməz. Ağsaqqala, ağbirçəyə hörmət göstərirlər, qız-gəlinə ayrı gözlə baxılmaz. Dedi-qodu da məzrəlilərə yaddı. Söhbət arası deyərlər: "Müharibədən sonra bizim kənddən yuxarılara bir adamın da şikayəti getməyib..."

Bütün ətraf kəndlərdə Məzrəli qızların tə'rifi dillərdən düşməz. Hamısı da sağlam, ismətli, qeyrətli, gözəl-göyçək... Bu qızlardan biri də Müşgünaz xalanın qızı idi...

— Buyurun, — deyə qapını döyəni içəri də'vət etdim. Gələn Narınc idi. O, salam verib əlindəki balaca həkim çantasını stolun üstünə qoydu. Özümü itirdim, cəld qalxıb çarpayıdan düşmək istədim.

— Uzanın narahat olmayın. Yəqin özünüzü soyuğa vermisiniz. — İşarəsi ilə ağzımı açdım, boğazıma baxdı, nəbzimi yoxladı. — Keçib

gedər. Hava dəyişikliyindəndir. — Xoşagəlim, şirin ləhcə ilə əlavə etdi: — Şəhər cavanları bir az nərmə-nazik olurlar, kənd həyatına gec alışırlar. Yanlarından yel keçən kimi qaçıb girirlər yorğan altına.

Özüm də bilmədim ki, niyə qızardım, elə bil hərarətim də artdı. Heç nə demədim, daha doğrusu, istədim o danışa, mən qulaq asam. Ancaq yenə dil-ağız eləməyi özümə borc bildim.

— Sabir sizə nahaq əziyyət verib... Çox sağ olun...

O, gətirdiyi dərmanlardan bir neçəsini çarpayımın yanındakı stolun üstünə qoydu, necə qəbul edəcəyim barədə tə'limat da verdi.

— Burada heç bir əziyyət yoxdur, — sözümü də cavabsız qoymadı. — Borcumuzdu... Ancaq, Nail müəllim, havalar soyuyur... Qışda burada qala bilməzsiniz, xəstələnərsiniz, — Narınc məktəbdə müvəqqəti olaraq mənim üçün ayrılmış balaca bir otağa diqqətlə göz gəzdirdi, sonra yaşlı qadınlara məxsus bir qayğı ilə əlavə etdi: — Eşitmişəm ki, tək oğlansız. Bir vaxt Sөltan müəllim də sizin kimi idi, direktorumuzu deyirəm. Yaz açılanda kolxoza ərizə verin, dirrik yeri götürün, ev tikin, olun bizim kəndli. Məzrədən gözəl yer tapmayacaqsınız? — Çantasını götürüb getmək istədi. Birdən ürəyimdən bir söz axıb dilimə gəldi:

— Narınc... — dedim.

— Bəli, Nail müəllim.

Susduğumu görüb:

— Nəsə demək istədiniz, hə?.. — soruşdu.

— Xeyr, elə-belə...

Gülümsədi, münasib boyuna gözəllik verən başını ürkək ceyran kimi sol çiyninin üstündən çevirib iri qara gözlərini bir an sifətimdə gəzdirdi.

— Darıxmayın, tez sağalacaqsınız. Axı müəllimə xəstələnmək olmaz. O gələn yola hər gün onlarla uşağın gözü dikilir... Bir də narahat olmayın, bizim kənddə bütün dərdlərə çox tez əlac tapılır... Sağ olun, Nail müəllim.

Narınc getdi, otağa sükut çökdü. Mənə elə gəldi ki, məlahətlə oxunan bir mahnı yarımçıq qaldı, uca bir qayadan tökülən şəlalənin qabağı tutuldu.

Günlər aylara, aylar illərə döndü. Şagirdlərim sinifdən sinfə keçdilər...

Mən də Narınc dediyi kimi, oldum "məzrəli". Dirrik yerini də mənə onların qonşuluğunda, Qaragöz bulağının altındakı sahədə verdilər. Həyətimi onların həyətindən çəpər ayırırdı. Kolxozun köməyi ilə tikdiyim ikigözlü mənzilimin pəncərələrindən baxanda onların şüşəbəndi əl içi kimi apaydın görünürdü.

Elə bir gün də gəldi ki, Müşgünaz xala gözəl Narıncla toyumuz-

da süzdü. Bu gün sabah ata olacaqdım.

Necə deyərlər səadətimin sonu görünmürdü. Lakin... "Sən saydığını say, gör fələk nə sayır..."

Narınc doğum evindən geri qayıtmadı. Həkimlərin zəhməti fayda vermədi, nə özünə əlac oldu, nə də dünyaya hələ göz açmayan körpəmizə...

Narıncdan sonra xətrin anam qədər istədiyim Müşgünaz xaladan uzaq qaçır, gözünə görünmək istəmirdim. Bə'zən də lap gizlənirdim. Həyətlərimizi bir-birindən ayıran yulğun çəpərlər gözlərimdə böyüyüb keçilməz ormana dönmüşdü. Fikrimdən dönə-dönə keçirirdim ki, Məzrəyə gəlməsəydim, bu faciə də baş verməzdi...

Biz bir-birimizi sidq-ürəklə sevmişdik. Başqa kəndli qızları kimi, Narıncın da məhəbbəti Məzrə bulaqlarının suyu tək pak və şirin idi. Təmkinli hərəkətləri, tükənməz qayğıları ilə məni ilk gündən məftun etmişdi. Bir neçə ayın içərisində öz-özümə belə bir hökm vermişdim: "Yer üzündə Narınc kimi ləyaqətli ömür yoldaşı az-az tapılar..."Əlbəttə, mənim — uşaq evində böyüyüb boya-başa çatan, ata-ana nəvazişindən çox erkən məhrum olan bir adamın belə düşünməyə haqqı var idi, bunu mənə irad tutmağa heç kimin cür'əti çatmazdı.

Uzun müddət təsəllim onun divardan asılan şəkli oldu. O hər gün məni qayğılı baxışları ilə işə yola salır, həmişə ürəyimdən keçəndə ki: "Mən onsuz da təklikdən bezmişdim, Narınc, məni niyə tək qoyub getdin?" Qulaqlarımda doğma, səmimi səsi eşidilirdi: "Təki sən sağlıqla qal, Nail!.."

Dərs ili başa çatdı. Başqa kəndə dəyişilmək fikrinə düşdüm. Müşgünaz xala da bundan xəbər tutdu. Bir gün axşamçağı Sabirin anası dalımca uşaq göndərdi, getdim. Müşgünaz xala da burada idi. Hal-əhval tutduq.

— Oğul, Nail, — dedi, — niyə məndən qaçırsan?.. Bilirəm, sənin dərdin də mənimkindən yüngül deyil... Deyirlər kənddən çıxıb getmək istəyirsən?.. Ancaq, səndən gözləməzdim. İstəyirsən ki, tamam tək-tənha qalım? Qapını niyə bağlı qoymaq istəyirsən?.. Yenə heç olmasa, o bədbəxtin ətrini-iyini səndən alıram, oğul...

Daha sözünün ardını gətirə bilmədi, qəhərləndi, hönkürdü, bir yerdən sıxıb, min yerdən tökdü. Məsmə xala da ona qoşuldu. Mən də özümü saxlaya bilmədim, qalxıb şüşəbəndə çıxdım. Hönkürtü ağıya çevrildi...

Ara sakitləşəndə otağa qayıtdım, Müşgünaz xalanın başladığı sözü Məsmə xala davam etdirdi: —

— Görünür, Müşgünazın taleyi, bəxti beləymiş. Ancaq biz məzrəli analar çox dözümlüyük! Qal, heç yerə getmə. Mən xalan, Müşgünaz da anan... Düzdü, evə baxanın yoxdu... Ancaq Müşgünaz ona da

razılıq verir ki, təzədən ev-eşik sahibi olasan...

Aralığa dərin sükut çökdü. Müşgünaz xala ayağa qalxdı, yaylığının ucunu gözlərinə sıxdı.

— Mən getdim... Məsmə...

Məsmə xala heç nə demədən onu darvazaya qədər ötürüb qayıtdı. Pillələri endiyimi görcək əl-ayağa düşdü:

— Hara oğlum?! Hələ söhbətimiz bitməyib. Sabir işdən gəlib, səni o biri otaqda gözləyir...

"...Nəcibə universitetin kitabxanaçılıq fakültəsini bitirən ili özü ilə bir qrupda təhsil alan bir oğlana nişanlanır. Ailədə çox ərköyün böyüyən, həmin fakültəyə də güc-bəla ilə daxil olan oğlan nağıllarda deyildiyi kimi, günlərin bir günü qeyb olur. Demə, başqa bir qızı Sumqayıtda yaşayan dayısıgilə qaçırıbmış, Nəcibə daha Bakıda qala bilmir, qayıdıb əmisigildə yaşayır və kənd kitabxanasında işləyir."

Bunları mənə Sabir danışır, hərdənbir də, necə deyərlər "sarı simə" keçib hisslərimin incə telinə toxunurdu. Eh dünyada mö'cüzə daha çox! — deyərdi. — Yaralar nə qədər dərin olsa da, görürsən yavaş-yavaş sağalır, dərdlər nə qədər ağır olsa da gündən-günə köhnəlir, unudulur. Yaxşı deyiblər: "zülmətin bir qənimi var: işıq!"

Bəlkə buna görəydi ki, kitabxanaya tez-tez getməyə, bədii kitablar oxumuğa həvəsim xeyli artmışdı. Ola bilsin ki, buna başqaları tənhalığımdan irəli gələn bir vərdiş kimi baxırdılar.

Əslində isə bu kitablar bizim qəlbimizdə anlaşılmaz hisslərin qığılcımlarını yandırırdı. Söhbət-söhbətə calandı, göz-gözə baxdı. Kitabxanaçı qızın axır sözü bu oldu: "Razıyam".

Nəcibə ilə evləndik, özü də səssiz-küysüz, toysuz-düyünsüz, həm də demək olar ki, müəllimlərin əksəriyyətinin razılığı ilə. Hətta bə'zi sözlər də qulağıma dəyirdi: "Bu da Müşgünaz arvadın bir kişiliyi..." "Müəllimin nə günahı, qayış çəkdiyini çəkib..." "Heyif Narıncdan..."

Nəcibə ilə mehriban yaşamağa başladıq. Nə o məndən bir söz soruşdu, nə də mən ondan bir söz xəbər aldım. Əslini axtarsanız buna heç ehtiyac da yox idi...

Bir gün işdən qayıdanda Narıncın şəklini qonaq otağına vurulmuş balaca xalçanın üstündə gördüm. (Bu xalça Müşgünaz xalanın qızına verdiyi cehiz idi, özü toxumuşdu. Ortasında da bir budaq üzərində üzüzə dayanan iki göyərçin təsvir edilmişdi. Təəcüb etdim, başıma cürbəcür fikirlər gəldi.. Birdən Sabirin dediyi sözləri xatırladım: "Məzrəli qızların ürəkləri də niyyətləri kimi saf olur." Ancaq yenə özümə saxlaya bilmədim:

— Bu nə deməkdir?!

Cavab da qısa oldu:

— Belə yaxşıdır...

Daha dinmədim. Əslində Nəcibənin bir sözünü iki eləməyə cür'ətim çatmadı. Bir də axı özümü həmişə şad-xürrəm göstərməyə çalışsam da içimdə yenə də bir nigarançılıq məni gecə-gündüz narahat edirdi. Nəcibədən gizli ürəyimə qulaq asır, bə'zən də öz-özümə təsəlli verirdim: "Nail, axı sən belə deyildin! Qov ürəyindəki qara fikirləri, dağıt şübhələri..."

Əslini axtarsanız, məni qınamağa da əsas yox idi. Rəhmətlik babam deyərdi: "Göz gördüyündən qorxar..."

Yenə ata olmağıma az qalırdı...

Qış çıxdı, bahar gəldi. Yamaclar adəti üzrə ağ xalatını soyunub qırmızı, sarı, narıncı gülləri olan yaşıl donunu geydi. "Üç bacı"nın başındakı bəyaz örpəklər səhərlər günəşin zərrin şəfəqlərindən yenə nur toplayıb bərq vurdu. Bu işıqdan bir parça da bizim pəncərəyə düşdü. Balaca otağımızda eşidilən çağa səsi Qaragöz bulağın şəffaf suyuna, şirin zümzüməsinə qarışıb uzaqlara axdı...

Baharın ilk günü idi. Nəcibə yaxşı bir süfrə açdı. Bişirdiyi xörəkləri, şirniyyatları, şərbətləri səliqə ilə onun üzərinə düzdü.

— Nail, istəyirəm bir söz deyəm, axı?! — İntizar dolu gözlərini üzümdə gəzdirdi. — Bilmirəm razı olarsan, ya yox?

— De görüm...

— Bilirsən nə var... Gəl qızı da — beşikdəki körpəni göstərdi, — balaca Narıncı deyirəm... (Nəcibə ilk dəfə bu adı dilinə gətirdi.) götürüb gedək Müşgünaz xalanın yanına. Qoy bizi alt köynəyinin yaxasından keçirsin, bizi övladlığa qəbul etsin. (Sən demə Məzrədə qədimdən belə bir adət də var imiş!) Mənsə onun qarşısında diz çöküb yalvararam ki, nə günahım varsa bağışlasın. Bilirəm bağışlar, mərd arvaddı! Onsuz da nə sənin anan var, nə də mənim.

Şaşqın halda divana əyləşdim, fikrə getdim. Axı, Nəcibə mənim ürəyimdən keçənləri dilinə gətirmişdi. Çiynimə mehriban bir əl toxundu, saçlarımda isti bir nəfəs gəzdi. Ayağa qalxıb Nəcibəni bağrıma basdım, saçlarından, üz-gözündən öpdüm... Yaraşıqlı sifətinə, iri ala gözlərinə, çatma qara qaşlarına dönə-dönə baxdım. Üzünə təzə ana olan gəlinlərə məxsus xoşagəlim bir təravət qonmuşdu.

— Sənin nə nəcib ürəyin varmış, Nəcibə!... — dedim.

Bu dəfə o, başını qaldırıb gözlərini üzümdə gəzdirdi, sonra kədərli halda gülümsədi.

...Pəncərələri "Üç bacı"nın qarlı zirvələrinə baxan balaca otaqda körpə səsi, gülüşü daha ucadan eşidilməyə başladı. Ortadan yulğun çəpərləri götürülən həyətin yanından keçən məzrəlilərin çoxu xoş niyyətlə ayaq saxlayıb bu səsə, gülüşə qulaq asdı. Ancaq heç kim beşik başında dayanıb balaca Narıncı oxşayan Müşgünaz xalanın laylasını eşitmədi...

## QADIN NƏFƏSİ

— Kömək edin! Kömək edin!!!

İşin qızğın vaxtında sexdən qəfil eşidilən bu haray səsi hamını sarsıtdı. Zavodda bir anlığa hərəkət dayandı, hər şeyə daş sükutu çökdü, maşınların səsi, dəzgahların uğultusu kəsildi...

Hamı dəhlizə töküldü.

Bir azdan ombası ağır zədələnib bənizi ağarmış, huşunu tamam itirmiş cavan bir oğlanı xərəkdə gətirib "Tə'cili yardım"a qoydular. Sakitcə dayanan kişilərin bə'zisi başıaşağı o tərəf-bu tərəfə var-gəl edir, bə'zisi siqaret tüstüsünü sinəsinə çəkirdi. Qadınların yanağından gizli-gizli göz yaşları axırdı.

Hərdənbir də sinələrdən qopan təəssüf nidaları eşidilirdi:

— Bədbəxt Tural!

— Yazıq Şadiyyə!..

***

Qoca professor dəhlizin lap qurtaracağındakı palatadan çox yorğun və pəjmürdə çıxdı. Şadiyyə uzun və işıqlı dəhlizə qoyulmuş skamyadan cəld sıçrayıb onun qabağına yüyürdü.

— Professor, yalvarıram... Kömək edin...

Professor çox dalğın olduğu üçün cavan gəlinin nə səsini eşitdi, nə də başını qaldırıb üzünə baxdı. Birdən addımlarını yeyinlədib öz otağına keçdi.

Yaşlı tibb bacısı işi belə görüb cavan gəlini özü sakitləşdirmək istədi:

— Darıxma, qızım... özünü ələ al, Şadiyyə... Professorun xasiyyətidi...

Tibb bacısı sözünü axıra kimi demədi: " Professorun xasiyyətidi, xəstəsi ümidsiz olanda nə eşidir, nə də görür..." sözləri tıxanıb boğazında qaldı. Cavan gəlin dəhlizin ortasında dayanıb qəfil təhlükəyə mə'ruz qalan ürkək ceyran kimi o tərəf-bu tərəfə boylandı, iri gözlərini dolandırıb skamyalarda əyləşən tək-tük xəstələrə baxdı. Bu mə'sum baxışlar elə bil soruşurdu: " Niyə susursunuz?.. Siz ki, bu qocanı yaxşı tanıyırsınız. Danışın insanlar, agah edin məni... Niyə o, mənimlə bir kəlmə də kəsmədi... Yoxsa..."

Birdən tibb bacısının qollarından yapışıb bərk-bərk silkələdi:

— Barı sən dillən, Hürnisə xala!.. Axı, ürəyim partladı... Mən Turalsız...

— İnan mənə, qızım... Professor Kərimbəylinin əlləri qızıldı...

Şadiyyə ürəyindən keçənləri dilinə gətirdi:

— Bəs əlləri qızıl olan professor mənimlə niyə bircə kəlmə kəsmədi?.. Heç olmasa təsəlli üçün bircə kəlmə!

— Şadiyyə əlləri ilə sifətini örtüb ağladı.

Professor içəridə çox yubanmadı, otaqdan çıxıb yavaş-yavaş Şadiyyəyə tərəf gəldi. Cavan gəlin intizar dolu gözlərini onun sifətinə dikib durdu. Professor xeyli fasilədən sonra:

— Bilmirəm xəstənin nəyisiniz... Amma rica edirəm, mane olmayın. Onun vəziyyəti ümüdsüzdü, — dedi, sonra kəsik-kəsik əlavə etdi: — Qoyun görək nə edirik... Yaxşı olar ki, gedəsiniz... Sonra gələrsiz...

— Yox! — Şadiyyə ötkəm səslə onun sözünü yarımçıq kəsdi. — Tural sağalmayınca burdan gedəsi deyiləm!..

Professor tibb bacısına nüfuzedici bir nəzər saldı. Bürnisə qocanı başa düşdü. Şadiyyənin qoluna girdi, onu dilə tutdu, ağır addımlarla dəhlizdən çıxarıb həyətə düşürtdü.

Elə bu vaxt səmada bir-birinin ətəyindən sallanan boz buludlar səsləndi, uzaqlarda şimşək qıvrılıb açıldı.

Leysan gəldi...

— Görürsən Hürnisə xala, yer də, göy də bu gün mən yetimin halına ağlayır...

Tibb bacısı onu qucaqlayıb bağrına basdı:

— Elə demə, qızım, yağış aydınlıq əlamətidi...

***

Şəhər xəstəxanasındakı sakitlik bir payız günü beləcə pozuldu. Şadiyyə hər gün işdən çıxıb burada Turalla birlikdə çox günləri həftələrə, həftələri aylara caladı. Həkimlər, tibb bacıları Turalın başına hərlənsələr də, onun dərdinə əlac olunmadı, iflic olmuş ayaqları yerdə qərar tutub onun gümrah bədənini ayağa qaldıra bilmədi. Mütənasib sifətinə qonmuş ümidsizlik, cavan ömür yoldaşına gizli-gizli baxıb keçirdiyi peşmançılıq hissi onun ağır dərdinin üstünə əlavə bir dərd də gətirdi... "Görünür taleyim belə imiş... Gərək elə mən sərhəddçi olaydım!.. Guya ayrı hərbi hissədə xidmət edə bilməzdim!.. Gərək elə Araz sahilinə göndərəydilər məni? Mən də oraları xoşlayaydım, Zirə bulağının suyuna dadanaydım... Orada da sənə rast gələydim, ay kəndin qənirsiz gözəli!.. Bir könüldən min könülə sənə vurulaydım... Sən də öz məhəbbətinlə məni dəli-divanə edəydin?.. Sonra da isti yuvandan körpə bir quş kimi uçurub buralara gətirəydim... Axırda da bədbəxt edəydim... Özü də toyumuzun səsi hələ qulaqlardan kəsilməmiş, barmaqlarındakı toy gecəsinin xına rəngi solmamış... Bağışla, Şadiyyə. Günahkaram yanında, min kərə, milyon dəfə... Bağışla, Şadiyyə..."

Sexdə "kömək edin" haray səsi eşidilən vaxtdan düz bir il gəlib keçdi. Həkimlərin yeni-yeni müalicə üsulları bir yana dursun, zavod rəhbərliyinin, iş yoldaşlarının qayğısı da kara gəlmədi

Bir gün cavan çilingəri xərəkdə xəstəxanaya necə gətirmişdilərsə, bir gün də oradan eləcə çıxardılar.

Turalla qonşu sexdə işləyən Şadiyyə buna sıxılmaq əvəzinə, elə bil sevindi. Qoca professor onun gözündən yayınmağa çalışsa da bacarmadı.

Şadiyyə qabağa düşüb elə bil ona təsəlli vnrib dedi:

— Mə'yus olmayın, professor, bir gün gələcəyəm ki, Tural operasiyaya hazırdı.

Başqa həkimlər, tibb bacıları onun sözünü bir kinayə kimi götürqoy edəndə, professor fikrə gedib cavan gəlinin ürəyinin dərinliyindən qopub gələn bu sözlərin ötkəmliyinə, onun iri gözlərində alışıb — yanan ümid qığılcımlarına heyran qaldı...

***

Düz üç bahar, üç qış, günlərə, həftələrə necə döndü, bilmədi Şadiyyə. Həftələr aylara necə qovuşdu, xəbər tutmadı Şadiyyə. Aylar nə vaxt il oldu, hiss etmədi Şadiyyə... Günəş nə vaxt Xəzərin sularından boylandı, nə vaxt dağların zirvəsindən aşıb gözdən itdi, fərqinə varmadı Şadiyyə... Səhər necə gəldi, gecə necə əriyib yox oldu, fikir vermədi Şadiyyə...

Onun bütün fikri-zikri bircə yerə cəm oldu, Turala. Onun başının üstünü kəsdirdi, hər bir nazını çəkdi...

Bə'zən gecələri yuxusuz keçirdi, onun çarpayısı başında... Hər gün onu vanna otağına apardı, çimizdirdi, yumşalmış bədənini tumbul əlləri ilə oxşadı, səhərlər, axşamlar qıçlarını saatlarla ovub əllərinin hərarəti, barmaqlarının incə təması ilə oxşadı Turalı. Onun isti dodaqları tez-tez Turalın enli sinəsində, boyun-boğazında, hər gün təraş olunan sifətində gəzdi... Belə vaxtlarda, ömrün belə şirin çağlarında bütün dərdini unutdu Tural.

Dünyagörmüş nənəsinin kəndin ətrafındakı dağların döşündən, yaşıl çəmənlərdən yığıb gətirdiyi otlardan, çiçəklərdən hazırladığı dərmanları bədəninə sürtəndə, hərdənbir də dadlı-duzlu zarafatlar edəndə bu dünyanın gözəlliyini, ömrün şirinliyini qat-qat artırdı nəzərlərində Turalın...

Bir gün isə... bir gün isə ana olacağı xəbərilə sevindirdi Şadiyyə öz Turalını...

***

Qoca professor palatadan çıxdı. Onun sifətindəki aydınlıq Şadiyyənin incə qəlbində dərhal ümid çırağı yandırdı. Cəld ayağa qalxdı, professorun qənşərinə yeridi. Bir az aralıda dayanıb iri gözlərini qocanını sifətində gəzdirdi. Birdən nitqi qurudu, söz soruşmağa dili gəlmədi. Əvvəlkilər kimi, yenə bəd xəbər eşidəcəyindən ehtiyat edə-edə professorun nə deyəcəyini kəsdirə bilmədi. Ürəyindən sözlər axıb qulaqlarında səsləndi: "Bir bax, Şadiyyə... Bu sifət əvvəlki sifət deyil... qocanın üzündə xoş bir əhvali-ruhiyyə var... Soruş, yubanma, xəbər al, Şadiyyə..."

İstədi bir az da irəli çıxsın, bu dəfə də qıçları sözünə baxmadı. Nədənsə bütün bədəni gizildədi... Elə bil yenə də qəfil bir əl içəri uzanıb ürəyini sinəsindən çıxarmaq istədi.

Köməyə professor çatdı:

— Qızım... Şadiyyə...

Şadiyyə bu dəfə var gücünü toplayıb professorla üz-üzə dayandı. İntizar dolu gözlər yenə qocanın sifətində dikilib qaldı:

— Yoxsa...

Qoca onun əvvəlki duru sifətindəki tək-tük ləkəyə, əyninə gəydiyi güllü xalata baxıb fikrə getdiyi üçün sözünün ardını deyə bilməmişdi.

Professor birdən dedi:

— Tural yeriyəcək... Tural... — Professor yenə sözünün ardını deyə bilmədi, dəhlizdəki skamyada əyləşdi, başını geri qanırıb divara söykədi, bir anlığa gözlərini yumdu...

Şadiyyə nə edəcəyini bilmədi, özünü qocanın üstünə atıb qucaqladı.

— Sağ olun, professor! Əlləriniz var olsun... Qoyun, əllərinizi öpüm! — Professorun əllərini öpmək istədi, qoca mane olub, ata nəvazişi ilə onun saçlarını oxşadı. Sonra qolundan yapışıb ayağa qalxmasına kömək elədi. Özü də oturduğu yerdən durdu.

— Tural mənə hamısını danışıb... Onu bizim əllərimizdən çox, sənin iradən, vəfan sağaldıb, qızım... Sənin kimi ömür yoldaşı olan kişiyə zaval yoxdu!

Bu dəfə onun başını sinəsinə sıxıb saçlarından öpdü.

Şadiyyənin kədərli sifətinə, illərin nigarançılığından, ayların əzabından, gecələrin yuxusuzluğundan solub saralmış yanaqlarına elə bil azacıq qan gəldi, irilənib sökülmüş ala gözlərinin dərinliyində həyat eşqinin əlamətləri yenidən bərpa olundu...

Professor bu dəfə səsinə xüsusi ahəng verib asta-asta dedi:

— Sən bu qoğa həkimə bir həqiqəti də başa saldın, qızım... Sən

demə, bizim dərmanlardan da güclü bir dərman varmış həyatda... Qadın nəfəsi...

## KÜRD GÖZƏLİ

Yayın ortaları idi. Havalar isti keçirdi. Bürküdən nəfəs almaq olmurdu. Səmaya elə bil tozlu-torpaqlı tül çəkilmişdi...

Belə vaxtlarda işdən yorğun gəlirdim. Evə çatan kimi çay-çörəkdən əvvəl soyuducudan bir stəkan sərin su içib divana uzanmağa, tranzistoru sinəmin üstünə alıb, dalğaların səsləndirməyə, mürgüləyə-mürgüləyə xəyala dalmağa bir növ adət etmişdim...

Yenə divana uzandım. Tranzistorda oxunan bir xalq mahnısının məlahətli sədaları süzülüb otağıma doldu:

Kürd qızı oturub toxuyur xalı,
Onu sevən neylər dövləti malı...

Müğənni həvəsə gəlib məlahətli səsi ilə kürd gözəlini vəsf edir, onun şə'ninə xoş sözlər deyirdi. Birdən bu e'cazkar səs mənim xəyalımı çəkib uzaqlara, çox uzaqlara apardı...

Onuncu sinifi təzəcə bitirmişdim. Bədəncə zəif olduğum üçün xalam məni özü ilə yaylağa apardı. Səhər yatağımdan lap erkən qalxdım. Pəhləvanlar kimi çiyin-çiyinə verib bir-birinə söykənən dağların hərəsi bir rəngə çalırdı. Çoxunun belinə elə bil ağ duman laylarından qurşaq bağlanmışdı. Kiminsə qadir və qüdrətli əli müxtəlif güllərdən, çiçəklərdən, otlardan nəhəng bir xalı toxuyaraq dağların yamaclarına, təpələrin döşlərinə sərmişdi. Üfüqdən boylanan günəş özünün ilk qızılı örpəyini uzaqlardakı dağların ağ zirvəsinə təzəcə çəkməyə başlamışdı. Dərələrdən qıjıltı ilə axan dağ çaylarının səsi, güllərin, çiçəklərin xışıltısı, quşların nəğməsi bir-birinə qarışaraq sirli bir aləm yaratmışdı...

Əllərimi boynumun arxasında birləşdirib, sinəmi irəli verdim, dərindən nəfəs aldım. Bu adi hava deyildi, ətirli, ləziz ne'mət idi. Sonra yerə uzanıb bir neçə dəfə sağa-sola yumbalandım, üzümü güllərə, çiçəklərə toxundurdum. Min bir ətir dağ havasına qarışıb ciyərimə doldu. Elə bil bir anlığa bihuş oldum, arxası üstə çevrilib gözlərimi yumdum, xumarlandım. Gözlərimi açanda başımın üstə aydın göy qübbəsini gördüm. Böyük alça çiçəklərinə oxşar ağ buludları elə bil kimsə bir-bir kəsib mavi parçanın üstünə quramış, sonra onu ucları görünməyən bir çətir kimi bu dağların, dərələrin üzərinə sərmişdi.

Birdən xalamın hay-küyü məni şirin xəyallardan ayırdı:

— Vahid, qoyma, buzov qaçdı!..

Cəld yerimdən sıçrayıb ayağa qalxdım. Bədəncə gümrah arvad olan xalam yanlarını basa-basa alaçığın başına hərlənən buzovu qovurdu. Quyruğu əlimə keçən buzov dal ayaqlarını cütləyib sinəmə bir təpik vurdu və üzüyuxarı götürüldü. Bir göz qırpımında alaçıqdan uzaqlaşdı.

Xalamın bu dəfə həyəcanlı səsi obanı başına götürdü:

— Evim yıxıldı, heyvancığazımın burnu yeləndi... Kömək edin!..

İşi belə görən xallı inək də böyürdü, dartınıb yerə bərkidilən mıxı çıxartdı, sonra boynunu irəli uzadıb matdım-matdım balası qaçan tərəfə boylandı. Alaçığın qapısında yatan Alabaş da bir-iki ağız hürüb kiridi.

Mən heç nəyə fikir vermədən, xalamın harayına məhəl qoymadan buzovun dalınca götürüldüm. O getdi, mən getdim. O qaçdı, mən qaçdım. Nağıllarda deyildiyi kimi, "az getdik, üz getdik, dərə, təpə düz getdik..." Axırıncı təpəyə iməkləyə-iməkləyə dırmandım. Qıçlarımı arxamca zorla sürüyürdüm. Yaşıl gədiyin belinə qalxanda qarşımda yaylaqların özünə məxsus yeni bir mənzərəsi gözlərimin qarşısında açıldı. Dağın döşündəki alaçıqların başında bulud karvanı hərlənirdi. Uzaqlarda ağlı-qaralı sürüləri elə bil əllə yamaclara səpələmişdilər. Lap yaxında isə yaşıl otların üstündə yaşlı bir qadın ədəb-ərkanla bardaş qurub əyləşmişdi. Əlindəki naxışlı bir corabı cəld hərəkətlə çin-çin hörürdü...

Gah barmaqları sülüyə, gah sülülər barmaqlarına dolanırdı. Qadının yanında əyləşmiş qız isə güllərin, çiçəklərin, otların rənginə boyanmış müxtəlif ip hörüklərini səliqə ilə açıb yumaq sarıyır, altına saldığı zolaqlı cecimin üstündəki xəlbirə yığırdı.

Arvad məni görcək əl saxladı.

— Gördün, — dedi — Ələmzər, buzovun sahibi gəlib çıxdı.

Qız başını qaldırıb mənə tərəf baxdı. Nəzərlərimiz rastlaşdı. Nağıllarda olduğu kimi dağlar, buludlar bir-birinə qarışıb üstümə töküldü. Özümü ələ alıb ayaq üstə zorla dayandım. Ürəyimdən bir səs axıb qulaqlarıma doldu: "İlahi, belə də gözəl olar?!"

Elə bil ulu rəssam olan təbiət istə'dadının ən kamil vaxtı bu gözəl məxluq üçün qələm çalmışdı. Onun iri qara gözlərinə, qırmızı yanaqlarını döyən kirpiklərinə, tumurcuqdan açılmış körpə nar yarpağına bənzər açıq-çəhrayı rəngli dodaqlarına baxmaqdan doymaq olmurdu. Hələ boy-buxunu, sərv qaməti!..

— Sən bizim Əyricə yaylağına xoş gəlmisən, əcəm balası!.. Qorxma, gəl əyləş... Buzovunu kəsib yeməmişik. Biz o kürdlərdən deyilik!

Ələmzər güldü. Tez ayağa qalxıb əynindəki təmiz, səliqəli, təzəcə tikilmiş ipək paltarının qırışlarını sığalladı, belindəki gümüş kəmə-

ri bərkitdi. Başını qabaq qıçları üstünə qoyub xəlbirin yanında mürgüləyən buzova işarə etdi:

— Ancaq, oğlan, öz aramızdı, buzovun da özün kimi çox qəşəngdi...

O bu sözləri elə şirin, elə mehribanlıqla dedi ki, yorğunluğumu bir dəfəlik unutdum.

— Ay qız, uşağa sataşma, qəribdi, — deyə yaşlı arvad ona göz ağartdı, sonra məni diqqətlə süzdü. — Gəl, bala, gəl əyləş, deyəsən çər dəymiş səni yamanca yorub. Elat uşağına oxşamırsan?!.

Qıza elə baxma, zarafat elədi... İndi onun elə vaxtıdı...

Yaşlı qadın məni xeyli sual-cavaba tutdu...

Hər şeyi yerli-yerində danışdım. Ələmzərin gətirdiyi sac lavaşı ilə bulamanı necə yediyim indi də yadımda deyil.

Ələmzər yaşlı qadının bacısı qızı idi. Bir ay olardı ki, igid çobanlardan Eldərya adlı birisinə könül vermişdi. Daha bu sözlərdən sonra yaşlı qadının danışıqlarının heç biri yadımda qalmadı. Bircə ona imkanım oldu ki, Ələmzərin sualına cavab verib adımı dedim:

Vahid.

Ələmzər zarafata keçdi:

Adın da qəşəngdi! Oğluma demirəm, nəvəmə sənin adını qoyacağam.

Yaşlı qadın göz ağartdı:

— Ay qız, dilotu yemisən?!

Ələmzər qəhərləndiyimi hiss etcək, qəhqəhə çəkərək güldü, güldükcə də qəlbimə odlar ələdi... Axı ürəkdən gülməyi hər adam bacarmaz. Bunun özü də bir gözəllikdi, xüsusən qadın üçün... Qəhqəhə çəkib gülmək isə bu dağlar gözəlinə yamanca yaraşırdı: ətli yanaqlarında xoşa gəlim batıqlar görünürdü. Adama elə gəlirdi ki, qayalardakı kəkliklərin səsi bulaqların zümzüməsinə qarışıb onun dodaqlarından axırdı...

Mən demək olardı ki, əfsunlanmışdım...

Elə bu vaxt təpənin arxasında at kişnərtisi eşidilirdi. Ələmzərin şirin təbəssümlü sifəti birdən tutqunlaşdı. İri gözlərini dolandırıb yan-yörəsinə boylandı. Yaşıl gədikdə süvarinin əvvəlcə papağı, sonra özü, daha sonra isə atı göründü.

Atlı xalamın əri idi...

Əyricə yaylağında kürd gözəlinə rast gəldiyim o xoş gündən çox, necə deyərlər, bir igidin ömrü qədər vaxt gəlib keçib. Bu illər ərzində çoxlu şəhərlər gəzib, ölkələr dolaşmışam. Vatikan muzeylərində İntibah dövrü sənətkarlarının onlarla məhşur madonna tablolarına tamaşa etmişəm, dünya gözəli Cokondanın rəsmi qarşısında uzun müddət xəyala dalmışam. Hər yerdə qərarım eyni olub: "Yox, Ələmzər da-

ha gözəl idi..."

Bu illər ərzində saysız-hesabsız gözəllərə rast gəlmişəm, həmişə də özümdən asılı olmayaraq Əyricə yaylağının qənirsiz dilbəri yadıma düşüb, yenə ürəyimdən bir səs gəlib: "Yox, bunların heç biri Aləmzərə oxşamır..."

Bəlkə də bu nəcib və ülvi hisslər həddi-büluğa təzəcə çatan bir oğlan uşağının gözəllər barədə ilk təəssüratından doğan yersiz mübaliğə idi. Yox, dilim indi də belə deməyə var gətirmir. Mübaliğə deyildi, həqiqət idi, özü də inkaredilməz həqiqət!

Bir neçə ilin söhbətidir. Şəhərdəki texnikumlardan birində işləyirdim. Qəbul imtahanları təzəcə qurtarmışdı. Belə vaxtlarda adətən direktorun işi bir az yüngülləşir, otağına sərbəst girib çıxa bilir. Otağa təzəcə daxil olmuşdum ki, qapıda dağlı geyimində olan qoca bir qadın göründü. Salam verdi, icazə istəyib içəri keçdi. Oturmaq üçün yer göstərdim.

— Eşidirəm bacı...Nə qulluq?

— Qul sahibi olasan, a qardaş!..Çox sağ ol ki, mənim nəvəmi məktəbinə qəbul eləmisən... Ancaq bir təvəqqəyə gəlmişəm. Bilirsən, bizim buralarda heç bir qohumumuz, simsarımız yoxdu. Uşaq da bir az qəlbi sınıqdı, atası müharibədən qayıtmayıb... Təvəqqəm odur ki, münkünatın olsa, ona yataqxanada qalmağa da yer verəsən. Adı da Vahiddi... Vahid, çoban Eldərya kişinin nəvəsi...

— Qadın sözünü qutaran kimi masamın üstünə naxışlı bir corab qoydu və utana-utana əlavə etdi: — Bunu da bacı payı bil... Deyirlər indi şəhərlərdə qədim naxışlı corabı çox geyirlər...

Başımı qaldırıb diqqətlə qadına baxdım. Elə bil hirslənəcəyimdən ehtiyat edib bir az geri çəkildi. Birdən özüm də bilmədən onun dediyi adları təkrar etdim: "Vahid, Eldərya... "Hələ bunların yanına bir adda qoşdum: "Aləmzər..."

Qadın təəccüblə bir də mənə baxdı, stulda əyləşdi. Mən də onu başdan ayağa gözdən keçirdim. Yanılmamışdım, o idi, Aləmzər idi. Ancaq amansız illər öz işini görmüşdü. Hər şey dəyişilmişdi. Bircə gözlərindən başqa. Axı, göz dəyişilmir, qocalmır...

Mən Əyricə yaylağındakı ilk görüşümüzü yada saldım. Qadın bir müddət məni təzədən başdan-ayağa nəzərdən keçirdi, sonra başına örtdüyü qara kəlağayısı ilə gözlərini sildi. Biz bir-birimizə heç nə demədik, hər şey aydın idi. O, dərindən köks ötürdü, mənimsə sinəmdən yanıqlı bir ah qopdu. Axı deyərlər qocalığın bir sədaqətli yoldaşı var: "Ah-vay..."

İstədim çığıram ki, "Yox, qarı, sən yalan danışırsan, sən Aləmzər deyilsən! Bir də başımı qaldırıb baxdım. O, gözlər, o mehriban baxışlar yerində idi. Sözlərim tıxanıb boğazımda qaldı. Qulağıma qəfil-

dən səs gəldi: "Vahid aldanma, axı sən dünya görmücən, zamanın bərkinə, boşuna düşmüsən, müxtəlif sifətlərə baxmısan... Bu qarı elə sənin tanıdığın Aləmzərdir. Onun nə günahı var ki, illər yaman tez gəlib keçib!.. Özü də elə illər ki, onların həftələri, ayları bir yana dursun, bir gününü belə geri qaytarmaq olmaz. Onlar uzaqda, çox uzaqda qaldı, əlçatmaz, ünyetməz uzaqda!... "Adımı nəvəsinə verdiyi üçün Aləmzər arvada minnətdarlıq etdim, balaca Vahiddən doğma balam kimi muğayat olacağıma söz verdim. Naxışlı corabı isə ən əziz yadigar kimi saxlayacağımı, hər dəfə ona baxanda Əyricədə mənə sataşan Aləmzəri yada salacağımı bildirdim. O, qapıdan çıxanda dönüb mənə bir də baxdı, kəlağayısının uclarını yenə gözlərinə sıxdı...

Həmin gün əlimi ağdan-qaraya vurmadım. İşdən həmişəkindən yorğun əzgin qayıtdım. Divana uzanıb, tranzistoru sinəmin üstünə qaldırdım. Bu dəfə "Kəsmə şikəstə" oxuyan müğənni qızın səsi otağıma doldu:

Bir ayrılıq, bir ölüm —
Heç biri olmayaydı...

Ürəyimdən qəribə bir hiss keçdi:" Ay adı bizə mə'lum olmayan hörmətli el sənətkarı, sən bu yanıqlı mahnını bəstələyəndə "ayrılıq", "ölüm" sözlərinin yanına bəs"qocalıq" sözünü niyə yazmamısan?.."

## NAZLI NƏNƏMİN NAZBALIŞI

Mənim nənəm kimi nənə yer üzündə az tapılar. Nağıllardakı xeyirxah qarıları, çətin ayaqda ərini əvəz edən arvadları, övladları üçün kirpikləri ilə od götürən, canını qurban verməyə hazır olan anaları kim görmək istəyirsə buyurub bizə gəlsin, mənim dadlı, duzlu, nazlı nənəmə baxsın.

Nənə deyəndə elə fikirləşməyin ki, gələnlərə beli bükülmüş, ovurdları batmış, buradan durub orada oturunca, "qırğı vurub Şirvanı aşana" bir qarı göstərəcəyəm. Xeyr, mənim nənnm gümrah bir arvaddı. Ətli çiyinləri, yoğun biləkləri var. Rəngi də göz dəyməsin, innab kimi qıpqırmızıdı. Yeriyəndə az qalır ayağının altında yer titrəsin. Doğrudur, saçları tamam ağarıb, ancaq bu, onun nurani sifətinin gözəlliyini bir az da artırıb. Ona baxanda ilin bütün fəsillərində zirvəsində qar saxlayan dağlar yadıma düşür. Hələ gözlərini demirəm: qayğılı, dupduru, ağıllı... Bir balaca diqqətlə baxsanız və çox yox, yarımca əsr geri qayıtsanız iri qara gözlü, sağlam gözəl bir kəndli qızı görərsiniz. Bilirsiniz, nənəm deməsə də, Tural kəndinin başqa ağbirçəklərindən eşitmişəm ki, rəhmətlik babam Hilal kişi onu ilk dəfə Yarpızlı bulağın başında görəndə elə ilk baxışdan onun gözlərinə vurulub. Bir sirri də

gizlətmək istəmirəm. Yaşdan söz düşəndə, o da başqa arvadlar kimi, özünü deyəsən eşitməməzliyə vurur...Amma, atalar demişkən məsələ yaşda deyil, başdadı. Nənəmin də ki,başı çox bəlalar çəkib. O, çox yoxuşlar qalxıb, çox enişlər enib...hə, yaşdan söz düşəndə deyər:" Ay bala, yaşım nəyinizə gərəkdi?... Belə Nikolayın xoruzu qoltuğuna verilən ili zurnaçı Adıgözəl toyumu çalıb..."

Yeri gəlmişkən deyim ki, nənəmin bir az baməzəliyi də var...

Ona-buna xoş niyyətlə sataşmağı, görkəminə, davranışına baxıb ayama qondarmağı xoşlayır. Məsələn, kənddəki kolxozun qaraqabaq briqadirinə "Qısırəman Cəlil", əliəyri mağazaçıya "Çertvert Heydər", əri lotareya ilə "Juquli" udan xalası qızına "Latareya xanım", özünü dartıb kənddə xüsusi əda ilə gəzən milis işçisinə "Piştovlu doydaq" deyər. Hətta saxladığı toyuq-cücəni incidən xoruza da ad qoyub:"Fatma müdiri"...

Birdən fikrinizə gələr ki, nənəmi nə üçün belə tə'rifləyirəm? O ki, onu-bunu lağa qoyan, hərəyə bir loğaz

qoşan arsızın biridir! Yox, elə deyil. Mənim nənəmin ağır günləri də olub...O, qanlı-qadalı illər də görüb... Elə vaxtlar da olub ki, bir hücrəyə çəkilərək gücü ancaq göz yaşlarına çatıb. Ancaq nənəmdə kişi dəyanəti, hər bir dərdə qəribə dözümlük əzmi var...bunlara baxmayaraq həmin günlərdən söhbət düşəndə nənəmin təbəssümlü sifəti göy üzü kimi tutulur, gözlərinə kölgə qonur. Yazıq arvad odsuz-közsüz alışıb-yanır, sinəsindən çox nisgilli ahlı-amanlı fəryad qopur. Axı müharibə onun da evinin astanasından içəri ayaq basıb. Nənəm bir üzü qız, bir üzü gəlin, kişi işlərindən yapışıb, oğlanları Qadirlə Nadiri, qızı Gülnazı sağlam, nisgilsiz böyüdüb, oxutdurub, şəhərə yola salıb, hətta deyib: "Bakıda qalın, orada irəli gedərsiniz..."

İndi bildiniz ki, nənəmin iki oğlu, bir qızı var. Deməli, iki gəlini, bir də kürəkəni olmalıdır. Bu həqiqətən də elədir. Böyük dayım tibb institutunda oxuyanda özü ilə bir yerdə təhsil alan Səlimə dayıdostu ilə evlənib. Kiçik dayım Nadir isə mühəndis işlədiyi zavoda konsert verməyə gələn Nurcahan adlı müğənni qıza vuruldu. Dayıma vurulan Nurcahan da onun tə'kidi ilə səhnədən əl çəkib, əmanət kassasında işə düzəlib. Sonra dönüb olublar ömür yoldaşı.

Nənəmin qızı Gülnaz, yə'ni mənim anam bir az səbirsiz çıxıb. Tibb institunun birinci kursunu bitirib, ikinciyə adlayanda cavan bir inşaatçıya, yə'ni indi mənim atam olan Səmədə vurulub, könül verib... Təhsil də həmin vaxtda yaddan çıxıb, sonra atamın dərzi atelyəsində usta işləyən xalasının yanına düzəlib. Gələcəyin həkimi dönüb olub dərzi. Nə olar, anam özü deyən kimi "hamı həkim olmaz ki! Dərziliyin özü də həkim kimi bir peşədi. İkisi də insanlara lazımdı. Həkim xəstəni sağlam görəndə nə qədər sevinirsə, mən də tikdiyim paltarı

müştərimin əynində görəndə bir o qədər şad oluram...

Yəqin bilmək istəyirsiniz ki, bəs mən kiməm? Əslində mən nənəmin nəvəsiyəm. Ancaq adım nədir, qızam ya oğlan?... Əvvəla, deyim ki, nənəmin beş nəvəsi var: dördü qızdır, biri oğlan. Qızlardan ikisinin adı Qədir dayımın pasportuna yazılıb. Biri də vaxt gələndə, Nadir dayımın evindən gəlin gedəcək. Qaldı biri,o da mənim dəymədüşər bacım Lalədir. O ki, qaldı mənə, mən ərə getməyə tələsib təhsilini yarımçıq qoyan Gülnazın və bir də nənəmin yeganə kürəkəni Səmədin oğlu, dayılarımın yeganə bacıoğlusu Rəşidəm. Nənəm özü məni vəkil eyləyib ki, maraqlanan adamlara onun barəsində bə'zi-bə'zi mə'lumat verim. Ancaq oğlan olduğum üçün yox. Məni nəvələrinin hamısından çox istədiyi üçün də yox. Mən onu çox istədiyim üçün, onun hər qulluğunda bir əsgər kimi həmişə hazır dayandığım üçün, necə deyərlər, əlimdə yağım daşsa da, adi istəyinə bir göz qırpımında əməl etdiyim üçün, ona böyük qayğı və ehtiram göstərdiyim üçün. Axı nənələrin qəlbi çox kövrək olur. Bir vaxt o mənim qəlbi kövrəkliyimi duyduğu kimi, mən də onun ürəyindən nələr keçdiyini dərhal hiss edirəm. Bilirəm ki, adi bir ehtiyatsızlıq, nəzakətsizlik, ətəri bir saymazyanalıq onun şam kimi yavaş-yavaş əriyib incələn qəlbinə toxunar.

Doğrudur, mən hələ cavanam, bərgə-boşa düşməmişəm. Dünyanın dolaşıq işlərindən də başım o qədər çıxmır. Ancaq, nənələrimizi yaxşı tanıyıram, bəlkə də bu il daxil olduğum institutu bitirəndən sonra nənələrimiz barədə tutarlı bir kitab bağlayım. Çünki ağlım kəsəndən nənələrə e'tinasız olanlara vicdansız adamlar kimi baxmışam. Hələ bir mütəfəkkirin haradasa oxuduğum sözünü də yadımda saxlamışam: "Vicdansızlıq əqidəsizlik kimi bir şeydir. Əqidəsizliyin sonu isə xəyanətdir!.."

Sizə agah oldu ki, mən nənəmi nə qədər çox istəyirəm? Bəlkə də buna görə ondan teleqram gələndə hamıdan çox şadlanan, sevinən mən oldum. Nənəm çox qısa bir teleqram vurmuşdu:" daha kənddə qala bilmirəm. Bakıya gəlirəm, bazar günü qarşılayın. Öpürəm sizin hamınızı. Nazlı".

Qohum-əqrabamızdan kimin sevinib, kimin sevinmədiyini deyə bilmərəm. Burada nənəmin Turalda yaşayan uzaq qohumlarından birinin-kənd məktəbinin müəllimi atama bir dəfə zarafatla dediyi söz də yadıma düşdü:" Necə ki, kəndlə şəhər arasındakı fərq aradan qaldırılmayıb, kəndlinin borcudur ki, şəhərli kəndə gələndə onu qonaq eləsin...Şəhərə gedəndə isə kəndlinin borcudur ki, şəhərlini tapsın, onu bir yerdə yenə qonaq eləsin..."

Birdən öz-özümü məzəmmət elədim. Axı mənim nənəm qonaq deyildi, bizim ən əziz adamımız idi, ağbirçəyimiz idi. Bəli teleqram əldən-ələ gəzdi, telefonlar tez-tez zəng çaldı. Bu da səbəbsiz deyildi.

Nənəm bütün ömrünü Arazın sahilində yerləşən səfalı Tural kəndində keçirmişdi. Ərə gedənə qədər nə qatara minibmiş, nə də avtobusa. Bircə dəfə babam onu Hüseynqulu kişinin faytonuna mindirib vağzala aparıbmış ki,"poyezə baxsın..."

Ancaq bir dəfə Qədir dayımın xəstələnib Bakıya getdiyindən xəbər tutan nənəm gah avtobusa, gah yük maşınına, gah da taksiyə minib dabanbasmaraq Bakıya necə gəlirsə, sonralar bunu özünəməxsus yumorla elə danışardı ki, qarnımızı tutub gülərdik. Oyunun olsun, nənə!

Beləliklə də tilsim qırılır, Bakıya gediş-gəliş başlanır. Ancaq nə vaxt gəlirdisə nənəm bir həftədən çox Bakıda qalmazdı. Elə evdikiləri də təəccübləndirən bu idi.

Bəli, hamımız yığılıb nənəmin pişvazına getdik. Qədir dayım qoluna qırmızı lent bağlayıb taksi maşınlarının sürücülərinə sərəncam verən, canfəşanlıq eyləyib ora-bura qaçan gödəkboy,qarından saz kişiyə nə cür göz-qaş elədisə o tez yanımıza gəldi, əl verib dayımla görüşdü. Ancq sonra mənə aydın oldu ki, bu görüş tamam başqa məqsəd daşıyırmış. Dayım həmin adamın əlinə nəsə ötürdü. O, da başının işarəsi ilə bildirdi ki, hər şey istədiyiniz kimi olacaq. Beləliklə mənim taksi dayanacağında durub növbə gözləmək məsələmə son qoyuldu. Oğlan nəvəsi olmağın belə-belə işləri də var, axı!..Dayım hamımıza izah etdi ki, üç taksi bizi gözləyəcək. Arxayın perrona çıxdıq. Nadir dayım məni əl arabası ilə şey-şüy daşıyanların dalısınca göndərdi. Don Kixota oxşar uzundrazın birini tapıb gətirdim. Lap nənəmin "piştovlu doydaq" dediyi milis nəfərinə oxşayırdı. Hələ üstəlik tez-tez də burnunu çəkirdiü. Sir-sifətindən bilinirdi ki, bərk araqbazdı. Dayım ona da beh verib başa saldı ki, qarşılacağımız adamın ayın-oyunu olacaq. O da yanımızı kəsdirib heç yerə tərpənmədi.

Mən fikir verdim, qohumların hərəsinin üzündə bir ifadə var idi. Yeni tamaşaya hazırlaşan artistlər kimi hərə bir rola girmişdi. Dayılarımın sifətində ayaz havası dolaşırdı. Dayıdostularımın əhvali-ruhiyyəsindən asılı olaraq kefi gah durulub, gah pozulurdu. Anamın üzü yayın ilk günlərinə məxsus səma kimi dupduru idi. Dayıdostularımı isə elə bil kimsə biyar işləməyə gətirmişdi. Bircə atama afərin! Dayım qazları ilə zarafat edir, deyib gülürdü.

Bir az keçəndən sonra qatar perrona daxil oldu. Nənə qapıların birində göründü. Qoltuğunda da kiçik bir nazbalış.

Hamımıza elə bil komanda verildi, həmən qapıya tərəf yüyürdük. Təkcə Səlimə xanımla Nurcahan xanım ayaqlarını sürüyə-sürüyə gəlirdilər. Özlərini də elə göstərirdilər ki, guya platforma ayyaqqabıları addımlarını gen atmağa mane olur. Ancaqdesəydilər ki, univermaqda importnı şey satırlar,

ikisi də məndən bərk qaçardılar.

Nə isə, sarıgözlü, qırmızıbığlı, qara"əjdaha" dayanan kimi nənəmin üstünə özünü ilk atan çəkicə hamıdan yüngül anam oldu:març,març,març!.. Ancaq Səlimə xanım, Nurcahan xanım nənəmlə öpüşəndə heç bir "març" səsi eşidilmədi...

— Ayın-oyunun hansı kupedədi, ana? — Qədir dayım soruşdu.

— Bala, heç bir ayın-oyunum yoxdu... Bu nazbalışdan başqa. — Nənəm qoltuğuna işarə etdi. Sorğu-sual da bununla bitdi. Qədir dayım Don Kixota oxşar adamın qolundan tutub bir az kənara çəkdi.

Qohum-əqrəba çönüb bir-birinə baxdı. Axı nənm heç vaxt şəhərə belə əliboş gəlməmişdi. O, hər dəfə gələndə dayıdostularımın bir həftəlik bazar xərcləri qalardı özlərinə. Nənəm bizi də yaddan çıxarmazdı. Ancaq anam onun gətirdiyi sovqatın çoxunu böyük həvəslə qoqum-qonşuya pay verərdi.

"Bu arvada nə olub? Bir nazbalışı da vurub qoltuğuna ki, atabaşının altına?.." Əlbəttə, bu hisslər ancaq iki nəfərin ürəyindən keçə bilərdi. Düzü, onlar bu barədə bir kəlmə də kəsmədilər, ancaq mən dayıdostularımı yaxşı tanıyırdım. Bu giley-güzarı onların üzlərindən oxumaq, baxışlarından sezmək çətin deyildi.

Hamımız keçib maşınlarda yer-yurd olandan sonra Qədir dayımgilə üz qoyduq.

Bəli, bellərinə şahmat taxtası kimi dama-dama kəmər "bağlanmış" üç taksi bir-birinin arxasına düzüldü. Kanardan baxan olsaydı, deyərdi, bəs nənəmi təzədən rəhmətlik Hilal kişiyə gəlin köçürürlər.

Evə çatdıq. Hələ süfrə açılmamış anamın dili dinc durmadı: həmişə olduğu kimi burada da qabağa düşüb tələsdi:

— Ay ana, — dedi,— səndən görünməyən iş, heç dinib danışmırsan?

Divanın üstündə əylşşib nazbalışı dirsəyinin altına qoyan nənəm çönüb mənə baxdı. Belə vaxtlarda elə bil məni köməyə çağırardı. Mən də onun əvəzindən ya cavab verər, ya da lazım olan şeyi izah edərdim. Ancaq bu dəfə mən nə deyə bilərdim?..

— Heç...Fikirləşirəm ki, oğru kim ola bilər?

— Nə oğru?!— deyə hamımız soruşduq. — Oğru kimdi?!

— Çamadanlarımı, bağlamalarımı oğurlayan qansız!..Nənəm əhvalatı yerli-yerində nəql etdi. Mübahisə başlandı, nə başlandı.

Dayılarım nə cür fikir söylədilərsə dayıdostularım e"tiraz etdilər. Sonra dayıdostularım nə dedilərsə, dayılarımı razı sala bilmədilər. Söhbət nəhayət bununla bitdi ki, "nənəmin malını oğurluyanın qolu qırılaydı."

Yaxşı ki, anam süfrəni açıb çaya də"vət etdi. Bir azdan sonra isə yemək süfrəsi açıldı. Sənə min bərəkət ay süfrə, həmişə açıq olasan!..

Elə bil dəvətnamə göndərib hamını bir yerə topladılar. O biri otaqlarda öz işlərinə başları qarışan dayıqızlarım da tez gəlib yerlərini tutdular. Hazıra nazir olmaq yaxşı şeymiş!..

Nənəmin də kefi get-gedə duruldu, eyni açıldı. İndi nənəm nəzərimdə qollu-budaqlı qocaman bir çinara oxşayırdı. Gizli bir kəks ötürdü. Bəlkə də babam Hilal kişini xatırladı... Axıdeyərlər ömür dostunu itirən ana qartal hər dəfə balalarını qanadı altında alanda cənub sıldırım qayaların zirvələrinə baxar...

***

Deyəsən günlər ağır keçirdi. Hiss edirdim ki,.nənəmin kənd üçün, həyət-baca üçün ürəyi darıxır. Elə bil çöl göyərçini tutub salmışdılar qəfəsə. Hər dəfə qapını açıb içəri girəndə, elə bil arvada dünyanı bağışlayırdım. Axı nənəmi Qədir dayımgildən gəzməyə çıxaran, ora-bura aparan ancaq mən olurdum. Nənəm də ki, öz növbəsində hər şeyə maraq göstərirdi. Daha doğrusu Bakının tarixi haqda biliklərini artırırdı:"Qız qalası" nə vaxt tikilib? Bəlkə heç "Qız qalası" deyil, "Göz qalası"dır?

Yenə bazar günü idi. Nənəmin öz sevimli nazbalışı ilə birlikdə şəhərə varid olduğu gündən bir həftə keçirdi. Mən.qapıdan girən kimi əl uzadıb görüşdü, boynumu qucaqlayıb üzümdən öpdü.

— Saqqalın ağarsın, ay bala! — dedi.

— Dünən məni ço gəzdirdiyin üçün xamlamışam...Qıçlarım yımınca ağrıyır.— Dirsəyini nazbalışın üstündən çəkdi, divandan qalxıb üst-başını düzəltdi, yan otağa keçdi. O otaqda dayıqızlarım məşğul idilər. Böyük dayıqızım pianoda hansı bəstəkarınsa bir prelüdünü çalır, bacısı ilə mübahisə edirdi. Nənəm asta addımlarla, daha doğrusu, pəncələrini üstə yanları mavi ağ kələğayısı əlində qayıtdı. Həmin kələğayını atam keçən il Şəkidən alıb gətirmişdi və kəndə gedəndə nənəmə hədiyyə aparmışdıq. Deyəsən, nənəm mənim xoşuma gəlmək üçün gəzməyə gedəndə həmişə həmin kələğayını örtürdü.

Qədir dayım əlindəki qazeti mizin üstünə qoyub bizə baxdı, sonra xəbər aldı:

— Bu gün səfər haradı, ana?

— Gedirəm Nadirgilə.

— Nə var ki?!

Qədir dayımın sualı xoşuma gəlmədi. Deyəsən, nənəm də narazı qaldı. Belə vaxtlarda Səlimə dayıdostum söhbətə müdaxilə etməyi xoşlardı. Başı oymasına son dəbdə olan düymələr tikməyə qarışdığına baxmayaraq tez dayıma irad tutdu:

— Sən də qəribə danışırsan,— dedi.

— Özgə yerə getmir ki?

Sən oğlusan, o yox?

Sual-cavab da bununla qurtardı. Dayım tez kiridi və qazeti əlinə alıb gözünə tutdu. Hiss olunurdu ki, heç nə oxumur, elə-belə vərdiş eləyib, vaxt keçirir.

Nənəm nazbalışı divanın üstündən götürüb mənə verdi..Səlimə-xanım qəribə bir əda ilə dayıma baxsa da məhəl qoymadı. Q ə d i r dayımdan görünməyən iş!

Biz,nənə-nəvə otaqdan çıxdıq.

Günlər ötdü. Eyni söz-söhbət gələn bazar günü Nadirdayımgildə baş verdi. Hələ üstəlik kiçik dayıdostum tündməcazlığını nümayiş etdirib qapıdan çıxanda nənəmin üstündə çımxırmağıda unutmadı: "Ay arvad! — deyə sifətini turşutdu.— O nazbalışa nə yaman vurulmusan? Onu bu mikrorayondan o mikrorayona çox daşıyacaqsan? Getdiyin yerdə bir pədüşkə yoxdu atalar başuvun altına?.."

Əlbəttə, söz elə oradaca qaldı.

Nənəm dayılarımın canına ad vermişdi ki, eşidib gördüklərim barədə heç kimə, hətta anama da bir kəlmə deməyim...

***

Bəxtimiz gətirdi, dayanacaqda çox gözləməli olmadıq. Özümüzü avtobusa saldıq. İçəri tündlük idi. Nənəmi bütün gücümlə "qəfil həmlələrdən" qorumağa çalışırdım. Tələbə yoldaşlarımdan biri köməyimə çatdı. Ayağa qalxıb yerini nənəmə verdi. (sən demə tanışlıq avtobusda da adama gərək olarmış!) Nənəm yerini rahatlayan kimi nazbalışı məndən alıb dizlərinin üstünə qoydu. Saçı uzun oğlanlara, oyması qısa qızlara xüsusi maraqla tamaşa etməyə başladı. Yaşına uyğun tərzdə geyinməyən bərbəzəkli arvadlara baxanda isə altdan-altdan qımışıb mənə göz vururdu. Bilirdim ürəyindən nələr keçir: " Ay oğul, sənin bu yerlilərinin hərəsinə elə ayamalar taparam ki, əlləri ağızlarında qalar, dadı damaqlarından getməz!.." Çay-çörəkdən sonra atam sərəncam verdi:

— Hə, indi hazırlaşın, buyuraq çimərliyə!

Deyəsən, aiamın sözlərini başa düşmədi nənəm, yenə çönüb mənə baxdı. Başa saldım ki, dəniz kənarına, camaatın çimdiyi yerə belə deyirlər. Şəhərlilər isti yay günlərində öz istirahətlərini orada keçirirlər.

Neçə vaxtı çöl-bayır, bulaq-göl görməyən nənəmin sifətindəki sərtlik birdən yoxa çəkildi və bizimlə getməyə razı oldu...

Çimərliyə çatanda yazıq arvadın əli üzündə qaldı. Niyə də qaomayaydı, harada, nə vaxt belə həngamə görmüşdü?

— Çox sağ olun! — Atama, anama məzəmmət etdi. — Məni niyə bu quleybanilərin içinə gətirdiz?! Heç ayıb deyil? — Anama təpindi. — Utanım yerinə!..

Arvad dördgöz olmuşdu. Gah ora baxırdı, gah bura. Çılpaq kişi xeylağı görəndə isə üzünü yana çevirir, başını sinəsinə endirirdi. Hərdən bir də barmaqlarını yanağı aşağı çəkir, yumruğunu ağzına dayayıb harasa matdım-matdım tamaşa edirdi. Bilirdim ki, ürəyində deyir: "Abır-həyanız tökülən yerdə ətiniz töküləydi!.."

Atam da, anam da bir-birinə baxıb qımışırdılar. Hətta anam bizə him-cimlə başa saldı ki, bu dəfə çimməyək. Bunu mən hələ evdən çıxanda hiss etmişdim. Lalə onun çimərlik paltarını çamadana qoyanda nənəmə işarə edib, göz basmışdı və paltarı cəld götürüb çarpayının altına tullamışdı.

Çimərlikdəki qələbəlik get-gedə artırdı. Elektrik qatarları adamları dəstə-dəstə gətirib isti qumun üstünə boşaldır, avtobusların arası kəsilmirdi. Müxtəlif yaşlı, müxtəlif geyimli, müxtəlif biçimli şəhərlilərin hay-küyü sahili başına götürmüşdü. Ağız deyəni qulaq eşitmirdi. Nənəmin nəzərləri birdən ayrı səmtə yönəldi. İndi onu ən çox maraqlandıran şəxsi maşınlardan düşən ailələr idi. Əntiqə geyimli qadınlar, gzlərini gülməli şəklə salmış kişilər, ayağı isti quma dəyən kimi ! Oy, mama!" deyə əzilib-büzülən qızlara nənəm daha çox maraq göstərirdi. Nənəmin gözü yavaş-yavaş gördüklərinə alışır, əhvalı durulurdu. Yanyörəsindəki kölgəliklərin altında yaşlı qadınlar, nəvələrinə xüsusi qayğı göstərən nənələr çoxaldıqca rəngi-ruhu özünə gəlir, təəccübü azalırdı. Bir də axı Turaldan gələn adi bir kəndli qadını yüzlərlə, minlərlə adama ağıl öyrətməyəcəkdi ki?

Dəniz öz işində idi, həyat öz gərdişində. Nənəm özü demişkən: "Palaza bürün, elnən sürün..."

Saniyələr dəqiqələrə dönürdü, dəqiqələr saatlara...

Çimərlikdə adamlar yavaş-yavaş azalırdı. Biz də sahili tərk etməyə Hazırlaşırdıq. Nənəm nədənsə dərin fikrə getmişdi. Yenə də gözləri öz maşınlarına əyləşib bir-bir yola düşən ailələrdə idi.

Anam kənardakı köşkdə paltarını dəyişən atamı tələsdirdi.

— Səməd, bir az cəld tərpən, — dedi, — elektriçkaya çatmarıq.

— Bu saat! — Atam üst köynəyini geyinə-geyinə özünü bizə çatdırdı.

Lalə yenə deyindi:

— Yenə elektriçka!.. İndi bir basabas düşəcək ki, gəl görəsən! Xırd-xəşil olmasaq yaxşıdı! Ata, bu il də "Jiquli" görməyəcəyik?

— Görəcəyik, qızım! Bir az da döz, hər şey düzələcək!

Lalə üz-gözünü turşutdu:

— Elə iki ildi səndən bu sözləri eşidirik!

— Yaxşı, çərənçi olma! — Anam Laləyə təpindi: — Zənbili götür!

Bacım dinmədi. Nənəm çönüb mən mən tərəfə baxdı. Başa sal-

dı ki, atam maşın almaq üçün pul yığır. Özü də neçə ildir növbədə dayanıb. Pulu çatmadığı üçün növbəsini hələ bir neçə dəfə başqasına verməli olub...

Bu dəfə nənəmin nəzərləri uzaqlara, üfüqlə dənizin birləşdiyi yerə zilləndi. Bildim ki, ürəyində anamı məzəmmət etdi: "Uşağı niyə məzəmmətləyirsən? Düz deyir də! Bu böyüklükdə şəhərdə maşınsız keçinmək olar? Keçmişdə deyərdilər kişinin gərək atı ola. İndi də at yoxdu, gərək maşını ola..."

Evə çatan kimi nənəm mənə dedi:

— Bala mənim nazbalışımı bura gətir.

Nazbalışı içəri otaqdan gətirib divanın üstünə qoymaq istəyəndə işarə elədi ki, "özümə ver". Sonra anama dedi:

— Sən də qayçını bəri ver, görüm...

— Qayçı nəyinə lazımdı?

— Lazımdı.

Lalə cəld qayçını gətirib verdi nənəmə. Pəncərənin qabağındakı mizin üstündə çay içən atam da stəkanı nəlbəkiyə qoyub diqqətlə nənəmə baxdı.

— Oğul, Səməd, — deyə nənəm qayçı ilə nazbalışın tikişini sökməyə başladı. — Neçə vaxtdı şəhərdəyəm, görürəm ki, maşınsız keçinmək olmaz. Bir az pul yığmışam, götür onu özünə maşın al!..

Nənəm nazbalışın əvvəlcə üzünü, sonra astarının tikişlərini sökdü, oradan bir düyünçə çıxartdı, açıb içərisindəki dəstə-dəstə qalanmış pulları kürəkəninə uzatdı. Atam tərəddüd etdi:

— Xala... axı! — Nə isə demək istədi, dönüb anama baxdı, o da çiyinlərini çəkdi. Nənəm tə'kid etdi:

— Götür, sizə halaldı.

— Sağ ol, ana! — Anam nənəmin boynunu qucaqladı. Lalə də özünü onların üstünə atdı...

***

İstirahət günləri çimərliyə öz maşınımızla gedirdik. Onu atam idarə edir. Nənəmi həmişə onun yanında əyləşdirirdik.

Maqnitafonu qurub mahnılara qulaq asanda ön şüşənin üstündəki güzgüdə nənəmin sifətinə baxmaq xoşuma gəlir. Maşallah, arvad gözümə yamanca gümrah görünür.

Biz öz aramızda maşına "Jiquli" yox, "Nazbalış" deyirdik. Bu adı ona Lalə qoyub, nənəm də bəyənib. Yaxşı ki, bu sirri nə dayılarım bilir, nə də dayıdostularım...

Ancaq son vaxtlar evimizdə bir balaca nigarançılıq hiss olunur. Nədənsə nənəm kənddən tez-tez söhbət açır...

## MÜNDƏRİCAT

ƏSRİN ONDA BİRİ
(Tarixi roman)........7

HEKAYƏLƏR
Vicdan səsi........365
Kənd həsrəti........373
Təmiz adam........381
Nəciblik........387
Köhnə onluq........389
Şirin xatirə........394
Ana ürəyi........400
Qadın nəfəsi........406
Kürd gözəli........410
Nazlı nənəmin nazbalışı........414

**İbrahimov Hüseyn Məmmədəli oğlu**
SEÇİLMİŞ ƏSƏRLƏRİ.
Bakı. "Gənclik". 1998

Yığılmağa verilmiş 24.02.97. Çapa imzalanmış 11.03.98.
Format 60/84 1/16 Ofset kağızı №1. Tayms qarnituru.
Fiziki çap vərəqi 27,5. Şərti çap vərəqi 28.
Tir.1000. Sifraiş № 575
Qiyməti müqavilə ilə.
Azərbaycan Respublikası Mətbuat və İnformasiya naziliyi.
"Gənclik" nəşriyyatı. Bakı, H.Hacıyev küç.4
1№-li Bakı kitab mətbəəsi. Bakı, Əli Bayramov küç. 3.